Hüseynbala Mirələmov

# Pyeslər

BAKI 2015



Hüseynbala Mirələmov

# PYESLƏR

Redaktoru və ön sözün müəllifi:
İslam Qəribli
*filologiya üzrə elmlər doktoru, professor*

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 488 s.

Kitaba çağdaş ədəbiyyatımızın tanınmış nümayəndəsi, yazıçı-dramaturq və görkəmli publisist Hüseynbala Mirələmovun Azərbaycan xalqının tarixi, müasir durumu, adət və ənənələri ilə qırılmaz şəkildə bağlı olan, səhnəmizdə müvəffəqiyyətlə tamaşaya qoyulub tamaşaçıların və ədəbi ictimaiyyətin rəğbətini qazanan dramları daxil edilmişdir.

ISBN: 978-9952-450-74-9

© H.Mirələmov, 2015

# XARAKTERLƏR DRAMATURGİYASI

Tanınmış ictimai-siyasi xadim, görkəmli alim və elm təşkilatçısı, texnika elmləri doktoru, professor, ən əsası çağdaş ədəbiyyatımızı təkcə Respublikamızda deyil, ölkə hüdudlarından kənarda da ləyaqətlə təmsil edən Hüseynbala Mirələmov gözəl nasir və səriştəli publisist olmaqla yanaşı, həm də əsərləri səhnəmizdə müvəffəqiyyətlə tamaşaya qoyulan, tamaşaçı rəğbəti qazanan dramaturqdur. Hekayə, povest, roman və publisistik əsərlərində olduğu kimi, dram əsərlərində də H.Mirələmovu düşündürən bir nömrəli problem Azərbaycan xalqının varlığı, birliyi, müstəqilliyi və özgürlüyü məsələsidir. İstər tarixi, istərsə də müasir mövzularda yazdığı dram əsərlərində biz yazıçını daima xalqın, millətin istək və arzularının, adət-ənənələrinin, duyğu və düşüncələrinin tərcümanı kimi görürük.

* * *

On üç şəkildən ibarət olan ikihissəlik "Gəncə qapıları" tarixi dramında hadisələr XIX əsrin əvvəllərində, Azərbaycanın Rusiyanın tərkibinə ilhaq edilməsi ərəfəsində Gəncə və Tiflisdə cərəyan edir. Ekspozisiya, bədii müqəddimə rolunu oynayan birinci şəkildə müəllif bizi Cavad xanın qısa tərcümeyi-halı

ilə tanış edir və Cavad xanın yuxusunu verməklə hadisələrin əsər boyu gələcəkdə necə inkişaf edəcəyinə bəri başdan güzgü tutur. Cavad xan 1139-cu ildə qəsb edilmiş, bir tayı Helati monastırının dam örtüyünə istifadə olunmuş, digər tayı gürcü çarı Georginin dördüncü babası Davudun qəbrini qorumaq üçün monastırın Cənub hasarına bərkidilmiş *(kursiv bizimdir – İ.Q.)* Gəncə qapılarını yenidən Gəncəyə qaytarmağı qarşısına məqsəd qoyduğundan, bu fikir yuxusunda da onu rahat buraxmır. O, bu məsələyə şərəf və qeyrət məsələsi kimi baxdığından qarşılaşacağı heç bir maneə onu yolundan sapdıra bilmir. Nə Azərbaycan xanlarının ikibaşlı oyunları *(Cavad xana söz verib əməldə onunla əlbir olmamaları – İ.Q.),* nə ermənilərin məkrli planları, nə gürcü çarı Georginin şərtləri, nə də Qafqaza yeni ordu komandanı təyin olunmuş, qələbə qazananda "rus generalı", məğlub olanda "fərasətsiz gürcü" adlandırılan Sisianovun – Sisişvilinin hədələri onu haqq bildiyi iş uğrunda mübarizədən çəkindirmir.

H.Mirələmovun təqdimatında Cavad xan ağıllı dövlət başçısı, uzaqgörən siyasətçi olmaqla bərabər, həm də mərd, qorxmaz, şərəflə yaşamağı bütün minnətli imtiyazlardan üstün tutan şəxsiyyətdir. Təkcə ətrafı deyil, onu uzaqdan tanıyanlar, hətta düşmənləri belə ona dəyər verir, rəğbətini gizlətmirlər. Əsərin on birinci şəklində Sərdarın gətirdiyi xəbərə, yəni rus qoşunlarının Gəncəni işğal etməsi və Cavad xanın öldürülməsi xəbərinə Cavad xanla düşmən olan Hacı Məlikin reaksiyası dediklərimizi əyani şəkildə təsdiq edir: "Cavad xan mənim şəxsi düşmənim idi, ay bala. O bilərdi, mən bilərdim... Adam var evdən gedir, adam var eldən... Cavad xan eldən getdi... Hamımızı yetim qoydu... Rədd ol gözümün qabağından, qaraxəbər... Gəncə xaraba qaldı... Axırımız necə olacaq, İlahi?!".

Gəncə xanılğının süqutu, Cavad xanın Ramazan bayramı ərəfəsində səngərdə, döyüş başında öldürülməsi, müəllifə görə, Cavad xanın yox, aralarında milli birlik, barışıq olmayan, necə olursa-olsun özlərini qorumağa çalışan, bir amal, əqidə, lider ətrafında birləşməyi bacarmayan Təbrizdən tutmuş Naxçıvana qədər bütün Azərbaycan xanlıqları və xanlarının faciəsidir.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərindəki Azərbaycan xanlıqlarına rəhbərlik edənlərin ümumiləşdirilmiş obrazları kimi verilən Məhəmməd xan, Vəli xan rus çarizminin “Parçala, hökm sür” siyasətini dərindən qavramağa qadir olmayan, vaxtilə general Zubovla əlaqə yaradıb birtəhər başlarını girlədikləri kimi, indi də Sisianovla aranı sazlayıb Azərbaycanın maraqlarını qorumaq əvəzinə, özlərini qorumağı düşünən buqələmun “xancığazlardır”. Onlara baxmış dramdakı gürcü knyazları daha qeyrətli və vətənpərvərdirlər. Cavad xanın Gəncə qapılarını istəməsinə onların reaksiyası birmənalıdır: Ya Gəncə qapıları verilməməli, ya da müqabilində Cavad xandan böyük güzəştlər, ən azından əsirlikdə saxlanılan gürcü əsilzadələri geri alınmalıdır. Azərbaycan xanları isə Cavad xana qohum ola-ola onu Sisianov kimi qorxulu bir rəqiblə baş-başa buraxıb aradan çıxmağı daha münasib hesab edirlər. Təki onların canlarına və xanimanlarına sədəmə toxunmasın.

Cavad xan əsrinin övladı, zəmanəsinin yetişdirməsi olan şəxsiyyətdir. Müəllif onu birtərəfli deyil, bir neçə planda tamaşaçıya və oxucuya təqdim edir. Maraqlı məqamlardan üçünü qeyd edəcəyik. Birincisi, ermənilərin xəyanətkar və ikiüzlü olduqlarını bilə-bilə onların qohumluq əlaqələrini nəzərə alıb Gəncə xanlığı ərazisində ixtişaş salmayacaqlarını düşünüb Astagüllə – erməni qızı Astağınla bir növ siyasət xatirinə evlənməyə qərar verən Cavad xan, Lorisin dili ilə

desək, onun bacısından bir uşaq əmələ gətirmir ki, gələcəkdə ermənilər Gəncə sarayında vəzifə, var-dövlət, miras iştahına düşməsinlər.

İkincisi, onun mərdliyi, vətənpərvərliyi, ölümün üzünə kişi kimi baxa bilməsidir. Sisianovun erməni Lorisin rəhbərliyi ilə göndərdiyi nümayəndə heyətini qapısından qovandan sonra söylədiyi monoloqdan bir parçanı sitat gətirməklə tezisimizin şərhinə ehtiyac görmürük: "Ruzigar pis əsdi. Mənim iki yolum var. Ya təslim olmalıyam, ya döyüşməliyəm. Təslim olsam, ola bilər ki, arvad-uşağıma dəyməsinlər, özümə də sür-sümükdən versinlər, şərəf, namus, qeyrət getsin işinə, camaat yanında hörmətdən düşüm, xəcil olum. Döyüşsəm, əsir düşsəm, yaralansam, ya ölsəm, arvad-uşağıma aman verməzlər, nəvələrimi qılıncdan keçirəcəklər. Yox, mən döyüşməliyəm. Çünki birinci yolun əzabı ikinci yolun əzabından çoxdur. Yox, mən döyüşməliyəm! Qürurum, azadlığım üçün döyüşməliyəm! Vətənim, xalqım üçün döyüşməliyəm!".

Üçüncüsü, Cavad xan qorxmaz bir dövlət xadimi, sərkərdə olmaqla yanaşı, həm də zəka və fəhm sahibi olan uzaqgörən siyasətçidir. Onun Sisianova ünvanladığı "Sizi Qafqaza əcəl gətirib!" bir cümləlik məktubu və Sisianovun aqibətinin məhz bu cür olması dediklərimizə sübutdur.

Sisianov əmrləri yerinə yetirən icraçıdır. Onun üçün millət sevgisi yox, vəzifə sevgisi önəmlidir. Onu Gürcüstanın taleyi deyil, verilmiş əmrlərin necə yerinə yetirilməyi daha çox düşündürür. İllər boyu döyüş meydanlarında gördükləri onun ürəyində mərhəmət hissini öldürüb. Portnyakin, Georgi, Loris və Nona ilə danışıqlarından, tez-tez üşüməsini dilə gətirməsindən bəlli olur ki, taleyindən o qədər də razı deyil və deyəsən, Cavad xanın məktubundakı "Sizi Qafqaza əcəl gətirib" sözləri onu bərk əndişələndirib. On üçüncü şəkildə Sisi-

anovun Cavad xan barədə "Mən onu cismən, o isə məni ruhən öldürüb" etirafı da əsərdəki düşündürücü məqamlardandır.

Dramdakı qadın obrazları içərisində ikisi xüsusi qeyd olunmalıdır. Cavad xanın arvadı Şükufə xanım və gürcü çarı Georginin qızı Nona. Birincisi ərinə sədaqəti və qüruru, ikincisi isə Sisianova alçalsa belə, ondan, onun hakimiyyətindən istifadə etməklə vətəni Gürcüstana yararlı olması ilə seçilir. Bir fərd olaraq Nona ilə Sisianova Cavad xanı nəzərdə tutaraq: "Deyəsən siz onu cismən, o isə sizi ruhən öldürüb" deyən Şükufə xanımı yanaşı tutmaq olmaz. Lakin orası da var ki, Nonanın dilindən Sisianova deyilən aşağıdakı sözlərin də dərin mənası var və onun Sisianovun, bu qoca generalın başına fırfıra kimi fırlanmasının əsl səbəbi məhz bu sözlərin vasitəsi ilə üzə çıxır: "Məni ancaq Gürcüstanın taleyi, itirilmiş torpaqlarımızın aqibəti düşündürür...".

Dramın finalı ruhların – Cavad xanla Sisianovun ruhlarının mükaliməsi ilə tamamlanır. Bakıda – Qala divarlarının önündə Hüceynqulu xan tərəfindən qətlə yetirilmiş Sisianovun başsız bədəni ilə Cavad xanın ruhunun dialoqu, əslində, xeyrin şər üzərində təntənəsi, Helati monastırından Gəncə qapılarını doğma vətəninə aparmağı qarşısına məqsəd qoyan Cavad xanın qələbəsidir.

* * *

İkipərdəli "Pənah xan Cavanşir" dramındakı əhvalatlar İran və Azərbaycan tarixinin çox keşməkeşli və ziddiyyətli bir dövründən bəhs edir. Dramın birinci pərdəsindəki əhvalatlar, əsasən İran ərazisində, Nadir şah Əfşarın hakimiyyəti illərində baş verir. İlk səhnələrdən görünür ki, "Mirzə, qanunları yaradan da mənəm, pozan da mənəm", – deyən Nadir şah doğma qardaşı Fəzləli bəyi qətlə yetirsə də, özünə qarşı düşmənçilik

hissləri görməyən, Hindistan və Əfqanıstan döyüşlərində qəhrəmanlıqlar göstərən qarabağlı Pənahəli bəyə sücaət və igidliyinə görə rəğbət bəsləyir və onu saray əyanları sırasında görmək istəyir. Lakin dolayısı ilə olsa da, onun bu istəyinə qarşı durub narazılığını bildirən tapılır. Vəzir Mirzə Mehdi: "Şahım, mərd kişi çox şeyi unuda bilər, şəxsi hisslərini unudub vətəni üçün qılınc da çalar, amma Pənahəli bəyin vətəni İran deyil, Azərbaycandı, Qarabağdı", – sözləri ilə sanki onu duyuq salmaq istəyir. Mirzə Mehdiyə özünün də türk olduğunu xatırladan Nadir şah şəxsən Pənahəli bəylə görüşmək istədiyini dilə gətirir və əgər onun şahın xidmətindən qaçmaq niyyəti olarsa, haqqında ciddi tədbir görəcəyini bəyan edir. Hiss olunur ki, saray əyanlarının, xüsusilə Məhəmməd xan, Rza xan, Cəfər xanın Pənahəli bəyə, zorla vətənindən ayrı düşmüş bu məğrur şəxsə o qədr də inamları yoxdur.

Nadir şahla Pənahəli bəyin ilk toqquşması "yaxşı xidmətinə görə sultan rütbəsi verdiyi" Qarabağ ermənisi Allahqulunun şahın hüzuruna gəlməsi və Pənahəli bəyin də ora çağırılmasından sonra başlanır. Şahın hüzurunda Cavanşir elatını min cür fitnə-fəsadla Qarabağdan İranın içərilərinə köçürməyə nail olan erməniləri, şahın fərmanı ilə Qarabağın bütün ixtiyarı əlində olan Sultan Allahqulunu xain adlandıran Pənahəli bəy nə qədər özünü saxlamağa çalışsa da, nəhayət, hisslərini büruzə verir və şahın istəyinin əksinə olaraq qardaşı Fəzləli bəyin günahkar olmasını etiraf etmək əvəzinə: "Şah sağ olsun, mən qardaşımı cismən müdafiə edə bilməsəm də, cinayətkar olduğunu etiraf edə bilmərəm", – deyir. Pənahəli bəyin qanunun sərt və aliliyindən dəm vuran Mirzə Mehdiyə söylədiyi aşağıdakı sözlər isə Nadir şahın hövsələsini daraldır: "Qanun nə qədər sərt və ali olsa da, Mirzə Mehdi xan, insanın canavar olmağa haqqı yoxdur".

Bu sözlərdən sonra: "Üsyankarlıqda Pənahəli bəy qardaşından geri qalmırmış", – fikrinə gələn Nadir şah onu: "İran dövləti Pənahəlisiz də keçinər. O, mənə Rzaquludan artıq olmayacaq ki...", – deyərək aradan götürmək qərarına gəlir.

Nadir şahın onu bağışlamayacağı qənaətinə gələn Pənahəli bəy, əslində onun bütün hərəkətlərinə göz qoyub sarayı məlumatlandırmaq üçün ona təhkim olunmuş, lakin Pənahəli bəydəki kişilik, boy-buxun və alicənablığı görəndən sonra ona vurulan Süsənbərin yardımı ilə bacısı oğlu Lütfəli bəy və digər bəylərlə birgə qaçıb canını qurtara bilir. Qaçış ərəfəsində bacısı oğluna dediyi sözlər onun amal və məqsədi, gələcək planları barədə dolğun təsəvvür yaradır: "...Bacıoğlu, vaxt itirməyək, elə bu gecə çıxaq, yol alaq Qarabağa. Vətən bizi ələ verməz, işdi, qismətimiz ölümdürsə, eyb etməz, ölək orada – Qarabağda, Cavanşir elində. Amma biz ora ölməyə getmirik. Lütfəli bəy, torpaqlarımıza yiyə çıxacağıq, düşmənlərimizi xar edəcəyik, inşallah! Nadir şahın istisinə sığınıb Qarabağda çaqqal kimi gödən sökən erməni məliklərini yurdumuzdan qovacağıq".

Dramın ikinci pərdəsindəki olaylar Qarabağda baş verir. Ermənilər hakimiyyətdədirlər, necə deyərlər: "Dərə xəlvət, tülkü bəy". Yeqan, Hüsü, Usub Nadir şahın canına dua edə-edə məlik, Allahqulu isə sultan rütbəsinə yüksəliblər. İçərilərində Şahnəzər adlı birisi də var ki, onlardan fərqli düşüncəyə malikdir. O, Nadirin iltifatına sığınmaqdansa, Qarabağda müsəlman əhalisi ilə yola getməyin tərəfdarıdır.

Pənahəli bəyin Qarabağa gəlişi onların keyfinə soğan doğrayır. Dünənə qədər "mən, mən" deyənlər indi tülkü donuna girib artıq xan kimi tanınmağa başlayan Pənahəli xanın rəğbətini qazanmağa çalışırlar.

Dramın bu hissəsində Pənahəli xanın ailə-məişət məsələlərinə müəyyən yer ayrılsa da, əsas diqqət xanlığın qurulma-

sı və siyasi məsələlərə verilmişdir. Kərim xan Zəndlə müqavilə və birgə fəaliyyət, Fətəli xan Əfşarın acı məğlubiyyəti, Pənahəli xanın Şiraza aparılması və oğlu İbrahimxəlil xanın onun yerinə Qarabağ xanlığını idarə etməsi dramda tarixi faktlara mümkün qədər sadiq qalmaqla bədii əksini tapmışdır.

Dram haqqında qeydlərimizi yekunlaşdırsaq, belə bir qənaətə gələ bilərik ki, "Pənah xan Cavanşir" dramı Qarabağ xanlığının tarixi, təşəkkülü barədə yazılmış ilk sistemli dram əsəri olmaqla yanaşı, həm də psixoloji ovqatda olan xarakterlər dramıdır.

* * *

Hüseynbala Mirələmovun "Xəcalət" adlı ikihissəlik dramı "Xəcalət" povestinin motivləri əsasında yazılmış, yazıçının şərti olaraq "Qarabağnamə" adlandırılan silsiləsinə daxil olan əsərlərindəndir. Cəmi altı obrazın iştirak etdiyi dramdakı hadisələr Qarabağ müharibəsindən sonrakı hadisələrdən bəhs edir.

Pyesin birinci pərdəsindəki hadisələr Bakıda, qaçqınların yaşadıqları yataqxanalardan birində cərəyan edir. Ailənin qızı, dərs əlaçısı olan Gülyaz istəmir ki, yoldaşları onların hansı vəziyyətdə və hansı şəraitdə yaşamalarının şahidi olsunlar. Anası Fərqanənin öyüd-nəsihəti ona təsir etmir və o, əsəbi şəkildə anasına deyir: "Bura adam gələr, ana? Bilirsən onların necə evləri var?"

Bu bir neçə cümlə bu məğrur qızın ailəsinin durumunu büsbütün aydınlaşdırır.

Müəllifin çılpaq şəkildə obrazların dili ilə canlandırdığı bir çox məqamlar az sonra şəxsi müstəvidən ictimai müstəviyə keçirilir və bir ailənin faciəsi milli faciə kimi təqdim olunur. H.Mirələmov qaçqın taleyi yaşamağa məcbur olmuşları da,

çox haqlı olaraq, iki yerə bölür: qaçqın statusundan istifadə etməklə qaz vurub qazan dolduranlar və Vətənə qayıtmaqdan başqa arzusu olmayan, aza qane olan, "Təki torpaqlarımız azad olsun", – ideyası ilə yaşayanlar.

Fərqanənin həyatın girdabında çapalayıb düşdüyü burulğanlardan çıxmağa gücü çatmayan ərinə dediyi sözlər çox düşündürücüdür: "Çox şey olub, çox şey dəyişib, Vətən. Zülmə insan bir il dözər, beş il dözər, ta ömürlük yox ki? Bayaq qızın sinif yoldaşları gəlmişdilər. Güləş onlar gedəndən sonra zülüm-zülüm ağladı. Bilirsən niyə, Vətən? Deyir, ana, mən öldüm, yerə girdim uşaqları görəndə, axı mən istəmirdim ki, onlar bizim evimizi belə görsünlər".

Bu cümlələri oxuyandan sonra istər-istəməz düşünürsən: Kimdir günahkar? Vətən, yoxsa mühit?

Təbii ki, dramaturq kimin günahkar, kimin haqlı olduğunu birbaşa, açıq şəkildə bəyan etmir və sualın cavabını oxucu və tamaşaçının öhdəsinə buraxır.

Vətən – bu xəstə qızına dərman, ayaqyalın, əyin-başından özü utanan uşaqlarına əyin-baş, ayaqqabı almağa imkanı olmayan kişi vüqarlı adamdır və o, onu axtarmayan, qayğısına qalmayan imkanlı dostunun, tanışının yanına xahişə gedə bilməz. Onun xəmiri şərəf acıxəmrəsi ilə yoğrulub. O, şərəfsizlərin qarşısında baş əyməyi özünə sığışdıran adamlardan deyil.

Murad da Vətən kimi qaçqındır və o, qaçqınlara verilən imtiyazlardan istifadə etməklə özünə əməlli-başlı gün-güzəran, biznes qura bilib. Onun kimliyini müəllif Vətənin sözləri ilə belə nəzərə çatdırır: "Neyləyir məni Murad? Lazım olsaydı tapardı məni, bir maraqlanardı. İndi o yuxarılarda, Allah bilir, kimlərlə durub-oturur. Həyatın dibinə düşmüş Vətən onun nəyinə gərəkdir?".

İkinci pərdədəki hadisələr yenə də eyni məkanda baş verir. Muradın çağırdığı həkim Vətənin qızını müayinə edib dərman yazır və yenə də keçmişlər xatırlanır. Kərim həkimin kəlməbaşı Muradı tərifləməsi və Muradın da bundan açıq şəkildə zövq alması Vətənin nəzərindən qaçmır. Öz uşağını müalicə etdirə bilməyən və bu işdə başqasının yardımını qəbul etməyə məcbur olan valideynlərin vəziyyətini ümumi bəla kimi qiymətləndirən müəllif Muradın dostanə hərəkətlərinə haqq qazandırsa da, onun yekəxanalığını da göstərməyi unutmur.

Muradın gəlişinə sevinən, lakin onun buraya öz istəyi ilə yox, Fərqanənin xahişi ilə gəldiyini biləndən sonra, elə bil, göylər Vətənin üstünə uçur və o, yenidən sarsılır. Nə Fərqanənin, nə də Muradın dedikləri, heç ailəsinin acınacaqlı vəziyyəti də onu inadından döndərə bilmir. Fərqanəyə acığı tutsa da, daxilən ona haqq da qazandırır, lakin minnətli çörək yemək istəmədiyindən Muradın onun yanında işə düzəlmək təklifini də, onun göstərdiyi maddi yardımı da qətiyyətlə rədd edir.

Fərqanə Muradı bir dost kimi evlərinə dəvət edəndə, təbii ki, məsələnin bu qədər böyüyəcəyinin fərqinə varmamışdı. O, uşaqlarını, ərini, ailəsini bu durumdan çıxarmaq üçün çarə axtarmaqda haqlı idi və Muradın da onlara yardım etmək istəməsi tamamilə ağlabatandır. Ancaq Fərqanə bir şeyi axıra qədər götür-qoy etməmiş, ərinin xarakterindəki əyilməzliyi, minnət götürməməyi nəzərə almamışdı.

H.Mirələmovun 2003-cü ildə qələmə aldığı bu dram bir çox mətləbləri özündə etiva edən əsərdir. Burada “Əsl insan və vətəndaş kimdir?” sualından başlayaraq müxtəlif problemlərlə bağlı sorğulara cavab verilmiş, Azərbaycanın sinəsində hələ ki, sağalmaz yara olan Qarabağ problemi, məcburi köçkünlərin

taleyi, qaçqınlara göstərilən münasibət və onların həyat uğrunda apardıqları mübarizənin çox parlaq və real mənzərələri yaradılmışdır.

* * *

İkihissəlik "Vicdanın hökmü" dramındakı hadisələr 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qarabağ konfliktinin başlanması ərəfəsində və Qarabağ müharibəsinin ilk illərində Rusiya şəhərlərinin birində və Azərbyacan ərazisinin döyüş bölgələrində cərəyan edir.

Pyesdəki obrazlar XX əsrin 90-cı illərində yaşamış Azərbaycan və erməni vətəndaşlarıdır. Dramdakı hadisələrin əsasında bir tikə çörəkdən, rahat dolanışıqdan ötrü vətəndən avara olmağa məcbur olan Rəhim və onun kimilərinin məşəqqətli taleyi, keçirdikləri mənəvi sarsıntılar və nəhayət, Vətən – Azərbaycan darda olanda onların Vətən uğrunda şəhidlik məqamına yüksəlməsi durur.

Anasının Rəhimə yazdığı: "...Rəhim, başına dönüm, özündən muğayat ol. Urusiyətdən gələn qara xəbərləri eşidəndə ürəyimə min cür fikir gəlir. Deyirəm, bəlkə qayıdıb gələsən?! Acından ölməyəcəyik ki? Biz də hamı kimi birtəhər dolanarıq" sözlərindən aydın olur ki, qürbətdə Rəhim kimi yüzlərlə vətən avarası olan azərbaycanlı var və onların nə vaxtsa, sağ-salamat Azərbaycana dönəcəyi cavabı müşkül olan bir sualdır. Cünki Rusiyadan Azərbaycana gələn cənazələrin sayı günbəgün artmaqdadır.

Bu acı həqiqəti cəsarətlə dilə gətirən müəllifin təfsirində ananın sonrakı sözlərindən aydın olur ki, Azərbaycanda yaman qarışıqlıqdır və gözlərini qan örtmüş ermənilər havadarlarının dəstəyinə arxayın olaraq torpaq iddiasına düşmüşlər. Ananın düşüncəsinə görə, Vətəninə sahib çıxmayıb onun düşmənləri

olan ermənilərlə oturub-durmaq, əslində "düşmənə sahib çıxmaq", millətə arxa çevirməkdir.

Dramın baş və aparıcı qəhrəmanı Rəhim olsa da, buradakı obrazların hər birinin özünəxas xüsusiyyətləri var və bu xüsusiyyətləri açmaqla müəllif, əslində gözlərimiz qarşısında bizdən çox da uzaq olmayan səksəkəli illəri – XX əsrin 90-cı illərini canlandırmağa müvəffəq olur.

Əsərdə Azərbaycanda imkanlı bir ailədə böyüsə də Rusiyaya üz tutan, qazandığını içkiyə, əyyaşlığa sərf edərək ailəsinə belə xor baxan, Firudin ikən dönüb Fedya olan bir obraz var. Milli satqınların ümumiləşdirilmiş obrazı kimi düşünülmüş bu tip üçün müqəddəs olan heç nə yoxdur. Aşot adlı erməni ilə dostluq edib bütün bəd əməllərini onun əli ilə həyata keçirən, onu "yağ-bal içində" bəsləyən Fedya halalla haramın, pisliklə yaxşılığın, şərəflə şərəfsizliyin, vətənlə vətənsizliyin fərqində deyil. Bu tip milli mənliyini o qədər unudub ki, Rəhimin nəfs haqqında dedikləri, Nəsirəddin Tusidən gətirdiyi: "Nəfs elə şeydir ki, onu özbaşına buraxsan, insanı çamıra batırar, yox əgər cilovlayıb istiqamət versən, fəzilət yüksəkliklərini fəth edib kamala çatarsan", – kəlamları onun tükünü belə tərpətmir.

Pyesdə şöhrətpərəstliyinin qurbanı olan, lakin hələ də insanlığa mərhəmət hissini itirməyən, həyatın özündən gələn Güllü adlı bir obraz da var. Güllü – bir qız anası olan bu qadın Firudinin arvadıdır. Vaxtilə Rəhimin kasıblığı ucbatından nişanlısı ola-ola onu atıb varlı bir adamla ailə quran bu meşşan təbiətli qadın etdiyi xəyanətin cəzasını çəkməkdədir. Firudin onunla bir ömür-gün yoldaşı kimi yox, alçaldılmış, küncə atılmış əşya kimi davranır. Gözünün qabağında min hoqqadan çıxır, hətta ad günündə onu məcbur edir ki, Aşotla rəqs eləsin. Təbii ki, Aşot üçün ar-namusun qiyməti bir qara qəpik olma-

dığı kimi, “maddax” deyə qarşısında quyruq buladığı Fedya üçün də arvad-uşaq, namus dəyərsiz bir şeydir.

Fedyanın ad gününə dəvət olunan Rəhim özü istəmədən cinayət törədir. Aşotun sırtıq hərəkətlərinə dözməyib onu vurmaq istərkən Aşota havadarlıq edən Firudin onun bıçaq zərbəsinə tuş olur və yerindəcə can verir. Firudinin bu cür ucuz ölümünü dramaturq onun Vətənə, millətə, ailəyə etdiyi xəyanətin cəzası kimi mənalandırır.

Əli insan qanına batan Rəhimi sarsıntılardan rusların ermənilərin fitvası ilə Bakıya qoşun yeritməsi xəbəri qurtarır. İndi o, törətdiyi əməl barədə yox, ölkəsində baş vermiş gözlənilməz faciə barədə düşünür və ananın aşağıdaki sözləri onun Vətənə qayıdışını sürətləndirir: “Oğlum, yağı düşmən başımıza müsibətlər gətirir. Vətən dardadır. Düşmənin gəlişi də, gülüşü də tələdir. Qayıdın, gəlin evinizə, ürəyinizin səsinə qulaq asın, vicdanın hökmünü dinləyin. Vətən dardadır, oğul...”.

Dramın ikinci pərdəsindəki hadisələr Qarabağda, hərbi hospitalda və döyüş yerlərində cərəyan edir. Hərbi hospitalın həyətində Kamranla Sabirin söhbətindən aydın olur ki, Rəhim Qarabağda, döyüşən əsgərlərin içərisindədir.

Kamranla Sabirin mükaliməsindən o da aydın olur ki, “Raqozin” bazarında Rəhimlə birgə alver edən, onunla bir otaqda kirayənişin olan Əhəd də Qarabağ döyüşçülərinin arasındadır və ağır döyüşdə ayaqlarını itirən bu igid Bakıya yola salınıb.

Müəllif bu məqamda bizi başqa bir obrazla – Aslan həkimlə tanış edir. Aslan həkim Azərbaycanın qəhrəmanlıq tarixinə bələd olan işıqlı bir adamdır. Ölümü gözünün altına alaraq döyüş bölgəsindən ayrılmağı xəyalına belə gətirmir. Ən böyük arzusu oğlunu Vətənin müdafiəçiləri sırasında görmək olan,

lakin bu arzusu ürəyində qalan atanın sağalmaz yarası oğul itkisindən yaranan yaradır ki, dramaturq bunu onun dilindən aşağıdakı şəkildə bildirir: "Belimi sındırdın, oğul. Gərək sən də bunların cərgəsində olaydın. Öləndə də biləydim ki, vətən yolunda ölmüsən".

Dramda Aygün və Rəhim xətti xüsusi həssaslıqla işlənmişdir. Hisslərini heç kəsdən, hətta atası Aslan həkimdən belə gizlətməyən Aygünlə Rəhim arasında olan söhbətlər, Aygünün aman-zaman bircə qardaşının 1990-cı ilin 20 yanvarında Rusiyanın şəhərlərinin birində öldürülməsini dilə gətirməsi və Rəhimin keçirtdiyi həyəcanlar dramın psixoloji ovqatını daha da gücləndirir.

Müəllif Rəhimin ömrünün son anlarını yenə də döyüş meydanında təsvir edir. Azərbaycan kəndlərini xaraba qoyan, südəmər körpələrə belə qıyan Akop və Karo meşədə bir ağacın altında yeyib-içir, üst-başı cırıq bir azərbaycanlı qız onlara qulluq edir.

Bu səhnədə birinci pərdədən tanıdığımız, Firudinin özünə dost, qardaş hesab etdiyi İrəvan ermənisi Aşot erməni silahlı quldurlarının komandiri kimi təqdim olunur. Onun iyrənc, insanlığa üzqarası hərəkətlərini sənətkarlıqla açan müəllif vaxtilə Firudinin sayəsində Rəhimin əlindən qurtarmağı bacaran bu əclafı yenidən Rəhimlə üz-üzə gətirir. İllərdən bəri qisas alovu ilə alışıb-yanan Rəhim qıza təcavüz etmək istəyən bu qansız erməni quldurunu da, onun yoldaşlarını da məhv edir.

Qeyri-bərabər döyüşdə igidcəsinə şəhid olan Rəhim əsl qəhrəman kimi gözlərimiz önündə canlanır. Oxucu və tamaşaçı inanır ki, Rəhim kimi oğulların qanı yerdə qalmaz və Azərbaycan xalqı məhz Rəhim, Kamran, Aslan, Aygün, Sabir, Əhəd kimi Vətən fədailərinin sayəsində qəsbkar ermənilərin

izini bu torpaqdan siləcək, onlara gorlarını öz əlləri ilə qazdıracaq.

Lirik-psixoloji üslubda yazılmış və yazıçının Qarabağ mövzusunda yazdığı əsərlər silsiləsinə daxil olan bu dramı, heç şübhəsiz ki, müəllifin dramaturgiya sahəsindəki uğurlarından biri kimi qiymətləndirmək olar.

* * *

Faşist Almaniyası üzərində qələbənin 60 illiyinə həsr olunmuş ikipərdəli "Ləyaqət" pyesi H.Mirələmov dramaturgiyasının ən möhtəşəm nümunələrindən biridir. Hadisələr XX əsrin ortalarında, 1941–1948-ci illərdə baş verir. Müharibə və insan taleyinin baş mövzu kimi seçildiyi əsərin birinci pərdəsində müəllif bizi Nahidə, Mirkərim ağa, Səlbi arvad, Fatma, Ziyad obrazları vasitəsi ilə, əsasən arxa cəbhənin problemləri, müharibə meydanlarından uzaqlarda yaşayanların da, əslində müharibənin içində olmaları, Ümidin nə üçün bronu ola-ola könüllü olaraq cəbhəyə, döyüşən ordu sıralarına can atmasının səbəbləri ilə tanış edir.

Əsərin baş qəhrəmanı Ümid körpə vaxtlarında ata-anasını itirmiş, nənəsi Fatma arvadın himayəsi ilə böyüyüb ali təhsil almış gənc həkimdir. Əsərin əsas ideya daşıyıcılarından biri kimi düşünülmüş müdrik Mirkərim ağanın tərbiyəsi ilə böyüyən yetim qız Nahidə ilə ailə quran, xoşbəxtliyin ləzzətini təzə-təzə dadmağa başlayan Ümid iki hissin arasında seçim etmək məcburiyyəti qarşısındadır. Həkim olduğu üçün ona qanuni möhlət – bron verilib. O, müharibəyə getməyib, qalıb arxa cəbhədə xalqa xidmət edə bilər, lakin ölkənin darda olması onu qətiyyən rahat buraxmır, ərizə verib cəbhəyə yollanmaq qərarına gəlir. Onun bu hərəkəti ailəsində narazılıqla qarşılansa da, Mirkərim ağa: "Yaxşı yol, Umud, Allah köməyin olsun.

Vətənə sevgi imandandır... Fatma, siz gərək fəxr eləyəsiniz ki, evinizin kişisi elini-obasını qorumağa gedir", – sözləri ilə ona haqq qazandırır.

Sıravi əsgər kimi cəbhəyə yollanan, döyüşən ordu sıralarında "Doktor Axundov" kimi məşhurlaşıb mayor rütbəsinə qədər yüksələn Ümid müəllif ideyalarının daşıyıcısı olan obraz kimi düşünülmüşdür. Nahidə və Mirkərim ağadan gələn məktubların arası kəsiləndə, Ziyadın Nahidə ilə bağlı müəmmalı məktubunu alanda haldan-hala düşsə də, dərdini Azərbaycan xalq mahnılarını oxumaqla azaltmağa çalışır və pessimizmə qapılmır. Bütün bu gözlənilməz hadisələrə müharibənin fəsadları kimi baxan Ümidin həm cəbhə həyatı, həm də müharibə qurtarandan sonra Vətənə qayıdışı, oğlu Nahidlə, Mirkərim ağa ilə, nəhayət Ümidin şərəf və ləyaqətini, ciyərparası Nahidin həyatını qorumaq üçün adını dəyişib Hicran qoyaraq "qeybə çəkilən" Nahidə ilə görüşü və hər şeyi olduğu kimi başa düşməsi, sözün həqiqi mənasında "Ləyaqət" dramında ləyaqətlə yaradılmış bənzərsiz və təkrarolunmaz səhnələrdir.

Fatma nənənin, Nahidənin düşüncələrini və həyəcanlarını, hərbin Səlbi arvadın həyatında əmələ gətirdiyi nisgili çox böyük ustalıq və bədiiliklə əsərdə verməyi bacaran müəllifin təqdimatında müharibə bəşəriyyəti fəlakətə sürükləyən qanlı oyundan başqa bir şey deyil. Fatma nənənin ölümü, Səlbi arvadın havalanması, Nahidənin məcburən öz isti ocağından, Ümidin yadigarı Nahiddən əl çəkib bir növ "qeyb olması", əslində fərdlərin deyil, bəşəriyyətin faciəsi kimi düşünülmüşdür. Bütün qohum-əqrəbası faşist taununa tuş gələn, doğulduğu kəndi yer üzündən silinən Kolyanın ağrılarını da dediklərimizə əlavə etsək, mənzərə tam aydınlaşar.

Müharibə təkcə ölüm-itim səhnəsi deyil, həm də sınaq meydanıdır. Bu meydanda Ziyad kimi buqələmunların ortaya

çıxıb meydan sulaması, murdar nəfsinə görə hər cür alçaqlığı özünə rəva görməsi təbii haldır. Ümidin cəbhəyə gedişini – vaxtilə sevdiyi, ancaq rədd cavab aldığı Nahidəyə qovuşmaq arzusuna bir vəsilə hesab edən Ziyad kimilər dünən də var idi, bu gün də var və sabah da olacaq. Bu təbiətin qanunudur. Pis olmayan yerdə yaxşının qədri bilinməz.

Ziyad fitnə-fəsad, şər-şəbədə yuvasıdır. Üzdə mələk, daxildə kələk olan bu şəxsdən də müəllif mərhəmətini əsirgəmir. Ölüm ayağında ikən etdiyi pisliklərə görə tövbə edib Ümidə məktub yazan bu bədbəxtin aqibətini gözlərimiz qarşısında canlandıran müəllif, bizcə, belə demək istəyir: "Ey bəşər övladı, tövbə qapıları hər zaman açıqdır. Dünyaya nə üçün gəldiyini, axirət gününün əzabını düşün. Əlindən yaxşılıq gəlmirsə, heç olmasa pislik eləmə!".

"Ləyaqət" pyesini insan ləyaqəti, humanizm, məhəbbətin əbədiliyi və ölməzliyi haqqında dastan da adlandırmaq olar. Bu əsərdəki hər obrazın – Ümiddən tutmuş Səlbi arvada qədər öz aləmi var və bunlar küll halında əsərin monumentallığını təşkil edir.

* * *

Fəlsəfi-psixoloji ovqatda yazılmış "Cəza quyusu" dramı H.Mirələmovun müasir mövzularda qələmə aldığı pyesləri ilə yaxından səsləşir. Əsərin qəhrəmanları müasirlərimiz olan və az qala hər birinin prototipini tanıdığımız insanlardır.

Əsəri oxuyarkən XX əsrin 80-90-cı illəri, meydan hərəkatı, öz torpaqlarını işğal edən *(Sovet ordusunun Bakını işğal etməsinə bundan artıq ad vermək olmaz – İ.Q.)* bir ordunun Bakıda və Respublikamızın digər bölgələrində törətdiyi qanlı cinayətlər, Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 20 Yanvar hadisələri, kütlə-

vi narazılıqlar dalğası üzərində hakimiyyətə gəlmiş adamların aqibəti, Qarabağ uğrunda döyüşlər və s. bu kimi hadisələr birər-birər gözümüzün önündə canlanır.

Hadisələrin təqdimi üçün maraqlı ədəbi-bədii priyomlar seçən, hər bir obrazı öz dilində danışdırmağı bacarıb onların daxili aləmini, iç dünyasını məharətlə açan müəllif fikrini bütün əsər boyu dörd əsas tezisin – "Haqq incəlsə də üzülməz", "Bağışlamaq böyüklərə, qisas almaq cılızlara xasdır", "Tövbə qapıları həmişə açıqdır" və "Vətəni sevmək imandandır" – üzərində cəmləyib mövzunun və janrın verdiyi imkanlar çərçivəsində duyğu və düşüncələri ilə bizləri tanış edir.

Əsərdə nə təsadüfi obraz, nə də təsadüfi hadisə yoxdur. Respublikamızın son 30-35 illik tarixinin bu və ya digər problemlərinin bədii inikası olan dramdakı başlıca hadisələr daha çox Nurlan və Yavuz bəy obrazlarının təqdimi ilə oxucu və tamaşaçıya çatdırılır.

Nurlan XX əsrin 90-cı illərində əlində olan bütün imkanlardan istifadə edərək cəbhə bölgələrinə yardım aparan, lazım gələndə əlinə silah alıb düşmənlə döyüşən, Vətənə xidməti hər cür rəsmi vəzifədən üstün tutan qeyrətli Azərbaycan vətəndaşlarının ümumiləşdirilmiş obrazıdır. O, ağıllı, mərd, düşmənə qarşı nə qədər amansız olsa da, öz vətəndaşlarımıza qarşı ürəyində kin-küdurət və həsəd olmayan bir ziyalıdır. Ona pislik edəni belə bağışlamağı bacaran bu xeyirxah insan üçün millətə, vətənə olan sevgidən böyük sevgi yoxdur. Etdiyi yaxşı əməllərdən ötrü heç bir ödül, mükafat, "çox sağ ol" gözləməyən bu imanlı və inamlı vətənpərvər insan müəllif ideyalarının birbaşa ədəbi məhsulu olsa da, haradasa həm də avtobioqrafik obraz xarakteri də daşıyır və H.Mirələmovun tərcümeyi-halına az-çox bələd olanlar, yəqin ki, bizim bu fikrimizlə razılaşacaqlar.

Xırda, cılız hisslərə, yarımçıq işlərə Nurlanın həyat idealında yer yoxdur və müəllif bu obrazın şəxsində insanlığa və vətəndaşlığa lazım olan bir sıra cəhətləri ümumiləşdirmişdir ki, onların bəzilərini qeyd edirik.

Birincisi, vəzifə, mandat Nurlan müəllim üçün qazanc mənbəyi, şəxsi istəklərini həyata keçirmək üçün vasitə deyil, cəmiyyətə və dövlətə xidmət missiyasını şərəflə yerinə yetirməyə yol açan imkandır.

İkincisi, o, dostlarına, keçmiş iş yoldaşlarına, kəsdiyi çörəyə, uğrunda mübarizə apardığı ideala axıracan sədaqətli qalmağı bacaran, milli qeyrətə və mənəviyyata malik olan ziyalıdır.

Üçüncüsü, iqtidarda, yaxud müxalifətdə olmasından asılı olmayaraq o, haqqın, ədalətin tərəfdarıdır.

Dördüncüsü, hadisələrin gedişindən baş çıxarmağı bacaran, hissin yox, ağılın, məntiqi təfəkkürün gücünə inanan, düşünərək qərar verməyə üstünlük verən uzaqgörən şəxsdir.

Beşincisi, insanları sevən, özündən sonra rəhmətlə xatırlanacaq işlər görməyə çalışan iman əhli və Allah adamıdır.

Altıncısı, o, söz yox, gördüyü yaxşı işlərdən zövq alan əməl qəhrəmanıdır.

Nurlan müəllimdən fərqli olaraq, Yavuz bəy meydan qəhrəmanıdır və 90-cı illərin məlum hadisələrindən, hakimiyyət dəyişikliyindən sonra yüksək vəzifəyə təyin olunmuş şəxsdir. Ürəyində xeyirlə şərin mübarizəsi gedən bu şəxsə nə Vətən, nə millət xaini demək olmaz. O, sadəcə tutduğu vəzifəyə layiq olmayan, idealına sonacan sadiq qalmağı bacarmayan adamdır. Uğura, Nurlana, Nilufərə, Mirheydər ağaya, hətta arvadı Bircəxanıma və bacısı oğlu Təhsinə olan münasibətində də ikilik var. Ürəyində Vətən sevgisi olsa da, qəlbindəki şeytanın vəsvəsəsi ucundan canını Vətən yolunda fəda etmək istəyində olan insandan səriştəsiz bir karyeristə çevrilən Ya-

vuz bəy hakimiyyətə gəlib idarəetmə işində səriştəsi olmayan, getdikcə ictimai mövqeyini şəxsi ambisiyalarına qurban verən ümumiləşdirilmiş obrazdır ki, onların çoxunu dramaturq kimi, biz də tanıyırıq.

Mənəviyyat cəhətcə nə qədər aşınmaya məruz qalıb kiçilsə də, müəllif ona mərhəmətini əsirgəmir. Bir sıra məqamlarda, xüsusilə arvadı Bircəxanım və bacısı oğlu Təhsinlə söhbətində onun iki hissin arasında çabaladığını görürük. Təbii ki, heç bir əməl cəzasız qalmadığı kimi, Yavuz bəyin də əməlləri cəzasız qalmır. Ürəyindəki şərin fitvası ilə törətdiyi qanunsuzluqlar zəli olaraq boğazından yapışır və nəhayət, o, qazdığı cinayət quyusuna düşür.

Pyesin finalında onun tutduğu əməllərindən peşman olduğu aydın şəkildə hiss olunur. Lakin, müəllifin qənaətinə görə, tövbə qapıları hər zaman açıq olsa da, sonrakı peşmançılıq fayda verməz.

Dramdakı “Ləyaqət” pyesindəki Mirkərim ağanı xatırladan Mirheydər ağa, haradasa az-çox “Vicdanın hökmü”ndəki Rəhim müəllimə bənzəyişi olan Uğur və Rəsi, məhəbbət, vəfa və məğrurluq rəmzi olan Nilufər, qardaş dağı ilə yaşasa da, gələcəyə böyük ümidlərlə baxan Rəmzi, Uğur və Nilufərin ömürlərinin davamı kimi düşünülmüş Balaca Uğur və Balaca Nilufər Azərbaycan reallıqlarını əks etdirən parlaq bədii obrazlardır.

Əsərdəki meşşan təbiətli Bircəxanım da, milləti düşməndən qorumaq əvəzinə oğruluğa, çapovulçuluğa qurşanan, millətə üzqarası olan Təhsin və Tayfur da uydurulmuş obrazlar deyil. Belələri Qarabağ savaşında da var idi, indi də var və gələcəkdə də olacaq.

Erməni xisləti oxucu və tamaşaçıların diqqətinə epizodik obrazlar olan Qurgen və Raçikin timsalında təqdim olunmuş,

ölçülü-biçili ədəbi detallarla onlara oxucu və tamaşaçılarda nifrət hissi formalaşdırılmışdır.

"Cəza quyusu" dramında Qarabağ uğrunda savaşlarda itirdiklərimiz, buna bais olan başlıca səbəblər barədə yazıçının gəldiyi qənaətlərlə yanaşı, həm də dövləti necə yaşatmalı və millətə necə xidmət etmək haqqında düşüncələri ilə də tanış oluruq.

Nəhayət, bu dramdan çıxarılan nəticəni bir cümlə ilə belə ümumiləşdirə bilərik: "Uca Tanrı heç bir yaxşılığı mükafatsız, heç bir pisliyi də cəzasız qoymur" və məcazi məna daşıyan "Cəza quyusu" adı da məhz bu anlamda başa düşülməlidir.

* * *

H.Mirələmovun "Miras" adlı ikihissəlik dramatik komediyasındakı hadisələr XX əsrin 90-cı illərində Bakıda baş verir. Həmin hadisələrdən bizi ayıran zaman məsafəsi o qədər də uzaq olmadığından və biz həmin illəri yaşamış insanlar olduğumuzdan, qəhrəmanların əksəriyyəti bizə tanış gəlir və bu obrazların yaşam tərzi, dünyagörüşü, duyğu və düşüncələri bizə o qədər də yad deyil. Əsərdə müzakirə obyektinə çevrilən məsələ, əslində mənəviyyatla bağlı olan sosial problemlərdir. Müəllif problemi bir ailə və bu ailəyə yaxın olan bir çevrədə oxucu və tamaşaçıların gözləri qarşısında canlandırmağa müvəffəq ola bilmişdir.

Dağılmış Sovet quruluşunu yeni bir ictimai quruluş əvəz etsə də, köhnə quruluşun atributları və tərəfdarları, həmin quruluşun təzədən bərqərar olmasına sidqi-ürəkdən inananlar hələ də var və bunlara elə gəlir ki, təzədən bir ideya ətrafında birləşməklə quruluşun bərpası mümkündür. Bu adamların heç birini – Nemətulla, onun əqidə dostları olan Həqiqət, Batelman, Svetik və Yazıçını qınamaq olmaz. On-

lar Sovet quruluşunun yetirmələri və əqidələrinə sonacan sadiq olan əqidəli kommunistlərdir. Əslində Azərbaycan cəmiyyətinə yetişməmiş, elmi-nəzəri və iqtisadi cəhətdən tam əsaslandırılmamış bir hadisə kimi daxil olan müstəqilliyi və Azərbaycan xalqının həyatında kifayət qədər ziddiyyətli dövr olan XX əsrin 90-cı illərindəki hadisələri həzm etmək, doğrudan da, çətin məsələ idi. Həmin illərin Azərbaycan adamının əksəriyyəti SSRİ kimi nəhəng bir ölkənin necə süqutu barədə kifayət qədər məlumata malik olmadığı kimi, Sovet qanunları ilə sosializm sistemində yaşamağa adət etdiklərindən, yeni quruluşun qanunları və yaşam tərzini də çətinliklə qəbul edirdilər. Onların bir çoxuna bu hadisələr yuxu kimi gəlir, bir çoxları yeni dövrün yeni qanun və ictimai münasibətlərinə uyğunlaşsalar da, əksəriyyəti "Olum, ya ölüm" sualı ilə başbaşa qalmışdı. Axar suyun bir daha geri qayıtmayacağına inananlar dolanışıq, həyatda özlərini təzədən təsdiq etmək üçün yollar axtarır, bəziləri ümidsizliyə qapılaraq həyatdan əlini üzür, digərləri – "Miras"ın qəhrəmanları kimi "Bəlkə də qaytardılar" *(C.Məmmədquluzadə)* ideyası ilə yaşayırdılar. Yenə də təkrar edirik: Bu adamların heç birini qınamaq olmaz və öz hərəkətlərində onların hər biri haqlıdır.

H.Mirələmovun dramını məhz dövrün bədii salnaməsi, real mənzərəsini əks etdirən bir əsər kimi qiymətləndiririk. Düşünürük ki, həmin illərin ictimai-siyasi durumunu, insanlar arasında olan münasibətləri, həyatın burulğanlarında çapalayanların psixoloji sarsıntılarını əks etdirmək baxımından, bu əsər dramaturgiyamızda tamamilə yeni bir hadisədir.

Əsərdəki hadisələrin ağırlıq mərkəzində İnqilab və onun ailəsi dayanır. Bir vaxtlar Mərkəzi Komitədə şöbə müdiri vəzifəsində işləyən, cəmiyyətdə, tay-tuşları arasında nüfuz sahibi olan bu partiya funksioneri indi sıxıntılar içərisindədir

və öz ev-eşiyini sataraq atası Nemətullanın qoltuğuna sığınmağa məcbur olub. Bunun, bu vəziyyətin meydana gəlməsi iki səbəblə bağlıdır. Birincisi, İnqilab yeni quruluşun yeni qaydaları ilə yaşamağı bacarmır. İkincisi, o, öz evində arvadı Nərgizin və oğlu Azikin yanında söz sahibi deyil. Onun evini, ailəsini, əslində özü yox, meşşan təbiətli arvadı idarə edir.

Ailənin yeganə övladı olan Azik Amerikada gün keçirir və Nərgiz ərini məcbur edir ki, İnqilab hansı yolla olursa-olsun atasının evini satıb pulunu Amerikaya – guya orada iş qurmuş oğluna göndərsin. Bundan sonra özləri də Amerikaya gedib orada yaşasınlar. Bu isə, bədii mətndən göründüyü kimi, mümkün deyil. Əvvəla ona görə mümkün deyil ki, ev Nemətullanın adınadır və onlar əvvəlki evlərini satıb pulunu oğlanlarına göndərdikdən sonra bu evə sadəcə sığınmışlar və evi satmağa, girov qoymağa onların hüququ yoxdur. İkincisi, İnqilab gedib yad ölkədə kiminsə qabağında hambal kimi işləmək, restoranlarda qab yumaq, müəyyən obyektlərdə keşikçi olmaq fikrində deyil. Çünki o başa düşür ki, onun kimilər Amerika kimi bir ölkədə fəhlə olmaqdan başqa bir işə yaramazlar. Digər bir cəhət də bundan ibarətdir ki, arvadından fərqli olaraq İnqilabın ürəyində vətən məhəbbəti var və o qərib ölkədə vətən həsrəti ilə yaşaya bilməyəcəyini yəqin bilir.

Nərgiz ürəyində baş qaldırmış qarmaqarışıq hisslərin əsirinə çevrilib. Bir tərəfdən uzaq Amerikanın dəbdəbəli, parıltılı həyatı ona "gəl-gəl" deyir və o, əri vəzifəsini itirdikdən sonra özünü və ailəsini cəmiyyətdə təklənmiş, artıq adam hesab edir. Başqa tərəfdən isə fərasətsiz oğlunun girovuna çevrilərək onu düşdüyü vəziyyətdən qurtarmaq üçün bütün iyrənc əməllərə – qaynatasının icazəsi olmadan onun evini satmağa, ərini zorla vətəndən didərgin salmağa, yad ölkədə

onun qul kimi işləməsinə və özü də işləməyə razıdır. Təki oğlunun ürəyi, könlü xoş olsun. Oğlunu vətənə dəvət etməkdənsə, onu qürbət avarası etmək bu ana üçün daha sərfəli görünür. Əsərin finalında Azikin tutduğu əməllərdən peşman olub yad məmləkətdə nökər kimi yaşamaqdansa, gəlib öz doğma torpağında insan kimi yaşamağa qərar verməsi onun, yəni Nərgizin onsuz da əvvəldən puç olmağa məhkum olan planlarını alt-üst edir.

Dramda izlənilən digər bir məqsədi mütləq xatırlatmaq lazımdır. Əsərdə Batelman adlı bir yəhudi obrazı var. Bu yəhudi Bakıda doğulmuş, burada boya-başa çataraq ev-eşik sahibi olmuşdur. XX əsrin 80-ci illərində ailəsi ilə İsrailə köç edən bu yaşlı yəhudi Azərbaycana – Bakıya qayıtmağı İsraildə ona yaradılan şəraitdən, ona verilən imtiyazlardan üstün tutmuş, "gedib vətənimdə ölmək istəyirəm" fikri ilə Bakıya dönmüşdür. Yəhudinin öz tarixi vətənindən – İsraildən Bakıya qayıdışı, əslində, vətənini atıb yad məmləkətlərdə yaşamağa üstünlük verən azərbaycanlılara verilən bir mütəfəkkir yazıçı dərsidir.

Bizcə, əsərə verilən "Miras" adı iki mənada düşünülə bilər. Birincisi, həqiqi mənada. Belə ki, atadan qalmış ev qanuni yolla oğula çatmalıdır və hələ ata həyatda ola-ola gəlin onun malına-mülkünə sahib durmağa çalışır. Məqsəd aydındır: qocanı qocalar evinə göndərsələr belə, təki oğul – yəni Azik arzusuna, Nərgiz isə Amerikada yaşamaq istəyinə çatsın.

"Miras" həm də məcazi mənada düçünülə bilər. Nemətulla və onun ətrafına yığışan köhnə partokratlar özlərini devrilmiş Sovet hökumətinin varisi hesab edir, bu dövlətdən qalan bütün atributları miras kimi qorumağa çalışırlar. Biz bu mənada qocaların istəklərini Nərgizin istəklərindən daha insani hesab edirik.

“Miras” çoxplanlı əsərdir. Burada ailə-məişət məsələlərindən tutmuş bir çox ictimai-iqtisadi və sosial problemlərə toxunulmuş, XX əsr Azərbaycan insanının xaraktercə biri digərindən fərqlənən real obrazları yaradılmışdır.

* * *

Əxlaqi və insani dəyərlərin yerini yavaş-yavaş digər anti-insani və anti-əxlaqi dəyərlərə verməkdə olduğu cəmiyyətlərin əvvəl-axır tənəzzülə uğraması ictimai inkişafın qaçılmaz və dəyişməz əbədi qanunudur. Pulun, var-dövlətin əndazəsiz olaraq artması, külli-miqdarda kapitalın bir nəfərin, yaxud bir qrupun əlində cəmlənməsi və bu kapitala nəzarət mexanizminin yoxluğu bir qrup insan üçün dırnaqarası səadət, kütlə üçün, əgər belə demək mümkünsə, fəlakətdən başqa bir şey deyil. İsbata ehtiyacı olmayan bir həqiqətdir ki, qədərindən artıq sərvət kimsəni ömrünün sonunacan xoşbəxt etməyə yetərli deyil. Artıq, mənbəyi gizli olan sərvət və dövlətin arxasında nə qədər pisliklərin, görünən və görünməyən əzabların olmasını da kimsə dana bilməz. “Axirətdən gələn zəng” tragikomediyasını oxuyarkən, bizim yadımıza düşən, fikrimizi işğal edən düşüncələr ilk olaraq yuxarıdakılar oldu.

Rəqibi ən iyrənc vasitələrlə aradan götürmək, var-dövlətə əsir olmaq, ərinə xəyanət, vəzifədə olub külli miqdarda sərvət qazanan və bu sərvətdən qohum-əqrəbasına pay ayıranların qarşısında boyun burub hər sözünə ləbbeyk etmək, şöhrət pilləsindən kəlləmayallaq olandan sonra onu saya salmamaq bütün cəmiyyətlərin arzuolunmaz həyat normasıdır və bu mövzularda həm dünya, həm də Azərbaycan ədəbiyyatında xeyli əsərlər yazılıb. Xislətində əbədi olaraq xeyirlə-şərin mübarizə apardığı insan, görünür, tarixin heç bir dönəmində, heç bir inkişaf mərhələsində fitrətindəki bu ikili xarakterdən qurtu-

la bilməmiş və qurtula bilməyəcəkdir. Ən əsas vəzifələrindən birincisi insanı tərbiyə etmək, ikincisi ona zövq vermək olan ədəbiyyat, təbii ki, yuxarıda haqqında mülahizələrimizi bildirdiyimiz bu əzəli və əbədi mövzuları daim gündəmə gətirməyə məcbur və məhkumdur və bəşəriyyətin labüdlüyü, əbədi yaşayışını təmin edən başlıca şərtlər də, heç şübhəsiz ki, xeyirlə şərin mübarizəsi və bu mübarizədən xeyirin qalib ayrılmasıdır.

Müəllifin dramatik komediya adlandırdığı əsəri biz tərəddüd etmədən bu ümumbəşəri və əbədi-əzəli problemin işıqlandırılması və həllinə yönəlmiş faciəli komediya – tragikomediya adlandırırıq. Bu qənaətdəyik ki, əsərdə bədii həllini tapan məsələlər bir qədər gülüş, həm də düşündürücü ironiya doğursa da, əslində faciə, həm də təkcə milli faciə yox, bəşəri faciədir.

Dövran – yeni zamanın bədbəxt milyonçusu sağlığında ətrafındakı bir qrup adam üçün büt, arvadı Pöya və əmisi nəvəsi Samir üçün oyuncaq, qazanc mənbəyidir. Əri Fərhadın qəfildən "qeyb" olmasından sonra Dövranla ailə quran Röya H.Cavidin "Maral" faciəsindəki Maralın xələfidir. Turxan bəyin gənc arvadı Maral Turxan bəyin qohumu Arslanla eşqbazlıq edirdisə, Röya – bu maddi cəhətdən hər cür təmin olunmuş ortayaşlı ərli qadın Samirin məşuqəsidir. Samir – bu mənəviyyatsız qohum ona tapşırılmış, etibar edilmiş əmanəti – əmizadəsinin namusunu tapdalamaqdan çəkinmir, qadının altımış yaşlı ərinə olan sayğısızlığından istifadə edərək ondan həm cismani, həm də maddi cəhətdən istifadə edir. Ərini sevmədən onunla bir yastığa baş qoymaq nə bu qadının, nə də qadınlığın faciəsi deyil. Faciə odur ki, ər qadını, həm də sonu – zürriyyəti olmayan qadını naz-nemət içində bəsləyə, bütün qohum-əqrəbalarını ona hörmət

etməyə məcbur edə, o isə ərinin namusunu ayaqlar altına ata, ən dəhşətlisi isə yatağına başqasını yox, ərinin dost-doğma qohumunu soxub murdar nəfsini onunla öldürə. Hələ bu azmış kimi, "ərim olmayandan sonra ərim sən olarsan" deyə onunla əhdü-peyman bağlaya. Bu isə, bizcə, uydurma bir süjet deyil, günümüzün reallığıdır və qadınlığa ləkə olan iblis xislətlilərin yaşam tərzi, həyat yoludur. Düşünürsən: bu gün Samiri yatağına soxan ərli qadın, sabah Samir qala-qala maddi imkanlarından istifadə edib başqalarını özünün əyləncəsinə çevirməyəcəkmi?

Kim necə düşünür düşünsün: Ərli qadının başqa kişi ilə əlaqəsi əxlaq normalarına tüpürməkdirsə, kişinin ərli qadınla əlaqəsi, ondan maddi və şəhvani nəfsini öldürmək üçün istifadə etməsi mənəvi şikəstlik və əxlaqi naqislikdir.

Əsərdə Dövranın qohumları və dostları kimi təqdim olunan obrazlardan ikisi – qardaşı Bayramın arvadı Zöhrə və Dövranın yaxın dostu Elman qibtəediləsi obrazlardır. Zöhrə mümkün qədər iman və inancı, Elman isə dostluğa sədaqəti ilə seçilir.

Müəllif Dövranın yaxın ətrafının daxili aləmini çox böyük məharət və ustalıqla şərti olaraq "Vəsiyyətnamə" adlandırdığımız səhnədə açır. Özünün ad günündə qohumlarına vəsiyyətnamə yazdığını, vəsiyyətnaməsinin bir nüsxəsinin seyfində, digər nüsxəsinin notariusda olduğunu bildirən Dövran onların hər birinə sərvətindən müəyyən pay ayırdığını söyləyir. Qohumları maraq bürüyür, hamısı, xüsusilə, bacısı Ceyran ayrılmış məbləğin miqdarını öyrənməyə cəhd edir. Təkcə Zöhrə və Elman, demək olar ki, məbləğlə, bəlkə, vəsiyyətnamə ilə belə maraqlanana oxşamır. Həmin axşam Dövranın təsadüfi elektrik vurmasından dünyasını dəyişməsindən sonra səhər vəsiyyətnamənin oxunuşu ilə

məsələyə aydınlıq gəlir. Yüz altımış milyon manatlıq bir sərvətin vəsiyyətnamə əsasında bölgüsü qohumlar arasında böyük mübahisəyə səbəb olur. Qohumlar ölülərinə ağlamaqdansa, mirasın bölünməsi uğrunda didişirlər.

Hər kəs közü öz qabağına çəkməyə çalışır. Təbii ki, hər bir fərd qohumluq əlaqələrini və qazanılmış milyonların iştirakında rolunu nəzərə alaraq iddiasını dilə gətirir və Dövranın bölgüsü, bəzilərini çıxmaqla, onların ürəyincə deyil. Ceyran inciyir ki, qardaşı doğma bacısını qoyub gəlinlərinə, qeyri qohum və dostlarına daha çox pay ayırıb. Samir ona ayrılan paydan narazı olsa da, Röyaya ayrılmış 50 milyon manata və mülkə görə özünü sakit aparır. Düşünür ki, Röya ilə evlənəcək və bu qədər varidata, əslində o, sahib olacaq. Əsl mərəkə Dövranın qardaşı Bayrama əlavə olaraq ayırdığı və ünvanı ona, Bayrama, bir də evində qulluqçu kimi saxladığı filippinli qadın Delisaya məlum olan beş milyonla əlaqəli olaraq meydana çıxır. Bayram bu məbləğin ona əlavə olaraq nə üçün ayrıldığının səbəbini qətiyyətlə inkar etsə də, bunun qardaşı ilə arasında bir sirr olduğunu bildirsə də, qohumlar ondan əl çəkmir. Nəhayət, Delisay meydana çıxıb bildirir ki, bu pul Bayrama yox, ona, onun Dövrandan olan altı yaşlı oğlu, hazırda Filippində Delisayın anasınının yanında yaşayan Datuya ayırılıb. Bu gözlənilməz və Bayramın da təsdiq etdiyi xəbər qohumlar arasında çaşqınlıq yaratdığı bir məqamda gizli nömrədən edilən telefon zəngi onların əhvalını daha da qarışdırır.

Zəng edən Dövrandır və heç kəs buna inanmaq istəmir. Ölünün dirilib Röyaya, Bayrama, Elmana zəng çalması, Ceyran və Samirlə danışması onlara bir qarabasma, yaxud bir başqasının onlara sataşması kimi görünür. Elman Dövranın qızıl korpuslu telefonunun təsadüfən dəfn prosesində Dövranın

qəbrinə düşüb orada qaldığını bildirəndə vəziyyət bir qədər də mürəkkəbləşir. Elman inanır ki, Dövran elektrik vurmasından ayılıb və torpağın altından – qəbirdən zəng edib onu xilas etmələrini xahiş edir. Elman ona ayrılan on milyon manatdan imtina edib dostunu xilas etməyə tələsir. Qohumlar isə buna imkan vermir. C.Məmmədquluzadənin "Ölülər" əsərindəki Şeyx Nəsurullahın ölüləri diriltmək istəməsi zamanı qəbiristanda yaranan səhnəyə bənzər bir səhnə burada da yaranır. Qohumlar, hər nə qədər "ölü dirilməz, xortlamış ölüyə nə deyərlər", – deyib Elmanın qəbiristana getməsini əngəlləsələr də, əslində məqsəd Dövranın dirilməsinə mane olmaqdır. Çünki Dövran dirilib gəlsə, onlara vəsiyyət edilmiş milyonlar əllərindən çıxa bilər.

Bu qohumlar üçün sərvətin insandan irəli olduğu qənaətinə gələn müəllif kəfənə bürünmüş halda səhnəyə gətirdiyi Dövranın əli ilə yazdığı vəsiyyətnaməni onun öz əli ilə parça-parça etdirməklə bir daha cəmiyyətə, insanlığa belə bir ismarış göndərmiş olur: Düzlük, həqiqət, əxlaqi dəyər və milli ənənələrə sadiqlik, insanlıq və humanistlik bəşəriyyəti və cəmiyyəti xilas edəcək ən doğru yoldur. Yalan, tamah, xəyanət, insanlığa yaraşmayan qaydalarla yaşamaq bəşəriyyət üçün dəhşətli müharibələrdən də qorxuludur. Cəmiyyətin mənəvi cəhətdən saflaşması, insanlar arasında normal ünsiyyət maddiyyatla deyil, mədəniyyətlə mümkündür. Ürəyində Allah xofu və insani məhəbbət olmayan Adəm övladı insan deyil, sadəcə varlıqdır. Elə varlıq ki, o varlığın əməllərinin bəhrəsi olan ağacdan bəşəriyyət yalnız və yalnız pislik meyvələri dərəcəkdir.

* * *

Yazıçı-dramaturq Hüseynbala Mirələmovun dramlarını nəzərdən keçirib sərf-nəzər etdikdən sonra bu qənaətə gəldik ki, o, dramlarında da nəsrində və publisistikasında olduğu kimi "qələmin başlıca vəzifəsi xalqa, millətə və bəşəriyyətə xidmətdir" idealına sadiq qalmış, milli dəyərlərimizin təcəssümü olan ümumbəşəri məsələlərə dramaturgiyasında daha çox yer ayırmaqla, təkcə Azərbaycanın deyil, eyni zamanda dünyanın problemləri ilə yaşayan bir mütəfəkkir yazıçı olduğunu bir daha sübut etmişdir.

***İslam Qəribli***

# PYESLƏRDƏN

*"Biz ruhun azadlığı uğrunda döyüşməliyik!.. Yalnız azad ruha malik insanların vətəni və dövləti olur! Mən də istəyirəm ki, başqaları kimi vətənim və dövlətim olsun!"*

*"Cavad xan"*

* * *

*"Lütfəli bəy, torpaqlarımıza yiyə çıxacağıq... Nadir şahın istisinə sığınıb Qarabağda çaqqal kimi gödən sökən erməni məliklərini yurdumuzdan qovacağıq".*

*"Pənah xan Cavanşir"*

* * *

*"...Allahın bizə bol-bol verdiyi bərəkətli torpaqların da, nemətlərin də qədrini bilmədik... Bütün bunlar cəzasız qala bilməzdi və biz o cəzanı çəkirik, çəkməliyik də".*

*"Xəcalət"*

* * *

*"Belimi sındıran oğul. Gərək sən də bunların cərgəsində olaydın. Öləndə də biləydim ki, nədən ötrü ölmüsən".*

*"Vicdanın hökmü"*

* * *

*“...Vətənə sevgi imandandır... Fatma, siz gərək fəxr eləyəsiniz ki, evinizin kişisi elini-obasını qorumağa gedir”.*

*“Ləyaqət”*

* * *

*“Tövbə qapıları həmişə açıqdır. Şərdən çəkinib xeyirə qulluq eləmək lazımdır. Cəza quyusundan çıxmağın yolu da elə budur...”*

*“Cəza quyusu”*

* * *

*“Qurtarın giley-güzarı, yoldaşlar! Deyinmək, şikayətlənmək acizlik əlamətidir. Biz nə istədiyimizi yaxşı bilirik, biz kommunistik! Məqsədimiz də aydındır, heç kəsdən də gizlətmirik. Biz partiyamızı, SSRİ adlı böyük vətənimizi bərpa etməliyik!”*

*“Miras”*

* * *

*“Təlaş eləməyə dəyməz, mənim bacı-qardaşlarım. Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə yubada bilər. Hər şey Cənabi Haqqın əlindədir, ona pənah aparın”.*

*“Axirətdən gələn zəng”*

# *Gəncə qapıları*

*(İkihissəli tarixi səhnə romanı)*

## *İştirak edənlər:*

**Cavad xan** – *Gəncə xanı*
**Şükufə xanım** – *Cavad xanın arvadı*
**Mələknisə xanım** – *Cavad xanın arvadı*
**Astagül** – *Cavad xanın arvadı, milliyyətcə erməni*
**Məhəmməd xan** – *İrəvan xanı*
**Vəli xan** – *Göyçə xanı*
**Əhməd** – *Cavad xanın sarayında eşik ağası*
**Georgi** – *Gürcüstan çarı*
**Birinci knyaz** – *gürcü*
**İkinci knyaz** – *gürcü*
**Nona** – *Georginin qızı*
**Keşiş** – *gürcü*
**Pavel Dmitriyeviç Sisianov** – *rus qoşunlarının Qafqaza təyin olunmuş komandanı*
**Portnyakin** – *Sisianovla Qafqaza gəlmiş çar ordusunun zabiti*
**Adyutant** – *Sisianovun köməkçisi*
**Loris** – *erməni*
**Hacı Məlik** – *Cavad xanla şəxsi düşmənçiliyi olan şəxs*
**Sərdar** – *Hacı Məliyin qohumu*
**Saray əhli** – *Georginin sarayında qulluqçu*

## BİRİNCİ PƏRDƏ

### *Birinci şəkil*

*Cavad xanın sarayı, yarı işıqlandırılmış səhnə. İştirakçılar tək-tək, ikibir, üçbir aktyor libasında səhnəyə daxil olur və elə gəldikləri qayda ilə də səhnəni tərk edirlər.*

*Cavad xanın mənzili. Baş tərəfdə taxt.*

**Cavad xan** *(səhnəyə gəlir, tək)*. Mən Şahverdixan oğlu Cavad xan 1748-ci ildə Gəncədə doğulmuşam. Kişi gərək heç vaxt yaxşılığı itirməsin. Qarabağ hakimi İbrahim xanın yardımı və xeyir-duası olmasaydı, otuz yeddi yaşımda xanlıq taxtına otura bilməzdim. Ata-oğul kimi idik. Amma, təəssüf ki, sonradan aramız dəydi. Buna səbəb Ağa Məhəmməd şah Qacara qoşulub Gürcüstana hücum etməyim oldu. İbrahim xandan sonra o biri xanlar da məndən üz döndərdilər, təkləndim. Soyuqluğu aradan götürməkdən yana çox çalışdım. Sədaqətimi isbat etmək üçün oğlumu və qızımı İbrahim xanın yanına – Şuşaya girov göndərdim. Qəbul etmədi.

1796-cı ilin martında İbrahim xanın və avar hökmdarı Ömər xanın atlı dəstələri Gəncəyə hücum etdi, carlı Rəhim xanın süvariləri də onlara qoşuldu. Fürsəti qənimət bilən gürcü çarı Georgi yeddi min kinto ilə üstümə yeridi. Gəncə mühasirəyə düşdü. Bir neçə aydan sonra şəhərdə qıtlıq başlandı. Beş min gəncəli gözlərimin önündə aclıqdan və susuzluqdan tələf oldu. Yenə də təslim olmadım, döyüşdüm! Düşmən iradəmi qıra bilməyəcəyini görüb geri çəkildi. Müs-

təqilliyimi qan bahasına da olsa, qoruyub saxladım. Mən onda ilk dəfə azad ruhun nəyə qadir olduğunu duydum, hiss etdim!

Azərbaycan – mənim vətənim gör neçə yerə bölünüb: Şəki, Şamaxı, Quba, Qarabağ, Gəncə, İrəvan, Naxçıvan, Maku, Xoy, Qaradağ, Ərdəbil, Talış, Təbriz, Urmiyə, Marağa, Sərab, Gilan xanlıqları, Car-Balakən, İlisu, Qazax sultanlıqları...

Rusiya da knyazlıqlara bölünmüşdü... Birləşdilər, dövlət oldular! İndi hökmləri Gündoğandan Günbatana çatır! Biz də birləşəcəyik, biz də qüdrətli dövlət olacağıq. Mənim bundan başqa məramım yoxdur! *(Səhnədən gedir).*

**Şükufə xanım** *(səhnəyə gəlir, tək)* Bir dəfə qızlarla bulağa getmişdim. Səhəngi doldurmaq növbəsi mənə çatanda ağ atın belində bir oğlan gəldi, başında buxara papaq, əynində vəznəli çuxa, belində gümüş xəncər... Su istədi. Rəhmətlik nənəm deyərdi ki, su İmam Hüseyn ehsanıdı. Dolçanı doldurub verdim, amma gördüm bunun məqsədi su içmək deyil. Elə hey gözaltı mənə baxır. O çıxıb gedəndən sonra qızlardan soruşdum ki, bu, kimdir? Dedilər ki, Şahverdixanın oğlu Cavad xandır, guya tanımırsan? Doğrudan da tanımırdım. Nə isə... Bir dəfə də mən bulaqda tək olanda gəldi, yenə su istədi. Dolçanı doldurub verdim. Suyu içə-içə yenə gözaltı mənə baxırdı. Suyu içəndən sonra dedi ki, ay qız, sənin verdiyin bu suda nə hikmət varsa, qəlbimin yanğısını yatırmır, əksinə, alovlandırır. Gördüm xatalı söz danışır. Səhəng dolmamış götürüb getmək istədim. Yolumu kəsdi, dedi: “Sənə elçi göndərəcəyəm, fikrin nədi?”. Ürəyim uçundu. Dedim: “Harada görünüb ki, xan oğlu xan rəiyyət qızına elçi göndərsin?”. Dedi: “Mən xanamsa, sən də sultansan!”. Güldüm. Dedim ki, sən Gəncənin xanısan, yaxşı, bəs mən haranın sultanıyam? Dedi ki, sən mənim qəlbimin sultanısan! Gəncə böyükdü, yoxsa mənim qəlbim?

Dinmədim. Fikirləşdim ki, madam ki, o məni qəlbinin sultanı sayır, onda mən də özümü nə bəy, nə də xan qızlarından əskik hesab eləmirəm...

**Mələknisə xanım** *(ona yaxınlaşır).* Şükufə xanım, elə danışırsınız ki, guya, Cavad xanın könlünün sultanı elə təkcə sizsiniz...

**Astagül** *(onlara yaxınlaşır).* Mələknisə xanım düz deyir... Biz də varıq axı...

**Şükufə xanım.** Astagül! Dil açmısan?..

**Astagül.** Cavad xan o sözlərdən axı mənə də deyib...

**Şükufə xanım.** Ola bilməz!

**Mələknisə xanım.** Şükufə xanım, biz sizə həmişə öz ağabəyimimiz kimi baxmışıq. Bir sözünüzü iki eləməmişik. Öl demisiniz, ölmüşük, qal demisiniz, qalmışıq. Amma...

**Şükufə xanım.** Nə amma?

**Mələknisə xanım.** O ki bizim yanımızda lal-dinməz dayanmayıb...

**Astagül.** Göy muncuq kimdədirsə...

**Şükufə xanım.** Kəs səsini, harsın! Cavad xan mənimlə "muncuq-muncuq oyunu" oynaya bilməz!

**Mələknisə xanım.** Şükufə xanım, mən elə çoxdan hiss eləmişdim ki, siz bizə qarabaş kimi baxırsınız...

**Şükufə xanım** *(bir qədər hikkə ilə).* Qarabaş deyilsiniz, bəs nəsiniz? Bilməlisiniz ki, Cavad xan sizi mənim məsləhətimlə alıb!

**Mələknisə xanım.** Maraqlıdır, bundan heç xəbərim olmayıb... Mənim kimi bir günü sizin nəyinizə lazım idi?

**Şükufə xanım.** Cavad xan çox təklənmişdi, gecə-gündüz fikir eləyirdi. Fikirləşdim ki, səni alar, qardaşın Məhəmməd Həsən xan dar gündə onun yanında olar! Amma zənnim məni aldatdı. Çətin gündə qardaşın heç gözə də görünmədi.

**Astagül.** Bəs məni nəyə görə özünə günü elədin?

**Şükufə xanım.** Ona görə elədim ki, ermənilər qohumluq əlaqəsini nəzərə alıb içimizdə ixtişaş salmasınlar... Bilirsən də, sənin əsl adın Astagındı, onu mən dəyişib Astagül eləmişəm.

**Mələknisə xanım.** Şükufə xanım, yəni Cavad xanın arvad qohumlarının köməyinə belə ehtiyacı var?

**Şükufə xanım.** Əlbəttə, var! Dörd tərəfimiz düşmən deyil? Mən yenə üç oğlan doğdum. Biri sağında, biri solunda duranda, biri də arxasında dayanır! Bəs sən neylədin? Dörd qız doğdun da!

**Mələknisə xanım.** Şükufə xanım, qisməti verən Allahdı...

**Astagül.** O yenə yaxşıdı, dörd qız doğdu! Amma Cavad xanın məndən bir uşağı da olmadı.

**Şükufə xanım.** Sən bir bunun iştahasına bax!.. Cavad xandan uşaq istəyir! *(Pauza).* İtil gözümdən!..

**Astagül.** Baş üstə! *(Suyu süzülə-süzülə səhnədən gedir).*

**Şükufə xanım** *(Mələknisə xanıma).* Sən də cəhənnəm ol! *(Mələknisə xanım tələsik səhnəni tərk edir).* Bunların ürəkləri dolu imiş ki. Görünür, iplərini çox buraxmışam... *(Səhnədən gedir).*

*Səhnə dəyişir. Tiflisə doğru uzanan yol.*
*Sisianov, arxasınca da Portnyakin səhnəyə daxil olurlar.*

**Pavel Dmitriyeviç Sisianov.** Portnyakin, Tiflisə hələ çox var?

**Portnyakin.** Xeyr, cənab Sisianov, bir azdan çatırıq.

**Pavel Dmitriyeviç Sisianov.** Mən heç Alp dağlarında da belə üşüməmişdim... Yaman soyuqdur, hə?

**Portnyakin.** Yəqin, yuxusuz və yorğunsunuz... Ona görə...

**Pavel Dmitriyeviç Sisianov.** Yox, Portnyakin. Yuxusuzluq və yorğunluq mənə təsir etmir... Bu, nəsə başqa şeydi, canım heç qızmır...

**Nona** *(səhnənin bir küncündə, Sisianovun görə bilmədiyi yerdə dayanıb)* İlahi, belə də soyuq olar?.. Titrədirəm, elə hey titrədirəm...

**Pavel Dmitriyeviç Sisianov** *(səsi eşidir)* Eşidirsən, Portnyakin, üşüyən təkcə mən deyiləm. Deməli, havada doğrudan da, nəsə var...

**Nona** *(dayandığı yerdə öz-özünə)* Yüzillərdi Gəncədən soyuq küləklər əsir... Bütün Gürcüstan üşüyür... Kilsələrimiz üşüyür... Çaylarımız, göllərimiz üşüyür... Ağaclarımız üşüyür...

**Pavel Dmitriyeviç Sisianov.** Portnyakin, o, kimdi elə?

**Portnyakin.** Cənab Sisianov, gürcü çarının qızıdı, Nona...

**Nona** *(əvvəlki qayda ilə dayandığı yerdə)* Yüzillərdi Gəncədən soyuq küləklər əsir... *(Yavaş addımlarla səhnənin küncündən çəkilərək görünməz olur).*

**Pavel Dmitriyeviç Sisianov.** Portnyakin, necə bilirsən, bəlkə elə məni də üşüdən Gəncə küləyidi?

**Portnyakin.** Nə deyim, cənab Sisianov...

**Pavel Dmitriyeviç Sisianov.** Bircə Tiflisə tez çatsaydıq... *(İti addımlarla səhnəni tərk edir).*

*İşıqlar sönür. Səhnə dəyişir. Erməni evi təsvir olunur.*

**Loris** *(əlində kitab səhnədə görünür)* Bir gün atam məni yanına çağırıb dedi: "Revaz, inanmıram ki, bu yataqdan bir də qalxım, əcəlim çatıb, ölürəm". Əlini atıb yastığın altından bir kitab çıxartdı və dedi: "Bu, erməni dilində yazılmış kitabdır. Sən də öləndə öz oğluna verərsən, o da öləndə öz oğluna". Aradan heç iki gün keçmədi ki, atam öldü... Ürəyinə elə düz damıbmış... Nə isə... Basdırdıq... Gəlib-gedənlərin əlindən başım indi-indi açılır... Bir baxım görüm bu nə kitabdı ki, biz onu nəsildən-nəsilə ötürməliyik... *(Kitabı açıb oxuyur).* Vartapet Foma Metsopski. "Teymurləngin tarixi". Vah!.. Biz ermənilər

deyəndə ki, bədbəxtik, heç kəs inanmır. Erməni dilində yazılmış kitabın sən hələ adına bir bax... Niyə Revazın yox, Teymurləngin tarixi?.. Cavab aydındı. Çünki biz, doğrudan da, bədbəxtik, yazığıq. Yox, belə olmaz. Gərək vaxt tapıb bu kitabı əvvəldən axıra kimi yaxşı-yaxşı oxuyam. Görünür, içində qiymətli kəlamlar var! Yoxsa, atam... *(Səhnədən gedir.)*

*Səhnə dəyişir. Əvvəl Vəli xan, sonra da Məhəmməd xan səhnəyə gəlir, görüşürlər.*

**Vəli xan.** Məhəmməd xan, İrəvanda nə var, nə yox?

**Məhəmməd xan.** Vəli xan, necə deyim, İrəvanda yuxarı tüpürürsən bığdı, aşağı tüpürürsən saqqal. Bəs Göyçədə?

**Vəli xan.** Vallah, Göyçədə də elədir. Yuxarı tüpürürsən bığdı, aşağı tüpürürsən saqqal.

**Məhəmməd xan.** Ta deki, qalmışıq Cavad xanla urusun arasında da...

*İkisi də başını yelləyə-yelləyə səhnədən gedir.*

**Hacı Məlik** *(səhnəyə gəlir).* Adam var evdən gedir, adam var eldən. Eldən gedən adam düşmənin də olsa, gərək acıyasan... Kişiliyin qanunu budu...

## *İkinci şəkil*

*Cavad xanın sarayı. Yataq otağı. İçəri alaqaranlıqdır. Əşyalar, ipək pərdələr, gümüş şamdanlar güclə seçilir. Arxa planda Gəncənin əzəmətli qala divarları görünür... Ağ tuman-köynəkdə bir kişi – bu, Cavad xandır – şələləndiyi iri, ağır yükü kəhildəyə-kəhildəyə aparır. Hiss olunur ki, gücü tükənmək üzrədir, bir az da keçsə üzüqoylu yıxılacaq. Amma buna baxmayaraq inadından dönmür.*

**Cavad xan.** Aparacağam, necə olur-olsun, aparacağam... Əvvəlcə bunu, sonra da qayıdıb o birini... *(Bir addım atıb dayanır).* Aparacağam, Allahın köməyi ilə aparacağam... *(Yenə bir addım atıb dayanır).* Budur, qala divarları göründü... Deməli, bir şey qalmayıb, çatıram... Ya mədəd!.. *(Yenə bir addım atıb dayanır).* Yerə qoymayacağam... Belim qırılsa da, qıçım sınsa da, yerə qoymayacağam... *(öz-özünə).* Hə, di tərpən, qeyrət elə, yolçu yolda gərək... *(Yenə bir addım atır. Bu vaxt haradansa bir bayquş ıçub gəlir, başı üzərində fırlana-fırlana kəsik-kəsik ulayır).* Bu haradan uçub gəldi?! Ey, bədniyyət, rədd ol, rədd ol buradan! Qayıt, qayıt yuvana – Helati monastırına! *(Qışqırır).*Yoxsa, qanadlarını sındıraram! *(Sonra bu qışqırtı taxtda Sükufə xanımla yanaşı yatmış Cavad xanın yuxudakı qışqırtısı ilə əvəz olunur).* Rədd ol!.. Rədd ol buradan!..

*İşıqlar dəyişir.*

**Şükufə xanım** *(əlini Cavad xanın alnına qoyur).* Bisimillah... Bisimillah... Kişi, ay kişi, sənə nə olub?

**Cavad xan** *(sakitləşə bilmir).* Aparacağam!.. Aparacağam!.. Bir şey qalmayıb!.. Ya mədəd!..

**Şükufə xanım** *(Cavad xanı silkələyə-silkələyə yuxudan ayıltmaq istəyir).* Bisimillah... Bisimillah... Ay kişi, ay kişi, ayıl. Niyə qışqırırsan? *(Qalxıb şamdandakı şamlardan birini yandırır və təzədən Cavad xanı silkələyir).*

**Cavad xan** *(yuxudan ayılır və matdım-matdım Şükufə xanımın üzünə baxır).* Şükufə xanım, məni niyə oyatdın?

**Şükufə xanım.** Boy, bəs nə edəydim? Vallah, yuxuda elə qışqırırdın ki, az qalırdı saray lərzəyə gəlsin. Qorxdum...

**Cavad xan.** Yaxşı yuxu görürdüm... Helati monastırından Gəncə qapısını gətirirdim... Elə qala divarlarına çatırdım ki, məni oyatdın, qoymadın mənzil başına yetişəm... Heyif...

**Şükufə xanım.** Madam ki, belə yaxşı yuxu görürdün, bəs onda niyə qışqırırdın?

**Cavad xan.** Başımın üstündə ulaya-ulaya bir bayquş fırlanırdı...

**Şükufə xanım.** İraq olsun... Görəsən, yuxuda bayquş nədi? Gərək sabah Xeyransa arvaddan soruşam... O, belə şeyləri yaxşı bilir...

**Cavad xan.** Lazım deyil... Bayquşdu da... Fırlanır, fırlansın... Bayquşdan qorxsan, onda gərək özünə heç ev də tikməyəsən... Şükufə xanım, deyirəm, elə mətləblər var ki, bəzən insana yuxuda agah olur... Görünür, Gəncə qapıları "darıxır"... Yolumuzu gözləyir... Gör aradan nə qədər vaxt keçib... Hər dəfə onların boş qalmış yerinə baxanda, ürəyimin başı göynəyir...

**Şükufə xanım.** Elə buna görə gəlib yuxuna girir də...

**Cavad xan.** Özü də gör neçənci dəfədi... Yox, bu işi belə qoymaq olmaz... Gərək bir əncam çəkəm...

**Şükufə xanım.** Yat dincəl, inşallah, sabah qalxıb ayıq başla fikirləşərsən... Şamı söndürümmü?

**Cavad xan.** Söndür...

*Şükufə xanım şamı söndürür.*

## *Üçüncü şəkil*

*Gürcü çarı Georginin sarayı.*
*Georgi adlı-sanlı gürcü knyazlarını sarayına dəvət edib.*

**Georgi** *(tutqun halda).* Cənablar, sizi çox vacib bir məsələdən ötrü bura yığmışam. *(Pauza. Hamı nigaran-nigaran bir-birinin üzünə baxır).* Cavad xan mənə məktub göndərib.

**Birinci knyaz.** Cavad xan?

**İkinci knyaz.** Maraqlıdı...

**Keşiş** *(istehza ilə).* Nə yazır?..

**Georgi.** Yazır ki, biz həmişə dost, qardaş olmuşuq...

**Birinci knyaz.** Yalandı, ağ yalandı. Ağa Məhəmməd şah Qacara qoşulub üstümüzə gələn o deyildi?..

**Georgi.** Yazır ki, istəyirəm aramızda sülh olsun...

**İkinci knyaz.** Bu da ağ yalandı... Sülh istəyən adam yüzə qədər gürcü knyazını zindanda əsir saxlamazdı...

**Keşiş.** Özü də bir il yox, beş il yox, düz yeddi il.

**Birinci knyaz.** Zati-aliləri, onun nə isə gizli bir məqsədi var...

**Georgi.** Gizli niyə, açıq... Bizdən Helati monastırındakı Gəncə qapılarını istəyir, özü də təkidlə, hədəylə. O qapıları ki, 1139-cu ildə babamız birinci Dmitri Gəncəni fəth edəndə gətirib Helati monastırında saxlamışdı. Darvazanın bir tayı monastırın dam örtüyündə istifadə olunmuş, digər tayı monastırın cənub hasarına bərkidilmişdir ki, babamız dördüncü Davidin qəbrini qorusun.

**Keşiş.** Görünür, müharibə etmək fıkrindədir...

**İkinci knyaz.** Hə, mən də elə başa düşürəm, sadəcə olaraq bəhanə axtarır...

**Birinci knyaz.** Məsələ çox ciddidir. Nəsə fıkirləşməliyik...

**Georgi.** Fikirləşin...

**Birinci knyaz.** Zati-aliləri, sizcə, Gəncə qapılarını verməsək Cavad xan müharibə eləyər?

**Georgi.** Eləyər. O, çox hiyləgər və fəndgirdir, fürsəti də heç vaxt fövtə verməz. Eşitdiyimə görə, çox güclənib, yanyörəsinə əli qılınc tutan cavanlar yığıb. Bir himə bənddir ki,

üstümüzə gəlsin... Biz isə, təəssüf ki, indi çox zəifik, onların qabağında duruş gətirə bilmərik...

**İkinci knyaz.** Qardaşlar, vətənimiz, doğrudan da, ciddi təhlükə qarşısındadır. Acizlik göstərməməliyik. Ağıl bəzən ən böyük gücün öhdəsindən gələ bilmədiyi işi asanlıqla həll etməyi bacarır. Təklif edirəm ki, özümüzə müttəfiqlər tapaq.

**Birinci knyaz.** Yaxşı fikirdir. Axı Cavad xanı istəməyənlər də az deyil... Məsələn, götürək elə Azərbaycan xanlarını...

**Georgi.** Mən onları yaxşı tanıyıram. Cavad xandan xoşları gəlməsə də, qorxuram ki, Gəncə qapıları məsələsində tərəfkeşlik eləsinlər... Biz o qapıları zəfərlə başa çatan şərəfli döyüşdən sonra hərbi qənimət kimi gətirmişik... Bu bizim böyük tarixi qələbəmizdir... Cavad xan bunu şəninə sığışdıra bilmir!.. Yazır ki, Gəncə qapılarının yeri boş görünür...

**Keşiş.** Məgər Gəncədə dəmir yoxdu? Məgər Gəncədə dəmirçi yoxdu?

**Georgi.** Dəmir də var, dəmirçi də! O, istəsə, bunlardan da qəşəng qapılar düzəltdirər! Amma düzəltdirmir! Tərslik eyləyir! Nəyə görə? Tarixə və qüruruna görə!.. Bir fikrinizlə razıyam: özümüzə güclü müttəfiqlər tapmalıyıq. Amma buna vaxt lazımdır. O isə təcili cavab gözləyir...

**Birinci knyaz.** Əgər Gəncə qapılarını Cavad xana qaytarmalı olsaq, onda gərək bunun əvəzində heç olmasa, əsir gürcü knyazlarının azad edilməsini istəyək.

**Georgi.** Yəni deyirsiniz o məzmunda bir cavab məktubu yazaq?

**İkinci knyaz.** Bəli. Əgər Gəncə qapılarını əvəzsiz versək, deyəcək ki, qorxdular...

*Bu vaxt içəriyə həyəcanlı halda bir saray əhli girir.*

**Georgi** *(əsəbləşir).* Bilmirsən ki, burada hörmətli qonaqlarla məsləhət-məşvərət eləyirəm? Niyə icazəsiz içəriyə təpinirsən?

**Saray əhli.** Zati-aliliəri, indicə elə bir xəbər almışam ki, onu təcili sizə çatdırmağa borcluyam.

**Georgi.** Xəbər? Nə xəbər? Yoxsa, gəncəlilər üstümüzə gəlirlər?

**Saray əhli.** Xeyr! Rusiyanın Qafqazdakı qoşunlarının yeni sərdarı Pavel Dmitriyeviç Sisianov yeddi minlik qoşunu ilə Tiflisə yaxınlaşır.

**Georgi** *(üzü gülür).* Cənablar, bayaqdan müttəfiq, müttəfiq deyirdiniz! Bu da müttəfiq! Gürcü balası Pavel Dmitriyeviç Sisianov özü öz ayağı ilə gəlib çıxdı. Onu təntənə ilə qarşılamalıyıq! Qızıma – Nonaya tapşırım ki, qonaq otağını səliqə-səhmana saldırsın! Pavel Dmitriyeviç yol gəlib, yəqin yorulub, heç olmasa, bir-iki saat dincəlsin. Axşam isə elə burada möhtərəm qonağın şərəfinə böyük ziyafət verəcəyəm! *(Knyazlara).* Hamınızı dəvət edirəm! Vətənimizin, xalqımızın bu uğurlu gününü təntənə ilə qeyd etməliyik! *(Saray əhlinə).* Cavad xanın elçisinə de ki, məktuba bir-iki gündən sonra cavab veriləcək...

**Saray əhli.** Baş üstə! *(Tələsik çıxır.)*

**Georgi.** İndisə gedək Pavel Dmitriyeviç Sisianovu qarşılayaq!

*İşıqlar sönür, səhnə dəyişir.*

## *Dördüncü şəkil*

*Tiflis, gürcü çarı Georginin iqamətgahı. Sisianov üçün ayrılmış qonaq otağı. Sisianov otaqda var-gəl edir və asta-asta danışır.*

**Pavel Dmitriyeviç Sisianov.** Tiflisə daxil olanda gözlərimə inanmadım. Yolun sağ-solunda o qədər adam vardı ki, iynə atsaydın yerə düşməzdi. Sanki bütün Gürcüstan pişvazıma çıxmışdı. Əyinlərinə gen tuman geyinmiş kintolar çalıb-oynayır, buynuz qədəhlərdə uşaqdan tutmuş böyüyə kimi hamıya şərab paylayırdılar. Gürcü çarı Georgi ilə qızı Nona da məni qarşılayanlar arasında idi. Əlbəttə, buna görə çox məmnun oldum. Nona ilə lap köhnə tanışlar kimi görüşdüm, hal-əhval tutdum, sonra üşüyüb-üşümədiyini soruşdum. Əvvəlcə üzümə təəccüblə baxdı, sonra yüngülcə gülümsünüb: "Daha yox", – dedi. Qəribədir, elə bil, mənim də titrətməm keçib getmişdi. Sonra Georgi həzrətlərinin xahişi ilə mən atdan düşdüm, karetada onun yanında əyləşdim və biz saraya yollandıq. Burada mən qonaq otağında yerləşdim, yuyundum, uzanıb bir qədər dincimi aldım, sonra axşamüstü – saat beş radələrində olacaq ziyafətə getməyə hazırlaşdım. *(Səhnədən gedir).*

*İşıqlar sönür, təzədən yanır. Yenə də həmin məkan, yəni gürcü çarı Georginin sarayı. Bayramsayağı bəzədilmiş salonda Pavel Dmitriyeviç Sisianovun şərəfinə böyük ziyafət təşkil olunub. Şənlik məclisində müxtəlif zümrələrə mənsub adamlar iştirak edirlər. Sisianovun istirahət etdiyi qonaq otağının qapısı ziyafət salonuna açılır. Orkestr "Suliko" rəqsini çalır. Qonaq otağının qapısı açılır, Georgi ilə Pavel Dmitriyeviç Sisianov alqış sədaları altında ziyafət salonuna daxil olurlar.*

**Georgi** *(üzünü məclisdəkilərə tutur).* Bu gün vətənimiz və xalqımız üçün son dərəcə əlamətdar bir gündür. Biz öz doğmamızla – Gürcüstanın havadarı Pavel Dmitriyeviç Sisianovla bir yerdəyik. *(Üzünü Sisianova tutur).* Doğma baba yurduna xoş gəlmisiniz! Sizinlə fəxr etməyə haqqımız var. Sevincimizin hədd-hüdudu yoxdur. Bu gün qızım Nona sizə şəxsən saqilik edəcək, badənizə Kartli şərabı süzəcək. Çox güman ki, uzun müddətdir bu şərabdan dadmamısınız. Suram qalasının zirzəmisində saxlanılan bu şərabın nə az, nə çox, düz otuz yaşı var...

**Nona** *(cəld ayağa qalxır, başında iri brilyantlarla bəzədilmiş tac var. O, kənarları qızıl suyuna çəkilmiş buynuzvari badəyə şərab süzür).* Buyurun, cənab!

**Pavel Dmitriyeviç Sisianov** *(badəni alır).* Təşəkkür edirəm! *(Badəni birnəfəsə başına çəkir).* Doğrudan da əla şərabdır!

*Hər tərəfdən alqış sədaları ucalır.*
*Musiqi çalınır. Rəqs başlanır.*

**Nona** (*Sisianovla rəqs edə-edə*) Qəlbimi qəribə bir hiss bürüyüb. Sanki ad günümdür. Mən çəhrayi paltarda, başımda çəhrayi rəngli bant, ətrafımda rəfiqələrim, gənc dostlarım... Dostlarımdan biri məni rəqsə dəvət edir, onunla ilk rəqsimi oynayıram. Bu oğlan çox yaraşıqlıdır, gözəl rəqs edir. Rəfiqələrim mənə həsəd aparırlar... Yox, bu gün mənim nişanımdır... Tiflisin ən yaraşıqlı oğlanı ilə nişanlanıram. Bütün knyazlar, onların xanımları, hamı bizə yığılıb. Barmağıma nişan üzüyü taxırlar, sonra isə vals çalınır... Yox, toyumdu... Mən ağ gəlinlik paltarımdayam, belimə qırmızı lent bağlayırlar, biz əl-ələ tutub karetaya otururuq, küçədə zurnaçılar oyun havası çalır, kintolar rəqs edirlər... Bizi kilsəyə aparırlar, keşiş bizə xeyir-dua verərək kəbinimizi kəsir. Avropada olduğu kimi, bizə

qədəhlərdə şərab gətirirlər... Biz qədəhdəki şərabı axıra qədər içirik... Mən sizi öz müəmmalı hisslərimlə yormuram ki...

**Pavel Dmitriyeviç Sisianov.** Yox, yox, nə danışırsınız? Xoşdu... Sizin kimi bir madmazeli dinləməkdən gözəl nə ola bilər ki...

**Nona.** Lap vaxtında gəldiniz... Atama görə bərk narahat idim... Yazıq kişinin qorxudanmı, həyəcandanmı, əlləri əsirdi... Bilmirəm heç o vəziyyətdə Cavad xana nə cavab yazacaqdı?

**Pavel Dmitriyeviç Sisianov.** Cavad xan kimdi?

**Nona.** Gəncə xanı...

**Pavel Dmitriyeviç Sisianov.** Hə... Hə...

**Nona.** Yaxşı ki, Allah sizi yetirdi... Atama kömək edin...

**Pavel Dmıtriyeviç Sisianov.** Mütləq... Mütləq... Bəs mən bura nədən ötrü gəlmişəm?

**Nona.** Ah, ilahi, mən necə də xoşbəxtəm! Düzünü deyin: mən sizi yersiz sözlər...

**Pavel Dmitriyeviç Sisianov.** Yox, yox... Belə şeyi heç ağlınıza da gətirməyin!..

**Nona.** Bəlkə başqa musiqi çalsınlar, avropasayağı nəsə...

**Pavel Dmitriyeviç Sisianov.** Yox, yox... Məncə, öz musiqimiz daha xoşdur, şərab kimi qana işləyir...

**Nona.** Bəlkə dincəlmək istəyirsiniz?

**Pavel Dmitriyeviç Sisianov** *(gülür).* Nə iş görmüşəm ki, dincəlim...

**Nona.** Onda sizə şərab süzüm...

**Pavel Dmitriyeviç Sisianov.** Yox, bir az ara verək... Hələ qarşıda uzun bir gecə var... Güman edirəm ki, məni tək qoymayacaqsınız... İndisə icazənizlə atanızla bəzi məsələlər haqqında söhbət edim...

**Nona.** Gedin... Amma məni də çox intizarda saxlamayın...

**Pavel Dmitriyeviç Sisianov.** Söz verirəm...

*Pavel Dmitriyeviç Sisianov çar Georgiyə yaxınlaşır.*

**Georgi** *(həyəcanla).* Bəs niyə təksiniz? Nona hanı? Axı mən ona tapşırmışam ki, sizdən bir addım da aralanmasın, qulluq göstərsin... *(Ora-bura baxa-baxa qışqırır).* Nona!.. Nona!..

**Pavel Dmitriyeviç Sisianov.** Narahat olmayın. Mən özüm belə istədim. Dedim ki, ikilikdə bir balaca söhbət edək. Axı mən qulluq adamıyam!

**Georgi.** Ən əsası odur ki, siz gürcüsünüz...

**Pavel Dmitriyeviç Sisianov** *(ucadan gülür).* Ha-ha-ha!

**Georgi.** Niyə gülürsünüz?

**Pavel Dmitriyeviç Sisianov** *(sakit tərzdə).* Heç, yadıma bir şey düşdü...

**Georgi.** Cənab general, bilmək olarmı o şey nədi?

**Pavel Dmitriyeviç Sisianov.** Niyə olmur? Mən döyüşdə qələbə çalanda həmişə rus kimi təriflənmişəm, məğlub olanda isə qabiliyyətsiz gürcü kimi məzəmmət olunmuşam... Nə isə... Bütün bunlar boş şeylərdir... İndi məni maraqlandıran sizin problemlərinizdir...

*Çar Georgi ilə Pavel Dmitriyeviç Sisianov sakit bir guşəyə çəkilirlər.*

**Georgi.** Bilirsiniz ki, biz hər tərəfdən tatarlarla əhatə olunmuşuq. Ən böyük qorxumuz da onlardandır. Düzdü, bəzi xanlarla dil tapmışıq. Amma Gəncə xanı ilə nəinki yola getmək, hətta danışmaq belə mümkün deyil.

**Pavel Dmitriyeviç Sisianov.** Axı o necə adamdı?

**Georgi.** Həddən artıq qürurludu... İtaət etməyi sevmir... Fürsət düşən kimi də gücünü göstərir... Əcdadları kimi döyüşsüz yaşaya bilmir. Məndən Gəncə qapılarını istəyir. O qapıları ki, məhz sənin babaların Şəmşəddin döyüşündən sonra onları hərbi qənimət kimi gətiriblər. O döyüşdən yadigar qalan tək

nişanə onlardı... Özün de, xaç qədər qiymətli Gəncə qapılarını necə qaytara bilərik? Nə tarix, nə də babalarımızın ruhu bizi bağışlamaz. Hələ nə qədər torpaqlarımızı zəbt ediblər! Buna baxmayaraq əmin-amanlıq əhdnaməsi imzalamışıq ki, aramızda sakitlik olsun... Amma xeyri yoxdu, bir balaca güclənən kimi bəhanə tapıb üstümüzə gəlirlər...

**Pavel Dmitriyeviç Sisianov.** Yəni onlar elə güclüdürlər?

**Georgi.** Güclüdürlər. Təkcə kişiləri yox, arvadları da döyüşürlər.

**Pavel Dmitriyeviç Sisianov.** Deyəsən, gözünüzün odunu bərk alıblar. Bəs heç zəif cəhətləri yoxdur?

**Georgi.** Var. Azərbaycan xanlarının arasında birlik və mehribanlıq yoxdur. Fürsət düşən kimi bir-biriləri ilə didişirlər.

**Pavel Dmitriyeviç Sisianov.** Aydındır. Bəs ermənilər necə, onlara arxalanmaq olar?

**Georgi.** Tatarlardan fərqli olaraq ermənilər çox hiyləgərdilər, həm də xəbis və xaindilər. Satqınlıqda da tayları-bərabərləri yoxdu. Qafqaza gəlmədilər, özlərinə kaxtağan – dar ağacından qaçmışlar deyirlər. Əri çox olmuş arvaddan, ağası çox olmuş quldan nə gözləmək olar? Belədilər də! Əsasən, qarınlarını güdürlər. Çörəklərini bir gün verməsən oğurluq edəcəklər, iki gün verməsən başını kəsəcəklər, üç gün verməsən od vurub evini yandıracaqlar...

**Pavel Dmitriyeviç Sisianov.** Bəs ermənilərin tatarlara münasibətləri necədi?

**Georgi.** Üzdə yaxşı, altda pis... Üzdə kirvə, altda düşmən...

**Pavel Dmitriyeviç Sisianov.** Çox yaxşı. Elə məni də üz yox, alt maraqlandırır. Sən narahat olma. Cavad xana mən özüm məktub yazacağam... Deyəsən, Nonanı çox tək qoydum.

**Georgi.** Nona!.. Nona!.. Pavel Dmitriyeviçə və mənə şərab süz!...

*Nona gəlir. Pavel Dmitriyeviç Sisianova və atasına şərab süzür.*

**Georgi.** İçək Gürcüstanın şərəfinə!

## *Beşinci şəkil*

*Musiqi səslənir. Pavel Dmitriyeviç Sisianovla Nona rəqs edə-edə qonaq otağına keçirlər.*

**Loris** *(səhnəyə gəlir və əlindəki kitabı açıb oxuyur)*. Vartapet Foma Metsopski on dördüncü əsrin ikinci yarısında Van gölünün sahilində yerləşən Aqiovit mahalında dünyaya göz açıb. Mömin bir şəxs olan atası Stepannos onu təhsil almaq üçün dövrünün məşhur vartapetlərinin – Sərkislə Vartanın dərs dedikləri Suxara məktəbinə aparıb. Foma burada on iki il oxuduqdan sonra Metsop Monastırına gəlib. *(Bir qədər duruxduqdan sonra)*. Deməli, belə çıxır ki, monastırın adını özünə ləqəb götürüb... Foma... Foma Metsopski... Yaxşı, görək sonra nə olub... *(Kitabı oxuyur)*. Burada otuz beş il dərs deyib. 1441-ci ildə Kilikiyada rubenidlər hakimiyyəti məhv edildikdən sonra katalikos taxtını Eçmiadzinə köçürüb... *(Bir qədər duruxduqdan sonra yenidən kitabı açıb oxuyur)*. Vah, gör nə yazır: "Üç cür zaman var: keçmiş zaman, indiki zaman, gələcək zaman. Vartapetlər keçmiş zamanda olmuş hadisələri nəql etməli, indiki zamanda olan hadisələri araşdırmalı, gələcək zamanda olacaq hadisələr haqqında isə xəbər verməlidirlər. Eyni zamanda haykazyan xalqına başa salmalıdırlar ki, bizim əzəli və əbədi düşmənimiz Orta Asiya padşahları, Azərbaycan xanları

və Osmanlı sultanlarıdır.Onlardan canımızı qurtarmaq üçün çalışıb həmişə özümüzü yazıq və biçarə göstərməli, xristian qardaşlarımızdan kömək ummalıyıq... " (*öz-özünə*) Biz elə belə edirik də... *(Dua oxuya-oxuya xaç çevirir)*.

*İşıqlar dəyişir.*

*Gecədir. Xoruz banına hələ xeyli var. Gəncə yuxudadır. Qəfildən Cavad xanın sarayının darvazası bərkdən döyülür. Cavad xan yatağından qalxır, paltarını geyinir, qılıncını qurşanır. Darvaza yenə bərkdən döyülür.*

**Cavad xan** *(eşikağasını səsləyir)*. A gədə, Əhməd, Əhməd, nə yaman bərk yatmısan? Eşitmirsən darvazanı döyürlər, qalx, gör kimdi, nə istəyir gecənin bu aləmində?

**Əhməd** *(yan otaqdan səsi eşidilir)*. Vallah, eşitməmişəm, ağa. Qalxdım, qalxdım...

**Cavad xan** *(öz-özünə)*. Birinci dəfədir ki, gecənin bu vaxtı darvazamı döyürlər. Görəsən, kimdi? Ya çox simsar, ya da çox nabələd adamdı. Təki xeyir olsun...

**Əhməd** *(içəri girib təzim edir)*. Ağa, səkkiz atlıdır. Səni görmək istəyirlər.

**Cavad xan.** Kimlərdi?

**Əhməd.** Ağa, tanımıram.

**Cavad xan.** Nə istəyirlər?

**Əhməd.** Ağa, deyirlər ki, bizi Qafqazdakı qoşunların yeni sərdarı göndərib, gərək bu saat Cavad xanı özümüzlə Tiflisə aparaq.

**Cavad xan** *(bir qədər fikrə gedəndən sonra)*. Onlara de ki, getsinlər karvansaraya, səhər namazından sonra gələrlər, söhbətimizi eləyərik...

*Əhməd gedir. Şükufə xanım yan otaqdan çıxır.*

**Cavad xan.** Gəlin necədi?

**Şükufə xanım.** Lap yetirib. İstəyirəm Əhmədi göndərim mamaçanı gətirsin.

**Cavad xan.** Mamaça gələnə kimi özün yanında ol. Qoyma tək qalsın.

**Şükufə xanım.** Gedirəm, gedirəm, narahat olma. Səs-küy eşitdim, gəldim. Kim idi gələn?

**Cavad xan** *(yüngülcə gülümsünür).* Yuxuda gördüyüm bayquş...

**Şükufə xanım.** Heç nə başa düşmədim...

**Cavad xan.** Urus çarı Qafqaz qoşunlarına yeni sərdar təyin eləyib. Tiflisdə oturur. Adamlarını göndərib ki, gedin Cavad xanı götürün, gətirin bura...

**Şükufə xanım.** Bəs niyə gündüz yox, gecə vaxtı?..

**Cavad xan.** Yəqin demək istəyir ki, bax, mən səni istədiyim vaxt yuxudan durğuza bilərəm. Fikir vermə... Belələrini çox görmüşəm... Sən gəlinin yanına get... Tək qalmasın...

*Cavad xan sübh namazını qılır.*

**Cavad xan** *(əllərini göyə qaldırır, dua oxuyur).* Ya rəbbim, səndən bir təmənnam var: vətənimi və xalqımı hifz elə! Qəlbimizə sevgi toxumu səp, bizi birləşdir, parçalanmağa və ayrılmağa qoyma! Bir dövlətimiz olsun! Səndən bundan başqa heç bir təmənnam yoxdur! Hürr yaşayaq! Bəni-insana bəxş etdiyin ən böyük nemәti – azadlığı bizdən əsirgəmə! Könlümüzü şəfqətinlə bəzə! Rəhmətlik atam Şahverdixan deyərdi: “Nə kimsənin haqqını ye, nə kimsəyə haqqını yedirt!”. Ya rəbbim, ruhumuzu azad qıl! *(Duasını qurtarandan sonra eşikağasını səsləyir. Əhməd otağa daxil olur*).

**Cavad xan.** Sərdarın göndərdiyi adamlar gəliblər?

**Əhməd.** Ağa, heç gediblər ki, gəlsinlər də? Səhərəcən darvazanın ağzında qalıblar.

**Cavad xan** *(gülür)*. Ta de ki, bizə keşik çəkiblər...

**Əhməd.** Nə bilim, ağa, vallah...

**Cavad xan.** Başçılarına de ki, gəlsin...

**Əhməd.** Baş üstə, ağa!

*Əhməd çıxır. Loris Melikyan otağa daxil olur.*

**Loris.** Sabahınız xeyir, xan.

**Cavad xan** *(zəndlə Loris Melikyana baxır)*. Elə bil, səni haradasa görmüşəm... Tanış gəlirsən...

**Loris.** Lorisəm də, xan... Sizin dəyirmanda işləyən...

**Cavad xan.** O daşları dəyişən?

**Loris.** Bəli...

**Cavad xan.** Orada işini qurtarmısan?

**Loris.** Bəli...

**Cavad xan.** Bəs indi nə işlə məşğulsan?

**Loris.** Tiflisdəyəm. Sərdarın yanında.

**Cavad xan.** Sərdar nə vaxt gəlib Tiflisə?..

**Loris.** İki gün bundan əvvəl...

**Cavad xan.** Elə o saat da fürsət tapıb qoltuğunun altına girmisən? O da ermənidi?

**Loris.** Heyif ki, yox... Gürcüdü...

**Cavad xan.** Adı-familiyası nədi?

**Loris.** Pavel Dmitriyeviç Sisianov.

**Cavad xan.** Nəçidi?

**Loris.** Hərbçidi.

**Cavad xan.** Rütbəsi nədi?

**Loris.** General.

**Cavad xan.** Görünür, yetimxanada böyüyüb. Atasız-anasız olub, hə?

**Loris.** Yox...

**Cavad xan.** Necə yox? Uruslar həmişə başqa xalqların kimsəsiz uşaqlarından özlərinə generallar hazırlayıblar.

**Loris.** Yox, xan, bu knyaz nəslindəndir...

**Cavad xan.** Əşi, indi hansı gürcünü dindirirsən, deyir ki, mən knyaz nəslindənəm. Mənim zindanımda yüz gürcü əsir var, yüzü də deyir ki, mən knyazam... Knyaz bir olar, üç olar, beş olar, ta yüz olmaz ki...

**Loris.** Xan, bu çox kübar adamdı...

**Cavad xan.** Kübar adam qələt eləyər gecə vaxtı adamın evinə adam göndərməz... De görüm nəyə gəlmisən?

**Loris.** Xan, sizi özümlə Tiflisə aparmalıyam. Bütün Qafqaz qoşunlarının sərdarı knyaz Sisianovun əmri belədir.

**Cavad xan.** Knyaz Sisianov bütün Qafqaz qoşunlarının yox, hətta Gürcüstanın sərdarı da ola bilər, çünki Gürcüstan könüllü surətdə Rusiya ilə birləşib...

**Loris.** Xan, siz artıq Gəncənin xanı deyilsiniz, hökmdarlıqdan kənarlaşdırılıbsınız.

**Cavad xan.** Bunu Sisianov deyir?

**Loris.** Bəli.

**Cavad xan.** Ona çatdır ki, Gəncə xanlığı müstəqil dövlətdir. Onun öz ərazisi, öz bayrağı, öz gerbi, öz pulu, öz möhürü, öz hökmdarı var. Gəncə Rusiyanın himayəsinə keçməyib və keçməyəcək də!..

**Loris.** Xan, cənab Sisianov müharibə etmək fıkrində deyil. İstəyir ki, sizinlə dost olsun...

**Cavad xan.** Dostu-düşməni mən özüm seçirəm...

**Loris.** O, istəyir ki, hər şey xoşluqla həll olsun...

**Cavad xan.** Xoşluqla... Yəni necə?..

**Loris.** Cənab Sisianov istəyir ki, siz xan olmağına yenə xan olasınız. Ancaq bunun müqabilində hər il ona iyirmi min

manat pul, iki yüz əlli tağar buğda, iki yüz əlli tağar yarma, altı yüz tağar arpa verəsiniz. Bunun əvəzində isə dolanışığınız üçün hər gün on manat gümüş pul alasınız... Qoşununuzu buraxıb Gəncə qalasını tamamilə boşaldasınız. Orada yerləşdiriləcək rus əsgərlərini azuqə ilə təmin edəsiniz. Şəmşəddin mahalının işlərinə qarışmayasınız. Ora Gücüstana verilib... Rus padşahına sədaqətlə qulluq edəcəyinizə and içəsiniz. Hə, bir də oğlunuz Hüseynqulu ağanı Tiflisdə cənab Sisianovun yanında əmanət qoyasınız...

**Cavad xan.** Mənim onsuz da orada iki əmanətim var. Onlar bəs eləmir?

**Loris** *(təəccüblə)*. İki əmanətiniz var?

**Cavad xan.** Bəli! İki əmanətim var! Gəncə qapıları! Georgiyə de ki, Sisianova çox da arxayın olmasın! Ona məktub yollamışam, cavab versin! O ki qaldı sənin təzə ağana, ona da de ki, belə şeylər qılıncla həll olunur! *(Qılıncını sıyırır).*Onu Qafqaza əcəl gətirib!

**Loris** (*qorxmuş halda*). Xan, başına dönüm, baş üstə, deyərəm. Bir məktub yazın, aparım. Mən kiməm ki? Buyruq qulu. Siz deyirsiniz ki, dəyirmana daş gətir, gətirirəm, o deyir ki, get ona bu sözü çatdır, çatdırıram... Yenə deyirəm: Mən kiməm ki? Buyruq qulu...

**Cavad xan.** İndi rədd ol buradan, buyruq qulu! *(Loris qorxmuş halda səhnəni tərk edir).* Dünyanın o başından yaz, yay, payız, qış demədən illərlə yol gələn adam mənzil başına çathaçatda mənim bir cümləmlə geri qayıtmaz. Ruzigar pis əsdi. Mənim iki yolum var. Ya təslim olmalıyam, ya döyüşməliyəm. Təslim olsam ola bilər ki, arvad-uşağıma dəyməsinlər, özümə də sür-sümükdən versinlər, şərəf, namus, qeyrət getsin işinə, camaat yanında hörmətdən düşüm, xəcil olum. Döyüşsəm, əsir düşsəm, yaralansam, ya ölsəm, arvad-

uşağıma aman verməzlər, nəvələrimi qılıncdan keçirəcəklər. Yox, mən döyüşməliyəm. Çünki birinci yolun əzabı ikinci yolun əzabından çoxdur. Yox! Mən döyüşməliyəm! Qürurum, azadlığım üçün döyüşməliyəm! Vətənim, xalqım üçün döyüşməliyəm!

*İşıqlar sönür.*

## *Altıncı şəkil*

**Loris** *(səhnəyə gəlir və əlindəki kitabı açıb oxuyur)*. "Teymurləng sübh tezdən Van vilayətindəki Erməni qalasına hücum etdi. Vay, qanlı fələk! Vay, acı tale! Burada axirət divanını xatırladan dəhşət və vahimə görmək olardı. Bütün qala matəmə bürünmüşdü, hər yandan hönkürtü və hıçqırıq səsləri eşidilirdi. Amansız hökmdar qadın və uşaqları əsir götürməyi, kişiləri isə qaladan atmağı əmr etmişdi. Meyitlər bir-birinin belində o qədər qalaqlanmışdı ki, xoşbəxtlikdən mən lap üstə düşdüm, ölmədim, sağ qaldım..." *(Öz-özünə)* Vay... Vay... Gör necə olub ki, biçarə, yazıq vartapet Foma Metsopsi sağ qalıb... *(Ora-bura baxır, kimsənin olmadığını yəqin edəndən sonra)*. Mənim burada yazılanlara zərrə qədər də şəkk-şübhəm yoxdur. Hamısı həqiqətdir. Hökmdarın qadın və uşaqları əsir götürməyi də, kişiləri qaladan atdırmağı da, Foma Metsopskinin meyitlərin üstünə düşüb sağ qalmağı da... Amma məni çaşdıran bu qala məsələsidir... Axı biz nə vaxt qala tikdik ki, adını da qoyaq Erməni qalası?.. Yəqin belə məsləhətdir... *(Çiynini çəkir)*. Nə bilim?..

*İşıqlar sönür. Səhnə dəyişir. Sisianovun qaldığı mülk.*
*Bura, eyni zamanda hərbi qərargahdır. İçəridə soba yanır.*
*Nona buynuzvari badəyə şərab süzür.*

**Pavel Dmitriyeviç Sisianov** *(badəni yuxarı qaldırır. Şərabdan bir-iki qurtum içir).* Bağışlayın ki, iş çox olduğuna görə sizə az vaxt ayıra bilirəm... Çox istəyərdim ki, qədim bir gürcü havası çalsınlar... Oynaq... Şən... Kədərli musiqidən zəhləm gedir... Vals oynamaq... İstərdim ki, sizə cəbhə xatirələrimi danışım... Güman edirəm ki, bütün bunlara vaxt tapacağıq...

**Nona.** Məni ancaq Gürcüstanın taleyi, itirilmiş torpaqlarımızın aqibəti düşündürür. Gürcüstanın təklənməsi, itmiş torpaqlarımızın qaytarılması...

**Pavel Dmitriyeviç Sisianov.** Mən bu haqda Cavad xana məktub yollamışam... Göndərdiyim adamlar Gəncədən çoxdan qayıtmalı idilər. Heç bilmirəm, niyə belə yubandılar? Bu işlə birbaşa şəxsən Portnyakin məşğuldur... Onu çağırtdırmışam... Bir azdan gələcək... Görək nə xəbər gətirir...

**Nona.** Gözləyim, yoxsa gedim...

**Pavel Dmitriyeviç Sisianov.** Yox, yox, siz gedin... Gecdir... Atanıza da məndən salam söyləyin... Narahat olmasın... Mən hələ ölməmişəm ki, ana Gürcüstan tarix qarşısında yetim kimi boynunu büksün!..

**Nona.** Sağ olun. *(Gedir).*

**Pavel Dmitriyeviç Sisianov.** Qəribə soyuqdu... Heç Alp dağlarında da belə üşüməmişəm... *(Sobanın yanına gedir).* Nə Nona, nə də ki, şərab məni qızdırır... Heç sobanın da istisini hiss etmirəm... Bəlkə, qocalıqdandır?.. Yoxsa, xəstələnmişəm?.. Bəlkə, ümidsizəm?.. Bəlkə bu, qəzavü-qədərin soyuğudu, vurur məni...

*Portnyakin otağa daxil olur.*

**Pavel Dmitriyeviç Sisianov.** Portnyakin nə oldu, Lorisdən bir xəbər çıxmadı?

**Portnyakin.** Cənab Sisianov, elə indicə gəldi.

**Pavel Dmitriyeviç Sisianov.** Cavad xan da gəlib?

**Portnyakin.** Yox... Məktub göndərib... *(Məktubu uzadır)*. Lorisi çağırımmı?

**Pavel Dmitriyeviç Sisianov.** Portnyakin, mən maymaqları qəbul etmirəm... İş tapşırdıq, öhdəsindən gələ bilmədi... Ona nə isə bir yaxşılıq etmək istəyirdim... Bəxtindən küssün... *(Məktubu açıb oxuyur. Rəngi dəyişir. Məktubu ovcunda əzişdirir, sonra açıb əziklərini düzəldir, sığallayır, bir də oxuyur, uzun-uzadı düşünəndən sonra qatlayıb cibinə qoyur).*

**Portnyakin.** Cənab Sisianov, deyilənə görə, Cavad xan kobud adamdı... Etik normalara uyğun gəlməyən bir şey yazmayıb ki?

**Pavel Dmitriyeviç Sisianov.** Yox... yox... Elə bir şey yazmayıb... Cəmi-cümlətanı bir cümlədi... O da ki, şəxsi... Vəssəlam... Belə görünür ki, gəlmək, tabe olmaq istəmir... Dikbaş!..

**Portnyakin.** Deməli, hərb yolunu seçib... Müharibə etməli olacağıq?..

**Pavel Dmitriyeviç Sisianov.** Bəli!.. Olsun!.. Sən qələm-kağız götür, dediklərimi yaz... *(Portnyakin qələm-kağız götürüb yazmağa başlayır).* Avar hökmdarı Əhməd xana! Neçə vaxtdır ki, Tiflisdəyəm. Çox istəyirəm ki, bir vaxt tapıb sizinlə görüşüm – üç-beş gün qonağınız olum... Amma nə edim ki, hərbi işlərdən başım açılmır. Açığını deyim ki, özümdə də bir az günah var. Görəsən, Allah məni niyə belə əzazil yaradıb? Mən döyüş meydanlarını sevirəm! İstəyirəm ki, insan kəllələri yerdə alma kimi diyirlənsin, çaylardan su əvəzinə qan axsın. *(Portnyakinə)* Üzümə elə baxırsan ki, elə bil, heç vaxt təxribatla məşğul olmamısan. Yaz... İstəyirəm ki, hücum etdiyim yerlərdə çoxlu ot tayaları olsun, od vurub yandırım!.. Alov ərşə dirənsin!.. Uca-uca imarətləri uçurum... İnsan qışqırığı mal-qara böyürtüsünə qarışsın...

**Portnyakin.** Cənab Sisianov, düzü, bu məktubdan bir şey başa düşmədim...

**Pavel Dmitriyeviç Sisianov.** Niyə? Hər müharibəni döyüşdən əvvəl psixoloji cəhətdən udmaq lazımdır.

**Portnyakin.** Biz Əhməd xanla müharibə edəcəyik, yoxsa Cavad xanla?

**Pavel Dmitriyeviç Sisianov.** Əlbəttə, Cavad xanla!

**Portnyakin.** Bəs onda niyə məktubu Əhməd xana yazırıq?

**Pavel Dmitriyeviç Sisianov.** Səncə, mən müharibə etdiyim Azərbaycan xanlarının hər birinə belə məktub yazmalıyam? Əhməd xanı yaxşı tanıyıram... Sankt-Peterburqda dosyesini də oxumuşam... Ağzı yırtığın biridir... Sirr saxlamağı bacarmır... Xəbərçilikdən də xoşu gəlir... Özü də, birinin üstünə beşini qoyub Azərbaycan xanlarına, o cümlədən Cavad xana da danışacaq... İndi başa düşdün?

**Portnyakin.** Bəli, cənab Sisianov.

**Pavel Dmitriyeviç Sisianov.** Onda, məktubu yubatma. Tez göndər...

**Portnyakin** *(hərbi vəziyyət alır)*. Oldu, cənab Sisianov! Gedə bilərəm?!

**Pavel Dmitriyeviç Sisianov.** Gedə bilərsən. (*Portnyakin gedir. Sisianov Cavad xanın göndərdiyi məktubu cibindən çıxarır. Arxadan Cavad xanın səsi eşidilir).* Sizi Qafqaza əcəl gətirib! *(Məktubu əzişdirəndən sonra sobaya atır.)* Baxarıq!.. Baxarıq!..

*Birinci pərdənin sonu.*

# İKİNCİ PƏRDƏ

## *Yeddinci şəkil*

*Çar Georginin sarayı.*
*Keşiş və knyazlar dövrələmə əyləşiblər.*

**Georgi.** Hörmətli ruhani Ata! Hörmətli cənablar! Sizə bir xoş xəbər verəcəyəm. Düzü, mən çox qorxurdum ki, Cavad xan gələr Pavel Dmitriyeviçlə görüşər, ünsiyyət yaradar, dostlaşar. Nə olsun ki, gürcüdü, hər halda, qulluq adamıdı, dövlətin mənafeyini qoyub, bizi tutmayacaq ki? Bundan da bizə bir ziyan dəyər. Amma xoşbəxtlikdən belə olmadı. Cavad xan həmişəki kimi dikbaşlıq elədi. Bununla da Sisianov həzrətlərinin qəzəbinə tuş gəldi! İndi ümid edə bilərik ki, cənab Sisianov həzrətlərinin öz məktubunda yazdığı kimi, Şəmşəddin mahalı yaxın günlərdə bizim olacaq...

**Birinci knyaz.** Bəs Gəncə, Qazax?

**Georgi** *(gülümsəyərək)*. Onlar da bir qədər sonra... Tələsməyin...

**Keşiş.** Azad olunan yerlərdə ilk növbədə, dini ocaqlar – kilsələr tikməliyik...

**Georgi.** Bəli, bəli... Düz buyurursunuz. Sizinlə tamamilə razıyam.

**Keşiş.** Təəssüf ki, Sisianov həzrətləri – gürcü balası hələ indiyə kimi kilsəmizə təşrif buyurmayıb. Görüşüb söhbət edə bilməmişik... Halbuki bu çox vacibdir. Çünki dinimiz hörməti

üstün tutur, insanları ədəbli olmağa, bir-birini sevməyə çağırır. Tutaq ki, Gürcüstan Rusiyanın təbəəliyini qəbul etdi. Çar məmurları xristian gürcü kilsəsinə hörmət-izzətlə yanaşacaqlarmı?

**Georgi.** Yəqin yanaşacaqlar, onlarda xristiandılar. Ruhani ata, ondan inciməyin, qulluq adamıdı, işi-gücü çox olur. Bir də bayaq dediyim kimi, nə olsun ki, əslən gürcüdü. Sankt-Peterburq tərbiyəsi alıb. O gəlmir, siz gedin! Mehribanlıq göstərin! *(Knyazlara).* Bu söz sizə də aiddir. Gündə biriniz yanına gedin, həmsöhbət olun, qiymətli hədiyyələr aparın. Gərək onun da yuxarılara verməyə əlində bir şey olsun...

**Birinci knyaz.** Əlbəttə... Əlbəttə... Yoxsa o mərtəbədə dayanmaq elə də asan deyil. Elə vurarlar ki, guppultuyla gedərsən.

**İkinci knyaz.** Biz gərək hərbi işlərdə də ona kömək edək.

**Georgi.** Bəli, lazımdır! Nə olsun ki, öz ixtiyarında yeddi minlik qoşun var.

**Birinci knyaz.** Min əsgər də biz versək, pis olmaz.

**Georgi.** Verərik... Verərik... Əlavə bir şey lazım olsa, Nona ilə məsləhətləşsin, hər gün yanındadır. Tapşırmışam ki, ondan bir dəqiqə də aralanmasın. Biz çalışmalıyıq ki, Sisianov nəyin bahasına olur-olsun, öz qoşunu ilə Gəncəyə girsin. Cavad xan hələ də məni hədələyir... Lorisdən xəbər göndərib ki, heç kəsə arxayın olma, Gəncə qapılarını qaytar. *(Knyazlara).* Cənablar, biz çox passivik, çox! Övlad bizimdir, amma yan-yörəsindəkilərin çoxu ermənilərdir. Baş açabilmirəm, bunlar nə cür məxluqdular – su kimi hər yerə sızırlar.

**Keşiş.** Onlar Cavad xanı Sisianova, Sisianovu da Cavad xana satıblar. Bilinmir ki, kimə xidmət edirlər.

**Birinci knyaz.** Bilinir... Bilinir... Özlərinə, yalnız özlərinə... Guya onları tanımırsınız.Bizə nə qədər badalaq gəliblər. Çörəyimizi yeyib, suyumuzu içmələrinə baxmayaraq, bir balaca imkan düşən kimi kəndirimizi kəsərlər. Fitva verməkdə mahirdilər. Səni kimlə desən, hətta öz qardaşınla da düşmən edərlər. Mayaları məkr və hiylədən yoğrulub.

**Georgi.** Çox, çox ehtiyatlı olmalıyıq... Unutmamalıyıq ki, indi Gürcüstanın taleyi həll olunur...

*İşıqlar dəyişir.*

## *Səkkizinci şəkil*

*Cavad xanın mənzili. Cavad xan Şükufə xanımla söhbət edir.*

**Cavad xan.** Bir atalar məsəli var, istəyirəm ki, onu bir yoxlayım, necə bilirsən?

**Şükufə xanım.** O nə məsəldi ki?

**Cavad xan.** Atalar deyiblər ki, torpağı daşlı, arvadı qardaşlı yerdən al. Mən də elə eləmişəm.

**Şükufə xanım.** Nə itirmisən ki?

**Cavad xan.** Heç nə... Amma ilgək get-gedə daralır. Bir yandan urus generalı Sisianov, bir yandan da gürcü çarı Georgi... Xanimanımı dağıtmaq istəyirlər. Bax, belə gündə dost-düşmən həm yada düşür, həm də bəlli olur.

**Şükufə xanım.** Sən mənim qardaşlarımda nə vaxt etibarsızlıq görmüsən?

**Cavad xan.** İndiyə qədər heç dara düşmüşəm ki, görəm kim kimdir? Amma indi baxıb görürəm ki, vəziyyət, həqiqətən də...

**Şükufə xanım.** Sən Allah bəsdi! Niyə çətin olur?.. Azərbaycan təkcə sənin vətənin deyil ki... Bütün xanlara xəbər

elə, gəlsinlər. Danışın, bir çıxış yolu tapın... Allah eləməmiş, sonradan iş-işdən keçər.

**Cavad xan.** Yox, Şükufə xanım, heç kəsə ağız açan deyiləm. Bir də ağız açıb nə deyim? Özləri hər şeyi məndən də yaxşı bilirlər. Gələn gələr, gəlməyən də gəlməz...

**Şükufə xanım.** Sən xanları Uğurlunun uşağının "adqoyma" mərasiminə çağırmayacaqsan?

**Cavad xan.** Əlbəttə, çağıracağam.

**Şükufə xanım.** Onda ağızlarını elə belə arayarsan.

**Cavad xan.** Yox, bu mənim şənimə yaraşmaz. Özləri söhbət salsalar, deyəcəyəm, salmasalar heç nə olmamış kimi susacağam.

**Şükufə xanım.** Söz salarlar, salarlar... Səni tək qoymazlar. O ki qaldı qardaşlarıma, başlarının dəstəsi ilə gələcəklər.

**Cavad xan** (*gülür*). Ta de ki, bütün mahalı gətirəcəklər!

**Şükufə xanım.** Bəs nə bilmişdin?!

*İşıqlar dəyişir.*

## *Doqquzuncu şəkil*

*Cavad xanın sarayı. Qonaq otağı.*

**Cavad xan** (*qonaqlara*). Məhəmməd xan, nə olub, niyə fikrə getmisiniz?

**Məhəmməd xan.** Heç, Cavad xan, deyirəm vaxt nə tez gəlib gedir. Elə bil dünən Uğurlunun "adqoyma" mərasiminə yığışmışdıq, bu gün isə onun oğlunun... Gözün aydın, böyük oğlan olsun...

**Cavad xan.** Sağ ol, Məhəmməd xan!

**Vəli xan.** Gəncə çox gözəlləşib... İki göz istəyir ki, baxsın... Cümə məscidinə də söz ola bilməz.

**Cavad xan.** Memarı Kərbəlayı Sadıqdır.

**Vəli xan.** Mən də Göyçədə belə bir məscid tikdirmək istəyirəm.

**Cavad xan.** İnşallah. Tikdir, savabdı.

**Məhəmməd xan.** Cavad xan, kəsdirdiyin gümüş pulları aldım. Payın çox olsun. Xoşuma gəldi. Urusun, firəngin pulundan pis deyil ki, yaxşıdı...

**Vəli xan.** Güzgü də xoşumuza gəldi.

**Cavad xan.** A kişilər, bir əyləşin. Yoldan gəlmisiniz, yorulmusunuz. Bir stəkan çay için. Sonra danışarıq...

**Məhəmməd xan.** Nökər-qaravaş danışırdı, eşitdim. Deyirlər ruslar Gəncəyə yürüşə hazırlaşırlar?

**Vəli xan.** Düzü, bu xəbəri mən də eşitmişəm. Təzə sərdarın familyası Sisianovdu?

**Cavad xan.** Bəli.

**Vəli xan.** Əhməd xan ondan elə şeylər danışır ki... Çox zalım və qəddar adamdır...

**Cavad xan.** Sirkə nə qədər tünd olsa, öz qabını çatladar...

**Məhəmməd xan.** Mən inanmıram ki, Sisianov Gəncənin üstünə gəlsin.

**Vəli xan.** Mən də inanmıram.

**Məhəmməd xan.** General Zubov necə, o da elə.

**Vəli xan.** Çalışarıq ki, səninlə dostluq eləsin.

**Cavad xan.** İlanın ağına da lənət, qarasına da.

**Məhəmməd xan.** Gərək elə edək ki, arada sülh olsun. Bu sülhə, əmin-amanlığa görə mən nələr etmədim? İrandan, Qarsdan köçürülən erməniləri İrəvan xanlığında yerləşdirdim. Ev tikmək üçün torpaq ayırdım. Kimisi ticarətlə məşğul oldu, kimisi dülgərlik və bənnalıqla, kimisi pinəçiliklə, dulusçuluqla. Hətta kilsə tikdirməyə belə icazə verdim. Amma indi görürəm ki, düz eləməmişəm. Belə getsə əmin-amanlıq naminə, deyəsən, hər şeyi verəcəyik.

**Vəli xan.** Düzü, mən də bezmişəm. Açığı, əmin-amanlıq olanda camaatı idarə etmək asandır. Sakitlik yaxşıdır. Adam öz iş-gücü ilə məşğul olur. Amma di gəl ki, ara qarışır, məzhəb itir, aləm dəyir bir-birinə. Yuxarı tüpürürsən saqqaldı, aşağı tüpürürsən bığ. Cavad xan, adam hakimiyyətə öyrənəndən sonra onu heç vəchlə itirmək istəmir. Sən elə et ki, bu təzə qoşun böyüyü də bizimlə dost olsun.

**Cavad xan.** General Zubovla birtəhər dostlaşmışdıq. Sözümə qulaq asırdı.

**Vəli xan.** İstəsən, bu da qulaq asar.

**Cavad xan.** Yox. Bunun dost olmaq niyyəti yoxdur.

**Məhəmməd xan.** Haradan bilirsən?

**Cavad xan.** Dost olmaq istəyən köpək oğlu səhər namazına xeyli qalmış məni yuxudan oyatmazdı. Deyəsən, siz...

**Vəli xan.** Yox, yox nə danışırsan? Sənin başın harada, bizimki də orada. Amma yenədə yaxşı-yaxşı fikirləşmək lazımdır. Bu, ermənilərin də qurğusu ola bilər.

**Məhəmməd xan.** Hə, tədbirli olmalıyıq. İndi sənin fikrin nədir?

**Cavad xan.** Sisianov istəyir ki, urus təbəəliyini qəbul edim. Şəmşəddini də gürcülərə verim. Mən bu şərtlərin heç birini qəbul edə bilmərəm.

**Vəli xan.** Bəs müharibə eləsə necə? Tab gətirə biləcəksənmi? Onun topu, pulemyotu var, üstəlik əsgəri də çoxdur.

**Cavad xan.** Bilirəm, Vəli xan, bilirəm. Amma əmin olun, gücüm çatdığı qədər vuruşacağam! Ölsəm də, döyüş meydanında öləcəyəm!.. Bu gün mən Şəmşəddini versəm, sabah nəvələrim Gəncəni verəcəklər... Bu gün mən təbəəliyi qəbul etsəm, sabah nəvələrim dünyaya təbəə kimi gələcəklər... Nəvə babanın qoruduğunu qoruyar! Bu gün mən vuruşsam, sabah da nəvələrim vuruşacaqlar! Biz ruhun azadlığı uğrunda

döyüşməliyik!.. Yalnız azad ruha malik insanların vətəni və dövləti olur! Mən də istəyirəm ki, başqaları kimi vətənim və dövlətim olsun!...

**Vəli xan.** Cavad xan, bu dediklərin təkadamlıq iş deyil! Onda gərək biz də sənə kömək edək! Günü sabah ixtiyarına beş yüz atlı göndərəcəyəm.

**Məhəmməd xan.** Min atlı da mən verərəm. Özüm də gələrəm... Çiyin-çiyinə döyüşərik... Amma silahımız yoxdu...

**Cavad xan.** Qılıncımız da, kifayət qədər tüfəngimiz də var... Təki namusumuz, qeyrətimiz olsun, birləşək... Yumruğu bir yerə vuraq... Qətiyyətli olaq... Amma qardaşlar, and olsun bizi yaradana, mən sizi bura buna görə yox, Uğurlunun oğlunun "adqoyma" şənliyinə çağırmışam.

*İşıqlar dəyişir.*

## *Onuncu şəkil*

*Sisyanovun Gəncə yaxınlığındakı düşərgəsi.*
*O, boynuna şərf dolayıb. Soyuqdan büzüşüb.*
*Portnyakin gəlir.*

**Portnyakin.** Cənab Sisianov, deyəsən, yenə üşüyürsünüz...

**Pavel Dmitriyeviç Sisianov**. Hə, hə... Yaman soyuqdu... Şaxta qılınc kimi kəsir, lap iliyimə işləyir...

**Portnyakin.** Cənab Sisianov, bu yürüşlərin sonu görünmür, getdikcə elə hey gedirik... Neçə illərdi ki, çöllərdəyik... İnanın, Sankt-Peterburq indi mənə uzaq xəyal kimi görünür. Anamın sözünə baxıb sarayda xidmət etsəydim, indi teatrda – lojada əyləşib, binoklla xanımları seyr edirdim.

**Pavel Dmitriyeviç Sisianov.** Hm... Bir zabitin döyüş qabağı xanımların pudralanmış çiyinləri barədə düşünməsi heç də yaxşı əlamət deyil...

**Portnyakin.** Məgər siz Sankt-Peterburqun süslü salonlarındakı yaraşıqlı qadınların xiffətini çəkmirsiniz?

**Pavel Dmitriyeviç Sisianov.** Mən qadınları çoxdan unutmuşam...

**Portnyakin** *(gülümsəyir).* Bəs, Nona? Bütün günü yanınızdan əl çəkmir...

**Pavel Dmitriyeviç Sisianov** *(gülümsəyir).* Yaxşı müşahidə qabiliyyətiniz var... Həqiqətən də bütün günü yanımda olur... Amma bir dövlət xadimi kimi... Onu yalnız Gürcüştanın taleyi düşündürür... Bilir ki, mən qoca kişiyəm...

**Portnyakin.** Belə deyirlər ki, siz də gürcüsünüz?

**Pavel Dmitriyeviç Sisianov.** Bəli, gürcüyəm.

**Portnyakin.** Bunu yuxarılarda bilirlər?

**Pavel Dmitriyeviç Sisianov.** Əlbəttə!.. *(Ucadan gülür).* Elə ki döyüşü uduram, deyirlər “Əhsən sənə, rus sərkərdəsi!”, elə ki döyüşü uduzuram, deyirlər ki, gürcüdür də. Bəs bundan nə gözləyirdiniz?

*Hər ikisi gülür.*

**Portnyakin.** Görəsən, bu döyüşdən sonra...

**Pavel Dmitriyeviç Sisianov.** Məni rus adlandıracaqlar, yoxsa gürcü? Allah bilir! Hər halda, çalışaq ki, rus adlandırsınlar! Bəs siz nə fikirdəsiniz?

**Portnyakin.** Qəribə də olsa, qorxuram. Çünki hər şey əleyhimizədir. Hava da, qoşunun əhval-ruhiyyəsi də... Beş yüz əsgərimiz qarın ağrısına tutulub...

**Pavel Dmitriyeviç Sisianov.** Bu, döyüşqabağı adi haldır, həyəcanlanmağa dəyməz... *(Pauza).* Elə bil külək o tərəfdən qəribə iy gətirir...

**Portnyakin.** Plov iyidir. Düyüdən, ətdən, albuxaradan, ərik qurusundan, kişmişdən, şabalıddan və zəfərandan hazırlanır. Axı bu gün müsəlmanların müqəddəs Ramazan bayramıdır.

**Pavel Dmitriyeviç Sisianov.** Çox yaxşı... Deməli, bu gün onların plov qazanlarının ağzı açılmayacaq.

**Portnyakin.** Sizcə, bu günah deyil?

**Pavel Dmitriyeviç Sisianov.** Mən əsgərəm! Günah isə döyüş meydanında məğlub olmaqdı! Bu döyüşdə mümkün qədər az itki verməliyik. Qafqazda görüləsi hələ çox işimiz var... Üfüqdə Bakı görünür!.. O şəhər məni ahənrüba kimi özünə çəkir! Hətta elə bilirəm ki, məhz o şəhərdə hərbi karyeramı başa vuracağam!.. O döyüş son döyüşüm olacaq!..

**Portnyakin.** Nə danışırsınız, Pavel Dmitriyeviç, hələ cavansınız, imperator həzrətləri sizi istefaya göndərməz...

**Pavel Dmitriyeviç Sisianov.** Düzdü, imperator həzrətləri istefaya göndərməz, bəs tale necə?

**Portnyakin.** Ağlıma da gəlməzdi ki, siz belə bədbin, həm də mistiksiniz...

**Pavel Dmitriyeviç Sisianov.** Nə isə... Qoşunu döyüşə siz aparacaqsınız...

**Portnyakin.** Təşəkkür edirəm, cənab Sisianov!

**Pavel Dmitriyeviç Sisianov.** Təşəkkürü qələbədən sonra mənim təqdimatımla imperator həzrətlərindən Müqəddəs Georgi ordenini alanda edərsiniz.

**Adyutant** *(gəlir)*. Cənab Sisianov, düşmən tərəfdən gələn var. Sizinlə görüşmək iştəyir.

**Pavel Dmitriyeviç Sisianov** *(eyni açılır)*. Elçidir? Məktub gətirib?

**Adyutant.** Xeyr, elçi deyil, məktub da gətirməyib. Sizə deyiləsi məxfı sözü var...

**Pavel Dmitriyeviç Sisianov.** Gəlsin. *(Adyutant çıxır).* Portnyakin, deyəsən, sizin fərziyyəniz düz çıxır. Çox güman ki, Cavad xan peşman olub, döyüşmək istəmir, barışıq üçün yollar axtarır.

*Loris görünür.*

**Loris** *(Sisyanova).* Cənab Sisianov sizi görən kimi tanıdım! Hüzurunuzda olmaqdan böyük şərəf duyuram!

**Pavel Dmitriyeviç Sisianov.** Çox bəlağətli danışırsınız... Vaxtımız azdır... Deyin görüm kimsiniz?.. Nə istəyirsiniz?.. Bura nə məqsədlə gəlmisiniz?

**Loris.** Mən sizə Gəncənin xəritəsini hədiyyə gətirmişəm! Həm də xanlığı beş barmağım kimi tanıyıram!

**Pavel Dmitriyeviç Sisianov** *(onun əlinə baxır).* Amma mən görürəm ki, sizin beş yox, dörd barmağınız var...

**Loris.** Hə, bağışlayın, barmağımın birini erməni-müsəlman davasında itirmişəm...

**Pavel Dmitriyeviç Sisianov.** Davam edin...

**Loris.** Gəncə qalasının divarları İrəvan xanlığında olduğu kimi birqatlıdır...

**Pavel Dmitriyeviç Sisianov.** Deməli, bizim toplara davam gətirməyəcək?..

**Loris.** Xeyr! Cavad xan istəyirdi ki, ikinci qatı da hördürsün, macal tapmadı...

**Pavel Dmitriyeviç Sisianov.** Siz deyin görüm, onun nə qədər əsgəri var?

**Loris.** Uç mindən çox olmaz.

**Pavel Dmitriyeviç Sisianov.** Hamısı silahlıdır?

**Loris.** Bəli.

**Pavel Dmitriyeviç Sisianov.** Silahları nədi?

**Loris.** Tüfəng və qılınc... Üç-dörd dənə də topları var... Bunu lap beş, bağışlayın, dörd barmağım kimi bilirəm...

*Gülüşürlər.*

**Pavel Dmitriyeviç Sisianov.** Yaxşı, bu məlumatların müqabilində məndən nə istəyirsiniz?..

**Loris.** Bircə Cavad xanı məhv edın... Vəssalam... Əgər lazım olsa, sarayda baş verənlərdən sizə vaxtlı-vaxtında xəbər gətirə bilərəm...

**Pavel Dmitriyeviç Sisianov.** Yəni ora girə bilərsiniz?

**Loris.** Bəli.

**Pavel Dmitriyeviç Sisianov.** Necə?

**Loris.** Mənim ögey bacım Astağın Gəncə sarayında olur. Cavad xanın arvadıdır.

**Pavel Dmitriyeviç Sisianov.** Cavad xan sənin Astağının qardaşı olduğunu bilirmi?

**Loris.** Deyəsən, bilmir. Bilsəydi, əmrinizlə onu Gəncədən Tiflisə gətirməyə gedəndə üzümə vurardı.

**Pavel Dmitriyeviç Sisianov.** Deməli, qohumsunuz?

**Loris.** Bəli...

**Pavel Dmitriyeviç Sisianov.** Bəs niyə ona belə düşmən kəsilmisiniz?

**Loris.** Çünki bacımdan bir uşaq əmələ gətirmədi... Gələcəkdə bizə miras kimi nə vəzifə, nə də var-dövlət çatacaq...

**Pavel Dmitriyeviç Sisianov.** Aydındı.

**Loris.** Gedə bilərəm?

**Pavel Dmitriyeviç Sisianov.** Bəli *(Loris gedir)*.Tiflisə gələndə Georgi həzrətləri mənə demişdi ki, ermənilər riyakar və xaindirlər, onlardan dost olmaz. Üzdə bir cür, altda isə başqa cürdülər... Həqiqətən də belə imişlər.

**Portnyakin.** Amma biz bu xain və riyakarlardan öz məqsədlərimiz üçün mütləq istifadə etməliyik...

*İşıqlar dəyişir. Gəncə, şəhər meydanı.*

**Cavad xan** *(döyüş libasında səhnədə görünür. Döyüşçülərə xitabən).* Bu, bəlkə də son döyüşümüzdür. Son dəfə at belinə qalxırıq. Son dəfə qılıncımızı sıyırırıq. Nə olur olsun, düşmənə həddini bildirməliyik. Bu kişilik, mərdlik, qeyrət, ləyaqət sınağıdır. Gərək bu sınaqdan alnıaçıq, üzüağ çıxaq. Vətənimizi, onun dağlarını, qalalarını, düzlərini qoruyaq, gələcək nəsillərə ərməğan edək. İnsan yalnız vətənini itirməkdən qorxmalıdır. Mən sizi Vətənin müdafiəsi uğrunda rəşadət göstərməyə çağırıram. İnanıram ki, səsimə səs verəcəksiniz.

*İşıqlar sönür.*

## On birinci şəkil

*Gəncə. Hacı Məliyin həyəti.*

**Sərdar.** Dədə, rus qoşunu Gəncə qalasına girdi, şəhər alındı. Dükan-bazar talandı. Yanan evlərin alovu ərşə dirənir. Hər yanda haray, ağlaşma, qışqırtı, nifrin sədaları eşidilir. Camaat canını qurtarmaq üçün qaçıb Şah Abbas məscidinə doldu. Xeyri olmadı. Ora da od vurdular! Adamlar diri-diri yanıb kül oldu!

**Hacı Məlik.** Ağzın yansın, a bala, bu günə kimi səndən elə bir xoş söz eşitmədim ki, ürəyim açıla. Elə qaraxəbərsən ki, qaraxəbər.

**Sərdar.** Niyə elə deyirsən ki, ay dədə? Xoş xəbər istəyirsən? Məndə! Amma gərək əvvəlcə muştuluğumu verəsən! Yoxsa deməyəcəyəm!

**Hacı Məlik.** Heç ağlım kəsmir ki, sən bir xoş xəbər deyəsən.

**Sərdar.** Eh, ay dədə, sən muştuluğumu ver ey, muştuluğumu!

**Hacı Məlik.** Yaxşı deyiblər: "Keçi can hayındadır, qəssab piy axtarır". Milləti qırırlar, sən məndən muştuluq istəyirsən.

**Sərdar.** Niyə istəməyim, ay dədə? Düşmənimiz öldü!

**Hacı Məlik.** Düşmənimiz kimdi, a bala?

**Sərdar.** Necə kimdi? Cavad xan!

**Hacı Məlik.** Cavad xan?

**Sərdar.** Hə də! Demirdin ki, bir düşmənim var, o da Cavad xandır?! Axır ki, öldü... Canın qurtardı...

**Hacı Məlik.** Cavad xan mənim şəxsi düşmənim idi, ay bala. O bilərdi, mən bilərdim... Adam var evdən gedir, adam var eldən... Cavad xan eldən getdi... Hamımızı yetim qoydu... Rədd ol gözümün qabağından, qaraxəbər... Gəncə xaraba qaldı... Axırımız necə olacaq, ilahi?!.

*İşıqlar dəyişir.*

## *On ikinci şəkil*

*Tiflis. Georginin sarayı. Nonanın otağı*

**Nona** *(Sisyanovun ayaqlarını qucaqlayır).* Canım heç qızmır... Əvvəl elə bilirdim ki, bu Gəncə küləyinin gətirdiyi soyuqdur... Gəncə alındı, amma mənim titrəməm keçib getmədi... Az qala bir bardaq şərab içmişəm, di gəl ki, isinmədim... Sobanın qabağında əyləşdim. Palıd ətirli alovu elə bil buz parçası idi, əl-ayağımı, üz-gözümü dondurdu... Fikirləşdim ki, bəlkə sənin yatağında canım qızar... Amma görürəm ki, yox... Bu soyuq alın yazım kimi məni ömrüm boyu təqib edəcək.

**Sisyanov** *(ayaq üstə dayanıb, elə bil Nona ilə yox, öz-özüylə danışır).* Qəribədir, mən də üşüyürəm... Nə Gəncə qələbəsi, nə pırhapırla yanan soba, nə otuz illik gürcü şərabı, nə sənin cazibədar bədənin canımı isitmir... Cavadın ruhu məni rahat

buraxmır... Düzü onu heç öldürmək istəmirdim, amma başqa yol qalmamışdı. Ha gözlədim ki, təslim olar, amma olmadı... Bu tale küləyidir... Biz ömür boyu, hətta yayın ən qızmar günündə də belə üşüyəcəyik.

**Nona.** Ən dəhşətlisi budur ki, səndən mənə soyuq gəlir...

**Sisyanov** *(ayılır, Nonanı qucaqlayır).* Bəlkə, Allah məni buz parçasına çevirib?

**Nona.** Nə edəcəyik?

**Sisyanov.** Heç nə! Üşüyəcəyik ! Vəssəlam!.

*İşıqlar dəyişir.*

*Gəncə. Cümə məscidi. Camaatı məscidə toplayıblar.*

**Sisyanov.** Camaat, sizi bura toplamaqda məqsədim budur ki, əlahəzrət imperatorun fərmanı ilə sizi tanış edim. Şəhər əhalisi hər il 20 min manat pul, 250 tağar buğda, 250 tağar yarma, 600 tağar arpa verməli, bu gündən şəhərdə yerləşdiriləcək rus əsgərlərini azuqə ilə təmin etməli, İmperatora sədaqətlə xidmət edəcəyinə and içməlidir. Şəhər bu gündən Yelizavetpol adlanacaq. Küçədə, bazarda, meydanda, karvansarada hansı zümrə, vəzifəyə mənsub olmasından asılı olmayaraq kimin dilindən "Gəncə" sözü eşidilsə, cəzalanacaq. Həmin şəxsin qolu vurulacaq, dili kəsiləcək! Öldürülməyəcək! Əzab çəkə-çəkə yaşayacaq ki, başqaları ibrət götürsün. Odur ki, mən sizi itaətkar olmağa çağırıram!

*Adamlar "Gəncə!", "Gəncə!" deyə ucadan qışqırmağa başlayırlar və qışqıra-qışqıra şəhərin dörd bir tərəfinə – küçə və meydanlara axışırlar.*

**Pavel Dmitriyeviç Sisianov** *(çaşmış halda Portnyakinə).* Yox, deyəsən, bu iş çətin olacaq...

**Portnyakin.** Mən də elə düşünürəm...

**Pavel Dmitriyeviç Sisianov.** Bəs indi nə edək?

**Portnyakin.** Məncə, getsək, yaxşıdı. Yoxsa, kütlə sakitləşməyəcək...

**Pavel Dmitriyeviç Sisianov.** Hə, hə... Düz deyirsən... Gedək... Gedək.

*Pavel Dmitriyeviç Sisianovla Portnyakin gedirlər. Camaat isə "Gəncə!", "Gəncə!" deyə şəhərin küçə və meydanlarına axışmaqda davam edir.*

*İşıqlar dəyişir.*

**Portnyakin** *(səhnəyə gəlir. O danışdıqca Sankt-Peterburqun Qış sarayı göstərilir).* Cavad xanın öldüyü gün Sankt-Peterburqun Qış sarayında çarın arvadı Yelizavetanın ili verildi. Mərasimə knyazlar, boyarlar, alman kayzeri, Fransa kralı, Avstriya hersoqu, daha kimlər, kimlər dəvət olunmuşdular. Ştrausun valsı çalınırdı. Hamı rəqs edirdi. Birdən salonun qapıları taybatay açıldı. İçəriyə bir adam girdi və hədsiz sevinc içində kimisə axtarmağa başladı. Nəhayət, ora-bura bir qədər baxdıqdan sonra gəlib imperatorun önündə dayandı, möhürlənmiş məktubu ona təqdim etdi. İmperator məktubu oxuduqdan sonra üzünü salondakılara tutdu: Ura! Gəncə alındı! Qəhrəman rus generalı Pavel Dmitriyeviç Sisianov təklif edir ki, bu qələbə mərhum Yelizavetanın ölüm gününə təsadüf etdiyinə görə, Gəncə bundan sonra Yelizavetpol adlandırılsın. Məncə, bu elə bir təklifdir ki, şampan şüşələri açılmalı, qədəhlər dolmalıdır!

*Orkestr Ştrausun musiqisini çalır. Hamı rəqs edir.*

*İşıqlar dəyişir.*

## On üçüncü şəkil

*Cavad xanın sarayı. Şükufə xanım və Sisianov.*

**Şükufə xanım.** *(Sisyanova)* Siz nə cürət edib bura gəlmisiniz? *(Pauza).* Qorxmursunuz ki, sizi öldürərlər?

**Sisyanov.** Yox. Bilirəm ki, Azərbaycanda qonağa əl qaldırmazlar.

**Şükufə xanım.** Baxır hansı qonağa...

**Sisyanov.** Fərqi yoxdu, qonaq düşmən də olsa qonaqdır...

**Şükufə xanım.** Yaxşı, deyin görüm, niyə gəlmisiniz?

**Sisyanov.** Bəzən adam məğlub etdiyi şəxs barədə günlərlə, həftələrlə, aylarla, hətta illərlə düşünür. Cavad xan neçə gündür yuxuma girir. Görürəm ki, gümüş xəncəri ilə bığlarımı kəsir... Ömrümdə bığım olmayıb, amma yuxuda kəsir... Ona yaxşı təkliflər etmişdim... Müharibə olmur, xanlıq qalır, sadəcə bəzi güzəştlərə gedir... Qəbul etmədi... Niyə? Səbəbini hələ də başa düşə bilmirəm...

**Şükufə xanım.** Sizin bu təklifiniz şillədən başqa bir şey deyildi. O isə sizin şillənizi üzündə gəzdirə-gəzdirə yaşaya bilməzdi.

**Sisyanov.** Bəs o biri xanlar niyə belə mərdlik göstərmədilər?

**Şükufə xanım.** Nə etməli idilər?

**Sisyanov.** Necə yəni nə etməli idilər? Birləşib Cavad xana dayaq olmalı idilər.

**Şükufə xanım.** Olmadılar....

**Sisyanov.** Amma məndə olan məlumata görə biri üç yüz, biri beş yüz, biri də nə bilim min atlı göndərməli idi.

**Şükufə xanım.** Göndərmədilər.

**Sisyanov.** Axı söz vermişdilər...

**Şükufə xanım.** Elə-belə... Yalandan, çarəsizlikdən "hə-hə" eləmişdilər

**Sisyanov.** Cavad xan da onların boş vədəsinə inanmışdı!

**Şükufə xanım.** Yox!

**Sisyanov.** Bəs onda tək-tənha döyüşə niyə girirdi?

**Şükufə xanım.** Başqa yolu yox idi. Xalq qarşısında gözükölgəli olmaq istəmirdi. Cavad xan kimi yaşayan Cavad xan kimi də ölməli idi.

**Sisyanov.** Deməli, o, öləcəyini bilirdi?

**Şükufə xanım.** Hə... Evdən çıxanda bizimlə halallaşmışdı...

**Sisyanov.** Cavad xan ölən günün səhəri belə qərara gəldim ki, dəfn mərasiminin xərclərini boynuma götürüm. Amma sonra fikrimdən daşındım. Düşündüm ki, bu, qürurunuza toxuna bilər.

**Şükufə xanım.** Düz düşünmüsünüz. Onda qonaq olduğunuza baxmazdım. Cavadın xəncəri ilə...

**Sisyanov.** Xahiş edirəm, qəzəblənməyin, onsuz da mən o fikrimdən daşınmışam... Eşitmişəm ki, nədənsə ehtiyat edib Cavad xanı İranda dəfn etmək istəyirsiniz.

**Şükufə xanım.** Məgər Cavad xan İran uğurunda şəhid olub ki, İranda dəfn olunsun?

**Sisyanov.** Tapşırmışam ki, Şah Abbas məscidinin həyətində yer ayırsınlar... Müqəddəs məkandır. Heç vaxt, heç kim toxunmaz...

**Şükufə xanım.** Mən sizin bu diqqət və qayğınızın mənasını başa düşə bilmirəm. Deyəsən, siz onu cismən, o isə sizi ruhən öldürüb... Xahiş edirəm gedin...

**Sisyanov** *(öz-özünə).* Bəlkə, bu qadın düz düşünür. Mən onu cismən, o isə məni ruhən öldürüb. *(Gedir).*

**Şükufə xanım.** *(Asta-asta diz çökür)* Cavad... Belimi sındıran Cavad!..

*İşıqlar dəyişir.*

**Loris** *(Əlində kitab səhnəyə gəlir və oxuyur).* Teymurləng bütün haykazyan, yəni erməni xalqını pərən-pərən salandan sonra qəddar hakimlərini çağırıb soruşdu: "Əvvəlki padşahlardan bir kəs bu cür şücaət, mərdlik göstərmişdirmi?" Onlar cavab verdilər: "Xeyr, sən peyğəmbərdən də çox ehtiram və şənə layiqsən. Allah etdiyin bütün günahları bağışlamışdır. Hələ bundan sonra yeddi il də qan tökə bilərsən. Sən cənnətdə, düşmənlərin isə cəhənnəmdə olacaqlar!". *(Kitabı örtür)* Hm, belə çıxır ki, bu dunyada olduğu kimi, o dünyada da bizim işimiz fırıqdır...*(Asta addımlarla səhnədən gedir).*

*Pavel Dmitriyeviç Sisianovun ruhu səhnədə görünür.*

**Sisyanovun ruhu.** Səhv etmirəmsə, 1806-cı il fevral ayının on yeddisi idi. Qarabağ, Şəki, Şamaxı xanlıqları artıq zəbt olunmuşdu. Bakı xanlığını da işğal edib Azərbaycanda işlərimi tamamlamaq istəyirdim. Amma gündən-günə pisləşən səhhətim buna imkan vermirdi. Hərarətim o qədər yüksək idi ki, yerimdən qalxa bilmirdim, öz-özümə deyirdim: "Doğrudanmı öləcəyəm? Doğrudanmı Cavad xanın dediyi kimi, məni Qafqaza əcəl gətirib?".

Düz üç gün yol getdik. Fevral ayının iyirmisində Bakıya çatdıq. Mən İçərişəhərin Şamaxı darvazasının ağzında dayanıb Hüseynqulu xana xəbər göndərdim ki, şəhərin açarlarını təhvil versin və təslim olsun. Aradan bir müddət keçəndən sonra qapı aralandı. İçəridən bəstəboy bir kişi çıxdı, qızıl məcməyinin içində şəhərin açarlarını gətirdi. Mən dedim ki, yox, belə olmaz. Get açarları Hüseynqulu xan özü gətirsin. Bəstəboy kişi bir söz deməyib getdi. Mən halsız vəziyyətdə gözümü qapıya zilləmişdim. Bir də gördüm ki, Hüseynqulu xan əlində qızıl məcməyi, içində də şəhərin açarları gəlir. O,

bərabərimə çatanda birdən əlindəki məcməyini yerə atdı və qılıncını çəkdi, başıma zərbə endirdi, mən müvazinətimi itirib yerə yıxıldım... *(Səhnədən gedir).*

*Səhnədə Sisianovun ruhunu Portnyakinin ruhu əvəz edir.*

**Portnyakinin ruhu.** – Sisianovun başı yerdə dığırlandı. Sonra kəsik baş haqqında o qədər rəvayət yarandı ki... Biri dedi, guya, Hüseynqulu xan onu İran şahına hədiyyə göndərərək əvəzində yüz qızıl mükafat alıb. Biri dedi ki, Cavad xanın heyifini çıxmaq üçün Gəncədə yabanın başına keçirib küçələrdə gəzdiriblər... Amma əsl həqiqəti tarixin sandığını açanlar biləcəklər!..

*İşıqlar dəyişir.*

*Arxa planda Gəncənin əzəmətli qala divarları görünür. Ağ tuman-köynəkdə bir ruh – bu, Cavad xanın ruhudur – şələləndiyi iri, ağır yükü kəhildəyə-kəhildəyə aparır. Hiss olunur ki, gücü tükənmək üzrədir. İndicə üzüqoylu yıxılacaq. Amma inadından dönmür.*

**Cavad xanının ruhu.** Aparacağam, nə olur-olsun, aparacağam... *(Bir addım atıb dayanır).* Aparacağam, Allahın yardımı ilə aparacağam... *(Yenə bir addım atıb dayanır).* Mənzil başına nə qaldı ki...? *(Yenə bir addım atıb dayanır).* Budur, qala divarları da göründü... Ya mədəd!.. *(Yenə bir addım atıb dayanır).* Yerə qoymayacağam... *(öz-özünə).* Hə, tərpən, yolçu yolda gərək... *(Yenə bir addım atır. Bu vaxt şıqqıltı eşidilir).*Yəqin, yenə o bayquşdu... *(Bu vaxt ayaq səsləri eşidilir).*

*İşıqlar dəyişir.*

*Sisyanovun ruhu səhnədə görünür və*
*Cavad xanın ruhuna yaxınlaşır.*

**Sisyanovun ruhu** *(Cavad xanın ruhuna).* Ey, yurdsuz-yuvasız sərgərdan, sən kimsən?

**Cavad xanın ruhu.** Mən ruham, Cavad xanın ruhu...

**Sisyanovun ruhu.** Cavad xan... Cavad xan... Köhnə tanış...

**Cavad xanın ruhu.** Sən məni tanıyırsan?

**Sisyanovun ruhu.** Tanıyıram... Özü də çox yaxşı..

**Cavad xanın ruhu** *(Diqqətlə baxır).* Bəs sənin başın hanı?

**Sisyanovun ruhu.** Başımı Hüseynqulu xan Bakıda – qala divarlarının önündə kəsdi. Məni başsız dəfn elədilər...

**Cavad xanın ruhu.** Hə, indi bildim kimsən.... Sisianov... Demişdimmi ki, səni Qafqaza əcəl gətirib?..

**Sisyanovun ruhu.** Demişdin... Demişdin... Nə isə... İndi o günləri xatırlamağın heç bir mənası yoxdu... O apardığın nədi?

**Cavad xanın ruhu.** Gəncə qapıları...

*İşıqlar sönür.*

*Pərdə*

SON

*Bakı, 1997-ci il*

# Pənah xan Cavanşir

*(İkipərdəli tarixi pyes)*

*Qələm dostum, xalq yazıçısı Elçinə ithaf edirəm*

## *İştirak edənlər:*

**Pənah xan Cavanşir** – *Qarabağ xanı*
**İbrahim ağa** – *Pənah xanın oğlu*
**Lütfəli bəy** – *Pənah xanın bacısı oğlu*
**Vəzir Molla Dəlili** – *Pənah xanın vəziri*
**Heydərqulu xan** – *Naxçıvan xanı*
**Zərtac xanım** – *Pənah xanın arvadı*
**Xanım** – *məşşatə*
**Fərraş** – *Pənah xanın sarayında xidmətçi*
**Nadir şah Əfşar** – *İran şahı*
**Mirzə Mehdi xan**
**Məhəmməd xan**
**Cəfər xan**
**Rza xan**
} *Nadir şahın vəzirləri*
**Süsənbər** – *İsfahan gözəli, Pənah xanın məşuqəsi*
**Nəqsəçibaşı** – *Nadir şahın saray xidmətçisi*
**Kərim xan Zənd** – *Şiraz hökmdarı*
**Fətəli xan Əfşar** – *Urmiyə xanı*
**Rüstəm bəy** – *Nadir şahın tərəfdarı, urmiyəli*
**Allahqulu**
**Yeqan**
**Hüsü**
**Şahnəzər**
**Usub**
} *erməni məlikləri*
**Cəllad, saray xidmətçiləri, sərbazlar, rəqqasələr və mütrüblər**

## BİRİNCİ PƏRDƏ

*İsfahan şəhəri. Nadir şahın sarayı. Zəngin interyeri olan geniş zal. Pərdə açılanda şux musiqi sədaları altında üç mütrüb rəqs edir. Nadir şah ziyafət libasında səltənət taxtında əyləşib. Ovqatı yaxşıdır. Şahın sağ tərəfində Mirzə Mehdi xan, ondan sonra bir neçə əyan, sol tərəfində isə Məhəmməd xan, Cəfər xan, Rza xan, digər əyanlar və saray məmurları alçaq kətillərdə əyləşiblər. Nadir şahın arxasında əlləri daima qılınclarının qəbzəsində olan iki cantaraq sərbaz dayanıb. Bir neçə kiçik masanın üstündə meyvə dolu qablar, şərbət piyalələri və dolçalar var. Əyanlar şahın ovqatına köklənib musiqiyə və mütrüblərin rəqsinə dalıblar.*

**Nadir şah** *(iki-üç dəfə əl çalır).* Xub! Xeyli xub! *(Musiqi kəsilir, mütrüblər donub qalırlar.)* Yaxşıya gərəkdir yaxşı deyəsən, amma Rza xan, niyə yalnız mütrüblər? Məgər bizim Hindistandan, Əfqanıstandan gətirdiyimiz şux gözəllər, füsunkar kənizlər, Qarabağdan xəmsə məliklərinin peşkəş göndərdikləri erməni qızları azlıqmı edir? Yoxsa, Sədi Şirazinin "Gülüstan"ındakı vaqeələr çaşdırıb səni? *(Əli ilə yüngül bir işarə edir. Mütrüblər dəf olub gedirlər).* İstəyirsiniz ki, Mirzə Mehdi xan "Tarixi-Nadiri"də yazsın ki, İran xanlıqlarını, sultanlıqlarını kəsərli qılıncı ilə bir yerə cəm edən, İran dövlətini Allahın mərhəməti və yardımı ilə payimal olmaqdan qurtaran Nadir şah Əfşar mütrüblərin yambız oynatmasından feyziyab olurmuş?.. *(Gülür. Əyanlar hamısı canfəşanlıqla gülüşürlər).* Gördün, Mirzə Mehdi xan? Mənim cah-cəlalımın ziyasında qızı-

nan əyan-əşrəfim qəh-qəh çəkib gülürsə, bəs onda üzümüzü görməyib, adımızı eşidəcək sonrakı nəsillər neyləyəcəklər, qol qaldırıb oynayacaqlar?

**Mirzə Mehdi.** Qibleyi-aləm, tarixə həşəmətli Nadir şah Əfşarın şücaət dolu əməlləri düşəcək. Mütrüblərin, kənizlərin isə izi-tozu da qalmayacaq.

**Nadir şah** *(eyhamla).* Əcəba, bu əsnada Cəfər xan nə deyərdi? Doğrudanmı Əfşar qəbiləsinin Qırıxlı tayfasından çıxmış İmamqulu oğlu Nadir İran taxtını Səfəvi nəslinin əlindən zorla alıb, adını da qoyub Nadir şah Əfşar?

**Cəfər** *(qorxur).* Qibleyi-aləm, bu nə?.. *(Əli ilə ağzını tutur).*

**Nadir şah.** Bəlkə, Məhəmməd xan desin? Belə söhbətləri şaha çatdırmaq onun birbaşa vəzifəsidir.

**Məhəmməd xan.** Qibleyi-aləm, bu sarayda bizim sənə olan sədaqətimizi gözü götürməyənlər var.

**Nadir şah.** Pərvərdigara, mən İran üçün nələr etmədim? Dövlətin qüdrətinə pəl vurmaq istəyənlərin belini qırdım. Xəzinəyə uzanan haram əlləri kəsdim, yıxılmış səltənəti ayaq üstdə qoydum. Hər dəfə də dönüklərlə, xainlərlə üz-üzə gəldim. Hindistan kimi nəhəng bir ölkəni fəth etdim, oradan böyük sərvət və saysız qənimətlə qayıdıb gəldim. Mirzə Mehdi, gəlib nə gördüm? Qılıncımı öpüb altından keçən xanlar üzümə dururlar. Deməli, mən təzədən qılıncımı İranda – öz vətənimdə işə salmalıyam? İndi mən kimə inanım, kimə arxa çevirim ki, qəfil zərbə almayım?

**Rza xan.** Qibleyi-aləm, ağac nə qədər gövdəli, köklü-köməcli olsa yaxşıdı. Biz sənin hər əmrinə "bəçeşm" deyən sədaqətli nökərlərinik.

**Nadir şah** *(hirslə qalxır, onunla birgə hamı dik qalxır).* Nökərlər... Nökərlər... Elə hər bəla qudurmuş nökərdən, qarnı

it qursağı kimi yağ götürməyən dönüklərdən gəlmirmi? Rza xana fərmayış verirəm Molla Ələkbərə tapşırsın ki, yığışdırsın bu sünni-şiə söhbətini, müsəlmanlar arasında ədavət toxumu səpməsin! Rza xan qayıdıb gəlir ki, Molla Əkbər deyir bu iki məzhəbin barışması müşkül məsələdir.

**Rza xan.** Qibleyi-aləm, mən binəva qulluğunuza mollanın dediklərini ərz elədim.

**Nadir şah** *(əsəbi).* Rza xan, sən mənim sayəmdə gör haralara gəlib çıxmısan, şah ziyafətində şah yeyəndən yeyir, şah içəndən içirsən.

**Cəfər xan** *(kənara).* Allah kəssin belə ziyafəti!

**Nadir şah.** Mütrüblərin rəqsinə, yambız burcutmasına tamaşa eləyib qışın oğlan çağında qarpız yeyirsən.

**Cəfər xan** *(kənara).* Biz qarpız yox, hər cür ədviyyatı ilə danlaq yeyirik.

**Nadir şah.** Sonra da gəlib mənə axmaq mollanın hədyan sözlərini çatdırırsan. *(Qeyzlə)* O pədərsüxtə bilmir ki, Nadir şahın qəzəbi necə olur?

**Rza xan.** Qibleyi-aləm, adamlar onu çox istəyirlər, cəddindən qorxurlar.

**Nadir şah.** Məni onun cəddinin qüdrəti yox, öz qılıncımın kəsəri düşündürür. Nədi, boynunuzun kökü geyişir? Yoxsa, cəllad Mirqəzəbin qan iyi verən kötüyünə yerikləyirsiniz? Mən İran taxtı-tacının mənafeyini üstün tutub oğlum Rzaquluya zülm elədim. Peşmançılıq hərdən ürəyimə yol tapsa da, bir Allah şahiddir ki, bu işi ölkənin mənafeyi naminə elədim. Baxmayaraq ki, o fəlakətli gündən sonra içim qan ağlayır. Mirzə Mehdi, mən buna necə dözürəm?

**Mirzə Mehdi.** Şahım, xudavəndi-aləm bizə ağrıları unutmaq üçün səbir verib. Elə olmasaydı, yer üzündə insan naləsindən qulaq tutulardı.

**Nadir şah.** Binəva Rzaquluya insafsızcasına divan elədim, Mirzə.

**Cəfər xan.** Qibleyi-aləm, şah nə edirsə, haqq edir... *(Tez əli ilə ağzını tutur).*

**Nadir şah** *(inamla).* Əlbəttə, şah nə edirsə, haqq edir. Təsəllim bir bundadır. Mən neyləyirəmsə, İran və onun qüdrəti üçün eləyirəm, amma süfrəmdə qarınlarını doyuranlar mənə xəyanət etdilər. Oğlumu – vəliəhdimi pis yola çəkdilər. Nəticədə siz... *(Kinayə ilə Cəfər xana baxır).* Neçə şah yola salmısız?.. *(Əyanların hamısının qarşısından keçir və zəndlə bir-bir onlara baxır).* Mirzə Mehdi, niyə mənim çörəyimin duzu yoxdu? Yan-yörəmdəkilər etibarda, sədaqətdə Pənahəli bəy qədər də olmadılar. Halbuki Pənahəli bəyə heç kiçik bir ənam da verməmişəm, rütbəsini artırmamışam, amma ki, gör nə tövr döyüşür? Doğma qardaşı Fəzləli bəyi qətlə yetirdim, cavan ömrünü Allahın izni ilə cəllad baltasıyla kəsdim. Bir dəfə qanrılıb soruşmadı ki, Nadir şah, mənim qardaşımın günahı nəydi? Əksinə, daha bərk qılınc çaldı, daha böyük şücaətlə vuruşdu. Mən Hindistanı Pənahəli bəyin gücünün hesabına fəth etdim. Hələ qan çanağı Əfqanıstanda nə qəhrəmanlıqlar göstərdi? Əslində, bu məclisin baş tərəfində, mənim yanımda o əyləşməlidir. *(Xanlar bir-birilə baxışırlar).* Rza xan, mən istərdim Pənahəli bəy Cavanşir saray məclislərində yer alsın.

**Rza xan.** Qibleyi-aləm... *(susur).*

**Məhəmməd xan.** Şah sağ olsun, axı Pənahəli bəy mənsəbinə görə... *(Sözünü bitirmir).*

**Cəfər xan.** Qızıl, qızıl, qızıl... *(Əli ilə ağzını tutur).*

**Mirzə Mehdi.** Şahım, qanunla saray ziyafətlərinə dəvət olunanlar vəzifəyə görə müəyyən edilir.

**Nadir şah.** Mirzə, qanunları yaradan da mənəm, pozan da mənəm.

**Mirzə Mehdi.** Şahım, onda mən müvafiq fərman hazırlatdıraram, amma...

**Nadir şah** *(qeyzlə).* Mirzə, nə amma, yoxsa etirazın var?

**Mirzə Mehdi.** Şahım, mən həddimi bilən adamam.

**Nadir şah.** Xub! *(O biri əyanlara).* Siz nə deyirsiz, ağalar? Bəlkə mən Pənahəli bəyə etibar eləməkdə sadəlövhlük göstərirəm?

**Cəfər xan.** Qibleyi-aləm, şah nə edirsə, haqq edir.

**Nadir şah** *(razılıqla gülümsəyir).* Xub, xeyli xub.

**Rza xan.** Qibleyi-aləm...

**Nadir şah.** Rza xan, sən sus. Bu məsələdə Məhəmməd xanın da rəyini bilmək istəyirəm. Onun xəfiyyələri yerin altını da bilirlər, üstünü də.

**Məhəmməd xan.** Şah sağ olsun, Pənahəli bəy köçəri quşdur, hələ ki, lələklərini uzadır, uçub getmək üçün fürsət gözləyir.

**Nadir şah** *(qəzəblə).* Necə köçəridir, gedərgidir, Məhəmməd xan? Pənahəli bəy özbaşınadır ki, mənim iznim olmadan İsfahanı tərk etsin? Bir də o, hara gedəcək? Bu ölkənin hər yerinə əlim çatır.

**Rza xan.** Qibleyi-aləm...

**Nadir şah.** Rza xan, sən sus. Sənin danışmaq vaxtın gecə yarısından sonra başlayır, özü də şahın əleyhinə, xəlvət yerlərdə. Davam elə, Məhəmməd xan, daha nə bilirsən?

**Məhəmməd xan.** Şah sağ olsun, haqqında ərz elədiyiniz şəxs öz bacısı oğlu Lütfəli bəy, Seyidəli bəy, Hacı Məhəmməd bəy ilə...

**Rza xan.** Məhəmməd xan, Kuküş bəyi də əlavə elə, ilana zəhər verən odur...

**Nadir şah.** Küküş bəy də qarabağlıdı?

**Məhəmməd xan.** Qibleyi-aləm, Rza xan düz buyurur. Adları çəkilən bəylər yerdə xudavəndi-aləmin kölgəsi olan cənabınızın gizli düşmənləridi.

**Nadir şah.** Düşmən? Məhəmməd xan, bu çox ağır ittihamdır.

**Məhəmməd xan.** Qibleyi-aləm, dediyim sözə başımla cavabdehəm. Onların nökərləri arasında mənə xəfiyyəlik eləyənlər var. Biri Pənahəli bəylə lap yaxındı. *(Qımışır).* Pənahəli bəyin yatanda da nə düşündüyü bizə məlumdu.

**Nadir şah.** Mirzə Mehdi xan, sən nə fikirdəsən? Bu haqda tarix elmi nə deyir? Olarmı insan şəxsi nifrətini, kinini belə məharətlə udub, qardaşının qətlinə fərman vermiş bir hökmdara sədaqətlə qulluq eləsin?

**Mirzə Mehdi.** Şahım, mərd kişi çox şeyi unuda bilər, şəxsi hisslərini boğub vətəni üçün qılınc da çalar, amma Pənahəli bəyin vətəni İran deyil, Azərbaycandı, Qarabağdı.

**Nadir şah.** Mirzə, məgər İranla Azərbaycan eyni məmləkət deyil? Mən türk deyiləm? Əfşarlar, cavanşirlər, qacarlar bir kökdən rişələnmirlər?

**Mirzə Mehdi.** Şahım, qol-budaqların maraqları üst-üstə düşməyəndə, mənafelər haçalananda kök fayda vermir. Milliyyətindən asılı olmayaraq sən İran hökmdarısan, şahənşahsan.

**Nadir şah.** Xub! Dediklərini bəyəndim, Mirzə, amma mən yenə də Pənahəli bəyin özünü görmək istəyirəm. Əgər o yayınmaq, qaçmaq istəyirsə, mənə xidmət etməyi xoşlamırsa, deməli, boynu vurulmalıdı *(Əllərini bir-birinə vurur).*

**Nəqşəçibaşı** *(daxil olur).* Qibleyi-aləm!

**Nadir şah.** Pənahəli bəy Cavanşiri tapın gətirin hüzuruma!

**Nəqşəçibaşı.** Bəçeşm! *(Gedir).*

**Nadir şah.** Məhəmməd xan, mən o dikbaş qarabağlıdan söz salmasaydım, susacaqdın? İran taxt-tacına təhlükə ola biləcək birisi haqqında xəbəri ləngitməkdə məqsədin nə idi?

**Məhəmməd xan.** Şah sağ olsun, mən gözləyirdim.

**Nadir şah.** Məhəmməd xan, nəyi? Pənahəli bəyin qaçıb aradan çıxmağını?

**Məhəmməd xan.** Qibleyi-aləm, mən buna imkan vermərəm, o nəzarətdədi.

**Nəqşəçibaşı** *(gəlir, baş əyir).* Qibleyi-aləm, Pənahəli bəyin dalınca fərraş göndərildi.

**Nadir şah.** Xub!

**Nəqşəçibaşı.** Qibleyi-aləm, Qarabağdan Çiləbörd məliyi Allahqulu hüzurunuzdə baş əyməyə izn istəyir.

**Nadir şah.** Ağalar, deyəsən, bu gün Qarabağ günüdü. Mirzə, kimdi o Allahqulu, sultan adı verdiyim erməni məliyidi?

**Mirzə Mehdi.** Elədir, şahım, Sizə sədaqəti ilə seçilən xəmsə məliklərinin ən nüfuzlusudu.

**Nadir şah.** Qarabağ harada, İsfahan harada? Buraxın gəlsin!

**Nəqşəçibaşı.** Bəçeşm! *(Təzim edərək çıxır).*

**Nadir şah.** Nadir şahın kef məclisi də axırda hökumət işləri ilə başa çatır. *(Cəfər xana).* Cəfər xan, hərdən öz-özünə danışır, nəsə deyirsən.

**Cəfər xan.** Qibleyi-aləm, yaşımın bu vədəsində, nəhayət, bir mətləbi cəbr dərsi kimi dərk elədim və inandım ki, bu dünyada susmaq, həqiqətən də gümüş yox, qızılmış.

*Hamı astadan gülür. Nadir şah onunla məzələnir.*

**Nadir şah.** Bəs nə səbəbə cəbr dərsi kimi? Yəni susmaq belə əzablı işdir?

**Cəfər xan.** Qibleyi-aləm, məgər haqsız söz eşidib susanda, nahaq danlağa tuş gələndə dili dinc qoymaq asan olur? Sözlər sinəni deşir, dil damağını dalayır. Şahım, qızıl da olsa, susmaq cəbrdən də cəbrdir,

**Nadir şah.** Cəfər xan, gərək mən səni maliyyə işlərindən ayırıb təlxəkliyə keçirdəm.

**Cəfər xan.** Qibleyi-aləm, şahımızın təlxəyi olmaq da mənim üçün şərəfdir.

*Hamı gülür.*

**Allahqulu** *(gəlir və təzim edir. Əlində kiçik, yaraşıqlı bir mücrü var).* Qibleyi-aləm Nadir şah Əfşarın mübarək canı salamat olsun! Şahım, bu kiçik hədiyyəni də nökərinizdən qəbul edin. *(Qutunu şaha sarı uzadır.)*

**Nadir şah.** Bəs niyə kiçik hədiyyə, məlik Allahqulu? Yoxsa, Nadir şah böyük hədiyyələrə layiq deyil? *(Qutunu açır).* Bəh-bəh... Nə gözəl şətrəncdi! Heç Hindistanda da beləsi yoxdu. *(Vəzirlər əyilib maraqla qutuya baxırlar.)* Çox gözəldi, daşları da firuzədəndi.

**Allahqulu.** Qibleyi-aləm, bu, çox qədim erməni şətrəncidi. Yaşı min beş yüz ildən çoxdu, ulu nənəm oynayarmış.

**Nadir şah.** Nənən şətrənc oynayarmış? Mərhaba! *(Gülür).*

**Allahqulu.** Bəli, qibleyi-aləm, rəhmətlik mahir oyunçu imiş.

**Cəfər xan** *(istehza ilə).* Hayıf ki, nənən ölüb, yoxsa onunla oynayardıq. Axı mən də mahir şətrənc ustasıyam. Hindistanda öyrənmişəm.

*Əyanlar xısın-xısın gülürlər.*

**Nadir şah** *(gülüşünü saxlaya bilmir).* Çox gözəl hədiyyədi, sultan Allahqulu, hayıf ki, mənim şətrənc oynamağa vaxtım yoxdu.

**Allahqulu.** Bilirəm, qibleyi-aləm, mən istərdim bu hədiyyəm Rzaqulu xana çatsın, eşitmişəm şətrənc oynamağı xoşlayır.

*Araya pərtlik çökür. Nadir şahın qaşları çatılır.*

**Nadir şah.** Elədir, binəva təklikdə öz-özü ilə oynayır. Xub! Keçək əsas məsələyə. Bildiyiniz kimi, ağalar, Allahqulu İran taxtı-tacına çox böyük sədaqətlə qulluq edib, bir müddət mənim yanımda da çalışıb. Yaxşı xidmətinə görə ona sultan rütbəsi vermişəm. Əgər bu gün Qarabağ mənim əlimdədirsə, onun səbəbkarları xəmsə məlikləri, birincisi də məlik Allahquludur. Dini dinimizdən olmasa da, o, İran taxtı-tacına sidq-ürəkdən xidmətdə olub. Ümumiyyətlə, ermənilər həmişə İrana yardımçı olublar.

**Allahqulu.** Qibleyi-aləm, cənnət Qarabağın qədrini biz gəlmələr yerli əhalidən yaxşı bilirik. Çünki biz o cənnət məkanda doğulmamışıq. Mən Mağavizdən, Dizaq məliyi Loridən, Vərəndə məliyi Göyçədən, Talış məliyi Şirvandan Qarabağa gəlmədir. Gəlmə gözəl torpağın, bərəkətli yerin qədir-qiymətini daha yaxşı bilir.

**Nadir şah.** Yaxşı, Allahqulu, sən bilmədiyimiz şeylərdən danış, vaxtım dardı.

**Allahqulu.** Canım sənə sadağa, biz göydə Allaha, yerdə Nadir şaha dua eləyirik. Odur ki, vergilərimizi...

**Nadir şah** *(onun sözünü kəsir).* Vergiləri azaltmayacam!

**Allahqulu.** Azaltmaq niyə, qibleyi-aləm, çoxaldın.

**Nadir şah.** Eşitdinizmi, ağalar? Belə xahişlə yalnız erməni məliyi təşrif buyura bilər.

**Allahqulu.** Qibleyi-aləm, biz erməni məlikləri vəlinemətimiz Nadir şahın yolunda baş qoymağa hazırıq.

**Nadir şah.** Əstafürullah de, a kişi, vəlinemət – nemətlər sahibi Ulu Tanrıdır. Tez elə, mətləbə keç, dedim ki, vaxtım dardı. Qarabağdan İsfahana gəlməkdə sözsüz ki, bir məqsədin var, ondan danış.

**Allahqulu.** Qurbanın olum, şah, bizim bircə təvəqqemiz var.

**Nadir şah.** Nə təvəqqe? Müxtəsər!

**Cəfər xan** *(Məhəmməd xana).* Gözlərindən hiylə yağır bu xaçpərəstin.

**Məhəmməd xan.** Dabbaqda gönünə bələdəm, arxadan bıçaq vuranlardandı.

**Allahqulu.** Qibleyi-aləm, bizim məliklər həşəmətli Nadir şahın sayeyi-mərhəmətində birləşib kiçik bir sultanlıq yaratmaq istəyirlər ki, vergiləri həm vaxtında ödəyə bilsinlər, həm də qədərini artırsınlar.

**Nadir şah.** Eşidirsən, Mirzə Mehdi xan?

**Mirzə Mehdi.** Sultanlıq yaratmaqda məqsədiniz nədir, Allahqulu bəy?

**Allahqulu.** Şah sağ olsun, sultanlıq birliyimizi artıracaq, idarəni mərkəzləşdirəcək, mənəm-mənəmliyə son qoyacaq.

**Nadir şah.** Bəs niyə sultanlıq? *(İstehza ilə).* Bəlkə xanlıq yaradasınız?

**Allahqulu** *(sevinir).* Elə mən də sözümü ora gətirirdim, qibleyi-aləm. Yəni addım-addım...

**Nadir şah** *(məzələnir).* Niyə addım-addım?

**Allahqulu** *(gülümsəyir).* Qibleyi-aləm, tələsmək müsəlman işidir.

**Nadir şah.** Bax, bu oldu təmiz söhbət. *(Qəhqəhə ilə gülür.)* Sultanlıq, xanlıq, sonra da Qarabağ dövləti, eləmi?

**Allahqulu** *(tərəddüdlə).* Məsləhət sizindir, qibleyi-aləm.

**Nadir şah.** Məlik Allahqulu, sənə sultan rütbəsi verdim. Gərəkdi ki, çaşmayasan. Mən can qoyub qan tökmüşəm, şəhərləri, kəndləri bir-bir alıb parçalanmış İranı birləşdirmişəm ki, yenidən xanlıqlar yaradım, öz əlimlə qurduğumu öz əlimlə də dağıdım? *(Qeyzlə)* İtirmə etibarımı, xəmsə məliyi, qorx qəzəbimdən! Nadir şah mükafatlandırmağı bacardığı kimi, cəzalandırmağı da bacarır.

**Allahqulu.** Qibleyi-aləm, canımız sənə fəda olsun, biz ki sənin nökərlərin, qullarınıq.

**Nadir şah.** Doğrudan da iştah diş altındadı.

**Nəqşəçibaşı** *(gəlir).* Qibleyi-aləm, fərmayişinizlə Pənahəli bəy Cavanşir hüzuruna müntəzirdir. *(Əyanlar tərpəşir, Allahqulu diksinir).*

**Nadir şah.** Sultan, rəngin qaçdı, bu nədəndi, qorxudan, yoxsa nifrətdən?

**Allahqulu.** Qibleyi-aləm, mən yuxarıda Allahdan, aşağıda sənin hər şeyi görən iti baxışlarından qorxuram, özgə qorxum yoxdu.

**Nadir şah.** Xub! *(Nəqsəçibaşıya)* Burax gəlsin!

**Nəqşəçibaşı.** Bəçeşm! *(Gedir).*

*Pənahəli bəy əli sinədə daxil olur və tənzim edir.*

**Pənahəli bəy.** Qibleyi-aləm Nadir şaha salamlarımı yetirirəm.

**Nadir şah** *(onu diqqətlə süzür).* Yaxın gəl, Pənahəli bəy, Hindistana qan udduran cəngavər, şir ürəkli, pələng təpərli igid. *(Allahqulunu göstərir).* Tanıdınmı?

**Pənahəli bəy** *(Allahquluya baxmır).* Şah sağ olsun, mən nəinki onu, hətta yeddi arxa dönənini də tanıyıram.

**Allahqulu** *(əsəbi və həyəcanlı).* Qibleyi-aləm...

**Nadir şah** *(əlini qaldırır, Allahqulu susur)*. Pənahəli bəy, bilirsən ki, məlik Allahquluya sultan rütbəsini mən vermişəm?

**Pənahəli bəy.** Şah sağ olsun, xəbərim var.

**Nadir şah.** Onu da bilirsən ki, külli Qarabağın ixtiyarını da vermişəm sultan Allahquluya və qalan xəmsə məliklərinə?

**Pənahəli bəy.** Şah sağ olsun, buyruq sizindir.

**Nadir şah.** Deməli, Pənahəli bəy, məlik Allahqulu mənim himayəmdə olan kəsdir.

**Allahqulu.** Canım sizə fəda olsun, qibleyi-aləm.

**Nadir şah.** Bəs belə olan halda, Pənahəli bəy, hansı cəsarətlə məlik Allahqulunu mənim hüzurumda düşmən adlandırırsan?

**Allahqulu.** Canım sizə fəda olsun, qibleyi-aləm, biz elə həmişə haqsızlığa məruz qalmışıq.

**Nadir şah.** Pənahəli bəy, nədir bu binəvanın taqsırı?

**Pənahəli bəy.** Şah sağ olsun, mən onların saxta göz yaşlarını da, hiylə və məkrlə tökdükləri insan qanını da çox görmüşəm. Onlar nə bizə, nə də bir kimsəyə dost ola bilməzlər. Erməni məlikləri dost dediklərinin sinəsinin istisində xumarlanıb yatar, tərpənəndə onları əfi ilan kimi elə çalar ki, sağalmalarına güman qalmaz.

**Cəfər xan** *(Mirzə Mehdi xana pıçıltı ilə).* Bu bədbəxt cavana başa salmaq gərəkdi ki, susmaq qızıldı, xüsusilə də şahın hüzurunda.

**Mirzə Mehdi.** Özün dedin ki, susmaq qızıl da olsa, cəbrdi.

**Nadir şah.** Qılıncın kimi dilin də itidi, Pənahəli bəy.

**Allahqulu.** Şah sağ olsun, bir Allah şahiddi ki, biz ermənilər həmişə müsəlman əhlinə dost-qardaş olmuşuq. Bizim var-dövlətimizi, mal-qaramızı, sürülərimizi çalıb-çapsa-

lar da, dost olmuşuq, məzhəb haqqı, çomağın o biri başını çevirməmişik.

**Pənahəli bəy.** Xain erməni, sənin fitvanla mənim el-obam didərgin salınıb. Qarabağın cavanşirlər, kəbirlilər, otuzikilər elatı Sərəxs səhrasında əsir-yesir olublar. Budur dostluq? Xəlvətdə gödən söküb, aşkarda göz yaşı tökürsən? Məlik Allahqulu, unutma ki, belə qalmayacaq, Qarabağ əhli tezliklə o yerlərə qayıdacaq və sənin cəzanı mən özüm verəcəyəm. Bax, həqiqi göz yaşını onda axıdacaqsan.

**Nadir şah** *(qeyzlə).* Xamuş! Cəza verəcək, ağladacaq... Nə vaxt verəcəksən o cəzanı, Pənahəli bəy? Nə vaxt? Nadir şah öləndən sonra? Yoxsa məni devirmək, İran taxtını ələ keçirmək fikrinə düşmüsən? Sən doğru deyirsən, Rza xan, doğrudan da, mən çox yumşalmışam...

**Rza xan.** Qibleyi-aləm, bu, məni istəməyənlərin iftirasıdı.

**Nadir şah** *(əlini qaldırıb onun sözünü kəsir).* Mən dünyaya meydan oxuyan Nadir şah Əfşar, bir tərəkəmə ilə murdar ermənənin deyişməsinə qulaq asacağam? Mirzə Mehdi xan, əvvəlki vaxtım olsaydı, cəllad çoxdan burada olardı. Rədd olun! Hamınız rədd olun! *(Çaşıb qalmış əyanlara).* Nə devikmisiniz qırt düşmüş toyuq kimi, rədd olun, hamınız rədd olun, itilin!

*Hamı tələsik, qorxu və həyəcan içində çıxır. Allahqulu nəsə demək istəyir, amma cəsarət etmir, gedir. Pənahəli bəy də gedir.*

**Nadir şah.** Mirzə Mehdi xan, qaytar o dikbaş qarabağlını.

**Mirzə Mehdi.** Şahım, bəlkə...

**Nadir şah** *(hövsələsiz).* Mirzə, əmri yerinə yetir, özün də getmə, qal.

**Mirzə Mehdi.** Bəçeşm! *(gedir.)*

**Nadir şah.** Pərvərdigara, nə pisdir düşmənlərlə əhatə olunmaq, daim diş-dişə, göz-gözə qalmaq. Hamısı da məndən ya qorxur, ya da mənə gizli nifrət eləyir. Bu dünyada mənə munis ola biləcək bir oğlum vardı, o da xəyanətin qurbanı oldu. Gözlərinə qızmar mil çəkdirdim. Hər dəfə qıraqdan ona göz qoyanda içim qan ağlayır. Daim sui-qəsd qorxusu, xain zərbəsindən ehtiyat. Bu imiş hakimiyyət, bu imiş şahlıq?

*Mirzə Mehdi xanla Pənahəli bəy gəlirlər. Nadir şah hər ikisini gözaltı süzür, taxtda əyləşib kiçik bir işarə ilə Mirzə Mehdi xana da oturmağı işarə edir.*

**Nadir şah** *(çox sakit və təmkinli danışır).* Pənahəli bəy Cavanşir, deməli, hər şey yadındadır, heç nəyi də unutmamısan. *(Pənahəli bəy susur).* Susma, təsdiq elə ki, heç nəyi unutmamısan.

**Pənahəli bəy.** Şah sağ olsun, kişi olan kəs gərək unutqan olmasın.

**Nadir şah.** Əhsən, mərhaba, baxıram sənə, cavanlığım yadıma düşür. Ötkəm, dəliqanlı, dikbaş. Mirzə Mehdi xan, yadına düşürmü mənim cavanlığım?

**Mirzə Mehdi.** Şahım, sən elə indi də cavansan. Əlli yaş qocalığın gəncliyidir.

**Nadir şah** *(gülümsəyir).* Onda qırx yaş da gəncliyin qocalığı olar. Nə isə... Pənahəli bəy, necə bilirsən, unutqan olmayan kişi həm də təhlükə mənbəyidir, eləmi? Necə ki sən Pənahəli bəy şahın hüzurunda olmağından çəkinməyərək, onun himayə etdiyi adama düşmən deyirsən. Üsuli-məntiqdən xəbəri olan hər kəs bu nəticəyə gələcək ki, düşməninin dostu, yəni Allahqulu məliyin dostu Nadir şah da düşməndir. Düzmü buyururam, Mirzə?

**Mirzə Mehdi.** Məntiqə görə elədir, şahım, amma məlik Allahqulu, doğrudanmı Nadir şahın dostudur? An koca, in koca?

**Nadir şah.** Xub! Mən razı, bu, siyasətdir. Bəs bizim qəzəbli igidimiz necə düşünür?

**Pənahəli bəy.** Şah sağ olsun, Allahqulu kimi hiyləgər, qırxüzlü nadürüst sizə, İran səltənətinə dost ola bilməz. Erməni fitvası qibleyi-aləmə həqiqi dost olanları düşmən eləmək məqsədi güdür.

**Nadir şah.** O qədər düşmənim var ki, dostları seçə bilmirəm. Kimdi mənə həqiqi dost olanlar, Pənahəli bəy?

**Pənahəli bəy.** Şah sağ olsun, bütün Qarabağ bəylərbəyliyi, güneyli-quzeyli Azərbaycan. Bütün xanlıqlarımızı arxasınca çəkib aparmaq qüdrətinə malik olan mən – Pənahəli bəy Cavanşir. Amma siz nə etdiniz, bizim həqiqi dostluğumuzu qəbul etmək, bizə arxalanmaq əvəzinə, şah sağ olsun, erməni fitvası ilə bütöv bir elatı, Qarabağın ab-havasında yaşamağa öyrəşmiş xalqı köçürtdünüz Xorasanın Sərəxs düzünə, səhrayi-kəbirə. Özü də kimin, hiyləgər bir erməninin – Allahqulunun fitvası ilə.

**Mirzə Mehdi.** Pənahəli bəy, sən Nadir şahın hüzurundasan. Qibleyi-aləmin ovqatından sui-istifadə eləmə!

**Nadir şah.** Dayan, Mirzə, qoy danışsın. Mən təbəələrimin özüm və siyasətim haqqında nə düşündüklərini bilmək istəyirəm. Davam elə, Pənahəli bəy, davam elə.

**Pənahəli bəy.** Şah sağ olsun, ta mənim sözüm yoxdu, dikbaşlıq elədimsə, bağışla, Allah xatirinə! Qul xatasız, ağa kəmərsiz olmaz.

**Nadir şah.** Pənahəli bəy, ürəkli danışırsan, səmimiyyətinə də inandım. Amma siyasət başqa şeydir, orada səmimiyyətə yer yoxdur.

**Pənahəli bəy.** Şah sağ olsun, Allahquludan fərqli olaraq mənim bir üzüm var.

**Nadir şah.** Ha-ha-ha!.. Arxayın oldum Pənahəli bəydən, Mirzə, arxayın oldum. Ondan bizə təhlükə gəlməz, üzü bir olan kişidən hakimi-mütləq çıxmaz.

**Mirzə Mehdi.** Şahım, Cavanşirlər mərdlikdə, at çapıb, qılınc oynatmaqda adnandılar. Allah baisin, fitnəkarın evini yıxsın!

**Nadir şah.** Mirzə, hər şeydə fitnəkarı suçlu hesab eləmək sadəlövhlükdür. Mən məlumatı beş mənbədən alıram.

**Mirzə Mehdi.** Şahım, sənin ayağının bildiyini bizim başımız bilməz. Xudavəndi-aləm səni məmləkəti-İrana çox görməsin.

**Nadir şah** *(qəfil).* Pənahəli bəy, madam ki, unutqan deyilsən, onda Fəzləli bəyin ölümü də yadında olar?

**Pənahəli bəy.** Şah sağ olsun, o unudulası dərd deyil. Qardaş itkisi övlad itkisi qədər ağırdır.

**Nadir şah.** Bilirsənmi niyə onun ölümünə fərman verdim?

**Pənahəli bəy.** Şah sağ olsun, Fəzləli mənim daim qan verən yaramdır, bu barədə danışmaq çox ağırdır. *(Əlləri ilə yaşarmış gözlərini kəskin hərəkətlə silir).* Rüsxət versəniz, mürəxxəs olaram.

**Nadir şah** *(səmimi təəccüblə).* Sən ağlayırsan? Hindistanı qılıncdan keçirən, Əfqanıstanı payi-mal eləyən Pənahəli bəy göz yaşı tökür?

**Mirzə Mehdi.** Şahım, o binəvanın ölümü qəzavü-qədərin işidir.

**Nadir şah** *(qeyzlə).* Yox, Mirzə Mehdi xan, Fəzləlinin ölümü qəzavü-qədərin işi deyildi, mənim, İran şahı Nadir Əfşarın hökmü idi. Qoy Pənahəli bəy də bilsin və mənim hüzurumda etiraf etsin ki, Fəzləli bəy günahkar idi. O, şahın fərmanının əleyhinə çıxıb Sərəxsə köçürdüyüm Qarabağ elatını qiyama,

üsyana təhrik edirdi. Dövlətin əsasını, bünövrəsini təşkil edən qanunlara qarşı çıxan saray adamı sui-qəsdçidir və mütləq şahın qəzəbinə düçar olmalı idi. *(Pənahəli bəyə).* Bəlkə bu barədə sən başqa cür düşünürsən, izn verirəm, danış. Bir üzü olan kişi gərək sözünü birbaşa deməkdən çəkinməsin.

**Pənahəli bəy.** Şah sağ olsun, mən qardaşımı cismən müdafiə eləyə bilməsəm də, cinayətkar olduğunu etiraf edə bilmərəm, məni məzur tut, əfv elə.

**Nadir şah** *(Mirzə Mehdi xana baxır və başını tərpədib acı-acı gülümsəyir).* Bir beş il bundan əvvəl, bu cür etirafı eşidən Nadir şah neynəyərdi, Mirzə Mehdi xan? Bəlkə, saray işığında gözləri qamaşan əyan-əşrəflərim küncdə, kənarda xosunlaşıb sözün düzünü deyirlər? Bəlkə, Nadir şah Əfşar həqiqətən qocalıb, qəzəbi kəsərdən düşüb, nərəsi zildən bəmə enib?

**Mirzə Mehdi.** Şahım, ötüb-keçən illər şahı da, rəiyyəti də dəyişir. Yaş üstünə yaş gəldikcə, insan müdrikləşmirsə, həqiqətən, qocalır. Şükür olsun bizi yaradana ki, İranın ümid yeri, pənahı Nadir şah Əfşar qüdrətli hökmdar, müdrik alim, adil padşahdır.

**Nadir şah** *(gülür).* Ha-ha-ha!.. İndi, Mirzə, tarix kitabında nə yazacaqsan? Nadir şahın dişləri töküldükcə qocalır, ya müdrikləşirdi?

**Mirzə Mehdi.** Şahım, haqq və qanun sənin tərəfindədir. Pənahəli bəy bir qardaş kimi öz qardaşını müdafiə eləyirsə, qibleyi-aləm Nadir şah da qanunun aliliyini, İran dövlətinin mənafeyini qoruyur. Tərəzinin gözünə qoysaq, ümumdövlət mənafeyi, şəksiz, ağır gələr.

**Pənahəli bəy.** Qanun nə qədər sərt və ali olsa da, Mirzə Mehdi xan, insanın canavar olmağa haqqı yoxdur.

*Nadir şah diksinir.*

**Mirzə Mehdi.** Əstafürullah de, Pənahəli bəy, odla oynama!

**Nadir şah** *(hirsini boğur).* Hər şey mənə gün kimi bəyan oldu, Mirzə Mehdi xan! Doğrudan da, odsuz yerdən tüstü çıxmaz. Üsyankarlıqda Pənahəli bəy qardaşından geri qalmırmış. İgid oğlan, çox dikbaşlar hüzurumda əyiliblər, hətta başlarından keçiblər. Əgər bu məğrur başı enli çiyinlərin üstündə çox gəzdirmək istəyirsənsə, şahın hər işinin haqq olduğunu qəbul etməlisən. Açığını deyim ki, sən mənim xoşuma gəldin, amma ağlını cəm elə başına, biz hələ çox müharibələr edəcəyik. Biz hələ Xorasanın belini qıracağıq. Uzaq səfərdə olduğumdan bir çoxları qudurub cızığından çıxıb, yenə də İranı parça-tikə etmək iştahına düşüblər, onları diz üstə çökdürəcəyik!

**Mirzə Mehdi.** İnşallah!

**Pənahəli bəy.** Şah sağ olsun, sizə sədaqətlə xidmət etmək borcumdur.

**Nadir şah.** Xub! *(Əliylə işarə edir. Pənahəli bəy təzim edib gedir. Xeyli çəkən pauza. Şah Mirzə Mehdi xanı süzür).* Niyə susdun, Mirzə? Yazdınmı bu ixtilatı?

**Mirzə Mehdi.** Şahım, bu, içində hakimiyyət iddiası olan dikbaş qarabağlının sadə səmimiyyəti idi.

**Nadir şah.** Sən hər şeyi olduğu kimi yaz, Mirzə, qoy sonra tutacağım işə görə məni qınamasınlar, adıma qəddar şah deməsinlər.

**Mirzə Mehdi.** Şahım, səni qınamağa heç kim cəsarət eləməz.

**Nadir şah.** Əlbəttə, indi cəsarət eləməz, bəs mən olmayanda? Biz "Tarixi-Nadiri" indikilər üçün yazmırıq.

**Mirzə Mehdi.** Şahım, sənin güclü məntiqin qarşısında biz acizik.

**Nadir şah.** Məhəmməd xanın xəfiyyələri yaxşı işləyirlər, halal olsun! *(Qətiyyətlə)* Pənahəli bəy Cavanşiri qardaşı gedən yolun yolçusu etmək vaxtı çatıb, hətta deyərdim ki, gecikmişik, Mirzə.

**Mirzə Mehdi.** Şahım, Pənahəli bəy açıq kitabdır, özün gördün, o, xəyanət eləyə bilməz. Xain olsaydı, qardaşının ölümündən sonra xəyanət eləyərdi. İndi taxt-taca onun xeyiri daha çoxdur.

**Nadir şah.** Fəzləli bəy də igid idi, çifayda! Mənə qəlbində ədavət və intiqam hissi gəzdirən igid sərkərdələr, döyüşçülər deyil, it kimi sədaqətli nökərlər gərəkdir.

**Mirzə Mehdi.** Şahım, bu, gün kimi aydındır ki, Pənahəli bəy heç vaxt nökər olmayacaq.

**Nadir şah.** Xub! Deməli, İran dövləti Pənahəlisiz də keçinər. O, mənə Rzaquludan artıq olmayacaq ki...

**Mirzə Mehdi.** Allah bilən, şah eləyən məsləhətdir, qibleyi-aləm. *(Təzim edir).*

**Nadir şah.** Həqiqətən kişi gərək unutqan olmasın, Mirzə. Bu dəfə mən sənin yox, Pənahəli bəyin məsləhəti ilə hərəkət edəcəyəm.

**Mirzə Mehdi.** Şah nə eləyirsə, haqqına eləyir, qibleyi-aləm. *(Təzim edir).*

**Nadir şah.** Başqa cür olsaydı, şahı birinci öz əyanları tapdalayardı. *(Gedir).*

**Mirzə Mehdi.** Pərvərdigara, bu binəva ölkəni, başı bəlalı milləti şahın qəzəbindən qoru, amin rəbbil-aləmin! *(Gedir).*

*İşıqlar sönür.*

*Kiçik, yaraşıqlı otaq. Yerdə al-əlvan xalı, üstündə ipək üzlü döşəkçələr, qotazlı mütəkkələr. Xalının ortasına qurama-dan süfrə salınıb. Süsənbər yaraşıqlı geyimdə fırlanır, süfrəyə cürbəcür çərəzlər qoyur, meyvə dolu qab gətirir. Bütün bu işləri böyük həvəslə, məhəbbətlə, zümzümə eləyə-eləyə görür.*

**Süsənbər** *(zümzümə edir).*

*Əzizim meylim sənə,*
*Düşübdü meylim sənə.*
*Mən dönsəm, üzüm dönsün,*
*Sən dönsən, neylim sənə?..*

*Qapı döyülür. Diksinir və tələsik çıxır.*

Gəldi, şükür Allaha ki, gəldi! *(Səhnə arxasından səs eşidilir.)* Gəldim. *(Qapını açanda Pənahəli bəyi yox, bir dilənçini görüb əsəbiləşir.)* Sən kimsən, a kişi? Dedim bəs... Dilənçilər ta evə gəlirlər. Al bu şahını, yeri get, bir də bu qapını döymə, özü də belə bir vaxtda. *(Gəlir).* Qoca kişidi, gözü-başı qaynayır. Bu qurbanı olduğum harada qaldı, niyə gəlib çıxmır ki, mənim də canım dincəlsin... *(Zümzümə eləyir).* Mən dönsəm, üzüm dönsün, sən dönsən, neylim sənə?.. *(Pənahəli bəy gəlir. Süsənbər onu görmür).* Gəl çıx da, Pənah, gəl də!

**Pənahəli bəy** *(gülümsəyir).* Gəlmişəm də!

**Süsənbər** *(diksinir).* Pənah, gəlmisən, bə səsini niyə çıxartmırsan, başına dönüm? *(Yüyürüb qucaqlayır).*Ta səbrim bir tikə oldu, sən gəlib çıxanacan hövsələm daralır, ürəyim partlayır. Hər dəfə sən gedəndə, deyirəm ta qayıtmayacaq, gəlməyəcək.

**Pənahəli bəy.** Qayıtmayıb hara gedəcəyəm ki? İxtiyarım öz əlimdə olsaydı, eyyy... Amma ki, hanı? Nadir şahın dustağı olmuşam.

**Süsənbər** *(yaraqlarını çıxarmaqda, üst geyimini soyunmaqda ona kömək eləyir. Bu, əslində qılıqlanmaqdır).* Dustaq niyə olursan, qadan alım? Sayılan-seçilən, şahın da nəzərində olan beş kişidən birisən.

**Pənahəli bəy.** Əlbət ki, biri.

**Süsənbər.** Lap birincisi.

**Pənahəli bəy.** Yaxşı da, bir az aralı dur, dəli eləmə məni! Sən arvadsan, nə bilirsən nə var, nə yoxdu bu dünyada? Mənim qəlbimdən nələr keçir?

**Süsənbər.** Mən bilmirəm, bəy?

**Pənahəli bəy.** Səhər-axşam düşmənlərimlə üz-üzəyəm, Süsənbər, elim-obam sürgündə, ailəm-uşağım yad ellərdə, torpaqlarım gavurların əlində.

**Süsənbər.** Yenə başladın, bəy? Gavur, müsəlman, nə fərqi, torpaqdı da, gen-bol, hamıya çatar.

**Pənahəli bəy.** Bilirəm, sənin də bir tərəfin gavurdu. Nənəndi, anandı, nə bilim nənənin nənəsidi.

**Süsənbər** *(əli ilə onun ağzını yumur).* Anam, nənəm, nə fərqi? Bütöv aləm qurban olsun sənin isti nəfəsinə, mehriban, cod əllərinə, sümüklərimi çırpı kimi sındıran qurğuşun biləklərinə!

*Pənahəli bəy, nəhayət, ona sıvaşan qadını qucaqlayır.*
*Süsənbər incə çevikliklə onun əlindən çıxır.*

**Pənahəli bəy.** Nədi, bə niyə qaçırsan?

**Süsənbər.** Hər şeyin öz məqamı var da. Gəl bir hovur otur, sənə qulluq eləyim, su töküm, əlini yaxala, ayaqlarını yuyum. Ləzzətli İsfahan çığırtması bişirmişəm, bir qismət ye, sonra da. Hələ sənə qəlyan da qayırmışam, gülabısıyla.

**Pənahəli bəy.** Bizim tərəfin arvadlarında belə qılıq yoxdu. Süsən, qanım nə qədər qara olsa da, duruldursan... *(Otu-*

*rur).* Sən məni harın güzərana öyrədirsən, İsfahan gözəli. Axı mən əsgərəm, tacir-tüccar yox. Hələ o qəlyan, gülabı, axırda sən məni nəşəxor eləyəcəksən.

**Süsənbər** *(onunla üzbəüz oturur).* Sən də məni nəşəli eləmisən. Bu yarım ildə, bəy, mən ömrümün ən şirin aylarını, həftələrini, günlərini yaşamışam, heç kəs məni bu qədər xoşbəxt eləməyib də!

**Pənahəli bəy.** Nətəhər yəni heç kəs, gavur qızı?

**Süsənbər.** Heç kəs, qadan alım, heç kəs, mən olanı deyirəm. Ta məndən özgə şey soruşma.

**Pənahəli bəy.** Məndən qabaq çoxları ilə oturub-durmusan?

**Süsənbər.** Sus, danışma, mənim tanıdığım bir dəyərli kişi varsa, o da sənsən, bəy!

**Pənahəli bəy.** Hərdən səni mal balasını tapdalayan kimi tapdalamaq istəyirəm.

**Süsənbər.** Mən sənə çox şey deyə bilərəm, bəy, döyülməkdən, öldürülməkdən də qorxmuram, qanımı sənə halal eləmişəm, amma ölmək istəmirəm, qorxuram bu xoşbəxtliyim bitə.

**Pənahəli bəy.** Onsuz da bitir, Süsən.

**Süsənbər.** Nə deyirsən, bəy? Təzə dava başlayır? Şah səni də aparır Xorasana?

**Pənahəli bəy.** Xorasana? Sən bunu haradan bilirsən?

**Süsənbər.** Nə bilim, hamı elə deyir.

**Pənahəli bəy.** Şah məni saraya çağırtdırmışdı.

**Süsənbər.** Saraya? Nəyə görə, bəy?

**Pənahəli bəy.** Şah məndən nagümandır.

**Süsənbər.** Niyə? Sən ki ona sədaqətlə qulluq eləyirsən. Hamı da bilir, görür.

**Pənahəli bəy.** Süsən, mən qaçıb aradan çıxmalıyam.

**Süsənbər.** Allah, məni öldür...

**Pənahəli bəy.** Ya qacmalıyam, ya da Nadir şahın cəlladına təslim olmalıyam. Hələ, bəlkə, mən saraydan çıxan kimi ölüm fərmanımı da imzalayıb.

**Süsənbər.** Bəs nəyi gözləyirsən, bəy?

**Pənahəli bəy.** Əslində, biz xeyli müddətdir ki, öz adamlarımızla qaçmağa hazırlaşırıq. Fürsət gözləyirik, amma daha vaxt daralıb, ta gözləmək olmaz, qaçmalıyıq.

**Süsənbər.** Hara qaçacaqsan, bəy? Qarabağ Nadir şahın ixtiyarındadı, bir də ki, hər yerə əli də çatır.

**Pənahəli bəy.** Dünya gendir, Süsən, amma hökmən Qarabağa gedəcəyəm, doğma yerlər məni ələ verməz, düşmən gözündən gizlədər. Mən bunu çoxdan eləməliydim.

**Süsənbər.** Bəs nəyi gözləyirdin, bəy, nə mane olurdu sənə?

**Pənahəli bəy.** Bilirəm hansı cavabı istəyirsən. *(Gülümsəyir və onu qucaqlayır).* Arvad ki, arvad. Bir də... Qaçmaq ar gəlir mənə. Qorxaq tülkü kimi xəlvəti aradan çıxmağı özümə yaraşdırmıram.

**Süsənbər.** Bəy, tülkü qorxaq olsa da, ağıllıdır.

**Pənahəli bəy.** Tülkü ağıllı deyil, Süsən, hiyləgərdir. Kişiyə hiyləgərlik yaraşmaz.

**Süsənbər.** Niyə, bəy, hiylə ağıl əlamətidir.

**Pənahəli bəy.** Bəlkə də sən deyəndir, gavur qızı, amma sən deyən ağıl şeytanın qulluğundadır.

**Süsənbər.** Nə deyim, bəy, yaxşısını sən bilərsən, amma tələs, sən elə bu gecə qaçmalısan.

**Pənahəli bəy.** Mən elə bildim sən ağlayıb-sıtqıyacaqsan, deyəsən, əksinədir, hətta məni tələsdirirsən də. Bəlkə sevinirsən, Süsən?

**Süsənbər.** Ağlayacağam, bəy, sinəmi cırıb saçımı yolacağam, amma sonra, sən gedəndən sonra. İndi sənin gözəl başını cəllad kötüyü üstündə görmək istəmirəm. *(Onu qucaqlayır).*

**Pənahəli bəy.** Qorxma, mən Nadir şaha baş verən kişi deyiləm. Yığış, səni də aparıram.

**Süsənbər.** Yox, bəy, qadan alım, mənə dəymə. Mən burada, əsir həyatı yaşadığın yerdə lazım idim sənə. Orada, Qarabağda mənə yer yoxdur. *(Kövrəlir).*

**Pənahəli bəy.** Süsən, nə danışırsan? Pənahəli bəy bir arvada yer eləyə bilməyəcək Qarabağda? Yoxsa, sən, doğrudan da məni Nadir şahın əsiri, aciz köləsi hesab edirsən?

**Süsənbər.** Qadan alım, bəy, orada sənin arvadın, oğlanların var. Mən kiməm ki... Mən səni unuda bilməyəcəm, səndən sonra mən öləcəyəm. *(Ağlayır).*

**Pənahəli bəy.** Nə axmaq söz danışırsan, Süsənbər! Sən niyə ölürsən, mən səni istəməsən də, aparacağam, tərkimə alıb aparacağam.

**Süsənbər.** Mənim paxıllığım tutur ona, oğlanlarının anasına. Allah necə xoşbəxt yaradıb onu.

**Pənahəli bəy.** Bilmirəm o xoşbəxtdi, ya yox, neçə ildir görmürəm, bir əməlli xəbərim də yoxdur, ağlımı oğurlamısan, mən səni sevdim, Süsən!..

**Süsənbər.** Qadan alım, bəy, başına dolanım, bəy, öldür məni, sonra get. Salamat buraxma məni.

**Pənahəli bəy.** Sus, danışma, İsfahan gözəli, sən danışanda qanım coşur, beynim dumanlanır, tiryəkli adam kimi əl-ayağımı hiss eləmirəm... *(Onu ehtirasla öpür).*

**Süsənbər.** Qadan alım, bəy...

*Qapı ehtiyatla döyülür,*
*Pənahəli bəylə Süsənbər aralanırlar.*

**Süsənbər** *(təlaşla).* Bu vaxt kim ola? *(Qapı bir də döyülür).* Bəy, sən keç ora, daldalan.

**Pənahəli bəy.** Belə dur! Mən evin dalına keçim, sən qapıya?

**Süsənbər.** Nigaranam, bəy, şahdan qorxum var. *(Qabağını kəsir).*

**Pənahəli bəy.** Çəkil dedim! *(Qolundan tutub qırağa itələyir və qapıya gedir).* Lütfəli bəy, sənsən? Bu vaxt nə əcəb?

**Lütfəli bəy.** Dayı! *(Qucaqlayır).* Şükür o bir olan Allaha ki, salamatsan. Hər yerdə soraq elədim, sonra dedim burada olarsan.

**Pənahəli bəy.** Nə olub axı, nə axtarışdı bu? Ölüb-itən var?

**Lütfəli bəy.** Dayı, eşitdik şah çağırtdırıb səni. Yaman təşviş keçirdik. Şükür ki, salamatsan, özünün də burada, deyəsən, kefin kökdü.

**Pənahəli bəy.** Bacıoğlu, yenə sarı simə vurursan.

**Lütfəli bəy** *(qəfildən onu qucaqlayır).* Dayı, vallah, düzünü deyəcəyəm. Qorxduq.

**Pənahəli bəy.** Yaxşı, sakit ol. Gördün ki, salamatam, gəlib qapını döyməsəydin, indi... *(qəhqəhə ilə gülür).*Mərdimazarı axtarmaqla deyil ki, özü öz ayağı ilə gəlir...

**Lütfəli bəy.** Dayı, mənəm mərdimazar?

**Pənahəli bəy.** Yaxşı, Lütfəli bəy, vəziyyət, doğrudan da, pisdir, şahın qəzəbinə düçar olmuşuq. Hamımız təhlükədəyik.

**Lütfəli bəy.** Nə danışırsan, dayı?

**Pənahəli bəy.** Hə, hə! Hər an dalımca gələ bilərlər. Mat qalmışam ki, şah məni niyə buraxdı...

**Lütfəli bəy.** Bəs onda niyələngiyirik, dayı?

**Pənahəli bəy.** Mən artıq qərara gəlmişəm. Biz sabah qaçmalıyıq.

**Lütfəli bəy.** Sabah niyə, dayı? Elə indi atlanıb yola düşək. Hər saatın bir hökmü var.

**Pənahəli bəy.** Doğru deyirsən, bacıoğlu, vaxt itirməyək, İsfahandan elə bu gecə çıxaq, yol alaq Qarabağa. Vətən bizi ələ verməz. İşdi, qismətimiz ölümdürsə, eyib etməz, ölək orada – Qarabağda, Cavanşirlər elində. Amma biz ora ölməyə getmirik. Lütfəli bəy, torpaqlarımıza yiyə çıxacağıq, düşmənlərimizi xar edəcəyik, inşallah! Nadir şahın istisinə sığınıb Qarabağda çaqqal kimi gödən sökən erməni məliklərini yurdumuzdan qovacağıq. Molla Dəlili demiş: "Gözəl torpaq gözəl gəlin kimidir, gözü düşəni, tamah salanı çox olur".

**Lütfəli bəy.** Dayı, onda mən ləngiməyim, gedim bəylərə xəbər eləyim, yığışsınlar.

**Pənahəli bəy.** Tələsmə, bir yerdə gedək, bu, ciddi məsələdir, yola çıxmamışdan əməlli-başlı götür-qoy eləyək. Biz buradan bir-iki günlüyə yox, həmişəlik gedirik.

**Lütfəli bəy.** Dayı, yəni biz o yerlərə gedirik? Tanış ellər-obalar, tanış yollar, cığırlar, dağlar-dərələr, yamaclar... *(Kövrəlir və Pənahəli bəyi bir də qucaqlayır).*

**Pənahəli bəy.** İnşallah, bacıoğlu! Didərgin düşmüş qohum-əqrabanı, el-obanı da qaytaracağıq doğma yurdumuza. Yaxşı, burax məni, sən çıx... *(Onu özündən aralayır).*

*Lütfəli bəy gedir, Süsənbər gəlir.*
*Pənahəli bəy ona, o da ona baxır.*

**Pənahəli bəy.** Nədi, niyə elə baxırsan?

**Süsənbər.** Deməli, gedirsən?

**Pənahəli bəy.** Gedirəm. Süsən, səndən ayrılmaq istəməsəm də, gedirəm. Başqa yol yoxdur.

**Süsənbər.** Bəs mən demirdimmi hər şeyin bir əvvəli, bir axırı var? Bu fani dünyada binəva Süsənin də xoşbəxt günləri bitməli idi.

**Pənahəli bəy.** Süsən, sən mənim əsirlik həyatımın nəşəsi oldun. Nə yaxşı əttar dükanına girdim, rast gəldim sənə. Mən hara, əttar dükanı hara? Demə, tale özü aparırmış məni ora. Sənin çarşab altdan baxan ala gözlərini görəndə ağlım başımdan çıxdı. Niyə elə baxırdın, Süsən? *(Ona yaxın dayanır).*

**Süsənbər.** Utandırma məni, bəy.

**Pənahəli bəy.** Mən Pənahəli bəy Cavanşir – üç oğul atası növrəstə cavan kimi dükandan çıxıb dalınca düşdüm, qarabaqara izlədim səni, hiss elədim ki, bunu sən də istəyirsən, gözləyirsən məni.

**Süsənbər.** Əlbəttə, bəy, sənin bilmədiyin işlər də var, amma mən onların üstündən sirr niqabını götürməyəcəm, qoy hər şey yadında bildiyin kimi qalsın.

**Pənahəli bəy.** Oxu atıb, yayı gizlətmə, Süsən.

**Süsənbər.** Bəy, mənim haqqımda çox şeylər deyib-danışa bilərlər, eyib etməz, bu, qismətdir. Amma onu bil ki, bu aylar ərzində mən sənə sədaqətli, hər cəhətdən vəfalı olmuşam, səni gücüm yetən qədər xata-baladan qorumuşam, bilirəm cəzam ağır olacaq, amma bu məni qorxutmur.

**Pənahəli bəy.** Çox müəmmalı danışırsan, Süsən, nə cəza, nə ölüm? Kim sənə cəza verəcək, sən niyə ölməlisən, nə günahın sahibisən? Zənən xaylağı ilə kim düşmənçilik eləyəcək?

**Süsənbər.** Ta heç nə soruşma, bəy, yol üstdəsən. Sən böyük işlər üçün doğulmusan, arvad ətəyindən yapışıb qalmaq sənə yaraşmaz. Gecə-gündüz "Qarabağ, Qarabağ" deyib dad-aman elədiyin o yerin xanı, hökmdarı olacaqsan. Mənim xaçpərəst nənəm deyərdi ki, kişinin alnında bir qırış var, iddia, mənəm-mənəmlik qırışı, o, çox dərindədirsə, deməli,

çox adama hökm eləyəcək, hökmdar olacaq. *(Pənahəlinin alnındakı dərin qırışı sığallayır).* Qarabağın xanı olanda isfahanlı Süsənbərin sözlərini xatırlayarsan.

**Pənahəli bəy** *(təsirlənir).* Mütləq xatırlayacam, Süsən.

**Süsənbər.** Mən buna əminəm, bəy. Sən məni heç vaxt unutmayacaqsan, lap bundan sonra qırx arvadın olsa da. *(Ağlayır).*

**Pənahəli bəy.** Mən sənin arxanca gələcəyəm, Süsən.

**Süsənbər.** Ümid işıqdır, bəy. Amma biz bir də görüşməyəcəyik. Böyük işlər üçün doğulmuş kişilərin həyatında hər qadın çiçək misalında bir şeydir, açılır, ətir saçır və tez də solur...

**Pənahəli bəy.** Mən sənin xiffətini eləyəcəyəm, İsfahan gözəli.

*Bir-birlərinə sarmaşırlar.*
*İşıqlar sönür və qaranlıqda pıçıltılar eşidilir.*

**Pənahəli bəy.** Səndən ayrıla bilmirəm, Süsən.

**Süsənbər.** Amandı, bəy, səni gözləyirlər. Lütfəli bəy qapıdadır.

**Pənahəli bəy.** Sus...

**Süsənbər.** Bəy, qadan alım, başına dolanım...

*Pıçıltılar arasında səhnə fırlanır, işıqlar yanır.*

*Nadir şahın qəbul otağı. Rza xan, Mirzə Mehdi xan, Cəfər xan nigaran halda durub, hər an qapının açılacağını gözləyirlər.*

**Cəfər xan.** Mirzə Mehdi xan, sən bu sarayda olan hər şeyi bilirsən, sabah-sabah bu nə müşavirədir? Mən bilən hələ murği-səhər də oxumayıb.

**Rza xan.** Murği-səhərin buna nə dəxli var, Cəfər xan? Dünən qibleyi-aləmin əhvalı birdən qarışdı. Bir tərəfdən o Allahqulu məlik, digər tərəfdən də o yava ağızlı qarabağlı. Heç xoşlamıram bu qarabağlıları, bizə xor baxırlar.

**Cəfər xan.** A kişi, sən bir dayan. Mirzə Mehdi xan, söz soruşuram, niyə susursan? Gecənin sirrini o yaxşı bilər?

**Mirzə Mehdi.** Ağalar, qibleyi-aləm Pənahəli bəydən çox nagümandır. Dünənki naxoş söhbətdən sonra da lap rəncidə oldu, nə fikirləşdisə, səhəri gözləmədən Pənahəli bəyin hüzuruna gətirilməsini tələb edib. Yəqin ki, Məhəmməd xan şahın əmrinin icrası ilə məşğuldur.

**Cəfər xan.** Şah neynirsə, haqqınadır.

**Rza xan.** Əlbət ki, elədir, Cəfər xan. Amma bizim işimiz burada nədən ibarətdir? Adam tutmuruq, adam buraxmırıq.

**Mirzə Mehdi.** Elədir, Rza xan, amma qibleyi-aləm hər işin məsləhətli icrasını istəyən hökmdardır.

**Cəfər xan.** Əlbəttə, məsləhətli don gen olar.

**Rza xan.** Mirzə Mehdi xan, axı o dikbaş Pənahəli bəyi saraya gətirmək nə müşkül işdir ki?

*Qapı açılır. Nadir şah gəlir. Hamı təzim eləyir. Nadir şah qiymətli xalat geyinib, altdan yataq libası görünür.*

**Nadir şah.** Mirzə Mehdi xan, gəlmədi Məhəmməd xan?

**Mirzə Mehdi.** Şahım, gözləyirik.

**Nadir şah.** Bütün gecəni gözlərimə yuxu getməyib, düşünmüşəm-daşınmışam, dağı arana, aranı dağa daşımışam və nəhayət bir qərara gəlmişəm. Ağalar, mən İran dövlətinin təhlükəsizliyini təmin eləməkdən ötəri taxta çıxmışam.

**Cəfər xan.** Qibleyi-aləm, şah nə edirsə, haqqınadır.

**Rza xan.** Əlbət ki, qibleyi-aləm, sənin ayağın biləni bizim başımız bilməz.

**Mirzə Mehdi.** Şahım, Allah bilən, şah eləyən məsləhətdir.

*Məhəmməd xan töyşüyərək gəlir və Nadir şahın qarşısında günahkar kimi diz üstə çökür.*

**Nadir şah.** Ayağa qalx, Məhəmməd xan, bu nə deməkdir? Gətirdinmi o dikbaş qarabağlını? Nədi, niyə dəbərmirsən, Məhəmməd xan, dedim sənə qalx ayağa, eşitmədin?

**Məhəmməd xan** *(qalxmadan).* Qibleyi-aləm...

**Nadir şah** *(sözünü kəsir, birdən qışqırır).* Hanı Pənahəli bəy?

**Məhəmməd xan.** Qibleyi-aləm, qaçıb, çıxıb aradan.

**Nadir şah** *(qəzəblə Məhəmməd xanın üstünə yeriyib onu asanlıqla qaldırır).* Qaçıb? Sən nə deyirsən? *(Qorxudan titrəyən xanları bir-bir süzür və yenə də Məhəmməd xana).* Məhəmməd xan, bu hərəkət o dikbaş qarabağlının cəsarətidirsə, sənin xəyanətindir! *(Kəskin hərəkətlə üzünü çevirir).*

**Məhəmməd xan.** Qibleyi-aləm, inanmazdım ki, bir gecəyə qaçıb çıxsın aradan, amma bütün istiqamətlərə silahlı atlılar göndərmişəm, onlar çox gedə bilməzlər.

**Nadir şah.** Cəm halda danışırsan, Məhəmməd xan!

**Məhəmməd xan.** Qibleyi-aləm, digər Qarabağ bəyləri də Pənahəli bəyə qoşulub qaçıblar. Lütfəli bəy, Məhəmməd bəy, Bayraməli... *(Sözünü bitirə bilmir, Nadir şah ona güclü bir şillə vurur).*

**Nadir şah.** Pədərsüxtə!!!

*Məhəmməd xan bərk sarsılır.*
*Xanlar qorxub Nadir şaha təzim edirlər.*

**Məhəmməd xan.** Qibleyi-aləm...

**Nadir şah.** Bəs sənin xəfiyyələrin niyə xəbərdar etməyiblər səni? Hər il xəzinədən filan qədər pul alırlar.

**Məhəmməd xan.** Mənə xəyanət ediblər, şah sağ olsun!

**Nadir şah.** Axşam öyünmürdün ki, evinin içində xəfiyyən var. Məni arxayın salan sən deyildin, qoca köpək? Hanı sənin o çəngin, niyə duyuq salmayıb səni, niyə xəbər verməyib?

Yoxsa, elə bilib ki, onun əsas vəzifəsi hər gecə Pənahəlinin altına yıxılmaqdı? Cavab ver, pədərsüxtə, cavab ver!

**Məhəmməd xan.** Qibleyi-aləm, o bizə xain çıxdı, ikili oyun oynadı, gavur qızı.

**Nadir şah.** Ha-ha-ha... Yoxsa o da qaçıb?

**Məhəmməd xan.** Xeyr, qibleyi-aləm, qaçmayıb, layiqli cəzasını alıb.

**Nadir şah.** Layiqli? Yəni necə, nə tövür? Danış, Məhəmməd xan, danış.

**Məhəmməd xan.** Qibleyi-aləm...

**Nadir şah.** Şaqqalatdırmısan? İki yerə, tən ortasından?

**Məhəmməd xan** *(qorxu ilə).* Qibleyi-aləm...

**Nadir şah.** Bəlkə, qarnını cırıb bağırsaqlarını yedirtmisən özünə?

**Məhəmməd xan** *(ağlamaq ərəfəsindədir).* Qibleyi-aləm...

**Nadir şah.** Bəs onda neyləmisən? Bəlkə, diri-diri şaqqır-şuqqur qaynayan yağ tiyanına atdırmısan? Afərin! Çoxmu qışqırdı? Danış, Məhəmməd xan, danış!

**Məhəmməd xan** *(az qala hönkürür).* Canım fəda olsun, qibleyi-aləm!

**Nadir şah.** Dayan! Boynunu vurdurmusan? Əgər o çənginin boynunu vurdurmusansa, belə yüngül cəzaya layiq bilmisənsə, əzabın dəhşətli olacaq, Məhəmməd xan!

**Məhəmməd xan** *(ağlayır).* Qibleyi-aləm...

**Nadir şah.** Qibleyi-aləm, qibleyi-aləm... Qoca köpək, nəhayət, sən mənə cavab verəcəksən, ya yox?

**Məhəmməd xan.** O zindandadır, qibleyi-aləm... *(Hönkürüb diz üstə çökür.)*

**Nadir şah** *(qəhqəhə ilə gülür).* Ha-ha-ha... Zindana saldırmısan? Nə ağır cəza verdirmisən?! Ha-ha-ha!.. Yoxsa, sənin də damarlarında gavur qanı axır, pədərsüxtə? Qalx ayağa, tez

qalx, sən mənim zəhləmi tökmüsən, özü də çoxdan tökmüsən. Qalx!

**Məhəmməd xan** *(qalxır).* Qibleyi-aləm, möhlət ver, mən o xaini əli-qolu bağlı gətirim hüzuruna.

**Nadir şah.** Daha bir xainə möhlət verim ki, boynunu edam ilgəyindən qurtarmaq üçün mənə sui-qəsd hazırlasın? Keçməz, Məhəmməd xan, sən daha bu dünyanın adamı deyilsən! *(Xəncərini qəfildən Məhəmməd xanın ürəyinə sancır).*

**Məhəmməd xan.** Ah-ha... a! *(Nəfəsini çəkə bilməyib yıxılır).*

*Xanlar dəhşət içində bir-birinə baxıb təzim edirlər.*

**Nadir şah.** Xəyanətkarın ömrü belə bitir, ağalar! Mirzə Mehdi xan, o çəngini bunun Qarabağdan gətirdiyi qara kəhərin quyruğuna bağlayın. Qoy tikə-parça olub qurd-quşa yem olsun o fahişə. *(Bir dəxanları süzür).* Nadir şah Əfşar qocalıb, ürəyi yumşalıb deyirsiniz? Qoy tez-tez yaşaran gözlərim aldatmasın sizi! Mən qəzəbindən od yağan, bığından qan daman Nadir şah Əfşaram. Yaşı min illə ölçülən İran taxt-tacının yiyəsiyəm. Göydə Allah – vəlinemət, yerdə Nadir şah Əfşar. O xain Pənahəli bəy mənim qarşımda diz çöküb ayaqlarımı yalamayınca, məndən imdad diləməyincə, sizə qan udduracağam. Eşitdin, Mirzə Mehdi xan, rəğbət bəslədiyin Pənahəli bəy Cavanşir mənim ayaqlarım altında payəndaza çevriləcək! Bunu mən deyirəm, Nadir şah Əfşar! *(Qəti addımlarla gedir. Xanlar təzim edirlər).*

*İşıqlar sönür.*

## İKİNCİ PƏRDƏ

*Qarabağda – təbiətin gözəl bir guşəsində xəmsə məliklərinin ovdan sonra qurulan məclisi...*

**Yeqan.** Deyirəm, ağalar, Qarabağ da bizim olarmış. Allah Nadir şahın ömrünü uzun eləsin, bu dilbər diyarın külli-ixtiyarını bizə verdi, babam Allahqulunu da sultan elədi. Biz gecə-gündüz o kişiyə duaçı olmalıyıq.

**Hüsü.** Baba, Vərəndə mahalı Nadir şaha alqış eləyə-eləyə yatır, alqış eləyə-eləyə oyanır.

**Allahqulu.** Alqış eləmək, dua oxumaq azdır, məlik Hüsü, biz Nadir şahı düşmənlərindən qorumalıyıq. Düz üç ildir o məlun Pənahəli şahın nəzərindən qaçıb gizlənir, özü də harada – burada, bizim Qarabağ mahalında.

**Şahnəzər.** Onu kim deyir ki, Pənahəli bəy buradadır?

**Allahqulu.** Mən o nadürüst quldurun iyini almışam, məlik Şahnəzər. Siz bilmirsiniz, onun Qarabağda, Qarabağətrafı mahallarda qaçaqçılıq elədiyi hamıya məlumdur. Yoxsa, gecələri səksəkə içərisində yatdığımızı da danacaqsınız? Çox xırdalamaq istəmirəm, onu bilirəm ki, Nadir şaha alqış eləməklə iş bitmir, biz özümüz Qarabağı saxlaya bilməsək, əlimizdən alacaqlar.

**Usub.** Vay astvas, onu tutmaqmı olar, cin-şeytan kimidir. Sorağı gah Gəncədən gəlir, gah Naxçıvandan, nə bilim ta haradan? Mənciyəz gecə yerimə girəndə qapı-pəncərəmi bərk-bərk bağlayıram.

**Şahnəzər.** Sən qapı-pəncərəni yox, ağzını bağlasan, daha yaxşı olar.

**Usub.** Məlik Hüsü, bacın oğlunun ipini çək, ağzını dağıtmasın. Mən ondan on altı yaş böyüyəm.

**Şahnəzər.** Heç kəs mənə ağalıq eləyə bilməz, Usub, mən özüm də məliyəm, heç kəsdən də əskik deyiləm.

**Hüsü.** Ay bərəkallah, bacıoğlu!

**Şahnəzər.** Pənahəli bəy qoçaqdır, bu torpaqlar da, əslində, onun atası İbrahimxəlildən qalıb, deməli, ona məxsusdur. Ağlınızı yığın başınıza, bir yaxşı-yaxşı fikirləşin. Nadir şah uzaqdadır, İsfahanda, əli bizə çatmır, Pənahəli bəysə buradadır, yaxında, biz onunla ittifaqa girməliyik. Gəmidə oturub gəmiçi ilə davalaşmaq axmaqlıqdır. Dostu uzaqda yox, yaxında tapmaq gərəkdir.

**Hüsü.** Bacım oğlu olsan da, Şahnəzər, mənə elə gəlir ki, sən erməni deyilsən, Məhəmməd ümmətisən.

**Şahnəzər.** Dayı, əgər mən haqqa tərəfəmsə, deməli, erməni deyiləm? Gərək elə hiylə quraq, fənd işlədək? Məgər bizim bu torpaqlara gəlmə olduğumuz özümüzə məlum deyil? Ta burada özgə adam yoxdu ki, yalan danışaq, kələk işlədək?

**Yeqan.** Oğlum, adam söylədiyi yalana birinci özü inanmalıdır.

**Allahqulu.** And içmişdim ki, Şahnəzər, səninlə heç vaxt danışmayacağam, amma olmadı. Qulağını aç, yaxşı eşit, elə hamınız eşidin, Pənahəli bəy güclənsə, bizi bu torpaqlardan qovacaq.

**Şahnəzər.** Bir üz qoymusunuz ki, Pənahəli bəy də sizinlə əmin-amanlıqla qonşuluq eləsin?

**Allahqulu.** Nə qədər ki gec deyil, gəlin qüvvələrimizi birləşdirək, tutaq o məlunu təslim eləyək Nadir şaha. İnanın ki, qardaşlar, mükafatımız çox böyük olacaq.

**Yeqan** *(saqqalını tumarlayır və bic-bic gülümsəyir).* O nə mükafatdır elə, Allahqulu sultan?

**Allahqulu.** Baba, Nadir şah bizə Qarabağı birləşdirib xanlıq yaratmağa izn verər.

**Usub.** Vay astvas, bəs xan kim olacaq?

**Şahnəzər.** Allahqulu məliyə nə gəlib ki? Sultan idi, olar xan. Qarabağ hakimi Allahqulu xan.

**Allahqulu.** Sən kinayə ilə deyirsən, Şahnəzər məlik, amma nahaq. Bizim xanlardan nəyimiz əskikdir? Elə tək mənim var-dövlətim neçə xanın var-dövlətindən çoxdu. Bir də bu məsələ bizlik deyil, ixtiyari-dövran Nadir şah Əfşardır.

**Şahnəzər.** Xam xəyaldı. Siz heç vaxt Pənahəli bəyi tuta bilməzsiniz. Onun iki yüz igid atlısı var. Özü də ki, yüz atlıya dəyər.

**Hüsü.** Şahnəzər, bəsdir o qulduru təriflədin! Ya üzə düşmüsən, ya da sənin beynin xarab olub. Lazım gəlsə, mən özüm bu ahıl yaşımda ona zərbi-dəstimi göstərərəm. Şaha xilaf çıxanın qanı halaldır.

**Yeqan.** Gəlin müsəlmanlar kimi boş söz güləşdirməyək, məliklər! Mən yaşda sizin hamınızdan böyüyəm, görə-görə gəlmişəm. Siyasət, hiylə işlətmək lazımdır. İnsanın gücü ağılda, incə siyasətdədir.

**Allahqulu.** Nə məsləhət görürsən, baba?

**Yeqan.** Bizə nə dava gərəkdir, nə də qoşun. Pənahəli bəyin atlılarının sayını da bilməyə hacət yoxdur. Öyrədilmiş, pulla ələ alınmış bircə adam kifayətdir ki, Pənahəli bəyi o dünyalıq eləsin.

**Usub.** Vay astvas, bə kimi göndərək, baba Yeqan? Kim belə təhlükəli işə qol qoyar, kim keçər şirin canından?

**Hüsü.** Məzhəb haqqı, məni üzdən tanımasaydılar, gedərdim. Alardım ondan hayıfımı.

*Şahnəzər qəhqəhə çəkib gülür.*

**Usub.** Vay astvas! Nəyə gülür bu Şahnəzər? Açılan yerimiz var, məlik Hüsü?

**Hüsü.** Arsızlığına salıb da.

**Şahnəzər.** Məni bağışlayın, məliklər, dayım Hüsünü Pənahəli bəylə üz-üzə dayanmış təsəvvür elədim, gülmək tutdu məni. *(Gülür).*

**Hüsü**. Gədə, sarımağa adam tapmadın? Səni məliklər sırasına çıxardan, adam eləyən mən deyiləm?

**Allahqulu.** Bəsdirin! Sizin boş iyəşmələriniz məni təngə gətirdi. Ağalar, biz tək özümüzün, var-dövlətimizin taleyini düşünmürük, Qarabağa köçürülən ermənilərin də dərdini çəkirik. Biz köçərilikdən, qovulmaqdan yorulduq, axır ki, daimi bir məskən seçməliydik, elə seçmişik də. Bu məskənin adı Qarabağdır. Biz ya əbədi qarabağlı olmalı, ya da burada, bu torpaqda qırılıb məhv olmalıyıq.

**Yeqan.** Məlik Allahqulu çox doğru buyurur, bu ölüm-dirim məsələsidir.

**Şahnəzər.** Xalqını istəyən onu davaya, ölüm-dirim savaşına aparmaz. Məgər Qarabağda müsəlmanlarla mehriban yaşamaq mümkün deyil? Nadir şahın başmaqlarını yalayınca, elə Pənahəli bəyə tabe olun da.

**Allahqulu.** Şahnəzər, sən niyə başa düşmürsən ki, Nadir şah çox uzaqdadır. Biz sözdə ona tabe olacağıq, bir də illik vergisini verəcəyik. Həm də Nadir – şahdır, Əfşardır, Pənahəli kimdir, qaçaq-quldur.

*Qəfil güllə səsləri və at kişnərtisi eşidilir. Üzləri yarıyacan örtülü İbrahim ağa, Lütfəli bəy və bir neçə silahlı gəlir. "Vay astvas!", "Bu kimdir, ara?", "Qaçaqlar!" kimi sözlər eşidilir.*

**Lütfəli bəy.** Əllər yuxarı! Tərpənməyin!

**İbrahim ağa.** Eşitmədiniz?

**Lütfəli bəy.** Tüfəngə əl atanın anasını ağladaram! *(Havaya atəş açır).*

**Usub.** Vay astvas!

**Lütfəli bəy.** Məlik Yeqan, eşitmədin? Əllər yuxarı?!

**Yeqan** *(əllərini qaldırır).* Nə olub, oğul, kimsiniz, biz binəva ermənilərdən nə istəyirsiniz?

**İbrahim ağa.** A kişi, danışma, əllər yuxarı! Sən də! *(Tüfəngi Allahquluya sarı çevirir).* Eşitmirsən?

**Allahqulu.** Əllərimizi qaldırmasaq nə edəcəksən? Gülləyə tutacaqsan bizi? Məgər biz uşaq-muşağıq? Hərəmizin arxasında bir məliklik dayanır.

**Hüsü.** Ha li! *(Əlləri göydədir).* Biz xəmsə məlikləriyik, yoldan ötən yox. Bura Nadir şahın baba dediyi məlik Yeqanın tarlalarıdır.

**Lütfəli bəy.** Sən öləsən! Bəlkə külli-Qarabağ da sənindi?

**Allahqulu.** Yaxşı, dediniz əllərimizi qaldıraq, qaldırdıq, tərpənməyin, tərpənmirik, sonra? Nə istəyirsiz?

**Lütfəli bəy.** İndi bilərsiniz. *(Havaya atəş açır, məliklər diksinir).* Pənah xan Cavanşir gələr, özü deyər.

**Yeqan.** Pənah xan? O kimdir? Bəlkə...

*Pənahəli xan gəlir. Ermənilər təlaş və heyrət içindədir.*

**Pənah xan.** Xoş gördük, ağalar! Bu nə gündür, əlləriniz niyə göydədir? Salın aşağı, sizə qol-qılça qaldırmaq yaraşmır. Yeqan baba bu yaşda...

**Yeqan.** Pənahəli bəy...

**Lütfəli bəy** *(üzünü açır).* Bəy yox, qoca, Pənah xan!

**Yeqan.** Lütfəli bəy? Neynək, olsun Pənah xan, onun xanlardan nəyi əskikdir? Biz öz aramızda çoxdan ona xan deyirik.

**Pənah xan.** Yaxşı, niyə donub qalmısız? Məlik Şahnəzər, sən də buradasan? *(Şahnəzər dinməyib başını aşağı salır).*Yəqin məni necə tutmağı, şaha təhvil verməyi müzakirə edirdiniz.

Buyurun, özüm öz ayağımla gəlmişəm. Məlik Allahqulu, köhnə "dost", sən də buradasan, niyə gizlədirsən üzünü?

**Allahqulu.** Niyə gizlədirəm ki, gizlətmirəm...

**Pənah xan.** Çox gözəl! Yenə görüşdük səninlə, yenə üz-üzə gəldik.

**Allahqulu.** Elədir, dünya dar dünyadır, Pənahəli bəy...

**Lütfəli bəy.** Pənah xan!

**Allahqulu** *(gülümsəyir).* Neynək, olsun Pənah xan. Biz müdrik adamlarıq, bəyin xan, xanın şah olmasına darılmarıq.

**Pənah xan.** Doğrudanmı, özünüzü müdrik hesab edirsiz? Bəs elədirsə, niyə bizim torpaqda dolanır, çörəyimizi yeyir, suyumuzu içir, sonra da bizə düşmən kəsilirsiniz? Budur sizin müdrikliyiniz? Məlik Allahqulu, mən bilən bu müdriklik yox, xainlikdir!

**Yeqan.** Allah eləməsin, Pənah xan, xain nədi? Biz müsəlmanlara, Qarabağın yerli əhalisinə həmişə dost olmuşuq, qız vermişik, qohum olmuşuq.

**Pənah xan.** Elədir, qız vermisiniz, qohum olmusunuz, amma Nadir şahın qılığına girib mənim qohum-əqrabamı, eli-mi-elatımı Sərəxs düzünə də köçürtdürmüsünüz. Mən neçə ildir ailəmin üzünə həsrət qalmışam. Allahqulu, Cavanşir nəslinin say-seçmə igidlərini şərləyib qansız Nadir şahın qəzəbinə tuş gətirəndə qorxmadınmı? Bilmədinmi haqq gec eləyər, güc eləyər? Qardaşım Fəzləli sənə nə pislik eləmişdi ki, onu şərləyib verdin güdaza? Bundan sonra sən necə rahat yaşayırsan?

**Allahqulu.** Pənah xan, mən nəkarəyəm ki, Nadir şah sözümlə durub-otura? O, həşəmətli İran hökmdarı, mənsə onun hüzurunda baş əyən zavallı bir erməni məliyi.

**Pənah xan.** Neynək, məlik Allahqulu, qoy sən deyən olsun, amma haqq nazilər, üzülməz. Qayıdıb gəlir didərgin saldırdığın elim-obam. Cavanşir, Kəbirli, Otuzikilər elatı ar-

tıq yoldadırlar, çıxıblar Sərəxsdən. Görək onlara nə cavab verəcəksən!

**Usub.** Vay astvas! Bəs o camaat Nadir şahın qəzəbindən qorxmur?

**Pənah xan.** Nadir şah indi çox uzaqlardadır, ağalar, əliniz ona çatmayacaq.

**Allahqulu** *(pıçıldayır).* Ola bilməz...

**Pənah xan.** Məliklər, bilin və agah olun, kölgəsində gizlənib gödən sökdüyünüz Nadir şah Əfşar artıq yoxdur.

**Usub.** Vay astvas!

**Şahnəzər.** Necə yəni yoxdur? Yoxsa...

**Pənah xan.** Bəli, məlik Şahnəzər, Nadir şah sui-qəsdin qurbanı olub. Onu öz əyanları yatağında qanına qəltan eləyiblər.

**Allahqulu.** Axı bu necə ola bilər?

**Pənah xan.** Bilin ki, bu gündən külli Qarabağın ixtiyaratı məndədir. Sizin hakiminiz Nadir şah yox, Pənah xan Cavanşirdir.

**Usub.** Vay astvas!

*Məliklər çaşqın vəziyyətdədirlər.*
*Bir-birilərinə baxırlar.*

**Yeqan.** Hayıf Nadir şahdan, hayıf!

**Hüsü.** Ta deyin, qırıldı da belimiz.

**Şahnəzər.** Sevinin, məliklər, qaniçənin biri azaldı. Nə boynunuzun vurulmaq təhlükəsi qaldı, nə gözünüzə mil soxmaq qorxusu.

**Hüsü.** Biqeyrət, danışma. Şahnəzər, səsini kəs, yoxsa mən özüm kəsərəm sənin səsini!

**Şahnəzər.** Hüsü, cin atına mindirmə məni! Baxmaram dayımsan, ağsaqqalımsan!..

**Allahqulu.** Bəsdirin! Pənah xan, Nadir şahın ölümünü necə sübut eləyə bilərsən?

**Pənah xan.** Ən yaxşı sübut oğlum İbrahim ağadır. Bu xoş xəbəri mənə çatdırmaq üçün neçə gün, neçə gecə at çapıb.

**Usub.** Yaxşı, bəs indi... Vay astvas!.. *(Əlləri ilə başını tutur).*

**Yeqan.** Yaxşı, Pənah xan, ölənlə ölmək olmaz, Nadir şah artıq haqq dünyasındadır, indi məsləhətin nədir, biz neynəməliyik?

**Pənah xan.** Mənim beş yüz atlım var.

**Lütfəli bəy.** Dayı, altı yüz əllini keçib.

**İbrahim ağa.** Elədir, Naxçıvandan gələn də, yolda bizə qoşulanlar da oldu.

**Allahqulu.** Biz də tək deyilik, Pənah xan, bizim də silahlılarımız var.

**Pənah xan.** Bilirəm, məlik Allahqulu, mənim hər zaddan xəbərim var. Onu da bilirəm ki, birləşib vahid bir ordu yarada bilməsəniz də ayrı-ayrılıqda güclü dəstələriniz var, amma mən sizinlə dava eləmək niyyətində deyiləm. Mən Qarabağa savaş yox, əmin-amanlıq, sülh gətirmək istəyirəm. Mən Qarabağ elatlarını birləşdirmək, güclü və böyük bir xanlıq yaratmaq, sizi də özümə müttəfiq etmək istəyirəm. Keçmiş inciklikləri unuduram. Razı olsanız xoş, olmasanız, ya Allah sizə verər, ya mənə. Kişi kimi, üz-üzə döyüşəcəyik. Nə deyirsiniz? *(Məliklər bir-birlərinə baxırlar.)* Məlik Yeqan, Nadir şah sənə ağıllı, müdrik ağsaqqal kimi baba deyib, sözünü de.

**Yeqan.** Pənahəli bəy, sənə xan deyirəm, soruşmuram da ki, bu xanlığı sənə kim verdi?

**Pənah xan.** Mən özüm özümü Qarabağın xanı elan etmişəm, hamınız eşidin!

**Usub.** Vay astvas!

**Yeqan.** Özgə söz bilmirsənsə, sus, Usub, tsayıt qdri! Pənah xan, bir Allah şahiddir ki, bir az qabaq məliklərə deyirdim ki, Nadir şah uzaqdadır, biz Pənahəli bəylə ittifaq qurmalıyıq. Məliklər, elə dedim, ya demədim?

**Hüsü** *(kənara).* Qoca tülkü!

**Şahnəzər.** O sözləri sən yox, mən dedim, Yeqan baba.

**Yeqan.** Əlbəttə, sən dedin, Şahnəzər. Amma bununla sən mənim qəlbimdən keçənləri dilinə gətirdin, ürəyimdən xəbər verdin, axı qoca adam çox düşünər, az danışar. Cavansa, əksinə, az düşünər, çox danışar, həm də alayarımçıq, tələsik. *(Gülür).*

**Pənah xan.** Bəs Çiləbörd məliyi Allahqulu nə deyir, ittifaqa girirmi? Onsuz da Qarabağı siz mənsiz idarə edə bilməzsiniz, Sərəxs səhrasından qurtulub gələnlər sizi ayaqlayar! Onların qarşısını ancaq mən ala bilərəm!

**Allahqulu.** Mən razı, amma... *(Məlikləri süzür və Pənah xana)* Bizim şərtimiz var.

**Pənah xan.** Əlbəttə, ittifaq şərtsiz olmaz. Elə mənim də şərtim var.

**Allahqulu.** Onda buyur, əvvəlcə sən söylə şərtini.

**Pənah xan.** Məliklər, xanlığın yaranmasına, möhkəmlənməsinə maddi yardım lazımdır, bunu sizdən gözləyirəm. Əgər, razısızsa, siz də öz şərtinizi deyə bilərsiniz.

**Allahqulu.** Şərt deyəndə ki, bizim torpaqlarımız, mal-mülkümüz, silahlı dəstələrimiz toxunulmaz qalsın. Zəmanət verirsənmi?

**Lütfəli bəy.** O torpaqlar sizindir?

**Pənah xan.** *(Lütfəli bəyə)* Sən sus! Razıyam, məlik Allahqulu. Bu mənim əlim! *(Əlini uzadır).*

**Yeqan.** Bu da bizim əlimiz!

*Əvvəl Yeqan, sonra Allahqulu, Usub və Şahnəzər Pənah xanın açılmış əlinin üstünə əllərini qoyurlar. Hüsü yaxınlaşmır.*

**Pənah xan.** Məlik Hüsü, sən bu ittifaqa qoşulmursan?

**Yeqan.** Hüsü, yaxın gəl, bu ittifaq məsləhətdir.

**Hüsü** *(ermənicə nəsə deyir).* Mən fikirləşməliyəm. Şahnəzər, sən də əlini çək, Vərəndə məliyi hələ ki, mənəm.

**Şahnəzər.** Dayı, bəs mən kiməm, bəlkə, mən heç Vərəndə məlikliyinə şərik deyiləm, bəlkə, mənim də payıma yiyə durmaq istəyirsən?

**Hüsü.** Sənin payın mən öləndən sonra olacaq, bacıoğlu, çək əlini oradan!

*Şahnəzər əlini çəkir, o biri məliklər də əllərini çəkirlər.*

**Şahnəzər** *(Hüsüyə yaxınlaşıb pıçıldayır).* Nə deyirsən, dayı, sən məni niyə pərt eləyirsən? Sənin heç zürriyyətin də yoxdur, onsuz da, nəyin varsa, mənimdir də.

**Hüsü.** Mən o it uşağı ilə ittifaqa girməyəcəyəm, səni də qoymayacağam. Özün də tələsmə, mənim hələ ölmək niyyətim yoxdur.

**Şahnəzər.** Sən mənim ağam deyilsən.

**Hüsü.** Sənin qanın murdardır, bacıoğlu, müsəlman qatışığı var!

**Şahnəzər** *(əlini xəncərinə atır).* Dayı, həddini bil!

**Yeqan.** Ağalar! Hüsü! Biriniz dəli olanda, o biriniz ağıllı olun!

**Hüsü.** Sən məni hədələyirsən, küçük? Mənim üstümə xəncər çəkirsən? *(Tüfəngini hərləyir).* Deyirsən kürəyini paralayım donuz gülləsiylə?

**Şahnəzər** *(xəncərini onun ürəyinə saplayır).* Al, qoca kaftar!

**Usub.** Vah!

**Hüsü.** Sən, a... a... a... *(Nəfəsi çıxmır və Şahnəzərin ayaqları altına yıxılır.)*

**Allahqulu.** Sən neynədin, namərd?

**Yeqan.** Mən bilirdim ki, bunların iyəşməsi yaxşılıqla qurtarmayacaq.

*Şahnəzər xəncəri Hüsünün meyitinin üstünə atır, çaşqın halda qaçır.*

**Pənah xan.** Bu heç yaxşı olmadı.

**Yeqan.** Pənah xan, müqəddəs kitablarda deyildiyi kimi, nəyin yaxşı, nəyin pis olduğunu biz bilmərik. "Qan qovuşuqdur" deyər qarabağlılar.

**Pənah xan.** Məliklər, bu hadisə ittifaqımızı poza bilməz. Bizi böyük işlər gözləyir.

**Allahqulu.** Allah mərdimazara lənət eləsin! Aparaq bu binəvanın meyitini.

*Məliklər Hüsünün meyitini aparırlar.*

**Pənah xan** *(onların arxasınca baxır).* Qan qovuşuqdur, elədir, məlik Yeqan, qan yuxuda qovuşuqdur. Gerçəklikdə isə qan savaşdır. Bizim bir əlimiz həmişə qılıncımızda olmalıdır.

**Lütfəli bəy.** Niyə onları qırmadın, dayı? Niyə sağ buraxdın? Hələ o məlun Allahqulunu? Axı o bizim qanımıza yerikləyir. Gözlərindən məkr, hiylə yağır.

**İbrahim ağa.** Mamaoğlu düz deyir, ata, gərək onları sağ buraxmayaydın. Elə dayısına əl qaldıran o Şahnəzəri də. İlan ilandı – ağına da lənət, qarasına da.

**Pənah xan.** Tələsməyək, cavanlar, tələsməyək. Əvvəla, onlar tək deyillər, hərəsi bir mahalın məliyidir. İkincisi də, nə deyirsiniz, duraq bütün erməniləri qılıncdan keçirək? Bu la-

zımdımı? Yox, Lütfəli bəy, yox, İbrahim ağa, mən qan tökə-tökə xan olmaq istəmirəm. Onda mənim ermənidən nə fərqim oldu? Biz çalışıb düşməni dost eləməliyik. Ağalar, bizə qılıncla bərabər siyasət – fəndgirlik də gərəkdir.

**Lütfəli bəy.** Dayı, axı sən həmişə hiyləgərə, fəndgirə nifrət eləmisən, onları qorxaq tülkü adlandırmısan.

**Pənah xan.** İsfahanda bir adam mənə dedi ki, tülkü qorxaq olsa da, hiyləgərdir, ağıllıdır. Onda qayıtdım ki, hiylə ağıl əlaməti olsa da, xeyir gətirməz, o, şərə xidmət eləyir. Amma illər keçdikcə görürəm ki, onun sözündə həqiqət var.

**İbrahim ağa.** Kimiydi o, ata?

**Pənah xan.** İndi o yoxdur bu dünyada, Nadir şahın qəzəbinə tuş gəldi. *(Gülümsəyir)*. Hərdən onu yuxuda görürəm.

**Lütfəli bəy.** Bildim kimi deyirsən, dayı...

**Pənah xan.** Getdik, ağalar, xatirələri oyatmaq vaxtı deyil. Keçmişdə nə işimiz var? İrəli, Lütfəli bəy, haydı, İbrahim ağa, bizi Qarabağ xanlığı gözləyir!

*Gedirlər, işıqlar sönür.*
*Pənah xanın sarayında qadınlara məxsus süslü bir otaq...*
*Zərtac xanım bardaş qurub, üzünü aldırır.*

**Xanım.** Nətəhərdi, xanım, sap bərk dartmır ki?

**Zərtac.** Yox, ay arvad, işini gör, qorxma, dartsa da, gərək dözəm dayna. Maşallah, əlin yüngüldü, elə bil, yağdan tük çəkirsən.

**Xanım.** Xanım, yağdan nəyin əskiydi, namxuda, quyruq kimisən, vallah, arvadlığımnan mənim də tamahım düşür sənə.

**Zərtac.** Ətin tökülsün, birtəhər oldum.

**Xanım.** Arvad gərək ərinə özünü istədsin. Canına baxsın, hər yerinə sığal versin, ortasını sıxıb, sağrısını dikəltsin. Yoxsa

bu nədi, tük basıb üz-gözünü? Ölməmişəm ki, mən qarabəxt, çağırtdır gəlim dayna. Vallah, səni bir marala döndərim ki, ta nə deyim?

**Zərtac.** Ay arvad, işini gör, bir azdan xan gələcək, az danış.

**Xanım.** İndi qurtarıram, qadan gəlsin ürəyimə. Bir belə bax, namxuda, namxuda, əllərim qızıldı dayna.

**Zərtac** *(qəhqəhə ilə gülür).* Təriflə özünü, matahını mindir qiymətə.

**Xanım.** Sən lağ elə. O gün qozbel Vəlinin o əyrimçə qızı var ey, hə, sən tanımazsan, kasıb adamdılar, vallah, dədəmin goru haqqı, nə təhər bəzək-düzək vurdumsa, duzsuz anası yastı Fatma dedi ki, biz elə hamımız nəsillikcə gözəl olmuşuq.

**Zərtac** *(qəhqəhə ilə gülür).* Ay arvad, bəsdi dayna, gülməkdən gözlərim yaşardı, indi kişi gələcək.

**Xanım.** Buy, başıma xeyir, neynirəm, ay xanım, kişiyə pislik eləyirəm, arvadının əl-ayağını səliqə-sahmana salıram dayna.

**Zərtac** *(daha bərkdən gülür).* Ətin tökülməsin, arvad, yazıqsan.

**Xanım.** Bax gör xınalı kəklik kimi nə qaqqıldayırsan, maşallah, maşallah... Arvad gərək gülsün-oynasın kişiynən. Ər dediyin gülən, şux arvadı sevər. Ona görə də o erməni harsınlarından ötəri sinoy gedirlər, elə bilirsən o axçıların dərdi-səri yoxdu?

**Zərtac.** Ey, ay Xanım xala, gərəkdir ki, ürəyin açıla, güləsən dayna.

**Xanım.** Buy, bəxtəvərin qızı, sənin ürəyin niyə açılmamalıdı? Pənah xan Cavanşir kimi ərin, namxuda, namxuda pəhlivan qələt eliyər yanında. Bax, bu qocalığımnan onu görəndə gözümü bilmərrə çəkə bilmirəm, əsməcə tutur bədənimi. Namxuda,

biləkləri qurğuşun kimidi, ta qalanını da sən bilərsən... *(Qəhqəhə ilə gülür).*

**Zərtac** *(gülür).* Oyunun olsun, arvad, sənin də canında az yoxdu.

**Xanım.** Eh, ay xanım, nə görmüşəm mən yazıq, üççə dəfə ərə getmişəm, amma başım daşdan-daşa dəyib ey, hamısını açıb-ağartsam... *(Gülür).* Hə, nə təhərdi, belə dur görüm, maşallah, elə bil, soyutma yumurtadı yanaqların. *(Qəfil yanağından öpür).*

**Zərtac** *(diksinir).* Buy, ay arvad... Üstünə od tökülsün, qorxutdun məni...

**Xanım.** Niyə qorxursan, ağrın ürəyimə? Qoy bir qaşlarına da əl gəzdirim. Dədəmin goru haqqı, xan bu gecə səndən əl çəkməyəcək... *(İşləyə-işləyə oxuyur).*

*Qaradır qaşların, gendir arası...*
*Səni çox sevirəm, nədir çarəsi?..*

**Zərtac.** Xanın üzünü görürəm ki, mən yazıq, qalanı qala dalınca tikdirir. Bayat bəs eləmədi, Şahbulaq xoşuna gəlmədi, indi də Pənahabadı tikdirir. Gecəsi-gündüzü yoxdu, üzünə həsrətəm.

**Xanım.** Maşallah de, xanım, nəzər dəyər, barmağımın beşi də pis gözə.

**Zərtac.** Ta demir ki, arvadım var, üç oğlumun anasıdır, gözü qalıb qapıda. Xanım xala, düz bir aydı görmürəm üzünü.

**Xanım.** Başıma xeyir, o cür kişi deyirsən bir aydı arvadsızdı? Bəlkə kiməsə uyub, başına dönüm?

**Zərtac.** Nə danışırsan, ay arvad? Kimdən nə eşitmisən?

**Xanım.** Buy, bismillah, Zərtac xanım, mən qarabəxt məsəlçün dedim, dilim-ağzım qurusun! Yənı ki, Pənah xan kimi kişi təkcə qala tikib-sökməklə rahatlana bilməz axı.

**Zərtac.** Xanım xala, oxu atıb, yayı gizlətmə, kimdi o çəngi, adını de mənə, yoxsa aləmi qana çalxayaram.

**Xanım.** Bax bu canım ölsün ki, mən bir şey bilmirəm, heç kimdən də heç nə eşitməmişəm.

**Zərtac.** Vallah, bir oyun oynayaram ki, Hacı Çələbi xanın gəlişindən betər olar.

**Xanım.** Pah, Hacı Çələbi xan neynədi ki? – suyu süzülə-süzülə qayıdıb getmədi xarabasına? Ondan sonra xanımızın urvatı bir az da artdı. Qoca tülkü nə təhər demişdi? Pənah xan sikkəsiz qızıl idi, biz ona sikkə vurduq.

**Zərtac.** Nə sikkə, ay arvad, o nə deməkdi? Sözü niyə azdırırsan?

**Xanım.** Niyə azdırıram, qadan ürəyimə? Çələbi xanın dediyi o idi ki, bu dava ilə Pənah xana urvat gətirdik. Ətraf xanlar da qandılar ki, Hacı Çələbi xanın bata bilmədiyi Pənah xan Cavanşiri yalın əllə tutmaq olmaz. Belə dur görüm, hə, sağ qaşını bir az nazildəcəyəm.

**Zərtac.** Ay arvad, sən məni dağa-daşa salma, de görüm xan kimə uyub?

**Xanım.** Zərtac xanım, balam yoxdu, sonsuz arvadam, bircə canım var, ondan xeyir görməyim yalan deyirəmsə, mən qarabəxt gümanımı dedim, deməmiş olum.

**Zərtac.** Mən on il sürgündə sərasər can çürüdüm Pənaha görə, o da sonra məni ayaq altına atsın köhnə paltar kimi?

**Xanım.** Ey, ey, xanım, kişilərdə etibar haradadı?

**Zərtac.** Xanım xala, adı Süsənbər deyil o çənginin?

**Xanım.** Süsənbər? Bizim mahalda o adda arvad nə gəzir, biri var dəyirmanın yanında, onun da ağzında dərmana bir dişi yox. Bəlkə mən tanımıram, bu təzə çırt eləyib çıxan şortulardandı?

**Zərtac** *(fikrə gedir).* Nə bilim, bilmirəm, elə ağlıma gəldi soruşdum.

**Xanım.** Neynək, bir soraq eləyərəm, di bir belə dur, tökülmüşüm yaxşı görmür, hə...

**Zərtac.** Uy! Yavaş, ay arvad, qaş düzəltdiyin yerdə vurub gözümü tökərsən.

**Xanım.** Qorxma, qoy bunu da çəkim...

**Zərtac.** Xanım xala, Həzrət Abbasın ala gözlərinə and olsun, o Süsənbərdi-nədi, tanıyam, biləm kimdi, meyit eləyərəm. Bəsdi, ta yığışdır dəstgahı, yoruldum.

**Xanım.** Maralsan ey, maral, ay kimi işıq saçırsan, gün kimi bərq vurursan, sifətin tabaq kimidi, dəpdəyirmi. Belə yerdə deyiblər ki, arvadı sığal saxlayar, atı tumar.

**Zərtac.** Sabah da gələrsən, basıma həna yaxarsan. O gün gözümə beş-üç ağ tük dəyib. Di yeri, indi xan gələcək, səni görməsə yaxşıdı.

**Xanım.** Yaxşı, ağrın alım, gedirəm. Kaş bir milçəyə dönüb, qonaydım xəlvət bir yerə, baxaydım, görəydim xan sənə neyləyir?

**Zərtac.** Buy, başıma xeyir! Nə abırsız arvadsan sən. Yeri, yeri... Allah ətini töksün!.. Yeri!

**Xanım.** Gedirəm, qadan ürəyimə, gedirəm.

**Zərtac.** Hə, al bunu da... *(Pul verir.)* Yeri, əlin-qolun var olsun!

**Xanım.** Sağ ol, ay xanım, Allah oğlanlarını saxlasın! Hə, yadıma düşdü, danışırlar ki, məlik Şahnəzər qızı Hürzadı İbrahim ağaya verir. Elədi, xanım?

**Zərtac** *(həvəssiz).* Nə bilim, vallah, siyasətdi dayna. Eşitdiyimə görə, yumru qızdı, tökmə bədənli, möhkəm baldırlı.

**Xanım.** Ay Zərtac xanım, bu İbrahim ağa evlənməkdən yorulmadı? Bu qədər də siyasət olar?

**Zərtac.** Varlığa nə darlıq? Bir də... Xan özü bilən məsləhətdi, biz nəkarəyik?

**Xanım.** Nə deyim, vallah, Allah xeyir versin! *(Gedir).*

*İşıqlar sönür. Təzədən yanır. Yenə də həmin məkan.*

**Pənah xan** *(Səhnəyə daxil olur. Zərtac xanım yerindən dik qalxır və yüngülcə yaşmanır).* Zərtac xanım, axşamın xeyir, nə təhərsən? Bu nə müşk-ənbərdi qoxusudu gəlir səndən?

**Zərtac.** Elə həmişəki müşk-ənbərdi, xan, görünür, yadından çıxıb.

**Pənah xan.** Eyhamlı danışırsan, Zərtac xanım.

**Zərtac.** Niyə eyhamlı? Gün hayandan çıxdı ki, məni yada saldın?

**Pənah xan.** Giley eləməyə haqqın var. Kişi olan gərəkdir ki, arvadını nigaran qoymasın.

**Zərtac.** Doğru buyurursan, xan, gərəkdir, amma nigaran qoyursan. Neynək, mən hövsələliyəm, Sərəxs düzündə on il yad yollara baxmaqdan gözümün kökü saraldı, indi də burada saraldıram gözümün kökünü. Nə deyim, görünür, hökmdar arvadlarının qisməti budur.

**Pənah xan** *(ciddiləşir).* Qismətindən narazısan?

**Zərtac.** Allah eləməsin, xan, amma qulağıma sözlər çatır.

**Pənah xan.** Qısqanırsan? *(Onu yüngülcə özünə tərəf çəkir).* Nə yaman gözəlləşmisən, müşk-ənbər qoxusu da buxağından gəlir. Sən heç dəyişmirsən, əvvəlki kimi gözəlsən.

**Zərtac** *(nazlanır).* Mənim iyirmi yaşında oğlum var, xan.

**Pənah xan.** Sənə bir bilərzik almışam. Gör üstündə nə boyda yaqut qaşı var?

**Zərtac** *(sevinir).* Gör nə boyda yaqutdur? Bura malına oxşamır.

**Pənah xan.** Hindistan malıdı. Vərəndə məliyi Şahnəzər pay gətirib. Dedikcə etibarlı, səxavətli adamdır. Neçə ildir atlarımın yemini verir. Elə bil heç erməni məliyi deyil. Pənahabadın tikintisinə nə qədər pul qoydu.

**Zərtac.** Azarı düşsün o fasıx Yeqanın ürəyinə.

**Pənah xan.** Yeqan çoxdan ölüb, Zərtac xanım, ili də çıxıb. Ayağımın altını qazan Allahquludu, hələ də Qarabağ xanı olmaq iddiasından əl çəkməyib. Bizi davaya təhrik edən də odur. Qaratikan kolu kimi girib müsəlman xanlarının arasına.

**Zərtac.** Fikir eləmə, xan, ətlə dırnaq arasına girən iylənib çıxar.

**Pənah xan.** Nə bilim, bu nə təhər giribsə, nə iylənir, nə də çıxır. Mənimlə rəqib olan xanların yanına o qədər elçi göndərir ki... Gərək onunla haqq-hesabı axıra çatdıram, yoxsa bu fitnə-fəsad bitməyəcək.

**Zərtac.** Bə nəyi gözləyirsən, xan? Niyə birdəfəlik başından vurmursan ki, gözləri ovcuna düşsün?

**Pənah xan.** Fürsət gözləyirəm, Zərtac xanım. Nə isə... Bəh-bəh! Nə gözəl yaraşdı? Ağca bilək, yaqut bilərzik!

**Zərtac.** Başına dönüm, xan, bir söz soruşacam, amma hirslənmə.

**Pənah xan** *(onun biləyindən yapışır).* Hirslənmərəm, soruş.

**Zərtac.** Süsənbər kimdi?

**Pənah xan** *(tutulur və qadının əlini buraxır).* Nə Süsənbər? Süsənbər kimdi?

**Zərtac.** Oradan-buradan maraqlanmışam, xan, bizim mahalda elə arvad yoxdu, bəlkə...

**Pənah xan.** Nə bəlkə? Nə demək istəyirsən?

**Zərtac.** Deyirəm bəlkə Süsənbər orada, İsfahandadır ? Ya Hindistandadı, nə bilim?

**Pənah xan** *(qaş-qabağını tökür).* Bəs mən haradan bilim? Məgər övrətlərlə oturub-dururam?

**Zərtac.** Niyə qeyzlənirsən, xan? Sözdü, soruşuram dayna.

**Pənah xan.** Mən o adda adam tanımıram.

**Zərtac.** Bə elədirsə, qanın birdən-birə niyə qaraldı? Bəlkə Süsənbər o İsfahanlı çənginin adıdır?

**Pənah xan.** Necə? Nə təhər dedin? *(Əlini qaldırır ki, onu vursun, amma özünü saxlayır.)*

**Zərtac.** Vur, niyə vurmursan, vur halalca arvadını, üç oğluyun anasını. Sal ayağıyın altına tapda o çəngiyə görə.

**Pənah xan.** Lənət sənə şeytan!

**Zərtac.** Onun kim olduğunu deməsən, döysən də, öldürsən də səndən əl çəkməyəcəm.

**Pənah xan.** Deyəsən, qudurmusan? Yoxsa... *(Getmək istəyir).*

**Zərtac** *(qabağına keçib diz çökür).* Qurban olum, Pənahəli, bir qələtdi elədim, getmə. Əlbəttə, illərlə əhli-əyalından aralı düşmüş kişinin... *(Hönkürüb ağlayır).* Mən səni qınamıram... *(Daha bərk hönkürür).*

**Pənah xan.** Sən mənim üç oğlumun anasısan. Pənahabadın ən gözəl imarətində yaşayan sən deyilsən? Kifayət eləmir?

**Zərtac.** Qurban olum, xan, sən yuxuda Süsənbər deyə-deyə inildəyəndə, elə bilirəm ürəyimi aralayıb içinə piltə düzürlər *(Ağlayır).*

**Pənah xan.** Nə danışırsan, yuxuda Süsənbər deyə-deyə inildəyirəm?

**Zərtac.** Məni döysən, öldürsən, bundan min pay yaxşıdı.

*Uzun çəkən pauza.*

**Pənah xan** (*qəmli*). Arxayın ol, dedim axı, Süsənbər daha yoxdu. Gəl o bədbəxtin ruhunu incitməyək.

**Zərtac** (*yarı sevincək – yarı kədərli*). Allah rəhmət eləsin!

**Pənah xan.** Əgər onun sözünə əməl etməyib, bircə gün də ləngisəydim, nə mən xan olardım, nə də sən xan arvadı. (*Gedir*).

*Zərtac hönkürüb ağlayır.*

*İşıqlar sönür.*

*Şuşa qalası. Pənah xanın sarayında iri zal. Pənah xan, Heydərqulu xan və Vəzir Molla Dəlili söhbət edirlər. Kiçik masada meyvə və şərbət var.*

**Pənah xan.** Heydərqulu xan, mən həmişə sənin dost münasibətini hiss eləmişəm. Bu ağır günümdə uzaq yol qət eləyib gəlməyin də məni ziyadə şad etdi.

**Heydərqulu xan.** Naxçıvan eli həmişə Qarabağ xanına arxa olub, Pənah xan. Az vaxtda bütöv Azərbaycanda ad-san qazanmağın, Adil şahın sənə xanlıq fərmanı göndərməsi, inan ki, bizi xoşhal etdi.

**Pənah xan.** Heydərqulu xan, bir Allah şahiddir ki, mən neyləyirəmsə, millətimi, Allah payı olan bu ziqiymət vətənimizin gələcəyini düşünüb eləyirəm. Amma nə çətinliklərdən keçirəm. Şan-şöhrət artdıqca, düşmənlər də çoxalır. Ayağı yer tutan özünə borc bilir ki, Pənahabada qoşun yeritsin. Allahın və sənin kimi dostların sayəsində onların qıçlarını qırmışam. Amma Fətəli xan Əfşar məsələsində yaman səhv etdim. Məni sadəlövh uşaq kimi aldatdı, İbrahim ağanı hiylə ilə tora saldı.

**Heydərqulu xan.** Əlbəttə, bu cür namərdlik xana yaraşmaz.

**Vəzir.** Şükürlər olsun Yaradana ki, Şuşa qalasına hələ düşmən ayağı dəyməyib, dəyməyəcək də, inşallah.

**Heydərqulu xan.** Pənah xan, yaxşı fikirləşib bu dilbər guşəni seçmisən. Allahdan səngərli-sipərlidi.

**Pənah xan.** Heydərqulu xan, görünür, insan yıxıla-yıxıla yerimək öyrənir. Bu qalaya qədər üç qala tikdirdim. Axırda gördüm ki, ən münasibi budur.

**Vəzir.** Allah Azərbaycan xanlarına insaf versin. Yola gedib birləşsəydilər, vahid dövlət yaratsaydılar müdafiə qalalarına ehiyac olmazdı.

**Heydərqulu xan.** Hər şeydən xəbərim var, Molla Dəlili. Xəmsə məliklərinin xəyanətlərini də bilirəm, çatıb qulağıma...

**Pənah xan.** Vallah, həm gülməyim gəlir, həm də qəzəbimdən dişim bağırsağımı kəsir. Bu ermənilər nə qədər bizə kələk gəlirlər? Nə qədər xəyanət edirlər, üstümüzə gələn düşmənin qabağına düşüb bələdçilik eləyirlər. Xəlvətə düşəndə bıçağı kürəyimizə saplayırlar, amma yenə də bizə dərs olmur. Quyruqları qapı arasında qalan kimi elə dil çıxardır, elə qılıqlanırlar ki, hər şey yaddan çıxır. Bu nə sirdir, Heydərqulu xan, nədir bizi bu qədər unutqan eləyən? Bunlar nə cür düşməndilər?

**Heydərqulu xan.** Görək bu yerdə müdriklərimiz nə deyirlər?

**Vəzir.** Düşmənləri, xan sağ olsun, mən iki yerə bölmüşəm: nifrət edənlər açıq düşmənlərdir ki, qoşun çəkib bizi payi-mal eləmək iştiyaqına düşürlər. Astarabadlı Məhəmməd Həsən xan kimi, hiyləyə əl atan şərəfsiz Fətəli xan Əfşar kimi. İkinci qisim düşmənlər isə gizli düşmənlərdir ki, kin-küdurətdən, paxıllıqdan cücərirlər. Ermənilər ikincilərdəndi. Gizli düşmənlərdir ki, daima zərbə vurmağa fürsət axtarırlar. Bizim müsəlman xanlarının arasını vurub onları bir-birinin üstünə salan da on-

lardı. Biz də cahillik edib kələyə uyur, bir-birimizə silah qaldırırıq.

**Heydərqulu xan.** Pənah xan, Molla Dəlili çox düz buyurur. O Allahqulu məlik Şəkiyə, Şirvana gedir, o biri xanlarla danışıqlar aparır, sənin əleyhinə ittifaqa girir. Mənim yanıma da gəlmişdi, iti qovan kimi qovdum. Ermənilərə meydan vermək olmaz, xan. Əsarətdə olanda müti kölədirlər, elə ki, iplərini boş buraxdın, baş qaldırıb torpaq iddiası edəcəklər.

**Pənah xan.** Heydərqulu xan, iş də çoxdu, çətinliklər də. Amma sənin kimi dostlar da var.

**Heydərqulu xan.** Təşəkkür edirəm, Pənah xan. Mən Qarabağ xanlığına həmişə dost kimi gəlmişəm. Fətəli xanın namərdcəsinə hərəkətindən hədsiz məyus oldum.

**Pənah xan.** Xan, mən Fətəli xan Əfşardan pislik gözləyirdim, amma özünə kişi deyən, şahlıq iddiasında olan kəs belə hiyləyə əl atmamalı idi. İbrahim ağanı qonaq sifətilə aparıb dustaq eləmək... Başımdan tüstü qalxır. Taqsır da məndədir, Heydərqulu xan, mənim siyasətim burada çat verdi.

**Heydərqulu xan.** Axı bu necə oldu?

**Pənah xan.** Qoy Molla Dəlili desin. Onun məsləhətinə qulaq asmadığıma görə çox peşmanam.

**Vəzir.** Allah eləməsin, xan, olacağa çarə yoxdur. Heydərqulu xan, Fətəli xan biləndə ki, Pənahabada girə bilməyəcək, hiyləyə əl atdı. O tərəfdən, bu tərəfdən nə qədər igid qırılandan sonra barışıq təklif elədi. Biz də razılaşdıq. Fətəli xan onu da dedi ki, sülhümüz etibarlı olsun deyə, qızımı oğlun İbrahim ağaya vermək istəyirəm. Xan sağ olmuş da razılaşdı. Bu razılığı görən Fətəli xan bir az da irəli getdi. İbrahim ağanı bir müddətə qonaq aparmaq istədiyini bildirdi.

**Heydərqulu xan.** Ay namərd!

**Vəzir.** Deyə-gülə ayrıldıq, İbrahim ağa da qoşuldu onlara. Demə, məlunun fikri özgəymiş. Vəliəhdi girov aparıb ki, Pənah xandan arxayın olsun.

**Pənah xan.** Mən bu heyfi Fətəli xanda qoymayacam, Heydərqulu xan, inşallah, onu öz əlimlə qətlə yetirəcəm! O, heç vaxt İran taxt-tacına sahib ola bilməyəcək!

**Vəzir.** Xan sağ olsun, indi biz hərbi səfərə çıxa bilmərik. Təhdid təhdid üstündən gəlir. Şimaldan Rusiya, cənubdan da İran torpaqlarımıza göz dikib. İranda hərc-mərclik baş alıb gedir. Hərəsi bir şəhərdə özünü şah elan eləyib. Gürcü çarı İrakli də, Şəki xanı Hacı Çələbi də bu yaşında yenə də bizə hədə-qorxu gəlir. Bir tərəfdən də ermənilər. Fürsət, girəvə gözləyirlər ki, xəncəri saplasınlar kürəyimizə.

**Heydərqulu xan.** Pənah xan, mən həmişə qoşunumla qulluğunda hazıram. Məni və bütöv Naxçıvan xanlığını özünə dost bil!

**Pənah xan.** Hörmətin artıq olsun, Heydərqulu xan, mən bu dostluğu həmişə hiss edirəm *(qucaqlaşırlar).*

**Vəzir.** Allah dostluğunuzu möhkəm eləsin!

**Fərraş** *(gəlir).* Xan sağ olsun, məlik Allahqulu hüzurunuza gəlmək istəyir.

*Hamı bir-birinin üzünə baxır.*

**Pənah xan.** Eşitdiniz, ağalar? Bəs deyirlər əməlisaleh adam gəlib çıxar sözünün üstünə?

**Vəzir.** Pənah xan, izn verin gəlsin, görək nə deyir?

**Heydərqulu xan.** Vallah, onu əcəl girləyir.

**Pənah xan.** Düz deyirsən, Heydərqulu xan, nəhayət, mən onu... Lənət şeytana, buraxın gəlsin...

*Fərraş gedir.*

**Heydərqulu xan.** Yəqin mənim burada olmağımdan xəbəri yoxdu.

*Məlik Allahqulu gəlir. Heydərqulu xanı görüb bir anlığa duruxsa da, tez özünü ələ alır. Pənah xana təzim edir.*

**Allahqulu.** Möhtərəm xanın hər vaxtı xeyir olsun!

**Pənah xan.** Sənin də hər vaxtın xeyir olsun, məlik Allahqulu, yaxın gəl, əyləş...

**Allahqulu.** Xan sağ olsun...

**Pənah xan.** Yaxında əyləş, meyvəmizdən ye, şərbətimizdən iç.

**Allahqulu.** Allah artıq eləsin, xan, yemişkən varam. Deyim ki, iki xanın hüzurunda əyləşmək özü bir səadətdir. Heydərqulu xanı bircə dəfə görmüşəm, amma haqqında çox gözəl tariflər eşitmişəm, igidliyi, mərdliyi dillərdə əzbərdir.

**Vəzir** *(kənara)* Kafir yenə dilini işə saldı.

**Pənah xan.** Məlik Allahqulu, keçək mətləbə, Heydərqulu xanla görüşündən xəbərim var, özü bir az əvvəl danışıb.

**Allahqulu.** Çox gözəl, çox pakizə. Allah Heydərqulu xandan razı olsun, biz dədə-babadan müsəlman şahlarına, xanlarına qulluq eləmişik. Onlar da hər vədə biz zavallılardan razı qalıblar.

**Pənah xan.** Zavallı niyə? Məgər şahlara xidmət eləmək zavallılıqdır?

**Allahqulu.** Xan sağ olsun, zavallı olmasaydıq, özgələrə yox, özümüzə xidmət edərdik, camaat arasında da bir urvatımız olardı.

**Pənah xan.** Urvatsızlıq budur ki, Nadir şah Əfşar mən müsəlmanı neçə il göz dustağı elədi, sən xaçpərəstə isə "dostum" dedi, "sultan" adı verdi.

**Allahqulu.** Xan sağ olsun, düz buyurursan, Nadir şah məlik Yeqana "baba" deyərdi, mənə də sultan. Çifayda, mən sultanlıq eləyə bilmədim.

**Heydərqulu xan** *(kinayə ilə).* Sən sultanlıqdan çox xanlıq eləməyə layiqsən, Allahqulu bəy.

**Allahqulu** *(kinayəni hiss etsə də, üzə vurmur).* Allah razı olsun səndən, Heydərqulu xan, bu sözü Nadir şah da deyərdi, amma fərmanını yerinə yetirə bilmədi. Deməli, qismət deyilmiş.

**Pənah xan.** Məsələ qismətdə deyil, məlik Allahqulu, fərasətdədir. Sən vaxtında məni tutub Nadir şaha ərmağan kimi aparsaydın, ondan istədiyini ala bilərdin. Nadir şahın yanındakı görüşümüz yadındadırmı?

**Allahqulu.** Yadımdadır, Pənah xan, onda sən dedin ki, kişi gərək unutqan olmasın.

**Pənah xan.** Əhsən yaddaşına, hafizən güclüdür, fərasətə gəldikdə isə... Nə deyim?

**Allahqulu.** Mən aciz adam deyiləm, Pənah xan. Osmanlı Abdulla paşa ilə cəngi-cidalımdan xəbərsiz olmazsan. Məni məzur tutun, amma deməliyəm: Nadir şahın fərmanını qəbul etsəydim...

**Pənah xan** *(qeyzlə).* Tutardın məni?

**Allahqulu.** Pənah xan, mən keçmişdə olanları unutmaq istəyirəm. Sən ağıllı, tədbirli siyasət adamısan, yaxşı bilirsən ki, mənim kimi bir müttəfiq qazanmaq faydalı olar. Pənahabadın tanınmasında, Qarabağ xanlığının yaradılmasında da sənə az köməyimiz dəymədi.

**Pənah xan.** Bəlkə də sən haqlısan, amma mənə belə alver gərək deyil.

**Vəzir.** Xan sağ olsun, elə keçmişin dərslərindən sərf-nəzər etmədiyimizdəndir ki, düşməni çox vaxt dost bilirik. Riyakarlıqla üzümüzə gülənə etibar edir və nəhayətdə uduzuruq.

**Heydərqulu xan.** Sonra da düşmən kinayə ilə deyir ki, müsəlmanın sonrakı ağlı.

**Pənah xan.** Yaxşı, məlik Allahqulu, təşrif gətirməkdə məqsədin nədir?

**Allahqulu.** Mənim davam torpaq davasıdır, xan sağ olsun!

**Pənah xan.** Torpaq davası? Davan kiminlədir, məlik Allahqulu?

**Allahqulu.** Xan sağ olsun, sənin adamların hər tərəfdən məni sənin adından sıxa-sıxa qoz qabığına soxur. Başına dönüm, axı mən bu torpaqları qılınc gücünə, quldurluqla yox, pulla almışam, ətək-ətək qızıl vermişəm. Hələ o Şahnəzər bədəsil, doğma dayısının qatili, sığınıb sənin kölgənə, hədyanlar danışır. Qızını İbrahim ağaya verib bir az da qudurub, fironluq eləyir. And olsun babam ərvahına, onun işığını qanla keçirdərəm!

**Pənah xan.** Molla Dəlili, bu Allahqulunu xanın hüzurunda belə hərzə-mərzə danışdıran nədir?

**Vəzir.** Xan sağ olsun, Allahqulu məliyi danışdıran puludu, qızılıdı. Yatırı o qədər çoxalıb ki, hesabını bilmir.

**Allahqulu.** Səhvin var, Molla, məni dilləndirən, xanın hüzuruna gətirən ədalətsizlikdi, haqsızlıqdı.

**Pənah xan.** Heydərqulu xan, eşidirsənmi?

**Heydərqulu xan.** Pənah xan, eşidirəm də, təəccüblənirəm də! Haqdan, ədalətdən dəm vuran bu adam mənim yanıma gəlmişdi ki, sənin əleyhinə ittifaqa girək. İndi özün hesabını götür. Düşmən ocaq başındadır.

**Allahqulu.** Heydərqulu xan, mən səni mərd adam bilirdim.

**Heydərqulu xan.** Bəsdir bizim mərdliyimizdən istifadə elədiniz. Mərdlik yaxşı şeydi, bir dəfə də siz mərd olun, kişi kimi, mərdi-mərdanə düşmənçilik eləyin.

**Pənah xan.** Məlik Allahqulu, həqiqətən də səni hiylə ilə topladığın haram var-dövlət dilləndirir, amma bir şeyi unudursan. Mənim əlimdə hakimiyyət var, ordum əmrimə müntəzirdir. Qarabağ torpağı nə sənindir, nə Şahnəzərin, nə Hüsünün, nə də gorbagor olmuş Yeqan babanın! Bu torpağın əsl sahibi qarabağlı Pənah xan Cavanşirdir, sənin fitvanla Nadir şahın qətlə yetirdiyi qardaşım Fərzəlidir, on bir il Sərəxs çölündə zülm çəkmiş el-obamdır. Qalx ayağa, məlik Allahqulu, qalx!!!

**Allahqulu** *(dik qalxır).* Xan, başına dolanım... Heydərqulu xan, mən pak, təmiz bir Allah bəndəsiyəm, xeyir verən adamam.

**Heydərqulu xan.** Məlik Allahqulu, sən cildini tez-tez dəyişən iblissən.

**Pənah xan.** Eşitdinmi, məlik Allahqulu? Məqam gəlib yetişib, Sərəxs düzündə zülm çəkmiş insanların, qardaşım Fəzləlinin heyfini almalıyam. Saysız-hesabsız xəyanətlərin haqq-hesabını çəkməliyəm. Sizdə kəlmeyi-şəhadət yoxdu, dua elə, son məqamda bəlkə Allah günahlarından keçdi. Tövbə qapıları həmişə açıqdır.

**Allahqulu** *(qorxur).* Pənah xan, sən belə şeyi eləməzsən.

**Pənah xan.** Niyə eləmirəm? Sən qardaşım Fəzləlinin ölümünə bais olmusan.

**Allahqulu.** Qoy qəzəb-intiqam hissi beynini dumanlandırmasın, xan. Hər tərəfdən təhlükə və təhdidlərin əhatəsində olduğun halda, erməni məliklərini də özünə düşmən eləmə. Bu, Qarabağ xanlığının sonu olar.

**Pənah xan** *(soyuqqanlı).* Qərarım qətidir.

**Allahqulu.** Molla Dəlili, sən onu başa sal.

**Vəzir.** Buyruq xanındır.

**Allahqulu.** Heydərqulu xan, məni xilas elə... Mən xeyir verən adamam.

**Heydərqulu xan.** Keçmiş ola, Allahqulu bəy, su qabı suda sınar, özgələrinin əli ilə ilan tutduğun yetər. Xainlik və xəyanət cəzasız qalmır.

**Pənah xan.** Fərraş!

**Allahqulu.** Pənah xan, başına dolanım, mən bura adamsız, silahsız gəlmişəm.

**Pənah xan** *(qətiyyətlə).* Fərraş!

**Fərraş** *(gəlir).* Xan sağ olsun!

**Pənah xan.** Apar bunu Qara Zala təhvil ver!

**Allahqulu** *(Pənah xanın ayaqlarına yıxılır).* Pənah xan, çevir məni oğlanlarının başına, əsirlikdə olan İbrahim ağanın xatirinə, məni bu yaşımda Qara Zalın əlinə vermə.

**Pənah xan.** Başını Çiləbördə göndərin, qoy o biri asilərə də dərs olsun! Qansınlar ki, gəmidə oturub gəmiçi ilə dalaşanın axırı belə olur!

**Allahqulu** *(ağlayır).* Pənah xan, mən erməni deyiləm, əslim arsax albanıdır, dinimi uşaqlıqda nainsaf ermənilər dəyişiblər...

**Pənah xan.** Mən səni dininə, millətinə görə cəzalandırmıram. İşlətdiyin cinayətlərinə görə edam olunursan. Allah şahiddir ki, mən çox səbir elədim, amma olmadı. Aparın!

**Allahqulu.** Sən peşman olacaqsan, sən...

*Fərraş Allahqulunu qamarlayıb aparır.*

**Vəzir.** Şükür, Xudaya, düşmənin böyüyünü məhv elədik.

**Pənah xan.** Qoy qardaşım Fəzləlinin, Sərəxs səhrasında dünyasını vaxtsız dəyişmiş qarabağlıların ruhları təskin olsunlar.

**Heydərqulu xan.** Yeri behişt olsun Fəzləli bəyin. Eşitdiyimə görə, yaxşı səsi varmış.

**Vəzir.** Allah ondan gözəl olan heç nəyi əsirgəməmişdi, xan, səsi də ilahi vergisi idi.

**Pənah xan.** "Qarabağ şikəstəsi"ni necə oxuyardı, Molla, xatirindədirmi?

**Vəzir.** Əlbətttə, xatirimdədi, xan! Fəzləli bəy oxuyanda bülbül lal olar, güllər pardaxlanardı. İndi də səsi qulağımdadı...

*Bu söhbət əsnasında "Qarabağ şikəstəsi" ifa olunur və ifa getdikcə güclənir. Hamı təsirlənir. Pənah xan göz yaşlarını silir. Musiqi bitir.*

**Pənah xan.** Nadir şah bizə nə qədər haqsız cəza verib, zülm eləyib...

**Vəzir.** Böyük şəxsiyyətlərin səhvi də böyük olur...

**Heydərqulu xan.** Amma qəddarlıq cəzasız qalmır. Axırda öz adamları onu qətlə yetirdilər .

**Pənah xan.** Öz əcəli ilə ömrünü başa vuran hökmdar varmı?

**Vəzir.** Çətin sualdır, xan sağ olsun!

**Pənah xan** *(birdən yerindən qalxır).* Yox, vəzir, bizim keçmişlə yaşamağa haqqımız yoxdur, bugün-sabah barədə düşünməliyik. Mən oğlum İbrahim ağanı xain düşmənin əlindən qurtarmalıyam. Onu düşündükcə, ürəyim parçalanır, amma təkbaşıma Urmiyəyə girə bilmərəm. Bu, Qarabağ xanlığının süqutu olar.

**Heydərqulu xan.** Pənah xan, tək niyə? Naxçıvan xanı, Şəki xanı, Gəncə xanı deyirsən qoşulmazlar sizə? Çələbi xan ömrü boyu Qarabağa diş qıcasa da, mərd adamdır.

**Pənah xan.** Buna mənim şübhəm yoxdu, Çələbi xan həqiqətən də çox mərd adamdır. Bizə çox dəyib dolaşsa da, ətimizi yeyib, sümüyümüzü atmaz. İrakliyə tutduğu divan yaddan çıxarmı? Qoy Vəzir Dəlili danışsın.

**Vəzir.** Heydərqulu xan bilməmiş olmaz, bu cümlə-cahandı, məşhur əhvalatdı.

**Heydərqulu xan.** Xəbərdaram, onda kişi əsil ağsaqqal kimi hərəkət elədi.

**Pənah xan.** İndi də yadıma düşəndə, məni xəcalət təri basır.

**Vəzir.** İndi görün də, bir neçə müsəlman xanı gedir gürcü çarı İraklinin yanına ki, bəs kömək elə, bu Şəki xanı Hacı Çələbinin burnunu ovaq. İrakli də bir neçə müsəlman xanının öz ayağı ilə hüzuruna gəldiyini görüb həvəsə düşür ki, ay dadi-bidad, məqamdır, bunları girov götür. Əmr verib xanları tərki-silah elətdirir, əl-ayaqlarını bağlatdırır. Bu vaxt nökərlərin bir fərasətlisi aradan çıxır. Atı çapıb, hara getsə yaxşıdı? Birbaşa Hacı Çələbi xanın yanına ki, bəs qoca babam, halqəziyyə belə. İrakli xanları tutub damlayıb. Hacı Çələbi xan təəccüblənir ki, bu necə ola bilər, İrakli yəni belə ürəkli çıxdı ki, beş-altı xanı birdən əsir alır? Xülasə, Heydərqulu xan, qoca xan başbilənlərini yığır məsləhətə. Onda da qoşunu Dəli Kürün qırağında imiş və bizim xanlığa təzə hücum eləmək istəyirmiş. Deyir, ağalar, nə məsləhət görürsünüz görün, amma biz Kürü keçməliyik, yəni ki, qardaşlarımızı mütləq xilas etməliyik.

**Pənah xan.** Yenə də xəcalət təri basdı məni. Biz bu kişiyə zərbə vurmaq üçün İrakliylə məsləhətləşir, kömək istəyirik. Bu, əvəzində bizi əsirlikdən xilas edir. Necədir, Heydərqulu xan?

**Heydərqulu xan.** Pənah xan, onun "Kürü keçməliyik" sözü zərb-məsəl kimi ağızdan-ağıza gəzir.

**Pənah xan.** Heydərqulu xan, o vaxtdan bəri Hacı Çələbi xanla görüşməkdən, üz-üzə, göz-gözə gəlməkdən çəkinirəm. Allah qoca xana elədiyimiz üzüdönüklüyə görə bizi bağışlamayacaq.

**Fərraş** *(gəlir).* Xan sağ olsun, Kərim xan Zənddən namə var.

**Pənah xan.** Kimdən? Vəzir, eşidirsən? Kərim xan Zənd bizi yada salıb.

**Heydərqulu xan.** Bəlkə qulağına səs dəyib? Fətəli xan Əfşar kimi bunun da könlünə Qarabağ düşüb Pənahabadda yaylamaq istəyir?

**Vəzir.** Kərim xan Zənd Fətəli xanla qanlı-bıçaqdı. İraqı, Farsı zəbt eləyə-eləyə üzübəri gəlir, dişinə qan dəyib, iştahı artıb, amma inanmıram ki, indiki məqamda o bizimlə düşmənçilik eləsin.

**Pənah xan.** Molla Dəlili, sən naməni oxu, görək nə deyir?

**Vəzir** *(naməni oxuyur).* "Şan-şövkətli Qarabağ xanı Pənah xan Cavanşir! Fətəli xan bizimlə nəinki düşmən, bəlkə də qanlıdır. Oğlunu məkr və kələklə yanına aparıb girov saxladı. İndi əlindən gələn dostluğu və yoldaşlığı müzayiqə etmə. Birləşib intiqam alsaq, oğlunu azad etsək sən sevindiyin kimi, biz də arzumuza çatmış olacağıq. Çünki Fətəli xan Əfşar qardaşım İsgəndərin qatilidir".

*Molla Dəlili susur. Uzun sürən pauza.*

**Pənah xan.** Ağalar, bir az əvvəl istixarə namazı qılmışdım ki, Xudavəndi-aləm mənə işarə eləsin, yol göstərsin. Kərim xan Zəndin bu naməsi Allahın mənə açdığı qapıdır.

**Heydərqulu xan.** Gözəl fürsətdir, Fətəli xanın axırı çatıb.

**Pənah xan.** Vəzir, niyə susursan?

**Vəzir.** Xan sağ olsun, Kərim xan Zənd olduqca hiyləgər, kinli və fəndgir hökmdardır. Qarnının altını fələk də bilməz. Cavab verməyə tələsməyək. Düşünək, götür-qoy eləyək.

**Heydərqulu xan.** Pənah xan, mən mürəxxəs olum, həm yorğunam, həm də bir-iki qəza namazım yığılıb.

**Pənah xan.** Xoş getdin, Heydərqulu xan, axşam naharında görüşərik. Hörmətli qonaqlarımız da var, səni görmək istəyirlər.

**Heydərqulu xan.** Allah razı olsun, xan! *(Gedir).*

**Pənah xan.** Çox fikirləşməyə vaxt yoxdur, Molla Dəlili, məqamdır, əldən buraxmaq nadanlıq olar. Düzdü, içimdə narahatlığım da var. Axı bu Fətəli xan Əfşar Nadir şah kimi cavanşirlərlə qohumdu, bir tərəfdən də oğlumu hiylə yolu ilə əsir alıb. O, cəzasını almalıdır.

**Vəzir.** Başa düşürəm, Pənah xan, tələsməyək, fikirləşək.

**Pənah xan** *(əsəbi)* Nə fikirləşirsən, fikirləş. Vəzir Molla Dəlili, amma, Hacı Çələbi xan demişkən, biz Kürü keçməliyik. Mütləq keçməliyik!

**Vəzir.** Pənah xan, Kərim xan Zəndlə ittifaqa girməyinə görə heç kəs səni qınamayacaq. Söz yox ki, Fətəli xan sənə Kərim xana nisbətdə iki köynək yaxındı, qohumdu. Amma heç kəsə gizli də deyil ki, Allah qohumları adama yaxşı halda dərdsər, pis halda isə düşmənçilik üçün verir. İbrahim ağanın gözü yoldadı. Onun əsirlikdə olmağı xan həzrətlərinə həqarətdir.

**Pənah xan.** Sən mənim düşündüklərimi, amma dilimə gətirmək istəmədiklərimi söylədin, Molla Dəlili. Kərim xan Zəndə cavab yaz, Lütfəli bəyi də çağırtdır, gəlsin. Yeddi min süvari ilə yola çıxmalıyıq. Xainin burnu ovulmalıdır.

*İşıqlar sönür.*

*Səhnə qaranlıqdır. Döyüş səsləri eşidilir. Projektorların işığı qaranlığı çalın-çarpaz kəsir. Kərim xan Zənd və Pənah xan Cavanşir döyüş libasında səhnənin önündə üz-üzə gəlirlər.*

**Kərim xan.** Pənah xan Cavanşir, biz qalib gəldik, ağlatdıq Fətəli xan Əfşarın göyçək anasını. Sən oğlun İbrahim ağanı azad etdin, mən də qardaşım İsgəndərin qisasını aldım.

**Pənah xan.** Şövkəti-şanın göylərə ucalsın, Kərim xan Zənd, sən deyilmişkən varsan, böyük sərkərdəsən!

*Hər ikisi qucaqlaşırlar.*

**Kərim xan.** Biz on igidə bərabər Pənah xansız, naxçıvanlı Heydərqulu xansız, irəvanlı Hüseynəli bəysiz bu müşkül işi asan həll edə bilməzdik. Düşmən də olsa, Fətəli xan igid adamdı, döyüşkəndi. Amma Pənah xan, çöhrəndə sevinclə bahəm bir kədər də görürəm. Bu nə pəjmürdəlikdir?

**Pənah xan.** Səbəb az deyil, Kərim xan. Niyə bizim igidliyimiz, tökdüyümüz qanlar cılız əməllərə, intiqam almaq kimi xırda hisslərə qulluq eləsin?

**Kərim xan.** İnan ki, Pənah xan, mən heyrətdəyəm. Sizi yaxından tanıdıqca, valeh oluram. Doğru deyirsiniz, biz gücümüzü özümüzün, dini, dili, nəsli bir olan insanların iddiasını dəf etməyə yönəldirik. *(İki silahlı Fətəli xanı gətirir.)* Ah, bu da bütün qeylü-qalların səbəbkarı, nahaq tökülən qanların baiskarı igid Fətəli xan Əfşar. Osmanlılar demiş, iyimisən?

**Fətəli xan** *(istehza ilə gülümsəyir).* Ləşkəri qırılmış, əsir düşmüş, şəhəri payi-mal olmuş sərkərdənin halı necə olar, Kərim xan? Bizim hər birimiz udduğumuz qədər də uduzmuşuq, məğlub hökmdarın nələr çəkdiyi üçümüzə də məlumdur.

**Kərim xan.** Eşitdin, Pənah xan? Bu hazırcavablıq tərifəlayiqdir. Əhsən! *(Sərbazlara)* Siz gedin! *(Sərbazlar gedirlər).* Qaldıq biz, bir-birinə borclu olan üç xan, üç hökmdar. Əslində, üçümüz də bir kökdənik, amma əfşarlar cavanşirlərə daha yaxındılar.

**Fətəli xan.** Pənah xan, yanında günahkaram. O ki qaldı oğlun İbrahim ağaya, sağ-salamatdı. Həqiqətən də o mənim qonağımdı. Bir il bundan əqdəm Ağa körpüsündə verdiyim söz də qüvvəsində qalır, qızımı İbrahim ağaya verirəm. Bəlkə, o vədi indi yada salmaq yersizdi, amma mən sözümü dedim, necə deyərlər, söz məndən, əməl səndən.

**Pənah xan.** Fətəli xan, sən verdiyin sözə vaxtında əməl etsəydin, indi düşməntək üz-üzə dayanmazdıq. Amma buna

baxmayaraq, gec də olsa, qızını gəlinim kimi qəbul edirəm. Bu olanları da unuduram.

**Fətəli xan.** İzn ver səni qucaqlayım, xan. *(Pənah xanı hərarətlə qucaqlayır).* Allah şeytana lənət eləsin!

**Pənah xan.** Fətəli xan, şeytanı qıraqda yox, içimizdə axtarmalıyıq. O çox vaxt ürəyimizdə, gözümüzdə pərvəriş tapır, bizi nəfsimizə əsir edir.

**Kərim xan** *(gülür).* Ha-ha-ha... Kənardan baxan çaşar, elə bilər ki, bu iki dostun yüz ildən sonra baş tutmuş görüşüdü.

**Fətəli xan.** Yox, Kərim xan, mənim sözlərim, əslində vidadı, vəsiyyətdi.

**Kərim xan.** Fətəli xan Əfşar, mən səni qardaşım İsgəndərin əvəzinə qəbul eləyirəm. Yox, qucaqlamayacağam səni, Pənah xandan fərqli olaraq mən kinliyəm, bağışlamaq da şakərim deyil. Anam hər gün intiqam, qisas, qana-qan almağımı deyir. Əgər mən onun istəyinə əməl eləməli olsam, gərək bu xəncəri dərhal saplayam sol kürəyinin ortasından, İsgəndərin yarasının yerindən. Amma mən bunu etməyəcəm, mənə bu qələbə də bəs eləyər.

**Pənah xan.** Allah səndən razı olsun, Kərim xan, bu, alicənablıqdı.

**Kərim xan.** Fətəli xan dinmir, bəlkə o, sözlərimin səmimiyyətinə inanmır? Şübhəsi var?

**Fətəli xan.** Söz sizindir, ağalar. Mən əzilmiş, məğlub olmuş adamam, gücüm kimi, səsim də yox olub.

**Kərim xan** *(qəhqəhə ilə gülür).* Ha-ha-ha!.. Məğlub, qalib!.. Ha-ha-ha!.. Fətəli xan Əfşar, bu bir ilin içində mən üç dəfə məğlub, iki dəfə də qalib olmuşam. Elə sən də, Pənah xan da. İndi sən məğlub, Pənah xanla Kərim xan Zənd qalibdirsə, bu, zamanın hökmüdür. Elə bilirsən İbrahim ağanı girov saxladığına görə Pənah xan səndən inciyib? Əsla yox! Axı o özü də

bu üsuldan istifadə eləyib! Neçə erməni məliyinin oğul-uşağı girovdur, vaxtilə özü də Nadir şahın əsiri olub. Yaxşı ki, qaçıb canını qurtara bilib.

**Pənah xan.** Kərim xan, çox vaxt zamanın gərdişi bizi idarə eləyir.

**Kərim xan** *(gülür).* Yaxşı, xanlar, bu döyüşümüz də bitdi. Deyirəm, sabah elə burada – Fətəli xanın sarayında bir məclis quraq, uzun sürən bu döyüşün bitməsi münasibətilə bəzi fərmanları elan edək. Tələsməliyik, çünki hər saatın öz hökmü var. Sabah daha sakit şəraitdə görüşərik. *(Gedir).*

*Araya sükut çökür. Pənah xanla Fətəli xan bir-birini süzürlər. Fətəli xan günahkar, Pənah xan tənəli, təəssüflü kimi.*

**Pənah xan.** Biz niyə qalib və məğlub kimi görüşməliydik, Fətəli xan?

**Fətəli xan.** Mən bayaq son sözümü dedim, Pənah xan. Ta əlavəm yoxdu. Ey, sərbazlar, gəlin aparın məni! *(Gedir).*

**Pənah xan.** Niyə bu qələbə məni sevindirmir? Niyə sinəmdən ürək əvəzinə ağır bir daş asılıb? Vəzir! Molla Dəlili, haradasan?

**İbrahim ağa** *(gəlir).* Ata! Xan ata! *(Onu qucaqlayır).*

**Pənah xan.** Oğul! *(Onu özündən aralayır.)* Bu sənsən? Maşallah, namxuda! Belimin dirəyi, xanımanımın yiyəsi, gözümün işığı...

**İbrahim ağa** *(aralanır).* Yorğunsan, ata, elə bil, bir az da sınıxmısan, anam necədi, salamatdımı?

**Pənah xan.** Şükür, hər şey yaxşıdı. Hamı sağ-salamatdı, bir azdan özün də görəcəksən. İlahi, bu İbrahimxəlildi, atamdı mənim?.. *(Qucaqlaşırlar).*

**Vəzir** *(gəlir, onları görüb gülümsəyir).* Şükür sənə, xudaya, şükür sənə pərvərdigara, vəliəhdimiz sağ-salamatdır.

*(Atasından ayrılan İbrahimlə qucaqlaşır).* İbrahim ağa, gözümün işığı...

**İbrahim ağa.** Molla, mən gözlərimə inana bilmirəm, yəni mən sizi, əziz, doğma adamlarımı görürəm?

**Vəzir.** İbrahim ağa, deyir, işıq istəyirsənsə, gərəkdir gecədən qorxmayasan. Çünki hər gecədən sonra səhər açılır. Belə olmasaydı həyat olmazdı, aləm məhv olardı. Yaradanımızın hikməti, qüdrətidi bu. Deyirəm, xan sağ olsun, bir şükür namazı qılaq, qəlbimiz rahatlansın, Allahımıza da xoş getsin.

*Üçü də namaza dayanır.*

*İşıqlar sönür.*

*Urmiyə şəhəri. Fətəli xan Əfşarın böyük, zəngin, işıqlı ziyafət zalı. Başda Kərim xan Zənd, sağında Pənah xan, İbrahim ağa, Heydərqulu xan, Vəzir Molla Dəlili, digər xanlar və zəngin libaslı saray adamları əyləşiblər. Lütfəli bəy də buradadır. Fətəli xan Əfşar Kərim xan Zənddən bir qədər aşağıda əyləşib. Kərim xanın arxa tərəfində, ayaqüstə, əlində kağız-qələm tutmuş mirzə dayanıb. Bir neçə yerdə meyvə dolu qablar, qəlyanlar və şərbət bardaqları qoyulub.*

**Kərim xan.** Ağalar, bizim birləşmiş qoşunlarımız Fətəli xan Əfşarı məğlub elədi. Fətəli xanın bu kiçik ziyafətdə iştirak eləməsi bizim daha ona düşmən olmadığımızı göstərir. Böyük ziyafət mənim paytaxtımda – Şirazda olacaq, inşallah. Hər biriniz o ziyafətə dəvətlisiniz. Ziyafətə başlamamışdan bəzi fərmanlar var ki, burada elan etməliyik.

**Rüstəm bəy.** Həşəmətli Kərim xan, ağalar, mənim bir təklifim var. İran məmləkətinin çox böyük hissəsini birləşdirə bildiyinə görə, Kərim xan Zənd bu gündən İran şahı elan edilsin və bütün xanlıqlara çaparlar göndərilsin ki, hamı bundan xəbərdar olsun! *(Yer-yerdən təqdir səsləri eşidilir).*

**Kərim xan** *(xoşhaldır).* Sakit olun, ağalar, sən də otur Rüstəm bəy. Birdəfəlik bilin və agah olun, mən İran xalqının şahı yox, vəkiliyəm. Mənə Kərim xan Zənd Vəkil desəniz, ziyadə məsud və xoşhal olaram. Keçək mətləbə. *(Katibə)* Yaz! Urmiya xanlığı Fətəli xan Əfşardan alınıb, Rüstəm bəyə verilsin, bu gündən onu xan elan edirəm!

*Fətəli xan acı-acı gülümsəyir.*

**Rüstəm bəy.** Allah ömrünü uzun, şan-şöhrətini uca eləsin, xan həzrətləri!

**Kərim xan.** Mən dostum Pənah xanın oğlu İbrahim ağaya da xan rütbəsi verir və onu Qarabağa hökmdar təyin edirəm!

*Məclis əhli təəccüblə bir-birinə baxır. Pənah xan tutulur, amma özünü sakit aparır. İbrahim xan çaşqınlıqla gah atasına, gah da Kərim xana baxır.*

**İbrahim ağa.** Xan sağ olsun, atam Pənah xan dura-dura mən nə tövür Qarabağ hakimi ola bilərəm?

**Kərim xan.** Ağalar, burada mat qalmalı bir şey yoxdur, hiylə, siyasət də yersizdi. Pənah xan və bu məclisdə olan digər xanlar mənim əziz qonaqlarımdı, biz buradan Şiraza səfər edəcəyik, inşallah! Məgər Pənah xan bu tədbirdən rəncidədi?

**Pənah xan.** Məsləhət sənindir, Kərim xan. Biz qonağıq, qonaq da ki, ev sahibinin quludu.

**Kərim xan** *(gülür).* Ha-ha-ha!.. Pənah xan, Xudavəndi-aləm kişiyə ya igidlik verir, ya da müdriklik, səndə isə hər ikisi var. Xanlıqlarımızın taleyindən nigaran qalmayın, ağalar, hamısına əncam çəkəcəyik, siz hamınız kefiniz istəyən qədər Şirazda mənim əziz qonağım olacaqsınız. *(Əlini-əlinə vurur).* Deyirəm, keçək məclisimizin dadlı-ləzzətli hissəsinə. Fətəli

xanın gözəllikdə tayı-bərabəri olmayan kənizləri var. Onların rəqsinə baxaq, feyziyab olaq.

*Rəqqasələr gəlirlər. Musiqi əvvəlcə həzin, sonra isə coşğun ahəng alır. Hamı rəqs edən gözəllərə baxır. Fətəli xan qalxıb səhnənin önünə gəlir, məclisdəkiləri acı təbəssümlə süzür. Kərim xan Zənd də yerindən qalxır və Fətəli xana yaxınlaşır. Heç kəs onlara fikir vermir, əslində, onları görmürlər.*

**Kərim xan.** Fətəli xan, sənin istehzalı, bir az da qəmgin təbəssümünün mənası mənə gün işığı kimi aydındır.

**Fətəli xan.** Kərim xan, sən nə qədər fəhmli, fəndgir və hiyləgər olsan da, dediyinə inanmıram.

**Kərim xan.** Sən mənim əsirimsən, buna baxmayaraq, dediyin təhqiramiz sözlərdən incimirəm. Amma istəməzdim ki, məni xudbin və qələbədən havalanmış adam hesab edəsən.

**Fətəli xan.** Mənim təbəssümümün mənasını bilmək üçün gərək mənim vəziyyətimə düşəsən, xan.

**Kərim xan.** Bir az xırdalasan, yaxşı olardı...

**Fətəli xan.** Kərim xan, o acı təbəssümün mənasını, hər şeyini itirib, öz sarayında artıq görünən, lüzumsuz varlığa çevrilən, hər an ölümünü gözləyən adam anlaya bilər.

**Kərim xan.** Deməli, sən öldürüləcəyinə bu qədər əminsən?

**Fətəli xan.** Sən nə qədər nəciblik nümayiş etdirib, dostluqdan dəm vursan da, biz bir-birimizin qan düşməniyik!

**Kərim xan.** Doğru deyirsən, Fətəli xan, çox doğru deyirsən. Mən istəyirdim Şiraza gedəndə, qardaşım İsgəndəri qətlə yetirdiyin yerdə qılıncımı öz əlimlə soxum kürəyinə, amma kin-küdurətim o qədər çoxdur ki, məni təbdən çıxarır. Hövsələm bitdi, ta gözləyə bilmirəm. *(Qışqırır)* Cəllad!

*Rəqqasələr yerə sərilirlər. Musiqi kəsilir. Məclis əhli donur.*

**Kərim xan** *(daha bərkdən qışqırır).* Cəllad!

**Fətəli xan** *(sakitdir).* Kərim xan Zənd, sən heç vaxt Nadir şah Əfşarın yerini tuta bilməyəcəksən. Ona görə də özünü şah elan etməyə cəsarətin çatmır. Adına vəkil deyirsən, özünü də, xalqı da aldadırsan. Hiyləgər tülkü aldada-aldada çox şeyə nail ola bilər, amma aslan qüdrətinə çata bilməz. Çünki aslanlıq kişilikdir, ilahidən gələn kişilik.

**Kərim xan** *(hövsələsiz halda hayqırır).* Cəllad!! *(Cəllad gəlir.)* Vurun Fətəli xan Əfşarın boynunu! Dərhal, gözləməyin! Ayırın onun başını bədənindən!

*Cəllad Fətəli xanı aparır.*

**Kərim xan.** Cinayət cəzasız qala bilməz. Qoy İsgəndərin narahat ruhu dincəlsin. Mən onun qanını yerdə qoya bilməzdim, ağalar. *(Əlini-əlinə vurur).* Məclis qızışır, ağalar, baxın Fətəli xanın gözəllərinə, onun incə zövqü vardı, baxın, feyziyab olun...

*Musiqi səslənir, rəqqasələr qalxırlar və rəqsə davam edirlər. Amma məclisdəki pərtlik sovuşmayıb. Pənah xan qalxır və ləng addımlarla məclisi tərk edir. Pənah xanla İbrahim ağa səhnənin önündə üz-üzə gəlirlər.*

**İbrahim ağa.** Xan ata, bu nə olan vaqeədir, bu nə siyasətdir? Sənin Şirazda nə işin var? Məgər bizim öz xanlığımız, evimiz-eşiyimiz yoxdu?

**Pənah xan.** Danışma, oğlum, bizim öz xanlığımız var, onun xanı da özgəsi deyil, sənsən. Onsuz da sən mənim vəliəhdimsən.

**İbrahim ağa.** Bu nə deməkdi, xan ata? Axı, biz məğlub deyilik, qalibik.

**Pənah xan.** Biz özümüzü yox, Qarabağ xanlığını düşünməliyik, oğlum. Mən onu zülmlər, ölüm-itimlər bahasına yaratdım ki, Kərim xan Zəndə qurban verək? İndi Kərim xan Zəndin qılıncının dalıda kəsir, qabağı da. Biz onun qəzəbini Qarabağa yönəldə bilmərik. Biz Fətəli xan üzərində çalınan qələbəyə şərik olsaq da, bu davada zəif düşdük. Kərim xan Zəndin tələsi öz işini gördü. Mənim yeddi minlik süvarimdən nə qalıbsa, günü sabah, ləngimədən götür yola çıx.

**İbrahim ağa.** Bəs sən, ata, sən nə vaxt qayıtmaq fikrindəsən?

**Pənah xan.** Məndən nigaran qalma, tez qayıdacağam. Bizim sülhlə, xoşaxoşluqla görüləsi işlərimiz çoxdu, oğlum. *(Onu qucaqlayır).* İbrahim xan Cavanşir!

**İbrahim ağa.** Sağ ol, xan ata, mən Qarabağ xanlığını səndən aldığım əmanət kimi saxlayacaq, Pənahabadı basılmaz qalaya çevirəcəyəm.

**Pənah xan.** Çalış camaatın etibarını qazan. Düşmənlərinə amansız, dostlarına vəfalı, məhəbbətli ol. Xidmət göstərəni mükafatsız, xəyanət edəni cəzasız qoyma. Erməni məliklərinin ipini əlində möhkəm saxla. Nə çox uzağa buraxma ki, əməllərindən xəbərsiz olasan, nə də çox yaxında saxlama ki, səni qapalar. Di ya Allah! *(Qucaqlaşırlar).*

**İbrahim ağa.** Ata, sən ağlayırsan?

**Pənah xan.** Fikir vermə, qocalıqdandı. Di get hazırlaş. Anana salamımı yetir, denən halal eləsin, vaxt olub incitmişəm onu.

**İbrahim ağa.** Bu nə halallaşmaqdı, ata, sən vəsiyyət eləyirsən?

**Pənah xan.** Toxtaq ol, İbrahim xan, insan hər ayrılıqda halallaşmalıdı.

*İbrahim ağa gedir. Pənah xan səhnənin önünə gəlir.*

**Pənah xan.** Getdi xan oğlum, bir də güzarım o yerlərə düşəcəkmi, bir də görüşmək qismət olacaqmı? Pərvərdigara, hər şey sənin əlindədi, buyruq səndədi. İndi isə yolum Şirazadı. *(İşıq azalır. Pənah xan dua edir).*İlahi, dinimi, namusumu, külli-Qarabağı, əməllərimi, övladlarımı, millətimi sənə əmanət edirəm! Biz səfər üstdəyik, oğlum – Vətənə, mən – qürbətə gedirəm.. İlahi, dayağımız ol, amin!.. *(Səsi getdikcə zəifləyir, amma davam edir. Bu vaxt fonoqramla mətn səslənir).*

**Mətn.** Pənah xan Cavanşir Kərim xan Zəndlə Şiraza gedəsi oldu və iki aydan sonra qürbətdə vəfat etdi. Beş ildən sonra isə Kərim xan Zənd özü xəstəlikdən dünyasını dəyişdi. Vərəsələri və qohum-qardaşları onun hakimiyyəti və var-dövləti üstündə o qədər didişdilər ki, meyiti ortalıqda qalıb şişdi, iyləndi. Daha sonra Kərim xan Zəndin sarayında on üç il göz dustağı olmuş Ağa Məhəmməd xan Qacar İran taxtına yiyə çıxıb başına tac qoydu, atası Astarabadlı Məhəmməd Həsən xan Qacarın başını kəsdirmiş Kərim xan Zəndin sümüklərini qəbirdən çıxartdırıb səltənət taxtının ayaqları altında basdırtdı ki, hər taxta çıxıb-düşəndə onun sümüklərini ayaqlasın. Bu, o Ağa Məhəmməd şah Qacar idi ki, Şuşa adı almış Pənahabada ikinci həmlədə işğalçı kimi daxil olmuş və ölümünü də burada tapmışdı. Nə yazıq ki, Pənah xan Cavanşirin Pənahabad adı ilə tikdirdiyi, sonralar Şuşa adı ilə məşhur olan şəhər bu gün Pənah xanın nəvələrinin deyil, xain erməni məliklərinin törtöküntülərinin əlində əsirdir.

*Mətn bitir. Pənah xanın səsi eşidilir.*

**Pənah xanın ruhu.** Ya Rəbbim, yalnız sənin hökmünə tabe oldum, yalnız sənə iman gətirdim, sənə arxalandım, sənə üz tutdum. Yalnız sənin verdiyin cəsarətlə, güclə mübarizə apardım, səltənət qurdum! Haradadır bizimkilər? Haradadır İbrahim ağa, Molla Dəlili, Heydərqulu xan, Lütfəli bəy? Haradadır bizim nəvə-nəticələrimiz, kötükcələrimiz? Mən onları burada – Pənahabadda gözləyəcəyəm!..

*İşıqlar sönür.*

*Pərdə*

SON

# Xəcalət

*(İkihissəli dram)*

**_İştirak edənlər:_**

**Vətən** – *keçmiş Qarabağ döyüşçüsü*
**Fərqanə** – *onun arvadı*
**Gülyaz** – *onların qızı*
**Murad** – *Vətənin uşaqlıq, gənclik və cəbhə dostu*
**Kürən** – *Muradın sürücüsü*
**Kərim** – *həkim*

# BİRİNCİ PƏRDƏ

*Musiqi səslənir. İşıq yavaş-yavaş sönür. Səhnədə nimdaş kişi, qadın, uşaq paltarı asılmış zivələr nəzərə çarpır. Bir-birini kəsən zivələrdən azca aralıda elektrik lampası asılıb. Qaçqınların yaşadıqları yataqxanada balaca bir otaq. Bura həm xörək bişirmək, həm yeyib-içmək, həm də yatmaq üçündür. Pərdə ilə ayrılmış kiçik arakəsmənin arxasında köhnə bir taxt var. Yataq açıqdır. Hiss olunur ki, kimsə oradan indicə qalxıb. Gülyaz irəlidə, Fərqanə isə ondan bir addım geridə gəlirlər.*

**Gülyaz** *(əsəbi).* Ana, niyə gəldilər?! Axı mən onların gəlməyini istəmirdim! Niyə gəldilər?! *(Hönkürə-hönkürə kətildə əyləşir).*

**Fərqanə.** Gülyaz, dəli olmusan? Başına at təpib? Yoldaşların gəlib sənə baş çəksinlər, o boyda pay-püş gətiriblər, sən isə mısmırığını sallayıb oturmusan?

**Gülyaz.** Yox, mən istəmirdim ki, onlar gəlsinlər. Ana, istəmirdim... *(Ağlayır).*

**Fərqanə.** Bir məni başa sal görüm niyə? Bu nə oyundur çıxardırsan?

**Gülyaz** *(ətrafı göstərərək).* Ana, bura adam gələr? Bilirsən onların necə evləri var? Sevilgil villada yaşayırlar. Hələ Orxanı demirəm.

**Fərqanə.** Neynək, sağlıqlarına qismət olsun. Mən də deyirəm nə olub, bu qız niyə qaraları geyinib. Pah, utanıb! Nədi, yoxsa o uşaqlar bilmir bizim qaçqın olmağımızı? Yoxsa sən

üst-başından dövlətli qızına oxşayırsan? İndiki zamanda, qızım, nə var-dövləti, nə də kasıblığı gizlətmək olmur. Hər şey adamın üzündən oxunur.

**Gülyaz.** Mən elə demirəm, ana... *(Ağlayır).*

**Fərqanə.** Bu saat səsini kəsməsən özüm səni ağladaram. Güləş, baxmayacağam ki, xəstəsən. Hamı bilir ki, biz qaçqınıq, özümüz də yerdən çıxmamışıq ki... Alt-üst, dolu mülk qoyub gəlmişik. Kimin xoşu gəlmir qoy salam verməsin. Bu, bizi əskiltməz. Şükür ki, gəlib yığışdıq bu yarımçıq xəstəxana binasına. Adamlar var ki, ilan mələyən çöllərdə, vaqonlarda qalırlar. Naşükürlük eləmə, bala, Allaha xoş getməz.

**Gülyaz.** Elə Orxangil də qaçqındılar. Amma gör necə mülk tikdiriblər.

**Fərqanə.** Çox gözəl, qoy tikdirsinlər. Bilmirəm onlar nə təhər qaçqındılar? Bizə elə bu olanımız da bəsdi. *(Qızının çiynini sığallayır.)* Onsuz da atan fikir-xəyal içindədi, bir tərəfdən də biz dərd-sərini artırmayaq. Sil, sil gözünün yaşını.

**Gülyaz** *(anasını qucaqlayır).* Axı niyə biz belə yaşamalıyıq, ana? Sən həkimsən, işə düzələ bilmirsən, atam mühəndisdi, fəhləlik eləyir. Özümüz də bu gündə...

**Fərqanə.** Eh, "kimin əvvəli, kimin axırı", deyiblər, qızım. Nəyimiz yox idi? Evimiz padşah sarayı kimiydi. Villadan nəyi əskik idi? Allah mərdimazara lənət eləsin! Bizim nə itiyimiz azmışdı burada?

**Gülyaz.** Gecə nənəmi yuxuda görmüşəm...

**Fərqanə** *(təəccüblə).* Nənəni? Yaxşı nənəni?

**Gülyaz.** Hə, gördüm oturub bizim üzüm talvarımızın altında...

**Fərqanə.** Üzüm talvarının? Güləş, o talvar sənin yadındadır?

**Gülyaz.** Əlbəttə, ana, yadımdadı. Onda mənim beş yaşım vardı. Hələ də həyətimizi tez-tez yuxuda görürəm. Heç yadımdan çıxmır.

**Fərqanə.** Sarmaşıqlı aynəbəndimiz də yadındadı? Gülləri səhər açılar, axşamtərəfi yumulardı. Sən də hər gün Güləbətin toxuyan xalçanı artırmada sərdirər, orada oynayardın.

**Gülyaz.** Yadımdadı, ana. İki dirəyin arasından asılmış yelləncəyim də vardı. Nənəm məni yelləncəyə qoyub yelləyər, şirin-şirin layla çalardı.

**Fərqanə.** Güləş, deməli, heç nəyi unutmamısan, hər şey yadındadı. *(Dərindən ah çəkir və əlinin arxası ilə yaşarmış gözlərini silir).* Qızım, yadındadırmı, atan axşamlar işdən qayıdanda samavarı çıxardardım həyətə, nənən də zarafatla oxuyardı: "Atadan-anadan yar şirin olar, şirin". *(Sonra da)* Allah ağlımı alsın, gör uşağa nə danışıram.

**Gülyaz.** Ana, uşaq niyə oluram? Artıq on dörd yaşım var.

**Fərqanə.** Hə, yuxunu danış, sonra necə oldu?

**Gülyaz.** Gördüm nənəmin əlində gilələri işım-işım işıldayan iri bir salxım var.

**Fərqanə.** Rəhmətlik ağ üzümü çox xoşlayırdı, illah da, gəlin barmağını.

**Gülyaz.** Nənəm üzüm yeyə-yeyə ağlayırdı. Ha istədim yaxınlaşam, üzündən-gözündən öpəm, qoymadı. Dedi, bala, mənə yaxın gəlmə, azarlayarsan.

**Fərqanə.** Üzüm göz yaşıdı... Amma rəhmətlik yuxuma girəndə həmişə xeyir tapıram.

**Gülyaz.** Axı bu sənin yox, mənim yuxumdu.

**Fərqanə.** Elədi, Güləş. İşə bax ki, Yaxşı xala bu gecə mənim də yuxuma girib. Görürəm gəlib bizə, ev-eşiyimizə baxıb başını bulayır. Deyir, a bala, bu nə gündü, belə yerdə də

adam qərar tutar? Allah axırın xeyir eləsin. Di get uzan yerinə, üstünü ört, təzədən soyuqlayarsan.

**Gülyaz.** Uzanmaq məni təngə gətirib. *(Könülsüz-könülsüz yerinə uzanıb üstünü örtür).*

**Fərqanə** *(başını sığallayır).* Maşallah, gün-gündən gözəlləşirsən. *(Üzündən öpür.)* Bu Vətən necə oldu? Görəsən, pul tapa bildimi? Vallah, tapmasa, ürəyi partlayacaq. *(Gedir).*

*Həzin musiqi səslənir. Vətən gəlir. Saçı tamam ağarıb, üzünü tük basıb. Bir vaxtlar yaraşıqlı olduğu indi də görkəmindən hiss olunur.*

**Vətən.** Gəldim. Bu da mənim evim. Çalış-vuruş, işlə, mübarizə apar, qohum-qardaş itir, axırda da adın olsun qaçqın, didərgin. Balan xəstə düşsün, dərman almağa beş-on manat da pulun olmasın. *(Pərdəni qaldırıb çarpayıda yatmış Gülyaza baxır. Siqaret çıxardıb yandırır və tez də barmaqları ilə əzib söndürür.)* Getdi vətən, vətənlə də yurd-yuva, ev-eşik, hörmət-izzət...

*Həzin musiqi səslənir. Vətən üzünü divardan asılmış Qarabağ mənzərəsini əks etdirən tabloya tutub şeir oxuyur. Fərqanə əlində yuyulmuş paltarla dolu ləyən gəlir. Vətəni görüb dayanır.*

**Vətən** *(onu görmür).*

*Pozulub rövnəqi-gülzari-baharım, eşidin,*
*Qalmayıbdır, tükənib leylü naharım, eşidin...*
*Dağlayıbdır məni bir laləüzari – Qarabağ,*
*Yandırıbdır məni bir nari-Nigari-Qarabağ.*

*Fərqanə ləyəni şappıltı ilə kətilin üstünə qoyur. Vətən səs gələn səmtə dönüb Fərqanəni görür.*

**Fərqanə.** Şeir oxuyursan?
**Vətən.** Nə?...

**Fərqanə.** Deyirəm yenə də şeir oxuyursan?

**Vətən.** Bu şeir deyil, vətən həsrətilə qubar bağlamış ürəyimin naləsidir.

**Fərqanə.** Vətən, sənin bu gen dünyada Qarabağdan başqa dərdin yoxdur?

**Vətən.** Mənim bütün dərdlərimin baiskarı elə vətəndir, Qarabağdır da...

**Fərqanə.** Bəlkə, bir az ətrafına baxıb başqa şeylər haqqında da düşünəsən. *(Hirslə paltarı zivəyə sərir.)* Bəlkə, elə öz dərdimizi çəkəsən.

**Vətən.** Elə məni dilləndirən odur, öz dərdimizdir. Bəs niyə qanım it qanından da qaradır?

**Fərqanə.** Pul ala bilmədin?

**Vətən.** Yox, nə pul ala bildim, nə vəd. Xozeyin deyir müflis olmuşam, tikintini dayandırıram, başınıza çarə qılın.

**Fərqanə** *(heyrətlə).* Nə danışırsan? Bəs bizim günümüz nətəhər olacaq? Bu qıza dava-dərman lazımdı, həkim deyib yaxşı yeyib-içməlidi.

**Vətən.** Bəs mənim ürəyimi partladan, qubarlandıran nədi?

**Fərqanə.** Vətən, başına dolanım, neçə ildi ki, səbir eləyib dözürəm. Gözləyirəm ki, nəhayət, sən özün bir yol tapasan, amma sən yol tapmaq əvəzinə Seyid-Nigarinin şeirini oxuyub Qarabağın yasını saxlayırsan. Bəs deyil, qadan alım?

**Vətən** *(təəccüblə ona baxır).* Nə demək istəyirsən, Fərqanə? Toy-bayram eləyim? Yoxsa dərd çəkməyə də qadağa qoyacaqsan?

**Fərqanə.** Kimdi indi Qarabağın dərdin çəkən? Vətən idi varıydı, indi yoxdu da. Öldürək özümüzü? Niyə sən də camaat kimi yaşamağın yolunu tapmırsan? Yaxşı, biz cəhənnəm, bəs bu bir cüt balamızın dərdini kim çəkəcək?

**Vətən.** Bəs mən neyləyirəm, dərd çəkmirəm? Görmürsən nə günə düşmüşəm? Guya sən Qarabağı unutmusan? Unutmusansa, niyə bir balaca daldaya çəkilən kimi gözünün qarasını tökür, ağını bayatıya calayırsan?

**Fərqanə** *(əlindəki paltarı çırpıb zivədən asır).* Yox, görükür sən dərd çəkməyə adətkar olmusan, dərd-sərdən ləzzət alırsan. Yoxsa, şeir oxuyub göz yaşı tökməkdənsə, iş görərdin, pul qazanardın.

**Vətən.** Fərqanə, bu sözləri sən deyirsən? Özündən çox istədiyin Vətənə deyirsən? Nə olub, nə dəyişib ki?

**Fərqanə** *(ləyəni yerə qoyub kətildə əyləşir).* Çox şey olub, çox şey dəyişib, Vətən. Zülmə insan bir il dözər, beş il dözər, ta ömürlük yox ki? Bayaq qızın sinif yoldaşları gəlmişdilər, Güləş onlar gedəndən sonra zülüm-zülüm ağladı. Bilirsən niyə? *(Ağlayır.)* Deyir, ana, mən uşaqları görəndə ölüb yerə girdim. Axı mən istəmirdim ki, onlar bizim evimizi belə görsünlər.

**Vətən** *(Gülyazın yanına keçmək istəyir).* Güləş ağladı deyirsən? Yəni mənim qızım belə xırda şeyə görə göz yaşı tökdü?

**Fərqanə.** Özü də zülüm-zülüm.

**Vətən.** Qəribədir. Deyirsiniz hər şeyini itirmiş qaçqın xan kefində dolansın? Bəlkə, bizə "Həyat Recens"də yer verməliydilər?

**Fərqanə.** Bilmirəm harada verməliydilər, amma tikintisi yarımçıq qalmış bu xəstəxananın bir otağında sıxılıb qalmaq nə təkcə hökumətin günahıdı, nə də azğın düşmənin. Bu illər ərzində azca fərasəti olan, vallah, güzəranını düzəltməliydi, köçməliydi buradan.

**Vətən.** Fərqanə, Mən neynəməliyəm, yolmu kəsməliyəm?

**Fərqanə.** Yol kəsmək niyə, yaşamağın çəmini tap.

**Vətən.** Axı necə, nə təhər?

**Fərqanə.** Bilmirəm, tapanlar nə təhər tapırsa, sən də elə. Öyrən, kişisən də, mən öyrənməyəcəm ki? Keç də qabağa. Yaşamağın yolunu dostun, qardaşın Muraddan soruş. Sənin əqidə, döyüş dostun deyildi? O da qaçqındı da. O gün televiziyada göstərirdilər. Bəxtəvərin oğlu nə təhər varlanıbsa, hələ qaçqınlara da yardım paylayır. Bunu televizora da çəkdirmişdi ki, millət baxıb əliaçıqlığını, səxavətini görsün.

**Vətən.** O, cavanlığından şöhrət xəstəsiydi.

**Fərqanə.** Neynək, qoy olsun? O da Qarıqışlaqdan ayaqyalın, başıaçıq qaçıb da. Bəs indi niyə bir həsir, bir məmmədnəsir deyil? Niyə bizim kimi bir qarnı ac, bir qarnı tox, divarları adamın üstünə gələn xarabalıqda yaşamır? Niyə vaqonlarda yayda tər töküb qışda titrəmir? Şöhrət xəstəsi belədirsə, bunun nəyi pisdir?

**Vətən.** Bilmirəm, Fərqanə, hər kəsin öz həyat tərzi, həyat fəlsəfəsi var. Mən Muradla on ildir görüşmürəm. Yəqin ki, heç bundan sonra da görüşməyəcəyəm. O, Qarabağı unutduğu kimi, məni də çoxdan unudub.

**Fərqanə.** İnanmıram ki, Murad səni yadından çıxartsın. Hər halda, Yaxşı xalanın yaxşılıqlarını unutmaz. Sifəti ağ gündən işıldasa da, qara günlərinin xilaskarını, rəhmətliyi yadından çıxara bilməz.

**Vətən.** Bəs mənim qara günlərimin xilaskarı kim olacaq? Qara gün qaraldar adamı, məni qaraltdığı kimi.

**Fərqanə.** Vətən, başına dönüm, bilirsən ki, mən heç vaxt kişi işinə qarışmamışam. Yaxşı-pis, az-çox nə gətirmisən qane olmuşam, amma ta belə yaşamaq olmaz. Biz heç, uşaqlar yazıqdılar. Başına dönüm, onlara bir gün ağlamalıyıq. Onlar nə vaxtacan detdom uşağı kimi yaşayacaqlar? Get Muradın yanına iş istə, o, səni naümid qaytarmaz. Cavanlığınız bir yerdə ke-

çib. Elə o xaraba Stepanakertdə bir-birinizə həyan olmusunuz. O istəsə də səni yaddan çıxarda bilməz.

**Vətən.** Çıxarda bilməz? Sən hələ bu dünyanın pis üzünü görməmisən, ona görə belə deyirsən.

**Fərqanə.** Mən görməmişəm dünyanın pis üzünü? Neçə ildi dərd içində deyiləm? Vətən, o iki tifilin biri qucağımda, biri də yanımda erməni gülləsi qabağında Xocalıdan Ağdamacan qaçmamışam? Eyvazı kürəyimə şəlləmədim ki, arxamdan atılan güllə uşağa dəyər. Bəs on beş gün Ağdamda məscidin həyətində Vətən deyib zarıyan, səni bir lafet meyitin içindən çıxardanda qışqıran mən deyildim? Mən görməmişəm dünyanın pis üzünü? Başım bir gecədə ağardı mənim, Vətən.

**Vətən.** Bəs bu zülmlərə dözən adam niyə bu yataqxana həyatından birdən-birə gileylənir?

**Fərqanə.** Gileylənmirəm, Vətən, başına dolanım, dözürəm, sənin xətrinə dözəcəyəm də. Amma bu tifillərin günahı nədi? *(Səsini yavaşıdır.)* Qızın ciyərinə ləkə düşüb. Axı mən ölmüş həkiməm, bilirəm.

**Vətən.** Aman Allah, bütün Qarabağa səs salan Vətən ailəsinə gün ağlamağa, uşağına dərman almaqda acizdir.

**Fərqanə.** Sən aciz yox, yekəxanasan, yekəxana.

**Vətən.** Az, yekəxanalıq mənim harama yaraşır?

**Fərqanə.** Bəs onda nə olub sənə? İş axtarmağa utanırsan, çəkinirsən. Bax elə götürək Muradı. Niyə onun yanına getməmisən? Niyə deməmisən ki, ay Murad, hal-qəziyyə belədir. Bir iş versin sənə, kiməsə tapşırsın. Axtar tap da, gör yeri-yurdu haradadır? De ki, görüşməyə gəldim. İstəyirsən, mən tapım görüşdürüm sizi...

**Vətən.** Qaxıl otur yerində. Deyəsən, arvad olduğun yadından çıxıb. *(Bir müddət susur.)* Yox, bacarmaram, heç vaxt. Neyləyir məni Murad? Lazım olsaydı tapardı məni, bir maraq-

lanardı. İndi o yuxarılarda, Allah bilir, kimlərlə durub-oturur. Həyatın dibinə düşmüş Vətən onun nəyinə gərəkdir?

**Fərqanə.** Axı niyə sən onun əvəzindən danışırsan? Nə bilirsən ki, o, səni saymaz?

**Vətən.** Saysaydı, indiyəcən axtarıb tapardı. Əgər dost dostla bir şəhərdə üç il, beş il, on il görüşmürsə, deməli, o, çoxdan dost deyil.

**Fərqanə.** Bu sözləri o da deyə bilər də, Vətən. Axı sən də görüşmək istəmirsən, özü də onu görə-görə, yerini-yurdunu bilə-bilə. Sən daha çox günahkarsan.

**Vətən.** İndiki halda mənim günahım anlaşılandı.

**Fərqanə.** Deməli, Muradın yanına getməyəcəksən?

**Vətən** *(bir qədər ləng)*. Yox, heç vaxt!

**Fərqanə.** Deyirsən çürüyək də bu yataqxanada? Qırılsın da balalarımız?

**Vətən.** Nə mən, nə sən, nə uşaqlarım anam Yaxşıdan, vətənim Qarabağdan, kəndim Qarıqışlaqdan artıq deyilik.

**Fərqanə.** Düz deyirsən, onlar birdən qırılıblar, bizsə yavaş-yavaş, zülm çəkə-çəkə, Seyid Nigarinin şeirini oxuyub ağlaya-ağlaya öləcəyik. *(Axırıncı paltarı sərib çıxır.)*

*Vətən siqaret çıxardıb yandırır. Fərqanə yanında əyləşir və ətəyi ilə göz yaşını silir. Qapı döyülür. Hər ikisi diksinir.*

**Vətən** *(qapıya baxır)*. Sıxma gözünün qorasın, görək bu şər vaxtı kimdi gələn?

**Fərqanə** *(döşlüyünün ətəyi ilə üz-gözünü silir)*. Yəqin, Güldəstədi. Qızına iynə vuracağam, yaxşı ki, özü gəldi.

*Fərqanə qapını açır. Qapı ağzında ağ kostyumlu, şıx geyinmiş Muradı görüb çaşır.*

**Fərqanə** *(içini çəkir)*. Murad? Murad qardaş?!

**Vətən** *(yerindən dik qalxır)*. Murad?!

*Fərqanə və Vətən heyrət və təəccüblə Murada baxırlar.*

**Murad.** Niyə belə donub qalmısınız, tanımadınız məni? Fərqanə? Vətən? Nə olub, qardaş?

*Heç kəsdən səs çıxmır. Vətənlə Fərqanə heyrətlə Muradın təbəssümlü üzünə və görkəminə baxırlar.*

**Fərqanə.** Vətən, Murad qardaşdı ey, dostun...

**Vətən** *(pərt halda)* Vallah, yaxınlaşmağa ürək eləmirəm. *(Özünə baxır, sanki bir növ üst-başına işarə edir.)* Elə bil qarşımda özgə bir adam dayanıb.

**Murad.** Özgə nədi, ə, Vətən, qardaşım!

*Birdən hər ikisi yerindən qopub qucaqlaşırlar.*

**Vətən.** Murad, Murad! *(Hönkürür).*

**Murad.** Vətən... Qardaşım...

*Aralanırlar. Fərqanə də ağlayır. Murad cibindən kostyumu kimi ağappaq dəsmalını çıxardıb Vətənə verir. Vətən dəsmalı alır, tez də geri qaytarır və kürsünün başından məhrəbanı götürüb üz-gözünü silir.*

**Murad.** Yəni bu sənsən? Nərəsi ilə qurdları Qarıqışlaq meşələrində uladan Vətənsən?

**Fərqanə.** Allah sizə insaf versin, məni də ağlatdınız. *(Gözünün yaşını silir).*

**Vətən** *(toxtayır).* Gözümə inana bilmirəm, Murad. Mən bu görüşü nə təhər gözləyirdim. Heç kəs bilmir, heç Fərqanə də bilmir, içimdə bu nisgili saxlamışdım, gizlətmişdim. Həsrətdən kürəklərim qovuşurdu. İndi deyə bilərəm. Sən ki mənim bu kasıb qapımı açdın... *(Kövrəlir və məhrəbanı yenə də üzünə sıxıb hönkürür).*

**Murad.** Mən səni başa düşürəm, bu göz yaşlarını da...

*Vətəni bir də qucaqlayıb sinəsinə sıxır,*
*əli ilə kürəyini şappıldadır.*

**Vətən** *(ondan aralanıb əlləri əsə-əsə siqaret yandırır).* Sən Allah, bağışla. Murad, həyat qəlbimi elə sıxıb ki, bir himə bəndəm. Səni görəndə elə bil içimdə vətən, dost, simsar deyib ulayan həsrətim püskürdü. Atam deyərdi ki, həsrət yuxa deyil ki, dürmək eləyib yeyəsən. Bağışla məni.

**Murad.** Allah bağışlasın, dostum, çoxdan axtarırdım səni, yerini-yurdunu bilmirdim. İnan ki, gündə nə qədər adamla görüşürəm, danışıram, sənin yerini soraq verən yoxdur. Sağlığına təzə dostlar da var, yoldaşlar da, amma heç biri Vətən deyil. *(Onu diqqətlə süzür).*

**Vətən.** Elə baxma, çox dəyişmişəm.

**Murad.** Təki sümüyün salamat olsun, qalan şeylər düzələndi.

*Guya kimisə axtarır. Qapı açılır.*
*Kürən əlində iki-üç dolu zənbil içəri daxil olur.*

**Kürən.** Salam-əleyküm.

**Murad.** Salam nədi, ə? Haradasan? Vətən, tanıdın bu konfet kimi oğlanı?

**Vətən.** Kürən? Hüseyn dayının oğlu?

**Murad.** Hə, Hüseyn dayının oğlu Kürən... Bunun dərin getmiş dədəsi üzüm oğurluğu üstdə bizi nə qədər şallaqlayıb.

**Fərqanə.** Allah rəhmət eləsin.

*Gülüşürlər. Vətən Kürəni qucaqlayır.*

**Murad.** Ə, Kürən, zənbillərini yerə qoy da!

**Kürən.** Murad qağa, vallah, çaşıb qalmışam. *(Zənbilləri yerə qoyur.)* Bu Vətəndi, Vətən döyül?

**Murad.** Az danış, ə, özü də zənbilləri bura yox, apar kuxnaya qoy.

**Fərqanə.** Nə zəhmətdi, Murad qardaş? Kürən, qoy elə burada qalsın. Bizim kuxnamız da buradı, yataq otağımız da, qonaq otağımız da.

**Murad.** Hə, neynək, təki ürək geniş olsun. O da ki, maşallah Vətəndə!

*Fərqanə zənbilləri bir küncə yığır.*

**Vətən.** Bu gün nə gözəl gündü. Sevindiyimdən bilmirəm neynəyim.

**Fərqanə.** Murad qardaş, sən Allah, bağışla, yerimiz narahatdı. *(Kürsünün üstünü ətəyi ilə silir).* Otur, təmizdi. Kürən, sən də buradan otur.

**Kürən.** Yox, bacı, mən getməliyəm.

**Vətən.** Getmək nədi, Kürən? Otur görək... Neçə ildir görüşmürük.

**Kürən.** Ay qardaş, qınama məni, iş-güc adamıyam, qağamdan yüz cürə tapşırıq almışam.

**Murad.** Ə, özünü, Tülkülüyə vurma, yeri işini gör. *(Vətənə)* Kürən düz deyir, getməlidi, uşaq indi məşğələdən çıxacaq, onu evə aparmalıdır.

**Fərqanə.** Heç olmasa bir stəkan çay içərdi.

**Kürən.** Yox, bacı, mən zəhmətkeş adamam, yaxşısı budur gedim, işimlə məşğul olum. *(Gedir.)*

**Murad.** Ə, zəngimi gözlə, çox uzağa getmə, məşğələdən sonra qapıda ol, çağıracam.

**Kürən.** Baş üstə, Murad qağa! *(gedir).*

*Araya qısa bir pərtlik çökür.*

**Fərqanə.** Bu saat çay düzəldim...

**Murad.** Çaya hələ ehtiyac yoxdu. Gör o zənbillərdə nə var? Kürən belə işlərdə çox səliqə-sahmanlıdı, amma nə bilmək olar? Aç tök Allah verəndən, bir qardaşımla üz-üzə, rubəri oturum. Neçə ildir görüşmürük.

**Vətən.** Murad, vallah, bunları nahaq almısan. Deyirsən evimiz yoxdu, bir tikə çörəyimiz də yoxdu? Xəcalət verirsən bizə...

**Murad.** Xəcalətli düşmənin olsun, Vətən! Mən qəfil gəlmişəm. Qəfil qonaq da öz kisəsindən yeyər.

**Fərqanə.** Xoş gəlmisən, Murad qardaş. Allah haqqı, elə qabağınca səndən danışırdıq. Elə bil səsimizi eşidib gəlmisən.

**Vətən.** Yaxşı, Fərqanə, qonağımız boxçası dolu gəlib, sən bir əl-ayaq elə.

**Fərqanə.** Hə, siz söhbət eləyin, mən bu saat...

*Fərqanə zənbillərdəki şeyləri çıxardıb süfrəyə düzür. Sonra boşqab, çəngəl, bıçaq gətirir. Murad Vətənin qoluna girib, onu səhnənin önünə sarı çəkir...*

**Murad.** Vətən, gözlərimə inana bilmirəm. Haradasan, niyə görünmürsən, niyə aya-günə dönmüsən?

**Vətən.** Murad, bu illər ərzində çox şey dəyişib... Mən də dəyişmişəm... Hərdən özüm özümü tanımıram. Öz ölkəndə qaçqın olmaq pis şeydi... Adamlar sənə yuxarıdan aşağı baxanda yerə girmək istəyirsən. Nə deyim? Ürəyim o qədər doludur ki, bilmirəm vaxt çatacaqmı danışıb boşaldım? Qardaş, hər cəhətdən vəziyyətim fənadır. Bir də, sözə nə ehtiyac? Görkəmim hər şeyi məndən gözəl deyir də...

**Murad.** Mənim taqsırım böyükdü, axtarmamışam səni, daha doğrusu, ilk vaxtlar axtardım, sonra... Sonra itirdim izini. Boynuma alım ki, beş-on gün bundan əvvələcən səni... Dilim də gəlmir deyəm.

**Vətən.** Nahaq, Murad, mən elə ölmüş kimiyəm. Qarabağsız qalmış yaralı Vətənəm. Məni sağaldacaq şeylər – Qarabağ torpağı, Qarabağ havası, Qarabağ suyu indi yağıların əlindədi.

**Murad.** Qarabağ tək sənin vətənin deyil, dostum. Bir də... biz elə vətəndəyik də. Bura da vətəndir də.

**Vətən.** Yox, Murad, aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ... Sən bunu məndən yaxşı bilirsən.

**Murad.** Həəə... Qarabağ... Qarabağ... Qarabağ!..

**Fərqanə.** Murad qardaş, Vətən, gəlin, hər şey hazırdır.

**Murad** *(süfrəyə baxır).* Bəh-bəh... Fərqanənin səliqəsinə söz ola bilməz...

**Fərqanə.** Eh, ay Murad, bu yataqxana küncündə nə səliqə, nə sahman? Hər şeyimizi itirdik. Səliqə-sahmanı da, evdarlığı da, biş-düşü də.

**Vətən.** Fərqanə, Murad şikayət kitabı deyil.

**Murad.** Bəh-bəh... *(Stulda əyləşir.)* Heç Kürən də belə süfrə düzəldə bilməz.

**Vətən.** Kürən nahaq getdi, gərək bir loxma çörək yeyəydi. Keçmişləri yada salaydıq. Murad, onu haradan tapmısan? Sən hara, Kürən hara?

**Murad.** Çoxdan yanımda hərlənir. Maşınımı sürür, evə əl yetirir, arvad-uşağı daşıyır, etibar eləməli adamdı. Ən əsası da, yerini biləndir. Bax, gördün, getdi, çünki bilir ki, hər kəs öz yerində olmalıdır. Bir sözlə, evimizin fəhləliyini edir...

**Vətən** *(pərt olur).* Demək istəyirsən ki... Axı mən də fəhləyəm.

**Murad.** Sən? Fəhlə? Vətən, Vətən... Sən yüz il daş daşısan da, kərpic kəssən də, yenə də fəhlə deyilsən. Vətənsən, mənim əziz qardaşım, uşaqlıq, gənclik dostumsan. *(Arağı açıb qədəhlərə süzür.)* Gəl otur. Bu tut arağı dilimizi açacaq. Sən istəyən tutov-

kadı. Yadındadı, Arsendən alardıq. Knarik adında bir qızı da vardı. Yaman kəsirdi səndən...

**Fərqanə.** İlanın ağına da lənət, qarasına da.

**Murad.** İlahi, elə bil yüz il keçib o vaxtlardan. Yadındadı, Qırxqıza dırmaşdıq. Dağın lap təpəsinə. Onda elə bilirdik dünya bizimdir.

**Vətən.** Yadımdadı, hər şey yadımdadı. Biz o zirvədə and içdik ki, Qarabağı həyatımız, ürəyimiz kimi sevəcək və qoruyacağıq.

**Murad.** Cavan və sadəlövh idik. Elə bilirdik ki, Qarabağı qorumaq bizdən asılıdı. Nəsə, bu söhbət qurtaran deyil. İçək, Vətən, içək on ildən sonrakı görüşümüzün şərəfinə! *(İçir).*

**Vətən.** Çoxdandı dilimə içki dəymir, amma içəcəyəm. *(İçir.)* Pəh! Lap başıma vurdu.

*Fərqanə süfrəyə uzaqdan-uzağa nəzarət edir.*
*Hərdən əlavə nəsə gətirir.*

**Murad.** Yaxşı, yeyirik, içirik, heç soruşmuram, kim ölüb, kim qalıb? Yaxşı xala hanı?..

*Araya sakitlik çökür.*

**Murad.** Nədi, yoxsa...

**Fərqanə.** Yaxşı xala qəlpə yarasından keçindi, kəndin çıxacağında...

**Murad.** Dünyadan xəbərim yoxdur, vallah, Allah rəhmət eləsin. *(Qədəhi süfrəyə qoyub, əlini xörəkdən çəkir).* Bağışla məni, Vətən. Nə qəribə zamanda yaşayırıq. On beş il bundan qabaq kim deyə bilərdi ki, Yaxşı xala erməni gülləsinə tuş gələcək? Nə təhər oldu, Vətən? Axı siz salamat çıxa bilərdiniz.

**Vətən.** Görünür qismət belə imiş. Arvad əlimizdəcə keçindi. Yazıq arvad qan axan sinəsini göstərib, “əlini bura

qoy", – dedi... *(Əlləri ilə üzünü tutur).* Anamın başını qolumun üstünə almışdım. Taqəti get-gedə tükənir, gözlərinin işığı azalır, ayaqları soyumağa başlayırdı. Yanaqlarımdan üzüaşağı axan damcılar anamın sifətinə düşürdü. Ay işığında bu gümüşü, bu ayna damcılar par-par parıldayır, işıq saçırdı. Gümüşü və ayna damcıların üstündə öz şəklimi gördüm. Yazıq və mağmın görkəmdəydim. Kənd-kəsəkdə qolu qatlanmayan, sözünün qüdrəti qılınc kimi kəskin olan Vətəni görən kim bu hala saldı? Anam gözünü açıb mənə baxırdı. Mən isə cavab verə bilmədiyim bu sualı anamın gözlərindən oxumuşdum. Mən təkliyin, kimsəsizliyin burulğanına düşüb boğulurdum. Haray salmaq, dost dediyim, qardaş adlandırdığım, arxa-dayaq bildiyim adamları ətrafımda görmək istəyirdim. Ancaq səsim, ünüm heç kimə yetmirdi, elə içimdəcə qırılıb qalırdı... Bir azdan anamın gözlərində həyat işığı əbədi söndü. Kirpikləri tərpənmədi. Ay işığında mənim əksimi gözlərinə hopdurub özü ilə Allahın dərgahına apardı...

**Murad.** Vətən, bağışla məni, qardaşım, Yaxşı xala mənim də anam idı. Allah rəhmət eləsin ona, ipək kimi arvad idi, xasiyyəti həlim, özü mülayim. Allah ermənilərin cəzasını versin *(içir).*

**Vətən.** Niyə Allah, Murad, bizim özümüzə nə gəlib? Niyə yığışıb oturmuşuq, niyə əlimizə silah götürüb ortaya çıxmırıq? Məgər biz Qarabağı qaytarmışıq ki, belə arın-arxayın yaşayırıq?..

*Bu vaxt Muradın mobil telefonuna zəng gəlir.*

**Murad.** Alo!.. Hə, eşidirəm... Nədi?.. Ə, yox e, mən bu saat təyyarəyə minirəm... Hə, Nyu-Yorka gedirəm... Ə, di məni cinləndirmə də! On min dollar nə puldur ki... Bir yerdən tap... Yox, gələndə mən özüm sənə zəng edəcəyəm... Di sağ

ol, stüardessa deyir ki, cib telefonlarını söndürün... eşitmirsən səsini?..

*Murad cib telefonunu söndürür.*

**Murad.** Əl çəkmirlər də! Hə, danış...

**Vətən.** Özümüzkülərə çatana qədər üç gün süründüm. Bu günlər ərzində izimə bir canavar düşmüşdü. Yaxınlaşmırdı, məni elə hey uzaqdan izləyirdi. Mən də var gücümü toplayıb yatmamağa çalışırdım. Birdən qəribə bir mənzərənin şahidi oldum. Həndəvərim meyitlərlə dolu idi. Yaxınlaşanda gördüm ki, bunlar bir-birindən ayrı düşmüş uşaq, qadın və qocalardı. Gözlərimə inanmadım, dəhşətə gəldim. Əksəriyyəti elə öz kəndimizin camaatı idi. Meyitlərin arasında Ermənistandan qovulmuş, Qarıqışlağa pənah gətirmiş soydaşlarımız, Özbəkistandan didərgin düşmüş məhsəti türkləri də vardı. Anladım ki, anamı çay qırağında dəfn etdiyim həmin gecə yağılar adamları yolda haqlayıb, güllələbaran ediblər. Heç bircə nəfər də sağ qalmayıb. Qobuaşağı çay daşları kimi düzlərə səpələnmiş meyitləri, elə bil Tanrı göydən yağdırmışdı. Canavar meyitlərə baş çəkir, havalanmış kimi birini qoyub o birinin yanına cumurdu. Mənsə bu cəsədlərin içində Fərqanəni, balalarımı axtarırdım. İnsan qəribə məxluqdur. Bəzən qanlı göz yaşı içində ümid axtarır. Ovurdları batıq canavar imsiləyə- imsiləyə, bütün meyitlərə baş çəkmək istəyirdi, mən hiss edirdim ki, o canlı bir nəfəs axtarır. Qanı donmuş insan cəsədləri isə tərpənmirdi. Canavar bezikmiş, sanki havalanmışdı. Onun hərəkətlərini səssizcə izləyirdim. Kaş, heç olmasa, bircə nəfər sağ olaydı. Nəhayət, canavar cəsədləri imsiləyib qurtarandan sonra ümidsiz halda mənə sarı bir-iki addım atdı, tükləri qabarmışdı. Qulaqları qəribə tərzdə arxaya tərəf gərilmişdi, gözləri sanki donmuş-

du. Sonra qəfildən götürülərək Qobuboyu təpəyə sarı yortdu. Təpənin lap yuxarısında üzünü göyə tutdu, indiyə qədər eşidilməmiş vahiməli bir səslə uladı. Bu ulartı ətrafı bürümüş dəhşətli, qorxunc və qeyri-adi ölüm sükutunu parçaladı: au... au...

Canavar ulaya-ulaya təpənin üstündə qərib-qərib dolaşmağa başladı. Boz qış səmasının dərinlikləri bu səsi öz ağuşuna alıb səssiz-səmirsiz uddu... Ürəyimdən keçdi: "Allah sən özün dada yet, balalarıma rəhm et..."

*Xeyli vaxt heç kəs danışmır. Sükut...*

**Murad.** Əziz dostum, dünya dəyişib, zaman ayrı şey deyir. Qarabağ problemi indi tək bizim problem deyil, dünyanın problemidir. Bu məsələ böyük dövlətlərin marağındadır. Biz istəsək də, bu məsələni həll edə bilmərik.

**Vətən.** İstəsək də? Sənin bizim istəyimizə şübhən var?

**Murad.** Vətən, elə cavanlığında olduğu kimi yenə də söz güləşdirirsən...

**Vətən.** Yox, Murad, sənə ərkim çatdığı üçün deyirəm. Həm də hiss eləyirəm ki, əlin yuxarıların ətəyindədir, ona görə soruşuram: De görüm torpağı əfəlliyimizdən, ya biqeyrətliyimizdənmi əldən vermişik? Gülüstanımızda eşşəklərin ağnamasına, donuzların eşənək atmasına biz binəva və bədbəxtlərmi şərait yaratmışıq? Tankların, topların, qradların qarşısında əliyalın duruşmu gətirmək olardı? Görürəm, suçlu adamlar kimi susursan. Niyə, axı sən də o günlərin şahidisən. Səbəb ölkənin sahibsizliyi idi. Məğlubiyyətin töhməti, tənəsi isə biz bədbəxtlərin, binəsiblərin boynunda qaldı. İndi də evimizə, eşiyimizə, doğmaca Qarabağımıza qayıtmaq üçün ayrı-ayrı ölkələrdən icazə istəyirik. Ə, qurban olum sənə, başa düşmədiyim budu ey, bunu mənə izah elə.

**Fərqanə.** Ay Vətən, neçə ildi ayrı düşdüyün dostun gəlib qapını açıb, sən də başlamısan onu sıxma-boğmaya salmağa, sənin ta ayrı dərdin yoxdur?

**Murad** *(gülür).* Fərqanə, dəymə, qoy ürəyini boşaltsın. O danışdıqca inanıram ki, qarşımdakı həmin Vətəndir: üsyankar, romantik, fanatik.

**Vətən.** Sən məni ələ salırsan?

**Murad.** Allah eləməsin, Vətən, əksinə, sevinirəm ki, hələ vətən haqqında düşünən adamlar var... Dünya romantiklərsiz çox maraqsız olardı...

**Vətən.** Maraqsız? *(Təəccüblə)* Mənim dediklərim ancaq maraqlı olmağa, darıxmamağa yarayır? Yəni restoranlar, barlar, toyxanalar bəs eləmir, dünyanı maraqlı görmək üçün mənim kimi axmaq romantiklər də lazımdır?

*Murad yalandan gülür və əlini-əlinə vurur.*

**Murad.** Oyunun olsun, Vətən, bir az keçsə, sən məni bu evdən qovacaqsan.

**Vətən.** Bura evdir, Murad? Bura qaçqın yuvasıdır. Burada ömür çürüdənlərsə erməni vəhşilərinin zülmündən, işgəncəsindən baş götürüb qaçmış, yurd-yuvasına həsrət qalmış zavallı insanlardır. Bilirsən ətrafımızdakı adamlar bizə necə həqarətlə baxırlar? Qoy Fərqanə desin...

**Fərqanə.** Ay Vətən, axı bu söhbətlərin yeri deyil.

**Vətən.** Demək istəmirsən, Fərqanə. Çünki Muradın gəlişi sənə ümid verib. Elə bilirsən ki, o bizi buradan çıxaracaq, mənə iş düzəldəcək... İncimə ey, ay Murad, olanı deyirəm.

**Fərqanə.** Vətən, başına dolanım, niyə heylə deyirsən? Mən azmı əzab çəkmişəm?!

**Murad.** Danış, Vətən, danış...

**Vətən.** Nədən, hansından danışım? Qonşular bizim uşaqların məktəbə getməyinə də təəccüblənirlər. Əgər biz yüngülvari bir məclis qurub, tikintisi yarımçıq qalmış xəstəxananın palatasına gəlin gətiririksə, buna da təəccüblənirlər. Baxışlarından istehza yağır. Guya bizim cavanlara ailə qurmaq, oğul-uşaq sahibi olmaq gərək deyil. Day fikirləşən yoxdu ki, bu qaçqın yuvalarında yaşayan hər bir ailə neçə şəhid verib. Məgər kökümüz kəsilməli, nəslimiz itməli idi? Sabah başımıza bir iş gəlsə, gedib yurdumuzda ocaq qalayacaq kimsə tapılmamalı idı?

**Fərqanə** *(gözlərindən axan yaşı silir)* Murad qardaş, elə sənin qabağınca bizim qızın sinif yoldaşları ona baş çəkməyə gəlmişdilər. O dədənin, dədəmin goru haqqı, uşaqlar bizim şəraitimizə, gün-güzəranımıza döyükə-döyükə nə təhər baxırdılarsa, qız dözmədi, onlar qapıdan çıxan kimi hönkürüb ağladı ki, mən ta o məktəbə getməyəcəm.

**Vətən.** Özü də sinfin gözüdü, əlaçısıdı.

**Fərqanə.** Murad qardaş, uşağa elə yazığım gəldi ki... Vallah, zorla sakitləşdirdim onu. Axı bu yeniyetmələrin öz şirin, öz dadlı dünyaları olur...

**Vətən** *(üzünü Murada tutaraq)* Güləşin göz yaşları, sinif yoldaşları qarşısında çəkdiyi xəcalət, məncə, bütün millətin, bütün xalqın göz yaşı, itirilmiş, talan olmuş yurdumuz, torpaqlarımız qarşısında çəkdiyi xəcalət hissidir.

*Gülyaz pərdənin arxasından səhnəni seyr edir. Əynində gecə köynəyi var, söhbəti maraqla dinləyir və daha çox ağ kostyumlu Murada baxır.*

**Murad** *(pərt halda öz-özünə danışır)* Yəqin, bizim oğlan deyəndi. *(Fərqanəyə sarı dönüb soruşur)* Qızın adı yadımdan çıxıb. Adı nə idi?

**Fərqanə.** Gülyazdı, rəhmətlik Yaxşı ananın diliylə sən də ona Güləş deyərdin.

**Murad.** Hə-hə!.. Yadıma düşdü: Güləş. Bəs nə olub ki, niyə xəstələnib, özü hanı?

**Gülyaz** *(pərdənin arxasından çıxıb Murada sarı gedir)* Murad əmi!

**Murad.** Boy, maşallah! Siz də uşaq deyirsiniz. Bu ki əməlli-başlı yekə qızdı *(Gülyazı qucaqlayıb öpür).* Qızı görəndə yadıma düşdü. Deyəsən, Gülyaz mənim oğlum Orxanla bir sinifdə oxuyur.

**Fərqanə.** Orxan? O göyçək oğlan... Ya Rəbb, mən də deyirəm bu uşağa niyə qanım qaynayır?

**Murad.** Temperaturası var bunun? Harası ağrıyır, Fərqanə?

**Vətən.** Axşama yaxın qızdırması qalxır... *(Araq içir).*

**Murad.** Arağı tək içirsən?!

*Vətən cavab vermir və bir növ arağın havasına dalır.*

**Fərqanə.** Vətən, ta içmə, çoxdandı içmirsən.

**Vətən.** Elədi, çoxdandı dilimə heç belə yeməklər də dəymir.

**Murad** *(hələ qucaqladığı qızın başını sığallayır).* Haran ağrıyır?

**Gülyaz.** Heç haram ağrımır, öskürürəm...

**Murad.** Fərqanə, həkim nə deyir? Boy, elə sən özün həkimsən də...

**Fərqanə.** Sətəlcəm olub, Murad qardaş. Həkim istəyirdi ki, xəstəxanaya aparaq, amma xəstəxana bizim haramıza yaraşır?

**Murad.** Axı sətəlcəm elə-belə keçən şey deyil. Dava-dərman...

**Fərqanə** *(başını aşağı salır)* Elə səhər Vətən evdən çıxmışdı ki...

**Vətən.** Murad, dostum, təsəvvür elə ki, sənin Vətən qardaşın ciyərinə ləkə düşmüş qızına dava-dərman ala bilmədi, evə əliboş qayıtdı... *(Siqaret yandırır).*

**Murad** *(Gülyaza)* Yeri gir yerinə, qızdırman var. Tez, tez! Murad əmin nə lazımdı eləyəcək.

*Gülyaz qəfil Muradın üzündən öpür,*
*sonra qaçaraq pərdənin arxasına keçir.*

**Murad.** Ay şeytan! Qız uşağı özünü istədən olur ha! *(Telefonunu çıxardır, yığır.)* Kürən, haradasan? Lap yaxşı, maşını sür Kərimgilə. Kürən, başın xarab olub? Doktor Kərimi deyirəm. Denən xəstə var, götür onu gəl bura, təcili! Kürən, deyəsən, səni qovacam iti qovan kimi! Vətəngilə, hə, yataqxanaya. Maşını da adam kimi sür, birini sağaltmamış o birini şikəst eləməyək. *(Telefonu söndürür.)* Kərim professordu, ölünü dirildər. Bayaqdan niyə demirsiniz mənə, yoxsa... Uşaq qızdırma içində yanır, biz də burada dünya problemlərini eşələyirik. *(Araq tökür).*

**Fərqanə.** Allah balalarını saxlasın, Murad qardaş.

**Murad.** Vətən, qardaşım, adam əvvəl evinin içini sahmana salar, sonra çölünü, lap sonra da böyür-başını, vətənini.

**Vətən.** Görükür, mən adam deyiləm də...

**Murad.** Yenə də söz güləşdirirsən. Mən səni tənbeh eləməyə gəlməmişəm. Nə deyirəmsə, səni özümə dost, qardaş bilib, ərklə deyirəm. Sınaqdır bu, sınağa mətinliklə dözmək gərəkdir. Vətən, içək, bəsdi mısmırığını salladın. Ə, dostun gəlib ey, ayaqyalın, gödək şalvarda qaçardıq ey, Qarıqışlağın çöllərində! Başaq yığıb gətirərdik toyuq-cücəyə, heç yadına düşür?

**Vətən.** Yəni o, sən idin? Anamın köynəyindən keçirdib Vətənə qardaş elədiyi Murad?

**Murad.** Çox dəyişmişəm? Heç oxşamıram?

**Vətən.** İçək... Bəlkə, bu tut arağı mənim əsəblərimi keyidə.

*İçirlər.*

**Murad** *(birdən divardan asılmış tarı görür).* Yəni bu o tardı? Ötərxan babanın tarı?

**Vətən** *(gülümsəyir).* O boyda mülkdən bir bu tarı çıxarda bildik.

**Fərqanə.** Niyə demirsən kim çıxartdı?

**Vətən.** Ta sən dedin də.

**Murad.** Sağ ol, Fərqanə! Bilirsənmi bu tar iki sürgün görüb? Bütün Orta Asiyanı gəzib?

**Fərqanə.** Rəhmətlik Yaxşı xala qaçaqaçda dedi ki, Fərqanə, götürə bilsən, o tarı götür, nəsil yadigarıdı. Mən arsız da uşaqlara dəyişək əvəzinə tarı götürdüm. İndi görün də, bir uşaq qucağımda, biri yanımda, üst-başı cırıq-cındır, üç gün-üç gecə meşəylə, düzlə qorxa-qorxa gəlib çıxasan Ağdama – Qaracaçı qəbiristanlığına, əlində də tar... *(gülüb uğunur).* İndi gör də, adama deməzlər, ay arsız?.. *(sözünü bitirmir).*

*Hamısı gülür.*

**Murad.** Gör yadıma nə düşdü? “Ah, quşlar, əzəldən azadsınız siz, harada istəsəniz nəğmə deyərsiz”. Yadına düşür, Fərqanə?

**Fərqanə.** Niyə düşmür? Musa Cəlilin şeiridi. Məktəbdə hər konsertdə, yığıncaqda mən bu şeiri oxuyardım.

**Murad.** Vətən də tarda müşayiət eləyərdi. Vətən, bir o tarı götür.

**Vətən.** Çala bilmərəm, Murad, yadırğamışam, çoxdandır barmaqlarım tellərinə dəymir.

**Murad.** Mənim xətrimə, Vətən. O günləri təzədən yaşamağa elə ehtiyac duyuram ki... Lap burnumun ucu göynəyir, Vətən... Nə gözəl günlər idi.

*Vətən tarı divardan götürür. Yerini rahatlayıb çanağını sığallayır və "Segah" muğamını çalmağa başlayır. Bir qədər keçəndən sonra Fərqanə qalxıb Vətənin yanında dayanır.*

**Fərqanə.**

*Ah, quşlar, əzəldən azadsınız siz,*
*Harada istəsəniz nəğmə deyərsiz.*
*Hər zaman uçmağa qanad var sizdə,*
*Əzəldən xoşbəxtlikdir qismətiniz də.*
*Quşcuğaz, quşcuğaz, əzab vermə sən,*
*Söylə, təsadüfən bura gəlmisən?*
*Buraya gələrsən bir də sən haçan,*
*Bir də o hasardan baxacaqmısan?*
*Əgər sən gəlmisən yaxın dost kimi,*
*Dinlə sözlərimi, vəsiyyətimi...*
*Yurdumun üstündən keçən zaman sən,*
*Səhər şəfəqitək aydın nəğmədən*
*Xalqım biləcək ki, qəm səsidir bu,*
*Şairin sonuncu nəğməsidir bu.*
*O nəğmə səhralı çöllər keçərək,*
*Gəlmiş son nəfəsin son xəbəritək.*
*Nəğməmdən tanıyıb deyər insanlar,*
*Şairin qolunda indi qandal var.*
*Lakin nəğmələri dönüb ağ yelə,*
*Onlar saxlanılmaz qandalla belə.*
*Uç, azad quşcuğaz şimşəklər kimi,*
*Ax, ey nəğmələrim, şəfəqlər kimi.*
*Qoy burada, yad eldə qalsın bədənim,*
*Ruhumsa yurduma qayıtsın mənim...*

*İşıqlar sönür.*

## İKİNCİ PƏRDƏ

*Həmin məkan. Murad divardan asılmış çərçivədəki köhnə şəkillərə baxır. Vətən tara söykənib fikrə gedib. Fərqanə bir kənarda dayanıb, hər şeyə göz qoyur. Kürən ayaq üstdə əmrə müntəzirdir.*

**Murad.** Ay səni! Bu ki bizim şəkildi, Vətən! Nə yaxşı qalıb, məndə yoxdu, xırmanda çəkdirmişdik. Neçə yaşımız olardı?

**Vətən.** On üç. Fotoqraf İsa bu şəkli bir vedrə buğdaya çəkmişdi.

**Murad** *(gülür)* Hə, yadıma düşür. Yaxşı xala da abrını verdi ki, ay utanmaz, bir şəkilə bir vedrə buğda alarlar? Dava vaxtı buna görə adamı Sibirə sürgün edərdilər. Yazıq arvadın gözü sürgünlərdən yaman qorxmuşdu.

**Vətən.** Yaxşı ki, bu günümüzü görmədi. Elə bilirdi oğlu dünyanın yiyəsi olacaq.

**Murad** *(Vətənə qulaq asmır və şəkilə baxmaqda davam edir)* Fərqanədi. Dədəmin goru haqqı Fərqanədi. Aman Allah, biz nə təhər dəyişmişik.

**Fərqanə.** Bə yanındakını niyə demirsən? Səni dəli eləyib Qırxqız yaylağına çiçək yığmağa göndərəni?

**Murad** *(dilxor olur).* O, həmişə hər yerdə başımı aşağı eləyib.

**Fərqanə.** Hər kimdi, oğlunun anasıdı.

**Murad.** Xeyr, mən onu çoxdan unutmuşam. Orxan da heç onu özünə ana hesab eləmir.

**Fərqanə.** İndi haradadır?

**Murad.** Bilmirəm, heç bilmək də istəmirəm. Gəlin ayrı şeydən danışaq, vəfasız insanlar xatırlanmağa layiq deyillər.

**Kürən.** Murad qağa, mən gedim?

**Murad.** Hövsələ elə, görək həkim nə deyir?

**Fərqanə.** Kürən, otur də! Ə, bizi tanımırsan? *(Kətil verir).* Bax, otur burada. Qaçqın deyilsən, nəyə fors eləyirsən?

**Murad** *(qəhqəhə çəkir).* Kürən, aldın payını, onda çağır Əhməd dayını. Otur!

**Kürən.** Fərqanə həmişə dildən iti olub.

**Fərqanə.** Eh, Kürən, hər şeyimiz kimi, indi dilimiz də dəyişib, fağır olmuşuq...

*Kürən kətildə əyləşir. Kərim doktor ağ xalatda, kalpakda, ağzında tənzif maska, pərdənin arxasından çıxır. Maskasını aşağı sürüşdürür.*

**Murad.** Doktor, elə bil, operasiyadan çıxırsan.

**Kərim.** Murad bəy, həkim hər bir şəraitdə həkim olduğunu göstərməlidir. Əlimi harada yuya bilərəm?

*Fərqanə uzaq küncdə qoyulmuş vedrəni və ləyəni göstərir.*

**Fərqanə.** Burada...

*Fərqanə su tökür, Kərim əlini yuyur.*

**Kərim.** Çox gözəl, çox pakizə.

**Fərqanə.** Bağışlayın ki, şəraitimiz yoxdu.

**Kərim.** Nəzərə alarıq. *(Əllərini silir.)* Hə! Məsələ xeyli ciddidir, amma qorxulu deyil. Gənc orqanizmdir, düzgün müalicə hər şeyi yerbəyer eləyəcək. *(Çantasından kağız-qələm çıxardır).*

**Murad.** Doktor, on günə qızı ayaqüstə qoya bilərsən?

**Kərim.** İnşallah! Yemək-içməyi yaxşı olmalıdı, bal-yağ, yumurta, amma güclə, zorla yox, ürəyi istədikcə. Loğman da deyib ki, insan vaxtdan-vədədən asılı olmayaraq, istəyəndə yeməlidir. Çünki insan orqanizmi həkimdən-təbibdən yaxşı məsləhətçidir. Ona nə lazım olduğunu hamıdan yaxşı bilir.

**Murad.** Əhsən, Kərim doktor, belə söhbətlərinin aşiqiyəm də. Həkim xəstəni, birinci növbədə, sözlə sağaltmalıdır. Eşitdin, Vətən, Kərim doktorun dediklərini?

**Vətən.** Yaxşı sözlərdir, amma mən doktordan bir söz soruşmaq istəyirəm.

**Kərim.** Çox gözəl, çox pakizə.

**Vətən.** Bəs orqanizm yemək istəyirsə, yemək yoxdursa, onda neynəməli? Orqanizmə nə deməli?

**Kərim.** Bu sual, oğlum, ünvanını səhv salıb. Onu ver bu işlə məşğul olan adamlara, kəsəsi isə... Bax, bunu deyə bilməyəcəm. Deynən niyə? Çünki başım çox çəkib. Bu da resept.

**Murad** (*resepti Kürənə verir*) Kürən, tez elə maşını sür Həşimin aptekinə. De ki, Muradın qardaşı qızı xəstələnib. Bu dərmanları yığsın bir torbaya, təcili göndərsin.

**Kürən** *(yerindən dik qalxır).* Baş üstə, Murad qağa! *(Tələsik qaçmaq istəyir).*

**Murad.** Ə, bir dayan! Bəs bu kişini kim aparacaq? Kərim doktor, çox sağ ol, bizi arxayın elədin, yemək qaydalarını da öyrətdin.

**Kərim.** Çox gözəl, çox pakizə.

**Murad.** Sən Gözəllə Pakizənin adlarını çox çəkmə. İkisi də əmim qızlarıdır, ərləri də çox ərköyündülər. Eşitsələr, axırına çıxarlar. Hər gün, yəni mənim qardaşım qızı sağalana kimi gəlib ona baş çəkərsən. Hər gün! Bildin, doktor?

**Kərim.** Əlbəttə!

**Murad.** Razılaşdıq.

**Kərim.** Çox gözəl, çox...

**Murad.** Bu da əvvəlcədən sənin zəhmət haqqın. (*Xalatının cibinə pul qoyur*).

**Kərim** (*gözucu cibinə baxır*). Baş üstə, Murad bəy. (*Fərqanəyə*) Hər gün elə bu vaxtı gələcəyəm, xanım. Murad bəy, icazənizlə mürəxxəs olum.

**Murad.** Buyur, doktor, amma bir də mənim əmiqızlarımla işin olmasın.

**Kərim.** Bəli, Murad bəy. Hər şey, hətta zarafat da yerində gözəldir, (*qapıya sarı yönəlir.*) Di sağ olun, azarlamayın (*çıxır*).

**Murad.** Kürən, di tərpən. Özün də tez qayıt.

**Kürən.** Baş üstə! (*gedir.*)

**Murad** (*Vətən və Fərqanəyə*). Çox gözəl, çox da pakizə. Qorxulu bir şey yoxdur.

**Fərqanə.** Allah balanı saxlasın, Murad qardaş.

*Vətən dillənmir.*
*Murad sanki belə bir mühitdə darıxır.*

**Murad.** Hə, görək xəstəmiz nə deyir, ürəyi nə istəyir? (*Pərdəni ehtiyatla qırağa sivirir. Gülyaz yorğanı çənəsinin altınacan çəkib*) Hə, nə təhərsən, Güləş? (*Əlini qızın alnına qoyur*).

**Gülyaz.** Yaxşıyam, Murad əmi. (*öskürür*).

*Vətən qalxıb tarı yerindən asır və sakitcə çıxmaq istəyir.*

**Fərqanə.** Hara gedirsən, Vətən?

**Vətən** (*Fərqanəyə kəc baxa-baxa*). O başa!

**Fərqanə.** O baş haradı?

*Vətən cavab vermədən gedir. Fərqanə də çıxır.*

**Murad.** Öskürəyin də keçəcək. *(Çarpayının qırağında oturur).* Sağalıb duracaqsan ayağa. Onda bizə gələrsən.

**Gülyaz.** Allah qoysa!

**Murad.** Necə yenə Allah qoysa? Məsləhət eləyəcəksən? Bu nə kitabdır? *(Kitabı götürüb açır.)* Nə ağırdır?!

**Gülyaz.** Üçüncü dəfədir oxuyuram.

**Murad** *(gülür).* Bəlkə, rəhmətlik nənən kimi namaz da qılırsan?

**Gülyaz.** Heç kəsə deməmişəm, amma bir sizə deyəcəm: çoxdandı namaz qılıram, evdə heç kəs olmayanda...

**Murad.** Mən bu sirri heç kəsə demərəm.

**Gülyaz.** Bu sirr deyil, Murad əmi. Amma hələ dua eləyə bilmirəm. Bu sizi kədərləndirir?

**Murad.** Nə bilim, Güləş? Bu dünyada dinin buyurduğu kimi yaşamaq bədbəxtlik gətirir.

**Gülyaz.** Bədbəxtlik? *(fikirləşir.)* Əvvəlcə nəyin xoşbəxtlik, nəyin bədbəxtlik olduğunu müəyyən etmək lazımdır.

*Fərqanə gəlir. Əlində çaydan var. Muradla Gülyazın söhbət etdiyini görüb arakəsməyə yaxınlaşır və qulaq asır.*

**Murad.** Maşallah, ağıllı qızsan. Nə alım sənə? Yaxşı bir hədiyyə almaq istəyirəm, amma bilmirəm nə?

*Gülyaz qəfil dikəlib Muradın boynunu qucaqlayır.*

**Gülyaz.** Qurban olum, Murad əmi, çıxart bizi buradan. Atama iş ver, qorxuram... qorxuram... Mən hələ dua eləyə bilmirəm, amma sizə dua eləyəcəyəm, çıxart bizi buradan... *(ağlayır).*

**Fərqanə.** Gülyaz, dəli olmusan?

**Murad.** Dəymə, Fərqanə! *(Qızın başını, çiynini sığallayır).* Qoy nə istəyir desin. Ürəyindən nə keçir, istəsin.

**Gülyaz.** Murad əmi, sən gəlməsəydin, biz... mən... *(hönkürür).*

**Fərqanə.** Murad qardaş, qulaq asmayın ona. Allah, məni öldür! Gülyaz, indi atan gələr... Murad qardaş, qulaq asma ona, uşaqdır...

**Murad.** Güləş, mən sizi buradan tezliklə çıxaracağam. Atana iş verəcəm və sizin yaxşı eviniz olacaq. Atan sənə gözəl paltarlar alacaq, sənin hər şeyin olacaq. Mən sənə söz verirəm, duasız-filansız. *(Təsirlənir və qızın qollarını boynundan ayırıb, onu yerinə uzadır. Pərdəni çəkib gözlərini silir).*

**Fərqanə** *(gözünün yaşını silir).* Murad qardaş, sən Allah bizi bağışlayın, məni bağışlayın...

**Murad.** Fərqanə bəsdi... Vətən hanı?

*İşıqlar sönür.*

*Bir müddətdən sonra səhnə yenidən işıqlanır. Muradla Fərqanə səssizcə əyləşiblər...*

**Vətən** *(gəlir).* Hə, vəziyyət nə təhərdi? Ağatlı oğlanın gətirdiyi xoşbəxtliyin dadı xoşunuza gəlirmi?

**Murad.** Kimdi ağatlı oğlan? Məni deyirsən? Lağa qoyursan qardaşını? Yoxsa paltarımı ağ görüb...

**Vətən.** Allah eləməsin, sözgəlişi dedim. Səni ağ mersedesdə, ağ libasda görəndə yadıma istər-istəməz ağatlı oğlan düşdü.

**Fərqanə** *(onlara).* Süfrəni yığışdırıb çay gətirimmi?

**Vətən.** Yox, yox... Biz belə oturacağıq, mən heç cür sərxoş ola bilmirəm.

**Murad.** Vətən, indi mən elə bir sağlıq deyəcəm ki, içməmiş sərxoş olacaqsan. Gəl otur.

**Vətən.** Oturaq *(süfrəyə yaxın əyləşir).* Onsuz da, dil pəhləvanları ən böyük problemlərini süfrə başında həll edirlər.

İndi Qarabağın səfalı yerlərinin adları verilən restoranlarımızın, şadlıq evlərimizin sayı yetərincədir. Pullular, varlı-hallılar yığışıb oralarda Qarabağın sağlığına vururlar, pulu olmayanlar da bu vurçatlasına televiziyada baxırlar. Daha bilən, dərk eləyən yoxdu ki, biz içdikcə, sağlıq dedikcə, Qarabağ bizdən bir az da uzaqlaşır, unudulur. Nə təhər deyərlər, belə çıxır ki, dədəmizi öldürmüşük ki, goruna and içək.

**Murad.** İndi fikrin nədi, sağlıq deməyək?

**Vətən.** Yox, deməyək, ümumiyyətlə, vətən söhbəti eləməyək. Keçək özgə mətləbə. Bayaqdan elə bizdən danışırıq, amma mən bilən sən daha ürəkaçan obyektsən, səndən danışaq. Neylədin ki, bu mərtəbəyə qalxdın? Axı sən də qaçqınsan.

**Fərqanə.** Vətən, deyəsən, sən məqsədinə çatmısan. Bəlkə, süfrəni yığışdırım?

**Vətən.** Demək istəyirsən ki, sərxoşam? Fərqanə, mən sənin gözündə nə qədər məzlum kökə düşsəm də, yenə Vətənəm. Düzdü, yağmalanmışam, amma yenə də Vətənəm.

**Murad.** Danışaq, Vətən, məndən danışaq. *(Səhnənin önünə gəlir).* Mən Bakıya gəlib çıxanda çaşıb qalmışdım. İnanmadım ki, bu şəhər o məşəqqətlər çəkən Qarabağın da paytaxtıdır. Bəs deyirlər vətən də insan bədəni kimidir, bir yeri ağrıyanda hər yeri onu hiss edir, amma bu böyük şəhərdə mən o ağrını görmədim. Çaşıb qaldım. Nə etməli, hansı yola çıxmalı, dostlarını, torpağını, evini-eşiyini, vəfasız arvadını itirib körpə uşaqla ikilikdə qalmış mən nə etməliydim? Özümü itirmədim, Vətən. Ayıldım, başa düşdüm ki, doğmaca diyarında qalıb yaşamaq uğrunda mübarizədə bizim rolumuz heç də əsas deyilmiş. Bizi, sadəcə, qurbanlıq kimi qabağa verirlərmiş. Məqsəd tamam başqaymış. Bax bunu biləndə, dərindən dərk eliyəndə taktikanı dəyişdim. Ancaq onu da başa düşürdüm ki, özümə, əqidəmə, vətənə dönüklük edirəm. Təsəlli üçün özümə bəraət

də qazandırırdım. Deməli, Qarabağın taleyi bizdən soruşulmadan həll edilmişdi. Bizim mübarizələr, canlarını qurban vermiş şəhidlərimizi qanı havayı imiş. Nə başını ağrıdım, əsir düşmüş beş-altı nüfuzlu ermənini azad etmək üçün Rubendən götürdüyüm külli miqdarda pulu heç kimə vermədim. Vicdanımın səsini içimdə boğaraq onu qətlə yetirdim ki, məni məhşər ayağına çəkməsin. İşə başladım. Bundan sonra hər şey dəyişdi. Heyıf ki, mən bunu bir az gec başa düşdüm, amma düşdüm. Çox istərdim ki, sən də başa düşəsən. *(Ləng addımlarla süfrə qırağında yerini tutur).* Bu sağlıq deyil, bu, ağatlı oğlanın etirafıdır. Mən bu etirafı ancaq sənin qarşında eləyə bilərəm.

**Vətən.** Deməli, sənin sözündən belə çıxır ki, Qarabağ artıq xülyadır, bir illüziyadır?

**Murad.** Vətən, səndən xahiş edirəm, məni siyasətə qatma. Mənim artıq öz maraqlarım, öz biznesim var. Qarabağsız da, görürsən ki, yaşayırıq...

**Vətən.** Deməli, Qırxqızın zirvəsində içdiyimiz and da yalan imiş? Deməli, Qarabağsız da yaşamaq mümkün imiş *(əsəbiləşir).* Qarabağsız ancaq sənin kimi adamlar yaşaya bilər.

**Murad.** Dağ başı, tut arağı, təmiz hava, bir sözlə romantika. O sözlər ötəri hissin məhsulu imiş.

**Vətən.** Deməli, mərmi çalasında dəfn elədiyim anama verdiyim sözü yerinə yetirə bilməyəcəm? Buna mənim qeyrətim, kişiliyim çatmayacaq?

**Murad.** Dünyanın gərdişini nə bilmək olar? Biz Sovet imperiyasının dağılacağına da inanmırdıq, amma... Ümid olmasa, nə bir ana uşaq doğar, nə bir bağban ağac əkər.

**Vətən.** Doğrudan da çox dəyişmisən, Murad. Peyğəmbərin hədislərindən sitat gətirirsən. Quranı oxumusan...

**Murad.** Hə, amma bir il olar ki, namaz qılmıram, daha doğrusu, on bir sentyabrdan sonra.

**Fərqanə.** On bir sentyabrdan sonra niyə?

**Vətən** *(qəhqəhə çəkir).* O terrorun sənin namazına – ibadətinə nə dəxli?

**Fərqanə.** Hə, başa düşdüm, o Amerikadakı terroru deyir...

**Murad.** Dünyanın mənzərəsi dəyişdi, bir də mənim iş partnyorlarımın çoxu amerikalılardır. Bunu nəzərə almamaq olmaz.

*Vətən daha bərkdən qəhqəhə çəkir. Əvvəlcə Murad, sonra da Fərqanə Vətənin qəhqəhəsinə qoşulurlar.*

**Murad** *(gülməyini saxlamağa çalışır).* Dünya ilə ayaqlaşmaq lazımdır, dostum.

**Vətən.** Murad, keçmiş vaxtlar olsaydı, deyərdim sənin başın xarab olub.

**Murad.** Yaxşı, məni çox danışdırma, görurəm ki, biz ayrı-ayrı dillərdə danışırıq... İçək?

**Vətən.** Lənət şeytana! *(Gözlərini silir.)* İçək, bəlkə içəndən sonra səni başa düşdüm.

*İçirlər. Kürən gəlir. Əlində bir torba dava-dərman var.*

**Fərqanə.** Kürən, bizə xəcalət verirsən *(dərman torbasını alır).* Sən dədənin goru, gəl otur bir tikə çörək ye.

**Kürən.** Yox, yox! Mən roldayam.

**Vətən.** Ə, Kürən, artistsən, rolda olasan?

**Fərqanə.** Murad, sən Allah, qoy otursun, bir loxma yesin, yazıqdı.

**Murad.** Otur, ə, fason vermə. Görürəm ki, gözün şüşəni yeyir. Nədi, yeddi fətirin yeri göynəyir?

**Vətən.** Rulda deyil bəs?

**Kürən.** Murad qağa, axı...

**Murad.** Pah, guya, heç içib oturmayıb rulda. Kim saxlayacaq ə, bizim maşını? Otur. Fərqanə, buna bir taraş stəkan ver.

**Fərqanə.** Qoy görüm...

**Kürən.** Bacı, lazım deyil, özümdə var. *(Qoltuq cibindən çapma stəkan çıxardıb araqla doldurur).*

**Murad.** Bərəkəllah, professionaldı ey.

**Kürən.** Bir dənə normamdı. Sağ olun, Murad qağa, Allah kölgəni üstümüzdən əskik eləməsin *(içir).*

**Murad.** Gördün, Vətən? Bu da Kürən. İki erməni qamarlayıb gətirən oğuldu ey bu. İndi cibində stəkan gəzdirir. Mən olmasam, leş kimi divarların dibində yatar.

**Kürən** *(yeyə-yeyə).* Elə məni divarın divindən tapmışdın də, Murad qağa, yadından çıxıb?

**Murad.** Danış, qoy eşitsinlər.

**Fərqanə.** Ə, çörəyini ye, Kürən, ta bildik də.

*Vətən siqaret çəkir.*

**Kürən.** Dədəm Hüseynin goru haqqı, hamıya danışmışam, sizə də danışacağam. Deməli, iki-üç sobutulnikim vardı. Biri, üzr istiyirəm, urus qızıydı, matışqa, yaxşı gillədirdi zalım balası...

**Fərqanə.** Ə, Kürən, sən lap o gündəyidin?

**Murad.** Nəyini görmüsən, Fərqanə?

**Kürən.** Elə yeyib-içib yerimi rahatlayırdım ki, məsəl üçün, yatım da. Kürəyimi həmişə divara söyküyüb, üzümü də... *(sərxoşlar kimi qəhqəhə çəkir).* Yox, ta burasını deməyəcəm, Fərqanə bacıdan ayıbdı... *(stəkanını bir də doldurur).*

**Vətən.** Murad, belə sifətdə bu maşın sürəcək?

**Murad.** Ə, qələt eliyir, özüm sürəcəyəm, yarım saatdan sonra doyub dal sidenidə yatacaq.

**Fərqanə.** Ta belə şoferi neynirsən?

**Murad.** Qınama məni, Fərqanə. Bundan o yerlərin iyini alıram.

**Vətən.** Bu alkaş o yerləri əvəz eləyir sənin üçün?

**Murad.** Ay Vətən, hər şeyi vətən müstəvisinə keçirmə də. Hə, sonra no oldu, ə, Kürən.

**Kürən.** Bir də gördüm uçuram. Dedim köpəkoğlu yaxşı çaxır verib, elə bil "Ağdam" çaxırıydı. Gör adamı nə təhər uçurdur. Vecimə almıram, elə uçuram. Qıza da deyirəm ki, az, bərk tut məndən, yıxılıb xurd-xəşil budiş. Nə isə, bir də gözümü açanda gördüm ki, bir ağ qəstumlu kişi dayanıb baxır mənə. O dədəmin goru haqqı, elə bildim o gözəgörünməzdi, enib aşağı. Gördüm yox, bu elə bəni-adəmdi. Dilim açıldı. Dedim, nədi, ə, bu vətənin divardibində də yatmaq olmaz? Barıdı də, Allahın barısı.

**Murad** *(gülür).* Mən də dedim ki, bu səndən ötəri Qarıqışlağın ot tayası deyil ki, xırmandan qaçıb xor-xor yatasan.

**Kürən.** Dedim, Murad qağa, bu sənsən?

**Murad.** Dedim, dur paltarını soyun yığ o kuloka, özün də divardibində deyilsən, mənim hamamımdasan. Çim, kirini tök yerə, asılqandakı paltarı da gey, ol adam.

**Fərqanə.** Allah, aman günündü.

**Kürən.** Elə o gündən oldum adam. Ağzım nədi olmayım?

**Vətən.** Bəs o vaxtacan kim idin?

**Kürən.** Dedim də! Bəs səhərdən nə danışırdım. Alkaş! Divar dibində yatan alkaş.

**Murad.** Kürən, yedin, normanı içdin, di yeri get divardibində yox, mersedesin dal sidenisində mürgülə. Mən də dostumla sözümü bitirib gəlirəm.

**Kürən.** Murad qağa, bir sağlıq demək istəyirəm, sən balanın canı, icazə ver. Qurban olum o madar balana, əsl kişi balasıdı.

**Murad.** Kürən, ta ağ elədin.

**Vətən.** Qoy desin, Murad, xətrinə dəymə. Bura “Həyat Recens” deyil ki, adamı biabır eləyə.

**Fərqanə.** De, Kürən, de, öz evindi.

**Murad** *(əlini yellədir).* De gəlsin!

**Kürən** *(stəkanı götürüb durur).* Onsuz da içməyəcəm, amma tost deyəcəm, çünki niyə, sinəm doludu. Vətən, dədəmin goru haqqı, səni gördüm ağlım çıxdı başımdan. Ə, sən belə olmalı oğulsan?

**Murad.** Sarsaqlama, ə! Nə olub Vətənə?

**Vətən.** Qoy desin, Murad, dəymə.

**Kürən.** Niyə belə sınıxmısan? Hanı o enni kürəklər, Kranikin canına vəlvələ salan odlu baxışlar? Sən yeriyəndə yer titrəyirdi. Niyə gəlib Murad qağaya demirsən dərdini, nə qədər adamın əlini çörəyə çatdırıb. Qurban olsun canım Murad qağaya. Ə, elə çürüyüb gedəcəksən bu qaçqınxanada? Ə, yataqxana bəyəm sənin yerindi?

**Murad.** Kürən, durub salacam səni çölə! Bəsdi, rədd ol get! Tost deyəcək bu.

**Vətən.** Dayan, Murad, bura mənim evimdi, qoy desin. De, Hüseyn dayının oğlu, de, dilinə qurban olum, de. De çıxsın mənim canım, de.

**Kürən.** Ə, deyəcəm də, lap o yana keçəcəm də. Niyə gəlmirsən Murad qağanın yanına, o bilmirdi sənin yerini, sən ki, bilirdin. Fərqanə bacı yaxşı ki, özü gəldi... Sağ olsun...

*Vətən diksinir. Fərqanə üzünü tutur. Murad Kürənə bərk şillə vurur. Kürən yıxılır və sərxoş adama yaraşmayan bir cəldliklə yerindən qalxır.*

**Kürən.** Murad qağa, məni vurdun?

**Murad** *(Kürəni bir həmləyə qapıdan çölə çıxardır).* Rədd ol maşına! Vətən... *(susur).*

*Uzun çəkən gərgin pauza.*

**Vətən.** Mən sənə inandım, elə bildim, doğrudan da sən məni axtarmısan. İlahi, necə sevindim, hətta ağladım da. Yox, mən düzəlməyəcəyəm. Bayaq yaxşı dedin... Nə dedin? Romantik.

**Murad.** Mən səni tapacaqdım, Vətən. Mən səni axtarırdım. Orxan ölsün, axtarırdım səni.

**Fərqanə.** Vətən, başına dönüm... *(susur).*

**Murad.** Axı burada nə var ki? Məgər çətin gündə qardaş qardaşı axtarmaz? Axı mənim sənə yox, bu saat sənin mənə ehtiyacın var.

**Vətən.** Doğrudan da, mənim sənə ehtiyacım vardı, özü də bu maddi ehtiyacdan çox, mənəvi ehtiyac idi. Sənsiz öz-özümə nə qədər danışmışam, giley eləmişəm. Hər dəfə televizorda səni görəndə özümü evdə elə göstərmişəm ki, guya baxmıram, maraqlanmıram. Amma gözümlə hər hərəkətini yeyirdim, hər sözünü dinləyirdim. Yalan danışanda, əyri deyəndə inciyirdim, amma gözləyirdim səni. “Sağ olsun Fərqanə”, nəhayət, bizi görüşdürdü.

**Fərqanə.** Vətən, başına dönüm...

**Murad.** Fərqanədə taqsır yoxdu, o balalarının taleyini düşünüb gəlib, yaxşı da eləyib. Əslində bunu sən eləməli idin.

**Vətən.** Mən bu gün evdən çıxanda sənin bir vaxt mənə bağışladığın tapançanı götürmüşdüm ki, pul tapa bilməsəm, sataram, pul tapmadım, amma o yadigarı sata da bilmədim, ürəyim gəlmədi, həm də mənə elə gəldi ki, bu tapança məni Qarabağla bağlayan yeganə teldir.

**Murad.** Çox nahaq yerə! Mən olsaydım satardım, balamın dərmanlarını alardım. Vətən, vətən... Yoxdu da vətən! Bəs bura vətən deyil?! Yaşa da burada! Dünyaya gətirdiyin, zülmlə düşmən əlindən qurtardığın uşaqlarını burada vətən deyə-deyə öldürəcəksən? Bu həyatdır sən yaşayırsan? Uşağın

biri xəstə, o biri internatda, özün... Vətənin dərdini çəkmək elə sənə qalıbdı? Bəlkə bu vətənin nemətlərini sən daha çox dadırsan? Papağını qoy qabağına, yaxşı-yaxşı fikirləş, lovğalığı, o xəstə qüruru at bir tərəfə, gəl yanıma. Söz verirəm ki, səni iki aya bu üfünətxanadan çıxaracağam. *(Cibindən bir paket çıxardır və stolun üstünə qoyur).* Bu da avans, nə bilim borc, istəsən, sonra qaytararsan. Əyni-başını düzəlt, gəl yanıma, eşitdin? Bir dost kimi, bir qardaş kimi xahiş edirəm səndən, tələb edirəm.

**Vətən** *(yerindən qalxır).* Murad...

**Murad.** Danışma! Bu dəfə sən danışma, dinlə! Qəddini də düzəlt, əvvəlki kimi şax yeri, şax dayanmağa sənin haqqın daha çoxdur. Bu şansdır, qardaşım, onu sənə Yaxşı xalanın köynəyindən keçirib oğul dediyi Murad verir! Eşitdin? Səni gözləyirəm *(gedir).*

*İşıqlar sönür. Sonra səhnə yavaş-yavaş işıqlanır. Vətən siqaret çəkir. Gülyaz yataqda öskürür. Fərqanə əlində şpris pərdə arxasından çıxır, nigaran-nigaran Vətənə baxır.*

**Fərqanə.** Şükür ki, qızdırması düşüb.

**Vətən** *(siqareti külqabıya basır).* Bəs niyə öskürür?

**Fərqanə.** Sətəlcəm bir-iki günə keçən zəhrimar dəyil ha. Bir on günə sağalar, inşallah, həkim də belə dedi.

**Vətən.** Təki elə olsun.

**Fərqanə.** Sən də dur əl-üzünə su vur, üzünü qırx, təmizlən. Dəlləyə getsən yaxşıdı, bir baş-gözünə əl yetirsin, tükdən boynun görükmür.

**Vətən.** Gedərəm.

**Fərqanə.** Yenə siqaret? Yaxşı, öz canına yazığın gəlmir, heç olmasa, bizə rəhm elə, öldürmə bizi bu zəhərlə. Qıza görə pəncərəni də açmıram, soyuqlayar.

*Vətən külqabıya basdığı siqareti hirslə əzişdirir.*

**Fərqanə.** Bütün gecəni yatmaq əvəzinə siqaret çəkmisən. Bığın da tüstüdən saralıb. Dur, dur əl-üzünü yu, sonra gedək "İyirmi yanvar"a, sənə əyin-baş alaq.

*Vətən dinmir, qalxıb otaqdan çıxır.*
*Gülyaz gəlir, köhnə xalata bürünüb.*

**Gülyaz.** Ana, nə deyir atam? Kostyum alassınız?

**Fərqanə.** Heç bir şey deyir ki? Kürənin dili yansın. Denən a dədəsi dərin getmiş, səndən soruşan var idi ayın neçəsidi? Bu da elə bir himə bənddi...

**Gülyaz.** Nə dedi ki? Danladı səni?

**Fərqanə.** Danlasa nə var ki? Susur. Heç soruşmur da ki, niyə getmisən ora?

**Gülyaz.** Ana, qorxma, səhər namazında dua eləmişəm.

**Fərqanə.** Xəstə-xəstə namaz qılırsan?

**Gülyaz.** Dedim, ilahi, sən atamın ürəyinə insaf sal, getsin Murad əminin yanına, bizə bir gün ağlasın.

**Fərqanə.** Bəs o gün deyirdin dua eləyə bilmirsən, nə oldu, öyrəndin?

**Gülyaz.** Möcüzədi ey, ana, elə bil, dilim birdən açıldı, sözlər bir-birinin dalınca gəldi. Gözlərim yaşardı, ağladım.

**Fərqanə.** Nə bilim, qızım, Allah bilən məsləhətdi. Bəlkə, elə sənə görə Allah keçə günahlarımızdan, qurtara canımız bu əzablardan.

**Gülyaz.** Nəsə narahatsan, ana? Deyirsən atam getməz Murad əminin yanına?

**Fərqanə.** Eeeyyy, ay qızım, pir mənimdi, kəramətinə bələdəm. Bütün gecəni dirigözlü açıb, siqareti siqaretə calayıb. Nə bilim, Allaha pənah! Nə məsləhətdi, o da olacaq. Amma getməsə, dünyanı qana çalxalayaram. Bəsdi yetənin yanına iynə vurdum, abrım gedib.

**Gülyaz.** Ana, “İyirmi yanvar”a getsəniz mənə bir dənə çəkmə al, camaat çoxdan geyinir, mən hələ o yönsüz basanoşkada dərsə gedirəm. Otuz beş razmer.

**Fərqanə.** Yaxşı, alaram, hələ qoy görək nə olur... *(Qapıya tərəf baxır.)* Di gir yerinə, təzdən soyuq alar səni, nazik geyinmisən, ev də buz kimi.

**Gülyaz.** Otuz beş ha, ana. *(Pərdənin arxasına keçir.)*

**Fərqanə** *(onun arxasınca).* Qayğanaq bişirəcəyəm sənə, Kürən dünən yumurta da gətirib. Dili yanmış, ta nə almayıb?

*Fərqanə gedir, Vətən gəlir. Hiss olunur ki, üzünü indicə yuyub. Fikirlidir. Radionu işə salır, musiqi səsi otağa dolan kimi tez söndürür. Fərqanə nimçədə gətirdiyi səhər yeməyini stolun üstünə düzür.*

**Vətən** *(ağır-ağır qalxıb süfrəyə yaxınlaşır).* Deyəsən, hər şeyi yerbəyer eləmisən?

**Fərqanə.** Nəyi yerbəyer eləmişəm, Vətən? Nə demək istəyirsən?

**Vətən.** Heç! Sözdü dedim. *(Əlini iştahla yeyən Gülyazın başına çəkir.)* Rəngin bir az açılıb.

**Gülyaz** *(üzünü atasının əlinə söykəyir).* Çoxdandı başıma sığal çəkmirsən.

**Vətən.** Anamın saçı kimi sürüşkəndi, elə bil ipəkdi. *(Yeməyə başlayır və birdən dayanır.)*

**Fərqanə.** Nədi? Niyə dayandın?

**Vətən** *(əyləşir).* İkiniz də buradasınız. İstərdim gədə də burada olaydı, eybi yox. O, hələ uşaqdı. Dur o pulu gətir bura.

**Fərqanə.** Murad qağa verən pulu deyirsən?

**Vətən.** Ayrı pul da var evimizdə?

**Gülyaz** *(sevincək).* Bazara gedirsiniz?

*Fərqanə qalxıb pərdənin arxasına keçir və Muradın verdiyi konvertlə geri qayıdır. Pulu Vətənə uzadır.*

**Vətən** *(pula əl vurmur).* Qoy bura, stolun üstünə.

*Fərqanə konverti stolun üstünə qoyur.*

**Vətən.** Biz bu pulu geri qaytaracağıq, elə bu gün.

**Fərqanə.** Bəs?..

**Vətən.** Sən sus, Fərqanə, məni cinləndirmə, yoxsa bu pulu yandıraram, bu xarabanı da odlayaram. Biz vuruşduq, qırıldıq, qan da tökdük, amma uduzduq, çünki Allahın bizə bol-bol verdiyi bərəkətli torpaqların da, nemətlərin də qədrini bilmədik, torpaq uğrunda ölə bilmədik, öz vətənimizdə qaçqın olduq, ev-eşiyimizi itirdik. Bütün bunlar cəzasız qala bilməzdi və biz o cəzanı çəkirik, çəkməliyik də.

**Fərqanə.** Ay Vətən, başına dönüm, biz də bu dediklərini bilirik, amma indi...

**Vətən.** Mən Muradın yanına getməyəcəyəm. Mən, mənim kimi yüzlərlə, minlərlə qaçqın firavanlığa çıxsa, kim düşünəcək vətəni, kim azad eləyəcək Qarabağı, Qarıqışlağı? Elə bilirsən dostum, xeyr, köhnə dostum Qarıqışlağın xiffətini eləyir?

**Fərqanə.** Vətən, indi deyirsən vətənpərvər olmaq naminə gərək balalarımız acından qırılsınlar?

**Vətən.** Mən bol yemək xatirinə Kürənin gününə düşmək istəmirəm. Mən bir vaxtlar dost dediyim adamın xatirə kitabına dönməyəcəm ki, araq içəndən-içənə ləzzətlə vərəqləsin, keçmiş günləri xatırlayıb əylənsin. Mən necə yaşamışamsa, elə də yaşayacağam. Zülm çəkəcəyəm, qul bazarına çıxacağam, amma Qarabağ arzusu ilə, Qarabağ yanğısı ilə yaşayacağam. Mənim balalarım yavan yeyəcəklər, yalın gəzəcəklər, amma kölə çörəyi ilə böyüməyəcəklər. *(Susur və stolun arxa-*

*sında oturur).* Gecə yatmadım, gözümə yuxu getmədi. *(İstehza ilə gülümsəyir. Qoltuq cibindən tapançanı çıxardır.)* Bu yadigar tapançanı çıxartdım, elə dünəndən cibimdəydi.

**Gülyaz.** Ata!

**Fərqanə.** Allah, məni öldür! Vətən, sənin başına at təpib? Ölmək nədi?

**Vətən.** Qorxmayın, görürsüz ki, salamatam. *(tapançanı əlində oynadır).* Bir-iki dəfə tətiyini də çəkdim, açılmadı. Əl saxladım, ölmək istəsəm də, təkrar atmadım, vurmadım özümü. Bəlkə də səhv elədim, qorxdum, bəlkə də mənim ölməyim sizi dediyiniz ağ günə çıxardardı. Murad bəy sizi yiyəsiz qoymazdı, bütün ideallarına xəyanət eləmiş adam hərdən nəcib, xeyirxah bir iş görüb təsəlli tapmağa ehtiyac duyur. Necə ki, dünən Murad bəy ağatlı oğlan kimi yetişdi dadımıza.

**Fərqanə.** Allah məni öldürsün, Vətən, başına dolanım. *(ağlayır).* Ora gedəndə kaş qılçam qırılaydı.

**Vətən.** Səni qınamıram, Fərqanə. Dünən Murad əmisinin boynunu qucaqlayıb göz yaşları ilə imdad diləyən zavallı qızımı da qınamıram. Onun oxuduğu Quranda bir ayə var. Orada deyilir ki, mən insanı zəif yaratdım. Həqiqətən, biz zəifik, çox vaxt nəfsimiz ruhumuzdan güclü olur.

**Fərqanə.** Nəfs nədi, Vətən, başına dönüm? Biz nə istəyirik ki? Bizə nə lazımdı ki?

**Gülyaz.** Ata, mən... qələt eləmişəm. Ata, qəlbimə şeytan girmişdi...

**Fərqanə.** Sənsiz biz kimik, Vətən, başına dönüm, nəyik? *(Tapançanı ehmalca onun əlindən almaq istəyir.)*

**Vətən.** Dəymə! *(Əlini geri qaytarır).* Dedim axı, özümü öldürmək niyyətim yoxdur. Nə qədər ki, Qarabağı azad eləməmişik, bizim ölməyə haqqımız yoxdur. Yoxsa bu fərarilik olardı, xəyanət olardı.

**Gülyaz** *(dua eləyir).* İlahi, sən şeytanı mənim qəlbimdən çıxart, sən məni nəfsimə qul eləmə, sən mənim atama qüvvət ver, onu yalqız buraxma... *(ağlayır).*

**Vətən.** İndi seçin: bu pul, Murad bəyin vəd elədiyi firavan həyat, bu da mən – sabahdan qul bazarına üz tutacaq qaçqın Vətən, ürəyi yerindən çıxarılmış Vətən. Bütün ehtiyaclarınızı, bax, bu əllərimin qabarı, alnımın təri ilə ödəyəcəyəm.

*Gərgin, uzun sürən pauza. Gülyaz aramsız öskürür.*
*Fərqanə onu yatağa uzadır. Pul hələ də stolun üstündədir.*

**Fərqanə** *(Vətənə baxmayaraq).* Mən iynə vurmağa getdim... *(çıxır).*

*Vətən arakəsməyə yaxınlaşır.*
*Gülyazın öskürəyi eşidilir.*

**Vətən.** Yer sinəsini insanlar üçün açıb. Bu səxavətin müqabilində isə o, insanlardan heç nə ummur. İstədiyi olsa-olsa övladlıq borcu, insan munisliyi və cəmiyyətin özünün yaratdığı insanlıq qanunlarının qorunmasıdır. İnsan övladı bu qanunları tapdalayır. Təbiət ilkinliyinə sadiqdir. Amma insan bəzən naxələf çıxır. Təbiət öz sərt qanunlarını gözləməklə özünü qoruyur, yaratdıqlarını məhv eləmir, onların daimiliyini təmin edir. İnsanlar isə dağıdıcı silahlarla bir-birini qanına qəltan eləyər... Sonra isə hər şeyi unudur. Muradlar, Fərqanələr, gənc Orxanlar və Gülyazlar da... Bəs necə olsun?..

*Vətən stolun üstündəki pula və tapançaya baxır. Bütün pyes boyu oxunan şeir mahnıya çevrilib ətrafa yayılır. Biz isə son misraları eşidirik.*

*Gəlin, ey əhli-könül, artıb azarım, eşidin,*
*Yox rəvacım, kəsilib səbrü qərarım, eşidin.*

*Pozulub rövnəqi-gülzari-baharım, eşidin,*
*Qalmayıbdır, tükənib leylü naharım, eşidin...*
*Dağlayıbdır məni bir lalə üzari – Qarabağ,*
*Yandırıbdır məni bir nari – Nigari – Qarabağ.*
*Ey Nigari, nə qədər sirrimi pünhan edəyim?*
*Yandı canım, onu bu nəzmlə şayan edəyim,*
*Dağlayıbdır məni bir lalə üzari – Qarabağ,*
*Yandırıbdır məni bir nari – Nigari – Qarabağ.*

*Vətən tapançanı götürür və kandara çıxır.*

*İşıqlar sönür.*

*Pərdə*

SON

*Bakı, 2003-cü il*

# Vicdanın hökmü

*(İkipərdəli pyes)*

***Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsinə ithaf edirəm.***

*İştirak edənlər:*

**Rəhim** – *vətənpərvər gənc, kəşfiyyat qrupunun rəhbəri*
**Ana** – *Rəhimin anası*
**Firudin (Fedya)** – *milli qeyrətdən uzaq olan şəxs, Aslanın oğlu*
**Güllü** – *Firudinin arvadı*
**Aslan** – *cəbhədəki xəstəxananın baş həkimi*
**Aygün** – *Aslanın qızı, şəfqət bacısı*
**Sabir** – *Aslanın yardımçısı*
**Kamran** – *kəşfiyyat bölüyünün komandiri*
**Əhəd** – *Qarabağ döyüşçüsü, könüllü*
**Aşot**, **Karo**, **Akop** – *erməni döyüşçüləri*
**Qız** – *əsir düşmüş azərbaycanlı*
**Birinci qadın**, **İkinci qadın** – *Fedyanın ad günündə iştirak edən rus qadınları*
**Azərbaycan döyüşçüləri**

## BİRİNCİ PƏRDƏ

*Hadisələr Rusiya şəhərlərinin birində və Azərbaycan ərazisinin döyüş bölgələrində cərəyan edir.*

*Birotaqlı sadə mənzil. Köhnə divan, kreslo və çox da böyük olmayan kitab rəfi. Pəncərə önündəki stolun üstündə kitab, qəzet, külqabı və içində bir neçə qərənfil olan şüşə güldan var.*

*Qapı açılır, Rəhim gəlir. O, çantasını yerə qoyandan sonra nimdaş paltosunu, papağını asılqandan asır. Kresloda yerini rahatlayır və cibindən çıxardığı məktubun arasındakı şəkilə baxır. Kədərlə gülümsəyir.*

**Rəhim** *(sakit səslə).* Gözəl anam, bəxtsiz-talesiz anam. Ata yolunu həsrətlə gözləyən anasız körpə balalarım. *(Məktubu öpür və gözlərini yumur.)* "Əziz oğlum Rəhim!". Bəli, ana, əziz oğlun, müəllim oğlun Raqozin bazarında soyuqdan titrədə-titrədə alver eləyir. *(Uzun sürən pauza.)*

*Səhnədə ananın obrazı canlanır və*
*yavaş-yavaş Rəhimə yaxınlaşır.*

**Ana** *(gəlir və sakitcə Rəhimin başının üstündə dayanır).* Qurbanın olum, Rəhim, bilirəm, bizdən sarı nigaransan. Nahaq yerə, bala, vəziyyətimiz yaxşıdır. Göndərdiyin pulu bazarda dəyişdirdim. Evə xeyli azuqə, uşaqlara da pal-paltar aldım. Gülüş yaman sevindi. Rehban dedi ki, nənə, yaz ki, biz atamızı çox istəyirik, tez gəlsin. İndi ikisi də yanımda oturub, sənin şəklinə baxırlar.

Rəhim, başına dönüm, özündən muğayat ol. Urusiyətdən gələn qara xəbərləri eşidəndə ağlıma min cür fikir gəlir. Deyirəm, bəlkə, qayıdıb gələsən?! Acından ölməyəcəyik ki... Hamı kimi biz də birtəhər dolanarıq.

Ermənilər yaman qızışıblar. Kəndin cavanları dəstə-dəstə yığışıb "dığa"larla döyüşə gedirlər. Eşitmişəm ki, oralarda erməni çox olur, onlara üz göstərmə, özləri bir yana, dostları ilə də oturub-durma. Düşmənlə dost olanın özü də düşməndi, oğul. Anan qurban, yeməyinə-içməyinə fikir ver. Urusiyətin qışı soyuq olur, yatanda üstünü yaxşı-yaxşı ört.

Eh, gör yadıma nə düşdü? Sən birinci sinifə gedəndə əllərimi göyə qaldırıb Allahdan iltimas edib dedim: İlahi, sən mənim balamın çörəyini qələmdən çıxart. Duam müstəcəb oldu. Yaxşı oxudun, on ildə bir dənə də dörd almadın. Ali məktəbə də qızıl medalla girdin. İlk maaşını əlsiz-ayaqsızlara nəzir-niyaz verdim. Nə deyim, pis dolanmırdıq, pulun-pul, hörmətin-hörmət, kənd cavanlarının gözü idin. Allah erməninin evini yıxsın, aranı elə qarışdırdı ki, hamı bir tikə çörək üçün ev-eşiyindən didərgin düşdü. Amma atalar yaxşı deyiblər, qara günün ömrü az olar. İnşallah, haqq yerini tapar, sən də qayıdıb iş-gücünlə məşğul olarsan.

**Rəhim** *(üzünü anasının əllərinə söykəyir).* Ana, bir o bayatını de, mehriban söz, isti nəfəs üçün elə qəribsəmişəm ki...

**Ana.**

*Dərya ollam, bulannam,*
*Sucaq ollam, sulannam.*
*Sağ gözüm sənə qurban,*
*Sol gözümlə dolannam.*

**Rəhim.** Ana, düzünü deyim, bura heç mənim yerim deyil. Sizin üçün burnumun ucu göynəyir, anasız balalarım hər

gün gəlib dururlar gözlərimin önündə. Onları bağrıma basmaq istəyirəm, əllərim çatmır...

**Ana.** Darıxma, bala, yaman günün ömrü az olar.

**Rəhim.** Burada balaca küçük görəndə də kövrəlirəm, Gülüşlə Rehban yadıma düşür. Görünür, mən ev adamıyam, bayır-bacaq məni sıxır.

**Ana.** Qadan alım, bala, indi ki, elədir, qayıt gəl evimizə. Qayıt gəl anadan yetim qalmış körpələrinin üstünə. *(Gedir.)*

**Rəhim** *(gözlərini açır, döşəməyə düşmüş məktubu və şəkli səliqəyə salıb, cibinə qoyur).* Yox, buralarla üzülüşmək lazımdır. Zəmanə qarışıq, ev kişisiz... Yol pulu düzəldib qayıtmalıyam. *(Danışa-danışa çantasından çörək, pendir, bir şüşə qatıq və s. çıxarıb stolun üstünə qoyur. Bu işləri xüsusi səliqə ilə görür.)* Bismillah! *(Yeməyə başlayır).*

*Qapı döyülür. Rəhim diksinir, əlini çörəkdən çəkib, ehtiyatla qapıya tərəf gedir.*

**Rəhim.** Kimdir?

**Aşot** *(səsi gəlir).* Mənəm, Raximcan, Aşotdur.

**Rəhim.** Aşot? Aşot kimdir?

**Aşot** *(səsi gəlir).* Ara, Pedyanın dostuyam da, telexranitel.

**Rəhim.** Xeyir ola... *(Qapını açır).*

**Aşot** *(gəlir).* Raximcan, barev.

**Rəhim.** Salam, salam. Səndən nə əcəb?

**Aşot.** Pedya göndərib ki, görüm evdasan, ili yox.

**Rəhim.** Görürsən ki, evdəyəm.

**Aşot.** Ha, evda ol, man da ona dalajit elayim.

**Rəhim.** Özü haradadır ki?

**Aşot.** Maşındadır, burada. *(Getmək istəyir).*

**Rəhim.** Dayan, mən də gəlim.

**Aşot.** Sani olmaz, dedi gözlasin. *(Gedir).*

**Rəhim** *(öz-özünə).* Yaxşı, bu məni neyləyir?

**Fedya** *(gəlir və çaşıb qalmış Rəhimi səs-küy sala-sala qucaqlayır).* Demişdim gələcəyəm? Gəldim! Demişdim tapacağam? Tapdım! İman haqqı, mən söz altda qalan oğlan deyiləm, sözümün ağasıyam.

**Rəhim.** Xoş gəlmisən, Firudin. Düzü, gözləmirdim.

**Fedya.** Firudini-Müridini qatla qoy bir qırağa. İndi mənim adım Fedyadır! Özü də, iman haqqı, bu şəhərdə üç kişi varsa, biri mənəm, iki kişi varsa, yenə biri mənəm, bir kişi varsa, o da mənəm! İndi tanıdın qardaşını?

**Rəhim.** Həmişə birinci olasan, Allah balalarını saxlasın.

**Fedya.** Brat, o Allahın öz işidir, istəyər saxlayar, istəməz saxlamaz. Adamın öz canı sağ olsun.

**Rəhim.** Nə danışırsan, Firudin, uşaqlarsız biz nəyə lazımıq?

**Fedya.** Bilmirəm! Uje bir il olar ki, mən arvadın başını buraxmışam, uşaqdan da xəbərim yoxdur. Brat, iman haqqı, köpək qızı mənə – Fedyaya ağıl öyrədir. Hə, ilanın nədən zəhləsi gedir, yarpızdan, mənim də nədən zəhləm gedir, məsləhətdən. Uşaqlıqdan beləyəm. Məsləhət eşidəndə, elə bilirəm, məni ilan çalır, allergiya oluram.

**Rəhim.** Qorxma, mən müəllim olsam da, sənə məsləhət verməyəcəyəm. Gəl, otur, bir tikə çörək kəsək.

**Fedya** *(süfrəyə nəzər salır).* Brat, bu nədir? Kasıbçılıqdır, ya pəhriz saxlayırsan? İndi heç qatıqlamaq vaxtıdır?

**Rəhim.** Qatıqlamaq nədir, ə?

**Fedya** *( qəhqəhə ilə gülür).* Gəl belə eləyək...

**Rəhim.** Neyləyək?

**Fedya** *(ciddiləşir).* Gedək restorana, həm ujin, həm də xudmani söhbət...

**Rəhim.** Restoranda nə işimiz var? Nə istəsən, elə burada təşkil eləyə bilərəm. Sən mənim qonağımsan.

**Fedya.** Yaxşı danışmırsan, brat. Bu şəhərdə hamı mənim qonağımdır, iman haqqı. *(Ani fikirdən sonra)* Gəl belə danışaq, restoranın başını buraxırıq, ancaq bir şərtlə.

**Rəhim.** O nə şərtdir elə?

**Fedya.** Bu stolu özüm nakrıvat elətdirəcəyəm.

**Rəhim.** Axı buna nə ehtiyac var, Firudin?

**Fedya.** Dedim axı – Fedya! *(Qışqırır.)* Aşot!

**Aşot** *(gəlir).* Da, maddax!

**Fedya.** İki nəfərlik zakuska, araq, necə lazımdısa!

**Aşot.** Yest, maddax! *(Gedir.)*

**Fedya** *(özündən razı halda).* Belə-belə işlər, brat.

**Aşot** *(qayıdır).* Pedyacan, araq hansından olsun?

**Fedya.** Sən hələ getməmisən?

**Aşot.** Arağı soruşuram.

**Fedya.** Dünən aldığından olsun, Smirnov, bir şüşə də balzam.

**Aşot.** Yest, maddax! *(Gedir).*

**Fedya.** Buna demişəm ki, mənimlə ancaq azərbaycan dilində danışsın.

**Rəhim.** Başa düşdüm. Quyruq verən buyruq da verir.

**Fedya.** Hə, Rəhim müəllim, bir dəfə adam kimi oturub danışa bilmirik, halbuki sən ali təhsilli müəllimsən, savadına da söz ola bilməz. Ruslar özləri də səni tərifləyirlər. Deyirlər ki, qramotnı oğlandı Raqim. Bəs mən kiməm?

**Rəhim.** Nə deyim, vallah? Firudinsən də.

**Fedya.** Xeyr, brat, mən reket Fedyayam, hərdən Qara Fedya da deyirlər. Nədi, brat, elə deyil, bəlkə, düz danışmıram?

**Rəhim** *(gülür).* Yox, düz danışırsan, elə deyirlər: Qara Fedya, reket Fedya. *(Yenə gülür).*

**Fedya.** Gülmə, ə, biz kişi söhbəti eləyirik. Ne day boq, bir gün Fedya Raqozin bazarında görünməsin. Bilirsən nə olar? Hamı dəyər bir-birinə. Onda kim asqırar sənin savadına? Bazar müəllim yeridir, brat?

**Rəhim.** Nə bilim, zaman belədir, reallıqdır. Barışmasaq da, gərək hesablaşaq.

**Fedya.** Əla! Yaxşı dedin, gərək hesablaşaq. Bəs niyə hesablaşmırsan? Niyə gendən gəzirsən? Niyə məni saymırsan? Bilmirsən ki, mən olmasam, sənin o palatkanı darmadağın eləyərlər?

**Rəhim.** Nə danışırsan, Fedya?

**Fedya.** Bax, indi səndən xoşum gəldi. Adımı düz dedin: Fedya!

**Rəhim.** Fedya, mən nə qazanıram ki? Hər ay güc-bəla ilə evə beş-on rubl çörək pulu göndərirəm.

**Fedya.** İman haqqı, inciyirəm səndən. Brat, gəl yanıma, gir kölgəmə, qaz vur, qazan doldur. Çörək pulu üçün gəlmisən bura?

**Rəhim.** Fedya, mənə bu da bəsdir, mən nəfsli adam deyiləm.

**Fedya.** Nəfs? Nəfs nədir?

**Rəhim.** Tusi deyir ki, nəfs elə şeydir ki, özbaşına buraxsan, səni çamura batırar, yox, əgər cilovlayıb, istiqamət versən, fəzilət yüksəkliklərini fəth edib kamala çatarsan.

**Fedya.** Başa düşməsəm də, brat, yaxşı sözdür. Kimdi o kişi?

**Rəhim.** Nəsirəddin Tusi.

**Fedya.** Müxalifətdi?

**Rəhim.** Təxminən elə bir şeydi.

**Fedya.** Brat, alverçi müəllimsən, sənin politka ilə nə işin var? Bu müxalifətçilərin hamısı bir bezin qırağıdır. O cür

sözləri də vəzifə almaq üçün deyirlər. Elə ki, vəzifə başına keçdilər, srazu başlayırlar katibə ilə mazaqlaşmağa. *(Gülür).*

**Rəhim.** Deyəsən, Tusi haqqında məlumatın azdır.

**Fedya.** Ola bilər. İndiki yazanlar bir şey yazmırlar axı, brat. Bax, oxuyasan "Dekomiron"u, "Min bir gecə"ni... Ləzzət alasan...

**Rəhim.** O əsərlərin də öz hikməti var.

**Fedya.** Müəllim ki müəllim! İman haqqı, danışıb məni azdırdın, qoymadın fikrimin zontikini açım.

**Rəhim.** Gözəl ifadədir: "Fikrimin zontiki".

**Fedya** *(gülür).* Elə bilirdin savadsızam, hə? Brat, mənim bir qulağımın dibi qalıb *(gülür).* Hə, indi qulaq as. O erməni dığası Aşot var ha... Sən öl, mən ölüm, mənim hesabıma adam olub. Özü dolanır, ailəsini dolandırır, plyus iki də canan saxlayır. Sənin ondan nəyin əskikdir? Olmaz ki, yanımda hərlənəsən, beş-on qəpik qazanasan, əlin çörəyə çata?

**Rəhim.** İncimə, Fedya, onu bacarmaram. Minnət qədər ağır yük yoxdur. Öz aramızdı, o erməni dığası lap dəyirman xoruzuna oxşayır. Yediyi, içdiyi də haramdır. Bu soyuqda sübh tezdən hava qaralana kimi tərəzi arxasında durub müştəri gözləyən imkansız adamların qəpik-quruşuna göz dikmək, şərik olmaq, ən azı, insafsızlıqdır. Aşotun hədə ilə necə pul aldığını görmüşəm. Bizdə yaxşı bir atalar sözü var, deyir: "Qovanın gücü varsa, qaçanın da Allahı var".

**Fedya** *(tutulur).* Səndən almayıb ki?

**Rəhim.** Yox.

**Fedya.** Deməli, qalan işlərin sənə dəxli yoxdur. Erməni olanda, nə olar? İşini bilən, canlara dəyən oğlandır. Hər sözüm onun üçün zakondur. Möhkəm də dostuq.

**Rəhim.** Təmənnalı dost kölgə kimidir. İşıqlı gündə səni izləyər, tutqun gündə isə gözdən itər.

**Fedya.** Znaçit, onu tanımamısan. Əsli Yerevandandır, sonra köçüblər Stepanakertə. Neçə dəfə teleqram alıb, geri çağırırlar, ancaq mənə görə getmir, qalır. Deyir, mən çörək itirmərəm.

**Rəhim.** Demək, onu da yaraqlıların dəstəsində xidmətə çağırırlar?

**Fedya.** Sən nə danışırsan, Rəhim? Əgər, oğraşın belə bir fikri olsa, ətini şişə çəkib bazarda ermənilərin özlərinə yedirdərəm.

**Rəhim.** İnanma ona. Düşmən, adətən, ətək altından çıxır. Ermənilər torpaqlarımızı almağa dadanıblar. Dadanan qudurandan da pis olar. Bəs bizi bəlaya salan əsrlər boyu can deyib, can eşitdiyimiz kirvələr deyil? Qardaş, səsimiz bu gün Raqozin bazarından deyil, Vətəni qorumaq üçün cəbhə bölgələrindən gəlməli idi.

**Fedya.** Vətən?! Nə verib mənə, ala bilmir o Vətən? Axmağam, canımı verəm güllə qabağına? Vətən salmayıb səni çöllərə?

**Rəhim.** Firudin, arx belə güman edir ki, çay yalnız ona su vermək üçün yaranıb.

**Fedya.** Məni bu sözlərlə azdıra bilməzsən, brat. Mənim öz dünyam var. Mir bezzakonye, mir pristupnikov. Nakonets, de görüm, mənə qoşulursan, ya yox?

**Rəhim.** Yox, Firudin, mən Vətənə qayıtmağa hazırlaşıram, daha Vətəndən, ailədən uzaqda qala bilmirəm.

**Fedya.** Eh, brat, brat! Bir dəfə yanımca fırlansaydın, bu mən ölüm, hər şeyi unudardın. Nə Vətən yada düşərdi, nə arvad-uşaq. Mən tüpürmüşəm arvada da, ailəyə də. Mən yalquzağam.

**Rəhim.** Çox təəssüf!

**Fedya** *(kitab rəfini göstərir).* Sənin başını bunlar korlayıb. Ə, arvada nə lazımdır? Hə, danış da. Evdir, almışam, uşaqdır əkmişəm. Qırı, qızılı. Yox bir, durub indi mənə darğalıq da eləsin...

**Rəhim** *(siqaret yandırır, dalbadal iki-üç qullab vurandan sonra).* Bəlkə çay dəmləyim?

**Fedya.** Qanımı qaraltdın, brat. Bu gün neçənci gündür?

**Rəhim.** Dördüncü.

**Fedya.** Hə, dünya beşgünlük dünyadır. Dördünü yaşamışıq, qalıb bir günü. Kefimizdən qalmayaq. Aşot əclaf harada qaldı?

*Qapı döyülür. Aşot gəlir.*

**Aşot.** İ vot i ya.

**Fedya.** Padla, deməmişəm musurmanca danış? Niyə gec gəldin?

**Aşot.** "Balzam" gazirdim, maddax.

**Fedya.** Stolu bəzə, tez ol.

**Aşot.** Oldu, maddax! *(Mətbəxə keçir).*

**Fedya.** Görürsən, bunun nəyi pisdir? Qal deyirəm, qalır, öl deyirəm, ölür. *(Rəhim mətbəxə keçmək istəyir).* Gəl otur, brat! Onlar həmişə qul olublar, qoy işləsin. Bunun bir bacısı var, Tereza, adamı gözləri ilə yeyir.

**Rəhim.** Yaxşı deyil, Firudin.

**Fedya.** İman haqqı, bu oğraş bir gün söyüş eşitməyəndə, darıxır. Ara, düz demirəm?

**Aşot** *(gəlir).* Tak toçno, maddax. *(Gülə-gülə yeməkləri stolun üstünə düzür).* Öyrəşmişəm də.

**Fedya** *(araq süzür).* Öyrənmişə də ki, tövbə yoxdu. Brat, iman haqqı, şakərimdi, birinci tostu həmişə özüm deyirəm.

**Rəhim.** De!

**Fedya.** Aşot, nakonets, bu gün yaxından tanış olduq Rəhim müəllimlə, sabah isə olarıq brat. İndi ayıq başla deyirəm,

biləsən. Sabah mənim denrajdeniyamdı, sən gərək mütləq o məclisdə olasan.

**Rəhim.** Mən?..

**Fedya.** Bəli, sən. Bir kəlmə də artıq-əskik söz eşitmək istəmirəm. Dedim axı, bu şəhərdə bir kişi varsa, o da mənəm. Sözümü yerə salanın...

**Rəhim.** Axı, mən restoran adamı deyiləm, bir də...

**Fedya.** Malçat! Oturursan taksiyə, deyirsən sür "Beryozka"ya, vəssəlam! Danışdıq?

**Rəhim.** Nə deyim, vallah...

**Fedya.** Heç nə demək lazım deyil, Rəhim müəllim! İçirəm sənin sağlığına. *(İçir).* Aşot, aşağıda telefon budkası gözümə dəydi. Düş, "Yaşıl"a zəng elə, gör o "Perets" alçaq kimləri dindirib, kimləri yandırıb?

**Aşot.** Yest, maddax! *(Gedir).*

**Fedya** *(Rəhimin qədəhinə baxır).* Niyə axıra qədər içmirsən?

**Rəhim.** Doğrusu, həmişə spirtli içkilərdən uzaq olmuşam. Bunu da sənin xətrinə içdim.

**Fedya.** Burada içmək lazımdı, brat. Ne day boq, bu ölkədə içkini qadağan eləsələr, millət mış kimi qırılar. Gördün, heç Qarbaçovun da zakonu keçmədi. Xalq yaşamaq istəyir. *(Araq süzür).* Bunu da içək mənim sağlığıma. Bilirəm, sənin yaxşı tost deməyin var, onu da saxlayaq sabaha. Bu şəhərdə bir kişi varsa, zakonnu mənəm – Qara Fedya *(içirlər).*

**Aşot** *(gəlir).* Pedyacan, sroçnu iş var.

**Fedya.** De də, padla, burada yad adam var?

**Aşot.** Kapustanı tutublar.

**Fedya.** Ax, svoloç! *(Rəhimə)* Brat, mən sroçnu getməliyəm, yoxsa... *(Tələsik araq içir).* Sabah "Beryozka"da, yeddidə.

*Fedya və Aşot gedirlər.*

**Rəhim** *(stolun üstünü yığışdırır)*. Hər yerdə gərək bir qəmiş ola da. Belə adamlardan nə qədər qaçıram, yenə də çıxırlar yolumun üstünə. Mən istəyirəm öz əməyimlə, zəhmətimlə təmiz yaşayım, bir parça halal çörək qazanım, vicdanımın hökmünə, səsinə qulaq asım, olmur ki, olmur. İndi get görüm necə gedirsən bu murdar oğlu murdarın ad gününə. *(Süfrəni yığışdırmağı yarıda atır. Siqaret yandırır, arxası zala, üzü pəncərəyə dayanır).*

*Ana bir kölgə kimi səhnəyə daxil olur.*
*Stolun üstünə baxır, başını bulayır.*

**Ana.** Palaza bürün, elnən sürün deyiblər, oğul. Hə, bir də deyiblər vicdanını çörəyinə yavanlıq elə. Düz ağacı ocağa qoymazlar, bala, əyilmə ki, səni yandırsınlar, pul kimi xərcləsinlər.

**Rəhim.** Axı, necə, ana, necə? Həmişə vicdanımın səsinə qulaq asdım, onun hökmü ilə hərəkət elədim, ağın ağ, qaranın qara olduğunu dedim. Axırda obamdan, dərs dediyim məktəbdən didərgin düşdüm.

**Ana.** Eybi yoxdu, oğlum, bu da Allahın sınağıdır. Yaxşılıq da sınaqdır, pislik də sınaqdır. Haqqın tərəzisi əyilməz, çünki mizanı o qoyub, tarazlığı o, Xudavəndi-aləm yaradıb. Hər gün kəndimizə iki-üç cavanın meyiti gəlir. Mən o şəhidlərin yas yerinə gedə bilmirəm. Camaat üzümə birtəhər baxır. Deyirlər, bəs sənin oğlun hanı? Niyə özünü verib Urisiyətə? Niyə cəbhədə döyüşmür? Müharibə səngiyəndən – Vətən azad olandan sonra qayıdacaq? Deməli, səninki övladdı, bizimki övlad deyil? Şagirdləri qırılır, amma müəllim ortada yoxdu... Bunları üzümə deyirlər. İndi gör arxamca nələr danışırlar. Qayıt, qayıt gəl. Nəslimizi bu töhmətdən qurtar... *(gedir).*

**Rəhim** *(ananın arxasınca pıçıldayır).* Ana!.. Ana!..

*İşıqlar sönür. Kiçik pərdə enir. Yüngül musiqi.*

*İşıq yanır.*

*Aşot gəlir. Ora-bura baxıb avtomat telefona yaxınlaşır. Nömrə yığır.*

**Aşot.** Alo, Raya, sənsən? Bilirəm xəstəsən, o əclafdı da, padladı da. Qorxma, pulunu mən verəcəyəm, Surenlə göndərəcəyəm. Mən? Mən sabah, bəlkə də bu gün gecə Yerevana yola düşdüm. Raya, indi mən səni necə aparım? Yox, mümkün deyil. Fedya svoloç soruşsa, de ki, bir aydır görmürsən məni. Vay astuvas! Qorxma, ölməzsən, səni hələ Böyük Ermənistana aparacağam. Ba hinç? Telefon söhbəti deyil, axçi. Sonra... sonra... *(Dəstəyi asır və tələsik gedir).*

*Güllü gəlir. Telefonla zəng edir.*

**Güllü.** Doyşan, sənsən? Bəs, tyotya Maşa hanı? Hə? Mama qurban, qorxma, yerinə gir, yat, mən də gələcəyəm. Hə, hə, tez gələcəyəm. Papa? Bilmirəm, doyşan, bilmirəm. Deyərəm. Deyərəm ki, sən onun üçün darıxmısan.

*Güllü danışmaqda davam edir. Rəhim gəlir, nabələd adam kimi ora-bura baxır. Üzü telefon aparatına sarı olan Güllünün danışığına qulaq verir.*

**Güllü.** Dedim ki, yat. Eşiyə çıxmaq olmaz, hava çox soyuqdur. Yox, yox, gözləmə, yat, gələndə oyadaram səni.

**Rəhim.** Azərbaycanca danışır. Səsi də... tanış gəlir... ola bilməz...

**Güllü.** Yaxşı, öpürəm səni. Yaxşı... yaxşı...

*Güllü dəstəyi asır və çönüb getmək istəyəndə, Rəhimlə üz-üzə gəlir.*

**Rəhim.** Güllü?

**Güllü.** Rəhim? Sənsən? Gözümə inana bilmirəm.

**Rəhim.** Yox, niyə ki, mənəm. Bu neçə ildə sən heç dəyişməmisən.

**Güllü.** Heç sən də dəyişməmisən, amma yox, bir az...

**Rəhim.** Qocalmışam. Mən bilmirdim ki, sən də buradasan.

**Güllü.** Burada qəribə nə var ki, həyat hərəmizi bir diyara atıb. Bəs sən burada nə gəzirsən?

**Rəhim.** Mən Raqozin bazarında alver eləyirəm.

**Güllü.** Sən ki, müəllimsən, institutda başına and içirdilər, hamı sənə Bala Marks deyirdi.

**Rəhim.** Marksın dəbdən düşdüyü bir vaxtda Bala Marks kimin nəyinə gərəkdir?

*Uzun sürən pauza.*

**Güllü.** Yəqin ki, sən məni qınayırsan, hə?

**Rəhim.** Yox, qəribə də olsa, qınamıram, hətta indicə dərk etdim ki, mən səni bağışlamışam, içimdə sənə qarşı heç bir kin-küdurət yoxdur.

**Güllü.** Amma mən sənə nifrət edirəm, Rəhim.

**Rəhim** *(tutulur).* Sən mənə nifrət edirsən? Niyə? Mən ki səni başqasına dəyişməmişəm. Sən mənim üzüyümü üstümə atıb qoşulub qaçdın, bütün həyatımı alt-üst etdin.

**Güllü.** Sən saxlamalıydın məni, dişinlə-dırnağınla tutub saxlamalıydın məni. Bəs neynədin, dedin ki, özün seç, sevgidə zor yoxdu. "Demokratiya" oyununa hamıdan tez sən başlamışdın.

**Rəhim** *(acı-acı gülümsəyir).* Yəqin ki, sən haqlısan, mənim heç vaxt qadınların məntiqindən başım çıxmayıb. Amma keçənə güzəşt deyiblər. Sən istədiyin adamla ailə qurdun, mən isə istədim-istəmədim, evləndim. İndi iki uşaq atasıyam.

**Güllü** *(bir qədər həsədlə).* Xoşbəxtsən?

**Rəhim.** Bir o əkizləri düşünəndə xoşbəxt oluram.

**Güllü.** Bəs arvadını? Əkiz dediklərinin anasını düşünəndə necə?

**Rəhim.** Arvadım doğuş zamanı uşaq üstdə öldü. İndi yeddi ildən sonra rastlaşıb, kədərli şeylərdən niyə danışırıq? Gəl səndən danışaq, necəsən? Gözəlliyin yerindədi. Geyim-kecimin də, maşallah! Buranın zəngin adamlarından heç seçilmirsən. Burada çoxdan yaşayırsan?

**Güllü.** Bilsən kimin arvadıyam, üst-başıma baxıb təəccüblənməzsən.

**Rəhim.** Nədi, yoxsa ərin milyonçudur?

**Güllü.** Mənim ərim Firudindir, Raqozin bazarının reketi.

**Rəhim** *(sarsılır).* Qara Fedya?

**Güllü.** Deməli, tanıyırsan. Çox gözəl.

**Rəhim.** Sən məni Qara Fedyaya dəyişmisən?

**Güllü.** Onda o, Firudin idi, Qara Fedya yox.

**Rəhim.** Deməli, sən bu gün bura – "Beryozka"ya Qara Fedyanın ad gününü qeyd etməyə gəlmisən. O elə dünən axşam səndən bir az danışdı, sonra da məni təkidlə bura – ad gününə çağırdı.

**Güllü.** Yəqin ki, sənə məlum olmayan, sonradan qazandığım keyfiyyətlərimdən danışıb.

**Rəhim.** Yox, əslində elə ciddi bir söz deməyib. Sadəcə...

**Güllü.** Qorxdun? *(gülür).* Məndən başqa hamı ondan qorxur.

*Rəhim susur.*

**Güllü.** Niyə danışmırsan? Qorxma, o, bizim nə vaxtsa tanış olduğumuzu bilməyəcək.

**Rəhim.** Mən əvvəlcə düşündüm ki, sən heç dəyişməmisən.

**Güllü** *(hirslə).* Mən düz yeddi ildir Fedyadan dərs alıram, Rəhim müəllim. Dəyişməsəydim, qəribə olardı, yəqin ki, hətta ölərdim də. Ya da bir başqasına qoşulub qaçardım *(pis-pis gülür).*

**Rəhim.** Qaçmaqda mahirsən. Nə isə! Keçmiş ola.

*Aşot iki qadınla gəlir. Aşot danışır, qadınlar gülürlər.*

**Aşot.** Ya qavaryu, axçi, poçemu abijayeş menya... ya što, ploxo rabotayu? *(Güllünü görür).* Ba, Gülya xanım, maddax... Raqimcan, ara san da galdin? Pedya sevinəcək... *(Aşot Rəhimlə əl tutur. Güllünün əlini öpmək istəyir. Güllü əlini geri çəkir. Aşot pərt olur).* Niyə içəri keçmirsiz, maddax, indi, boss da gələcək, bir qniloy iş vardı, məni də qovdu ki, yeri get restorana, qonaqları rahatla... Ha-ha-ha... *(gedə-gedə)* gəlin içəri.

**Güllü.** Gördün biz necə dərs alırıq, Rəhim müəllim? Budur əsl dərs, həyat dərsi!

**Rəhim.** Güllü xanım, biz bu həyatın dibində çapalayan adamciyəzlərik.

**Güllü.** Əgər adam o dibdən, o çamurdan çıxmaq istəmirsə, çapalamağın nə mənası?

**Rəhim.** Yox, mən buradan çıxacağıma inanıram, bilirəm ki, əvvəl-axır çıxacağam, bu qəfil görüş də qətiyyətimi birə on qat artırdı.

**Güllü** *(ılıq təbəssümlə).* Sən elə əvvəlki Rəhimsən. Romantika, pafos, bir az da aktyorluq, amma bunların heç biri Raqozin bazarında işə keçmir.

**Rəhim.** Mən bu görüşü necə gözləyirdim, necə ssenarilər qururdum, mənzərələr cızırdım, sözlər düşünür, dialoqlar quraşdırırdım. "Heyhat! Uzaq, uzaq, pək uzaq iştə bir orman... ".

**Güllü** *(tamam özgə və səmimi səslə).* Mən səni sevirdim.

**Rəhim** *(diksinir).* Sevirdin? Gülürsən mənə? Zavallı bazar alverçisinə istehza eləyirsən?

**Güllü.** Heç vaxt da unutmadım səni.

**Rəhim.** Bəs o? Firudin? Raqozin reketi? Qara Fedya?

**Güllü.** Onu soruşma, Allah aldı ağlımı başımdan. Alın yazısına pozu yox imiş.

**Rəhim.** Neynək, deməli, bəndə bilmir ki, yaxşı nədi, pis nədi.

**Fedya** *(gəlir).* Bəh-bəh! Zemlyak i zemlyaçka! Yoxsa uspet eləyib tanış da olmusunuz?

**Rəhim.** İki azərbaycanlı qərib yerdə bir-birinə rast gəlib tanış olmaya bilərlərmi, Fedya?

**Fedya.** Vot eta da! İman haqqı, tanımasaydım, elə bilərdim yüz ilin tanışı, dostusunuz. Brat, çox gözlətdim səni, hə? İman haqqı, bir padla var, anasını ağlatdım, bir qulağını da kəsib qoydum cibimə. Dedim haqq-hesabı çatdırarsan, gəlib amanatını apararsan. Biz belə oğlanıq ey, brat. Niyə keçmirsiniz içəri? Demişəm də sənə, bu Gülya xanım mənə göz verib, işıq vermir, çox qısqancdır, revnavat eləyir. Evdə uşağı tək qoyub gəlib məni izləməyə. *(Gülyanın yanağından öpür).* Keçək içəri, yəqin yığışıblar havayıyeyənlər. *(Gedirlər).*

*Kiçik pərdə qalxır.*

*Ortabab bir kafe. Bir neçə stola yemək-içmək düzülüb. Aşot bir qadınla rəqs edir, digər bir qadın stoldan nəsə götürüb çeynəyir, siqaret çəkir.*

**Aşot.** Qalya, blin, ne troqay stol! Posle tavo kak imeninnik pridyot. On je idiot.

**İkinci qadın.** Ladna, ne ari.

**Aşot.** Vot tak, maddax.

*Fedya, Güllü və Rəhim gəlirlər.*

**Fedya.** Aşot, iman haqqı, cırram səni.

**Aşot.** Niyə, maddax!

**Fedya.** Niyə? Çünki sən mənim tarixi düşmənimsən, nalivay! Elə bir iş görmüşəm ki, içib sərxoş olmağa haqqım var.

*Aşot qədəhləri doldurur.*

**Birinci qadın.** Ya ne budu.

**İkinci qadın.** Ladna, ne duri.

**Fedya.** Kimdi deyən içməyəcəm? Özbaşınadı bəyəm? Sevodnya vse budet pit, vse budet tansevat. Rəhim, brat, Gülyanın qədəhi boşdur.

**Rəhim.** Gülya xanım...

**Fedya.** Məşvərətsiz! Mənim ad günümdür, den rajdeniya. Hamı içməlidir. Əgər Gülya icazəsiz bura gəlibsə, deməli, içməlidir. Araq süz!

**Güllü** *(qədəhini götürür)*. Rəhim müəllim, doldur, şampan yox, araq.

**Fedya.** Əla! Buna deyərəm padruqa serdsa. Druzya, birinci badələrə tost lazım deyil: aqillər demiş, budem, ne zabudem! *(İçir.)* Rəhim, brat, paçka basma. Aşot, bratelnik içmir.

**Aşot.** İçəcək, maddax!

**Güllü.** İçin, Rəhim müəllim *(içir)*.

**Rəhim.** İçək də! Deyilən sağlığa. *(İçir)*.

**Fedya.** İndi də rəqs. Mənim havamı çaldır, Aşot.

**Aşot.** Oldu, maddax!

*Musiqi. Fedya çox şövqlə və gözəl oynayır.*
*Rəqs bitir, hamı əl çalır.*

**Birinci qadın.** A teper tanqo, medlennoe, belıy tanes.

**Fedya.** Varam də bu urus qızlarına, s nimi vsyo proşşe!

**İkinci qadın.** Ya Fedyu priqlaşayu.

**Birinci qadın.** A ya Romu. *(Rəhimi rəqsə dəvət edir.)*

**Rəhim.** Mən oynaya bilmirəm. Ya ne umeyu. *(Sonra oynamağa başlayır)*.

**Fedya.** Aşot qaldı arvadsız. Gülya xanım, sən də mənim qardaşımı, tarixi düşmənimizi çağır oynasın, yazıqdı. Onu mən adam eləmişəm.

**Aşot.** Kaneşna, maddax!

**Güllü.** Adam eləmisən, özün də oyna onunla.

**Fedya.** Gülya, deyəsən, qudurdun? Yadından çıxıb dünənki yumruq?

**Aşot.** Maddax, hirslənmə, davleniyan qalxar.

**Fedya.** Gülya, eşitmədin?

*Fedya təkbaşına araq içir.*

**Fedya.** Bunu da oynayanların sağlığına içirəm. Aşot! Gülya xanım qordaya jenşina! *(İçir).*

**Güllü** *(Aşot ona sarı gəlir. İstəyir ki, qolundan tutsun).* Rədd ol, oynamıram.

**Aşot.** Niyə, maddax! Pis oğlanam mən?

**Güllü.** Rədd ol, əclaf! *(Aşota şillə vurur).*

**Aşot.** Va! Axçi sən? *(Sözünü bitirmir).*

*Rəhim rəqs etdiyi qadından aralanıb Aşotun üstünə atılır və onu bir zərbə ilə yerə sərir.*

**Fedya.** Rəhim! Padla, sən mənim dostuma əl qaldırırsan? *(Rəhimin üstünə cumur).*

*Qadınlar qışqırışır. İşıq sönür və səs-küy, qışqırıq qaranlıqda davam edir. Qab-qaşıq, sınan nimçə səsi eşidilir. İşıq yanır. Fedya arxası üstə yıxılıb, tərpənmir. Hamı dövrələmə dayanıb donmuş vəziyyətdə Fedyanın meyitinə baxır. Rəhim əlindəki bıçağı arxasında gizlədir. Şok vəziyyətdədir.*

**Birinci qadın.** Kto ubil? Kto ubil yevo?

**İkinci qadın.** Boje upasi, on myortv!

**Aşot.** Pedya! Pedya! Ölüb! *(Qadınlara)* Smoytes, blin, vse smoytes! *(Qaçır)*. Spasaytes!

*Qadınlar da Aşotun dalınca qaçırlar. Rəhim əllərinə baxır, bıçağı atır, əvvəl tərəddüdlə, sonra qəti addımlarla gedir.*

**Güllü** *(əyilib Fedyanın üzünə baxır)*. Bu da axırı, bu da boş, mənasız həyatın sonu. *(Stolun üstündən süfrəni kəskin hərəkətlə dartır. Qab-qaşıq cingilti ilə döşəməyə tökülür. Süfrəni meyitin üzünə salır).*

*İşıqlar sönür.*

*Kirayə tutulmuş kiçik otaq. Əhədlə Rəhim söhbət edirlər.*

**Rəhim** *(əsəbi halda gəzinir, var-gəl edir).* Heç bilmirəm bıçaq haradan keçdi əlimə. Əslində mən o erməni it oğlunu vurmaq istəyirdim, Fedya qabağa keçib o dığaya havadarlıq etdi.

**Əhəd.** Sən bir sakit ol! Qəsdən vurmamısan ki? Olacaqdır da.

**Rəhim.** O qadın həmişə mənə bədbəxtlik gətirib. Bütün həyatımı alt-üst edib. İndi də belə.

**Əhəd.** Qadın kimdir? Kimi deyirsən?

**Rəhim.** Heç, bu barədə danışmaq istəmirəm. Mən bu günahla yaşaya biləcəyəmmi?

**Əhəd.** Gəl açıq danışaq, Rəhim. Kim idi Firudin – Fedya? Nə atasına oğul, nə bacısına qardaş, nə arvadına ər, nə də uşağına ata olub. Onları it yerinə qoymurdu.

**Rəhim.** Hər kim idi, insan idi. Mən özümü milisə təslim etməliyəm.

**Əhəd.** Axmaq olma, Rəhim, sən burada, Rusiyada milisə gedəcəksən? Bəs sənin balaların? Anan? Sən onları yiyəsiz qoymaq istəyirsən, axmağın birinə görə?

**Rəhim.** Mən axı vətənə qayıtmaq istəyirdim. Könüllü dəstələrə qoşulub Qarabağ uğrunda döyüşmək istəyirdim. Qırsaqqız olub yapışdı yaxamdan. Axı mən... *(Hönkürüb Əhədin boynunu qucaqlayır.)* Mənim əlim nahaq qana batdı, Əhəd...

**Əhəd.** Sakit ol, özünü ələ al... Qoy səhər açılsın, soyuq başla, ağılla götür-qoy edək...

*Telefon zəng çalır. Hər ikisi diksinir. Əhəd dəstəyi götürür.*

**Əhəd.** Bəli! Alo! Cəfər, sənsən? Necə?

**Səs.** Əhəd, radionu aç, "Azadlığa" qulaq as – Bakıya qoşun yeridilib.

**Əhəd.** Kim yeridib? Nə qoşun? Ermənilərin qoşunu var?

**Səs.** Ruslar! Sovet qoşunu. Tanklar Bakını viran qoyub, qan su yerinə axır.

*Telefonun dəstəyi Əhədin əlindən yerə düşür, amma telefondan gələn səs daha da güclənir. Bu, tank, güllə səsləridir. İnsan nalələri bir-birinə qarışır.*

*Rəhimlə Əhəd bu səslərdən şoka düşürlər, donub qalıblar.*

*Telefondan gələn səs zəifləyir, fona çevrilir. Ana gəlir və donub qalmış Rəhimlə üz-üzə dayanır.*

**Ana.** Oğlum, yağı düşmən başımıza müsibətlər gətirdi. Ürəyinin səsinə qulaq as, vicdanının hökmünü dinlə, qayıt gəl evimizə.

*İşıqlar sönür.*

*Pərdə*

## İKİNCİ PƏRDƏ

*Hərbi hospitalın həyəti. Kəşfiyyat vzvodunun komandiri Kamran Sabir ilə yaşıllığa bürünmüş çardağa tərəf gəlir, skamyada otururlar.*

**Sabir.** Kamran, gör nə gözəl istirahət yeridir?

**Kamran.** Doğrudan da, göz oxşayır, cənnətdir, cənnət.

**Sabir.** Bu güllərin hamısını Aslan həkim əkib. Boş vaxtlarında ancaq belə işlərlə məşğul olur. Rəhim də sağ olsun, buradan heç aralanmır, xəstələrlə tarixi söhbətlər edir, nə sualları olsa, həvəslə cavab verir.

**Kamran.** Rəhim çox savadlıdır. Deyirəm, Allahın kölgəsi adamın üstündən əskik olmasa, məqsədə çatmağa nə var...

**Sabir.** Yaxşı dedin, elli.

**Kamran.** Bilirsən Rəhimi nə vəziyyətdə gətirmişdik bura? Meyit də dirilərmiş.

**Sabir.** Möhkəm iradə, inam var onda, Kamran.

**Kamran.** Biz ermənilərlə dəyişdiyimiz meyitlərin üçünü də məscidə gətirdik. Mən bir qıraqda dayanıb ağlayırdım. Birdən yuyuculardan biri çaşqın vəziyyətdə gəldi ki, cənab komandir, şəhidlərdən biri nəfəs alır. O, ölümə can verməyən Rəhim idi. Aslan həkim baxan kimi dedi ki, bu ölən oğul deyil. Sevindiyimdən həkimi qucaqlayıb öpdüm. Halal olsun, dediyi kimi də oldu – Rəhim dirildi.

**Sabir.** Əhədin göz yaşları yadımdan heç çıxmır. Deyirlər, kişi ağlamaz, niyə ağlamır, kişi də insandı.

**Kamran.** Heyif, heyif ki, o cür igid ayaqlarını itirdi.

**Sabir.** Bəlkə Bakıda bir əlac elədilər. Dünən yola saldıq.

**Kamran.** Allah köməyi olsun. Aslan həkim özü haradandır? Qarabağ adamına oxşamır.

**Sabir.** Qonşu rayondandı. Müharibə başlayandan hospitaldadır. Dərdli adamdı, cavanca oğlunu itirib.

**Kamran.** Yəqin, döyüşdə həlak olub?

**Sabir.** Yox, Rusiyada öldürüblər. Bir oğlu var imiş kişinin, o da... Nə isə... Çox vaxt oddan kül törəyir.

**Kamran.** Hər halda, oğul itirmək ağır dərddir. Yadına gəlir, Ağaların oğlunu da Rusiyada öldürmüşdülər. Yazıq kişi havalandı.

**Sabir.** Axırıncı dəfə kənddə nə vaxt olmusan?

**Kamran.** Dörd ay bundan qabaq. Nənəm rəhmətə gedəndə.

**Sabir.** Mən də bu yaxınlarda doktordan üç günlüyə icazə alıb evə dəydim. Kənddə cavan qalmayıb. Hamısı döyüşdədir.

**Kamran.** Batalyonumuzdakı döyüşçülərdən elə on doqquzu bizim kənddəndir. İgid uşaqlardır. *(Saatına baxır.)* Yaxşı, mən gedim.

*Aslan həkim gəlir.*

**Kamran.** Həkim, xoş gördük.

**Aslan.** Salam, oğul, necəsən? Maşallah, baş leytenant oldun.

**Kamran.** Çox sağ olun, həkim. Keçən həftə artırdılar rütbəmi.

**Aslan.** Qələbə günü nə vaxt olacaq?

**Kamran.** Bilirsiniz, həkim, nizami ordu, müasir silah, texnika lazımdır. Ən başlıcası isə təcrübəli, müdrik bir sərkərdəyə ehtiyacımız var.

**Aslan.** Düz deyirsən. İndi Səməd bəy Mehmandarov kimi sərkərdə lazımdır ki, düşmənin anasını ağlatsın. Rəhim tarix-

çidir axı. Deyir, doktor, bu ermənilər torpaqlarımıza çoxdan dadanıblar. 1920-ci ildə 1918-ci ilin təkrarı olub. Dro Kananyan və Dəli Qazarın silahlı qiyamçıları Qarabağda görünməmiş vəhşiliklər törədiblər. Mehmandarovun sərkərdəliyi ilə Həbib bəy Səlimovun milli ordu hissələri aprelin 3-də düşmənə hücum edib. On iki gündən sonra Azərbaycan bayrağını Şuşada və Xankəndində dalğalandırıblar. Sərkərdənin döyüş bacarığı ilə yanaşı, vətəndaş qeyrəti də olmalıdır. Bax, bu Rəhim mənim çox xoşuma gəlir.

**Kamran.** Həkim, o, sizdən yerdən göyə qədər razılıq edir. Deyir, Aslan həkim mənə ikinci ömür bəxş edib. Yəqin ki, bilirsiniz. Döyüşçülərimizin qələbəsi Rəhimin başçılıq etdiyi kəşfiyyat qrupunun fəaliyyəti sayəsində mümkün olub. Həkim, indi ona elə ehtiyacımız var...

**Aslan.** Şükür Allaha ki, sağalıb. Uzağı on beş günə...

**Kamran.** On beş günə? Bəs o mənə dedi ki, hospitaldan üç-dörd günə çıxıram.

**Aslan.** Yaralarının çoxu daxildədir. O bilmir axı.

**Kamran.** İşimiz ağırlaşdı, həkim. Amma özü çox arxayın danışırdı. Deyirdi ki, bir həftəyə gəlirəm. Gələn kimi də kəşfiyyata gedəcəyəm. Deyir, ox yaradan çıxar, amma ədavət ürəkdən çıxmaz. Yaraqlı dığalardan heyifimi çıxmasam, sakit ola bilmərəm.

**Aslan.** Sizə baxıb sevinirəm. Yox, vətən yiyəsiz deyil. *(Saata baxır.)* Sabir, oğul, vaxtdır. Xəstələrə baş çək, İmranın sarğısını dəyiş.

**Sabir.** Oldu!

**Kamran.** Həkim, icazə versəydiniz, gedərdim.

**Aslan.** Yaxşı yol!

*Kamran və Sabir gedirlər. Aslan həkim siqaret yandırır.*

**Aslan.** Belimi sındıran oğul. Gərək sən də bunların cərgəsində olaydın. Öləndə də biləydim ki, nədən ötrü ölmüsən. Heç qatilin də bilinmədi ki, kimdi?

*Rəhim Aygünlə gəlir.*

**Aygün.** Ata, yenə fikirlisən.

**Aslan.** Qoca adam deyib-gülməz ki, qızım! Rəhim, necəsən? Yaraların incitmir ki?

**Rəhim.** Yaxşıyam, doktor. İştaham da düzəlib. Aygünün bişirdiyi bir qazan soyutmanı təkbaşıma yedim.

**Aygün.** Şişirtmə, əsgər.

**Aslan.** Üçbucaq kəndində işləyəndə sən yaşda idim. Vaxt olub bulaq başına çəkilib dörd nəfərə bir toğlunun kababını yemişik. Eh, yaxşı deyiblər: "Ötən günə gün çatmaz, calasan günü günə". Gedim xəstələrə baş çəkim. *(Gedir).*

**Aygün.** Sən bu cümə getmək istəyirsən?

**Rəhim.** Getməliyəm, Aygün, istəməsəm də, getməliyəm. Vzvodda adam çatışmır. İstirahət etməyə haqqım yoxdur.

**Aygün.** Yenə vicdan hökm edir?

**Rəhim.** Sən də ay sataşırsan ha mənə, inan bu vaxta qədər vicdanın hökmündən kənara çıxmamışam.

**Aygün.** Onda icazə ver, indiyə kimi sənə deyə bilmədiklərimi açıq söyləyim.

**Rəhim.** Deyəsən, ürəyin doludur...

**Aygün.** Nədən bildin?

**Rəhim.** Uşaq deyiləm ki? Mən də bir şey qanıram.

**Aygün.** Zivər xala sənə baş çəkməyə gələndə söhbət etdik. Yaxşı anan var. Elə uşaqların da xoşuma gəldi. *(Susur).*

**Rəhim.** Bəs niyə susdun? Danış.

**Aygün.** Ta nə danışım?

**Rəhim.** Anamı, uşaqlarımı təriflədin. Bəs mən? Mən necəyəm?

**Aygün.** Sən məndən tərif gözləyirsən?

**Rəhim.** Mənim çətinliyim çoxdur, Aygün. Təsəvvür elə, qadınsız qalmış ailə, yaşlı ana, bir cüt balaca uşaq. Özüm də otuz beş yaşımda, yaralı. İşim yox, pulum yox, döyüşdə bu gün öləcəyəm, yoxsa sabah, bir Allah bilir. Bunlar səni qorxutmur?

**Aygün.** Yox, qətiyyən qorxutmur. Sən igidsən, qəhrəmansan, ölümün gözünə dik baxmağı bacarırsan. Sənin yerinə özgə adam olsaydı, yaralanmağını bəhanə edib çoxdan getmişdi işinə-gücünə, əlində də yalan-gerçək bir əlil kitabçası. Sən qorxaq deyilsən, bu mənə bəsdir.

**Rəhim.** Məni ideallaşdırırsan.

**Aygün.** Bəlkə də... Amma bunun nəyi pisdir ki?

**Rəhim.** Deyəsən, mən həyatımın çox gözəl günlərindən birini yaşayıram. Amma... Bəs, həkim nə deyir?

**Aygün.** Həkim deyir ki, Rəhim artıq sağalır.

**Rəhim.** Onu soruşmuram. Mənim bir az əvvəl cızdığım portretim onu qorxutmur?

**Aygün.** El adətilə bunu həkimin özündən soruşmaq lazımdır, bax elə sabah, mənim ad günümdə.

**Rəhim.** Ad günündə? Desəm ki, ad günündən qorxuram, inanmazsan.

**Aygün.** Nahaq! Mən hədiyyə-zad istəmirəm.

**Rəhim.** Məsələ hədiyyədə deyil.

**Aygün.** Bəs nədədi? Axı, sən qorxan deyilsən?

**Rəhim.** Niyə? Qorxan vaxtım da olub. Rusiyada bir ad günündə gözlənilmədən əlimdən xata çıxdı. Onda bərk qorxdum, hətta ziyafət yerini tez-tələsik tərk etdim. O xata məni hələ də təqib edir.

**Aygün.** Maraqlıdır. O nə xata idi? Adam vurmusan? Bəlkə öldürmüsən? Rəngin qaçdı.

**Rəhim.** Yox, bu haqda danışmayaq, mən bu qəfil xatanın verdiyi əzabı heç kimlə bölüşmək istəmirəm.

**Aygün.** Yaxşı, onda gəl söhbətin səmtini dəyişək. Heç mənə də ad günü-zad lazım deyil. Onsuz da, qardaşımın ölümündən sonra atam ad günüdü, bayramdı – qeyd etmir.

**Rəhim.** Hə, eşitmişəm. Qardaşın hansı döyüşdə həlak olub?

**Aygün.** Kaş elə döyüşdə, cəbhədə həlak olaydı, biz də biləydik ki, Vətən yolunda qurban gedib. Rusiyada, elə iyirmi yanvar gecəsində öldürüblər onu. Qatilin kim olduğu da bilinmir. Uzaq, qərib ölkədə kimin nəyinə lazımdı ki, Firudin adlı bir azərbaycanlını kim qətlə yetirib?

**Rəhim** *(tutulur)*. İyirmi yanvar gecəsində? Firudin?

**Aygün** *(gözlərini silir)*. O vaxtdan şəklini cibimdə gəzdirirəm.

*Aygün Firudinin şəklini çıxarıb Rəhimə göstərir.*

**Rəhim** *(sarsılır)*. Budur sənin qardaşın?

**Aygün.** Nədi ki? Yoxsa sən onu tanıyırdın?

**Rəhim** *(tərəddüdlə)*. Yox, mənə elə gəldi... Deyəsən, görmüşəm onu, haradasa görmüşəm.

**Aygün.** Baxmadı atamın sözünə, öz-özünü məhv elədi, ailəsi də bədbəxt oldu. Bir qızı qalıb, yeganə təsəllimiz budur...

**Rəhim.** Bəs onun arvadı haradadır?

**Aygün.** Bir müddət Rusiyada qaldı, sonra atamın təkidi ilə qayıdıb gəldi. İndi rayonda, bizim evdədi. Bəlkə, bir azdan bura gəldi, o da hospitalda işləmək istəyir.

*Güllü əlində kiçik yol çantası gəlir.*

**Güllü.** Aygün!

*Aygün və Rəhim səs gələn tərəfə çönüb Güllünü görürlər. Aygün sevinir. Rəhim çaşqındır.*

**Aygün.** Güllü, sənsən? *(Qucaqlaşıb öpüşürlər.)* Gördün, Rəhim, yaxşı deyiblər, adını çək, qulağını bur. Güllü, bax, bu gözəl gəlindir, rəhmətlik qardaşımın arvadı, bəs doyşan hanı, Güllü?

**Güllü.** Dedim nənəsinin yanında qalsın, hospital, yaralı əsgərlər... Uşaq üçün bir az...

**Aygün.** Atam dilxor olacaq, uşağı görmək istəyirdi. Güllü, qəhrəman görmək istəyirsənsə, tanış ol: Rəhim. Peşəsi müəllim, işi isə düşmənə qan uddurmaqdır.

**Güllü** *(Rəhimə əl uzadır).* Çox şadam.

**Rəhim.** Mən də şadam.

**Aygün.** Siz söhbət edin, mən də atama xəbər verib gəlim. *(Qaçaraq gedir.)*

**Güllü.** Az vaxtda ikinci dəfədir ki, "tanış oluruq".

**Rəhim.** Nəyi pisdir ki. Təkrar – biliyin anasıdır.

**Güllü.** Əsl müəllim məntiqidir. Hə, təkrar – biliyin anasıdır. Yəni biliyimizi möhkəmləndiririk də...

**Rəhim.** Bilirsən, səni görən kimi nə düşündüm?

**Güllü.** Qorxdun açıb deyəcəyəm ki, bu qəhrəman Firudinin qatilidir?

**Rəhim.** Yox, onu mən özüm də deyə bilərəm.

**Güllü.** Amma deməmisən. Yəqin vicdanın öz hökmünü hələ verməyib!

**Rəhim.** İstehzaya ehtiyac yoxdur, mən indicə, sənin qabağınca bildim ki, Fedya məni ölümdən xilas etmiş Aslan həkimin oğlu imiş.

**Güllü.** Bir şeyi deməyi unutdun.

**Rəhim.** Məsələn, nəyi?

**Güllü.** Aslan həkimin qızı Aygün də qardaşının qatilinə – qəhrəman Rəhimə vurulub. Gözəl ədəbi intriqadır. Lap hind kinolarındakı kimi. Görürsən, institutda oxuduqlarımın hamısını Raqozin bazarında itirməmişəm.

**Rəhim.** Sözümü bitirə bilmədim.

**Güllü.** Nə deyəcəkdin?

**Rəhim.** Səni görən kimi düşündüm ki, həyatımda birinci və axırıncı dəfə sevdiyim yeganə qadınla hər görüşüm mənə yalnız bədbəxtlik gətirir.

**Güllü.** Yəni mənim ayağım belə ağırdır?

**Rəhim.** Bir neçə illik sevgimiz axırda sənin qoşulub qaçmağınla bitdi. Hamının gözündə fərsiz, zavallı, atılmış bir adama çevrildim. İkinci görüşümüz zamanı adam öldürdüm, qatil oldum, bu da üçüncü görüşümüz... Yaxşı heç nə gormürəm, Allah özü saxlasın.

**Güllü.** Hm... Qorxaq qəhrəman...

**Rəhim.** Boynuma alıram ki, qorxuram.

**Güllü.** Nahaq yerə. Əgər mən bu sirri ürəyimdə saxlayıb indiyə kimi heç kəsə açmamışamsa, deməli, bundan sonra da açmaya bilərəm. Bir də ki, mən bu sirri saxlamaqla sənə qarşı elədiyim günahımı yuyuram. Əslində Firudin çoxdan ölmüşdü. Sənin öldürdüyün isə neçə adamın qanına bais olmuş reket Fedya idi.

**Rəhim.** Səni başa düşməkdə həmişə çətinlik çəkmişəm.

**Güllü.** Başa düşməsən də sevmisən. Onda orada, o xaraba kafedə də bunu sübut etdin. Amma sənə mən yox, Aygün kimi sədaqətli qız lazımdır. Düz tapmısan. İndi isə əlvida, hesab elə ki, üçüncü görüş olmayıb. Sən yəqin ki, vicdanının hökmü ilə yenə də cəbhəyə gedəcəksən. Mən də hövsələm çatana qədər qalıb yaralılara qulluq edəcəyəm.

Biz bir-birimizi tanımırıq, heç əvvəllər də tanış olmamışıq. Əlvida! *(Gedir).*

**Rəhim.** Niyə bu qadın məni kabus kimi izləyir? Niyə onu görəndə qəlbim alt-üst olur? Niyə? Niyə?

*Rəhim bir müddət səhnədə var-gəl edir. Hiss olunur ki, qəti qərara gəlmək istəyir. Nəhayət, skamyada oturur. Cib dəftərçəsini və qələmi çıxarıb tələsik nəsə yazır. Ananın xəyalı asta addımlarla ona yaxınlaşır.*

**Ana.** Nə yazırsan?

**Rəhim.** Mən hər şeyi etiraf etməliyəm, ana. Daha bu sirri gəzdirə bilmirəm. *(Yazmaqda davam edir.)*

**Ana.** Axı sənin təqsirin yoxdur. O, özü ermənini qorumaq üçün özünü bıçağın altına verdi. Özün ki mənə demisən.

**Rəhim.** Fərqi yoxdu, ana. İnsanı mən yaratmamışam ki, mən də öldürəm. Cəzamı onu yaradanın özü verməlidir.

**Ana.** Bəs düşməni öldürəndə necə? Onda nə düşünürsən?

**Rəhim.** Onda mən hiss edirəm ki, bütün varlığım düşmənə nifrətlə doludur. Torpaqlarımıza, namusumuza-qeyrətimizə yağı kəsilmişlərə güllə atmaq cinayət deyil, qəhrəmanlıqdır, ana.

**Ana.** Bəs bu millətdən olan, bu vətənin çörəyi-suyu ilə böyüyən, sonra da bu millətə, bu vətənə arxa çevirənlər, ermənıyə dayı deyənlər cəzasız qalmalıdır?

**Rəhim.** Bilmirəm, ana, bilmirəm? Bu mənim üçün bəraət ola bilərmi? *(Yazmaqda davam edir.)*

**Aygün** *(qaçaraq gəlir).* Nə yazırsan, Rəhim?

**Rəhim** *(cəld qalxır və yazdığını cibində gizlədir).* Heç! Ta yazmıram, bitdi. Elə-belə... cızma-qaradır.

**Aygün.** Bəlkə, sevgi məktubudur?

**Rəhim.** İndi kimdi sevgi məktubu yazan? Epistolyar janr çoxdan dəbdən düşüb.

**Aygün.** Güllünün çox xoşuna gəlmisən, deyir ciddi adamdır sizin qəhrəman. Niyə belə birtəhərsən? Yaran ağrıyır?

**Rəhim.** Mənim daha yaram yoxdur, sağalmışam. Sabah gedirəm.

**Aygün.** Nə danışırsan, Rəhim? Nə oldu birdən-birə? Heç atam buraxar ki, gedəsən? Hələ on beş gün də burada saxlamaq istəyir səni, deyir, qəlpə fəsad verə bilər. Özü də süfrə açmışıq, səni yeməyə dəvət edirik. Güllü yaxşı yarpaq dolması gətirib.

**Rəhim.** Yox, Aygün, bir özgə vaxt. Mən getməliyəm.

*Kamran hövlnak gəlir.*

**Kamran.** Rəhim, yaman pis vəziyyətə düşmüşük. Sizdən ayrılan kimi yola çıxdım. Qala kəndinə çatmamış ratsiya ilə xəbər aldım ki, düşmən Şiştəpəni tutub meşə yolu ilə Hacılıya hücuma keçib. Evləri yandırır, adamları qırır, mal-qaranı qabaqlarına qatıb aparırlar. Vzvodda adam azdır, özləri də yola nabələd. Ümid sənə qalıb.

**Aygün.** Siz nə danışırsınız, Kamran, Rəhim hələ sağalmayıb.

**Rəhim.** Kamran, gözlə gəlirəm. Bu saat gəlirəm.

**Kamran.** Sağ ol, Rəhim, maşın qapıdadır. *(Gedir).*

**Aygün.** Rəhim, axı sən... Mən...

**Rəhim.** Aygün, mən getməliyəm, bütün yaxşılıqlarınıza görə çox sağ olun. Həkimə də mənim adımdan təşəkkür elə. Özü də indi demə, çörək üstədir, iştahını pozma.

**Aygün.** Mən səni başa düşürəm, Rəhim, elə ona görə də... *(Sözünü bitirmir).*

**Rəhim.** Söhbətə vaxt yoxdu, Aygün. Təəssüf, çox təəssüf ki, sənə gec rast gəldim... Səni vaxtında görsəydim, həyatım başqa cür ola bilərdi. İndisə... Əlvida!

**Aygün.** Əlvida niyə, Rəhim. Əlvida niyə? Sabah mənim ad günümdür, səni gözləyəcəm. Sən mənim ən istəkli qonağım olacaqsan. Sən mütləq gəlməlisən, sən mütləq qayıtmalısan, sənin anan var, bir cüt balan var. Nəhayət... *(Susur).*

**Rəhim.** Elədir, Aygün, amma indi məni vətən gözləyir, darda qalan vətən.

**Aygün.** Sən mənə heç nə demək istəmirsən?

**Rəhim.** Mən səni sevə bilərdim.

**Aygün.** Deməli, mən nəyəsə ümid eləyə bilərəm?

**Rəhim** *(Aygünü yanağından öpür).* Əlvida! *(Cibindən bükülü kağız çıxarır.)* Bu kağızı sonra oxuyarsan, mən gedəndən sonra. *(Getmək istəyir).*

**Aygün** *(onu saxlayır).* Rəhim... Rəhim! *(Hönkürüb boynuna sarılır.)*

**Rəhim** *(onu ehmalca özündən aralayıb, göz yaşlarını silir).* Mən getdim. *(Gedir).*

**Aygün** *(arxasınca qışqırır).* Rəhim, mən səni sabah gözləyəcəyəm... Hər gün gözləyəcəyəm! *(Ağlayır).*

*Güllü gəlir və Aygünün ağladığını görür.*

**Güllü.** Aygün! Sən ağlayırsan? Nə olub, Rəhim hanı?

**Aygün.** O getdi, Güllü.

**Güllü.** Hara getdi?

**Aygün.** Tapşırıqla getdi, cəbhədə çətin vəziyyət yaranıb, düşmən hücuma keçib.

**Güllü.** Bəs sən niyə ağlayırsan?

**Aygün.** Mən onu sevirəm, Güllü. *(Güllünü qucaqlayıb hönkürür).* Sevirəm...

**Güllü** *(onu özündən aralayır).* Bilirəm. Bəs o nə kağızdır elə?

**Aygün** *(elə bil kağız birdən düşür yadına və tələsik açır).* Rəhim verdi. Dedi ki, mən gedəndən sonra oxuyarsan.

**Güllü.** Neynək, oxu. *(Gedə-gedə öz-özünə)* mən onu tanıyıram. Mütləq vicdanının hökmünə qulaq asacaq... *(Gedir).*

*Aygün kağızı tələsik oxuyur və birdən dayanır.*
*Sarsıldığı hiss olunur. Kağız əlindən yerə düşür.*

**Aygün** *(sakit, pıçıltıyla).* Qardaşımın qatili? Rəhim? Ola bilməz, bu ola bilməz...

*Aslan həkim gəlir, arxasınca da Güllü.*

**Aslan.** Aygün, niyə buraxdın Rəhimi? Axı o hələ sağalmayıb.

**Aygün** *(diksinir).* Mən onu saxlaya bilmədim. *(Yerə düşmüş məktubu cəld götürür və əlində xışmalayır).* Ata, mən onu sevirəm. *(Daha bərkdən)* Mən onu sevirəm, ata!.. *(Gedə-gedə)* Mən onu sevirəm... Mən onu sevirəm... *(Gedir).*

*Aslan həkim təəccüblə Güllüyə baxır,*
*sonra Aygünün arxasınca bir addım atıb dayanır.*

*İşıqlar sönür.*

*Meşə. Bir ağacın altında iki erməni yaraqlısı – Karo və Akop yeyib-içir. Üst-başı cırıq bir qız onlara qulluq edir, sonra bir qırağa çəkilir. Qız görünməyə də bilər.*

**Karo.** Ara, Akop, deyirəm "Böyük Ermənistan" yaradırıq ha, onda sən nə olacaxsan?

**Akop.** Bakı mənim olacax, mən də onun böyükü.

**Karo.** Yadındamı, biz hələ məktəbdə oxuyanda türk dilində danışardıq. Atam deyərdi, bala, bu dili yaxşı öyrənin,

vaxt gələr sizə lazım olar. İndi gördün, kişi yekəbaş adamdı, hər şeyi bilir. Böyük adam gərək bir neçə dil bilsin... Deməli, sən Bakını götürürsən?

**Akop.** Mənim çoxdankı arzumdu. Babam Avanesin on səkkizinci ildə Bakıda zavodu olub.

**Karo.** Sən belə elə.

**Akop.** Nətəhər eləyim?

**Karo.** Sən Gəncəni götür.

**Akop.** Yox, ara, Gəncə Aşotundu. Babası orada anadan olub, sonra köçüblər Martuniyə.

**Karo.** Belə ki görürəm, mənə Stepanakertdə bir mikrorayon qalacaq. *(Qəhqəhə ilə gülür və araq süzür. Çörək gətirən qıza)* Bu gün bayramdır, axçi, kepin açılsın deyə, bəlkə, gəlib bizimlə yüz-yüz gedəsən...

**Akop.** Ara, burax onu, qaldır arağı görək. Yeri otur orada, axçi. Sağ ol, Karo. *(İçirlər.)*

*Qız dinməzcə göstərilən yerdə oturur.*

**Karo.** İndi Aşot gəlib bunun dilini açacaq. Bu, onunkudur.

**Akop** *(qıza).* İnandın ki, biz musurmanıq? *(gülür.)* Səhər inanmışdın, haaa?

**Karo.** Canlarını götürüb qaçırdılar, Akop canı, sən politik imişsən. Necə dedin?

**Akop.** Dedim, it uşağı ermənilər qabaqdan yolu kəsiblər, bu tərəfdən gedək.

**Karo.** Kişi də dedi, oğul, sizi bizə Allah yetirdi. Sonra da erməniləri söydü.

**Akop.** O türkcə söydü, biz də ona erməni kimi cavab verdik.

**Karo.** Aşot ağzını açıb danışsaydı, dərhal bilərdilər ki, erməniyik.

**Akop** *(gülür).* Biz onlara atəş açan kimi Aşotun dili açıldı. *(Qıza)* Maralcan, onda sən birinci qışqırdın haaa, ermənilər? Malades, cana, malades.

*Qız ağlayır.*

**Karo** *(qıza).* Ağlama, axçi, səni ki, öldürmədik. Adın nədir?

**Akop.** İndi əsl erməni gələndə adını deyəcək. Biz əl ermənisiyik. *(Qəhqəhə çəkir. İçirlər.)* Bəs bu niyə gecikir? Bəlkə...

**Karo.** Ona heç nə olmaz. Dəyirmanın yuxarısından ölü salsan, aşağısından diri çıxar.

**Akop.** Deyirəm, bəlkə, musurman əlinə keçib.

**Karo.** Yox, ara, sakitlikdir, atışma səsi də gəlmir.

**Akop.** Onların razvedçikləri buraları yaxşı tanıyırlar.

**Karo.** Qorxma, Vartan demişkən, razvedçikləri harada olsalar, oxuyurlar. *(Qıza tərəf baxıb oxuyurlar.)* Azizinam, Qarabağ...

**Akop.** Ay oxudun ha. Bizim məktəbdə Sahib vardı. Həmişə zarafatla deyərdim, Sahib, Qarabağ bizimdi. O da deyərdi ki, bir nəfər qanı təmiz olan erməni tap, o şikəstəni adam kimi oxusun, onda Qarabağ həqiqətən sizindir.

**Karo.** Başa düşmədim, yani təmiz nə deməkdir?

**Akop.** Deyirdi Qarabağ erməniləri musurmandan əmələ gəlmədilər.

**Karo.** Əlimə düşəydi... *(Qulaq asır.)* Səs gəlir, yəqin ki, Aşotdur. *(Bir an gözləyirlər, səs kəsilir.)* Yox, deyəsən, dovşan qaçdı.

*Rəhimlə Kamran ətrafı yaşıl pöhrəlik olan gövdəli bir ağacın arxasında görünürlər. Onlar erməniləri pusurlar.*

**Akop.** Deyirəm, içək dostumuz Aşotun sağlığına. Sovet dövrü olsaydı, bu davada ona geroy adı verərdilər.

**Karo.** Düz deyirsən. İçək Aşotun sağlığına. Nə qədər düşmən gəbərdib. Bu qızın atasını avtomat səsinə necə oynadırdı?.. *(Qız ağlayır.)* Ağlama, axçi, indi ölən adamlar xoşbaxtdır.

*İçirlər.*

**Aşot** *(sərxoş halda gəlir).* Ehey... Pobeda za nami! Ara, davay, nalivay.

**Karo.** Qaspadin general...

**Aşot.** Hala olmamışam, ara, spase. Tut arağı tapmadım. *(Zümzümə edə-edə əlində araq qıza yaxınlaşır.)* Adı nədir?

**Karo.** Axçi, canın yanmasın, adını soruşur da. *(Qız qorxur və oturduğu yerdə büzüşür.)*

**Aşot.** Qorxma, səni yemiyəcəm. *(Yenə oxuyur.)* Tut arağı, tut arağı...

**Akop.** Davay, getdik. *(İçirlər.)*

**Aşot.** Karocan, bir sürü qoyun gətirmişik, fermadadır ha... Gedib birini gatirirsiz. Kasax, kep edak. Tez galin. *(Karo və Akop gedirlər. Aşot yenə oxuyur, sonra qıza yaxınlaşır.)* Məndən qorxma, sani yemaram, maral. Kişiyam, lap ermani kişisi. *(Üst paltarını çıxarıb kənara atır, tapançasını götürüb qıza göstərir.)* Bunu görursan, bax belə, uce qotovo! Gördun ki, hamısına tak... parat, part, tarak, amma sana daymadim, ozuma saxladım, maralcan. *(Rəhim və Kamran görünürlər.)*

**Rəhim.** Bu əclafı çoxdandı axtarıram. Allah məni hər arzuma belə yetirsin.

**Kamran.** Dayan, Rəhim, səs salma, mən bizimkiləri çağırım. Bunlar tək deyillər. Bizim daha vacib tapşırığımız var. Sən səbir elə.

**Rəhim.** Bu əclafı gəbərtməsəm, ürəyim soyumaz, Kamran. O mənim əlimdə ölməlidir. Bu əclafla köhnədən haqq-hesabım var.

**Kamran.** Nə deyirəm ki, Rəhim, mən də onun qanına susayıram, amma bir az hövsələ elə. Mən indi qayıdıram. Şikarını gözdən qoyma. *(gedir.)*

**Aşot** *(qızın əlindən tutub, yerdən qaldırır).* Nədi, qorxursan? Drajiş? İstəyirsən lap buşlatımı sərim yerə, istəsən lap...

**Qız.** Burax məni! *(əlindən çıxır.)* Yaxın gəlmə! (*Əlinə keçən odun parçasını götürür*).

**Aşot** *(qəhqəhə çəkir).* Xoşum gəldi sandən, ona görə öldürmadim, sən gərək mana sağ ol deyasan, yoxsa... *(Qızın üstünə yeriyir).* Görürsən tapançanı da qoydum qırağa. *(Qıza sarı cumur və qəfil onun odun olan əlindən yapışır).* Dali ceyran, yaxın gal.

**Qız** (*qışqırır*). Dədəəə...

**Rəhim.** Aşot! *(Avtomatını Aşota tərəf tuşlayır).*

**Aşot.** Karo, sənsən? (*Qızı buraxır*). Ara, nə tez galdin?

*Qız fürsətdən istifadə edib qaçır.*

**Aşot.** Va! Axçi!

**Rəhim** (*ağacın arxasından çıxır və qıza sarı qaçmaq istəyən Aşotla üz-üzə gəlir*).

**Aşot.** Vay astuvas! Raqimcan, ara, bu sansan? (*Qaçmağa hazırlaşır*).

**Rəhim.** Dayan! *(Avtomatı Aşota sarı tutur.)* Mənəm, əclaf! Mənəm, binamus, özgə malına göz dikən biqeyrət! Səni göydə axtarırdım, yerdə əlimə düşmüsən, yenə də oğurlayırsan, yenə də cığallıq eləyirsən, amma ta bitdi sənin murdar həyatın!

**Aşot.** Öldürmə, Raqimcan, sana sözüm var, atma.

**Rəhim.** O bədbəxt qızın atasını necə qətlə yetirmisən? Belə? (*Güllәni Aşotun ayaqları altına yağdırır. Aşot güllələr yağdıqca, bir növ, rəqs hərəkətləri edir.)* Oyna, rəqs elə, amma bəsdir, oynadın mütrüf kimi, gəbər, öl! *(Vurur).*

**Aşot.** Ara, araaa... *(yıxılır).*

*Karo və Akop qaçaraq gəlirlər və Rəhimə atəş açırlar. Rəhim yıxılır.*

**Karo.** Aşot!

**Akop.** Aşotcan! Bu əclaf vurdu səni? *(Avtomatı yaralı Rəhimə tərəf tutur).*

*Kamran bir neçə əsgərlə gəlir və Karo ilə Akopu güllələbaran edirlər.*

**Kamran.** Siz ətrafı yoxlayın! Rəhim! Rəhim, sən nə etdin, Rəhim? Niyə tələsdin? *(Rəhimin başını qaldırır.)* Aç gözlərini, qardaşım, biz hələ düşmənə qan uddurmalıyıq, aç gözlərini!

**Rəhim.** Biz qələbə çalacağıq, Kamran, biz vətəni bu tülkü düşməndən, goreşən yağıdan azad edəcəyik. Mən bir az... *(danışa bilmir.)*

**Kamran.** Əlbəttə, Rəhim, biz hələ qisas alacağıq, biz hələ... *(Ağlayır).* Biz qələbə çalacağıq, torpaqlarımızı azad edəcəyik.

**Rəhim.** Anamdan, körpələrimdən nigaran gedirəm, Kamran... Aygünə de ki... Aygünə de ki... de ki... Uşaqları yetimxanaya verməsin... *(Ölür).*

**Kamran.** Əlvida, əziz dost, əlvida, qəhrəman qardaşım. *(Rəhimin gözlərini qapayır).*

*Bir neçə kəşfiyyatçı onlara yaxınlaşır və Kamranın köməyilə Rəhimin üstünə bayraq sərirlər.*

**Kamran.** And içirəm ki, sənin qanın yerdə qalmayacaq, Rəhim. Biz qisas alacağıq, sənin arzularını yerinə yetirəcəyik, bu vətənə həqiqi oğul olacağıq. Vzvod, hücuma hazırlaş! Sənin

kimi yüzlərlə qəhrəman şəhidin hayıfını düşməndə qoymayacağıq! *(Ayağa qalxır, göz yaşlarını kəskin hərəkətlə silir).*

*Çağırış mahnısı səslənir.*

*Əsgərlər Rəhimin cənazəsi arxasında sıraya düzlənirlər. Mahnı səsləndikcə səhnəyə Ana, Aslan, Aygün, Sabir, Əhəd, Güllü və qız gəlirlər, onlar cənazənin yanında dayanırlar. Mahnı səslənməkdə davam edir.*

*İşıqlar sönür.*

*Pərdə*

SON

# *Ləyaqət*

*(İkipərdəli pyes)*

*Faşist Almaniyası üzərində qələbənin 60 illiyinə həsr olunur.*

### *İştirak edənlər:*

**Ümid** – *həkim*
**Nahidə** – *onun arvadı*
**Fatma** – *Ümidin nənəsi*
**Mirkərim ağa** – *kəndin ağsaqqalı, din xadimi*
**Ziyad** – *kənd poçtunun müdiri*
**Səlbi arvad** – *şəhid anası*
**Nahid** – *Ümid və Nahidənin oğlanları*
**Qadın** – *Nahidəyə himayədarlıq edən şəxs*
**Tibb bacısı** – *Umidin həkim olduğu rayon xəstəxanada çalışır*
**Zabit** – *Sovet ordusunun zabiti*
**Kolya**
**Yaralı əsgər**
**Yaşlı əsgər**
**Şeydabəy** } *Sovet ordusunun əsgərləri*
**Sanitar** – *cəbhədəki səhra xəstəxanasında Ümidlə bərabər çalışır*

*Hadisələr XX əsrin 1941-1948-ci illərində cərəyan edir.*

## PROLOQ

*Pərdə açılır. Səhnənin bir tərəfində 1941-1945-ci illər Böyük Vətən müharibəsinin rəmzi olan "Ana Vətən çağırır!" plakatı, digər tərəfində isə üzərində "Qələbə ordeni" çəkilmiş kiçik kətan parçası görünür.*

*Müharibə dövrünün çağırış mahnılarından biri səslənir. Tamaşanın bütün iştirakçıları səhnəyə gəlib üzərində "Qələbə ordeni" çəkilmiş kiçik kətan parçasının önündə dayanırlar. Əllərdə qırmızı qərənfillər var. Aktyorlar kətan parçasının mərkəzi hissəsində Heydər Əliyevin projektorla gur işıqlandırılan portretinə baxırlar. Fonoqram ilə mətn səsləndirilir.*

**Mətn.** Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.

***Heydər ƏLİYEV***

*Musiqi güclənir. İştirakçılar gedirlər.*
*Kiçik kətan parçası qalxır. Musiqi hələ bir müddət də davam edir.*

## BİRİNCİ PƏRDƏ

*Kürsülü kənd evi. Evin artırmasından həyətə açılan pilləkən. Talvar. Talvarın altında ağacdan düzəldilmiş sadə skamya, qabağında elə eyni cür taxtadan stol var. Talvarın içərisində saralmış üzüm yarpaqları gözə dəyir. Hiss olunur ki, payızın birinci ayıdır.*

**Nahidə** (*deyinə-deyinə gəlir*). Davanın başladığı üç-dörd ay olar, amma artıq hər şey qəhətə çıxıb. Nə nöyüt var, nə duz, nə də kibrit. Yaxşı ki, Ağagil ehtiyatlı tərpəniblər. Yoxsa, nə edərdik? *(Eyvana çıxır, dirəkdən asılmış neft lampasını yandırır).* Vurğunu güclü gəlmiş nemes də qıra-qıra gəlir. *(Eyvandan harasa boylanır).* Umud harada qaldı?

**Ziyad** *(səsi gəlir).* Umud! Umud! Ay Umud!

**Nahidə** *(təşvişlə).* Mürdəşir yumuşun səsidi. Xeyirliyə gəlməz. Görəsən, nə bəd xəbər gətirib?

**Ziyad** *(səsi yaxınlaşır).* Umud, ay Umud!

**Nahidə.** Boy, bu niyə bağırır? *(Astadan)* Görüm, səsin o dünyadan gəlsin.

**Ziyad** *(gəlir).* Nahidə, axşamın xeyir.

**Nahidə.** Axşamın xeyir.

**Ziyad.** Niyə hay vermirsən, az? Umud hanı?

**Nahidə** *(narahat halda).* Nə bilim, işdə olar da. Xeyirdimi?

**Ziyad.** Az, əvvəl adama "Xoş gəlmisən!" – deyərlər. Bəs, Fatma xala haradadı?

**Nahidə.** Ağagildədi, indi gələcək. Evdə məndən başqa heç kəs yoxdu, sözünü de.

**Ziyad.** Deməli, təksən?

**Nahidə.** Nə demək istəyirsən, Ziyad? Keç mətləbə.

**Ziyad.** Keçim də. Umud yoxdu, Fatma arvad da yoxdu, deməli, təksən də. (*Səsini süni surətdə yumşaldır*). Qadası...

**Nahidə.** Allahı olan bəndə heç vaxt tək olmur.

**Ziyad.** Deməli, sən də Mirkərim kişinin sayıqlamalarına uymusan, hə? Heyif səndən, gül kimi ömrünü çürütdün, zay elədin.

**Nahidə.** Ağsaqqal kişini bihörmət eləmə, Ziyad, sözün var, de, yoxdu, çıx get. Kişi olmayan evə naməhrəmin gəlməsi şəriətə görə günahdır!

**Ziyad.** Bəs qəlb qırmaq necə, günah deyil?

**Nahidə.** Ziyad, başımı qatma, ocaq qalamalıyam.

**Ziyad.** Hə, yeri ocaq qala, paltar yu, kəhrizdən su daşı. Niyə Tanrına təpik atdın? Aldandın Umudun diplomuna, ağ xalatına. Mirkərim kişinin sayıqlamalarına. Allah elə, qismət belə. Bəyənmədin bizim ikimərtəbəli imarətimizi. İndi çək cəzanı.

**Nahidə.** Ziyad, sən istədin, mən istəmədim. Qurtardı, getdi də. Deyirsən, hər şeyi açım Umuda deyim, biabır eləyim səni, el içində rüsvay olasan? Niyə başa düşmürsən ki, mən ərli qadınam. Üstəlik, Umuda dost deyirsən, üzünə gülürsən.

**Ziyad.** Bəs ərin olmasa?

**Nahidə.** Nə demək istəyirsən, Ziyad? Saman altdan su yeritmə, ürəyim üzüldü. Niyə mənim... (*şübhə ilə*) Umudu bu şər vaxtı neynirsən axı?

**Ziyad.** Heç, yağlı bir kağız gəlib ona.

**Nahidə.** Nə kağızdı elə, Ziyad?

**Ziyad.** Sənlik deyil, şəxsən özünə verməliyəm. Qol çəkib götürməlidi.

**Nahidə.** Ziyad, nə kağızdı axı? Niyə məni qorxudursan?

**Ziyad.** Kağızdı da, nəyindən qorxursan, it deyil qapsın, ilan deyil çalsın...

**Nahidə.** Ziyad, hamının səndən qorxması əbəs deyilmiş.

**Ziyad.** Məndən? Mən kiməm ki, məndən qorxurlar. Kənd poçtunun dilsiz-ağızsız müdiri, poçtalyon, fağır Ziyad yoldaş. Sovet sədri mən deyiləm ki, məndən qorxalar. Dayımdı, ondan qorxurlar, milis də əlində, divan da, möhür də. Cəbhədən qaçanların da ki, qənimidi.

**Nahidə.** Bizim kənddə cəbhədən qaçan var?

**Ziyad.** Var, niyə yoxdu. Hamısı da dayıma məlumdu.

**Nahidə.** Əgər məlumdusa, niyə ölçü götürmür? Məsələn, səni...

**Ziyad.** Nahidə, mənə sataşırsan ha! Birincisi, öz işinlə məşğul ol, dağ boyda kişinin adını hallandırma. İkincisi, bilmirsən ki, mənim ayaqlarım şikəstdi? Altı yastıdı...

**Nahidə.** Eybi yoxdu, inşallah, gedərsən, bir az təpik döyərsən, düzələr. *(Üzünü yana çevirib astadan).* Qozbeli qəbir düzəldən kimi.

**Ziyad.** Elə o vaxt da məni buna görə istəmədin. Dedin əsgər getməyən adam mənim tayım deyil, niqodnıdı, nə bilim nədi. Adıma olmazın söz çıxartdın.

**Nahidə.** Yaxşı, yaxşı! Olan olub, keçən keçib. Köhnə palan içi tökmə. Özün də çıx get. Kağızı da səhər aparıb xəstəxanada Umuda verərsən. İndi Səlbi arvad gəlib çıxar, qorxar.

**Ziyad.** Nədən qorxar, az? Mən adamyeyənəm? Yetmiş yaşında arvadı neynirəm. Yesəm, elə səni...

**Nahidə.** Ziyad! *(Onu itələyə-itələyə qapıya sarı aparır)*. Rədd ol, buradan. Özünü axmaqlığa qoyma, yekə adamsan.

**Ziyad.** *(Nahidənin əlindən çıxır).*Az, bir dayan görüm! Bu camaat məndən niyə qorxur? Məgər buynuzum-zadım var?

**Nahidə.** Bilmirsən niyə qorxurlar? Əsgər ailələrinə qara kağızı, ölüm-itim xəbərini sən gətirmirsən?

**Ziyad.** Pah, dədənin evi yıxılsın! Bunlar nə qədirbilməz adamlardı!

**Nahidə.** Nədi, ay qaraxəbər, sən gətirmirsən o kağızları?

**Ziyad.** Elədi, mən gətirirəm. Bəs nə edim? Balaca uşaqdan, ağızından süd iyi gələnlərdən göndərim? Davadı, yaxşı xəbər də olacaq, pis xəbər də. Bu məndən asılı deyil ki... Qara kağızları oradan – odun-alovun içindən göndərirlər.

**Nahidə** *(hərəkətindən peşmançılıq çəkir).* Bəs o nə kağızdı?

**Ziyad.** Eh, Nahidə, Nahidə! Məndə o qədər kağız var ki! Hansını deyirsən? Poçt müdirinin hər yeri kağızdı da. Cibləri də, qoltuqlarının altı da, papağının içi də. Məktub məktub dalınca gəlir.

**Nahidə.** Ziyad, sən yaxşı bilirsən ki, mən Umuda gələn kağızı soruşuram.

**Ziyad.** Onu yalnız Umudun özünə verəcəyəm, əlbəəl. Gedim, bir azdan gələrəm, çünki kağız vacib kağızdı. Bu gün verilməli, vaxtı-vədəsi qeyd olunmalıdır. *(Gedir).*

**Nahidə** *(rəngi-ruhu qaçıb).* Evim yıxıldı... *(Skamyada əyləşir).* Pavestkadı... Yoxşa, başıbatmış elə sevinməzdi. *(Əlləri ilə üzünü örtür).* Pərvərdigara, məni peşman eləmə... *(Əlləri ilə qarnını tutur).* Hələ dünyaya gəlməmiş balamı yetim qoyma...

*Bu zaman səhnənin arxasından həzin və qəmli musiqi, sonrada ürəyi parçalyan fəryad dolu səs eşidilir. Səs getdikcə yaxınlaşır. Bu, Səlbi arvadın səsidir. Bir azdan Səlbi arvad səhnədə görünür və çağırdığı bayatının sözləri aydın şəkildə eşidilir.*

**Səlbi arvad.**

*Mən aşiq, qəm daşıyan,*
*Od vurdum, qəm daşı, yan.*
*Kimsə olmaz mənim tək –*
*Dərd çəkib, qəm daşıyan.*

*Səlbi arvad bayatını söyləyəndən sonra səhnəni yavaş addımlarla tərk edir. Nahidə yenidən səhnədə görünür.*

**Nahidə.** Yazıq Səlbi arvad, oğlunun qara xəbərini alandan bəri yerə-göyə sığmır. Elə hey oğlu gəzən yolları, bağ-bağçanı dolaşır, bayatı çəkir, ağı deyir. Fəryadı dilsiz-ağızsız daşları ağladır, naləsi ürəkləri parçalayır. *(Əllərini göyə qaldırıb Allaha yalvarır).* İlahi, sən məni bəlalardan hifz elə, Mirkərim ağanın cəddinə bağışla. İndi-indi gün görürəm, söndürmə çırağımı. Dedilər ana laylası baldan şirindi, dadmadım. Ata, qardaş ürəyə təpərdir, görmədim. Şükür sənə, Allahım, axır ki, bəndələrinin əliylə dadıma çatdın. Mirkərim ağanın, Fatma nənənin boynumda haqqı-sayı çoxdur. O yazıq arvad da bir gün görməyib, cavan yaşında ərini, sonra oğlunu, gəlinini itirib, yeganə təsəllisi Umud olub. Ey bu şər vaxtının sahibi, kölgəni üstümüzdən əskik eləmə.

**Fatma** *(gəlir).* Nədi, a bala, nə yaman dua eləyirsən. Umud nənəsi ölmüş gəlməyib hələ?

**Nahidə.** Nənə! *(Ağlayıb arvadı qucaqlayır).*

**Fatma.** Nədi, az, nə olub, niyə ağlayırsan? Şər vaxtı şeytanın adamı aldadan çağıdı, göz yaşı tökmə, Allaha ağır gedər.

**Nahidə.** Nənə, Ziyad Umuda kağız gətirmişdi.

**Fatma.** Boy, iraq olsun! Hanı?

**Nahidə.** Vermədi. Dedi ki, özünə çatdırmalıyam, vacib kağızdı.

**Fatma.** Birdən gədəni davaya çağırarlar?

**Nahidə.** Yox, nənə, onun bronu var. Bir də ki, burada da həkim lazımdı.

**Fatma.** Allah ağzından eşitsin, ay bala! Umudu aparsalar, bil ki, yazıq Səlbi arvad kimi dəli olub çöllərə düşərəm.

**Nahidə.** Allah eləməsin, nənə...

**Fatma.** Bəs özü hanı? Bu vaxtlar nənəsi ölmüş həmişə gəlirdi.

**Nahidə** *(eyvandan boylanır və qeyri-iradi)* gəlir, nənə, odey, gəlir, Umuddu...

**Fatma.** Çox şükür! Bala, yadında saxla, halal adamın sözünü danışanda, böyürdən çıxır.

**Nahidə.** Nənə. Mirkərim ağa da elə deyir.

**Fatma.** Hə, bala, cəddinə qurban olduğumu Allah bu el-obaya çox görməsin. Ağzından dürr tökülür, hikmət yağır.

**Nahidə.** Nənə, axı Mirkərim ağa Nəcəfdə dərs alıb. Deyirlər ərəbcəni ərəblərdən yaxşı danışır, Quranı da başdan-ayağa əzbər bilir. Amma o boyda kişiyə qədir-qiymət qoymurlar.

**Fatma.** Quranı görəndə, elə bil, bu hökumətin başına daş düşür.

**Nahidə.** Nənə, yavaş danış, eşidən olar.

**Fatma** (*pıçıldayır*). Yazıq kişi o müqəddəs kitabı gecələr xəlvət oxuyurdu. Bu dava vəziyyəti bir az dəyişib. Dur, qızım, ərinin qabağına çıx, kişi qismi arvadının qabağına çıxmasını xoşlayır. Dur, əlli ol.

**Ümid** *(gəlir və əlində həkim çantası var).* Axşamın xeyir, nənə, necəsən? Canın-başın ağrımır ki?

**Fatma.** Yaxşıyam, nənən qadanı alsın! Haradasan, acsusuz, gecə düşüb, gəlib çıxmaq bilmirsən?

**Ümid.** İşim çox idi, nənə, qonşu kənddən bir xəstə gətirmişdilər, o dünyadan birtəhər qaytardıq. Şükür ki, üzü

bəri imiş. Sizə nə olub? Nahidə, birtəhərsən? *(Pıçıldayır).*Ürəyin bulanır?

**Nahidə** *(gülümsəyir).* Yox, yaxşıyam. Ziyad gəlmişdi...

**Fatma.** Nə pıçıldaşırsınız orada?

**Ümid.** Ay nənə, qoy görək də.

**Fatma** *(gülə-gülə).* Bildim, bala, bildim. Atadan-anadan yar şirin olur. Elədimi, nənə qurban?

**Ümid.** Yaxşısını sən bilərsən, ay nənə, dünya görmüsən, necə deyərlər, stajın var.

**Fatma.** A qırışmal, mənim qalxozda istajım çoxdu. Sən deyən işlərdən xəbərim yoxdu, rəhmətlik baban qərəl tutmadı bu dünyada *(əliylə qəbiristanlıq tərəfi göstərir),* tələsdi ora. Necə deyərlər, dünyanı çox yaşayan yox, çox gəzən yaxşı bilər.

**Ümid.** Necə yəni çox gəzən, nənə? Nə demək istəyirsən?

**Fatma.** Ə, danışdırma məni gəlinin yanında, pərdə saxla, pıçıldaşma.

**Nahidə.** Ziyadın gəlməyini deyirdim, nənə.

**Ümid.** Gəlib, gəlib də. Dost deyilik?

**Nahidə.** Umud, sən Allah ətimi tökmə. Dost, yox bir... Deyəsən, sənə nəsə bir kağız gətirib. Vermədi. Dedi gərək özünə verəm.

**Ümid.** Nahidə, kağıza görə belə tutulmusan? Bəs hara getdi, niyə gözləmədi məni?

**Fatma.** Sən əl-üzünü yu. İndi bir uşaq göndərərəm çağırar. *(Gedir).*

**Ümid.** Nahidə, niyə belə duruxub qalmısan? Ərinə bir xoş üz göstər, bir çay gətir. *(Yaxınlaşıb onu qucaqlayır).* Mənim qəşəng maralım, bənövşə ətirli gözəlim. Sənə qüssə yaraşmır...

**Nahidə.** Burax, Umud, arvad içəri girər, biabır olarıq.

**Ümid.** Nənəm arif adamdı, hər şeyin yerini bilir. *(Onu öpür).* Bir gülümsə, mənim də könlüm açılsın, yorğunluğum çıxsın.

**Nahidə.** Yaxşı, yaxşı... *(Ona sıxılır).* O nə kağız olar, Umud? Bəlkə pavestkadı? Birdən səni apararlar... Onda mən başıma haranın daşını salaram.

**Ümid.** Bəsdi, Nahidə, gedənlərdən mənim nəyim artıqdı? Bəlkə dava kişi yox, arvad işidi? Başıma örpək bağlamalıyam?

**Nahidə** *(gözləri dolur).* Nə danışırsan, Umud? Nə demək istəyirsən? Yoxsa sənin o kağızdan xəbərin var?

**Ümid.** Xəbərim yoxdu. Kağızdı də, ya rayon səhiyyə şöbəsindəndi, ya da...

**Nahidə.** Umud!

**Ümid.** Başa düş, canım-gözüm, davadı, hər şey ola bilər, məni də çağıra bilərlər. Bu çox təbii bir şeydi, amma gəl sabahın dərdini indidən çəkməyək. Toxtaq olaq, sənə ağlayıb-sızlamaq, əsəbiləşmək, dərd çəkmək olmaz. *(Ehmalca onun qarnına əl sürtür).* Bunu düşün, nənəmə demisən?

**Nahidə.** Yox, deməmişəm, amma, məncə, özü bilir. Gedim sənə çay gətirim. *(Gedir).*

**Ümid** *(öz-özünə).* Yəqin hərbi komissarlıqdandır, axır ki, ərizəmə cavab verdilər. Deməli, yığışmaq vaxtıdır.

**Nahidə** *(çay gətirir).* Deyirəm, Umud, nə yaxşı ki, yayda xeyli tut qurutmuşam. Maşallah, yaxşı da çıxıb, lap kəhrəba dənəsi kimi. Hələ tut rçalını demirəm. Gəl otur.

**Ümid.** Nahidə, mənim xallı gözəlim. *(Əyləşir).* Yaxına gəl, əyləş. *(Əlindən tutub, yanında əyləşdirir).* Nahidə, bizim talelərimiz bir-birinə çox oxşayır, sən də yetimçilik görmüsən, mən də. Bəlkə, elə ona görə Allah bizi qovuşdurub. Budur, beş aydı biz bir yerdəyik. İndi mənim qəlbimə əbədi həkk olunmuş adlar içərisində sənin də adın var, xallı maralım.

**Nahidə.** Bəs o biri adlar hansılardır?

**Ümid.** Nahidə, sən ki onları bilirsən. Atam-anam, məni zülmlə böyüdən, oxudan nənəm Fatma...

**Nahidə.** Umud, sən bunları niyə deyirsən?

**Ümid.** İstəyirəm, məni həyata bağlayan bu adlar çoxalsın. *(Əlini Nahidənin qarnına toxundurur).* Bir, beş, altı, yeddi...

**Nahidə** *(əli ilə onun ağzını qapayır).* Allah niyyətini versin, Umud. Mən hər gün namaz üstə Allaha dua eləyirəm. O mənim səsimi eşidir.

**Ümid.** Gəl bu söhbəti təzələməyək, Nahidə. Mirkərim ağa necə deyir? Dində məcburiyyət yoxdur.

**Nahidə.** Allah özü qəlbinə nur salsın, Umud.

**Ümid.** Məni fikrimdən yayındırdın. Bir, beş, altı, yeddi...

**Nahidə.** Səbirli ol, Allah bilən məsləhətdir.

**Ümid.** Nə qalıb ki... Bir də gördün qaragözlü, anası kimi qara xallı, ağ bənizli bir qız... bəlkə oğlan...

**Nahidə.** Yenə Allah bilən məsləhətdi.

**Ümid.** Yaxşı, onda gəl şərti şumda kəsək ki, xırmanda yabalaşmayaq. Oğlan olsa, adını Nahid, qız olsa, Ümidə qoyaq.

**Nahidə.** Sən necə istəsən, elə də olacaq. Sağlıq olsun, dava qurtarsın, nemesin beli qırılsın.

**Ümid.** Dava uzanacaq, Nahidə. Heç kim bilmir ki, bu xamır nə qədər su aparacaq.

**Nahidə.** Hər şey Allahın əlindədir. Diləyim budur ki, balanın balası sənə baba desin, inşallah. *(Boynunu qucaqlayır).* Bir dəfə Mirkərim ağa dedi ki, qızım, insan ömrü ilin fəsilləri kimidir: uşaqlıq, gənclik, yetkinlik və qocalıq. Allah ömrümün fəsillərini sənsiz eləməsin, Umud. *(Ağlamsınır).*

**Ümid** *(kefi pozulur).* Olmadı, Nahidə. Bu göz yaşı nəyə lazımdı? Biz heç vaxt ayrılmayacağıq – bir yerdə olacağıq. Ha-

rada oluramsa-olum, sən yanımda olacaqsan. O xalq mahnısı necədi? Sil gözün yaşını, qaragilə, ağlama, bəsdi. *(Boynunu qucaqlayır. Əllərilə göz yaşlarını silir).*

**Nahidə.** Deyəsən, gələn var. *(Cəld ayağa qalxır və qapıya yaxınlaşır).*

**Ümid.** Kimdi? Nənəmdi?

*Fatma və Ziyad gəlirlər. Nahidə kor-peşiman qırağa çəkilir.*

**Ziyad.** Axşamınız xeyir. Umud, qardaş, haradasan? Sən atlı, mən piyada, tapa bilmirəm səni.

**Ümid.** Harada olacağam, papağımın altında, görünür, yaxşı axtarmamısan.

*Ümidlə Ziyad görüşürlər.*

**Ziyad.** Ə, zarafatsız, vacib sözüm var.

**Ümid.** Seyidlidən ağır xəstəm var idi. Sən necəsən, başqalarının məktublarını oxumursan ki?

**Ziyad.** Umud, mən əxlaqlı adamam, o cür tərbiyəsiz iş tutmaram. *(Qəhqəhə çəkib gülür).*Qardaş canı...

**Ümid.** Nahidə, çay gətir.

**Ziyad.** Sağ ol, içən deyiləm. Nahidə, ehtiyac yoxdu.

**Ümid.** Ay qız, ona qulaq asma, çay gətir.

**Ziyad** *(səsinə həlimlik qatır).* Umud, qadası, sənə çatacaq bir kağız var. *(Pıçıldayır).* Bəlkə, ikilikdə söhbət eləyək?

**Ümid.** Məktubdu, ya çağırış kağızı?

**Fatma.** Allah, sən saxla!

**Ziyad.** Elə kağızdı ki, gərək... *(Dili topuq çalır).*

**Fatma.** Ziyad, ürəyin üzülməsin, ürəyimi üzdün. Ver də o kağızı. Bu nə örtülü söhbətdi?

*Nahidə çay gətirir.*

**Ümid.** Hə, nə kağızdı?

**Ziyad** *(süni surətdə ah çəkir).* Qardaş, dilim gəlmir, pavestkadı, çağırış!

**Nahidə.** Ah! *(Stəkan əlindən düşür).*

**Fatma.** Evim yıxıldı! *(Əllərini dizlərinə çırpır).*

**Ümid.** Bəsdirin! Qurtarın bu vay-şivəni!

**Nahidə.** Nənə!

**Fatma.** Can bala!

*Fatma ilə Nahidə bir-birini qucaqlayıb ağlayırlar.*

**Ziyad.** Mənim işim budu, anam-bacım. Mən neyləməliyəm?

**Ümid.** Dedim qurtarın ağlaşmanı. Çaya su gəlməmiş çırmanırsınız! *(Kağızı açır).* Bəli, hərbi komissarlıqdandır. Mən başına papaq qoyan hər bir kişi kimi cəbhəyə yola düşməliyəm. Burada nə var ki? *(Qadınlar daha bərk ağlayırlar).*

**Ziyad** *(mexaniki şəkildə əl atıb, papağını çıxarır və birdən hərəkətinin yersiz olduğunu anlayır).* Bu gün yaman istidi.

**Ümid.** Nənə, davaya gedənlər məndən əskikdilər? Yoxsa, onların arvad-uşağı, anaları, nənələri yoxdu, canları adam canı deyil? Səlbi arvadın oğlundan – Şəmildən artığam mən? Bir yumruğu ilə kəli geri oturdurdu.

**Nahidə.** Axı sənin bronun var, Umud.

**Ümid.** Nahidə, düzdü, mənim icazəm – bronum var. Buna baxmayaraq özüm könüllü ərizə verdim. On beş gün idi ki, intizarla bu kağızı gözləyirdim.

**Ziyad.** Umud, könüllü ərizə verdin?

**Fatma.** Ə, bəs bizi kimin umuduna qoyub gedirsən? Yoldaşın da... *(Sözünü deyə bilmir, yarımçıq kəsir, hıçqırır).*

*Nahidə bərkdən hönkürür.*

**Ümid.** Ağlamaqdansa, yola tədarük görün. Səhər o başdan getməliyəm, yoxsa çata bilmərəm.

**Fatma** *(Nahidəni qucaqlayır).* Sakit ol, bala, toxta, rəhmətlik atası da belə höcət idi. Hazırlıq görmək lazımdı. Palaza bürün, elnən sürün, deyiblər. Neynəməli, kənddə kişi qalmayıb, qalanlar da şil-şikəstdi.

*Nahidə daha bərkdən hönkürür.*

**Ümid.** İndi nə deyirsiniz, mən də sizə qoşulub ağlayım?

**Nahidə.** Özümlə bacarmıram. *(Qaçaraq gedir).*

**Ziyad.** Nahidə çox narahatdır.

**Fatma.** Narahat olmasın, neyləsin? Əri davaya gedən arvad gülməyəcək ki... Sən də, Ziyad, çıx get. Görək neyləyirik. Üzün ağ olsun, sağ ol. Bu şər vaxtı yaxşı xəbər gətirdin.

**Ümid.** Nənə, Ziyad neyləsin?

**Ziyad** *(irişir).* Görürsən, Umud? Axı mənim nə taqsırım var?

**Fatma.** Şit-şit irişmə. Əl-ayağım sənə dəyməmiş yeri çıx get. Camaat saç ağardır, qara bağlayır, sənin şit, duzsuz nənən Qəmzə xına yaxır... Lənət sənə şeytan!

**Ümid.** Ziyad, nənəm hirslənib, bir xata çıxarmamış get. Sabah gələrsən, yola düşməzdən əvvəl görüşüb, xudahafizləşərik.

**Ziyad.** Umud, sən mənə qardaş əvəzisən. De, mən neyləyə bilərəm?

**Ümid.** Yaxşı... Yaxşı... *(Qucaqlaşırlar).*

**Ziyad.** Allah kəssin mənim işimi. *(Gedir).*

**Fatma** *(Ziyadın ardınca)* Bu gədəyə ürəyim heç qızmadı da.

**Ümid.** Nənə, bəsdi də, xətrinə dəyir axı. Mən də bilirəm ki, sürüşkən adamdı, başqasının ayağının altını qazıyandı, naqis cəhətləri çoxdu, amma uşaqlıqdan bir yerdə böyümüşük, dostuq.

**Fatma.** Allah səni belə dostlardan qorusun, bala. Gedim hazırlığa başlayım. *(Gedir).*

**Ümid.** Sabahı gözləyək... Hər günün öz hökmü var...

*İşıq azalır. Ulduzlu, mülayim gecə. Səhnə bir müddət boş qalır. Uzaqdan həzin, ürək dağlayan ağı səs eşidilir.*

**Səlbi arvadın səsi.**

*Mən aşiq, qəm daşıyam,*
*Od vurdum, qəm daşı, yan.*
*Kimsə olmaz mənimtək*
*Dərd çəkib, qəm daşıyan...*

*Səs uzaqlaşır və bir azdan eşidilməz olur. Nahidə səhnəyə daxil olur. Əynində uzun paltar, başında şal var. Səhnənin dibində üzü qibləyə canamazı açır.*

**Nahidə** *(Namaza başlayır, ara-sıra kəlmələr eşidilir).* Bismilləhir-Rəhmənir-Rəhim...

*Namazı həzin musiqi müşayiət edir. Nahidə əllərini göyə açıb dua edir. Ümid ağ alt köynəyində, çiynində pencək gəlir. Ulduzlara baxır. Nahidəni namaz üstə görüb dayanır.*

**Nahidə.** İlahi, sən mənim hələ dünyaya göz açmamış balamı atasız qoyma, mənim kimi ona da yetimçilik nəsib eləmə. Pərvərdigara, sən məni Umudsuz və ümidsiz qoyma. Onun çətin yolunu asan elə. Onu qoru, hifz elə, arzularını, istəklərini heçə-puça çıxarma. Ey aləmlərin rəbbi, sən böyüksən, adilsən, yetimin, əlsiz-ayaqsızın pənahısan. Mənə də rəhm elə, mərhəmətini məndən əsirgəmə... *(Kövrəlir).* Umuda rəhm elə, onu mənim göz yaşlarıma bağışla. *(Qalxıb canamazı yığışdırır və getmək istəyəndə Ümidi görür).* Umud, buradasan, niyə yatmırsan? Axı sabah yola çıxacaqsan...

**Ümid** *(ona yaxınlaşır).* Yata bilmirəm, gözümə yuxu getmir. Elə bil, kirpiklərimdən daş asılıb. Hara gedirsən? *(Əlindən tutur).* Getmə, gəl otur yanımda.

**Nahidə.** Heç inana bilmirəm ki, sabah bu vaxt haradasa uzaqlarda olacaqsan. Nə əlim sənə yetəcək, nə də ünüm çatacaq.

**Ümid** *(onun yaylığını başından ehmalca açır).* Sən mənim xoşuma, bax, belə gəlirsən, başı açıq. Xurmayı saçlarının rəngini, qara şəlaləyə bənzər dalğalarını yaxından görmək istəyirəm.

**Nahidə.** Söz ver ki, hər gün mənə məktub yazacaqsan.

**Ümid** (*gülərək).* Hər gün məktub yazsam, bəs nemeslə kim vuruşar, ay dəli?

**Nahidə.** Demirəm ki, uzun-uzadı yaz, doldur varaqları, bircə kəlmə, bircə cümlə. Bilim ki, sağ-salamatsan, yerin-yurdun haradı, əmin-arxayın olum səndən.

**Ümid** *(onu qucaqlayır).* Söz verirəm, yaralılardan baş açan kimi məktub yazacağam.

**Nahidə.** Niyə bu dava bizim qismətimizə düşdü, Umud, niyə bizim xoşbəxtliyimizin ömrü belə qısa oldu?

**Ümid** *(üzünü göyə tutur).* Sən gərək bu sualların cavabını namaz üstündə o kişidən soruşaydın. Düzünü o bilir. Biz nəkarəyik, gözümün işığı.

**Nahidə.** Qurban olum, elə danışma, küfr eləmə, yol üstdəsən. Mən hər gün namaz üstdə, onsuz da, sənə dua edəcəyəm.

**Ümid.** Sən dua elə ki, qələbə bizim olsun, düşmən geri çəkilsin, sular durulsun, şəhərlərimiz, kəndlərimiz xaraba qalmasın. Onda mən də qayıdacağam, gəlib görəcəyəm ki, uşağımız ayaq tutub yeriyir. Onu bağrıma basanda biləcəyəm ki, mən daha yetim deyiləm. Bu dünyada gələcəkdə mənə, sənə, vətənə arxa, dirək olacaq canımdan-qanımdan doğulmuş bir insan var.

**Nahidə.** Yəni sən belə gec qayıdacaqsan? *(Ağlayır).*

**Ümid.** Hər halda, o, mən burada olmayanda doğulacaq. Amma nigarançılığım yoxdu, nənəmin canı hələ suludu. Mirkərim ağa da böyüdüb, boya-başa çatdırdığı yetim qızını yiyəsiz, arxasız qoymayacaq.

**Nahidə.** İnşallah!

**Ümid.** İnan mənə, Nahidə, mütləq qayıdacağam, lap qara kağızım, itkin kağızım gəlsə də, bil ki, qayıdıb gələcəyəm. Mən öz övladımı mütləq görəcəyəm. Allah onu da mənim kimi yetim eləməyəcək. Nəsə qəlbimdə buna möhkəm inam var. Görünür, bu, bizim tale yazımızdı. Yazıya pozu yoxdu.

**Nahidə.** Umud, sən çox uzaqlarda olacaqsan?

**Ümid.** Çox-çox uzaqlarda, amma bu səni qorxutmasın. Mən həm də həmişə sənin yanında olacağam. Bax o körpə ağacı görürsən? Biləndə ki, sən hamiləsən, boyuna uşaq düşüb, bu şitili əkdim. Görürsən, xeyli böyüyüb. Mənə sözün olanda ona deyərsən. Bil ki, səni eşidəcəyəm. Harada olsam, eşidəcəyəm. *(Nahidəni qucaqlayır).* Bir də səni nə vaxt belə qucaqlayacağam, bilmirəm. *(Öpür).*

**Nahidə.** Qurban olum sənə, Umud...

**Ümid.** Gedək içəri, səhərə az qalır. *(Gedirlər).*

*Musiqi. Həzin məhəbbət nəğməsi səslənir.*

*Səhərdir. Həmin məkan. Fatma və Nahidə əl-ayaq eləyirlər. Kiçik kisənin içinə müxtəlif bükülüləri yerləşdirir, yol tədarükü görürlər.*

**Ümid** *(qıvraq yol geyimindədir).* Nənə, ta evdə bir şey qalmadı? O boyda yükü aparmaq olar? Camaatı mənə güldürmək istəyirsiz?

**Fatma.** A bala, sən arvad işinə qarışma, lazımsız şeyi o torbaya qoymaram. *(Əlini qeyri-müəyyən səmtə uzadır).* Ora ça-

tanda mənə sağ ol deyəcəksən, açıb işlədəndə, nənənin qədrini biləcəksən. Az, o yun canlığı qoydunmu?

**Nahidə.** Qoydum, nənə... Arxayın ol. *(Gözünün yaşını gizlicə silir).*

**Fatma.** Bax, nə geyinirsən, geyin, altdan bu canlığı əyninə almaq yadından çıxmasın, dualıdı.

**Ümid** *(gülür)* Nənə, ta denən zirehdi də.

**Fatma.** Püstə toxuyub, ovsun eləyə-eləyə. Düzdü, bu gəlin elə şeylərə inanmır, gülür. Elə Mirkərim ağa da belə şeyləri günah buyurur, amma mən də bildiyimi bilirəm ha. Bax elə indidən geyin əyninə.

**Ümid.** Nənə, indi bu istidə canlıq geyinim? Düşmən var burada?

**Fatma.** Hə, o da düzdü, Urusetdə geyinərsən, deyirlər oralar həmişə soyuq olur. *(Birdən kövrəlir).* Nənən ölsün, Umud. *(Örpəyinin ucunu üzünə sıxır).* Ə, öləcəyəm sənsiz, çatlıyacağam sənsiz.

**Ümid.** Nənə, qurban olum, toxta, sənə ağlamaq yaraşmır. *(Qucaqlayır).* İndi Nahidə də başlayacaq. Bax, gəlir. *(Arvaddan aralanır).*

**Nahidə** *(əlində parçaya bükülmüş bir bağlama gətirir)* Umud, bu balaca Qurandı, həmişə üstündə saxla.

**Ümid.** Nə danışırsan, Nahidə? Bilmirsən, orada, elə burada da belə şeyə yaxşı baxmırlar, baxma Mirkərim ağaya dəymirlər, hörmət eləyirlər.

**Fatma.** Hə, tökülmüşdü hörmət, cəddindən qorxurlar, ocağına qurban olduğum yoxsa əlli-ayaqlı, çoxdan getmişdi.

**Nahidə.** Umud, qorxma, sən onu gizlət. Əl boydadı. Gəzdir döş cibində, lap ürəyinə yaxın yerdə. Sən istədiklərinin canı, sözümü yerə salma. *(Quranı ona uzadır).*

**Ümid.** Yaxşı, birtəhər... görüm də. *(Alır).*

*Mirkərim ağa və Ziyad gəlirlər.*

**Mirkərim ağa.** Əssalaməleyküm, sabahınız xeyir. *(Hamı ilə görüşür. Nahidənin alnından öpür).* Toxtaq ol, qızım. Elnən gələn dərd toy-bayramdır.

**Ümid.** Sabahınız xeyir, ağa baba, Ziyad, xoş gəlmisiz.

**Mirkərim ağa.** Yaxşı yol, Umud, Allah köməyin olsun. Vətənə sevgi imandandır. Cənab Həzrət Əlinin gözü üstündə olsun. Fatma, siz gərək fəxr eləyəsiniz ki, evinizin kişisi elini-obasını qorumağa gedir.

**Fatma.** Mən balasının dalınca göz yaşı tökən arvadlardan deyiləm, ağa. Onun arxasınca su atıb, alqış eləyəcəyəm.

**Ziyad.** Varam Fatma nənənin qeyrətinə! Ağa, Umudun bronu vardı, özü könüllü gedir, hərbi komissarlığa ərizə verib.

**Mirkərim ağa.** Vətən darda olanda kişinin birinci vəzifəsi silaha sarılmaqdı. Hamı gec-tez gedəcək. Bala, deyir Musanın əsası ilə gəlməyən, Fironun əsası ilə gələr. Bəs necə?

**Ziyad** *(sifətinə saxta görkəm verir).* Mən özüm də getmək istəyirəm, həkimlər qoymur. Deyirlər biz şikəst adamı cəbhəyə göndərə bilmərik.

*Onun bu sözlərinə əhəmiyyət verən olmur. Fatma və Nahidə girib-çıxır, hazırlıqla məşğul olmaqda davam edirlər.*

**Mirkərim ağa.** Umud, oğul, dava meydanında düşmən qabağına çıxmamaq qorxaqlıqdır. Allah belələrini istəməz. Zalım düşmən məğlub olacaq, inşallah, çünki haqq-ədalət bizim tərəfimizdədir. Çünki hücuma biz məruz qalmışıq. Sənin hərəkətin imam övladının hərəkətinə layiqdir.

*Səlbi arvad gəlir. Hiss olunur ki, ağlı-huşu başında deyil, havalıdır. Əlində bağlama var. Hamı pərt halda susur.*

**Səlbi.** Ay Allahını sevən, Umud hanı? Az, Fatma, məndən niyə gizlədirsən Umudun fronta getməyini?

**Mirkərim ağa.** İlahi, sən bu binəvaya kömək elə.

**Fatma.** Səlbi? Xoş gəlmisən. Həmişə sən gələsən...

**Səlbi.** Az, yox ey, sən mənə de görüm Umudun Şəmil kimi fronta könüllü getdiyini niyə gizlədirsən məndən. Paxıllığım tutacaq? Bəlkə bir ismarışım-zadım var uşağa? Bəs mən ana deyiləm, ürəyim paran-parça olmur?

**Ümid.** Səlbi xala, necəsən, o gün verdiyim dərmanı atdınmı?

**Səlbi.** Boy, Umud, nə yaxşı hələ getməmisən? Başına dönüm sənin. *(Qucaqlayır).* Bax, Şəmili görsən... Bilirəm ki, görəcəksən...

**Fatma.** Allah, özün saxla!

**Səlbi.** Bax, bu sovqatı verərsən ona. Yeddi cüt yun corabdı, özüm öz əlimlə toxumuşam. Anası ölmüşün əyağında yel var.

**Ümid.** Səlbi xala, axı...

**Mirkərim ağa.** Verər, Səlbi, verər. Umud, götür o corabları, mütləq çatdır Şəmilə.

**Səlbi.** Allah imanını kamil eləsin, a kişi, cəddinə qurban olum. Bax, özünə çatdır ha, Umud. De ki, yenə toxuyuram.

**Fatma.** Gedək, Səlbi, gedək səni ötürüm. Allah Şəmilə, elə əsgərlərimizin hamısına arxa dursun, kömək olsun.

**Səlbi** *(dartınır).* Az, niyə qovursan məni? Evi yıxılsın Ziyadın, görüm heç ağ gün görməsin... *(Ziyadı görür).* Ə, qurumsaq, buradasan?

**Ziyad.** Yenə düşdü mənim üstümə. Ay arvad, nə istəyirsən məndən? Nə vermisən mənə ala bilmirsən...

**Səlbi.** Ə, qaraxəbər oğlu qaraxəbər, mənim balam ölüb ki, sən onun qara kağızını gətiribsən?

**Mirkərim ağa.** Ziyad, oğlum, sən belə dur. Səlbi, hövsələ elə, səbirli ol, hər şey Allahın əlindədi. Ziyadlıq bir iş yoxdu, umudunu Allaha bağla. Gecəni gündüzə, mıxı mismara döndərən odur. Səbirli ol, Allah özü əcrini verəcək.

**Fatma.** Gəl, Səlbi, gəl, bədbəxtin qızı, gəl get evinə, çırağını yandır. Allaha ağır gedər. Şəmilə də əyan olar. Gəl ötürüm səni. *(Qapıya tərəf aparır).*

**Səlbi.** Burax, özüm gedəcəyəm. Hələ ağlım başımdadı. *(Gedir. Səhnənin arxasından səsi eşidilir).*

*Mən aşiq, qəm daşıyam,*
*Od vurdum, qəm daşı, yan.*
*Kimsə olmaz mənim tək –*
*Dərd çəkib, qəm daşıyan.*

**Fatma.** Ağa, Allah bu zülmü niyə götürür?Axı o yazığın aman-zaman bircə balası vardı.

**Mirkərim ağa.** Nəyin pis, nəyin yaxşı olduğunu qurbanı olduğum bilir. Hökm onun hökmüdü.

**Ziyad.** Vallah, baş götürüb gedəcəyəm bu kənddən. *(Gedir).*

**Nahidə** *(yavaşdan).* Əzrayıl aparsın səni. Görüm, axır gedişin olsun!

**Fatma.** Umud, nənən qurban, korluq çəkmə, yeməkzad qoymuşam, çil xoruzu da soyutma eləmişəm. Birinci onu yeyərsən ki, xarab olmasın. Fətiri uzaq yol üçün saxlarsan. *(Qucaqlayır).* Mən adda nənən ölsün...

**Mirkərim ağa.** Di bəsdirin, ağlayıb-sıtqayıb Umudun ürəyini bir tikə eləməyin. Qızım, o Quranı gətir bura.

*Nahidə içəri keçir.*

**Fatma** *(əlini nanə yarpağı kimi əsən ürəyinin üstünə qoyur, sinəsini göstərir).* Partlamışım rahatlıq bilmir ki... Elə hey quş kimi çırpınır. Bu ayrılığa dözə bilməyəcək, çatlayacaq.

**Ümid.** Nənə, ixtiyarı yoxdu çatlasın. Mən sənə Nahidəni tapşırıb gedirəm. *(Çiynindən qucaqlayır).* Sən ondan muğayat ol, o da səndən...

**Mirkərim ağa.** Arxayın ol, Umud, göydə Allah, yerdə biz. Qoymarıq evinin tüstüsü kəsilsin, işığı keçsin.

**Nahidə** *(əlində Quran gəlir).* Buyur, ağa.

**Mirkərim ağa** *(Quranı alıb öpür).* Di gəl, müqəddəs Quranın altından keç, Umud. Quran yiyəsi köməyin olsun. At içindəki şəkk-şübhəni, yaxın gəl, oğlum. İnşallah, müqəddəs kitabın sahibi səni xətadan-bəladan hifz edəcək.

*Ümid kitabın altında dayanır.*

**Mirkərim ağa.** Əuzu billəhi minəş-şeytanir-rəcim. Bismilləhir-Rəhmənir-Rəhim. Və min vəsa-is-səfər. Yaradanın əli üstündən əskik olmasın, oğul. Yadından çıxartma, əl-qisas bil-qisas. Qisasa qisas lazımdır. İndi keç, Allah işini avand eləsin.

**Fatma.** Amin!

**Nahidə.** İlahi amin!

**Ümid** *(Quranın altından keçir).* Çox sağ ol, ağa. İmanın kamil olsun.

**Mirkərim ağa.** Di görüş nənənlə, arvadınla. Utanma.

**Ümid.** Nənə, Nahidə amanatı. *(Fatmanı qucaqlayır).*

**Fatma.** Ölüm ayağının altında, Umud. Nahidəyə özümdən yaxşı baxacağam...

**Ümid.** Nahidə, sən də dediklərimi yadından çıxartma. Salamat qal. Səni nənəmə, nənəmi də sənə tapşırıram. İkinizi də Allaha...

**Nahidə.** Arxayın get, Allah amanında ol. Mən səndən ayrılmıram.

**Mirkərim ağa.** Di yaxşı yol! Allah yolunu açıq, niyyətini hasil eləsin.

*İşıq get-gedə azalır.*

*Ümid heybəsini götürüb çiyninə atır. Heç kəsə baxmadan gedir.*

*Nahidə eyvanın surahısına söykənib göz yaşı tökür. Fatma, Ümidin dalınca su atır. Bu yolasalma mərasimi döyüş səsləri, avtomat, pulemyot, top atəşləri ilə müşayiət olunur.*

*Kətan parça enir.*

*Səslər davam edir. Radiodan diktorun verdiyi məlumat döyüş səslərini üstələyir.*

**Diktor.** Diqqət! Diqqət! Sovet İttifaqı Teleqraf Agentliyinin məlumatı. Bu gün rəşadətli Qızıl ordu alman faşistlərinə sarsıdıcı zərbələr endirmişdir. Ukraynanın Basmaç və Piryatin rayonlarında düşmənin tank hissələri ilə qanlı döyüşlər aparan onuncu tank diviziyasının tərkibindəki 20-ci tank alayı mayor Həzi Aslanovun komandanlığı altında düşməni darmadağın etmişdir... (*Hərbi texnikanın möhtəşəm səsi güclənir, döyüş səsləri arasından "Ura" sədaları eşidilir*).

*Yaxınlıqda eşidilən atışma səsləri getdikcə uzaqlaşır. Gənc əsgər qolları üzərində yaralı zabiti gətirir. Əsgər təlaşlıdır.*

**Zabit.** Kolya, əzizim, məni yerə qoy...

**Kolya.** Darıxma, leytenant, çatırıq. Az qalır, lap az qalır.

**Zabit.** Sənə deyirəm, yerə qoy məni, havam çatmır. Kolya, biz indi haradayıq?

**Kolya.** Dneprin sağ sahilində. Leytenant, düşmən qaçır, biz onları sıxışdırmışıq. Azca döz, bu saat doktor özünü yetirəcək.

**Zabit.** Su ver mənə, su, ürəyim yanır.

**Kolya** *(nəfəsi təngiyir).* Biz artıq çatırıq. *(Qışqırır).*Ey, kim var orada?

**Zabit.** Kolya, ölürəm, məni yerə qoy.

**Kolya** *(daha bərk qışqırır).* Ey, qırılmısınız, kim var orada? Köməyə gəlin! *(Zabiti yerə qoyur. Sinəsini açıb yarasına baxır və qeyri-iradi hönkürür).* Sakit ol, leytenant...

**Zabit.** Səs gəlir, almanlardır. *(Yerindən qalxmağa təşəbbüs edir).* Avtomatımı ver, avtomatımı... (*Dartınır, dərhal da yıxılır).* Anaaa...

**Kolya.** Kimdi? Mən bu saat... *(Ora-bura qaçır, avtomatı atəş üçün hazır saxlayır).* İndi hamınızı gəbərdəcəyəm, əclaflar!

**Sanitar** *(hövlnak xərəkli gəlir).* Kolya? Sən nə edirsən, avtomatı aşağı sal!

**Kolya.** Vanya? Vanya... *(Zabitə).* Bizimkilərdir... (*Gülüb ağladığı məlum deyil).* Vanya! *(Ehtiras və həyəcanla qucaqlayır).* Vanya... Vanya, leytenant ölür, o ölür...

**Sanitar** *(onun əlini sıxır).* Sakit ol, Axundov bizimlədir, sakit ol! *(Yaralıya baxır).* Bu ki, Qluşkodur! Stepan, Stepan! Darıxma, əzizim, biz buradayıq... *(Üstünə əyilir).*

**Zabit.** Vanya, mənə su ver, Vanya... Su... Suuu...

**Sanitar.** Bu saat, indi... *(Flyaqasını çıxardır, ağzını açır, suyun olmadığını görür.)* Yoxdu, su yoxdu... İndi sənə su vermək olmaz, bir azdan.

**Kolya.** Çox qan itirib, ona görə də su istəyir, onun yarasını bağlamaq, axan qanı saxlamaq lazımdır. Bəs hanı doktor? *(Ora-bura qaçır).* Ey, haradasınız? Yoldaş Axundov!!.

**Ümid** *(qaçaraq gəlir. Çiynində sanitar çantası var).* Kimdi məni çağıran Kolya! Nə olub, Kolya?

**Kolya.** Qluşko yaralanıb, vəziyyəti ağırdır.

**Ümid.** Bu saat! *(Zabitə yaxınlaşır).* Stepan, yoldaş leytenant...

**Zabit.** Su verin, su verin mənə...

**Ümid.** Bu saat... *(Yarasına baxır).* Qorxma, Styopa, bu saat... bu saat... Kolya, Vanya, onu məntəqəyə çatdırmaq lazımdır. Ona təcili qan vurulmalıdır. Köməkləşin götürək. Tələsmək lazımdır, qardaşlar. Vaxt itirmək olmaz.

**Zabit.** Su verin mənə... su...

**Ümid.** Hə, götürdük!

*Birlikdə yaralı zabiti götürürlər. Atışma səsləri güclənir. Projektor işığı səhnənin və tamaşa zalının üzərində oynaşaraq bir-birini sürətlə kəsir.*

*Kətan parça qalxır.*

*Bura səyyar tibb məntəqəsidir. Sanitar, Kolya və bir neçə yaralı, əli-qolu, başı sarıqlı əsgərlər səhnədə görünürlər.*

**Kolya** *(papiros yandırır).* Əclaflar, kötək yeyən kimi qaçırlar. Kişiliyiniz budu? Hələ harasıdı, sizin ananızı...

**Sanitar.** Kolya, qardaş, sən də Sumi vilayətindənsən?

**Kolya.** Hə, oradanam, Lebedinsk rayonundan, necə bəyəm? Orada qohumun var?

**Yaralı əsgər** *(maraqla söhbətə qarışır).* Lebedinskdən? Deyirlər orada bütöv bir kəndi faşistlər yandırıblar. Bir adam da sağ qalmayıb.

**Kolya** *(qəhərli-qəhərli).* Hə, hə, o bədbəxt kənd bizim kəndimizdi, Bratskoye. Yetmiş ev idı. *(Papirosunu sümürür).* Nəinki adam, heç bircə ağac da salamat qalmayıb.

**Sanitar.** Deyirlər kommunistləri diri-diri yandırıblar.

**Kolya.** Tək kommunistlər olsaydı, dərd yarıydı. Arvad-uşağa da rəhmləri gəlməyib.

**Yaralı əsgər.** Faşistdən rəhm gözləmə.

**Kolya.** Bizim ailəmizdən heç kim sağ qalmayıb. Anam, kiçik qardaşım, bacım... bütün qohum-əqrəbam... *(Getdikcə səsini qaldırır).* Mənim indi heç kəsim yoxdur, hamısı... hamısı... *(Yumruğunu hirsindən yerə çırpır).*

**Sanitar.** Sakit ol, Kolya, biz onların dərsini verəcəyik.

**Yaralı əsgər.** Qaçırlar, Kolya, siçovul kimi qaçırlar... *(Yumruqları ilə göz yaşlarını silir).* And içmişəm. Axır nəfəsimədək vuruşacağam, qisas alacağam, qisas! Bilirsiniz... Qisas, qisas...

**Sanitar.** Bəs atan haradadır, o da həlak...

**Kolya.** Yox, atam məndən qabaq getmişdi cəbhəyə, indi partizan dəstəsindədir. Yəqin ailəmizin taleyindən heç xəbəri də yoxdur. Haradan bilsin? *(Ayağa qalxır, gərdiş eləyir).* Sabahı bilirsiniz necə gözləyirəm.

**Sanitar.** Qanlı döyüş olacaq!

**Kolya.** Bilirsiniz, uşaqlar, mən əlbəyaxa döyüş istəyirəm, mən onları canavar kimi didmək, parçalamaq istəyirəm. Mən onların dəhşət dolu rəhmsiz gözlərini yaxından görmək istəyirəm. *(Əllərini yumruq eləyib başına vurur).* Mən o gözləri ovub yerindən çıxarmaq istəyirəm. Mən...

**Sanitar.** Sakit ol, Kolya, bu qan yerdə qalmayacaq. Dəhşətli faciə ilə üzləşən tək sən deyilsən, biz hamımız yaralıyıq. Çünki vətənimizə təcavüz olunub, mənliyimiz tapdanıb. Hamı qisas istəyir. Bütün dünya alçaqlığı, vəhşiliyi, rəzilliyi pisləyir, qisas istəyir. *(Birdən arxaya çevrilir).* Aha, Axundov gəldi.

*Hamı dönüb səhnəyə gələn ağ xalatlı Ümidə baxır.*

**Ümid.** Leytenantın canı möhkəm imiş. Zalım oğlu, hesab eləyin ki, kəfəni yırtıb çıxdı.

**Yaralı əsgər.** Kəfəni yırtıb? Bu nə deməkdir, yoldaş leytenant?

**Ümid.** Bizdə belə bir el sözü var. Çox ağır vəziyyətdə olan xəstə sağalırsa, onda deyirlər ki, kəfəni yırtıb çıxdı. Yəni, leytenant Qluşko yaşayacaq, daha ona zaval yoxdur.

**Kolya.** Spasibo, brat! Sənin əllərin qızıldı, xalis qızıl.

**Sanitar.** Axundov, sən çox böyük bir qəhrəmanlıq eləmisən, amma necə də sakit danışırsan. Axı o, çox qan itirmişdi. Son nəfəsdə idi. Sifəti də ki, ölü sifəti.

**Ümid.** Xoşbəxtlikdən onun qan qrupu ilə mənim qan qrupum eyni idi. Hə, indi Qluşko ilə mən qan qardaşıyıq.

**Sanitar** *(qalxıb vəcdlə Ümidi özünə tərəf çəkir, qucaqlayır).* Mən istərdim ki, döyüş vaxtı həmişə yanımda olasan!

**Ümid.** Onda böyük Allaha dua elə, Vanya.

**Sanitar** *(təəccüblə).* Axundov, sən Allaha inanırsan?

**Ümid** *(əsgərlərə baxır).* Əlbəttə.

**Kolya.** Deməli, inanırsan. *(Hirslə).* Mənim anam da inanırdı, evimizdə, pərdənin altında ikona da vardı. Anam səhər-axşam da pərdəni qırağa çəkib ikonanı götürər, dua eləyərdi. Biz onun avamlığına gülürdük, amma o susurdu, heç nə demirdi. Duasından da qalmırdı, kənd kilsəsinə getməyindən də. Bəs axırı nə oldu? Haradaydı o Allah, haradaydı o ikona? Niyə qorumadı anamı? Qudurmuş faşistlər evimizə od vurub ailəmizi diri-diri yandıranda niyə dadına çatmadı? Deməli, sizin Allahınızın da bu cinayətdə əli var. Düz demirəm? Axı deyirsiniz onun iradəsindən kənarda heç nə baş vermir.

**Ümid.** Mən sənin faciəni çox gözəl başa düşürəm, Kolya. Məsələ inamda deyil. Mömin insanlar Allahın verdiyi xoşbəxtliyi, sevinci şüküranlıqla qarşıladıqları kimi, onun gön-

dərdiyi bəla və müsibətləri də səbirlə, dözümlə qəbul etməyə borcludurlar.

**Kolya.** Axundov, bu fəlsəfə mənlik deyil. Amansız bir intiqam, qisas hissi məni coşdurur.

**Ümid.** Əl-qisas bil-qisas.

**Sanitar.** Doktor, nə dediniz? Başa düşmədim.

**Ümid.** Bizim kənddə savadlı, ağıllı bir din xadimi var. Onun dediklərin dedim: qisasa qisas.

**Yaralı əsgər** *(təəccüblə).* Desələr də inanmazdım ki, leytenant Axundov möminlərlə oturub-dursun, hətta onlardan misal da gətirsin. Axı sovet ideologiyasında Allaha yer yoxdur.

**Ümid** *(gülümsəyir).* Allahın yerini Allahın özü müəyyən eləyir, sovet ideologiyası yox.

**Kolya.** Axundov, siz nəinki Allaha inanırsınız, hətta dindarsınız, onu təbliğ edirsiniz. Qorxmursunuz? Axı Sovet zabiti ateist olmalıdır. Bunu bizim zampolitimiz də hər gün deyir.

**Ümid.** Orası elədir. Amma ümid edirəm ki, məni ələ verməzsiniz. *(Gülür).*

*Hamı ona qoşulub gülür.*

**Ümid.** Əslində, düzünə qalsa, mən tərəddüd içində vurnuxuram. Kolyanın bayaqkı sualları hərdən məni də çaşdırır. Amma o zaman düşünürəm ki, mən hələ çox az şey bilirəm, dünyanın hikməti dərindir.

**Kolya.** Mən getdim. Sabahkı döyüşə hazırlaşmalıyam. Hər kəs öz işi ilə məşğul olmalıdır. *(Gedir).*

**Yaralı əsgər.** Mən də bir az dincəlim, yaram, az-az olsa da, ağrıyır.

**Ümid** *(sanitara).* Vanya, axşam onun sarğısını dəyiş, hospitala yola salacağıq. Qluşkonu da yola hazırlayarsan. Sabah burada it yiyəsini tanımayacaq.

**Sanitar.** Oldu, yoldaş leytenant.

**Ümid.** Yaxşı-yaxşı, rəsmiyyətə ehtiyac yoxdu, mən adi həkim kimi söz dedim.

**Sanitar.** Siz gərək həkim yox, filosof olaydınız.

**Ümid.** Eh, Vanya, həyat özü filosofdur, biz də onun tələbələri. Əlaçılar da var, zəif oxuyanlar da.

**Sanitar.** Məktəbdə olduğu kimi. Bizdə Manya vardı, əlaçı idi. Müəllim nə deyirdi, qrammofon valı kimi yazırdı beyninə. Amma mən beş dəfə oxuyandan sonra ölüvay bir "üç" alırdım, tramvay altında qalmış əzik-üzük "üç".

**Ümid.** Nə etməli, hamı eyni cür olsaydı, həyat darıxdırıcı olardı. Hikmət ondadır ki, hər bir fərd təkrarsızdır. Vaxtsa getmir, tısbağa kimi sürünür. Düz üç ildir evdən çıxmışam. Üç ağır, uzun il...

**Sanitar.** Doktor, axır vaxtlar çox fikirli, deyərdim, – bikef görürəm sizi. Əvvəllər belə deyildiniz, çox nikbin, üzügülər idiniz.

**Ümid.** Sevinməli hadisələr çox azdı, Vanya. Ana əvəzi nənəm mən gələndən sonra vəfat elədi, oğlum dünyaya gəldi, üzünü görmədim.

**Sanitar.** Arvadınızdan heç nə demədiniz, qafqazlı olduğunuz o saat bilinir.

**Ümid.** Arvadım? Nə gizlədim, xeyli vaxtdı mənə məktub yazmır.

**Sanitar.** Niyə? Səbəbini bilmirsiniz?

**Ümid.** Yox, düz-əməlli bilmirəm.

**Sanitar.** Yəqin...

**Ümid.** Sus, Vanya, bu haqda heç nə demə!

**Sanitar.** Mən demək istəyirdim ki, arvadınız yəqin gözəldir.

**Ümid.** Gözəl olmasaydı, sevməzdim ki...

**Sanitar.** Mənim başım çəkib, qardaş, arvad gözəl oldu, gərək yanından tərpənməyəsən. Mənim Qalyam yazır ki, Vanya, bir aya qayıdıb gəlməsən, qurtardıq. Cavab verdim ki, mən burada ezamiyyətdə deyiləm, müharibədəyəm, əsgərəm. Nə cavab versə yaxşıdı, doktor?

**Ümid.** Nə deyim? Mən sizin qadınları yaxşı başa düşmürəm.

**Sanitar.** Yazır ki, bəlkə, heç müharibə qurtarmadı, mən ərsiz qalacağam?

**Ümid** *(gülümsəyir).* Məntiqli sualdır.

**Sanitar.** Siz gülürsüz, doktor, o, doğrudan da məntiqli hərəkət elədi, ağsaç bir kişiyə qoşulub getdi Orta Asiyaya, Özbəkistan tərəfə...

**Ümid** (*inamsız*). Yox, yox! Allah eləməsin, bizim qadınlar dözümlü, vəfalı olurlar. Əslində, bizdə bu, namus məsələsidir. Məsələn, nənəm gəncliyində ərini itirib...

**Sanitar.** Necə yəni, itirib?

**Ümid.** Yəni əri, mənim babam ölüb. Sonra arvad heç bir kişi ilə yaxınlıq etməyib, ərə getməyib, ömrünü yeganə oğluna, mənim atama sərf edib. Təəssüf ki, o da anamla birgə qəzaya düşərək həlak olub. Nənəm mənimlə tək qalıb və bütün ömrünü mənə həsr edib.

**Sanitar.** Axı belə də yaramaz, doktor. Vəfanın, sədaqətin də bir ölçüsü olmalıdır. İnsan dünyaya bir dəfə gəlir.

**Ümid.** Onu heç kəs bilmir.

**Sanitar.** Nəyi doktor?

**Ümid.** İnsanın neçə dəfə dünyaya gəldiyini.

**Sanitar.** Maraqlı şeylər deyirsiniz, doktor, amma arvada etibar yoxdur. Hər şey də Həvvadan başlayır. Hələ anamız Məryəm, heç ərə də getməmişdi, amma doğdu, özü də kimi, kimi, peyğəmbəri – İsanı.

**Ümid.** Ay səni Vanya, sənin dindən də xəbərin varmış. *(Saatına baxır).* Get gör Paşa poçtu gətirməyib?

**Sanitar.** Oldu, yoldaş leytenant! *(Gedir).*

*Uzaqdan rus xalq mahnısı eşidilir.*
*Ümid cibindən şəkil çıxarıb baxır.*

**Ümid.** Vəfasız deyim sənə, dilim gəlmir, etibarsız deyim, söz tapmıram. *(Oxuyur).*

*Dağlarda bir maral var,*
*Başında tirmə şal var.*
*Adı çıxmış yadımdan,*
*Üzündə qara xal var.*

*Sanitar əlində bir dəstə qəzet, məktub gəlir və dayanıb mahnını dinləyir.*

*Dilbərim, dilbərim,*
*Gəl, gəl, ahu balası.*
*Uca dağlar arası...*

**Sanitar.** Doktor, nə qəmli mahnıdı.

**Ümid.** Vanya, sən hər şeyi bilirsən, amma burada səhvin var, bu mahnı qəmli deyil, mənim ifamda qəmli səslənir.

**Sanitar.** Onda bu sizə məktub, bu da qəzetlər, sevinin.

**Ümid.** Məktub! *(Tələsik alır, tez də məyus olur).*

**Sanitar.** Nə oldu? Niyə sevinmədiniz?

**Ümid.** Niyə ki, sevinirəm. Məktub dostumdandır. Vəfalı olan bir odur. Hələlik sən qəzetlərə bax, Vanya, mən də görüm, dostum nə yazır?

**Sanitar.** Yaxşı, mən qəzetlərə baxıram. *(Qəzetləri götürüb bir kənara çəkilir).*

**Ümid** *(məktubu açır)* Yenə də Ziyad. *(Məktubu əvvəl yavaş, sonra da hündür səslə oxuyur).* "Əziz qardaşım Umud, salam. Ba-

ğışla ki, çoxdandır sənə kağız yazmıram. Baş qarışıqdır. Qara kağızın əlindən günümüz qaradır. Sizdə salamatlıqdır. Oğlun Nahid, maşallah, böyüyür, hələ danışır da. Özü də böyük adam kimi. Deyəsən, şair olacaq. Nahidədən heç nə yazmaq istəmirəm, doğrudan da, arvada etibar yoxdur. Vaxt gələr, özün hər şeyi bilərsən. Özündən muğayat ol, hər kəs öz başının hayındadır. Mirkərim ağa da xəstədir, əli qələm tutmur, quruyub, sənə kağız yaza bilmir. Çoxlu salamı var. Ta nə yazım, ürəkaçan heç nə yoxdur. Sağ ol, qardaş, fikir eləmə, yaman günün ömrü az olar... Bəlkə mən də könüllü fronta getdim, bezmişəm tənəli baxışlardan, sağsağan kimi qara xəbər yaymaqdan. Camaatın ta zəhləsi gedir məndən. Dostun Ziyad".

**Ümid** *(kağızı ovcunda əzir).* İnanmıram, Nahidə, inana bilmirəm. Mirkərim ağanın tərbiyəsini almış, çörəyini yemiş insan belə üzüdönüklük eləməz. Bəs, onda... Bəlkə, başında bir iş var, elə isə niyə Ziyad yazmır? Bəs bu nə eyhamdır? Allah, mənə səbir ver, hövsələ ver. *(Sanitarı çağırır).* Vanya!

**Sanitar.** Eşidirəm, yoldaş leytenant.

**Ümid.** Sənin maxorkan var?

**Sanitar.** Var, doktor!

**Ümid.** Bir papiros bük, çəkək. Heç nə soruşma, Allahı sevirsən, Vanya, papiros bük.

**Sanitar.** Oldu! *(Papiros büküb yandırır).* Buyur, doktor, əla maxorkadır, amma çox bərkdir.

**Ümid** *(çəkir və bir ağız öskürür).* Bu ki, tiryəkdir, evin yıxılmasın, başım hərləndi.

**Sanitar.** Doktor, ləzzəti ondadı da.

*Ləzzətlə bir-birinə ötürə-ötürə növbə ilə çəkirlər.*

**Ümid.** Papiros nə yaxşı şeymiş. *(Sanitara verir).* Adamı yüngülləşdirir.

**Sanitar** *(dərindən qullab vurur).* Doktor, papiros dost kimi, yoldaş kimi bir şeydi. *(Çəkir).* Qəzetdə sizin zemlyak Həzi Aslanov haqqında yazıblar. İgid oğlandı.

**Ümid.** Hanı? *(Qəzeti götürüb oxuyur).* Tank qoşunları general mayoru, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun briqadası düşməni geri oturdub.*(Fərəhdən köksü qabarır).* Sağ ol, eloğlu, başımızı uca elədin... *(Qəzeti oxumaqda davam edir).*

*İşıq azalır. Top səsləri, tank gurultusu ətrafı bürüyür.*

*İşıq tamam sönür.*

## İKİNCİ PƏRDƏ

*Ümidgilin birinci şəkildə təsvir edilən evi. Nahidə xeyli köhnəlmiş, amma səliqəli ev paltarındadır. Eyvanda oturub uşaq paltarına yamaq vurur. Axşam tərəfidir, gah öz-özünə danışır, gah da tez-tez ətrafa boylanır, gözləri yol çəkir.*

**Nahidə.** Şükür ki, bu dəfə tez yuxuya getdi. *(Qalxıb pəncərədən otağa baxır).* Mışıl-mışıl yatır, getdikcə də Umuda lap çox oxşayır, lap çox-çox. Yaman da çoxbilmişdi *(qayıdıb oturur və işinə davam edir).* Üç ildir getdiyi, yox, üç ildən çoxdur... Nə qaldığı bilinir... *(Sözün dalını deməyə ürəyi gəlmir. Yanaqlarından axan yaşı silir).* Niyə yaddan çıxartdın məni, Umud, niyə? Heç olmasa, özündən bir xəbər-ətər ver, ay namərd? Bəs biz belə demişdik, belə danışmışdıq? Mən heç, mən yad qızıyam, axı sənin gül parçası kimi balan var. Bəs demişdin... *(Sözünü bitirmir və yamadığı paltarla üzünü qapayır).* Kaş bir quş olaydım, uçaydım o yerlərə, elə uzaqdan baxaydım, görəydim neynirsən, haradasan. *(Paltarı qatlayır. Pəncərə ağzındakı iri*

*qara radionu işə salır. Musiqi səsi eşidilir. "Deyirdin ki, gözlə məni, gözləyirəm, sevgilim" sözləri ilə başlanan mahnı səslənir. Mahnı bitir, diktor informbüronun məlumatını oxuyur).*

**Diktorun səsi:** "Diqqət! Diqqət! Sovet İttifaqı Teleqraf Agentliyinin məlumatı. 1944-cü il aprel ayının səkkizində Qızıl ordu hissələri Vətən uğrunda gedən qələbə döyüşlərini uğurla davam etdirir. Faşist ordusuna sarsıdıcı zərbələr endirən rəşadətli ordumuz şəhərlərimizi, kəndlərimizi bir-birinin ardınca azad edir. Murdar düşmən sürətlə pərakəndə vəziyyətdə geri çəkilir".

**Nahidə.** Şükür sənin cəlalına, pərvərdigara! Sən özün zalımın belini qır, haqqı nahaqqa vermə. *(Doqqazın qapısı döyülür).* Lənət şeytana, bu kim ola? Allah, özün xeyir elə. *(Eyvandan düşüb doqqaza tərəf gedir).* Kimdi qapını döyən? Kimsən?

**Ziyad.** Mənəm, Nahidə, Ziyaddı.

**Nahidə.** Ziyad? Nə var, yenə nə qara xəbər gətirmisən, qapını bu vaxt niyə döyürsən?

**Ziyad.** Hə, hə, deyiləsi xəbər var, Nahidə, aç qapını, tez elə.

**Nahidə.** Nə xəbər? *(Çiyninə düşmüş örpəyini başına çəkib pıçıldayır).* İlahi, çevir məni on iki imamın başına, özün xeyir elə, onun pis xəbərini yaxşılığa yönəlt. Bu axşam bu gədədən heç gözüm su içmir.

**Ziyad.** Cinnən-şeytannan danışırsan, aç qapını, görək...

**Nahidə** *(qapını açır).* Nə var, Ziyad? Sən Allahın adı qorxutma məni.

**Ziyad** *(gəlir).* Mənə bir "xoş gəlmisən" deyən olmadı.

**Nahidə.** Umuddan xəbər var, Ziyad?

**Ziyad.** Var, mənə bir istəkan çay ver.

**Nahidə.** Nə çay, ə? Ocağı çoxdan keçirmişəm, sönüb.

**Ziyad.** Nə tez, az, hələ indi axşam düşür.

**Nahidə.** Odun var? Günorta bir az çırpı yığmışdım, o da yandı qurtardı. Neyləməliyəm?

**Ziyad.** Bəs niyə mənə demirsən?

**Nahidə.** Ziyad, niyə axı sənə deməliyəm? Sözün var, sözünü de. Umud kağız yazıb, yoxsa...

**Ziyad.** Bilirsən ki, Umuda mən qardaş demişəm...

**Nahidə** *(üzündə təlaş).* Ziyad, vallah ya səni öldürəcəyəm, ya da özümü, çatlatma ürəyimi. Qara kağız gətirmisənsə, ver, rədd ol çıx get! Umudun vəfalı qardaşına bir bax! Sən o sözlərlə Umudun başını aldada bilərdin, mənim yox. Bilirəm sənin nə cür qardaş olmağını. Hanı kağız? Ver bura.

**Ziyad.** Kağız yoxdu.

**Nahidə.** Yoxdu?

**Ziyad.** Dedim ki, yoxdu.

**Nahidə.** Allah, şükür olsun kəraminə.

**Ziyad.** Sevinmə, kaş elə qara kağız gələydi... Ondan pis xəbər var...

**Nahidə.** Nə xəbər? Yəni dünyada qara kağızdan da pis xəbər var?

**Ziyad.** Nahidə, Umud əsir düşüb, faşistlərə təslim olub.

**Nahidə.** Əsir düşüb? Harada? Necə?

**Ziyad.** Özü də könüllü. Çox dəhşətli hadisədi.

**Nahidə.** Allah, məni öldür!

**Ziyad.** Bəs mən nə deyirəm? Zərbəlinin oğlu Zakirdən məktub almışam. Yazır ki, Umud könüllü keçib nemeslərin tərəfinə. Cəbhədə aləm qarışıb, yəqin tüstü bu yana da keçər.

**Nahidə** *(gözündən od parlayır).* Yalandır! Mən inanmıram. *(Qışqırır).* İnanmıram!

**Ziyad.** Nə yalandı, az, sabah, inşallah, həqiqət olduğuna inanarsan.

**Nahidə.** Bu sənin uydurmandır. Umud o qeyrətin, namusun yiyəsi deyil ki, könüllü əsir düşsün. Bəlkə, mühasirəyə düşüb, bəlkə... *(Ağlayır).* Yalandır! Umud sağ-salamat düşmən əlinə keçməz. *(Hönkürür).*

**Ziyad.** Bilirsən də Stalin nə deyib? Deyib ki, bizim hərbi əsirimiz yoxdur, satqınlarımız var. Onlar da layiqli cəzasını alacaqlar.

**Nahidə.** Umud satqın deyil! Hanı o məktub? Göstər görüm?

**Ziyad.** Nahidə, hansı məktub?

**Nahidə.** Ciyəri yanmış Zakirin məktubu?

**Ziyad.** Az, mən elə məktubu saxlaya bilərəm, atama od vurarlar, yandırdım, kül elədim.

**Nahidə.** Umud belə iş tutmaz, o, qeyrətin sahibi deyil. Ondakı mərdlik, ləyaqət heç kəsdə yoxdur.

**Ziyad.** Neynək, təki sən deyən olsun, amma müharibə insanları dəyişir, sıxıb suyunu çıxarır. İndi görək hökumət nə deyəcək. Babası qolçomaq, o biri babası seyid-dindar – Şura hökumətinin gizli düşməni.

**Nahidə.** Dilin yansın, Ziyad! Umudda qolçomaqlıq vardı?

**Ziyad.** Bunu hökumətə necə sübut eləyəcəksən? Mən üç gündür bu xəbəri bilirəm. Əzab çəkirəm, içim qan ağlayır, Nahidə. Sənin halına yanıram. Ancaq həqiqəti gec-tez bilməliydin.

**Nahidə.** İndi mən nə etməliyəm, Ziyad?

**Ziyad.** Nə qədər ki, səs çıxmayıb, başına çarə qıl, körpə tifilini düşün. Əri, atası faşistə satılanın aqibəti necə olmalıdır, Nahidə? Heç nə deyə bilmərəm, özün tədbir tök.

**Nahidə.** Bəsdir, başım hərləndi.

**Ziyad** *(onu tutmaq istəyir).* Otur, Nahidə.

**Nahidə.** Toxunma! Özümü öldürəcəyəm, onsuz yaşamayacağam.

**Ziyad.** Niyə, Nahidə, axı niyə? Düzdü, mən Umuda qardaş demişəm, ancaq o, sənə heç məktub da yazmırdı. Yəqin çoxdan bu fikirdəymiş. Özünə yazığın gəlsin. Seyidli kəndində əsir düşən bir kişinin bütöv ailəsini, arvad-uşağını Qazaxıstan çöllərinə sürgün elədilər.

**Nahidə.** Mən özümü öldürəcəyəm, od vurub yandıracağam. *(Qaçıb lampaya əl atmaq istəyir).* Yandıracağam özümü! Yaşamaq istəmirəm. Yandıracağam...

**Ziyad** *(onu tutub qucaqlayır)* Dayan, axmaq...

**Nahidə.** Burax, burax, məni... *(Çırpınır).*

**Ziyad.** Dəlisən? Sən ağlını itirmisən? Sən... *(Qəfil öpür).*

**Nahidə.** Burax! *(Ona güclü bir şapalaq vurur).* Alçaq! Qurumsaq! Bu günü gözləyirdin?

**Ziyad** *(üzünü tutur)* Nahidə... Nahidə, mən səni sevirəm, dərdindən ölürəm...

**Nahidə.** Sən qələt eləyirsən, sən... Rədd ol! *(Hönkürür).*

**Ziyad.** Unut o satqını, o, səni çoxdan unudub. O, xain çıxıb. O ya öləcək, ya da Sibirdə sürgündə çürüyəcək. Bu ləkə üstünüzdən getməyəcək.

**Nahidə.** Vallah, qışqırıb hamını yığaram bura. Kəndi kişisiz görmüsən? Dərə xəlvət, tülkü bəy olub, şikəst köpəkoğlu.

**Ziyad.** Nə istəyirsən, de.  Söy, təhqir elə, vur, döy, amma mənə "hə" de. Mən səni sevirəm, gecə-gündüz beynimdə, ürəyimdəsən. Oğluna da atalıq eliyərəm, səni yağ içində böyrək kimi saxlayaram. Yığış gedək, tüpür o satqına, imtina elə ondan. O, niyə kişi olur!

**Nahidə** *(gedir və əlində balta qayıdır)* Ölmək istəyirsən..?

**Ziyad.** Sən dəlisən, doğrudan da dəlisən. Körpənlə – Nahidlə sürgündə çürüyəndə dadına kim yetişəcək?

**Nahidə** *(balta əlində üstünə yeriyir)* Get buradan, Ziyad, yadından çıxart məni!

**Ziyad** *(qorxur, rəngi ağarır)* Gedərəm, birdəfəlik gedərəm, amma peşman olacaqsan. Yenə üstümə gələcəksən, onda...

**Nahidə.** Kim peşman olacaq, onu Allah bilir. O, hər şeyi görür. Məni də, səni də, Umudu da. Sən özünə kişi deyirsən? Axı Umuda da qardaş deyirdin, nə tez gəldi bu qardaşlığın sonu?

**Ziyad** *(hirslənir)* Onsuz da səndən əl çəkməyəcəyəm. Ya mənim olacaqsan, ya da sürgünə gedəcəksən. Hara lazımdı, özüm xəbər çatdıracağam. *(Gedir).*

**Nahidə** *(balta əlindən düşür).* Pərvərdigara, bu xəbər doğrudursa, yalan elə, yalandırsa, şeytanın belini qır. Axı sən hansı gündə lazımsan? *(Başını örtüb namaza dayanır. Onun ancaq pıçıltıları eşidilir).*

*Mirkərim ağa gəlir. Nahidəni namaz üstə görüb dayanır və namazın sonunadək hörmətlə, razılıqla ayaq üstə dayanıb gözləyir. Nahidə namazı qılıb qurtarır.*

**Mirkərim ağa** *(öz-özünə).* Bismilləhir-Rahmənir-Rahim! Görəsən, Ziyad buna deməz? Heç inanılası deyil. Yazıq gəlin, həmişə fikir-xəyal içindədir, Umud da susur, nə kağız yazır, nə məktublara cavab göndərir. Çox müəmmalı işdir. Bu tanıdığım Umuddusa, susan deyil. Lənət şeytana! Ya Allah, özün bilən məsləhətdi.

**Nahidə** *(namaz bitir, Mirkərim ağaya yaxınlaşır).* Ağa, xoş gəlmisən, vallah, heç xəbərim olmayıb.

**Mirkərim ağa.** Qapını niyə bağlamamısan, mənim balam?

**Nahidə.** Qapını? Nə bilim, uşaq başımı elə qatır ki... İndicə yatdı...

**Mirkərim ağa.** Bəs bu nə vaxtın namazıdı?

**Nahidə.** Nə bilim, ağa. Dünən səksəkəli yuxu gördüm. Namaz qıldım, bir az sakitləşdim, ürəyim toxtadı.

**Mirkərim ağa.** Yaxşı eləmisən, namaz ruhun qidasıdı. Gələndə Ziyadı gördüm, kağız-zad gətirməmişdi ki?

**Nahidə.** Xeyr, ağa, Umuddan hələ ki, xəbər yoxdu. *(Ağlamsınır).*

**Mirkərim ağa.** Ağlamaq nədi? Səbir elə, umudunu kəsmə, Allaha pənah apar, bütün işlərin içindən yaxşısını seç. Sağ-salamatsan, gül kimi oğul payın, başının üstündə damın var. Şükür elə, Allaha ən tez çatan şükranlıqdır, qızım. Sənə bir şələ çırpı gətirmişəm, odun da göndərəcəyəm.

**Nahidə.** Ağa, ömrün uzun olsun, sən bu çətin illərdə Umudun evinə dayaq olmusan.

**Mirkərim ağa.** Bu sözlərə ehtiyac yoxdu, qızım. Sən mənim dopdoğma balamsan, Umud da elə. Allah Hitlerin evini yıxsın, elə yıxacaq da. Şərin ömrü uzun olmaz, inşallah! Neçə dəfə demişəm, bir də deyirəm, qızım, köç gəl mənim yanıma. Lap elə sabahdan. Nə deyirsən?

**Nahidə.** Ağa, Allah səndən razı olsun, amma bu evin işığını yandırmalıyam, sönməyə qoymamalıyam. Bağışla, bəlkə də ədəbsizlik edirəm. Nahid kimi kişi qırığı var burada. *(Qırışığı azca açılır).* Otur, ağa, ayaq üstə qalma. *(Yer göstərir).*

**Mirkərim ağa.** Nə deyirəm, yenə özün bilən məsləhətdi. Dava da, inşallah bugün-sabah qurtarar. Hər şey yaxşılığa sarı gedir. Səbir, dözüm, hövsələ gərəkdir.

**Nahidə.** Dava bizə çox şey öyrətdi, ağa. Həm dözməyi, həm səbir eləməyi. Adamları da tanıdıq, yaxşını da gördük, pisi də.

**Mirkərim ağa** *(yaşına yaraşmayan tərzdə qızarır).* Bu pulu da götür...

**Nahidə.** Sağ ol, ağa, pula ehtiyacım yoxdur. Axı sən pulu haradan alırsan?

**Mirkərim ağa.** Bilirsən ki, seyid ocağı kasad olmur, qızım. El-oba həmişə qulluğumda durub, elə bu dava illərində də nəzir-niyazımı gətiririrlər. Allah bəndələrinin əli ilə ruzumu yetirir. Arxayın ol, götür bu beş-on manatı, ayın-oyun al evinə, körpə balan var.

**Nahidə** *(pulu alır).* Allah verən əlini, səxavətini kəsməsin, ağa.

**Mirkərim ağa.** Yaxşı, mən gedim, sabah uşağı da götür gəl bizə. Kəklik nənən günorta umac bişirəcək, axşama da mərcili aş. Di salamat qal.

**Nahidə.** Mütləq gələcəyəm, ağa, Nahidi də götürüb gələcəyəm!

*Mirkərim ağa gedir. Nahidə ovcundakı pula baxır.*

**Nahidə.** Ağa nəsə bilir, yoxsa onun evinə köçməyimə belə təkid eləməzdi. Bəlkə, xəbər kəndə yayılıb? *(Fikirli-fikirli gəzinir).* Məni Nahidlə – körpəmlə sürgünə göndərəcəklər. Onun nə günahı var? Bəlkə... Bəlkə, mən olmasam, uşağa dəyməzlər? Körpə uşağı sürgünə ki, göndərməyəcəklər... İlahi, mənə yol göstər, bir işarə ver. Yol göstər, yol göstər mənə, Allahım! *(Hönkürür).* Haradasan, Umud, haradasan?!.

*İşıq tamam sönür.*
*Kətan parça enir.*

*İşıq təzədən yanır. Silah səsləri eşidilir. Növbəti səhnənin iştirakçıları. Ümid də onların arasındadır, onlar döyüş səsləri səngiyəndə qələbə ruhlu əsgər marşını xatırladan mahnı oxuyurlar. Mahnı bitir. Kətan parça qalxır. Bura səyyar hərbi hospitalın qarşısıdır. Əl-qolu sarıqlı, başı bağlı insanlar, qoltuq ağaclı bir neçə əsgər var. Ümid mayor for-*

*masındadır. Əsgərlərdən biri ucadan qəzet oxuyur, digərləri isə həyəcanla, vəcdlə qulaq asırlar. Ümid nəsə yaza-yaza qulaq asır.*

**Sanitar** *(qəzet oxuyur).* Rəşadətli Sovet Ordusu artıq Berlini mühasirəyə almışdır. Faşistlərin son sığınacaq yeri, dünyaya meydan oxuyan Berlin qırıcı təyyarələrimizin bomba zərbələrindən lərzəyə gəlir. Qəhrəman sovet xalqının mərd övladları – ruslar, ukraynalılar, azərbaycanlılar, gürcülər, qazaxlar, özbəklər böyük vətənimizin, dağıdılıb viran qoyulmuş şəhərlərimizin, kəndlərimizin, minlərlə, on minlərlə həlak olmuş insanlarımızın qisasını alırlar.

**Kolya.** Hayıf, mən orada deyiləm, hayıf, yaralandım, yoxsa özüm dağıdardım Berlini. Bratskoyenin əvəzini çıxardım... *(Başını tutur, ağrıdan iki qatlanır).*

**Ümid.** Kolya, Kolya... Belə olmaz, Kolya, sən bizim içimizi çətinləşdirmə, sənə sakitlik lazımdır, başla zarafat olmaz, axı kontuziya...

**Kolya** *(sözünü ağzında qoyur).* Mən necə sakit olum, yoldaş mayor? Mənim vətənim yoxdur.

**Yaşlı əsgər.** Bəsdir, Kolya, bu nə sözdür, necə yəni vətənim yoxdur? Bəs dünyanın altıda birini əhatə edən böyük SSRİ, onun bir parçası – gözəl Ukrayna sənin Vətənin deyil?

**Kolya.** Batya, mənim evimi, ailəmi, kəndimi yer üzündən siliblər. Mən bunun əvəzini necə çıxmalıydım? Hə, necə?

**Ümid.** Kolya, sən qisasını almısan. Elə olmasaydı, döşündə "Qızıl ulduz" ordeni parlamazdı? O orden sənə nəyə görə verilib? Əlbəttə, şəxsi igidliyinə görə. Biz hamımız qisasımızı almışıq, indi qəti qələbəni gözləyirik. Bu gözəl yaz bizə qələbə bayramı gətirəcək. Həhayət, qanımızla suvarılan torpaq dincələcək, insanlarımız azad nəfəs alacaqlar.

**Yaralı əsgər.** Doktor düz deyir. Bu qələbə bizim hamımızındır. Sənin, mənim, arxa cəbhədə gecə-gündüz qol çırmayan ana və bacılarımızın, qızlarımızın qələbəsidir. Bu qələbə zavodlarda, tarlalarda böyükləri əvəz eləyən yeniyetmələrimizin, azərbaycanlı neftçilərin, Sibir şaxtaçılarının, Özbəkistan pambıqçılarının qələbəsidir.

**Sanitar.** Bütün bunlar çox gözəldir, qardaşlar, amma bu saat Berlinə girən döyüşçülərimizin arasında olmaq üçün canımdan keçərdim.

**Şeydabəy.** Can qardaş, nə deyir bu? Umud duxdur, bunun nəyi var keçsin?

**Sanitar.** Nə dedin, Şeydabek? Doktor, o sizin dildə nəsə dedi.

**Ümid.** Şeydabəy, ayrı-seçkilik salma, inciyər. *(Sanitara).* Şeydabek deyir ki, bir gülməli lətifə danışmaq istəyirəm.

**Yaşlı əsgər.** Əla, çoxdandır gülmürük. Şeydabek, danış, amma əməlli danış, tələsmə, sən rusca danışanda, ruslardan başqa hamı başa düşür.

**Şeydabəy** *(qəhqəhə çəkir).* Yaxşı, yaxşı...

**Kolya.** Yaxşı, Şeydabek, uzatma, danış.

**Şeydabəy.** Aramızda erməni yoxdu ki?

**Ümid.** Allah eləməsin.

**Şeydabəy.** Onda danışım. Deməli, Rubençik adlı bir sarsaq erməni düşür bizimkilərin kampaniyasına. Yeyib-içirlər... Erməni Ruben görür ki, ona fikir verən yoxdu, hop eləyib çıxır ortaya ki, indi burada kimsə döyüləcək. Görür fikir verən yoxdur, lap bərkdən qışqırır ki, ara, eşitmirsiniz, bu gün burada kimsə döyüləcək. Məclisin aparıcısı ona hörmətlə yanaşır. Deyir gəl şeytanın atından düş, kefimizə soğan doğrama, məclisi korlama. Erməni Ruben lap qızışır, erməniliyindən əl çəkmir və yumruğunu stolun tən ortasına vurur: "Ara,

eşitmədiniz ki, kimsə bu gün burada döyüləcək?" Səbri daşan tamada tutur bunun yaxasından, sifətinə kuvald boyda yumruğu ilə necə ilişdirə varsa, Ruben leş kimi sərilir yerə. Yerdə çapalayan Ruben az sonra özünə gəlib deyir: "Ara, bə mən demədim ki, burada kimsə döyüləcək? *(Qəhqəhə çəkir).* Gördünüz?

*Hamı Şeydabəyə qoşulub qəhqəhə çəkir.*

**Şeydabəy.** İndi Hitler anasını... ihı, ihı... xəbərdarlıq elədi ki, kimsə döyüləcək. Dünyanı xaraba qoyacaq, Napolyondunədi ondan olacaq, ara yerdə anasını qoydu baqaja... (*Daha bərkdən gülür. Ümumi qəhqəhə güclənir).* Ümid, sən bilərsən, unun anası var. *(Daha bərkdən gülüşürlər.)* İndi növbə sizindir. Qatso hanı yoldaş Stalinin mahnısını oxusun.

**Ümid.** Qatsoya dəyməyin, yarası bərk ağrıyır, yuxu dərmanı vermişik, qoy dincəlsin.

**Yaşlı əsgər.** Bizim nəsil çox ağır sınaqlardan keçdi: inqilab, aclıq, sinfi mübarizələr... Rahat nəfəs almamış, bu yandan da bu müharibə çıxdı, amma biz xoşbəxtik. Şəxsən özümdən deyim ki, xoşbəxtəm. Niyə, səbəb nədi, bilmirəm? Amma qəlbimdə bir ruh yüksəkliyi var.

**Ümid.** Bu hiss, bu xoşbəxtlik qələbənin müjdəsidir, Batya, ilin də gözəl vaxtıdı. Yaz gələndə insanın ruhu təzələnir. Hiss edirsiniz yazın nəfəsini? İndi bizim yerlərdə ağaclar çiçəkləyib, dağlar, meşələr zümrüd rəngindədir. Quşlar səs-səsə verib oxuyur, ona görə də bizim yerlərin adamları oxumağı, musiqini çox sevirlər.

**Yaşlı əsgər** *(zarafatla).* Biz buna necə inanaq, doktor?

**Ümid** *(çaşır).* Batya, siz mənim sözümə şübhə edirsiniz?

**Sanitar** *(gülür).* Yoldaş mayor, Batya demək istəyir ki, sübut eləyin. Yəni yaxşı bir Azərbaycan xalq mahnısı oxuyun

**Ümid.** Yox, onu bacarmayacağam.

**Şeydabəy.** Oxu, eloğlu, bir muğamat oxu.

**Sanitar.** Doktor, sizin oxumağınız çox təsirlidir, özüm eşitmişəm.

**Kolya.** Mən də eşitmişəm. Oxu, doktor, sözümüzü yerə salma.

**Ümid.** Neynək, oxuyaram, muğam yox, bir xalq mahnısı oxuyaram. *(Oxuyur.)*

*Dağlarda bir maral var,*
*Başında tirmə şal var,*
*Adı çıxmış yadımdan,*
*Üzündə qara xal var.*
*Dilbərim, dilbərim,*
*Gəl, gəl, ahu balası.*
*Uca dağlar arası...*

**Yaşlı əsgər.** Bu ki, çox qəmli mahnıdı.

**Kolya.** Doğrudan da, mənim gözlərim yaşardı. *(Gedir).* Mahnı kövrək və təsirlidi.

**Ümid.** Əslində bu çox şən məhəbbət mahnısıdır, nədənsə, mənim ifamda qəmli alınır... *(Yaşarmış gözlərini gizlədir).*

**Şeydabəy** *(Umuda).* Can qardaş, indi mən uxuyum. Sən də çırtı çal uyna *(Oxuyur.)* Xanda-xanda, benlə yesti xanda... *(Mahnını bitirməyib, qəhqəhə ilə gülür).* Yaxşı, siz mənim başımı qatmayın, mən bir azdan yola düşməliyəm.

**Sanitar.** Heyif ki, gedirsən, Şeydabek, səninlə adam qəmkədər nədi bilmir. Səfərin haradır?

**Şeydabəy.** Can qardaş, eta vayennaya tayna... Əlvida, qardaşlar, bir də gördün ta görüşmədik, nə bilmək olar. *(Bir-bir hamı ilə qucaqlaşır).* Kolya hanı?

*Birdən "Ura!" səsləri səhnəni bürüyür. "Qələbə!", "Ura!" səsləri getdikcə güclənir. Səhnədə aləm bir-birinə qarışır.*

**Kolya** *(qaça-qaça gəlir)*. Qardaşlar, qələbə! Bratsı, pobeda! Hitler kaput!

*Hamı bir-birilə qucaqlaşır, öpüşür. Elə bu şənlik fonunda Levitanın ifasında qələbə mətni səslənir. Hamı səssizcə qulaq asır.*

*İşıqlar sönür.*

*İşıq yanır. "Dilbərim" mahnısı ifa olunur. Kətan parçası qalxır. Umudgilin həyəti. Dörd yaşlı uşaq öz-özünə oynayır. Taxta avtomatdan atəş açır, durur-yıxılır. Bu, Nahiddir. O, qaça-qaça səhnədən çıxır. Ümid əlində çamadan, çiynində çanta bu mənzərəni seyr edir. Həyət-bacaya, qapısı qıfıllı evə baxır.*

**Ümid.** Bu da mənim ev-eşiyim, xanimanım. Suyu sovulmuş, dəni qurtarmış dəyirmanı xatırladır. Ziyadın yazdıqları doğru imiş. Şübhə eləyirdim, axıra kimi inanmırdım. *(Sifətini soyuq tər basır).*Vəfasız çıxdın, Nahidə, etibarsız oldun. İşığımı söndürdün, ləyaqətini axıracan qoruya bilmədin, sınağa dözmədin. Məni el arasında başıaşağı, gözükölgəli elədin. Bəs nə oldu, niyə sənin Allahın sənə düzgün yol göstərmədi?

**Nahid** *(qaça-qaça gəlir və kətildə oturmuş Ümidi görüb dayanır və nə fikirləşirsə, taxta avtomatı ona sarı tuşlayıb qışqırır)*. Əllər yuxarı!

**Ümid** *(diksinib çönür və Nahidi görür)*. Nə dedin, neyniyim?

**Nahid.** Əllər yuxarı!

**Ümid.** Yaxşı. *(Əllərini qaldırır).* Sən deyən olsun. Bəs sonra?

**Nahid.** Sən nemessən?

**Ümid.** Yox, mən nemesə oxşayıram?

**Nahid.** Hayıf ki, nemes deyilsən.

**Ümid.** Yoxsa neynərdin?

**Nahid.** Vurardım... Tı- tı- tı... Vurardım səni.

**Ümid.** Yaxşı, vurma məni, gördün ki, ta nemes deyiləm. Yaxşı, gəl tanış olaq.

**Nahid** *(yaxınlaşır).* Sənin adın nədir?

**Ümid.** Əvvəl əl ver. *(Əlini açır. Nahid əlini onun əlinə şappıldadır.)* Ay maşallah, sən nə güclü oğlansan. Lap pəhləvana oxşayırsan.

**Nahid.** Babam da deyir, mən güclüyəm, atam kimi.

**Ümid.** Baban kimdi? Adı nədir?

**Nahid.** Mirkərim baba.

**Ümid.** Mirkərim baba? Bəs atan kimdi? Axı Mirkərim babanın oğlu yoxdu.

**Nahid** *(çaşır).* Var... Niyə yoxdu...

**Ümid.** Bəs sən atanın adını bilmirsən?

**Nahid.** Niyə bilirəm? Umud!

**Ümid** *(sarsılır).* Umud? Doktor Umud?

**Nahid.** Əsgərdi mənim atam, itkin düşüb. Deyirlər, gəlməyəcək.

**Ümid.** Bilmirsən onu kim dedi? Bəs sənin öz adın nədir?

**Nahid.** Nahid.

**Ümid.** Nahid? Sən Umudun oğlu Nahidsən? *(Onu bərk-bərk qucaqlayır).* Nahid, balam mənim, balam... *(Nahid ağlayır).* Yox, ağlama, qorxma, mən özgə adam deyiləm, mən sənin atan Umudam. Mən itkin düşməmişəm, mən buradayam, sənin yanında. *(Onu bərk-bərk qucaqlayır. Mirkərim ağa gəlir. Onları görüb ayaq saxlayır).* Mən səni görəcəyimə inanmırdım, yox, inanmır-

dım, Nahid, mən sənə görə vuruşurdum, mən sənə görə yaşayırdım... *(Ağlayır).*

**Mirkərim ağa.** Umud, bu sənsən? İlahi, kəreminə şükür! Sənə pənah gətirməyən kafirdir. *(Dəsmal çıxarıb gözlərinin yaşını silir).*

**Ümid** (*Nahiddən aralanıb, Mirkərim ağa ilə qucaqlaşır).* Ağa! Ağa, mən evdəyəm, bu mənim... (*Nahidi göstərir).* Ağa, bu mənim...

**Mirkərim ağa.** Utanma, Umud, "oğlum" deməkdən utanma, o sənin oğlundur. O körpəyə "oğlum" deməkdən böyük xoşbəxtlik yoxdur, bala. Peyğəmbərimiz də balalarını çox sevərdi. *(Ağlayır).* Qurbanı olduğum deyərdi ki, körpələrinizin başına tumar çəkmək səadətindən özünüzü mərhum etməyin. O, beş il sənin yolunu gözləyib.

**Ümid.** Ağa, bağışla məni. *(Körpəni bir də qucaqlayır).*

**Mirkərim ağa.** Şükürlər olsun sənə, pərvərdigara... *(Nahidə).* İndi get oyna, başına dönüm, yoldaşlarına de ki, atan gəlib, Kəklik nənənə də de ki, Umud gəlib, sağ-salamat gəlib...

**Nahid** (*qışqırır).* Atam gəlib, atam, mənim atam gəlib! *(Qaça-qaça gedir).*

*Bir anlıq sükut çökür. Ümid gözlərini silir. Mirkərim ağa da dodaqaltı nəsə pıçıldayır, oturur. Hər ikisi sözə başlamaqda çətinlik çəkir.*

**Mirkərim ağa.** Maşallah olsun, Nahid çox fəhmli, fərasətli oğlandır, yaşından çox qabağa gedib. Parlaq gələcəyi var.

**Ümid.** Kənddə nə var, nə yox, ağa?

**Mirkərim ağa.** Kənddə kəndlik qalmayıb, bala. Aclıq çəkib, xəstəliklər görüb, ölən ölüb, qırılan qırılıb, qalan da bax belə... Nə deyim, özün görəcəksən. Niyə özündən bir xəbər vermirdin, Umud, bu nə sirr idi?

**Ümid.** Yazırdım, ağa, cavab almırdım, sonra da elə şeylər eşitdim ki... Tüpürdüm hər şeyə, məni yaşadan o tifil oldu. Ağa, bilirdim ki, onu bu ağır zamanda sən saxlayırsan. Ömrüm boyu sənə borcluyam.

**Mirkərim ağa.** Borc nədi, sən də, Nahidə də mənim balalarımsız, sizin balanız mənim də balamdı. Amma ki... Nə eşitmisən, necə eşitmisən? Kim sənə nə çatdırıb?

**Ümid.** Görünən dağa nə bələd, ağa? *(Evi göstərir.)* Niyə mənim qapım bağlıdır? Hanı bu evin arvadı, hanı əhdüpeyman, etibar, hanı onun ləyaqəti, arvadlıq siması? Əsl qadının da bir kişi ləyaqəti olmalıdır.

**Mirkərim ağa.** Dayan, Umud, qızışma. Oğlum, günaha batma, şeytan aldatmasın səni. Nə baş veribsə, özün şahid olacaqsan.

**Ümid.** Bəs hanı o, ağa. Frontdan qayıtmış ərini, uşağının atasını qarşılasın. Başqa arvadlar ərlərini qarşılayan kimi niyə qabağıma çıxmır?

**Mirkərim ağa.** Onun harada olduğunu mən də bilmirəm, oğul. Bir axşam uşaq bizə gəldi. Nahidədən kağız gətirdi ki, Umud könüllü əsir düşüb. Guya onu da, uşağı da sürgün eləyəcəklər, ona görə gözdən-qulaqdan uzaqlaşır.

**Ümid.** Bu nə deməkdir, ağa, bunu kim uydurub? Mən sıravi əsgər kimi gedib mayor kimi qayıtmışam, nə qədər ordenim, medalım... Ağa, mən bir dəfə yox, on dəfə, yüz dəfə ölümlə göz-gözə dayanmışam... Bu nə iyrənc uydurmadır? Kim deyib bunu? Bəlkə bu, o vəfasızın öz uydurmasıdır, əməllərinə haqq qazandırmasıdır?

**Mikərim ağa.** Deməyinə Ziyad deyib. Mənə də demişdi, amma heç kəsə bildirməmişdim. Demə, xəlvətcə Nahidəyə də bildirib.

**Ümid** *(təəccüblə).* Ziyad? Mənim dost, qardaş bildiyim adam?! O belə qələt eləyə bilməz! *(Yerindən götürülür ki, getsin).*

**Mikərim ağa.** Dayan, Umud! Hara gedirsən? Ziyad daha yoxdu. Lələ köçüb, yurdu qalıb. Dayısı tutulandan sonra onu da göndərdilər davaya. O gedəndi, səsi-sorağı yoxdu. İlim-ilim itib, heç qara kağızı da gəlməyib.

**Ümid** *(sərt halda).* O niyə belə iş tutub, ağa?! Niyə?

**Mirkərim ağa.** Bilmirəm, oğul. Bəlkə də o başıbatmış indi axirət dünyasındadı, cəzasını böyük Yaradan özü verəcək. Sən hələ tələsmə, sakitləş...

**Ümid.** Siz niyə inandınız. Yəni Nahidə məni belə şərəfsiz bilirdi? Niyə inanırdı Ziyada, niyə səninlə məsləhətləşməyib?

**Mirkərim ağa.** Oğlum, Allahdan gizli deyil, səndən nə gizli. Pis vaxt idi, çuğullar çox idi. Camaatın ürəyində qorxu var idi. Məni addımbaaddım izləyirdilər. Səsimi çıxara bilmirdim. İnandın-inanmadın, söz çıxandan sonra imdadımıza çatan, yetən olmayacaqdı. Buna Şura hökuməti deyərlər. Umud, torban gərək həmişə çiynində olsun. Bu qələbə səni aldatmasın.

**Ümid.** Bəs yeganə balasını atıb getmiş o vəfasız indi haradadı?

**Mirkərim ağa.** Umud, yenə deyirəm, qoy şeytan səni aldatmasın. Nahidə doğma qızım olmasa da, mənim halal çörəyimi yeyib. O, xəyanət yolunu tutmaz. O, əslində özünü elə sənə, Nahidə qurban verib. Tez nəticə çıxarma, oğlum. Dedim axı, səbirli ol.

**Ümid.** Neynək, ağa, səbirli olaram, mən elə uşaqlıqdan dərd çəkməyə öyrəncəliyəm. Ponta çarı Yevpator zəhərlənməkdən qorunmaq üçün hər gün az miqdarda zəhər udarmış. Mən də dərdə qram-qram, yeri gələndə batman-batman alışmışam. Bu dərdin də öhdəsindən gələcəyəm.

**Mirkərim ağa.** İnşallah! Deyir, hərəkətul-ibər sari atun, harakətul-iqbal batıatun. Yəni ki, bədbəxtliyin yürüşü yeyin, xoşbəxtliyinki astadır. Yaxşısını isə Allah bilir. *(Qalxır).* Gedək, oğlum, kənd içi ilə gedək bizə. Qoy hamı görsün ki, Umud doxtur, nəmxuda, mayor kimi kəndinə qayıdıb.

**Ümid.** Gedək, ağa, gedək. Biz istəsək də, istəməsək də yaşamalıyıq. Həyat yenidən başlayır.

**Mirkərim ağa.** Ambulatorun da yerindədi. Düzdü, qapısı bağlıdı, pəncərəsi-şüşəsi qırılıb-tökülüb, amma daş-divarı yerindədi, başlayarsan işə. Yəqin orada da sənətini işlətmisən?

**Ümid.** Elədi, ağa, indi mən əməlli-başlı cərraham. Əlimdən yüzlərlə, minlərlə yaralı keçib, amma kənddə qala bilmərəm. Rayon mərkəzində, şəhər xəstəxanasında iş təklif eləyiblər, ora gedəcəyəm, Nahidi də aparacağam özümlə.

**Mirkərim ağa.** Allah işini avand eləsin, Umud. Elə ora da bizimdi, arada beş-altı verst yol var. Gedək, bala, çıxaq kəndə. Sənin üzün hamının yanında ağdı.

**Ümid.** Buyur, ağa. Yol böyüyündü. *(Gedirlər).*

*Sonra işıq yananda kiçik kətan parçası bağlı görünür. Ümid əlində həkim çantası pərdənin qabağından keçib gedir. Pərdə qalxır. Səhnənin dibində palata. Nahidə çarpayıda uzanıb. Xeyli dəyişib, amma gözəlliyini o qədər də itirməyib. Tibb bacısı onun nəbzini yoxlayır, sonra qoluna iynə vurur.*

**Tibb bacısı.** Qorxma, hər şey yaxşı olacaq, bu iynə ağrıları azaldacaq. Həkim də indi gəlib çıxar. Oğlu anasız uşaqdı, birinci sinifə gedir. Onu məktəbə yola salmağa aparıb, indi qayıdacaq. Çox insaflı adamdı, əlləri də qızıldır. (*Gedir).*

*İşıq səhnənin ön tərəfinə düşür. Bura baş həkimin otağıdır.*
*Ümid gəlir, çantasını qoyub ağ xalat geyinir.*

**Ümid.** İllər atlıdır. Nahid də məktəbli oldu. Birinci sinif şagirdidi.

**Tibb bacısı** (*gəlir*). Ümid həkim, salam, sabahınız xeyir.

**Ümid.** Sabahın xeyir, Gülər xanım, necəsən? Mənə Ümid həkim deyən bir sənsən, keçmişdə kənddə hamı məni Umud çağırardı.

**Tibb bacısı** (*utanır*). İstəsəniz, mən də Umud deyərəm.

**Ümid.** Hə, hə, elə Umud de. Nə var, həycanlısan?

**Tibb bacısı.** Həkim, bir xəstə gətiriblər, halı çox pisdir, huşu gah itir, gah qayıdır. Onda böyük ruh düşkünlüyü var. Heç kəsi də yoxdur.

**Ümid.** Həkimə ta ayrı nə deyirlər ki?

**Tibb bacısı.** Təbrik eləyirəm, oğlunuz məktəbə gedib, qədəmləri mübarək!

**Ümid.** Hə, bax bu yaxşıdır, çox sağ ol. Maşallah, çox ürəkli uşaqdı, sinifə birinci girdi. Yaxşı, sən bilən o kimsəsiz xəstənin dərdi nədir?

**Tibb bacısı.** Mədə xorasına oxşayır, bərk ağrıları var. Gətirəndə mədəsini tutmuşdu, amma dözümlü qadındı, heç səsini çıxartmadı.

**Ümid.** Yaxşı, gedək baxaq. Bəlkə, heç cərrahlıq iş yoxdu?

*Gedirlər. Palata işıqlanır.*
*Ümid xəstəyə yaxınlaşır və Nahidəni görüb diksinir.*

**Ümid.** Bu ola bilməz!

**Nahidə** (*gözüyumulu pıçıldayır*). Umud...

**Tibb bacısı** (*heyrətlə*). Doktor, o "umud" dedi. O sizi görmür, amma "umud" dedi.

**Ümid** (*geriləyir və tez özünü ələ alır*). O yazıq sayıqlayır, yəqin, Allahdan ümid diləyir.

**Tibb bacısı.** Halı pisdir. Huşu özündə deyil.

**Ümid.** Ağrıkəsici bir iynə də vur, iki doza... Nəsə, mənim də halım pis oldu. Özümü yaxşı hiss eləmirəm, kabinetdəyəm.

**Tibb bacısı.** Həkim, rənginiz də ağardı, xəstənin vəziyyəti sizə pis təsir elədi, bəlkə...

**Ümid.** Narahat olma, sən onu gözdən qoyma, bir azdan qayıdacağam. *(Gedir).*

*Ümid işıqlanan kabinetə keçir.*
*Həyəcanla var-gəl edir. Əllərini ovuşdurur.*

**Ümid.** Niyə həmişə qəribə işlər mənim başıma gəlir? Mən artıq onu ürəyimdə dəfn eləmək istəyirdim, buna nail olduğum vaxtda təzədən qarşıma çıxdı? Özü də belə bir vaxtda, Nahidin məktəbə ayaq açdığı birinci gündə. Bəlkə, bu Allahın işarəsidi? Bəlkə, onun heç bir günahı yoxdu? (*Əllərini ovuşdura-ovuşdura var-gəl eləyir).* Bəlkə, böhtanlara görə günah yiyəsi elə özüməm? Neyləməliyəm, ilahi? O, çox dəyişib, xoşbəxt olmadığı dərhal hiss olunur. Bəlkə, Ziyad o əsirlik məsələsini uydurduğu kimi... (*Fikrə gedir. Qulaqlarına Ziyadın səsi gəlir və bir azdan həmin səs səhnədə də eşidilir).*

**Ziyadin səsi.** "...Qardaşım Umud, o vəfasız çıxdı, körpə uşağını – sənin oğlunu atıb kiməsə qoşulub getdi...". *(Səs eşidilməz olur).*

**Ümid.** Bəs indi... Mənə xəyanət eləyən, ləyaqətini qorumayan qadını həyata qaytarım, sağaldım ki, sabah qəhqəhə çəkib mənə gülsün? Yox! Amma o, "Umud" dedi, açıqca "Umud" çağırdı, mənim adımı çəkdi... Burada nəsə bir sirr var.

**Nahidə** *(səsi eşidilir).* Yaxşı adın var, Umud... Sən mənim umudum, pənahımsan. Sən mənim yellər yıxmaz, sellər aparmaz, odlar yandırmaz arxamsan. Sənsiz mənim nə günüm, nə güzəranım? Umud, sənsiz özümü sellərə ataram, odlarda kül eləyərəm. Özgə kimsəyə baxmamaq üçün

gözlərimi ovub çıxararam. Mənim dualarım sənin adınla başlayır, adınla qurtarır, Umud. Dua həmişə öz yiyəsini, ünvanını tapır. İnşallah, mənim dualarım da harada olsan, səni tapacaq. Səni qəfil gülədən, ölümdən, şərdən qoruyacaq. Ulu yaradan bilir ki, mən yetimin pənahı, umudu sənsən...

**Ümid.** Yalandır!.. Yalandır!.. Sən məni gözükölgəli elədin. Sən mənim ləyaqətimi tapdaladın, məni başıaşağı elədin. *(Hirslə gözlərinin yaşını silir).* Amma mən səni sağaldacağam, bütün pisliklərinin acığına səni sağaldacağam. Mütləq sağaldacağam və sənin vəfasız, etibarsız üzünə, gözlərinə baxacağam... *(Gedir).* Əgər gözlər aynadırsa, o gözlərdən xəyanəti də oxuyacağam, məhəbbəti də, mənə olan sədaqəti də, ləyaqəti də.

*Mirkərim ağa gəlir. Ətrafa baxır və əyləşməyə yer axtarır.*

**Mirkərim ağa..** Ya Allah! (*Boş stulların birində əyləşir).* Hə, Umud gələndən buralar abıra düşüb. Nəmxuda, işi də yaxşıdı. Deyir, gecədən sonra gündüzün gəlməyi labüddür. Pisdən sonra yaxşının gəlməyi zərurətdir. Gözün biri ağlayanda o biri gülür. Hikmət də elə bundadır.

**Ümid** *(gəlir).* Ağa, xoş gəlmisən, xeyirdimi?

**Mirkərim ağa.** Oğul, şərə-şeytana lənət. Hər şey xeyirədir. Əhd eləmişdim ki, Nahid balamın ayağı ilk dəfə məktəb həyatına dəyəndə qurban kəsəcəyəm. Əhdimə əməl eləməyə gəlmişəm. Özüm bəslədiyim bir qoç qapınızdadır. Gəldim ki, səni də götürüm gedək. Yəqin uşaq da bir azdan məktəbdən qayıdar.

**Ümid.** Çox sağ ol, ağa, bu gün qəribə gündür.

**Mirkərim ağa.** Qəribəliyi nədədi, müəmmalı danışırsan, bala.

**Tibb bacısı** (*gəlir).* Salam! Doktor, nə qərara gəldiniz, hazırlayaq xəstəni əməliyyata?

**Ümid.** Yox, Gülər, hələlik əməliyyata ehtiyac yoxdur. Bir neçə gün konservativ müalicə eləyək, sonra baxarıq...

**Tibb bacısı.** Sağ olun, doktor! Bədbəxtin heç kəsi yoxdur.

**Ümid.** Bir saatdan sonra bir sistem də eləyərsiz.

**Tibb bacısı.** Baş üstə, doktor.

**Ümid.** Özünə gəlib?

**Tibb bacısı.** Yaxşılaşır. Gözünü açdı, su istədi.

**Ümid.** Çox yaxşı, indi mən gedirəm, qonağım var. Çatdırsam, axşam gəlib dəyərəm.

**Qadın** *(gəlir).* Hanı doxdur? *(Mirkərim ağanın üstünə yeriyir.)* Ay ağsaqqal, doxdur sənsənmi?..

**Mirkərim ağa.** Höysələli ol, ay arvad! Səbir elə!

**Qadın.** Bu nə deyir? *(Şəfqət bacısına).* Niyə dillənmirsən, a bala? Hanı doxdur? *(Umudu elə bil indicə görür.)* Boy, doxdur, sənə canım qurban, ölüm ayaqlarının altında.

**Ümid.** Elə demə, xala. Mən getməliyəm, sözünü de.

**Qadın.** Gedirəm nədi, a bala? O binəva gəlini yarmısan, indi də atıb gedirsən?

**Tibb bacısı.** Xala, dedim axı, həkim əməliyyat eləmədi. Ehtiyac olmadı, dava-dərmanla sağaldacaq.

**Qadın.** Nə deyirsən, ay qız?

**Tibb bacısı.** Vəziyyəti yaxşılaşır.

**Qadın.** Boy, Allah səni xoşbəxt eləsin, üzün ağ olsun! *(Oturmağa yer axtarır).* Bir tabretqa ver, qıçlarım qırıldı. *(Keçib Ümidin yerində oturur).*

**Tibb bacısı.** Doktor, mən gedirəm. (*Gedir).*

**Ümid.** Xala, de görüm nə istəyirsən, tanıyırsan o xəstəni? Nəyindi?

**Qadın.** Boy, tanıyırsan da sözdü? Neçə vaxtdı evimdə qalır. Elə bir gəlindi ki, ta nə deyim. Dilsiz-ağızsız. Yazıq qorxur. Heç kimə deməsəm də sizə deyirəm, namaz da qılır. Dua eləyəndə tez-tez də ağlayır. Nəsə dərdi var, açıb demir. Amma nə gəlindi, namuslu-qeyrətli.

**Mirkərim ağa.** Deyirsən, namaz qılır?

**Qadın.** Qılanda nə olar?

**Mirkərim ağa.** Eşidirsən Umud? Adı nədi o gəlinin?

**Qadın.** Adı? Boy... Adı Hicrandı.

**Mirkərim ağa** *(məyus)* Hicran... Ayrılıq deməkdi...

**Qadın.** Amma canıyanmış necə gözəl idi. Gözəl yox ey, mələk idi, mələk. İndi tərk olub, dərd-qəm əydi yazığı, axırda da belə. O qədər ki, o dərd çəkirdi, bilirdim axırı balnısalıq olacaq.

**Şeydabəy** *(səs-küylə gəlir).* Duxdur Axundov, can qardaş!

**Qadın** *(diksinir).* Bissmillah, bu kimdi?

**Ümid.** Şeydabəy! *(Qucaqlaşırlar).* Osmanbekov, sən salamatsan? Bəs dedilər... Ağa, bu mənim cəbhə yoldaşımdır. Əslən qafqazlıdır. Bığ qoyub deyə o saat tanımadım.

**Mirkərim ağa.** Çox gözəl, çox pakizə.

**Şeydabəy** *(Mirkərim ağanı ehtirasla qucaqlayır).* Can baba, xuş gördük...

**Mirkərim ağa.** Allahu əkbər!

**Şeydabəy** *(Mirkərim ağanı buraxıb qadını qucaqlayır).* Can nənə, bir nağıl de... *(O üzündən, bu üzündən öpür).* Duxdurun anası mənim də anamdır.

**Qadın.** Vay, vay... Nəfəsim kəsildi, bu kimdi belə?

**Ümid.** Şeydabəy, sən hara, bura hara? Gün hayandan çıxıb?

**Şeydabəy.** Can qardaş, sənin yanında üzü qarayam...

**Ümid.** Xala, sən arxayın ol. Get, hər şey yaxşı olacaq.

**Qadın.** Xəstəni qoyub, hara gedirəm, a bala?

**Mirkərim ağa.** Allahu əkbər!

**Şeydabəy.** Can qardaş, karoçe, deyim ki, sizdən ayrılandan sunra getdim yenə nemeslərin atalarını yandırdım. Qələbə çalsaq da, hələ iş çox idi. Karoçe, oralarda sənin bir yerlinlə tanış oldum.

**Ümid.** Mənim yerlimlə? Adı nə idi?

**Şeydabəy.** Ziyad Qəribov.

**Mirkərim ağa.** Ziyad Qəribov?

**Şeydabəy.** Tak toçno!

**Ümid.** Sonra, Şeydabəy, sonra, harada, necə? Bir danış görüm!

**Şeydabəy.** Can qardaş. Polşa sərhədini keçəndə bədbəxt oğlu möhkəm yaralanıb, göndəriblər geriyə.

**Qadın.** Anası ölsün, mənim gədəmin də qara kağızı gəldi... *(Ağlayır).*

**Şeydabəy.** Toxta, ana, sənin Umud kimi doxdur oğlun var. Dedi, Şeydabek, mən ölürəm, bu məktubu çatdırarsan üstündə yazılan ünvana. Can qardaş, baxdım ki, yazılıb çatacaq Axundov Umuda. Adres-zad da, can qardaş, necə lazımdı. Qoydum cibimə, dedim çatdıraram, arxayın ol!

**Ümid.** Bəs sonra?

**Şeydabəy.** Ta nə sonra? Ziyad yazıq öldü.

**Mirkərim ağa.** Allah rəhmət eləsin.

**Şeydabəy.** Mən də qayıtdım Mahaçqalaya, eşitdim ki, bir tabasaranlı bacıma sataşıb. Bıçaqladım. Bir az yatdım, frontovik olduğuma görə tez buraxdılar. İndi də ki, buradayam. Bu da məktub. *(Qoltuq cibindən məktubu çıxarıb verir).* Allah kəssin tələsik işi! *(Qəhqəhə çəkib gülür).* Bunu poçtla da göndərə bilərdim, amma dedim, məktubu aparıb özüm versəm yaxşıdı. Həm də frantovoy dostumla görüşsəm, pis olmaz. Biz beləyik, can qardaş. Dağlı gec gələr, güclü gələr. *(Gülür).*

**Qadın.** Oxu görək rəhmətlik nə yazıb?

**Mirkərim ağa.** Allahu əkbər!

**Ümid** *(üçqat bükülmüş əsgər məktubunu açır).* Onun, Ziyadın xəttidir.

*Səhnə dəyişir. Yarıqaranlıq səhnədə işıq Ziyadın üzünə düşür və məktub Ziyadın səsi ilə oxunur.*

**Ziyad.** "Əziz dostum, Umud, bilmirəm, bu məktub sənə çatacaq, ya çatmayacaq, amma yazıram. Allah kərimdi. Mirkərim ağa deyərdi ki, ölümayağı adam günahlarını boynuna alıb tövbə eləyərsə, Allah günahından keçər, onu bağışlayar. Sənə bir sirrimi açım. Mən Nahidəni çoxdan sevirdim, səndən də qabaq, ancaq o, səni seçdi, məni bəyənmədi. Mən sakit ola bilmirdim, fürsət düşdükcə onu ələ keçirməyə çalışırdım. O isə məni rədd edir, hətta təhqir də edirdi. Sən cəbhəyə gedəndə sevindim, dedim, nəhayət, istəyimə çatacaram, sevgimə qovuşaram. Olmadı. O, ləyaqətini, ismətini üstün tutdu, tapdamadı. Sifətimə vurduğu şapalaq hələ də üzümü yandırır, məni aldığım güllə yarasından da bərk incidir. Onda mən hirsimdən uydurdum ki, sən könüllü almanlar tərəfə keçmisən. Qorxutdum onu, lakin bu kələyim də kömək eləmədi. Əlinə balta alıb üstümə cumdu. Bu yalanım da məni istəyimə qovuşdurmadı. Əvəzində Nahidə mənim əlimdən başını götürüb qaçdı. Qorxdu ki, onunla birgə uşağı da sürgünə göndərərlər. Bunları niyə yazıram? Bilirəm ki, ölüm ayağında hər bir insan üzünü Allaha tərəf çevirir, ona pənah aparır. Mən bu günahla ölmək, onun dərgahına suçlu getmək istəmirəm. Əgər bacarsan, məni bağışla. Mən səni, həqiqətən çox istəyirdim, amma nəfsimlə bacara bilmirdim. Bir Allah şahiddir ki, Nahidə təmizdi, güzgü kimi ləkəsizdi. O, sənə həmişə sədaqətli olub. Əgər onu görsən – inanıram

ki, görəcəksən – siz xoşbəxt olacaqsınız. Qoy o da bacarırsa, məni bağışlasın. Qıymayın ki, qərib torpaqda qəbrim od tutub yansın. Əlvida, dostun Ziyad". *(Ziyadın üzünə düşən işıq sönür).*

*Səhnə işıqlanır.*

**Ümid** *(hirsli və təlaşlı).* Bədbəxt! Bədbəxt oğlu! *(Göz yaşlarını silir).*

**Mirkərim ağa.** Umud, sən ağlayırsan?

**Ümid.** Ağa, bu həm sevinc, həm də qəm yaşlarıdır. Xoşbəxt insanlar bir-birinə bənzəyir, bədbəxt insanların isə hərəsi bir cür bədbəxtdir.

**Qadın.** Bəs məni, o yazıq gəlini niyə demirsən?

**Şeydabəy.** Can qardaş, bilsəydim ki, bu bir parça kağız səni ağladacaq, gətirməzdim.

**Ümid.** Yox, yox, Şeydabəy, çox sağ ol. Bu məktub mənim gözümü açdı, bütün həyatımı dəyişdi, məni ayıltdı. Mən ən qiymətli adamımı itirə bilərdim. İndi hər şey mənə gün kimi aydındır, çox sağ ol, əziz dost! Ağa, gedək o xəstə qadının yanına.

**Mirkərim ağa.** Oğlum, Umud, bəlkə mən...

**Ümid.** Ağa, sən onu görməlisən. Hə, hə, hökmən görməlisən.

**Qadın.** Allah səni Tur dağına göndərsin, doxdur. Sən ki, belə nəcib insansan, ta nə deyim? Vallah, billah, söz tapmıram.

**Ümid.** Şeydabəy, sən bir az gözlə, indi qayıdıram. Gedək, ağa...

*Getmək istəyirlər. Zəif addımlarla,*
*xəstə geyimində Nahidə gəlir.*

**Ümid.** Nahidə! *(Üstünə yüyürür).*

**Nahidə.** Umud! *(Ümidin qucağına yıxılır).*

**Mirkərim ağa.** Pərvərdigara, sənin nə hikmətlərin varmış? Şükür kəraminə!

**Qadın.** Nahidə niyə, a bala, o Hicrandı, mənim qızımdı.

**Şeydabəy**. Ağa, bu nə deməkdir?

**Mirkərim ağa.** Gəlin biz çıxaq, sonra başa salaram sizi, tələsməyin. Onların bir-birinə deməli sözü çoxdur. Beş ildir görüşmürlər.

**Qadın.** A kişi, o qız mənimdir, adı Hicrandı. Nahidə haradan peyda oldu?

**Mirkərim ağa.** Allahu əkbər! Ay arvad, səbir elə! Səbir imandandır. Gedək, mən sənə hər şeyi başa salaram, hövsələni bas. Uşaq deyilsən ha?

*Mirkərim ağa, Şeydabəy və Qadın gedirlər.*

**Ümid.** Nahidə, mənim xallı maralım, bağışla məni. Günah yiyəsi özüməm.

**Nahidə.** Umud... Umud, sən buradasan, səni buraxıblar... Gözüm məni aldatmır ki? Bəlkə ağlım çaşıb?

**Ümid.** Mən hər şeyi bilirəm, Nahidə, hər şeydən xəbərim var. Mirkərim ağa da bilir, o da... *(Dönüb baxır və tək olduqlarını görüb Nahidəni qucaqlayır).* Mən səni sevirəm, indi həmişəkindən də çox sevirəm.

**Nahidə** *(ondan aralanır)* Sevirsən? Məni? Axı indi mən kiməm, xəstə, solğun, kimsəsiz... *(Ağlayır).*

**Ümid.** Sən indi daha gözəlsən, daha məlahətlisən, sevdalı mələyim... *(Ehtirasla Nahidəni öpür).*

**Nahidə** (*çaşqın vəziyyətdə).* Allah, məni öldür, bu nə gündü. Burax, burax, Umud, gələn olar. Özünü ələ al...

*Nahid çiynində məktəbli çantası sevinə-sevinə gəlir.*

**Nahid.** Ata, mən gəldim, mən gəldim.

**Nahidə.** Nahid, oğlum, balam... (*Hönkürür*).

**Nahid** (*əvvəl duruxur*). Ana! Ana...! (*Üstünə yüyürür*).

*Nahidə uşağı qucaqlayır, üz-gözünü, boynunu yalayır.*

**Nahidə.** Sən məni tanıdın? Tanıdın, bədbəxt ananı?

**Ümid.** Uşağın qəlbini qırma, niyə bədbəxt olursan, Nahidə?

**Nahid.** Tanıdım... O saat tanıdım.

*Ümid onların hər ikisini qucaqlayır.*

**Ümid.** İlahi, bu qədər dərd-bəladan sonra sən mənə xoşbəxtlik verdin. Nahidə, Mirkərim ağa necə deyərdi? Hər bir kədərin sonu xoş sevincdi. Haqq nazilər, amma üzülməz. Axırda qalib gəlir, necə ki, faşist təcavüzü məğlubiyyətlə, böyük bir ölkənin iflası ilə nəticələndi. Onların məğlubiyyəti bizə qələbə gətirdi. Bu qələbədə həm də mənim – bu kiçik ailəmin də payı var.

*Kiçik kətan parça enir.*

# EPİLOQ

*Qələbə marşı səslənir.*
*Bütün iştirakçılar kiçik kətan parçasının önündə sıralanır.*
*Musiqi. Heydər Əliyevin iri portreti işıqlanır.*

**Mətn.** "Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur".

***Heydər ƏLİYEV***

*"Dilbərim" mahnısının sədaları fonunda işıq sönür.*
*Mahnı yarımçıq kəsilir.*

*İşıqlar sönür.*

*Pərdə*

SON

# Cəza quyusu

*(İkipərdəli pyes)*

*Faşist Almaniyası üzərində qələbənin 60 illiyinə həsr olunur.*

## *İştirak edənlər:*

**Nurlan** – *vətənpərvər və qeyrətli ziyalı*
**Rəmzi** – *Nurlanın dostu*
**Mirheydər ağa** – *bağban*
**Yavuz bəy** – *zavod direktoru*
**Uğur**
**Rəsi**
**Nilufər**
**İmran** } *Qarabağ uğrunda gedən döyüşlərin iştirakçıları Azərbaycan əsgərləri*
**Bircəxanım** – *Yavuz bəyin arvadı*
**Təhsin** – *Yavuz bəyin bacısı oğlu*
**Tayfur** – *Təhsinin əlaltısı*
**Balaca Uğur** – *Rəmzinin oğlu*
**Balaca Nilufər** – *Nurlanın qızı*
**Qurgen**
**Raçik** } *erməni döyüşçüləri*
**Erməni yaraqlıları**

# BİRİNCİ PƏRDƏ

*Həzin musiqi sədaları altında pərdə açılır. Alaqaranlıq səhnə, səliqəli bir bağ. Bağda Qarabağ döyüşlərində şəhid olmuş igidlərin xatirəsinə abidə ucaldılıb. Kimsə yanıqlı-yanıqlı bayatı çağırır.*

**Səs.** *Əzizinəm Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ.*
*Aləm cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*

*Bayatı səsləndikcə işıq yavaş-yavaş çoxalır və səhnə tam işıqlanır. Mirheydər ağa əlində gül şitilləri səhnəyə daxil olur.*

**Mirheydər ağa.** Hər dəfə bu abidənin ətrafında gül əkəndə, elə bil dünyadan vaxtsız köçmüş bu cavanların hənirini hiss edirəm. (*Gül şitillərini əkə-əkə*) Nə gördülər bu dünyada? Ən böyüyü iyirmi beş yaşındaydı... Nədənsə, Niluferi həmişə "Tomris", – deyə çağırırdım. Xoşu gəlsə də dərindən ah çəkər və deyərdi: – Eh, ağa, Tomris olsaydım, əlimə silah götürüb cəbhədə düşmənlə döyüşərdim, daha şəhərdə oturub cəbhə xəbərlərini televiziyadan izləməzdim... Mənim Nilufər balam günlərin bir günü Tomris oldu, cəbhəyə yollandı və düşmənlə döyüşdə şəhidlik məqamına ucaldı... Bu da son mənzili. Adı igid oğullarımızın adları ilə birgə tarixə düşdü... İndi bu qara mərməri oxşamaqla qəlbimi ovudur, təsəlli tapıram. Amma eyni zamanda fikirləşirəm ki, belə

olmaya da bilərdi... Heyif ki, qırğının qabağını alan kişi gec gəldi... İndi bunların hərəsi ailə qurmuş, ev-eşik sahibi olmuşdular. Heyif, çox heyif...

*Mirheydər ağa şitilləri əkib qurtarandan sonra bağda gəzişməyə başlayır və yavaş-yavaş ağacların arxasında gözdən itir. Bu vaxt Rəmzi ilə balaca Uğur əllərində gül dəstəsi gəlirlər.*

**Rəmzi.** Uğur, bu yerlər yadına gəlirmi?

**Balaca Uğur.** Əlbəttə! Biz bura qışda – yanvarın iyirmisində gəlmişdik. Onda hər tərəfə qıpqırmızı qərənfillər və qızılgüllər düzülmüşdü. Ancaq bu güllər (*qızılgül kollarını göstərir*) bir qədər solğun idi.

**Rəmzi.** Hə elədir, qışın şaxtası qızılgülləri soldurmuşdu. (*Əli ilə qızılgül kollarını və təzə əkilmiş şitilləri göstərərək*). Bilirsən bunları kim əkib qayğısına qalır?

**Balaca Uğur.** Yox. Görəsən, bu xeyirxah adam kimdir?

**Rəmzi.** Mirheydər ağa. Sən ki onu görmüsən, hələ bir başını da sığallayıb.

**Balaca Uğur.** Hə, hə!... Yadıma düşdü... Keçən dəfə gələndə görmüşəm... Qoca kişidi...

**Rəmzi.** Düz on iki ildir ki, burada bağbanlıq edir, özü də pulsuz-parasız...

**Balaca Uğur.** On iki ildir?

**Rəmzi.** Hə. Yəni bu abidə ucaldılandan...

**Balaca Uğur.** Bu ay mənim də on iki yaşım tamam olacaq...

**Rəmzi.** Hə... Martda əmin şəhid oldu, mayda sən dünyaya gəldin... Sənə əminin adını qoymuşuq...

**Balaca Uğur.** Ata, nənəm deyir ki, mən Uğur əmimə çox oxşayıram, həm də onun kimi inadam. Düz deyirmi?

**Rəmzi.** Düz deyir. Əmin ailəmizdəki beş uşağın ən kiçiyi və ən ərköyünü idi. Davaya gedəndə bizə bildirməmiş, xəbərimiz olmadan könüllü olaraq cəbhəyə yollanmışdı. Bir neçə gündən sonra məktub aldıq ki, cəbhədə, döyüşən ordu sıralarındadır.

**Balaca Uğur.** *(Cibindən yaylıq çıxarıb mərmər abidənin tozunu silə-silə)* Ad günümdə sinif yoldaşlarımı bura gətirəcəyəm. Qoy görsünlər ki, mənim necə igid və qəhrəman əmim olub. Müəllimimiz deyir ki, Vətən uğrunda şəhid olanların yeri cənnətdir...

**Rəmzi.** Mirheydər ağa da belə deyir...

**Balaca Uğur.** Bəs onda niyə kədərlənirsən?

**Rəmzi** *(dərindən ah çəkir)*. Doğmaların itkisi adama həmişə qəm-qüssə gətirər. Amma vaxt hər dərdi köhnəldir. Əvvəllər bura gələndə göz yaşlarım sel olub yanaqlarımdan axırdı. Görürsən, indi ağlamıram...

**Balaca Uğur.** Nurlan əmi də belə yazır...

**Rəmzi.** Haradan bilirsən?

**Balaca Uğur.** Keçən il ad günümə gələndə hədiyyələrin arasında "Cəza quyusu" adlı bir kitab da gətirmişdi:

**Rəmzi.** Sən o kitabı oxumusan?

**Balaca Uğur.** Əlbəttə...

**Rəmzi.** Axı, sən yaşda uşağın o kitabdakıları dərk eləməsi çətindir...

**Balaca Uğur.** Düzdür, çox şey başa düşməsəm də, oxudum. Bir dəfə kitab barədə onunla söhbətim də oldu. Bir neçə sualıma cavab da verdi və axırda gülüb dedi ki, Uğursan ki, Uğur.

**Rəmzi.** Baxaq görək əminə layiq oğlan olacaqsan, ya yox. Bunu zaman göstərəcək. Hər kəsin bir taleyi, bir qisməti var. *(Bir qədər düşündükdən sonra).* Nurlan əmini təbrik etməyi yadından çıxarma. Elə bu gün zəng elə.

**Balaca Uğur.** Ad günüdür?

**Rəmzi.** Yox, ad günü deyil, deputat seçilib.

**Balaca Uğur.** Müəllimimiz deyirdi ki, bir qohumları deputat seçilən kimi telefonunun nömrəsini dəyişib...

**Rəmzi.** Bu nə sözdü, Uğur? Nurlan əmi çox sadə adamdır (*Yaxınlıqdakı abidəni göstərir*). Bax, bu abidəni də o ucaltdırıb. Adları mərmərə həkk olunmuş bu qəhrəmanlar Nurlan əminlə bir yerdə işləyiblər. Onda Nurlan əmin o zavodun baş mühəndisi idi, indisə direktorudur.

**Balaca Uğur.** Ata, deməli, əmim həm yazıçı, həm də zavod direktorudur?

**Rəmzi** *(qürurla).* Bəli, oğlum. Allah ona xüsusi istedad bəxş edib. O həm də tanınmış alimdir. Dünyanın bir çox ölkələrində onun ixtiralarından istifadə olunur. Yazıçı kimi də hamı tərəfindən qəbul olunur.

**Balaca Uğur** (*sevincək*). Ata, odur, Nurlan əmi də bura gəlir.

**Rəmzi** (*Balaca Uğurun göstərdiyi səmtə baxır*). Hə, özüdür. Nə xoş təsadüf? Mirheydər ağa demiş: – Əməlisaleh adam həmişə gəlib sözünün üstünə çıxar.

*Nurlan Balaca Nilufərlə gəlir.*
*Hər ikisinin əlində gül dəstəsi var.*

**Nurlan.** Xoş gördük, Rəmzi! Baho, mənim balaca dostum Uğur da buradadır ki! (*Görüşürlər.*) Hə, igid, necəsən? (*Balaca Uğurun alnından öpür.*) Əminin xatirəsini yad etməyə

gəlmisən? Mən də hər il Nilufəri gətirirəm. Qoy görsün ki, burada da bir Nilufər var.

**Balaca Uğur.** Nurlan əmi, sizi təbrik edirəm.

**Nurlan.** Nə münasibətlə?

**Balaca Uğur.** Deputat seçilməyiniz münasibətilə.

**Nurlan.** Gör ha! Maşallah, hər şeydən xəbəri var.

**Rəmzi.** Nurlan müəllim, mən də Uğurun təbrikinə qoşuluram. Siz gərək çoxdan Milli Məclisdə olaydınız.

**Nurlan.** Nə deyim? Görünür, qismət belə imiş...

**Rəmzi** *(Nurlana)* Ürəyimə dammışdı ki, sizi hökmən burada görəcəyəm.

**Nurlan.** Belə bir gündə bura gəlməmək olar? Sənə bir sirrimi açım. Ən qəmli-kədərli anlarımda mütləq bura gəlirəm, dərdimi Vətən yolunda şəhid olmuş dostlarımla bölüşürəm... Amma elə bilmə ki, bura yalnız kədərli vaxtlarımda baş çəkirəm. Şad günlərimdə də arabir yolumu buradan salıram. Belə bir günümdə dostları yaddan çıxara bilməzdim. (*Sonra Nilufərə sarı dönüb əlindəki gülləri ona uzadır)* Nilufər, qızım, güllərimizi abidənin üstünə düz.

**Rəmzi** *(bir qədər əsəbi şəkildə).* Nurlan müəllim, hərdən öz-özümə düşünürəm: Madam ki, torpaqlarımızı itirəcəkdik, onda, niyə xalqımızın ən cəsur, igid övladlarını güllə qabağına göndərdik?

**Nurlan** (*Dərindən köks ötürərək Balaca Uğurla Balaca Nilufəri göstərir, sonra da Uğura*) Uğur, oğlum, siz bağda gəzin, biz də bir qədər Rəmzi ilə dərdləşək.

*Balaca Uğurla Balaca Nilufər asta addımlarla*
*onlardan uzaqlaşırlar.*

**Nurlan** *(əlini Rəmzinin çiyninə qoyur və bir qədər hüznlü səslə).* Mənə elə gəlir ki, sən məsələyə birtərəfli yanaşırsan.

Düşmən qarşısında əllərimizi göyə qaldırıb təslimmi olmalıydıq? Uduzanda da mərdliklə, döyüşə-döyüşə uduzmaq lazımdır. Əgər Uğur, Nilufər, Rəsi, İmran olmasaydı, kim bilir, rus imperiyasının üstümüzə qısqırtdığı ermənilər indi haralarda olardı? Qanımız nahaq yerə tökülməyib. Əvəzində azadlığa çıxmışıq – müstəqillik qazanmışıq, dövlətimizi qurmuşuq. Əlbəttə, bu o demək deyil ki, torpaqlarımızı geri almamalıyıq. Bax, Uğur şəhid olub, əvəzində Balaca Uğur var, Nilufər şəhid olub, əvəzində Nilufər var, Rəsi şəhid olub, əvəzində Balaca Rəsi var... Əgər dünən onlar Vətən uğrunda şəhid olmasaydılar, bu gün adlarını övladlarımıza verərdikmi?..

**Rəmzi.** Düzdür, ancaq hamı sizin kimi düşünmür və düşündüklərinizi bir çoxları anlamır, ya da anlamaq istəmir.

**Nurlan.** Rəmzi, Mirheydər ağa necə deyirdi? Hə, hə, yadıma düşdü: İmam Hüseyn az qüvvə ilə böyük qüvvəyə, hakimiyyəti qəsb etmiş Müaviyə oğlu Yezidə qarşı çıxanda məğlub olacağını, doğmalarının və özünün cismən məhv ediləcəyini əvvəlcədən bilirdi, amma haqq yolunda olduğundan bu məğlubiyyətin özündə də insanlığa və İslam dininə bir qələbə təsiri bağışlayacağına inanırdı. Faciələr, ölüm-itimlər bəzən millətlərin inkişafında təkan verir, qəhrəmanlar azadlığın qurumaqda olan ağacını qanları ilə suvarır, gələcək qələbələrin təməlini qoyur.

**Rəmzi.** Haqlısan. Amma yurdumuzun müxtəlif guşələrində çiyin-çiyinə vermiş şəhid qəbirlərini və şəhidlərin qanı hesabına Vətən torpağında qayğısız həyat sürən, yağ içində böyrək kimi bəslənən, Vətənin dar günündə tülkü libasına girən qeyrətsizləri görəndə, elə bil ürəyimin başına xəncər soxulur.

**Nurlan.** Kim nə fikirləşir fikirləşsin, insan bildiyi, düşündüyü həqiqəti deməli, haqq saydığı işi yerinə yetirməlidir... Bir şərtlə ki, gördüyün işə həqiqəti sevən insanların gözü ilə baxasan. Bir də, Vətəni ev-eşiyindən, milləti qohum-əqrəbasından və özü kimi şərəfsizlərdən ibarət olanlar həmişə olub və həmişə də olacaqlar. Buna görə nə Vətəndən, nə də vətəndaşlardan rəncidə olmağa dəyməz.

**Rəmzi.** Son vaxtlar içimdə, nəsə, bir tərəddüd vardı. Çox sağ olun ki, bu sözləriniz ruhuma sakitlik, fikirlərimə aydınlıq gətirdi.

**Nurlan.** Rəmzi, mən yaşı əllini haqlamış, yaxşını pisdən ayırmağı bacaran bir insanam. Çox şeylərin şahidi olmuşam və nə danışıramsa, gördüklərimdən, az-çox bildiklərimdən danışıram. Özün de, son on-on iki ildə nələri görmədik? Xalqın başına hansı müsibətlər gəlmədi? Sadiq, sabitqədəm bildiklərimizin min cür hiylə və xəyanəti ilə üzləşdik. Meydanlarda əliyalın insanları imperiyaya qarşı döyüşə səsləyənlərin iç üzünü də gördük, hakimiyyətə gələndən sonra xalqa necə arxa çevirdiklərinin, necə xırdalandıqlarının da şahidi olduq. İmperiya tanklarının qarşısında duruş gətirən oğullar vəzifə əldə edəndən sonra rüşvət qarşısında davam gətirə bilmədilər, sındılar... Yavuz bəy yadındadırmı?

**Rəmzi.** Yavuz bəy? Mirheydər ağanı işdən çıxaranımı deyirsən?

**Nurlan.** Düz tapdın, həmin Yavuz bəyi deyirəm.

**Rəmzi** *(dərindən köks ötürür).* O, Uğura da kələk gəlmişdi.

**Nurlan.** Rəmzi, bilirsən nə oldu? İnqilab dalğası ilə hakimiyyətə gələnlərin çoxunun müvəffəqiyyətdən başı gicəlləndi. Millətlə elə davrandılar ki, onları çiyinlərində hakimiyyətə gətirən xalq az qalmışdı gələcəyə – müstəqilliyə və azadlığa olan ümidini itirsin.

**Rəmzi.** Qarışıq dövr idi. Adamları savadına və səriştəsinə görə yox, hay-küyünə, yalançı canfəşanlığına görə vəzifəyə qoyurdular. Nəticəsi nə oldu? İflas və faciə! Hərə ölkəni bir tərəfə çəkdi. Əl boyda Azərbaycanı min yerə parçalamaq istədilər.

**Nurlan.** Rəmzi, ariflər deyiblər ki, inqilabı dahilər düşünür, fanatiklər həyata keçirir, qıraqda gəzən şərəfsizlər isə bəhrəsini görür. Təəssüf ki, bu hadisə bizdə də baş verdi. Amma yaxşı ki, gec də olsa, qarşısını alan tapıldı.

**Rəmzi.** Nurlan müəllim, çox arxayın danışırsınız. Dedikləriniz həqiqətdir, amma hakimiyyət davası səngisə də, davam edir. Vəzifələrini itirənlər siyasət səhnəsindən geri çəkilmək istəmirlər.

**Nurlan.** Çünki ağızlarında şirə qalıb...

*Bu vaxt Balaca Uğurla Balaca Nilufər gəlirlər.*

**Nurlan.** Mirheydər ağanı gördünüzmü?

**Balaca Nilufər.** Yox...

**Balaca Uğur.** Nurlan əmi, mənim sizə bir sualım var.

**Nurlan.** Buyur.

**Balaca Uğur** *(yaşına uyğun olmayan bir ciddiliklə).* Bax, indi siz deputatsınız. Deyə bilərmisiniz kimin tərəfindəsiniz: müxalifətin, yoxsa iqtidarın?

**Rəmzi** *(Uğura baxıb göz ağardır).* Uğur, bu sənin yaşına uyğun sual deyil...

**Nurlan.** Rəmzi, uşaqla işin olmasın. Seçki ərəfəsində biz kino-teatrlarda, klublarda, məktəblərdə, həyətlərdə insanlarla görüşlər keçirirdik. Onlar da müxtəlif suallar verirdilər. Yəqin, Uğur bu sualı oralarda eşidib. Açığını deyim ki, bu, sual mənim özümü də çox düşündürür... *(Uğurun başını sığallayır).* Uğur, balaca dost, istər müxalifətdə, istərsə də iqtidar-

da olum, yəqin bil ki, Azərbaycan xalqının, haqqın, ədalətin tərəfindəyəm. Deputat olacağım müddətdə yaxşı əməllərinə görə iqtidarı da, müxalifəti də təqdir edəcək, pis işlərinə görə isə hər ikisinə qarşı mübarizə aparacaq, qısası, haqqın tərəfində olacağam.

**Rəmzi.** Nurlan müəllim, buna gücünüz çatacaqmı?

**Nurlan** *(qətiyyətlə).* Çatacaq, mütləq çatacaq! Mən şəhidlərin məzarı önündə and içirəm ki, yalnız haqqın, ədalətin xidmətçisi olacağam. (*Balaca Uğurla Balaca Nilufərin başlarını tumarlayır*). Mən bunlara – Azərbaycanın gələcək vətəndaşlarına söz verirəm.

*Mirheydər ağa gəlir.*

**Mirheydər ağa.** Baho!.. Kimləri görürəm! Nə gözəl gündür! Nurlan, Rəmzi, mənim körpə nəvələrim – Uğur, Nilufər... (*Hamısı ilə bir-bir görüşür.)* Hər dəfə sizi görəndə gözümə işıq gəlir.

**Nurlan.** Ağa, necəsən?.. Maşallah yaxşı görünürsən... Bağına da ki, söz ola bilməz...

**Balaca Nilufər** *(Nurlana).* Ata, bu bağdakı güllər bizim gətirdiyimiz güllərdən daha ətirlidir.

**Mirheydər ağa** *(qılıqlı səslə Nilufərə).* Görünür, siz holland gülləri almısınız. Baha olmasına baxmayın, elə görünüşləri var, ətri bizim güllərin ətrinə çatmaz...*(Nurlana tərəf dönür).* Nurlan, deyirdin ərizə vermisən, deputat olmaq istəyirsən, axırı necə oldu?

**Rəmzi.** Ağa, Nurlan müəllim deputat seçilib...

**Mirheydər ağa** *(sevinc və səmimiyyətlə).* Nurlan, bu Rəmzi nə deyir? Necə ola bilər ki, sən deputat seçiləsən, mənim bundan xəbərim olmaya?

**Nurlan.** Ağa, mandatımı bir qədər bundan əvvəl almışam. Gəldim həm sənə xəbər verim, həm də şəhidlərimizin məzarlarını ziyarət eləyim...

**Mirheydər ağa.** Gəl bir səni öpüm. *(Nurlanı qucaqlayıb öpür.)* Şükür olsun ilahinin kərəminə ki, qurbanımı qəbul elədi.

**Rəmzi** (*gülə-gülə*). O nə qurbandı elə, ağa?

**Mirheydər ağa.** Əhd eləmişdim, Nurlan deputat seçilsin, bir ağ qoçum var, qurban kəsim, paylayım əlsiz-ayaqsızlara.

**Nurlan.** Çox sağ ol, ağa.

**Balaca Uğur.** Ata, biz bağda bir az da gəzmək istəyirik.

**Rəmzi** (*zarafatla*). Bağın bağbanından – Mirheydər ağadan icazə alın.

**Mirheydər ağa.** Bir şərtlə icazə verirəm ki, bir də gələndə tək gəlməsinlər, yoldaşlarını da gətirsinlər...

**Balaca Uğur və Balaca Nilufər** *(bir yerdə).* Baş üstə!

*Balaca Uğurla Balaca Nilufər böyüklərdən uzaqlaşırlar. Bağdakı gül kollarının arxasında əl-ələ tutub söhbət edirlər. Sözləri səhnədə aydın şəkildə eşidilir.*

**Balaca Uğur.** Böyüyəndə mən də əmim kimi qəhrəman olacağam.

**Balaca Nilufər.** Yox, mən istəmirəm ki, sən öləsən.

**Balaca Uğur.** Elə bilirsən bütün qəhrəmanlar ölürlər? Yox! Mən hərbçi olacağam, torpaqlarımızı düşmənlərdən azad edəcəyəm, bütün şəhidlərimizin intiqamını alacağam...

**Rəmzi** (*onların arxasınca*). Çox uzağa getməyin, bir azdan evə qayıdacağıq...

**Nurlan.** Uşaqları çox sıxma-boğmaya salma, qoy sərbəst olsunlar.

**Mirheydər ağa.** Mən bilən, zəmanə uşaqları sərbəstlikdən heç korluq çəkmirlər... Allahın gözü üstlərində olsun.

**Nurlan.** Ağa, çox sağ ol ki, buraları belə abad və səliqəli saxlayırsan. Nəyə ehtiyacın var? Çətinliyin yoxdur ki?

**Mirheydər ağa.** Nurlan, açığını deyim ki, bağ sənin yardımınla abadlaşıb. Amma nə edəsən ki, abadlaşdıqca, dərd-səri azalmır, əksinə, çoxalır...

**Nurlan.** Başa düşmədim, ağa...

**Mirheydər ağa.** Nə deyim, necə deyim? Biri bu bağda kafe, çayxana açmaq, birisi də ağacları kökündən çıxarıb iyirmi dörd mərtəbəli bina tikmək istəyir... Deyirəm, a bala, olmaz, şəhidlərə hörmət eləyin... Üz-gözlərini turşudur, "Yuxarıdan icazəmiz var", – deyə məni hədələyirlər...

**Nurlan.** Ağa, sən narahat olma. Mən bu məsələni nəzarətə götürər, lazımı yerlərlə əlaqə saxlayıb bağın dağıdılmasının qarşısını alacağam.

**Mirheydər ağa.** Allah səndən razı olsun.

*Bu vaxt Balaca Uğurla Balaca Nilufər*
*qorxmuş halda gəlirlər.*

**Rəmzi.** Nə olub, Uğur, nədən qorxmusunuz?

**Balaca Uğur.** Qorxmamışıq, ata...

**Rəmzi.** Bəs onda niyə bu kökdəsiniz?

**Balaca Uğur.** Bir kişi ağacın arxasından qəfil çıxdı... Dəli kimi...

**Nurlan.** Nə kişi, necə kişi?

**Rəmzi.** Sizə toxundumu? *(Uşaqların gəldiyi səmtə tərəf getmək istəyir.)*

**Mirheydər ağa.** Getmə, Rəmzi, Yavuz bəydi... Nurlanla mənim köhnə tanışımız...

**Nurlan** *(heyrətlə)*. Yavuz bəy?

**Rəmzi.** Sizin keçmiş direktorunuz?

**Mirheydər ağa.** Bəli, həmin Yavuz bəy! Neçə vaxtdı ki, buralarda hərlənir...

**Nurlan.** Ağa, o hara, bura hara? Görəsən, nə məqsədlə bura gəlir?

**Mirheydər ağa.** Bilmirəm. Danışmır, elə hey Uğurgilin abidəsinə baxır. Dodağının altında nəsə mızıldanır, mızıldanır, sonra da kirimişcə çıxıb gedir.

**Nurlan.** Bəlkə, nəsə bir problemi, yardıma ehtiyacı var? Üç ay əvvəl Milli Məclisin əfv komissiyasındakı bir dostumdan xahiş etmişdim ki, onun aministiyaya düşməsinə kömək etsin. Bildiyimə görə onu əfv eləyiblər.

**Mirheydər ağa.** Nə bilim, ay Nurlan, Allaha ağır getməsin, havalı adama oxşayır... Bir-iki dəfə yanımdan keçib...

**Nurlan.** Tanımayıb?

**Mirheydər ağa.** Yox...

**Rəmzi.** Görünür, günahları Yavuz bəyi cəza quyusuna salıb...

**Balaca Uğur.** Nurlan əminin "Cəza quyusu"na?

**Nurlan.** Əslində o əsərin qəhrəmanı elə Yavuz bəydi...

**Balaca Uğur.** Nurlan əmi, axı, orada Yavuz bəy obrazı yoxdur.

**Nurlan.** Uğur, sən həqiqətən də çox diqqətli və dərrakəli uşaqsan. Yavuz bəyin adını dəyişib Nakəs qoymuşam. Amma görürsən, ad heç nəyi dəyişmir, hər kəs öz payını götürür...

**Mirheydər ağa.** Allah Yavuz bəyə bir qapı açmışdı, özü öz əli ilə bağladı.

**Nurlan.** Dostlarına qənim kəsildi. Müvəffəqiyyətdən başı gicəlləndi, çaş-baş qaldı.

**Mirheydər ağa.** Allaha ağır getməsin, it qursağı yağ götürməz. Səni hər vasitə ilə vurmaq, gözdən salmaq, işdən uzaqlaşdırmaq istəyirdi.

**Nurlan.** Əslində, o, səhv eləmirdi. Mən, həqiqətən də, Yavuz bəy kimilərinə düşmən idim. Mitinqlərdə xalq, azadlıq deyib qışqırmaqla iş bitmir. Müstəqilliyi qazanmaq çətindirsə, onu əldə saxlamaq ondan da çətindir. Qəribəsi bu oldu ki, xalqın azadlığı uğrunda qurban getməkdən dəm vuranlar hakimiyyətə gəlmək üçün xəyanətə də əl atdıqları kimi, hakimiyyətə gələndən sonra xalqa xəyanət də etdilər.

**Mirheydər ağa** *(Nurlana).* Sözünüzə qüvvət, Peyğəmbərimiz deyib ki, millətin içində xain olmasa, qarşısındakı düşmən tab gətirə bilməz.

**Rəmzi.** Bəli, ağa, xəyanət olmasaydı, torpaqlarımızı itirməz, Şuşa, Laçın, Kəlbəcər kimi alınmaz qalalarımızı yağılara təslim etməzdik.

**Nurlan** *(bir qədər əsəbi).* Acınacaqlısı budur ki, məğlubiyyətlərimizdən nəticə çıxarmırıq. Zaman sürətlə dəyişir, insanlar yeni dünyanın yeni qaydalarla idarə olunmasını istəyirlər, içərimizdəki sapı özümüzdən olan baltalar isə, təzə-təzə ayaq üstə durmaq istəyən müstəqil dövlətimizi hər vasitə ilə sarsıtmaq, təzədən hakimiyyəti ələ keçirmək istəyirlər. Özü də köhnə, elə on il bundan əvvəlki üsullarla. Ən pisi də budur ki, hakimiyyətə qayıtmaq üçün xalqa deyil, bizi istəməyən xarici dövlətlərin köməyinə ümid bəsləyir, düşmən dəyirmanına su tökürlər. Ağa, vallah belə alçaq olmaz!

**Mirheydər ağa** *(bir qədər düşüncəli).* Demokratiya deyib bağıran Yavuz bəy bircə sözümə görə məni işimdən qovdu, arvad-uşaq yanında urvatsız elədi. İndi gəlib qəbirlərin arasında gəzir, deyəsən, itmiş vicdanını axtarır. Nurlan, inan ki, ona yazığım gəlir.

**Nurlan.** Ağa, həmişə deyərdin ki, pis adamı məğlub etməyin ən yaxşı üsulu yaxşı adam olmaqdır. Onunla görüşmək istəyirəm, bəlkə, gedək yanına, ya çağıraq gəlsin bura?

**Rəmzi.** Deyirsiniz o sizi tanıyar?

**Mirheydər ağa.** Bizim ən zəif cəhətimiz unutqan olmağımızdır...

*İşıq get-gedə azalır. Kiçik pərdə enir.*

*Sənhədə on il əvvəlki hadisələr canlanır. Yavuz bəyin kabineti. O, yazı stolunun arxasına keçir, kresloya yayxanır, sonra da ayağa qalxıb səbirsiz halda otaqda var-gəl edir.*

**Yavuz bəy** *(öz-özünə).* Keçdi pəncəmizə gözəl kreslo... Gərək elə oturam ki, kostyumum əzilməsin... Ha-ha-ha... Kimsə yaxşı deyib: "Teatr asılqandan başlayır, vəzifə katibədən...". Deməli, birinci katibədən başlamalıyam... Nilufər... Nə qəliz addı, heç ahəng qanununa da tabe olmur: Ni-lu-fər. Amma mənə tabe olacaq! Çünki katibə direktorun sirr şərikidi, könül həmdəmidi, deməli, hər şeyidi! Hə bax, bunu aydınlaşdırmaq lazımdır. (*Selektorun düyməsini basır).* Nilufər xanım, lütfən, yanıma gəlin. (*Əlini düymədən çəkir).* Aha, "baş üstə" demədi. Neynək, öyrədərik.

**Nilufər** (*gəlir. Əlində iri bloknot və qələm var*). Sabahınız xeyir, Yavuz müəllim.

**Yavuz bəy.** Sabahın xeyir. (*Qızı diqqətlə və mənalı tərzdə süzür.*) Çox gözəl, çox gözəl, inanın ki, mən... (*Susur.)*

**Nilufər.** Yavuz müəllim, sizi eşidirəm. Mənə sözünüzmü var?

**Yavuz bəy.** Var, əlbəttə, var. Birinci elə ondan başlayaq ki, mənə bir də müəllim deməyin, bu sözü artıq mənfur imperiyanın qaranlıq arxivinə atmışıq.

**Nilufər.** Bəs nə deyim?

**Yavuz bəy** (*təəccüblə ona baxır*). Nə deyəsən? Yavuz bəy! Axı, bilirsən ki, bütün Azərbaycan məni Yavuz bəy kimi tanıyır. Aparıcı deyəndə ki, «İndi də söz verilir Yavuz bəyə!» – meydan titrəyirdi. Təsəvvür eləyirsən, Ni-lu-fər xanım? Mey-

dan titrəyirdi! O boyda meydana sığmayan Yavuz bəy indi balaca bir kabinetdə quzuya dönüb. Üstəlik, katibəsi də bilmir ki, ona nə cür müraciət etsin.

**Nilufər.** Yavuz bəy, mən o meydanda sizin odlu-alovlu çıxışlarınızı az dinləməmişəm, hətta etiraf edim ki, o vaxtlar rəfiqələrim kimi, mən də sizə pərəstiş edirdim.

**Yavuz bəy.** Bəs niyə keçmiş zamanda danışırsan? İndi pərəstiş etmirsən?.. Niyə susursan?

**Nilufər.** Nə deyim ki?

**Yavuz bəy.** Heç nə! Sən deməsən də, mən bilirəm! Təsəvvür edək ki, zənnin səni aldadıb. Dağ uzaqdan əzəmətli və sehrli görünür, yaxınlaşdıqca, həm balacalaşır, həm də adiləşir. Nə isə, keçək mətləbə.

**Nilufər.** Buyurun! (*Bloknotu açır və yazmağa hazırlaşır*.)

**Yavuz bəy.** Ni-lu-fər xanım, mən bu idarənin rəhbəriyəm, istədiyim adamı işdən azad edə bilərəm, amma insafım yol vermir. Bir də ki, axı, biz hakimiyyətə bu insanların çiyinləri üstündə gəlmişik.

**Nilufər.** Əlbəttə, Yavuz müəllim! Üzr istəyirəm, Yavuz bəy, xalq sizə ümid bəsləyib, inanıb.

**Yavuz bəy.** Doğrudur, amma reallığı da nəzərə almalıyıq. Eşitdiyimə görə, bizim bu idarədə bir qrup narazı adam ağzına gələni danışır. Guya, mən savadsızam, ixtisasımla işim bir-birinə uyğun gəlmir. Nə deyim, yaxşısını sən bilərsən. Sən də ki, susursan? Düzmü deyirəm? Əslində, bu məlumatları mənə başqaları yox, sən çatdırmalısan.

**Nilufər.** Bağışlayın, Yavuz bəy, mən bayaq dediyiniz kimi, katibəyəm, xəbərçi yox...

**Yavuz bəy.** Xəbərçi niyə, Ni-lu-fər xanım? Katibə direktorun ən yaxın adamı olmalıdır. Əgər biz bir yerdə işləyiriksə, deməli, bir məzhəbə qulluq etməliyik. Sirrimiz-sözümüz bir

olmalıdır. Hə, nə deyirsən, bu cür işləyə biləcəyikmi? *(Ona yaxınlaşır.)* Sən yaraşıqlı və gözəl qızsan..., xanımsan...

**Nilufər** *(ayağa qalxır).* Yavuz bəy...

**Yavuz bəy.** Ni-lu-fər xanım, nəzərə alın ki, mən gözəlliyi qiymətləndirməyi bacarıram və sənin yerinə gəlmək istəyən gözəllər də çoxdur... Amma sən dura-dura niyə başqası yerinə müştəri olsun?

**Nilufər.** Mən işdən çıxa da bilərəm.

**Yavuz bəy.** Tələsmə, Ni-lu-fər xanım. Dolanışığın çətin olduğu belə bir vaxtda hissə qapılmaq olmaz... Yaxşı-yaxşı düşün-daşın... Sonra qərar ver... Bilirəm ki, maddi vəziyyətin o qədər də yaxşı deyil. Atasız böyümüsən və ananla birotaqlı bir mənzildə yaşayırsan. Anan da ki, maaşı az olan sinif müəllimi... *(Əlini Nilufərin çiyninə toxundurur.)*

**Nilufər** *(cəld ayağa qalxır).* Bağışlayın, Yavuz bəy... Mən gedirəm, işim çoxdur. *( İti addımlarla otaqdan çıxır).*

**Yavuz bəy.** *(Qızın arxasınca şit-şit gülür və əllərini bir-birinə sürtür).* Xamdır, əvvəlki direktoru arvad yox, kişi olsaydı, belə eləməzdi. Eybi yoxdu, əhliləşdirərəm. (*Telefon zəng çalır. Dəstəyi götürür.)* Bəli, mənəm, Yavuz bəydir. Bircəxanım, başın xarab olub? Necə yəni xoşun gəlmədi? O evə görə bilirsən də kimə ağız açmışam? Bilirsən də o evdə kim yaşayıb? Haradan biləsən, Bircəxanım? Mərkəzi Komitənin... Lənət şeytana! Bircəxanım, Nargin adasını neyləyirsən? Dədən Görməmiş Kərəmin artırmasından Nargin adasına baxırdın? On beş ildir kirədə yaşadığımız Xutordan Nargin adası görünür? Lənət şeytana! Az, bu Nargin adası nə matah şey olub? Elə bilirsən yönlü yerdi? İmperiya cəlladları bilirsən nə qədər qeyrətli ziyalılarımızı orada güllələyərək balıqlara yem edib? Qurtar bu söhbəti! Mən bir də evdən ötrü kimsəyə ağız aça bilmərəm... Ya o evə köçürük, ya da qalırıq Xutorda, küçədə, bildin? *(Dəstəyi*

*yerinə qoyur.)* Bu nə qudurğan imiş, ə? Meydana da elə mənə ilişməkdən ötrü gəlirmiş...

*Daxili telefon zəng çalır. Yavuz bəy dəstəyi qaldırır.*

**Yavuz bəy.** Eşidirəm, Nilufər xanım! Kim gəlmək istəyir? Təhsin? Burax gəlsin.

*Təhsin otağa daxil olur.*

**Təhsin.** Salam, dayı! Vallah, bu kabinet sənə yaman yaraşır!

**Yavuz bəy.** Maşallah de, Təhsin, maşallah de. Özün də bu "dayı" sözünü yığışdır. Nə vaxt gəlmisən? Cəbhədən nə xəbər var, bizimkilər irəliləyir?

**Təhsin.** Yaman qarışıqlıqdır, dayı. Bu könüllü batalyonlar bir-birləri ilə yola getmirlər. Didirlər bir-birlərini. Elə bəhsəbəhsdədirlər. Birlik adında şey yoxdur. Biri deyir irəli gedək, o biri deyir geri çəkilək.

**Yavuz bəy.** Bəs Müdafiə Nazirliyi hara baxır? Ölkəni könüllü batalyonlara etibar etmək olar? Niyə başa düşmürlər ki, Qarabağı uduzmaq hakimiyyəti uduzmaq deməkdir? Müdafiə Şurasının iclasında mən deyirəm, mən eşidirəm. O zalım oğlu da ki, elə papiros tüstülədir...

**Təhsin.** Dayı, əslində hökumətin başında sən olmalıydın!

**Yavuz bəy.** Az danış, ə! Başın girməyən yerə bədənini soxma. Bizim o yazıçını görmədin oralarda? İşini-gücünü atıb, yardım aparmaq adı ilə cəbhəyə gedib. Bir gülləyə tuş gəlmir ki, canımız qurtara. Niyə o igid oğlanlara dəyən güllələr bundan yan keçir, Təhsin?

**Təhsin.** Özünü irəli vermir, dayı, tülküdü! Başı xarab camaat da çox istəyir onu. Nə yuvanın quşu olduğunu bilmirlər, millət al dilə gedir.

**Yavuz bəy.** Bilmirəm necə rədd eləyim onu buradan... Əleyhimə qalxanların hamısına dil verən odur...

**Təhsin.** Dayı, direktor deyilsən, əmrini ver, qov. Kim sənə güldən ağır söz deyəcək?

**Yavuz bəy.** Sənə dedim axı, başın girməyən yerə bədənini soxma. Cızma-qaraları da əl-əl gəzir, iqtidar da, müxalifət də xətrini istəyir. Gündə bir fond yaradır. Bilirsən nə qədərə pul yığır?

**Təhsin.** Vallah, dayı, camaatın başı xarabdı. Halalca pullarını...

**Yavuz bəy.** Yaxşı, qurtaraq bu söhbəti, məni başqa şey maraqlandırır.

**Təhsin.** Başqa şey, nə?

**Yavuz bəy.** Qulağıma çatıb ki, sən bir dəstə özün kimi dələduzla cəbhə bölgələrində maradyorluq edirsən.

**Təhsin.** Maradyorluq nədi, dayı? Mənəm dələduz? (*Ağlamsınır*.) Səni dədəmdən də çox istəyirəm..

**Yavuz bəy.** Pah, dədəsindən də çox istəyir... Ə, elə dədəni istəməməyə nə var ki? O dədədi? Yazıq bacım ona getdi-getmədi, bir gün görmədi. Elə dədənin olmasındansa olmaması daha məsləhətdi. Zalım oğlu gorbagor olsa, heç olmasa, bəd ayaqda goruna and içərsən. Elə o da maradyordu da!

**Təhsin.** Dayı, vallah nə dediyini başa düşmürəm. Bu maradyor nə olan şeydir?

**Yavuz bəy.** Bisavad oğlu, bisavad! Maradyor, yəni, ölüsoyan, müharibə vaxtı qaçmağa məcbur olan camaatın mal-mülkünü talan eləyən, goreşən...

**Təhsin.** Dayı, vallah, yalandı, inanma, düşmən sözüdü. Mən mitinqlərdə bir elə ərzağa baxırdım, bir tikə də...

**Yavuz bəy** (*yaxasından yapışır*). Təhsin, sən mənə – meydan qəhrəmanı Yavuz bəyə yalan deyirsən?

**Təhsin.** Dayı... Dayı... axı...

**Yavuz bəy.** Təhsin, sən öl, cıraram səni, baxmayaraq ki, bacım oğlusan. Məni hövsələdən çıxarma... (*Boğazından yapışır).*

**Təhsin.** Dayı, öldüm, burax... Bircə dəfə, dayı... bircə dəfə... O sizin evə gətirdiyim mebeli...

**Yavuz bəy.** Nə dedin?! Mənim evimə mebel gətirmisən? (*Onu şillə ilə vurur. Təhsin səntirləyir*.)

**Təhsin.** Dayı, Bircəxanım bacı istədi. (*Ağzının qanını silir*.) Apardım, amma bəyənmədi, dedi ki, ərəbskisindən gətir. Mən də apardım qoydum komisyon mağazaya. Satdırdım, pulunu da verdim Bircəxanım bacıya.

**Yavuz bəy.** Neynək, o Görməmiş Kərimin qızı Bircəxanımın da, sənin də dərsini vermək mənə borc olsun. Mən mitinqlərdə buna görə boğazımı yırtırdım?

**Təhsin.** Dayı, qurban olum, niyə hirslənirsən, o mebel ermənilərə qalacaqdı da. Pis eləyib özümüz götürmüşük?

**Yavuz bəy.** Nə qanmaz adamsan, ə? Bir şillə azlıq elədi?

**Təhsin.** Yox, dayı! (*Qorxub qapıya tərəf geriləyir*.) Başa düşdüm, hər şeyi başa düşdüm.

**Yavuz bəy.** İtil gözümdən! Maradyor!

**Təhsin.** Baş üstə, dayı, itərəm, təki sən hirslənmə. Heç gözünə də görünmərəm, amma, qurban olum, Bircəxanım bacıya heç nə demə, xahiş eləyib ki, o mebel məsələsindən sənin xəbərin olmasın.

**Yavuz bəy.** Təhsin, rədd ol buradan, yoxsa səni təpiyimin altına salıb, xıncım-xıncım eləyərəm!

**Təhsin.** Gedirəm, dayı, hirslənmə. (*Gedir.)*

**Yavuz bəy** (*onun dalınca tüpürür).* Tfu!.. Meydanda guruldatmağa nə varmış? Oğulsan, indi idarə elə. (*Otaqda*

*var-gəl edir.)* Ən çətin iş vəzifədə olub təmiz qalmaqdır, adamı elə öz yaxınları çirkaba batırırlar. (*Selektorun düyməsini basır.*) Səhər dediyim adamları çağırmısan? Burax gəlsinlər içəri.

*Qapı açılır. Mirheydər ağa, Uğur və Rəsi gəlirlər.*
*Yavuz bəy onları sınayıcı baxışlarla süzür.*

**Mirheydər ağa.** Yavuz bəy, bizi niyə belə sınayıcı nəzərlərlə süzürsən?

**Yavuz bəy.** A kişi, adın Heydərdi deyə bizimlə qaşıq döyüşdürəcəksən? Hələ bir «Mir» də qoşmusan qabağına ki, səni görəndə səksənək? Cəddinlə hədələyirsən bizi?

**Mirheydər ağa.** Mən anadan olandan Mirheydərəm, oğul. Bir də məsəl var, deyərlər: "Əvvəlindən görən çaşmaz. Sonradan adına bəy yapışdıranlar yolunu azar". Sözün var, sözünü de, nala-mıxa döymə.

**Yavuz bəy.** Neynək, qoca, nala-mıxa döymərəm. Əyləşin, əyləşin, əyləşin...

*Mirheydər ağa, Uğur, Rəsi əyləşirlər.*
*Yavuz bəy siqaret yandırır.*

**Yavuz bəy** (*onlara siqaret təklif edir*). Çəkəniniz var?

**Mirheydər ağa.** Çox sağ ol, biz o siqaretdən çəkə bilmərik, çox bahadır.

**Yavuz bəy** (*əsəbi halda*). Amma mən çəkirəm, Mirheydər ağa! Ona görə yox ki, pulum çoxdur, ona görə ki, haqqım var. Bu ölkənin müstəqilliyi yolunda can qoymuşam. Əlbəttə, mən daha yüksək vəzifəyə layiq idim, amma özüm buranı istədim, çünki ölkə büdcəsinin canı buradadır.

**Rəsi.** Yavuz bəy, bizi də narahat eləyən elə budur...

**Uğur.** Çünki o dediyiniz can etibarlı əllərdə olmalıdır.

**Yavuz bəy** *(siqareti söndürür).* Aydındı. Daha nə sözünüz var?

**Mirheydər ağa.** Bilirsən, Yavuz bəy...

**Yavuz bəy** *(onun sözünü kəsir).* Səndən soruşmuram, kişi, sənin nə deyəcəyin məlumdur, özün də bir yönlü vəzifə tutmursan, bağbansan. Əslində, bu saat bizim bağbana ehtiyacımız yoxdu. Düzəlmişdi hər yarağımız, qalmışdı saqqal darağımız.

**Mirheydər ağa.** Yavuz bəy...

**Yavuz bəy** (*sözünü kəsir).* Sakit ol, kişi, axırda sənə söz verəcəyəm. Hə, siz sözünüzü deyin, eşidirəm...

**Uğur.** Yavuz bəy, gəldiyiniz bu az vaxtda aparhaapardır. Elə bil, idarə düşmən əlinə keçib. Camaat sovet partokratlarına şükür eləyir.

**Rəsi.** Biz qışın sazağında tankların qabağına buna görə çıxdıq ki, vətənimizi özgələrdən də betər talayaq?

**Yavuz bəy.** Siz nə danışırsınız? Belə sözlərə görə adamı dama basarlar. Kim talayır Vətəni? Sizin başınıza at təpib? Öz-özümü talayıram? Yəni bu hökuməti mən qurmamışam?

**Mirheydər ağa.** Sənin qurduğun hökumət şikəstdir, bala. Həyata gətirdiyin övladı sağlam böyütmək çox vacib məsələdir...

**Yavuz bəy.** A kişi, bəs, biz neyləyirik? İşləmirik, o körpəyə süd verən biz deyilik?

**Mirheydər ağa.** Başa düşürəm, dövlət işində çalışmamısınız, vəzifə görməmisiniz, təcrübəniz yoxdur. Bəs niyə başı çıxanları işə yaxın buraxmırsınız?

**Yavuz bəy.** Bilirəm, qoca, kimi nəzərdə tutursan, xam xəyaldır! Xalq bizi dəstəkləyir, biz hakimiyyəti dişimizlə-dırnağımızla qazanmışıq, onu könüllü şəkildə heç kimə verməyəcəyik. Sizi isə təzə hökumətin düşməni kimi tutdura

bilərəm, lap başqa cür ölçü də götürə bilərəm, amma yüngül, yumşaq cəzaya əl atıram. Üçünüz də bu idarəni öz xoşunuzla tərk etməlisiniz. Bizə təxribatçı lazım deyil...

**Mirheydər ağa.** Yavuz bəy...

**Yavuz bəy.** Seyid, müharibə şəraitində yaşayan bir ölkənin, hələlik bağbana ehtiyacı yoxdur, o ştat ixtisar olunur. Xoş gəldin!

**Mirheydər ağa.** Eybi yoxdu, Yavuz bəy, mən qulluq eləməyə bağ taparam, amma bir təmsil danışmaq istəyirəm...

**Yavuz bəy.** Mənim ədəbi söhbətlərə vaxtım yoxdur, qoca! Bura Yazıçılar İttifaqı deyil! Bilirsən də, bir yazıçımız var, bəs eləyər.

**Uğur.** Ağsaqqalın sözünü kəsməzlər, Yavuz bəy...

**Yavuz bəy.** Yaxşı, qoy danışsın. (*İstehza ilə*) Yoxsa, sonra məni söz azadlığını boğmaqda ittiham edərsiniz.

**Mirheydər ağa.** "Kəlilə və Dimnə"də rəvayət olunur...

**Yavuz bəy.** Kişi, "Kəlilə və Dimnə" vaxtı deyil, keçmişlə qurtarmışıq da, indi biz yeni həyat qururuq.

**Mirheydər ağa.** Keçmişə arxa çevirmə, oğul. Bilirsənmi qarğa nədir?

**Yavuz bəy.** Bilirəm, kişi, sözünü de, qurtar, mən iş adamıyam, yuxarıda iclas var, getməliyəm.

**Mirheydər ağa.** İndi yuxarıdan aşağıya baxanların çoxunun gözləri qaralır, başı gicəllənir. Nə isə, belə nəql edirlər ki, qarğa kəkliyin şux yerişinə, gözəlliyinə heyran olubmuş...

**Yavuz bəy.** Qarğa hara, kəklik hara?

**Mirheydər ağa.** Yazıq qarğa da kəklik kimi yerimək, kəklik kimi səkmək istəyir. Çox çalışır, amma bir şey çıxmır, kəklik yerişi yeriyə bilmir, əvəzində öz yerişini də itirir.

**Yavuz bəy.** Nə demək istəyirsən, qoca? Kəklik kimdi, qarğa kimdi? Bunun bizim idarəmizə nə dəxli var?

**Mirheydər ağa.** Deməli, Yavuz bəy, hər kəs öz yerişini yeriməlidir, bacardığı işdən yapışmalıdır.

**Yavuz bəy.** Bəs, mənim istədiyim nədi? Götürək elə səni, seyidsən, get otur evində, ceddinə tapın, nəzir-niyaz yığ, dolan... Yoxsa, bağ becərmək adı ilə su bulandırmaqla məşğulsan. Dedim də, bu gündən işdən azadsan.

**Mirheydər ağa.** Heyif o tribunadan dediyin sözlərə! Aldandıq sənin şirin vədlərinə, heyif, səd heyif. Gör biz kimə əl çalmışıq, kimə ümid bəsləmişik? Sən çox kiçik adamsan...

**Yavuz bəy.** Kiçik? Ölkə büdcəsi mənim əlimdədi.

**Mirheydər ağa.** Baxma ki, bağbanam, hər şeydən başım çıxır. Büdcəni nə günə salmağından, cəbhəyə qəzet adıyla pul bükülüləri göndərməyindən də xəbərim var...

**Yavuz bəy.** Bəs sən nə istəyirsən? Cəbhəyə pul göndərməsək, silah-sursatı nə ilə alarlar? Bəlkə, sənin ceddin qoruyacaq bizi ermənidən, urusdan.

**Mirheydər ağa.** Söhbəti azdırma, bala, mən cəbhə adı ilə göndərdiyin pulları deyirəm...

**Yavuz bəy.** Kişi, şərə-böhtana görə bir ildən üç ilədək cəza alarsan ha!

**Mirheydər ağa.** Bacın oğlu Təhsinin hər ay nə qədər pul apardığı hamıya məlumdur... Bilirsən də, o, ağzıyırtıqdı, hər şeyi danışır... Gec-tez bu məsələdən yuxarılar da xəbər tutacaq. Çünki cidanı çuvalda gizlətmək olmaz. “Gözün üstə qaşın var” deyən olmasa da, tarix qarşısında cavab verməli olacaqsan. Aqibətini düşün, nə qədər gec deyil, düşdüyün çirkab bataqlığından çıxmağa çalış. Sonra gec olacaq. (*Mirheydər ağa bu sözləri deyəndən sonra kabineti tərk edir*).

**Yavuz bəy** (*kənara*). Çox hiyləgər qocadır. Bunu görəndə “Min bir gecə” nağılları yadıma düşür. *(Mirheydər ağanın dalınca)* yaman fəndgir adama oxşayır.

**Uğur.** O, fəndgir olsaydı, işini itirməzdi. Bilməlisən ki, bu bağ-bağça onun zəhmətinin bəhrəsidir.

**Rəsi.** Hər ağacın, hər gül kolunun üstündə əsib. Deyir ki, Allah mənə övlad əvəzinə bu ağacları, gül kollarını verib...

**Yavuz bəy** *(gülür).* Ta deyin ki, çoxuşaqlı atadır də!

**Rəsi.** Təhqirə ehtiyac yoxdur, Yavuz bəy.

**Yavuz bəy.** Görürəm ki, bir az da belə danışsanız, hönkürüb ağlayacaqsınız. Amma bilin ki, göz yaşlarına artıq ehtiyac yoxdur. Kollektiv arasında mənim əleyhimə təbliğat aparırsınız, Milli hökuməti gözdən salırsınız, sağlam mühiti hər vasitə ilə korlayırsınız. Əslində, bu gənc, müstəqil Azərbaycana qarşı təxribatdır, xəyanətdir. Bu gündən işdən azadsınız. Mən strateji əhəmiyyəti olan bir müəssisəni təxribat yuvasına çevirə bilmərəm. Qərarım qətidir, heç kəs də mənə bir söz deyə bilməz. Yaxşı olar, işdən öz ərizənizlə çıxasınız ki, əmək kitabçanız korlanmasın. Mən humanist adamam.

**Uğur.** Biz ərizəmizi yazmışıq, Yavuz bəy...

**Rəsi.** Amma işdən çıxmırıq – cəbhəyə gedirik!

*Hər ikisi ərizəsini Yavuz bəyin stolunun üstünə qoyur.*

**Uğur.** Əgər, sağ qayıtsaq, burada işləyib-işləməmək barədə özümüz qərar verəcəyik.

**Yavuz bəy** *(ərizələri oxuyur).* Siz cəbhəyə gedirsiniz? Könüllü?

**Uğur.** Bəli, Yavuz bəy! Bu gün Vətənə döyüşçü lazımdır.

**Rəsi.** Vətən əldən gedəndən sonra nə müstəqillik, nə demokratiya? Tarix bizi amansız sınağa çəkir. Qorxmamaq, getmək lazımdır!

**Yavuz bəy** *(ərizələrə bir də baxıb)* Siz məni tərk-silah etdiniz. Təkcə tərk-silah yox, həm də pərt etdiniz. Həqiqətən də,

Vətənə sizin kimi oğullar çox lazımdır. İcazə verin sizi qucaqlayım, bağrıma basım. (*Onlara tərəf gedir.)*

**Rəsi.** Buna heç ehtiyac yoxdur, Yavuz bəy. Biz qəhrəmanlıq eləmirik, oğulluq borcumuzu yerinə yetiririk.

**Uğur.** Burada pul-vəzifə üstündə didişənləri görməkdənsə, cəbhəyə getmək məsləhətdir. Vətən cəbhədən başlayır.

**Yavuz bəy.** Vəzifə katibədən...

**Uğur.** Nə?

**Yavuz bəy.** Heç... Mən də deyirəm Vətən cəbhədən başlayır...

*Uğurla Rəsi mətin addımlarla səhnəni tərk edirlər.*

**Yavuz bəy** (*bir müddət susur).* Qəribədir... Bunların bu hərəkəti məndə nəsə... Lənət şeytana! (*Telefon zəng çalır.)* Eşidirəm, Bircəxanım, bu saat səni də söyərəm, Təhsini də... Sevmişəm? Kimi sevmişəm? Səni? Qələt eləmişəm, Bircəxanım, qələt eləmişəm sevmişəm... Bəli, qurtardıq, evdə danışarıq! (*Dəstəyi atıb, selektorun düyməsini basır*.) Ni-lu-fər xanım, bura gəl!

**Nilufər** *(gəlir).* Eşidirəm...

**Yavuz bəy.** Ni-lu-fər xanım, o kişinin, bir də buradan çıxan o gədələrin işdən azad olunmaları barədə əmr hazırla. Deməli, kişi ixtisara düşür, gədələr də gedirlər cəbhəyə, burada avara-avara danışmaqdansa, qoy gedib orada vuruşsunlar, sağ qayıdarlarsa, bir şey fikirləşərik. Maşın qapıdadır?

**Nilufər.** Bəli, qapıdadır, amma...

**Yavuz bəy.** Nə amma? Əmrləri hazırla! *(Gedir.)*

*Nilufər heysiz halda kresloya çökür. Uğur gəlir.*
*Nilufər diksinib yerindən qalxır.*

**Uğur.** Qorxdun? Elə bildin Yavuz bəydir gələn?

**Nilufər.** Yox, qorxmadım. Sadəcə olaraq, fikirli idim.

**Uğur.** Niyə fikirli idin ki?

**Nilufər.** Görəsən, bu adamlar niyə belə dəyişirlər? Doğrudanmı, bizim pərəstiş elədiyimiz insanlar bu qədər cılız imiş?

**Uğur.** Görünür, insanın həqiqi simasını görmək üçün ona uzaqdan yox, yaxından baxmaq lazım imiş. Baxdıq, gördük. Bizim meydan qəhrəmanları vəzifə sınağına dözmədilər.

**Nilufər.** Bəlkə, bu, bizim ideyalarımızın iflasıdır?

**Uğur.** Yox, elə deyil, Nilufər, bu bizim ideyalarımızın yox, ayrı-ayrı qlaflı adamların iflasıdır.

**Nilufər.** Sən doğrudan cəbhəyə gedirsən?

**Uğur.** Şübhə eləyirsən?

**Nilufər.** Yox, şübhə eləmirəm, soruşuram.

**Uğur.** Mən də, Rəsi də belə qərara gəldik.

**Nilufər.** Əgər, bir qız da sizə qoşulub cəbhəyə getsə...

**Uğur.** Qız? Kimdi o qız?

**Nilufər.** Onun kimliyinin məsələyə nə dəxli var?

**Uğur.** Bilmirəm... Amma kişilər qırılıb ki, qızlar cəbhəyə gedir?

**Nilufər.** Uğur, mən qəti qərara gəlmişəm, cəbhəyə gedəcəyəm, indiki vaxtda Yavuz bəy kimi adamın yanında katibə olmaq mənə ağır gəlir. Əvvəllər burada müdir qadın olduğu üçün "katibə" sözünün fərqinə varmırdım... İndi "katibə" sözü çox pis səslənir...

**Uğur.** Hər şey vəzifədən yox, adamın özündən asılıdır, Nilufər.

**Nilufər.** Yox, Uğur, hər şey adamın özündən asılı deyil. Hamıya başa sala bilmərəm ki, mən başqa cürəm.

**Uğur.** Bəs qız uşağının cəbhəyə getməsi necə? Sən bilən, bu, söz-söhbətlərə səbəb olmaz? Sonrakı həyatını fikirləşmirsən? Bu qərarı qəbul etməzdən əvvəl mentalitetimizi nəzərə almaq lazımdır.

**Nilufər.** Bilmirəm, amma bu cür yaşamaq mənim üçün çətindir...

**Uğur.** İstəyirsən, Nurlan müəllimlə danışım, səni götürsün öz yanına?

**Nilufər.** Yox, istəmirəm, onsuz da, Nurlan müəllimlə Yavuz bəyin arasında münaqişə var. Bu, od üstə yağ tökmək kimi bir şey olar. Nə isə, cəbhəyə getdiyin yerdə qanını qaraltmaq istəməzdim, bağışla... Hər kəs öz problemini özü həll etməlidir... *(Gülümsəyir.)* Yavuz bəy dedi ki, əmrinizi hazırlayım.

**Uğur.** Elə mən də ondan ötrü gəlmişəm. Bir az tez elə ki, ləngiməyək. Hələ rayona da dəyməliyəm, xeyli vaxtdır ata-anamı da görməmişəm...

**Nilufər.** Əmrlərinizi elə indi hazırlayıb mühasibata göndərərəm.

**Uğur.** Çox sağ ol! *(Getmək istəyir.)*

**Nilufər.** Mənə başqa sözün yoxdur?

**Uğur.** Sözüm? Yoxdu... Var...

**Nilufər.** Nə sözün var?

**Uğur.** Heç... Getməliyəm... (*Bir neçə addım atır və dayanır.)* Sağ qayıtsam, sözümü deyərəm. Əlvida!

**Nilufər.** Əlvida? Niyə əlvida?

**Uğur.** Nilufər xanım, axı mən cəbhəyə gedirəm, bu yolda ayrılıq var, ölüm var...

**Nilufər.** Belə sözlər danışma, sən ölməyə yox, öldürməyə gedirsən.

**Uğur.** Onda hələlik! (*Qəti addımlarla uzaqlaşır.)*

*Nilufər Uğurun arxasınca baxır, yavaş-yavaş stula çöküb ağlayır. Bu zaman Yavuz bəy deyinə-deyinə gəlir, xeyli hirslidir. Nilufər tələsik qalxıb getmək istəyir.*

**Yavuz bəy.** Dayan, getmə, işim var. (*Siqaret yandırır.*) İclasa çağırırlar, deyəsən, orada işlər yaxşı geyil... Adam dilinə də gətirə bilmir. Belə getsə, bu işlərin axırı yoxdur. Sən niyə ağlayırsan? Kim dəyib xətrinə? De? Mənim katibəmi ağladanın anasını ağladaram! Yoxsa, Uğur bir söz deyib, gələndə onu pilləkəndə gördüm...

**Nilufər.** İcazə verin gedim... (*Getmək istəyir.*)

**Yavuz bəy.** Nilufər xanım, etiraf edim ki, sənin ağlamağın məni kövrəltdi. *(Ona yaxınlaşır.)* Nə edim, qadınların göz yaşlarına dözə bilmirəm. Amma bu göz yaşları sənə çox yaraşır, hətta deyərdim ki, elə bil, bu göz yaşları dərddən, ağrıdan deyil, sevgidəndi... (*Onun yanaqlarındakı yaşı silmək istəyir.*) Çox istərdim bu göz yaşları mənim üçün...

**Nilufər** (*üzünü yana çevirir)* Yavuz bəy, icazə verin gedim.

**Yavuz bəy.** Axı niyə mənə yovuşmursan?

**Nilufər.** Yavuz bəy...

**Yavuz bəy.** Boy-buxunum, yaraşığım, fərasətim... *(Bir az yaxına gəlir)* Bu idarədə, lap elə ölkədə məndən artıq kişi var?

**Nilufər.** Bunun mənə nə dəxli?

**Yavuz bəy** (*gülür)* Sən bir gülümsə, bir "hə" de, gör analar necə oğullar doğub. (*Onu qucaqlamaq istəyir.)*

**Nilufər.** Burax... Buraxın..

**Yavuz bəy.** Buraxmaram, Ni- lu- fər xanım. Mən heç vaxt bu qədər səbirli olmamışam. Ya indi, ya da heç vaxt! *(Daha cəsarətlə həmlə edir)*.

**Nilufər.** Əclaf! (*Onun üzünə möhkəm şillə vurur.)*

**Yavuz bəy.** Vur, birini də vur! *(Qucaqlamaq istəyir.)* Dünyada qadın şilləsindən gözəl nə ola bilər?

*Nilufər ona daha bir şillə vurur və qapıya tərəf qaçır. Qapını açmağa çalışsa da, qapı açılmır. Yavuz bəy qəhqəhə çəkib gülür.*

**Yavuz bəy.** Bəli, Ni-lu-fər xanım, qapı bağlıdır, mən işini ehtiyatlı tutan adamam. Onu da bil ki, mənə şillə vuran qadın buradan salamat çıxa bilməz!

**Nilufər.** Bu saat qapını açın! Mən tələb edirəm!

**Yavuz bəy.** Ah, tələb edirsən! Açaram, amma indi yox... sonra... Sənin göz yaşlarını qurudandan sonra... Qorxma, mən səni incitməyəcəyəm... heç qorxma...

**Nilufər.** Elə bilirsən mən səndən qorxuram?

**Yavuz bəy.** Qorxmursan? Bəs onda niyə belə əsirsən?

**Nilufər.** Bu, qorxudan yox, nifrətdəndir. Mən səndən iyrənirəm!

**Yavuz bəy.** İstəyirsən nifrət elə, istəyirsən iyrən, amma qaçma, yaxşı qız ol... (*Ona sarı yeriyir.)*

**Nilufər.** Yaxına gəlmə! (*Qəfil Yavuz bəyin stolunun arxasına keçib siyirməni açır və onun tapançasını götürür*) Yaxına gəlmə! (*Tapançanı Yavuz bəyə tuşlayır*) .

**Yavuz bəy** (*qorxur)* Sən dəlisən?

**Nilufər.** Aç qapını, qorxaq tülkü!

**Yavuz bəy.** Mənəm qorxaq? Meydanı titrədən Yavuz bəy qorxaqdır?

**Nilufər** *(barmağını tapançanın tətiyinə qoyur)* Dedim ki, aç qapını!

**Yavuz bəy.** Açaram, niyə açmıram? Mən belə məsələlərdə zor işlətməyin tərəfdarı deyiləm. (*Qapıya tərəf gedir*) Mən istədim yaxşılıq eləyim sənə, yaşın ötür, gözəlliyin solur. (*Qa-*

*pını açır.*) Sən qanmadın... Buyur, bu da qapı. Ümid eləyirəm ki, bir də bu qapıdan içəri girməyəcəksən.

**Nilufər.** Səni vurmaqdan özümü güclə saxlayıram.

**Yavuz bəy.** Saxlasan yaxşıdı. (*Gülümsəyir.*) Onsuz da, içində güllə yoxdur.

*Nilufər heç nə demədən tapançanı stolun üstünə atıb gedir.*

**Yavuz bəy** *(öz-özünə).* Ni-lu-fər xanım! Axmaq qız! Nə adı ahəng qanununa tabe olur, nə də özü həyatın reallıqlarına. *(Harasa zəng edir.)* Sənsən? Yox, səni unutmaq olar? Əlbəttə, var, çox, çox ehtiyacım var... Hisslərim tamam gərilib, boşalmaq lazımdır... Oldu, axşam... *(Gülür.)* Yaxşı, də... oldu... (*Dəstəyi yerinə qoyur.*) Doğrudan da, qadın qulağı ilə sevir...

*Nurlan gəlir. Hiss olunur ki, həyəcanlıdır.*

**Nurlan.** Salam, Yavuz bəy.

**Yavuz bəy.** Salam, salam, xoş gəlmisən, balam, haralardasan? Heç elə bil mənim işçim deyilsən, sorağını qəzetlərdən, televizorlardan, necə deyərlər, kütləvi informasiya vasitələrindən alıram. Balam, hərdən bu maaş aldığın idarəyə də gəl də...

**Nurlan.** Yavuz bəy, mənim hara getdiyimi , niyə getdiyimi hamı bilir, elə, əslində, sən də bilirsən. Bu gün tək mən yox, hamı cəbhədə olmalıdır. Torpaqlarımız əldən gedir.

**Yavuz bəy.** Doğru deyirsən, amma bu işdən ötrü bizim pis-yaxşı Müdafiə Nazirliyimiz, ordumuz var...

**Nurlan.** Müdafiə Nazirliyi! O nə Müdafiə Nazirliyidir ki, başında hərbçi dayanmır. Axı biz milli hökumət qurmadıq ki, məsul vəzifələri mitinqlərdə, nümayişlərdə, piketlərdə hay-küy qaldıranlara verək. İşi işi bilənə, idarəçilik səriştəsi olan sa-

vadlı adamlara tapşırmalıyıq. Məgər siz müstəqil Azərbaycanı girdaba sürüklədiyinizi görmürsünüz?

**Yavuz bəy.** Biz ölkəni girdaba sürükləmirik, Nurlan bəy. Bu, bədxahlarımızın uydurmasından başqa bir şey deyil. Vəzifələrə gəldikdə isə, bizi məzur tutun, çox sevdiyiniz o partokratları, imperiya nökərlərini iş başına gətirməyəcəyik. Özümüzə nə olub? Kim idarəçiliyi anasının qarnında öyrənib? Elə götürək məni... Vəzifəm yox idi?

**Nurlan.** Niyə ki? Qarajda dispetçer olmusan. Bir köhnə "Moskviç"in də vardı.

**Yavuz bəy.** Məni təhqir edirsən?

**Nurlan.** Təhqir niyə? Olanı deyirəm.

**Yavuz bəy.** Lap tutaq ki, sən deyəndir. İndi, de görüm, mən bu vəzifədə pis işləyirəm? De də, pis işləyirəm?

**Nurlan.** Bəli, pis işləyirsən.

**Yavuz bəy.** Ah, belə de, Yavuz bəy pis işləyir. Bunu sən haradan bilirsən?

**Nurlan.** Başına yığdığın natəmiz, yeyib heç cür doymaq bilməyən acgöz, rəzil insanlardan.

**Yavuz bəy.** Mən ki, rüşvət almıram, yemirəm.

**Nurlan.** Buna mənim şübhəm var.

**Yavuz bəy.** Nurlan bəy bu çox ağır ittihamdır! Mən meydanlarda yetişmişəm!

**Nurlan.** Sən meydan ideallarına çoxdan xəyanət etmisən. Bu gün keçmiş meydan söhbəti qəlp pul kimi mənasız bir şeydir. Siz ölkəmizi pis günə saldınız. Xalqın ümidlərini puça çıxardınız...

**Yavuz bəy.** Nurlan bəy, sən, elə bil, məhkəmə salonunda danışırsan – ittihamnamə oxuyursan. Özü də hökumət nümayəndəsinin qarşısında! Məgər bu bizim gətirdiyimiz de-

mokratiyanın, söz azadlığının nəticəsi deyil? Bəlkə, bunu da inkar edəsən?

**Nurlan.** Buna azadlıq deməzlər, Yavuz bəy. Bu, sonu faciə ilə nəticələnən hərc-mərclik, dövlət intizamsızlığıdır. Təəssüf ki, siz hamınız axırda cəza quyusuna düşəcəksiniz.

**Yavuz bəy.** Cəza quyusu dedin? Yoxsa o jurnalda çıxan cızma-qaranı yazan sənsən? Səhv etmirəmsə, adı da elə "Cəza quyusu"dur.

**Nurlan.** Bəli, mən yazmışam.

**Yavuz bəy.** Bəs o nə imzadı elə? Məruf?

**Nurlan.** Bəli, Nurlan Məruf.

**Yavuz bəy.** Əcəb işə düşmüşük, camaat ərəbcədən – farscadan qaçıb öz türkcəsinə üz tutur, sən də özünə "Məruf" soyadı götürürsən. Bəlkə, təxəllüs altında gizlənmək istəyirsən?

**Nurlan.** Kimdənsə qorxub çəkinməyə, gizlənməyə, ehtiyac duymuram.

**Yavuz bəy.** Görünür, ciddi şəkildə qorxudan olmayıb, ona görə. Mən o yazını oxumamışam, düzü, vaxtım olmayıb, amma oxuyanlar zəng eləyiblər, deyirlər ki, guya, məni qələmə almısan. Nakəs Bədnamlı dediyin mənəm də, çox sağ ol. Yavuz bəy nakəsdir. Sən mənim çörəyimi yeyirsən, həm də üzümə ağ olursan, ayağımın altını qazırsan, amma nakəs olmursan, hə? Belə şeylərə görə adamın başını erməni qibləsinə kəsərlər, Məruf bəy! *(Stolun üstündəki tapançanı götürüb oynadır.)* Bu, təhqir deyil?

**Nurlan.** Tapançanı qoy cibinə, mən qorxaq olsaydım, o romanı yazmazdım.

**Yavuz bəy.** Nurlan bəy, atalarımız qızıl kimi söz deyiblər: "İki qoçun başı bir qazanda qaynamaz". Deməli, birimiz bu idarədən getməliyik.

**Nurlan.** Sən gedəcəksən, özü də tezliklə!

**Yavuz bəy.** Məni hədələyirsən? Bilirəm kimə arxalanırsan. O məni sənin ayağına verməz, nə olsun ki, dostsunuz. İndi o sənin tələbəlik illərində tanıdığın romantik gənc deyil. Gözü çoxdan açılıb. Ona sən yox, biz lazımıq.

**Nurlan.** Səhvin var, Yavuz bəy. Mənim arxalandığım adama bütün ölkə arxalanır. Əslində, onunla heç bir şəxsi tanışlığım yoxdur, bir neçə dəfə məktub yazmışam, vəziyyətimizi anlatmaq istəmişəm.

**Yavuz bəy.** Xam xəyallardan əl çəkin! Biz qurduğumuz hökuməti heç kimə təhvil verməyəcəyik!

**Nurlan.** Bircəcə ilin içində inam-etibar limitini xərcləyib qurtardınız. Eybi yoxdu, sizə yerinizi göstərən tapılacaq. O gələcək! Onun gəlişi böyük qayıdış olacaq! Sizin qura bilmədiyiniz azad, müstəqil Azərbaycanı o quracaq, dövlətçiliyimiz onun böyük qayıdışından başlayacaq! Sizin kimilərin yeri isə cəza quyusudur. Xəyanət cəzasız qalmır. Bu, qanunauyğunluqdur.

**Yavuz bəy.** Yaxşı, sən deyən olsun. Amma bilmək istəyirəm, birdən-birə yüyürüb üstümə gəlməyə, belə nifrət dolu odlu-alovlu sözlər deməyə səni vadar eləyən nədir? Nədən belə rəncidə olmusan?

**Nurlan.** Səbəb çoxdu, Yavuz bəy! O qoca kişini – Mirheydər ağanı işdən çıxarmaq haradan ağlına gəlib?

**Yavuz bəy.** Nədi, indi sən bir bağbana görə mənimlə üzgöz olacaqsan?

**Nurlan.** O bağban səndən də, məndən də əhəmiyyətli iş görürdü, görəcək də! *(Gedir.)*

**Yavuz bəy.** Ay sən öləsən! Qoy yerimizi bir az bərkidək, bu axmaq dava da bitsin, gör onda sənin kimilərinin başına nə oyun açıram! Neynək, sən özün cəza quyusunda çapala-

yanda, əl uzadıb məndən kömək istəyəndə, kəsəcəyəm o əlini, yadına salacağam hədələrini, yava-yava danışmağını. Mən əlimin bircə hərəkəti ilə nə qədər akademikin sözünü ağzında qoymuşam, nə qədər ziyalını pərt eləyib, tribunadan saldırtmışam. İndi Nurlanın öhdəsindən gəlməyəcəyəm? (*Selektorun düyməsini basır.*) Bura gəl görüm... *(Cavab gəlmir.)* Ni-lu-fər xanım... Yoxsa inciyib, küsüb məndən? (*Səhnədən çıxır, əlində kağız qayıdır*.) Pah! Bu da işdən çıxmaq istəyir ki... Ərizəsinə bax bunun... (*Kabinetdə var-gəl eləyir*.) Hamı gedir... Qoy getsinlər, gedəni saxlamaq olmaz. (*Telefon zəng çalır*.) Alo, bəli, mənəm... Ay əleyküməsalam... Yox, qanım qara deyil, bir az iş çoxdur, yorulmuşam... Nə olub ki? Yox, yox, halım yoxdur... Bir nəfərlə görüşməliyəm, axşam. Yox, axı, söz vermişəm... De sən öl! Ə, ola bilməz... Axı, mən onu... Ə, o boyda sarayda konsert verən... Gələrəm... Gələrəm... Qoy eynimiz bir az açılsın, onsuz da, problem çoxdur... (*Dəstəyi yerinə qoyur*.) Belə-belə işlər... Sonra ağzıgöyçəklər deyir ki, axı, nə var bu hakimiyyətdə, niyə bir-birinizi qırırsınız? Ta demirlər ki... Getdim ey!... Bircəxanımı da aparmaq lazımdır... (Gedir.)

*İşıqlar sönür.*

*Xutor. Yavuz bəyin kirayədə qaldığı ev. Bircəxanım otaqda var-gəl edir. Qapının zəngi çalınır. Bircəxanım gedib qapını açır. Yavuz bəy otağa daxil olur.*

**Yavuz bəy.** Sarayda tədbir var, tez ol, hazırlaş gedək...

**Bircəxanım** (*istehza ilə)* Hazırlaş deyirsən, hazırlaşım da... Aldığın qızıl qolbaqları, bilərzikləri, brilyant qaşlı sırğaları, üzükləri, boyunbağıları taxacağam?..

**Yavuz bəy.** Yenə tikanlı-tikanlı danışma... Bugün-sabah səndə olan ləl-cəvahirat heç kəsdə olmayacaq... Əl-ayağımı it kimi yeyirlər... Elə bilirlər xəzinəni dağıdıram... Bir az səbir elə...

**Bircəxanım** *(istehza ilə).* Bir az səbir elə... Gecikmisən, ay yazıq... Xəbərin var ki, sənnən bir yerdə sərəncamı verilənlərin arvadları xüsusi reyslə Dubaya alverə gedir? Xəbərin var ki, vaxtilə yan-yörəndə qısıla-qısıla fırlananlar, səni özlərinə mənəvi rəhbər hesab eləyənlər şəhərin on yerində ev alıblar. Daş karxanaları, yanacaqdoldurma məntəqələri açıblar... Qaz vurub, qazan doldururlar, mən də qalmışam Xutorda, kirayədə...

**Yavuz bəy.** Niyə, bizə ev veriblər ki...

**Bircəxanım.** Hm... Ev veriblər... Bakıda yaşayasan, pəncərəndən də dəniz görünməyə... Bundan ötrü o meydanda böyrəklərimi soyuğa vermişəm?.. Kimə deyirəm ki, ərim filan yerdə işləyir, inanmır... İnanmaz də... Yəqin fikirləşir ki, orada işləyənin güzəranı belə olmaz...

**Yavuz bəy.** Yaxşı, bu giley-güzarı saxla sonraya, gecikirik...

**Bircəxanım.** Getmirəm...

**Yavuz bəy.** Necə getmirəm?

**Bircəxanım.** Tək get...

**Yavuz bəy.** O cür mötəbər tədbirlərə hamı həyat yoldaşı ilə gəlir...

**Bircəxanım.** Özü də geyinib-kecinib...

**Yavuz bəy.** Vaxt gələr...

**Bircəxanım.** Dayan! Vaxt gəlib!.. Mən imkan verməyəcəyəm ki, sən əfəl olasan... Sabah məni o Dubaya gedənlərin siyahısına saldıracaqsan. Bir daş karxanası açdıracaqsan, bugün-sabah müharibə qurtaracaq. Təhsin də oturub işlədər... Söz verirsən?

**Yavuz bəy.** Yaxşı da... Olsun...

**Bircəxanım.** Onda mən gedim, Təhsin ad günümə bir-iki şey gətirib, onları taxım...

*Bircəxanım yan otağa gedir və bir azdan bərbəzəkli paltarda, daş-qaş içində qayıdır.*

## İKİNCİ PƏRDƏ

*Qürub çağı. Qarabağ... Uzaqdan qədim və müasir evlər olan kənd görünür. Ön planda səliqəli bir otaq. Divardan nəfis Qarabağ xalçası asılıb. Heç kim gözə dəymir. Kimsə "Qarabağ şikəstəsi" üstündə bayatı çağırır.*

**Səs.** *Əzizinəm Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ.*
*Dünya cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ.*

**Raçik** *(özü səhnədə görünmür, amma zəif və xırıltılı səsi eşidilir).* Qurgen, burax məni, daha yeriyə bilmirəm...

**Qurgen** (*təngnəfəs, bir qədər də əsəbi halda səsi eşidilir*). Ara, bir az da döz, çatmışıq, bayaq baxmışam, çox rahat evdi.

*Qurgen Raçikin qolundan tutur, çətinliklə də olsa evin həyətinə gətirib otağa qaldırır.*

**Raçik.** Ölürəm, Qurgen, taqətim qalmayıb.

**Qurgen** *(əli ilə evə, otağa və evdəki əşyalara işarə edir).* Görürsən necə rahat evdir? Lap sanatoriyaya oxşayır. Həriflər qorxularından necə əkiliblərsə, hər şey olduğu kimi qalıb. Mən bunları belə bilməzdim. Gəl, gəl uzan bu kravatda. Pah-pah, tül örtüyə bax, baduşqaya bax... Ara, sən öləsən, bura bəy-gəlin otağıdı. Gəl uzan, dincəl, yaranın ağrısı kəssin. (*Onu çarpayıya sarı aparır.)* Gəl, gəl...

**Raçik.** Öldüm, Qurgen, yaram bərk ağrıyır, sapoğumun içi qanla dolub. Qurgen, güllə zəhərli olmaz ki? Birdən ölərəm...

**Qurgen.** Ara, ölüm nədir, mən özüm bu davada iki dəfə yaralanmışam. Ölmək nədir? Qarabağ bizim olana qədər ölməyə ixtiyarımız yoxdur.

**Raçik.** Bu Qarabağ məsələsi lap babamın Van əhvalatına oxşayır...

**Qurgen.** Vanda nə olub ki?

**Raçik.** Nə olacaq?.. Qırğın... Babamla nənəm görürlər ki, ara qarışıb, məzhəb itib, qaçırlar İrəvana...

**Qurgen.** Ara, genosid vaxtı?

**Raçik.** Hə də... Bir az özlərinə gələndən sonra nənəm babama deyir ki, qabaqdan qış gəlir, bir koma qarala, girək içinə. Babam da deyir ki, arvad, biz evi Vanda tikəcəyik. Nənəm dinmir. Aradan bir il keçir, yenə qış gəlir. Nənəm deyir, a kişi, soyuqlar düşür axı... Bir koma qarala, onun-bunun qapısından canımız qurtarsın... Babam yenə deyir ki, arvad, biz evi Vanda tikəcəyik... Nənəm yenə dinmir... Qərəz beləcə üç il, beş il keçir, nənəm öz sözünü deyir, babam da öz sözünü... Axırda nənəm dözmür, deyir: – Donuz oğlu donuz, bir məni başa sal görüm biz evi Vanda necə tikəcəyik? Kimdi bizi ora buraxan? Babam bığaltı gülüb deyir, darıxma, arvad, nə qədər ki, rus bizim dalımızda dayanıb, əvvəl-axır tikəcəyik...

**Qurgen.** Ara, Raçik, baban ağıllı adam imiş, düz deyib, rus dalımızda durmasa, biz Qarabağı ala bilərik?

**Raçik.** Amma mənim ayağıma dəyən güllə də rus gülləsidir. Yox, Qurgen, məzhəb haqqı, bu yara o yaralardan deyil... Öləcəyəm... Mənə su ver...

**Qurgen.** Bəlkə araq verim. Raçikcan, flyaqamda yaxşı tutovka var.

**Raçik.** Yox, Qurgen, ciyərim yanır, su istəyirəm... Ana, yazıq ana...

**Qurgen.** Bu saat... bu saat... (*Çıxır və tez də əlində bir parç su qayıdır.*) Bu da su...

**Raçik.** Ver... (*Suyu alıb içir.*) Oxay... Sağ ol, Qurgen... Yazıq anam ağladı ki, getmə, sənin nə işin var Qarabağda, tək uşaqsan, başına bir iş gələr, ölərəm... Qulaq asmadım...

**Qurgen.** Elə danışma, Raçik, inciyərəm. Livandan, Yevropadan bizə köməyə gəlirlər... Yerevan qıraqda qalacaq? Qarabağ təkcə Qarabağ ermənilərindir? Onsuz da, Yerevanda bizə yuxarıdan aşağı baxırlar... Biz də burada qan tökürük, ölürük... Qarabağ məsələsi bütün erməni xalqının məsələsidir. Bir Gülbekyan vardı... milyarder... Sonsuz idi – uşağı olmamışdı... Qurumsaq oğlu qurumsaq öləndə pulunu Amerika dövlətinə bağışladı... Ermənistana verə bilməzdi?

**Raçik.** Ara, sən çox bisavadsan, bir fikirləş, rus qoyardı o boyda pul Ermənistanın olsun? Hamısını tutub əlindən alardı... Qurgen, axı mən ölürəm, yaram bərk ağrıyır...

**Qurgen.** Ara, yara ağrıyar da. Biz babalarımızın – erməni məliklərinin vəsiyyətini yerinə yetirmək üçün hər əzaba dözməliyik.

**Raçik.** Qurgen, Vaho necə oldu, öldürdülər?

**Qurgen.** Atışma vaxtı itirdim onu. Sağdırsa, meyit daşıyır... Ara, bilirsən bu musurman meyitə nə qədər pul verir? Arvad meyiti lap bahadı... Üççə meyit götürsən, ömrün boyu bəsindi. Daha xalça-palaz, mebel daşımağa ehtiyacın qalmaz... Amma İvanın dəstəsi olmasaydı, batardıq, sağ tikəmiz ələ gəlməzdi. Bu ruslar kimi döyüşən görmədim. İt uşağı adam öldürməkdən kayf alırlar.

**Raçik.** Qurgen, yəqin mənim ayağımı kəsəcəklər... (*Ağlayır.*)

**Qurgen.** Axmaqlama, Raçik... Mən səni belə ürəksiz bilməzdim. Qoy ara bir az sakitləşsin, hava qaralsın, səni qospitala çatdıracağam. Orada Fransadan gəlmiş iki yaxşı cərrah var, ölünü kəsib-tikib ayaq üstə qoyurlar. Səndə nə var ki? Görüm yeməyə bir şey tapıram? *(Çıxır.)*

**Raçik.** Yazıq Nona, dedi getmə, mənim Qarabağ ermənilərindən zəhləm gedir. Qulaq asmadım. Balayanın propaqandasına uydum, zəhərlədilər beynimi. Bu da axırı... (*Ağlayır.)* Nona, yaram incidir...

**Qurgen** *(gəlir).* Yazıqlar bir qazan xörəyi necə var qoyub qaçıblar. Əntiqə bozbaşdır. Soyuducuda dolma da var.

**Raçik.** Qurgen, yemək nədi, mən canımın hayındayam, çatdır məni qospitala.

**Qurgen.** Dedim də, Raçik, hava bir az qaralsın, sonra. Ələ keçsək, işimizi bitirərlər.

**Raçik.** Qurgen, şikəst olsam, Nonna məni atar?

**Qurgen.** Nona? İstədiyin qız?

**Raçik.** Hə, Qurgen... Bir ayağını itirmiş oğlanı neyləyir Nonna?

**Qurgen.** Pah, bir ayaq nədir ki, ona görə istədiyin oğlanı atasan. Bir ayaq! Bilirsən fransızlar bu barədə nə deyiblər?

**Raçik.** Ah... Nə deyiblər?

**Qurgen.** Deyiblər ki, əsil kişi, bircə barmağı olsa da kişidir. *(Qəhqəhə ilə gülür və Raçikin qulağına nəsə pıçıldayır. Raçik də ona qoşulub gülür.)*

**Raçik.** Qurgen, bu çox qaba zarafatdır. Ümumiyyətlə, fikir vermişəm, əyalətlərdə qaba zarafatı çox xoşlayırlar, mən ona qurşaqdan aşağı zarafat deyirəm.

**Qurgen.** Ax, Raçikcan, sən çox tərbiyəli, lap qız kimi ismətli oğlansan. Ona görə də bilmirsən ki, qiymətli nə varsa, qurşaqdan aşağıdadır...

**Raçik.** Anam çox dedi evlən, dedim, ana, bir az düşünmək lazımdır.

**Qurgen.** Raçikcan, evlənməkdən, arvaddan-qızdan danışırsansa, üzün bəridir. Ölən adamın yadına qadın düşməz.

**Raçik.** Qurgen, sən mənə ümid verirsən.

**Qurgen.** Vay astuvas. Qurtaraq davanı, alaq Qarabağı, Gəncəni... Sənə Göy-göldə bir toy vurdurum ki, sorağı nəinki Yerevana, lap Livana, Fransaya gedib çatsın. İstəsən, Aznavuru gətirərik toyuna. O arvadla, adı nədi?

**Raçik.** Mirey Matye?

**Qurgen.** Hə-hə! Toyuna da bilirsən nə hədiyyə eləyəcəyəm?

**Raçik.** Oh! (*Ayağını tutur.*) Nə, Qurgen?

**Qurgen.** Bax, bu xalçanı! (*Divardakı xalçanı əlləşdirir.*) Əsl Qarabağ xalçasıdır, xalis əl işidir. Bu xalçaları burada həmişə su qiymətinə alıb, daşımışıq Yerevana, oradan da erməni xalçası adı ilə ötürmüşük Fransaya. Necədir? Naxışlarına bax! Göz qamaşdırır, ya yox? (*Xalçanı divardan aralayır*). Pah, burada gizli yer var ki! Görünür, nə vaxtsa, yük yeri olub. (*Avtomat səsi eşidilir. Qurgen diksinir.*) Bunlar kimdir?

**Raçik.** Qurgen, türklərdir? (*Qalxmağa təşəbbüs edir.*)

**Qurgen.** Qorxma! Bilmək olmaz kimlərdir. Səs eləmə... (*Pəncərəyə yaxınlaşır.*) İki nəfərdi... (*Qətiyyətlə*) Musurmandırlar! Özü də bura gəlirlər. Raçik, gizlənməliyik.

**Raçik.** İki nəfərdilər? Vur öldür də!

**Qurgen.** Nə bilirsən, bəlkə çoxdular, arxalarınca gələcəklər? Tələs, özü də səsini çıxartma!

**Raçik.** Yox, Qurgen, mən tərpənə bilmirəm, ayağım...

**Qurgen.** Qalx ayağa! (*Qaldırmaq istəyir.*)

**Raçik.** Yox, mən ölmək istəyirəm...

**Qurgen.** Amma mən ölmək istəmirəm, axmaq! Qalx!

**Raçik.** Axı, hara gedirik? Mən bu ayaqla gedə bilmərəm...

**Qurgen.** Girəcəyik bu xalçanın arxasındakı yük yerinə...

**Raçik.** Ayağım bərk ağrıyır, ana...

**Qurgen.** Səsini çıxarsan, inildəsən, ah-uf eləsən, özünü ölmüş bil, sıpa oğlu sıpa!

**Raçik.** Bəs onlar xalçanı açıb aparmaq istəsələr?

**Qurgen.** Onda atəş açacağıq! Qalx!

*Hər ikisi xalçanın arxasındakı yük yerinə girir. Səhnə bir müddət boş qalır. Bayırdan danışıq səsləri eşidilir. Təhsinlə Tayfur gəlirlər.*

**Təhsin.** Əcəb evdir, səliqə-səhmanına bax...

**Tayfur.** Belə ev-eşiyi qoyub qaçmaq olar?

**Təhsin.** Can şirin şeydir, Tayfur, su meymunun boğazına çatanda, balasını ayağının altına alır. *(Gülür.)* Vallah, bu millətdə sözlər var ey! Heyif ki, şair deyiləm.

**Tayfur.** Şair olub neyləyəcəkdin, ə? Odey Nurlan müəllim, aləmlə bir adı var, amma Yavuz bəy kişini gül kimi işindən çıxartdı.

**Təhsin.** Nurlan müəllim sataşmağa adam tapmırdı ki, dayımı lağa qoyurdu?

**Tayfur.** Təhsin, axı sən hər şeyi bilirsən. Bura heç erməni ayağı dəyməyib, bu millət niyə ev-eşiyini atıb qaçır? Bəs bu panikanı kim yaradır, aləmi qarışdıran kimdir?

**Təhsin.** Tayfur, bu siyasətdir, nə sən baş aça bilirsən, nə də mən. Yaxşısı budur, əlinə keçəndən götür. Bax, elə bu xalçanın puluna iki «Jiquli» almaq olar.

**Tayfur.** Yox, bir, ə! İnək almaq olar, yanı balalı.

**Təhsin.** Kətçisən ki, kətçi! Ağlındakı elə inəkdi! Sən nə bilirsən xalçanın qiymətini? Zər qədrini zərgər bilər. Mən neçə il xalça alveri eləmişəm, bilirəm ki, bunun qiyməti nədir.

**Tayfur.** Təhsin, axı bura erməni evi deyil...

**Təhsin.** İstəyirsən qalsın, axırda erməni aparsın? Qoy elə özümüzə qismət olsun da.

**Tayfur.** Axı, bu... Nəsə çox pis işdir, Təhsin.

**Təhsin.** Adam ac olanda hər şey ona pis görünür. Gəl bir az çörək yeyək, toqqanın altını bərkidək, sonra baxarıq ədalətə də, hələ desən, həqiqətə də. *(Çiynindəki çantadan konserv qutuları və digər yemək şeyləri çıxarır.)* Fransız konservalarıdır, ermənilərin evindən götürmüşəm.

**Tayfur.** Konserva niyə, bəlkə mətbəxdə yeməyə bir şey var?

**Təhsin.** Hərif olma, zəhər-zad qatmış olarlar.

**Tayfur.** Nə danışırsan, Təhsin, bizim camaat elə iş tutar?

**Təhsin.** Meymun məsələsini yadından çıxarma, Tayfur. Mən dolu evimi qoyub qaçmağa məcbur olsam, onu yandıraram ki, heç kimə heç nə qismət olmasın.

**Tayfur.** Amma mənim əlim öz evimi yandırmağa gəlməz.

**Təhsin.** İstəyirsən düşmən yandırsın?

**Tayfur.** Qoy yandırsın... Öz tikdiyimi özüm yandıra bilmərəm.

**Təhsin.** Bizim evimizi yıxan elə bu şeylərdi də. Ədalət, mərhəmət, düzlük. Nə isə… (*Yeyir.)* Çörək ye. Tez aradan çıxmaq lazımdır. Bilmək olmaz, birdən ermənilər gələrlər. Elə bizimkilər də bizi görməsələr yaxşıdır. Maşın doludu, şübhələnərlər.

**Tayfur** *(yeyir)*. Nə dadlı konservadır!

**Təhsin.** Ona görə ermənilər qudurur da! Ola bir maşın, yükləyib aparasan Bakıya. Bilirsən, nə qədər pul qazanmaq olar. Onsuz da, camaat almağa bir şey tapmır, pul qalıb əllərdə. Allahın çörəyi də tapılmır.

**Tayfur.** Tapılanda da, yemək olmur, sıxırsan, ya suyu tökülür, ya da ovulur. Deyirlər təzə hökumət buğda əvəzinə xaricdən mal-qara yemi alıb.

**Təhsin.** Neyləsin hökumət, belə ucuz başa gəlir də...

**Tayfur.** Təhsin, biz müstəqilliyə çıxdıq ki, mal-qara yemi yeyək?

**Təhsin.** Bəs elə bilirdin müstəqillik halvadı? İndiki hökumət mütləq uduzacaq. Zaman pis zamandır. Odur ki, fürsət varsa, işini gör... Başa düş, bura Azərbaycandı, nə İsveçdi, nə də Norveç. İşlədin, işləmədin, kefə baxırsan. Burada hər kişi çəmini tapıb öz-özünə gün ağlamalıdır.

**Tayfur.** Axı özümüzə necə gün ağlayaq, Təhsin?

**Təhsin.** Necə? İndi gəldin çıxdın mətləb üstünə. Bax da ətrafa, hər tərəf var-dövlətdir. Yığ da! Fərasətli adamlar müharibədə varlanır. Fərasətsizlər də müflis olur. Dur axtar bu evi, nə xoşuna gəlir götür, bir bu xalçaya dəymə, Bircəxanıma aparacağam, bəlkə barışdı mənimlə. Aramız bir balaca sərinləyib, keçən dəfə ərəbski xalça apardım, bəyənmədi, dedi Qarabağ xalçası olsun...

**Tayfur.** Təhsin, axı bu yaxşı iş deyil, vallah, günahdı.

**Təhsin.** Günah? *(Qəhqəhə ilə gülür.)* Əslinə baxsan, bizim yaşamağımızın özü günahdır. *(Daha da bərkdən gülür.)* Günah... Dur, hərif olma.

*Yük yerindən boğuq inilti səsi eşidilir.*

**Tayfur** *(diksinir).* Eşitdin?

**Təhsin.** Nəyi?

**Tayfur.** Elə bil kimsə inildədi. Özü də səs xalça tərəfdən gəldi.

**Təhsin.** Sayıqlama, Tayfur, xalça da inildəyər?

*Bu zaman bayırdan səslər eşidlir.*
*Təhsin və Tayfur avtomatı hazır saxlayırlar.*

**Nurlan** *(səsi eşidilir).* Bu kəndə dəyməyiblər.

**Təhsin.** Bizimkilərdir. *(Avtomatı aşağı salır.)*

**Tayfur.** Şükür, tər basmışdı məni.

**Uğur** *(gəlir).* Kimsə şayiə yayıb camaatı qorxudur... *(Birdən Təhsini görür.)* Təhsin? Sənsən?

**Tayfur.** Uğur, yaman qorxduq. Elə bildik ermənilərdir.

**Təhsin** *(gülür)* Bu Tayfur yaman qorxaq imiş...

**Uğur.** Təhsin, nə yaxşı buralardasan? Hansı batalyondasan?

**Təhsin.** Batalyon nədi, Uğur? Mən azad döyüşçüyəm, həvəskar partizan. İstəyəndə gəlirəm, istəyəndə gedirəm. Sən niyə təksən?

**Uğur.** Tək deyiləm, uşaqlar da, Nurlan müəllim də buradadırlar.

**Təhsin.** Nurlan müəllim? Bəs o?..

*Nurlan gəlir. Stolun üstündəki yemək süfrəsini görür.*

**Nurlan.** Ev yiyələri qaçıb, siz də süfrə açmısınız...

**Təhsin.** Nurlan müəllim, əyləşin, bir tikə çörək yeyin. Uğur, yeməyimiz var.

**Nurlan** *(tutqun halda).* Təxribatdır, əsl təxribat. Camaatı qorxuya salırlar, şayiə yayırlar, kəndləri döyüşsüz boşaltdırırlar. O evin arxasındakı yük maşını kimindir?

**Tayfur.** Təhsinindir.

**Nurlan.** Təhsinin? Bəs, maşındakı yük?..

**Tayfur.** Nurlan müəllim...

**Təhsin.** Tayfur, sən niyə mənim əvəzimə danışırsan? Nurlan müəllim, maşın da, yük də mənimdir.

**Uğur.** Mən bilən, sən bu kənddən deyilsən. Kimin yükünü aparırsan? Yoxsa, maradyorluq eləyirsən?

**Nurlan.** Uğur, sən nə danışırsan?

**Uğur.** Nurlan müəllim, mən yaxşı bilirəm o bura nəyə gəlib.

**Təhsin.** Mən sizi başa düşmürəm? Yəni istəyirsiniz ki, camaatın dişi-dırnağı ilə yığdığı bu şeylər ermənilərə qalsın? Tutaq ki, bu xalçanı erməni yox, mən aparıram. Bunun nəyi pisdir?

**Nurlan.** Təhsin, sən xəstəsən, başın xarabdır? Nə dediyini başa düşürsən? Cinayət törətdiyini bilirsən?

**Təhsin.** Nurlan müəllim, nə xəstə, nə cinayət? Məsələni niyə belə qoyursunuz? Məgər mənim dediyimi başa düşmürsünüz?

**Nurlan.** Təhsin, indi sən bizə dərs keçəcəksən? Bəlkə bu alçaq işə nəciblik donu da geyindirmək istəyirsən?

**Tayfur.** Nurlan müəllim, o bu xalçanı da aparmaq istəyirdi...

**Təhsin.** Tayfur, nə çuğulluq eləyirsən, ta de ki, o xalçada gözüm var da...

**Uğur** *(Təhsinə).* Avtomatımdakı güllələrə heyfim gəlməsəydi, doldurardım qarnına.

**Təhsin.** Başa düşürəm... Dayım Yavuz bəyə gücün çatmadı, cəbhə adı ilə qaçdın idarədən. İndi onun heyfini məndən çıxmaq istəyirsən? Əlinə fürsət düşüb?

**Uğur.** Çox iyrənc və alçaq adamsan, əsl goreşənsən ki, goreşən.

**Təhsin.** Vaxt gələr, bu sözlərini yadına salaram.

**Nurlan.** Xalqın bu gününü gözləyirdiniz? Varlanmaq xəyalına düşmüsünüz? Camaat faciə içərisindədi, igid oğlanlarımız şəhid olurlar, siz də... Tfu! Maradyorlar!..

**Təhsin.** Nurlan müəllim, sizin də mənə olan nifrətinizi başa düşürəm. Dayımın əlindən yanıqlısınız, amma yenə də deyirəm, bu xalçanı mən aparmasam, erməni aparacaq. Hansı yaxşıdır?

**Nurlan.** Yaxşı olan budur: nə erməyinə qismət olsun, nə də sənin kimi maradyora! (*Avtomatla xalçaya dalbadal atəş açır. Qurgenlə Raçikin qışqırtısı eşidilir.)*

**Uğur.** Bu nədir? Kimdir bunlar? (*Xalçanı qoparıb divardan salır. Raçikin və Qurgenin meyiti döşəməyə diyirlənir.*) Bunlar... bunlar ki, ermənilərdir...

**Təhsin** (*sarsılır*). Bu alçaqlar... Tayfur, bunlar bizi öldürə bilərdilər...

**Uğur.** Heyif, onları sağ tuta bilmədik. Bu olardı əsl kəşfiyyat...

**Nurlan.** Təhsin, hərbi tribunalda – qanun qarşısında cavab verməli olacaqsan.

**Təhsin.** Nurlan bəy, unudursunuz ki, mən Yavuz bəyin bacısı oğluyam...

**Nurlan.** İnanmıram ki, Yavuz bəy bu işdə sənə kömək eləyə bilsin.

**Uğur.** Ay yazıq, başın qarışıb soyğunçuluğa, xəbərin yoxdur ki, Yavuz bəyin özünün başının üstünü qara buludlar alıb, çoxdan vəzifəsindən çıxarılıb.

**Təhsin.** Heç kim onu işdən çıxara bilməz! O, Yavuz bəydir! Meydan qəhrəmanı! Onu xalq sevir!

**Nurlan.** Unutma ki, xalq sevdiyi kimi, nifrət etməyi də bacarır. Heyif ki, Yavuz kimilər bu həqiqəti anlamaq istəmirlər.

İndi isə, silahları təhvil verin. Uğur, bunları tapşır uşaqlara. O maşın da olsun maddi dəlil-sübut...

**Uğur.** Baş üstə, Nurlan müəllim. (*Təhsinlə Tayfuru avtomatın qabağına qatır*.) Düşün qabağıma, goreşənlər!

**Təhsin.** Xahiş edirəm təhqir etməyin!

**Uğur.** Ah, təhqir etməyin! Hələ harasıdır? Təhqir, söyüş, yumruq irəlidədi – həbsxanadadır. *(Onları avtomatın lüləsi ilə itələyə-itələyə aparır)* Vətən və xalq xainləri! Rəzillər!

**Nurlan** *(ermənilərin meyitinə baxır)* Bitdi sizin həyatınız. Bax, budur özgə malına, özgə torpağına göz dikənlərin aqibəti! Allah sizə lənət eləsin! *(Tüpürüb gedir.)*

*İşıqlar sönür.*

*Cəbhə xətti. Bir neçə əsgər silahını təmizləyir. Nilufər hərbi geyimdədir. Qolunda "Qızıl ay" nişanı var. Rəsinin alnındakı yaranı təmizləyir, sonra sarğı ilə sarıyır. Uğur bir az aralıdan onun hərəkətlərinə göz qoyur.*

**Nilufər.** Rəsi, qorxma, yüngül yaradır, güllə sivirib keçib, Allah saxlayıb.

**İmran.** Belə vaxtda deyirlər ki, anası namaz üstə imiş.

**Rəsi.** Anam namaz qılır ki...

**Nilufər.** İndi cavanlar namaz qılıb oruc tuturlar, yaşlılar isə elə sovet dövründəki kimi qalıblar...

**Uğur** (*aralıdan*). Hər zamanın öz tələbi var. Uşaqlıqdan beynimizi doldurublar ki, Vətənimiz Azərbaycan yox, SSRİ-dir...

**İmran.** Biz vətənpərvərliyi öyrənməliyik.

**Uğur.** Təkcə vətənpərvərliyi yox, çox şeyi... İlk növbədə böyük siyasəti, ordu yaratmağı, döyüşməyi... Hər gün bir kəndi itiririk...

**Rəsi.** Biz döyüşürük, canımızı qurban veririk, şəhidlərimizin sayı-hesabı yoxdur, amma yenə də torpaqlarımız əldən gedir...

**Uğur.** Xeyli vaxtdı cəbhədəyəm, çox şey görmüşəm... Məncə, bu saat bizə sülh lazımdır.

**Rəsi.** Nə danışırsan, Uğur, biz qalib gəlmişik ki, sülh söhbəti edək?

**İmran.** Rəsi düz deyir, indi sülh ermənilərə xeyir gətirər, bizə yox.

**Uğur.** İmran, bu, siyasətdir, ziyanlar arasından ən az ziyanı olanı seçmək lazımdır.

**Nilufər.** Uğur, axı bu məğlubiyyət deməkdir.

**Uğur.** Nədi, bəlkə Gəncəni də verib sonra danışıqlara gedək? Ermənilərin iştahaları böyük, qısqırdanları da çox, həm də gücü. Qüvvətlənmək, müttəfiqlər tapmaq üçün bizə vaxt lazımdır. Mən inanıram ki, haqq, ədalət öz yerini tapacaq. Gec-tezi var. İndi dünya siyasətindən başı çıxan rəhbərimiz var. O, mütləq dərdlərimizə əlac edəcək. Bu mənasız qırğının da qarşısını alacaq.

**Nilufər.** O gün Nurlan müəllim də sən deyənləri deyirdi...

**İmran.** Nurlan müəllim çoxdandı görünmür.

**Uğur.** Onu Yavuz bəyin yerinə təyin ediblər.

**İmran.** Yavuz bəyin? O meydanlarda çıxış eləyən Yavuz bəyin? Bəs onu hara göndəriblər?

**Uğur.** Həbsə!

**İmran.** Ola bilməz! Onun ölkə ilə bir adı vardı...

**Uğur.** Bu gün şüar deməklə xalqın etimadını qazana bilməzsən. Bu qanlı-qadalı illər bizə çox şey öyrətdi. Şirin sözlər, yağlı vədlər heç nəyə yaramır. İş görmək lazımdır. Xalqı hə-

mişə aldatmaq mümkün deyil. Yavuz bəy bu həqiqəti başa düşmədi...

**Rəsi.** Kabinetindən kisə ilə pul çıxarıblar. Hələ bu azmış kimi, bacısı oğlu da cəbhə bölgələrində maradyorluq eləyirmiş.

**Uğur.** Rəsi düz deyir. Onu Nurlan müəllimlə mən tutduq, hərbi tribunala verdik.

**İmran.** Kisə ilə pul!..

**Uğur.** Bəli! Hərc-mərclik, mənəm-mənəmlik axırda adamın başını xarab eləyir. Nə isə, bizim işimiz siyasətlə məşğul olmaq – vəzifə çəkişmələrini müzakirə etmək deyil, döyüşməkdir! Ermənilər bu təpənin o üzündədir. Ayıq olmalıyıq. Bu döyüş çətin döyüş olacaq, onlar çoxdandır ki, strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən bu yeri ələ keçirmək istəyirlər. (*Əsgərlər gedirlər.*)

**Nilufər** *(Uğurun sarıqlı əlinə işarə ilə)* Bu nədi, yaralanmısan?

**Uğur.** Elə-belə... Yüngülcə... Keçib gedər...

**Nilufər.** Gətir dərman qoyum...

**Uğur.** Narahat olma... Mən istəyirəm ki, sən məntəqəyə qayıdasan. Ağır döyüş gözləyirik.

**Nilufər.** Ağır döyüş... Deməli, şəfqət bacısına daha çox ehtiyac olacaq...

**Uğur.** Mən səni qorxutmaq istəmirəm, amma deməliyəm, bura çox təhlükəli yerdir, dığaların əlinə keçə bilərsən, səni əsir götürərlər...

**Nilufər.** Mənim çantamda tapançam var, ermənilərin əlinə heç vaxt sağ keçmərəm...

**Uğur.** Nilufər başa düş, bilərəkdən ölümə getmək səfehlikdir.

**Nilufər.** Bəs, sən ölməkdən qorxmursan?

**Uğur.** Mən kişiyəm, həm də bu bölüyün komandiriyəm. Anladın?

**Nilufər.** Sən harada olsan, mən də orada olacağam!

**Uğur.** Başa düşmədim...

**Nilufər.** Sən çox şeyi başa düşürsən. Siyasəti anlayırsan, hərbdən başın çıxır, amma çox sadə bir şeyi elə bil ki, hiss eləmirsən... Dərk eləyə bilmirsən, görmürsən.

**Uğur.** Nəyi hiss eləyə bilmirəm?

**Nilufər** *(üzünü tutur).*

**Uğur.** Mən bunu necə başa düşməliyəm?

**Nilufər.** Hə, sənə görə gəldim bura... Nə qədər əzab-əziyyət çəksəm də, peşman deyiləm... Sinəsini güllə qabağına verən, Vətən yolunda şəhid olan cavanları görəndə, onların Vətən məhəbbəti ilə vuran nəbzlərini dinləyəndə çox şey başa düşdüm. Sənin igidliyinin şahidi olanda... Mən xoşbəxtəm, Uğur!

**Uğur.** Xoşbəxtsən? Burada?

**Nilufər.** Burada, sənin yanında!

**Uğur** *(çaşqın halda).* İnsan qəribə məxluqdur...

**Nilufər.** Bəlkə, insan yox, qadın demək istəyirsən?

**Uğur.** Elədi, qadın qəribə məxluqdur. Düşmənlə üz-üzə, ölümün bir addımlığında xoşbəxt olmaq mümkündürmü?

**Nilufər.** Bəs sən necə? Özünü xoşbəxt hiss etmirsən? Nahaq yerə ürəyimi açdım sənə...

**Uğur.** Yox, Nilufər, mən də səni sevirəm, lap ilk gördüyüm gündən...

**Nilufər.** Bəs niyə susurdun? Niyə məcbur eləyirdin ki, mən dillənim?

**Uğur.** Nilufər... *(Onun əlindən tutur.)*

**Nilufər.** Yəqin, sən məni qınayırsan...

**Uğur.** Yox, yox, əksinə. Sənin cəsarətin məni heyran etdi.

**Nilufər.** Əgər sən də məni sevirdinsə, niyə hisslərini gizlədirdin?

**Uğur.** Hər an gülləyə tuş gələ biləcək əsgərin bir qızı özünə bənd eləməyə mənəvi haqqı yoxdur. Sən məni əzablı tərəddüdlərdən qurtardın!

*Elə bu vaxt atəş səsləri eşidilir. İşıq tez-tez yanır, sönür. Uğur cəld avtomatını götürür.*

**Uğur.** Nilufər, sən arxaya – təhlükəsiz bir yerə get, burada dayanma.

**Nilufər.** Yox, Uğur, mən sənin yanında qalacağam.

**Uğur.** Dedim get. Mən əmr edirəm! Uşaqlar, irəli!

*Elə bu vaxt bir erməni yaraqlısı Nilufərə atəş açır.*

**Nilufər** (*müvazinətini itirərək*). Ah! Uğur!..

*Uğur özünü Nilufərin yanına atır. Onun başını dikəldir...*

**Uğur.** Qorxma!.. Bu saat səni məntəqəyə aparacağam!..

**Nilufər.** Yox, Uğur, güllə düz ürəyimdən dəyib... Yəqin iki-üç dəqiqəlik ömrüm qalıb... Sən özünü qoru və vəsiyyətimə qulaq as... Mənim sərgərdan ruhum uçub Şuşada – dağıdılmış məscidimizin uçuq divarına qonacaq... Gərək razı olmayasan ki, mənim həndəvərimdə donuz xislətli ermənilər dolaşsın... (*Gözlərini yumur.*)

**Uğur** (*bərkdən qışqırır*). Nilufər!.. Nilufər!.. (*Avtomatını götürüb ayağa qalxır.*) Alçaq ermənilər!..

*Bu vaxt güllə açılır və Uğur Nilufərin yanına yıxılır. Rəsi gəlir. Gah yanan, gah da sönən işıqlar altında döyüş bir müddət davam edir və səngiyir.*

**Rəsi.** Uğur... Uğur... onlar qaçdılar, geri çəkildilər... Uğur... (*Yerə sərilmiş Uğuru və Nilufəri görüb*) Uğur... Nilufər... Uğur... Bu ola bilməz, biz onlara qalib gəldik, Uğur... *(Hönkürür.)*

*İşıqlar sönür.*

*Birinci şəkildəki məkan. Mirheydər ağa, Nurlan, Rəmzi söhbət edirlər.*

**Nurlan.** Uğurun, Nilufərin taleyi Vətən uğrunda cəbhəyə könüllü getmiş yüzlərlə, minlərlə cavanlarımızın taleyidir. Heyif ki, səriştəsiz rəhbərlər bu cür mərd övladları olan Vətəni hərraca qoydular.

**Mirheydər ağa.** İndi o zamankı rəhbərləri bir-bir gətirəsən bu şəhid qəbirlərinin yanına.

**Rəmzi.** Elə bilirsən xəcalət çəkəcəklər, ağa? İnanmıram. Hələ də keçmişin havası ilə yaşayırlar, hakimiyyət istəyirlər.

**Mirheydər ağa.** Dişlərində şirə qalıb, oğlum. Bir də... bilirsən, Rəmzi, bir vaxt meydana yığışan bütün xalqı bir barmağının işarəsi ilə oturmağa-durmağa məcbur eləyən adam çətin ki, bundan sonra bizim kimi bir işin qulpundan yapışsın. Mən onları başa düşmürəm. Vəzifə havası başlarından getməyib.

**Nurlan.** Ağa, mən onları hökumətə qarşı müxalifətdə olduqlarına görə qınamıram, əslində, iqtidar varsa, müxalifət də olmalıdır. Bu demokratik cəmiyyətin xüsusiyyətidir. İqtidarın nöqsanlarını görən və deyən lazımdır, yoxsa, inkişaf olmaz, amma müxalifət pisi gördüyü kimi, yaxşını da görməlidir...

**Mirheydər ağa.** Bəs mənim dediyim nədir, a pir olmuş? Yoxsa, o gün görürəm ki, televizorda biri danışır ki,

bəs, xalqın güzaranı pisdir, nə bilim, ölkə faciə içərisindədir. And olsun Allaha ki, ortası qayışa gəlmirdi. Baxdım, baxdım, dedim, a qurumsaq, belə də aclıq olar ki, sənin buxağın döşünü döyür?

**Rəmzi** *(gülür).* Yəqin aclıqdan şişib, ağa.

**Nurlan.** Onlardan bir soruşan gərəkdir ki, hakimiyyətdə olanda xalq üçün nə etdiniz?

**Rəmzi.** Deyəcəklər ki, ölkəyə müstəqillik qazandıq, xalqa da azadlıq verdik.

**Nurlan.** Doğrudur. Məgər biz bunu etiraf eləmirik? Xalq hərəkatının əhəmiyyətini danmaq olmaz, amma bu da həqiqətdir ki, bacarmadılar, hakimiyyəti itirdilər, özləri özlərini yıxdılar. Siyasət elmdir, onunla diletant kimi davranmaq olmaz. Bir də, hər zamanın öz hökmü var, nəyin yaxşısı, nəyin pis olduğunu da zaman göstərir.

**Balaca Uğur** (*qaça-qaça gəlir, həyəcanlıdır*). Ata, o kişi bizə tərəf gəlir.

**Balaca Nilufər** (*təngnəfəs*) Düz deyir! Mən də gördüm.

**Rəmzi.** Kişi kimdir, Uğur? Yavuz bəyi deyirsən?

**Balaca Uğur.** Hə, ata. Məndən soruşdu ki, kimin oğlusan? Burada nə gəzirsən? Bura, dedi ki, uşaq yeridir?

**Mirheydər ağa.** Bərəkallah! Bəs, sən nə dedin, bala?

**Balaca Uğur.** Dedim ki, əmimi yad eləməyə gəlmişəm. Odur gəlir.

**Yavuz bəy** (*gəlir. Əynində uzun nimdaş plaş, başında köhnə qaragül papaq var).* Salam əleyküm... (*Uğurgilin abidəsinə doğru getmək istəyir).*

**Nurlan.** Yavuz bəy!

**Yavuz bəy** (*ayaq saxlayır).* Yavuz bəy? Siz məni çağırdınız?

**Nurlan.** Yəni biz belə çox dəyişmişik ki, tanımadın?

**Yavuz bəy** (*onlara diqqətlə baxır*). Niyə ki? Tanıdım. Hələ huşum başımdadır. Dedim, bəlkə, siz məni tanımadınız. Nurlan müəllim, indi siz harada, mən harada?

**Mirheydər ağa.** Bəs mən deyəndə ki, dünyanın bir üzü ağdırsa, o biri üzü qaradır, niyə gülürdün?

**Yavuz bəy.** Mirheydər ağa, tanıdım, səni də tanıdım.

**Mirheydər ağa.** Məndən xoşun gəlməzdi.

**Yavuz bəy.** Elə indi də gəlmir. Amma bunun məsələyə dəxli yoxdur. İndi mənim istəyimlə heç nə dəyişmir. Çünki mən siyasi meyitəm. Yəqin ona görə də qəbiristanlıq çəkir məni. Burada gəzəndə həm sakitləşirəm, həm də kədərlənirəm...

**Nurlan.** Səbəb nədir, Yavuz bəy?

**Yavuz bəy.** Bilirəm, daşı hara atırsan, cənab deputat, amma bizim hakimiyyətə gəlməyimiz də, məğlub kimi hakimiyyəti buraxıb getməyimiz də tarixi zərurət idi. Biz tarix səhnəsində bizə ayrılan rolu, əslində, yaxşı oynadıq, amma səhnədən vaxtında gedə bilmədik. Bizim məğlubiyyətimizin səbəbi bu idi. Təsəvvür eləyə bilirsənmi, Nurlan Məruf? Gözəl bir roman mövzusudur bu. Heyif ki, yaza bilməyəcəksən.

**Rəmzi.** Niyə yazmır? Nurlan müəllimin təzə romanı çıxıb...

**Nurlan.** O romana görə məndən nə qədər adam inciyib, halbuki, onu yazanda, konkret olaraq heç kəsi nəzərdə tutmamışam, Rəmzi.

**Yavuz bəy.** Rəmzi? Sənə də pisliyim keçib?

**Nurlan.** Yavuz bəy, Rəmzi işdən çıxarmaq istədiyin Uğurun , bax, o rəhmətliyin qardaşıdır.

**Mirheydər ağa.** Allah Uğura da, Nilufərə də, cəmi şəhidlərimizə rəhmət eləsin, amin...

**Yavuz bəy.** Uğur, Ni- lu-fər... Onların ölümü məni də yandırır. Hətta bu ölümlərdə özümü günahkar da hesab eləyirəm. Bu günah məni həmişə incidəcək. Nilufərin qarşısında günahım daha böyükdür. (*Abidənin önündə diz çökür.)* Bağışlayın məni...

**Mirheydər ağa.** Qocalıqda iki adamdan – bəd əməllərə uyandan, bir də imkanı olub yaxşılıq etməyəndən kədər əskik olmur.

**Yavuz bəy** *(ayağa qalxır)*. Tanış sözlərdir, gərək ki, bunun davamı da var, qoca.

**Nurlan.** Davamını mən deyim? O cür adamın axır yeri cəza quyusudur.

**Yavuz bəy.** Cəza quyusu? Mənə həsr etdiyin romanın adıdır, yadıma düşdü. *(Qəfil)* Niyə mənə yaxşılıq elədin, Məruf?

**Nurlan.** Hamıya yaxşılıq etmək mənim borcumdur, amma sənə yaxşılıq etdiyim yadıma gəlmir.

**Yavuz bəy.** Mənim xəbərim var. Amnistiyaya düşməyimdə... Bunu sonradan bilmişəm. Səbəb nədir, bəlkə, savab qazanmaq istəyirsən, bəlkə, nəcibliyinlə camaatı heyran etmək, məni isə əzmək istəyirsən, bəlkə...

**Nurlan.** Sus, Yavuz bəy, danışıb təzədən özünü rüsvay eləmə. Mən sən Yavuzun yox, bu xalqa azadlıq ideallarını gətirən, özünü müstəqillik yollarında səfərbər etməyi bacaran Yavuz bəyin azadlığa çıxmasına çalışdım. Azadlıq carçısının zindanda yatmasını istəmədim. O böyük insan da xahişimi yerə salmadı, əfv fərmanını imzaladı. Başqa səbəb axtarmağa ehtiyac yoxdur.

**Yavuz bəy.** Sən məni zindandan azad elədin, amma nə olsun, mən o cəza quyusundan çıxa bilmirəm.

**Nurlan.** Həyat hələ bitməyib, Yavuz bəy. Tövbə qapıları həmişə açıqdır. Şərdən çəkinib xeyirə qulluq eləmək lazımdır. Cəza quyusundan çıxmağın yolu da elə budur...

*İşıqlar sönür.*

*Pərdə*

SON

# Miras

*(İkihissəli dramatik komediya)*

**İştirak edənlər:**

**Nemətulla**
**Həqiqət**
**Batelman**
**Svetik**
**Yazıçı**
} *SSRİ-nin yenidən bərpa ediləcəyi xəyalı ilə yaşayan kommunistlər*

**İnqilab** – *Nemətullanın oğlu*
**Nərgiz** – *İnqilabın arvadı, Nemətullanın gəlini*
**Elvin** – *Nemətullanın qardaşı nəvəsi*

*Müəllif qeydi: məkan Bakı şəhəri,*
*zaman XX əsrin 90-cı illərinin ilk illəri.*

# BİRİNCİ PƏRDƏ

*Qoca adama məxsus ev. 50-ci illərə məxsus iri bufetin ən görkəmli yerində Leninin ağ mərmərdən o qədər də kiçik olmayan büstü qoyulub. Divarda 40-50-ci illərin dəbinə uyğun görkəmdə çox yaraşıqlı gənc qadının fotoportreti asılıb. Daha bir əlamətdar əşya divar dibinə qoyulmuş iri kəfkirli saatdır. Nərgiz yellənən qədimi kresloda oturub ağlayır, hərdən çiynindəki dəsmalın ucu ilə gözlərini silir. İnqilab bir qədər əsəbi addımlarla var-gəl eləyir.*

**İnqilab**. Mənə həyat yoxdur... yoxdur! Tay-tuşdan geri qaldım, o cür evimdən-eşiyimdən oldum, gəldim sıxıldım qoca atamın qoltuğuna, girdim qəbir iyi verən bu xarabaya! Bu da bəs eləmədi, tale zərbəni zərbə dalınca vurur. Hamısı da sənin əlinlə! Buna qaydasız döyüş deyərlər, Nara!

**Nərgiz.** Nə deyirsən de, İnqilab! İstəyirsən qaydasız döyüş de, istəyirsən kikboqsinq de! Amma onu bil, mən öləcəyəm, Azikə bir şey olsa öləcəyəm! Ölə bilməsəm, benzini üstümə töküb yandıracağam özümü...

**İnqilab.** Ay insan, sən niyə başa düşmürsən ki, mən gedib Amerikada yaşaya bilmərəm, mən orada qabyuyan olmaq istəmirəm! Yad ölkədə mən nökərçilik eləməyəcəm! Mənim adım-sanım var, camaat tanıyır məni.

**Nərgiz.** Orada kim tanıyır səni, İnqilab? Heç burada bilmirlər sən kimsən, o da ola Amerika! Orada kim kimədi? Bir də lap tanısınlar, neynirik, pis iş görürük, işləyirik də!

**İnqilab.** Nara, qab yumaq işləməkdi? Ömrüm boyu sənə qab yumuşam, deyirsən indi də gedim amerikalılara yuyum?

**Nərgiz.** Sən mənə qab yumusan?

**İnqilab.** Mən Mərkəzi Komitədə, Sekanın özündə şöbə müdiriydim, kişilər qabağımda mil dayanırdı, evə gələndə görürdüm bulaşıq qablar məni gözləyir.

**Nərgiz.** Sən də xalqın kişiləri kimi qulluqçu tutaydın, qablarını da yuyaydı.

**İnqilab.** Az, mən zavoddel Seka evimdə qulluqçu saxlayaydım?

**Nərgiz.** Qulluqçu tutmaqdan qorxurdunsa, qab yumaq niyə şəstinə toxunurdu?

**İnqilab.** Gör bu adamın danışığında məntiq var? Nara, qab yumaq...

**Nərgiz** (*sözünü kəsir*). Bəsdi, İnqilab! Qab yumağın bizim problemə heç bir dəxli yoxdu! Mən deyirəm Aziki, yeganə balamızı xilas eləməliyik, sən mənə iki-üç tarelka yumağından danışırsan! Deyir ki, mama, gəlməsəniz məni ölmüş bilin (*kövrəlir*).

**İnqilab.** Sənin verdiyin tərbiyənin nəticəsidir belə olar da, Nara! Vətən bilmədi, torpaq tanımadı, xalq saymadı. Yapışdı ki, mən gedirəm azad ölkəyə! Sən də bir tərəfdən fitdədin. Dedin ki, qoy getsin, bu ölkənin gələcəyi yoxdur. Mən də ürəyiyumşaq adam. Nəyimiz var satdıq-sovduq apardı Amerikada iş qurmağa. Bəs nə oldu? Niyə çaşıb qalıb o azad ölkədə? Burada yaşayanlardan artıqdır?

**Nərgiz.** Təzədən başlayaq, İnqilab? Niyə başa düşmürsən ki, bu saat ona vətən, torpaq, millət, sənin deyinməyin yox, pul lazımdır, ayaq üstə durmaq üçün dollar lazımdı?

**İnqilab.** Vermədik, Nara? Nəyimiz vardı aparmadı? Axırda şəhərin mərkəzində, Sekadan aldığım gözəl evlərimi satmadım? Ta nə istəyir oğlun məndən?

**Nərgiz.** O tək mənim oğlumdu, İnqilab? Sənə dəxli yoxdu Azikin?

**İnqilab.** Nara, mənə nə vermisən ala bilmirsən?

**Nərgiz.** Nə istəyirəm? Lənət şeytana! Açdırma mənim gül ağzımı, İnqilab!

**İnqilab.** Açmasan da bilirəm nə deyəcəyini, özü çıxmamış iyi gəlir. Fərsizəm mən, kişi kimi pul qazana bilmirəm. Gündüz axşamacan krossvord həll eləyirəm o heç kimə lazım olmayan xaraba institutda.

**Nərgiz.** Dediklərimi yaxşı saxlamısan yadında, amma bu azdı, çox azdı!

**İnqilab.** Ta nə demək istəyirsən, Nara?

**Nərgiz.** Heç nə! Biz bu evi satmalıyıq!

**İnqilab.** Necə yəni evi satmalıyıq? Bu evin yiyəsi ölüb ki, biz onu sataq?

**Nərgiz.** Ölməyib, öldürərik!

**İnqilab.** Nara, sən dediyin sözün mənasını qanırsan? Sən mənim atamı öldürmək istəyirsən? Özü də bunu mənə deyirsən?

**Nərgiz.** Qorxma, bu saat öldürmədik Nemətullanı!

**İnqilab.** Nara, sən mənim gözümün içinə bax!

**Nərgiz.** Sən allah, tragediya çıxartma! Guya sən heç düşünməmisən bu haqda?

**İnqilab.** Nara, sənin gözündə şeytan işığı var.

**Nərgiz.** İnqilab, sən məsələnin çox ciddi, hətta qorxulu olduğunu bilmirsən.

**İnqilab.** Nə demək istəyirsən, Nara?

**Nərgiz.** Azik bu saat elə vəziyyətdədir ki, hər saat özünə əl qaldıra bilər.

**İnqilab.** Azikdə elə cəsarət yoxdu, Nara.

**Nərgiz.** Nə fərqi var, cəsarətdən özünü öldürür, ya qorxudan?!

**İnqilab.** Axı bu necə ola bilər?

**Nərgiz.** O sənə heç nə demir, İnqilab, mənə deyir. Atası olsan da sən Aziki yaxşı tanımırsan.

**İnqilab.** Yaxşı, bəs mənim atamın nə taqsırı var?

**Nərgiz.** Taqsırın bura dəxli yoxdu, İnqilab, biz onun evini satıb getməliyik Azikin yanına.

**İnqilab.** Bəs kişi harada qalsın?

**Nərgiz.** Kişi?.. Nə bilim... Qocalar evində qalsın.

**İnqilab.** Qocalar evində?

**Nərgiz.** Hə də! Azik deyir Amerikada təqaüd yaşı çatan kişilər, arvadlar hamısı qocalar evinə gedirlər. Elə kişinin o yəhudi dostu orada qalmır? Tez-tez də yanına gedir.

**İnqilab.** Yaxşı, tutaq ki, analı-balalı sizin ikinizin də ağlı çaşıb? Bəs mənə nə olub, Nara? Camaat mənim üzümə tüpürməz?

**Nərgiz.** Mən camaata görə təkcə oğlumu itirməliyəm, İnqilab? Biz Aziki xilas eləməliyik! Bu evdən başqa bizim qiymətli heç nəyimiz yoxdur.

**İnqilab.** Axı bu ev bizim deyil. Sən demirsən kişi bu sözü eşitsə ikimizi də atar bayıra?

**Nərgiz.** Sən dur qıraqda, maneçilik də eləmə. Mən özüm onunla danışacağam. Baba deyil? Bəlkə ürəyi daşdandı? Azik deyir, mama, ikinizə də iş tapmışam.

**İnqilab.**Qabyuyan?

**Nərgiz.** Həri, yaxşı restorandı deyir. Qalmağa yer də verirlər. Hələ pasobiya da olacaq... Sonra da deyir ki... (*Kövrəlir*) Deyir çox danışa bilmirəm telefonla, mama, pul gedir.

**İnqilab.** Bilsin də qədrimizi.

**Nərgiz.** Balam qalıb orada, okeanın o tayında, pulsuz-parasız... Ərköyün balam, təkcə balam... Bacısız-qardaşsız tifilim...

**İnqilab** *(kövrəlir).* Bəs bir elə pulu neynədi o, Nara?

**Nərgiz.** Nə bilim, İnqilab, deyir borca düşmüşdüm... Deyir hər şeyimi itirdim, mama, bankrot oldum. Ümidi bir bizədi. Biz də az-çox günümüzü görüb dövranımızı sürmüşük, İnqilab. İndi borcumuz bircə balamızı yaşatmaqdı.

**İnqilab.** Yaxşı, tutaq ki, kişini yola gətirdik, hərçənd buna mənim çox böyük şübhəm var. Bəs biz? Biz bu yaşda gedib yad ölkədə, özü də Amerikada yaşaya bilərik? Axı biz heç dil də bilmirik.

**Nərgiz.** Yaşamağın dilə nə dəxli var, İnqilab? Bu günəcən ingilis dili bilmirdik yaşamırdıq?

**İnqilab.** Az, biz bu günəcən Amerikada yaşamamışıq axı! Neynirdik ingilis dilini?

**Nərgiz.** Bəs mən nə deyirəm?

**İnqilab.** Məni qınayan, atana lənət! (*Telefon zəng çalır, İnqilab dəstəyi qaldırır.)* Bəli! Azər?! Oğlum, sənsən?.. Nara, bunun səsinə nə olub?

**Nərgiz** (*telefonu qapır*). Azik?! Mama qurban... Nə olub səsinə, Azik? Depressiya nədi, Azik?.. Ay Allah! Adə, de görüm necəsən? *(İnqilaba)* Deyir pisəm, mama. Niyə pis mama qurban, niyə pis? Azik... Azik... Bir qulaq as... *(İnqilaba)* Deyir hələ oradasız?

**İnqilab.** Bəs harada olmalıyıq biz?

**Nərgiz.** Azik, axı hələ babaya deməmişik. Nə bilim, deyə bilməmişik. Bilmirsən xasiyyətini? Azik... Azzz... Adə, bir qulaq as də! Biz daşürəkliyik? *(Qeyri-ixtiyari qışqırır).* Adə, özümü asacağam nədi?

**İnqilab.** Nə deyir o, Nara? Asmaq nədi?

**Nərgiz.** Azik, mama qurban... Azik... *(Qışqırır.)* Azik! Bağladı telefonu. *(Stula düşür).* Deyir bir həftəyə gəlməsəniz asacağam özümü.

**İnqilab** *(ümidsiz halda divana düşür).* Bu da hər şeyin axırı!

*Küçədən səs-küy eşidilir. Kişi və qadın səsləri: "Yaşasın SSRİ!, Kompartiyaya eşq olsun!, Yaşasın 7 noyabr!" Səslər getdikcə yaxınlaşır. İnqilab birdən yerindən qalxır. Təəccüb və sevinclə pəncərəyə yaxınlaşır.*

**İnqilab.** Bu nə səs-küydü, Nara?! İnqilab baş verib? Perevorotdu?

**Nərgiz** *(halını dəyişmədən).* Həri, inqilabdı! Əhli-kef atan bayramdan qayıdır, özü kimi avara qocalarla! Şizofreniklərlə!

**İnqilab.** Nə bayram, Nara, bayram vaxtıdı?

**Nərgiz.** Yeddi noyabrdı də, nə tez çıxdı yadından? O vaxtdan heç beş il keçməyib. Sekada işləyəndə işin-gücün nümayiş təşkil eləmək deyildi?

**İnqilab.** O gözəl günləri yadıma salma, Nara! Salma yadıma!

**Nərgiz.** Onu atana de! Bax, bu gün məsələni həll eləməliyik, İnqilab! İstər xoşluqla, istər zorla.

**İnqilab.** Mən bacarmaram! Özün danış, mən evdə olmayanda, ikilikdə.

**Nərgiz.** Yenə mən?! Hər yerdə məni qabağa verirsən.

**İnqilab.** Bütün bu axmaq işlərin mayasında sən dayanırsan, Nara! Uşağı yoldan çıxarıb Amerikaya göndərən də sənsən. Di zəhmət olmasa, davam elə!

*İnqilab getmək istəyir, amma əllərində yüngül transparantlar və şüarla yazılmış plakatlarla içəri girən Nemətulla, Həqiqət, Batelman, Svetik və Yazıçı ilə toqquşur. İnqilabın ayağı transparantlardan birinə ilişir və o yıxılır.*

**Nemətulla.** Baxın! Görün saxta, üzüdönük partokratlar necə yıxılırlar?! Bu bir vaxtlar Sekada şöbə müdiri olub, yoldaşlar. Mən buna İnqilab adı vermişdim ki, inqilab kimi mətin olsun! Bəs bu neynədi? Elə ilk zərbədən yıxıldı, dönük çıxdı. Satdı partiyanı, biletini gözümün qabağında cırdı.

**İnqilab.** Yenə düşmüsən küçələrə, papa? Axı sən qoca kişisən, ağsaqqalsan.

**Nemətulla.** Biz nə qocayıq, nə də ağsaqqal! Qocalar çoxdan ölüb!

**İnqilab.** Papa, sizin bu nümayişlər, piketlər çox komik görünür.

**Nemətulla.** Neynək, komik görünür, gül nə qədər istəyirsən. Onu da bil ki, bu küçələrdə, meydanlarda gəzməyə mənim haqqım daha çoxdu. Çünki bu şəhəri mən qurmuşam!

**İnqilab.** Səhvin var, Nemətulla Sadıxoviç! Sən qurduğun şəhər çoxdan yoxdu. Bu tamam təzə şəhərdi. Bir beş ildən sonra daxil olacaq XXI əsrin şəhəridir.

**Batelman.** Eto toçno! Naş starıy, dobrıy Baku isçez navseqda.

**Svetik.** Gena düz deyir, bu gördüyümüz bizim tanıdığımız, sevdiyimiz Bakı deyil!

**Yazıçı.** Hanı Parapet? Hanı "Nərgiz" kafesi? "İnturist" necə oldu?

**Nemətulla.** Hələ "Novaya Yevropa", "Bakı" mehmanxanası? İndi heç bizim dildə otel adı yoxdu. Hələ qırmızı tramvaylar?! Trolleybuslar?! Mənim on bir nömrəli tramvayla bağlı nə qədər xatirələrim var.

**İnqilab.** Papa, heç hənanın yeridi? Bəlkə İstiqlaliyyət küçəsində o trolleybusa heykəl də qoyaq? "Nərgiz" kafesi! A kişi, onları sovetin vaxtında sökmədik? Mən onda Sekada

işləyirdim. Qatmayın məni bu müxalif söhbətlərə, onsuz da əskim tüstülüdü *(qapıya yönəlir).* Mən getdim!

**Nemətulla.** Onsuz da sənə vəzifə verməyəcəklər, heç ümid olma! Sən unudulmusan.

**İnqilab.** Bu səni sevindirir?

**Nemətulla.** Nə deyim sənə?

**İnqilab** *(əlini yelləunder)*. Məni məzur tutun, getdim!

**Nemətulla.** Necə getdim? Görmürsən qonaqlarım var?

**İnqilab.** Papa, mən getməliyəm, işim var, mən nə inqilabçıyam, nə də kommunist!

**Nərgiz.** Səfirliyə dəyməyi unutma!

**İnqilab** *(gedə-gedə donquldanır.)* Həri, səfirlikdə oturub məni gözləyirlər. *(Gedir).*

**Nemətulla.** Bərəkallah!

**Batelman.** Ni troqayte yevo Nemətulla Sadıxoviç! Yemu ne do qostey.

**Nemətulla.** Neynək, gəlin ki evdədi. Nərgiz xanım, qonaqlarıma yaxşı üz göstər. Bu Həqiqət xanımdır, tanıyırsan, çox kişidən mərd kişidir. Bu xanım Svetikdir, dünən də, bu gün də SSRİ-nin ən gözəl qadınıdır! Batelman da ki, bizim evin adamıdır, tanıyırsan, yəhudilərin ən vəfalısıdır. Bu yoldaşı isə tanımayan yoxdur. “Yoldaş partiya” romanının avtorudur. Hələ onda xalq yazıçısı adına layiq görülmüşdü.

**Yazıçı.** Lenin ordenim də var.

**Nərgiz.** Çox şadam, papa! *(yavaşdan).* Papa, sizə çox vacib sözüm var.

**Nemətulla.** Söz qaçmır, gəlin, danışarıq *(qocalara).* Yoldaşlar, atributları qoyun bir tərəfə, hələ bizə lazım olacaq. Bu xamır hələ çox su aparacaq.

*Qocalar transparantları, bayraqları bir küncə yığırlar.*

**Həqiqət.** Ta heç nə bizə kömək eləyə bilməz, Nemətulla Sadıxoviç, nə bayram, nə mitinq, nə demonstrasiya! Dağıldı, hər şey yerlə-yeksan oldu, bütün qurduqlarımız dağıldı. Mən buna görəmi Kalımada sürgün həyatı yaşadım?

**Svetik.** Demə, Həqiş, demə! Bacımla mən ikimiz bir yerdə Qaraqandada səkkiz il zülüm çəkdik. Bu da axırı! Bu da müstəqillik!

**Nemətulla.** Biz müstəqildik SSRİ olanda! Bir köpəyoğlu deyə bilməzdi gözünüz üstündə qaşınız var. Torpaqlarımız da əlimizdə. Elə ki, xainlər SSRİ-ni dağıtdı, xəbis düşmən pusqudan çıxdı, aldı Qarabağı, çatdı yüzillik arzusuna.

**Yazıçı.** İndi yaz görüm necə yazırsan, bu vəziyyətdə?

**Həqiqət.** Niyə yazmırsan, yaz da! Qələmini ki almayıblar əlindən. On ildir susursan!

**Yazıçı.** Demək asandır, Həqiqət xanım, amma nədən yazım? Zavod yox, fabrik yox, kollektiv yox! Kolxoz-sovxoz dağılıb. Konflikti nəyin üstündə qurum?

**Nərgiz** *(deyinir).* Bütün həyatımız konflikt deyil, müəllim?

**Yazıçı.** Konfliktdi, qızım, əlbəttə konfliktdi, amma mən bilməliyəm bu hökumətə nə lazımdı! Demirlər, bir göstəriş vermirlər. Bir ordu yazıçı, şair qalıb başlı-başına, bir qabağa düşüb yol göstərən yoxdu. Kimin ağzına, ağlına nə gəldi bir ucdan döşəyir.

**Nemətulla.** Qurtarın giley-güzarı, yoldaşlar! Deyinmək, şikayətlənmək acizlik əlamətidir. Biz nə istədiyimizi yaxşı bilirik, biz kommunistik! Məqsədimiz də aydındır, heç kəsdən də gizlətmirik. Biz partiyamızı, SSRİ adlı böyük vətənimizi bərpa etməliyik! İndi isə süfrəyə! Biz ən əziz bayramımızı qeyd etməliyik, lap Sovet qaydasında, əsl kommunist kimi. *(Süfrəyə baxır).* Gəlin, heç xoşuma gəlmədin, süfrəmiz boşdur.

**Nərgiz.** Papa, mən bilmirdim axı qonağımız olacaq.

**Nemətulla.** Əlbəttə bilməzsən, axı sərf eləmir. Amma unutmayın, elə o büdrəyib yıxılan oğlum da bilsin ki, bura mənim evimdir, siz də mənim qonağım.

**Nərgiz.** Hirslənmə, papa, bu saat bir şey düzəldərəm. *(Gedir).*

**Həqiqət.** Nemətulla Sadıxoviç, heç kimi incitməyin, heç nə də lazım deyil. Şəxsən mənim şənlənməyə həvəsim yoxdur.

**Batelman.** Heç elə şey yoxdur, Aqiqat xanum! Bayramı necə lazımdır qeyd edəcəyik. *(Qapı ağzına qoyduğu iri ryukzakı gətirir).* Bura baxın! Bu mənim proviziyam: iki şprot konservası, bir banka zeytun, maslinı, özüm düzəltmişəm. Bu da... gözünüzü yumun... pirojki s kapustoy!

**Nemətulla.** Nu, tı dayoş, Gena!

**Batelman.** Hələ harasıdır, Nemətulla Sadıxoviç! *(Konyak şüşəsi çıxardır).* Bu da konyak! Özü də "Göygöl"!

**Svetik.** Bravo, Gena (*Hamı vəcdlə əl çalır).* Yoldaşlar, mən də əliboş gəlməmişəm. Bir banka sirkəyə qoyulmuş xiyar, iki dənə də kambala v tomatnom souse. Necədir?

**Yazıçı.** Əla! Mən də sizə Yeddi noyabra həsr etdiyim şeirimi oxuyacağam. Düz qırx il qabaq yazmışam, amma aktuallığını hələ də saxlayır. Axı mən ədəbiyyata şeirlə gəlmişdim.

**Nərgiz** (*əlində bir qab salat gəlir).* Dünəndən xeyli salat qalıb, stoliçnıy.

**Nemətulla.** Hə, yaxşı salatdı, o qədər dadlıydı ki, dünən yeyə bilmədim. *(Hamı gülür).* Zarafat eləyirəm... (*Stola nəzər salır)* Əla! Gəlin, sən də otur bizimlə.

**Nərgiz**. Mənim bir bayramım çatmır bu saat, özü də Yeddi noyabr!

**Nemətulla.** Nədi, nə olub? Niyə burnunuz yerlə gedir? Elə İnqilab da turşməzəydi. Nə məsələdi?

**Nərgiz** *(pıçıldayır).* Azikin vəziyyəti orada yaxşı deyil, papa.

**Nemətulla.** Necə yəni yaxşı deyil? Xəstələnib?

**Nərgiz** (*kövrəlir)* Xəstə olsa nə vardı?! Sağalıb durardı. Məsələ başqadı, papa, sizin məsləhətiniz lazımdı.

**Nemətulla.** Heç onda məsləhət istəmədiniz məndən, sən geridə qalmısan dediniz.

**Nərgiz.** Papa, keçib ondan. İndi Azikə kömək lazımdı, vəziyyəti çox pisdi.

**Nemətulla.** Bəs nə bilmişdiniz? İmperializmin dayağı olan o şeytan yuvasında yaxşı olacaqdı Azikin vəziyyəti? Vətənə dal çevirib gedən adam çəkməlidi cəzasını!

**Nərgiz.** Papa, axı o sənin nəvəndi!

**Nemətulla.** Nəvəmdi, amma mənim adamım deyil. O mənim nəvəm olsaydı...

**Nərgiz** (*sözünü kəsir)* Papa, sonra danışarıq.

**Nemətulla.** Mənim nə indi, nə də sonra ona aid sözüm yoxdu. Vətənini yadların ayağına verib qaçan adamla mənim heç bir söhbətim ola bilməz! *(Nərgiz incik gedir.)* Mən də deyirəm bu niyə mənə şirin-şirin papa deyir?! Lənət xalasına! Keçək əsas məsələyə, yoldaşlar!

**Yazıçı** *(salat qabını götürüb burnuna yaxınlaşdırır).* Əcəb dadlı iyi var, əsl olivyedi, bizim bayram süfrələrinin bəzəyi.

**Svetik.** Demə, demə... Bayrama bir ay qalmış tədarük görərdik. İlahi, bir banka mayonez, bir banka zelyonı qaroşek tapanda necə sevinərdik. Hələ toyuq tapanda?! Hayıf o günlərdən! Bəs indi?! Toyuq var, qaroşek neçə cür, smetan, mayonez, amma bayram əhvalı yoxdu, adam sevinə bilmir.

**Nemətulla.** Yoldaşlar, təklif var əvvəlcə dünyasını dəyişmiş mübarizə silahdaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad eləyək. Hələ qırxı çıxmamış İvan Alekseyeviçi, se-

vimli Sofa Gerayevnanı xatırlayaq. Hər ikisi ilə aramız sərin olub, amma əsil kommunist idi onlar! Əyilməz, sınmaz... Sükut! *(Hamı ayağa qalxıb farağat vəziyyəti alır və susur.)* Hamısının ruhu şad olsun! *(Hamı oturur).* Gena, nalivay!

**Batelman** (*konyak şüşəsini götürür).* Yoldaşlar, bu konyakın qəribə taleyi var. Baxın, indi "Göygöl" konyakı var? Varsa da bundan ola bilməz! Bu sovetdən, o böyük vətəndən qalan yadigardır. İsrailə köçəndə bir düjin alıb apardım ki, orada əziz Bakını yada salanda nostaljimi bu konyakla öldürərəm. Svoloçi! Hamısını içdilər! Bircə bu şüşəni saxlaya bildim. Onu da əlim gəlmədi açmağa. Düz üç il saxladım.

**Svetik.** Gena, bu konyak da emiqrant həyatı yaşayıb? İsrailə gedib qayıdıb?

**Batelman.** Həri, Aqiqat xanum! O da mənim kimi qürbətdə qala bilmədi, Bakı çəkdi bizi, ikimizi də! Orada əhd eləmişdim ki, vətənə qayıdan kimi bu şüşəni açıb içəcəm Bakının sağlığına, sərxoş olunca. Sonra da küçəyə çıxıb var səsimlə qışqıracam: eyyy... sevin bu vətəni! Ölün bu şəhər üçün! Sevin Bakını! Qurbanlar kəsin bu gözəl diyar üçün!

*Bir qıraqdan qocaları seyr edən Nərgiz başını bulayır.*

**Nərgiz.** Həri, qurban kəsəcəyik, bizi quru yerdə qoyan bu şəhər üçün qurban kəsəcəyik, amma buradan gedən gün! *(Kulisdə itir).*

**Svetik.** Gena, neçə ildir qayıtdığın, bəs niyə içməmisən bu emiqrant konyakı?

**Batelman.** İçə bilmədim, Svetik, səbəbini məqamı gələndə danışaram, bəlkə də heç danışmadım. İndi isə içirik bu "Göygöl"ü! (*Şüşəni açıb qədəhləri doldurur).* Di, götürün, soyutmayın! Birinci sağlıq ənənəvidir: heç kimi və heç nəyi unutmayaq!

*Hamı içir. Elvin gəlir. Bu otuz yaşında yaraşıqlı, bahalı idman stilində geyinmiş gənc kişidir. Hərəkətlərində və ədalarında özünə inam və sərbəstlik var.*

**Elvin.** Pah! Bu nədir? Mən hara düşmüşəm? Baba, bura qocalar evinin filialıdır?

**Nemətulla**. Buyurun, yoldaşlar! Bu da mənim böyük qardaşımın nəvə yadigarı. Bugünkü gənc nəslin yekəbaş nümayəndəsi! Dediyinə qulaq asın, feyziyab olun!

**Elvin.** Baba, bu qədər qocanı bir yerə yığmaq təhlükəli deyilmi? Adamın lap qocalmağı gəlir.

**Svetik.** Hələ harasıdır, anamı gətirsəydim nə deyərdin?

**Elvin.** Nənə, sənin anan da var?

**Svetik.** Niyə yoxdu, hələ iki xalam da var: Şura, Mura, amma qadına nənə, xala, ağbirçək deməzlər, cavan oğlan! Mən xanımam!

**Nemətulla.** Bağışla onu, Svetik, tərbiyədən ağsaqdır.

**Yazıçı.** Gərək xalalarını da gətirəydin, Svetik! Mamanı da çoxdan görmürəm. Çox müdrik qadındır.

**Batelman.** Eta ne jenşina, a aqon.

**Elvin.** Baba, bəlkə mən də qoşulum sizin bu antikvar məclisə?

**Nemətulla.** Nədi, cavanlar arasında yerin yoxdu?

**Elvin.** Niyə yoxdu, baba, amma burada, qocalar arasında adam özünü Yunan allahları kimi ölümsüz hiss edir.

**Həqiqət** *(məğrur və qeyzli).* Bu nə sarsaqlayır? Kimdi qoca?

**Yazıçı.** Cavan oğlan, burada qadınlar var?

**Elvin** (*qəhqəhə ilə gülür*) Qadın? Bu nənələr qadın olduqlarını hələ unutmayıblar? (*Özünə süfrə arxasında yer eləyir*).

**Nemətulla.** Ay uşaq, ağ eləmə!

**Svetik.** Cavan oğlan, qadın həmişə qadındır! Otuzunda da, yetmişində də! Hələ yüzü demirəm!

**Batelman.** Qadın şərab kimidir, qaldıqca qiyməti artır.

**Elvin.** Onda mən bu bahalı qadınları sizə bağışlayıram, müəllim.

**Nemətulla.** Fikir verməyin, ağıllı olsa da, bir az yekəbaşlığı var.

**Elvin.** Baba, yekəbaş komplimentini ikinci dəfə itələdin bizə.

**Həqiqət.** Üçüncüdən saxla özünü!

**Yazıçı.** İndi cavanlar diqqətdə olmaq üçün tərbiyəsizlikdən də çəkinmirlər.

**Batelman** (*portfelindən iri ağ parça çıxardır*). İcazənizlə bu bayram günündə mən öz salfetimi taxım yaxama. Bu bir burjuy ədası olsa da, vərdişdir (*salfeti yaxasına taxır*). Vərdiş də ikinci xarakterdir.

**Həqiqət.** Narahat olma, Gena, indi burjuyluq dəbdədir. Fəhlə sinfi daha yoxdur, məqsədli şəkildə məhv edilib.

**Svetik** (*Batelmana*). Oldun əsl centlmen.

**Yazıçı.** Gena, bu o məşhur salfetka deyil?

**Elvin.** Nəyə görə məşhurdur? (*Batelmanın yaxasındakı salfetkaya əl vurur*). Bu ki əsgər portyankasına oxşayır. Corab əvəzinə ayağa dolayardılar ki, sapoqlar ayağı dağıtmasın. Əsgərlikdə həftədə ikisini dəyişirdim.

**Batelman.** Bəli, bu bir vaxtlar portyanka kimi ayaqdaydı, indi yaxadadır. Amma stolumuzun üstündə daha maraqlı şeylər var, yoldaşlar! Qaldırın badələri, içək Oktyabr İnqilabının sağlığına!

**Elvin.** İnqilab durur ki, sağlığına da içəsiz?

**Nemətulla.** Bəli, Elvin yoldaş, durur da, yaşayır da! Nə qədər ki, bizim nəsil yaşayır, Yeddi noyabr da yaşayacaq! Qalxın, yoldaşlar, bunu ayaq üstə içməliyik!

*Hamı qalxır və bir nəfər kimi içir.*

**Batelman.** Bu konyak deyil, yoldaşlar, ceyran südüdür!

**Svetik.** Oy! Oy-oy-oy... başıma vurdu... oyyy... *(qəhqəhə ilə gülür).*

**Həqiqət** *(dik oturub)* Mən heç vaxt içkidən sərxoş olmuram.

**Yazıçı.** Bəs məhəbbətdən necə?

**Həqiqət.** Məhəbbətdən? Mən? Bu yaşa çatdım bir köpəyoğlu qəlbimi titrədə bilmədi.

**Batelman.** Köpəyoğlu neynəsin, sənin qəlbin titrəyən qəlb deyil. O vaxtlar nə qədər yalvardım, dalınca süründüm.

**Elvin.** Haçan olub bu haqq-hesab? Eramızdan əvvəl?

**Batelman.** Düz əlli il bundan qabaq, bəlkə də altmış il! Onda Aqiqat xanum pioner baş dəstə rəhbəri idi, mən də raykom komsomolda instruktor.

**Elvin.** Dəhşət!

**Həqiqət.** Bəsdi, Gena!

**Batelman.** Yaş da ki... Elə sənin kimi yaraşıqlı, cavan oğlandım.

**Elvin.** Onda dinozavrlar da vardı?

**Svetik.** Həri, camaat da lüt gəzirdi.

**Nemətulla**. Svetik, bu nə məcun konservdir?

**Svetik.** Nemətulla Sadıxoviç, dalnevostoçnıdı. Talonlarımın hamısını verib bu konservləri almışdım o vaxt. Sovetdən qalmadı.

**Elvin** *(çeçəyir)* Sovetdən qalma dediniz? (*Ağzındakı tikəsini salfetə tüpürür)* Siz bizi zəhərləmək istəyirsiniz?

**Svetik.** Nə zəhərlənmək, cavan oğlan? Sovet konservası bir əsr də ötsə xarab olmaz. Sən deyən indikilərdi. Şprot alırsan, nə gündə?! Kilkadan seçilmir. Nə dadı var, nə tamı! Zəhərlənmək aaa?!

**Həqiqət.** Mən sağlıq demək istəyirəm.

**Yazıçı.** Həqiqət xanımın dili açılır.

**Nemətulla.** Gena, qədəhlər boşdur.

**Svetik.** Mənə yox, Gena! Mən artıq sərxoşam.

**Həqiqət.** Svetik, mən sağlıq deyirəm!

**Svetik.** Nu yesli çut-çut... Həqişin xətrinə.

**Batelman.** İlahi, xoşbəxt olmaq üçün necə az şey lazımdı!

**Nemətulla.** Gena, Həqiqət danışır!

**Həqiqət.** Bəli, Həqiqət! Atam Pravda qoyub adımı, sonra nənəm pasport alanda dəyişdirib elədi Həqiqət.

**Yazıçı.** Niyə? Pravdanın nəyi pisdi ki?

**Həqiqət.** Dedi ki, qızın birinin adını İskra qoydun alan olmadı, bunu da bədbəxt eləmə.

**Elvin.** Həqiqət haqqında yaxşı bir anekdot bilirəm, hayıf yeri deyil.

**Nemətulla.** Buyurun, Həqiqət xanım, davam eləyin.

**Həqiqət.** Bütün ömrümü həqiqətin qələbə çalmasına həsr etdim. Əvəzində 17 il Kalımada sürgün həyatı yaşadım, geri çəkilmədim. Yorulmadım, ümidsiz olmadım, haqqın qələbəsinə inandım. Yadıma gəlir, çox gözəl vaxtlardı, bizi Kalımadan Karaqandaya yatab eləyirdilər. Yoldaşlar, qışın şaxtalı bir günüydü, amma necə gün çıxmışdı: parlaq, ılıq. Evdən də təzəcə məktub almışdım. Bir yaşında qoyub getdiyim qızımın on ildən sonra ilk dəfə şəklini göndərmişdilər. Qəlbimdə necə bir sevinc, xoşbəxtlik vardı! Elə bil məni Karaqandaya yox, Yaltaya göndərirdilər. Budur, həmin şəkil! (*Qoynundan qırmızı parçaya bükülmüş şəkli çıxardıb açır, diqqətlə, məhəbbətlə baxır*). O gündən özümlə gəzdirirəm. Baxın! Görün necə mənə oxşayır?!

*Hamı şəklə səmimi maraqla baxır.*

**Elvin.** Qəşəng qızdır! Yəqin indi qocalmış olar?

**Həqiqət.** Bilmirəm! Bu şəkildən sonra ondan nə o vaxtlar, nə də sonralar bir xəbər ala bildim. Bəraətdən sonra da bir məlumatım olmadı. Mən onu itirdim, bütün gəncliyimi itirən kimi.

**Elvin.** Necə yəni itirdim?

**Svetik** *(Elvinə)*. Üstün vurma, cavan oğlan, incə məsələdi.

**Həqiqət.** Bu şəkil olmasaydı, mən çoxdan ölmüşdüm. Əslində bezmişəm yaşamaqdan, iyrənmişəm adamlardan, amma yaşamağa məhkumam. Bu şəklin yiyəsini tapmayınca ölməyə ixtiyarım yoxdu (*Konyakı bir uduma içib oturur).*

**Batelman.** Mən də içirəm sizin yeganə qızınız Ulduzun sağlığına! Nəvələrinizin şərəfinə!

**Svetik.** Allah onları xoşbəxt eləsin!

**Elvin.** Çox qəribədir... mən...

**Nemətulla.** Sən sus, molokosos! Yoxsa qovularsan!

**Elvin.** Baba, mənim taqsırım nədədir?

**Nemətulla.** Sənin axmaqlığında! Uşaq da olsan, mən səni müdrik cavan bilirdim! Demə... (*Əlini yellədib sözünü bitirmir).*

**Yazıçı.** Bax bu atalar – oğullar problemidir, ədəbiyyatın əbədi mövzusu *(portfelindən kağız çıxardıb tələsə-tələsə yazır).*

**Elvin.** Müdrik?! Əfv edərsiz, xocam, müdriklik qocaların qəbahətidir.

**Yazıçı** *(yazır).* Necə dedin? Müdriklik qocaların cidarıdır dedin?

**Elvin.** Cidar nədi, şair, mən qəbahət dedim.

**Yazıçı.** Elədir, qəbahət dedin, afərin, yaxşı dedin *(Yazır).* Bu heç mənim ağlıma gəlməzdi.

**Batelman.** Sən qocalanda, cavan oğlan...

**Həqiqət** *(sözünü kəsir).* Əgər qocalsa!

**Batelman.** Əlbəttə əgər qocalsa belə oxumayacaq. Vostoçnıy mudrets skazal...

**Yazıçı.** Gena azərbaycanca de, yazıram.

**Batelman.** Vastoçnıy mudrets skazal: İyirmi yaşında adamı qadınlar çəkir, otuz yaşında şərab, qırx yaşında səyahət, əlli yaşında isə müdriklik.

**Yazıçı.** Yavaş-yavaş, Gena, çatdıra bilmirəm, əlim yazını yadırğayıb.

**Svetik.** Bəs qadınları nə çəkir, Gena? Yoxsa adam deyəndə ancaq kişilər nəzərdə tutulur?

**Batelman.** Xanımlar nahaq inciyir. Bu sözləri Gena Batelman demir, vastoçnıy mudrets skazal, a vastok kak vı znayete delo tonkoye.

**Nemətulla.** Eşitdin, qardaşımın dəli-dolu nəvəsi? Müdriklikdən yaxa qurtara bilməzsən.

**Elvin.** Mən heç vaxt müdrik olmayacağam.

**Nemətulla.** Niyə, bu qədər axmaqsan?

**Elvin.** Axmaqlığın bura dəxli yoxdu, Nemətulla baba, mən heç vaxt qocalmayacağam.

**Svetik.** Mən də elə bilirdim, cavan oğlan, amma görürsən, yaşım... Yox deməyəcəm, qadın yaşını deməz... (*qəhqəhə ilə gülür*).

**Batelman.** Vot eta jenşina!

**Svetik.** Çox istərdim, cavan qalmağın sirrini açasan mənə, Elvinçik. Bir sirri var bunun, bəlkə dərmanı var, resepti?

**Elvin.** Əlbəttə var. Bax...

**Yazıçı.** Rica edirəm, yavaş-yavaş...

**Elvin.** Xərci var!

**Nemətulla.** Yenə də alver?!

**Elvin.** Bəli, alver! Hər şeyin alınıb satıldığı bu bazar dünyasında biz niyə satmayaq?

**Yazıçı.** Maraqlı sualdır.

**Elvin.** Yeni iqtisadi münasibətlərə alışmaq lazımdır, baba. Özün də partiya rəhbərisən, olmayan kommunistlərin partiyasının rəhbəri.

**Həqiqət.** Niyə olmayan? Biz ölmüşük bəyəm?!

**Elvin.** Heç sovetlər vaxtında əsl kommunist yoxuydu, indi haradan olacaq? Sizin yalançı ideyalar bünövrəsiz ev kimi bir şeydi, yel əsməmiş dağıldı, yerlə-yeksan oldu.

**Batelman.** A on ne qlupıy malçik.

**Svetik.** Yaxşı, qiymətini de, hər şeyimi satıb verərəm. Heç qocalmaq istəmirəm.

**Elvin.** Əslində qiyməti çox bahadır, amma sizə havayı verəcəyəm.

**Svetik.** Çox sağ ol, gəl öpüm səni?

**Elvin.** Yox, qıdığım gəlir.

**Svetik.** Bəs niyə ucuz verirsən?

**Elvin.** Siz onsuz da mənim reseptimdən istifadə eləyə bilməyəcəksiniz. Yetmişi keçmisiniz.

**Svetik.** Yetmişi? Adə, 70 yaşında mən axırıncı ərimdən boşandım. Sən danış... Yox, qadın yaşını deməz.

**Elvin.** Deməli, sizin yaşınız... İlahi! Bu qədər yaşamaq olar? Müharibə şəraitində olan bir ölkədə 70 yaşdan artıq yaşamaq israfçılıqdır. Ölkədə hər üçüncü adam pensiya alır, cənablar! Bu düşmənçilik deyil bəs, nədir? Sizin hamınızı xalq düşməni kimi təzədən Sibirə sürgün eləmək lazımdır.

**Həqiqət** (*qəfil yerindən qalxıb Elxana yaxınlaşır və qəzəblə*) Hayıf ki, Nemətulla Sadıxoviçin qohumusan!

**Svetik** *(Həqiqətin qolundan tutur).* Həqiş, neynirsən?

**Yazıçı** *(sürətlə yaza-yaza).* Svetik, mane olma! *(Öz-özünə danışır).* Konflikt sürətlə dərinləşir.

**Batelman.** Lazım deyil, Aqiqat!

**Elvin** *(çaşqındır).* Bu nə həyəcandır belə, qocalar? O, mənə neynəyəcək?

**Nemətulla.** Dayanma, Həqiqət, halal eləyirəm.

**Elvin** *(sarsaqcasına hırıldayır).* Nənə, vuracaqsan məni?

**Həqiqət** *(Elvinə qəfil şillə vurur).* Yaramaz! Rəzil!

*Svetik qışqırır. Elvin gözləmədiyi zərbədən stula düşür və pərtliyini gizlətmək üçün gülür.*

**Nemətulla.** Hə, necədir?

**Elvin.** Əslində düz eləyib vurdu. Yaramazı da yaxşı dedi, qandım, bəs o rəzil nədi?

**Nemətulla.** Rəzil sənin kimi olur, hər şeyin qiymətini bilib qiymətləndirməyən adama deyirlər. Vətən, xalq, millət, namus-qeyrət, mənəviyyat da boş sözdür rəzil adam üçün. Bunlar düşünmədən vətəni də satarlar.

**Elvin.** İmkan olsa satardım.

**Nemətulla.** Tfu!

**Yazıçı.** Əla! Bunu da yazdıq! Əla!

**Həqiqət** *(Elvinə).* Bəs niyə dayanmısınız, satın-sovun, müqəddəs nəyiniz var satın hamısını, lap bizi də satın, satın ki, israfçılıqdan qurtarasınız. Axı dedin ki, çox yaşamaq israfçılıqdır.

**Elvin** (*hər ehtimala qarşı Həqiqətdən aralanır).* Satardım, amma kim alacaq sizi? Heç zapçasta da yaramırsınız.

**Nemətulla.** Rədd ol buradan! Von! Von!! Von otsyuda!

**Elvin** *(tərpənmir və hədə ilə)* Mənimlə ehtiyatlı olmaq lazımdır, Nemətulla baba.

**Nemətulla** (*çaşqındır)* Sən məni hədələyirsən, küçük?! (Qocalara). Siz bir şey başa düşdünüz?

**Elvin.** Çətin! Onları başa salmaq üçün uzatmaq lazımdır.

**Svetik.** Aman allah! Hara?

**Elvin.** Əlbəttə qara tabuta!

**Həqiqət.** Mən bu evdə qala bilmərəm! Gedirəm!

**Nemətulla.** Dayan, Həqiqət, sən getməyəcəksən! O yekəbaş gedəcək!

*Telefon zəng çalır. Hamı diksinir. Nərgiz qaçaraq gəlir.*

**Nərgiz.** Xarici zəngdir... Mən! Mən özüm... (*Dəstəyi qaldırır).* Alo! Alo!! Azik? Niyə, Azik? Yox oğlum, hələ imkan olmayıb... Adə, belə darqursaq olma da! Azik, axı sən kişisən! Bir az möhkəm ol də... hövsələ elə də... Azik, indi danışa bilmirəm... (*Telefon xəttinin imkan verdiyi qədər qıraq bir yerə çəkilib pıçıltı ilə danışır).*

**Nemətulla.** Baxın, yaxşı baxın! Bunlardı bizim gələcəyimiz! Biri bizi diri-diri tabuta uzadır, o biri də gedib əcnəbi ölkədə xoşbəxt olmağa!

**Batelman.** Özgə yerdə xoşbəxt ola bilmərik biz, Nemətulla Sadıxoviç. Mən heç xoşbəxt ola bilmədim, qayıtdım zemlya obetovannaya deyilən İsraildən. Hər şeyim vardı, amma vətənim yoxdu, mən Bakısız yaşaya bilmədim.

**Elvin.** Nə qəribə adamlarsız siz! Olmayan partiyanın üzvü, olmayan vətənin vətəndaşı, olmayan övladın anası, olmayan ideyanın... Sizə baxanda adam ölmək istəyir.

**Nemətulla.** Əl-ayağım sənə dəyməmiş çıx get buradan, rədd ol! Bu evin yolunu da çıxart yadından! Bilirəm, ta mənim evimə də ehtiyacın yoxdu, rədd ol!

**Elvin.** Hayıf ki, səni çox istəyirəm, baba, yoxsa getməzdim (*Getmək istəyir).*

**Svetik.** Axı sən resepti demədin, cavan oğlan?

**Elvin.** Nənə, qocalmamağın bircə resepti var.

**Svetik** *(yazıçıya).* Eynəyim yanımda deyil, sən yaz.

**Elvin.** Yaz, şair! Yaz ki, qocalmamağın bircə yolu var, o da cavan ölməkdir.

**Svetik.** Budu sənin reseptin?

**Elvin.** Sizin üçünsə bu reseptdən istifadə eləmək gecdir, nənə, çox gecdir! *(Gedir).*

**Batelman.** Odnako, on ne qlupıy...

**Nemətulla.** Mən də bilirəm onun ağılsız olmadığını, amma nə xeyri, onun ağlı şərin xidmətindədir.

*İnqilab gəlir. Əlində kağıza bükülü araq şüşəsi var.*

**İnqilab.** Kefdəsiz! *(Masanın üstündəki konyak şüşəsini götürüb baxır).* Bilsəniz sizə necə paxıllığım tutur?! Guya heç nə dəyişməyib, bu kataklizmlərin sizə heç dəxli yoxdur. Zaman da xəlvətcə sivişib keçib yanınızdan. Guya sizin qurduğunuz o boyda fövqəldövləti də dağıtmayıblar.

**Nemətulla.** Necə dağıdıblar, elə də quracaqlar! Amma onda sən ta zavotdel Seka olmayacaqsan.

**Batelman.** Eto toçno!

**İnqilab.** Niyə, mən xalq düşməniyəm?

**Nemətulla.** Xeyr, xalq düşməni deyilsən, satqın və qorxaqsan!

**İnqilab.** Yenə köhnə hava! Nemətulla Sadıxoviç, başa düş mən mübarizə adamı deyiləm, mən icraçıyam, indi deyilən kimi məmuram, çinovnik.

**Svetik** *(qeyri-ixtiyari gülür).* Bilirsiz o polis mənə nə dedi, lopabığı deyirəm?

**Yazıçı.** Nə dedi?

**Svetik.** Deyir, ay nənə, ay arvad, ay ağbirçək, ay qoca... ta onu deyə bilmərəm, sənin nümayişə çıxan vaxtındı? Get məscidə, namaz qıl, dua elə, tövbə elə... *(Gülməkdən uğunur).*

**Nemətulla.** Niyə demədin ki, məscid, namaz avamlar üçündü?

**Svetik.** Niyə demədim? Dedim mən ateistəm... (*Gülməkdən danışa bilmir)* Ooo... O, ateist sözünü başa düşmədi. Dedi ki, nə ata, az, sən yaşda qarının atasımı oleyr? *(Daha şaqraq gülür).*

**Batelman.** Bəs mənə nə desə yaxşıdı?

**Yazıçı.** Nə dedi, Gena?

**Batelman.** Pasportuma baxıb görəndə ki, yevreyəm, dedi, ə, camaat İsrayıla gedir, müalicə olunmağa, sən də burada müxalifətçilik eləyirsən? Xoşun gəlmir rədd ol get də, xarabana, səni saxlayan var burada?

**Həqiqət.** Bəs demədin buradı mənim vətənim?

**Batelman.** Niyə demədim? Dedim gəlmə sənsən, mən karennoy bakılıyam, vətənim də buradır, ölüm də burada veriləcək torpağa.

**Svetik.** Gena, ölümdən danışma!

**Həqiqət.** Vətən! Oh, vətən! O boyda vətəni məhv elədilər, bizi vətənsiz qoydular.

**Svetik.** SSRİ deyəndə adamın tükləri biz-biz olurdu.

**Batelman.** Bəli, biz vətənsizik. Getdim ora, elə bildim qan yaddaşım oyanar, isinişərəm tarixi yurduma, heç kimdən milli mənsubiyyətimi gizlətməyə ehtiyac qalmaz, bir ürəkdolusu heç nədən, heç kimdən çəkinmədən “mən yevreyəm”, – deyib hayqıraram! Amma yox, orada buna ehtiyac olmadı, kruqom odni yevreyi! Torpaq da mənə yad, klimat da, insanlar da. Yevreylər də orada çox maraqsız, duzsuz...

**Yazıçı.** Gena, insafın olsun, yavaş-yavaş... *(sürətlə yazır).*

**Batelman.** Üç ilmi keçdi, beş ilmi, bəlkə yüz il?! Qala bilmədim, alışa bilmədim qürbətə, Bakı çəkdi məni özünə. İlahi, bu necə böyük istəkdi! Mən həsrətdən boğulurdum. Uşaqlarım da məni saxlaya bilmədilər. Qayıtdım, qanad açıb uçan quş kimi yetirdim özümü Bakıya... *(Ağlayır).*

**Svetik.** Ta niyə ağlayırsan, Gena?

**Batelman.** Gəldim, amma o Bakı yoxdu! Mənim doğma şəhərim yoxdu, bu mənim sevdiyim, vətənim dediyim Bakı deyildi. Hanı mənim Parapetim, hanı mənim "Nərgiz" kafem, hanı 26-lar bağı, hanı "İnturist", hanı mənim Torqovım, gəncliyimin küçəsi, Karqanovdan enərdim aşağı, düşərdim tanış adamlar arasına. Salamlaşmaqdan yorulardım. Bəs hanı, necə oldu o adamlar? Görmədim tanış üzləri, təbəssümlü dostları... Əvəzində qaşqabaqlı, üzütüklü, qayğılı insanlar... Zibil tökə-tökə gedirlər, tüpürürlər, deyinirlər, söyüşürlər... İtirdim mən vətənimi! *(Hönkürür).* Niyə məni vətənsiz qoydun, vətən?

**Həqiqət.** Bəsdir, yoldaş Batelman! Ağlamaq kommunistə yaraşmaz?

**Batelman** *(konyak şüşəsini məhəbbətlə sığallayır).* Buydu vətənimin yeganə yadigarı, onu da bu gün siz içdiniz, bir yerdə məhv elədik onu...

**Svetik.** Aaa... yevrey ki yevrey!

**Həqiqət.** Tək sən deyilsən vətənsiz, Gena. Biz hamımız SSRİ-siz yetimik, vətənsizik... *(Salfeti gözlərinə sıxır).*

**Nemətulla.** Bəsdirin, yoldaşlar! Biz ağlaşma qurmağa yığışmamışıq! *(Yavaş-yavaş oxuyur).*

*Günəş nur səpir yollarımıza,*
*Dostluq güc verir qollarımıza.*

**Həqiqət** *(oxuyur).* Ayrılmaz dostlarıq biz,

**Svetik** *(oxuyur).* Tükənməzdir qüvvəmiz

**Batelman** *(gözlərini portyankası ilə silib oxuyur).* Qarşımızda baş əyir,

**Yazıçı.** Mavi dalğalı dəniz...

**Birgə.** *Qarşımızda baş əyir,*
*Mavi dalğalı dəniz.*
*La-la la-la-la-la-la-la...*

*Mahnı səsinə Nərgiz gəlir və bir qıraqda dayanıb oxuyanlara baxır. Kefi kökəlmiş qocalar hərarətlə qucaqlaşırlar və elə o vəziyyətdə də mahnının daha bir bəndini də ifa edirlər. Nərgiz tənə ilə, İnqilab həsədlə baxır onlara. Mahnı bitir.*

**Nemətulla.** Yoldaşlar, gəlin and içək! And içək ki, biz böyük vətənimizi qaytarmayınca ölməyəcəyik! And içək!

**Hamı.** And içirik!

**İnqilab.** Axı siz... siz... siz heç... *(Yavaş-yavaş, sonra getdikcə ucadan qəhqəhə çəkə-çəkə gülür. Bu çox səmimi, bəlkə də bir qədər isterik gülüşdü).*

**Nemətulla.** Dayan, dayan... Sən bizə gülürsən? Sən... sən...

**Nərgiz.** Fikir vermə, papa, onun gülən vaxtıdır, iki yüzü keçəndən sonra ağlayacaq.

**İnqilab.** Gülmürəm, Nemətulla Sadıxoviç, vallah, gülmürəm... Sadəcə heyrət edirəm, sizə paxıllığım tutur.

**Svetik.** Mənə yox, oğlum, mənə paxıllığın tutmasın, məni paxıllıq yıxdı, sürgünə də məni paxıllıq göndərdi.

**Həqiqət.** Bilmək olarmı o paxıllığın motivi nədir, yoldaş partokrat?

**İnqilab.** Tək sizə yox ey, altmışı keçmiş hər kişiyə paxıllığım tutur. Pis-yaxşı yaşayıb qurtarmısınız, az-çox pensiya alırsınız, əslində heç nəyə də ta iddianız yoxdu. Lap fərsiz də olsanız, bundan sonra qınaq yeri olmayacaqsız, çünki sizdən ta nə arvad, nə uşaq, nə qohum-əqraba, heç kim heç nə gözləmir. Bax, bu əsl azadlıqdır!

**Nemətulla.** Bərəkallah, İnqilab yoldaş! Sən bizi diri-diri basdırırsan?

**Yazıçı.** Maraqlı yanaşmadı. İnqilab müəllim, bir az xırdala.

**Nərgiz.** İnqilab müəllim, bizim araq içən vaxtımız deyil, işimiz var axı!

**İnqilab.** Bəs mənim kimi ömrün ortasında azıb qalmış binəva neynəsin? *(Arağı qəfil bir uduma içir).* İlahi, mən hələ yaşamalıyam, bu qəddar zamanla ayaqlaşmalıyam. Elə bil qarşımda yaşamalı olduğum ömür deyil, gücüm çatmayan bir dəyirman daşıdır. Mənsə o daşı qaldırmaq nədir, heç tərpədə bilmirəm, halbuki arvadım, baş götürüb Amerikaya qaçan oğlum məndən əlac istəyirlər. Elə sən də, ata, sənin dostların da hələ məndən nəsə gözləyirsiniz. Amma mənim güvənməli bir yerim yoxdu, mən bu həyatdan, yaşadığım cəmiyyətdən, şəhərdən qorxuram... *(Qəfil hönkürür).* Qorxuram... Amerikadan gələn hər zəng səsi məni diksindirir, dəhşətə gətirir...

**Yazıçı** *(tələsə-tələsə yazır).* Bu monoloqu olduğu kimi verəcəyəm...

**Nemətulla** *(pərt halda).* Gördünüz mənim zürriyyətimi?

**Nərgiz.** Dedim axı bir azdan ağlayacaq.

**Nemətulla.** Sən kəs, ilana zəhər verən koramal! Onu ağladan sən oldun, onu cındır parçasına çevirən də sən oldun!

**Nərgiz.** Papa, insafsız danışma! O hələ ayaq üstədirsə, səbəb mənəm.

**Nemətulla.** Baxın dostlar, yaxşı baxın! Mənim oğlum həyatdan bezir, yaşamaqdan qorxur, yooox, çezir!

**İnqilab.** Elədi, papa, mən qorxuram, çezirəm! Bunu deməkdən də utanmıram!

**Nemətulla.** Qardaşımın yeganə yadigarı, yetimxanadan qurtardığım nəvəsi üzümə deyir niyə çox yaşayıb israfçılıq eləyirsən? Özcə nəvəm, bu ağlağan partokratın oğlu da qaçıb gedib Amerikada imperialistlərə nökərçilik eləyir. Bunlar nə bilir vətən nədir, xalq nədir? Gena, sən deyilsən vətənsiz, vətənsiz, xalqsız, millətsiz bunlardır! Mənim oğlumdur vətənsiz!

**İnqilab.** Bu vətən mənə dədəlik eləyə bilmədi, papa! Hələ bu nədir ki, nə onun əlindən qopub gedə bilirəm, nə onda ya-

şaya bilirəm. (*Araq töküb içir*). Püf!.. Oğlumun yanına getməyə mənim pulum yoxdur. Azik üçün burnumun ucu göynəyir, amma gedib görə bilmirəm onu. Mən, İnqilab Nemətullayeviç, bıvşiy zavotdel Seka Amerikaya getməyə pul tapmıram.

**Nemətulla.** Amerikada nə işin var, ə, sənin?! Sən nə danışdığını qanırsan?

**İnqilab.** Mən getməliyəm, papa, getməliyəm! Mənim özgə yolum yoxdur.

**Nemətulla.** A gəlin, bu nə deyir? Amerikada nə işi var bunun? Genə nə plan cızmısan buna?

**Nərgiz.** Axı siz bizə qulaq asmırsınız, Nemətulla Sadıxoviç! Sizə deyirəm danışmalıyıq, əlinizi yellədirsiniz, ya da tikanlarınızı işə salırsınız.

**İnqilab** (*nalə çəkir*). Papa, mən orada qabyuyan olacağam, amerikanların bulaşıq qablarını yalayacağam.

**Nərgiz.** İnqilab, bəsdi də! Başına söz qəhətdi?

**Nemətulla.** Bunun başı xarab olub?

**Svetik.** İçkinin təsiridi, Nemətulla Sadıxoviç, fikir verməyin.

**Yazıçı.** Əlbəttə içkinin təsiridi, amma in vino veritas, yəni həqiqət şərabdadır, adamın dilini açır.

**İnqilab.** Nara, mən orada da qab yuyacağam?!

**Nərgiz.** Qab yumağın yeridi, İnqilab? Sən nəyin hesabına olursa olsun oğlunu qərib ölkədə ayaq üstə qoymalısan! Buna görə adam qab da yuyar, lap qazan da yalayar.

**İnqilab.** Eşitdin, papa? Xilas elə bizi, Nemətulla Sadıxoviç, xilas elə mənim təkcə oğlumu! Qıyma o özünə qəsd eləsin qərib ölkədə! (*Ayağına yıxılır*).

*Nemətulla diksinib geri çəkilir, hiss olunur ki, hiddətindən danışa bilmir. O, üzüqoylu döşəməyə sərələnmiş oğluna heyrət və bir az da ikrahla baxır.*

**Svetik.** Getmək vaxtıdır, uşaqlar, bu ailə məsələsidir, biz getməliyik.

**Həqiqət.** Həri, getməliyik, özü də lap indi. Ulduz zəng vurmalıdır.

**Batelman.** Nemətulla Sadıxoviç, icazənizlə... (*Qapıya yönəlir)* Spasibo za vsyo!

**Yazıçı.** Mən gedə bilmərəm, uşaqlar, özünüz də danışmayın, süjetin inkişafına mane olursunuz.. *(Nərgizə)* Davam elə, qızım, sənin replikandı.

**Nərgiz** *(İnqilabı qaldırır).* Dur ayağa, bəsdi konsert verdin.

**İnqilab.** Nara... Nara... *(stolun arxasına keçir).*

**Nemətulla.** Heç kim heç yana getməyəcək, bu gecə hamınız qonağımsınız.

**Svetik.** Aaa... Niyə gecə?

**Həqiqət.** Mən qala bilmərəm, birdən qız gəlib çıxar!

**Batelman.** Mən də qala bilmərəm, bizim pansionatda dəmir intizam var.

**Yazıçı.** Mən qalıram!

**Nemətulla** *(əmrlə)* Hamı qalır!

**Nərgiz.** Papa, axı bizim təcili söhbətimiz var, bayaq dedim...

**İnqilab.** Bu söhbət deyil, Nara, ölüm-dirim məsələsidir *(içir).*

**Nərgiz.** Bəsdi içdin bu zəhrimarı! Güldün, ağladın, ta neynəmək istəyirsən?

**İnqilab.** Ölmək istəyirəm, Nara!

**Nərgiz.** Ən asan yolu seçdin! *(Araq şüşəsini hikkə ilə alıb yerə boşaldır).* Bizə ölmək yox, iş görmək lazımdır.

**İnqilab.** Mən hazır! *(Əllərini qaldırır).*

**Nərgiz.** Görürəm, hazırsan!

**Həqiqət.** Yoldaşlar, biz getməliyik! Nemətulla Sadıxoviç, mən mütləq getməliyəm, hiss eləyirəm ki, qız bu gün gələcək. *(Qətiyyətlə qapıya yönəlir).*

*Qocalar gah gedən Həqiqətin ardınca, gah da pərt qalmış Nemətullaya baxsalar da, tərəddüdlə qapıya yönəlirlər.*

**Nemətulla** (*hələ də yazan Yazıçıya).* Dur sən də get, davamı olmayacaq. Hər şey bitdi.

**Yazıçı.** Belə tez bitə bilməz, mən böyük səhnə üçün yazıram.

**Nemətulla.** Dedim olmayacaq.

*Yazıçı narazı qalsa da portfelini, kağızlarını səliqəyə salmadan gedənlərin dalınca çıxır.*

**Nemətulla** *(arxasını oğlu ilə gəlininə çevirib əlləri dalında dayanır).* İndi eşidirəm! Mənə nə sözünüz var?

**İnqilab.** Papa! Papa!!

**Nərgiz** *(əli ilə İnqilabın ağzını yumur).* Papa! Nemətulla Sadıxoviç!

**Nemətulla.** Mən adımı bilirəm, gəlin, sözünü de, bərk yorulmuşam.

**İnqilab.** Papa, niyə dalıvı çevirmisən bizə?

**Nemətulla.** Sənin bu mağmın vəziyyətinə baxa bilmirəm!

**Nərgiz.** O sənin oğlundu, papa, onu sən elə yaratmısan.

*Nemətulla yavaş-yavaş çönür. Sərxoşluğu üzündən görünən oğluna baxır, ürəyindən təəssüf hissi və ağrı keçir.*

**Nemətulla.** Yaxşı! *(oturur).* O, oğlum, sən də gəlinim, eşidirəm. Mənimlə nə danışacaqdınız?

**Nərgiz**. Papa, Azik çətin vəziyyətdədir.

**Nemətulla.** Onu bildik!

**İnqilab.** Papa...

**Nərgiz.** Sus, İnqilab! Papa, mən qısaca deyirəm, biz ora getməsək Azik özünə qəsd edəcək.

**Nemətulla.** Necə yəni qəsd edəcək? Amerikaya gedib özünü öldürməyə? Bunu elə burada eləmək olmazdı?

**İnqilab.** Dedim sənə, Nara, dedim?

**Nərgiz.** Papa, söhbət Azikin həyatından gedir.

**Nemətulla.** Yaxşı, tutaq ki mən hər şeyi başa düşdüm, bəs niyə getmirsiniz? Bu mənə görədirsə, məndən nigaran olmayın, qocalsam da hələ şir kimiyəm. Sizə yaxşı yol! *(Ayağa qalxır).*

**Nərgiz** *(əlindən yapışır).* Papa!

**İnqilab.** Papa, bizim getməyə pulumuz var?

**Nərgiz.** Sən bizim vəziyyətimizi bilmirsən, papa?

**Nemətulla.** Niyə bilmirəm, çox yaxşı bilirəm. O başından yekə danışan Elvin olmasa dilənərdiniz. Yaxşı ki, o yetim var, saxlayır bizim hamımızı.

**Nərgiz.** Elvin özgə adamdı, papa, onu biz saxlamamışıq? Onu Azikə qardaş bilməmişik?

**Nemətulla.** Həri, saxlamısınız! Mən olmasaydım, çoxdan atmışdınız onu yetimxanaya.

**Nərgiz.** İnsafın olsun, papa!

**Nemətulla.** Sözün düzünü deyəndə adama insafsız deyərlər?

**İnqilab.** Sən bizi öldürmək istəyirsən, papa?

**Nemətulla.** Həri, öldürmək istəyirəm! Sizin bu torpaq üstündə gəzməyə haqqınız yoxdu. Mənim oğlum belə aciz olmamalıydı, qab yumamalıydı.

**Nərgiz.** Aaa... Ata-bala nə yapışıblar qab yumaqdan?! Qab yumağın bura nə dəxli var, Nemətulla Sadıxoviç?

**Nemətulla.** Hər şey elə oradan başlayır, Nara xanım! Qabyuyan kişidən inqilabçı ola bilməz, necə ki, olmadı da!

**İnqilab.** Eşitdin, Nara?

**Nərgiz.** Həri, kar deyiləm, amma məsələ bunda deyil, papa, Azikin həyatı təhlükədədir.

**İnqilab.** O hər saat özünə qəsd eləyə bilər, papa!

**Nemətulla.** Onu mən göndərməmişəm o şeytan yuvasına!

**İnqilab.** Bilirəm, papa, amma biz onu xilas etməliyik.

**Nərgiz.** Yalvarıram, Nemətulla Sadıxoviç, Aziki xilas eləyin!

**Nemətulla** *(çaşqındır).* Siz lap gerçəklədiniz?

**Nərgiz.** Papa, o dedi ki, bir həftəyə gəlib çıxmasanız, məni ölmüş bilin. *(Ağlayır).*

**İnqilab.** Papa, o elə ümidsizdi ki! Hətta telefonla danışmağa qorxur, pulu yoxdur, elə bircə kəlmə deyir... Heç telefon da onun deyil... (*Hönkürür*).

**Nemətulla** *(təsirlənir)* Axı bu necə ola bilər? Siz evinizi satıb pulları ona göndərmədiniz?

**Nərgiz.** O, bankrot olub, onu türmə gözləyir, bir tərəfdən də... (Telefon zəng çalır. Nərgiz telefona cumur). Alo! Azik?.. Azik, bir qulaq as, baba..., baba söz verib, vallah söz verib. Asdı dəstəyi... *(Hönkürür).* Mən özümü öldürəcəyəm, İnqilab, öldürəcəyəm...

**Nemətulla.** Axı, mənim pulum yoxdur, mən neynəyə bilərəm?

**Nərgiz.** İnqilab!

**İnqilab.** Yox, Nara, mən yox, mən bacarmaram...

**Nemətulla.** Dayan, dayan... Siz mənim evimi satmaq istəyirsiniz?

**Nərgiz** *(ayaqlarına döşənir).* Papa, yalvarıram, Aziki xilas elə! O sənin təkcə nəvən, bizim madar oğlumuzdu. Sən onu xilas eləməlisən...

**Nemətulla** *(ayaqlarını Nərgizdən qurtarıb İnqilaba yaxınlaşır).* Qaldır başını! Üzümə bax! Sən mənim evimi əlimdən almaq istəyirsən? Sən məni küçələrə atmaq istəyirsən, bəlkə məni qocalar evinə göndərəsən, Gena Batelmanın yanına?!

**İnqilab.** Papa, mən çıxılmaz vəziyyətdəyəm, papa, məni başa düş.

**Nemətulla.** Başa düşdüm! *(Karlı bir şillə vurur, İnqilab yıxılır).* Biqeyrət!

**Nərgiz** *(Nemətullanın qabağına keçir).* Papa, sən neynirsən?! Niyə onu vurursan?

**Nemətulla.** Çəkil, qancıq!

**Nərgiz.** Papa!

**Nemətulla.** Sus! Bir kəlmə də!

**Nərgiz.** Susmayacam! Qoy oğlun da bilsin, onsuz da mən bu evi girov qoyub pul götürmüşəm, bir hissəsini də göndərmişəm Azikə.

**Nemətulla.** Sən mənim evimi girov qoymusan? Sən oğurluq eləmisən, cinayət törətmisən!

**İnqilab.** Nara?! Sən neynəmisən, Nara?

**Nərgiz.** Azikin yolunda hər şeyə hazıram, lazım gəlsə türməyə girərəm, lap adam da öldürərəm!

**Nemətulla.** Rədd olun! Hər ikiniz rədd olun!! Şələkülənizi yığışdırıb itilin gözümdən! *(Daha bərk qışqırır).* Rədd olun mənim... *(Səntirləyir, ağzını açır ki, nəsə desin, amma səsi çıxmır).* Aaa... aaa...

**İnqilab.** Papa! Papa!!

*Nemətulla yerə yıxılır. İnqilab təlaşla onun üstünə əyilir. Nərgiz bir qıraqda dayanıb sanki nəsə gözləyir, üzündə başa düşülməyən bir ifadə var, bilinmir sevinir, ya kədərlənir.*

**İnqilab.** Papa! Papa!! Bir söz de, papa! Nara, o nəfəs almır!

**Nərgiz** *(birdən ayılır və çox aydın, sakit səslə).* Dəymə ona, İnqilab! Toxunma! İndi təcili yardıma zəng eləyərəm. (*Telefona sarı gedir və tərəddüdlə dəstəyi qaldırır, amma danışmır).*

*İşıqlar sönür.*

*Birinci pərdənin sonu*

## İKİNCİ PƏRDƏ

*Həmin məkandır. Nərgiz iri bir çamadana pal-paltarını yığır. Hiss olunur ki, çox həyəcanlı olsa da qətiyyətlidir. Telefon zəng çalır. Nərgiz dəstəyi qaldırır.*

**Nərgiz.** Alo! Azik, mama qurban, sən yorulmadın? Adə, nə qədər zəng eləmək olar? Dedim gəlirəm də! Bəs nədi, Azik, çamadanımı yığıram. Yox, Azik, papa gəlməyəcək... Bilmirəm! Azik, təzədən başlayaq? Gəlmir də, mən neynim? Bir də... Ay allah! Azik, kim sənə dedi baba ölüb? Xeyr! Heç ölənə də oxşamır. Adə, mən nə bilim nə vaxt öləcək? Onun ölüb-ölməməyinin məsələyə dəxli yoxdur, Azik, onsuz da evi satmışam. Necə kimə, Elvinə satmışam da! Demişdim ki sənə. Azik, atan kimi xırdaçı olma! Bəzi sənədlər var, onları da qaydasına salıb gəlirəm. Uzağı bir həftəyə. Azik, buna deyərlər şantaj! Sən ki indi pulsuz deyilsən... Ağıllı ol, pulu heçə-puça xərcləmə. Darıxma, özün də ta zəng eləmə, pulu telefona xərcləmə! Yaxşı..., dedim, yaxşı! Sağ ol! Neynək, qoy olsun qudbay! *(Dəstəyi qoyur).* Bir az əlinə pul düşüb, telefonda nağıl açır.

**İnqilab** (*gəlir. Nərgiz yığışmaqda davam edir*). Deməli gedirsən?

**Nərgiz** *(işini saxlamadan, cana doymuş adam kimi).* Bəli, İnqilab müəllim, mən sənin vicdan əzabı çəkib qurtarmağını gözləyə bilmərəm. Mən Aziki xilas eləməyi hər şeydən üstün bilirəm.

**İnqilab.** Axı, sən oğurluq pulla gedirsən, atamı qarət eləyib qaçırsan.

**Nərgiz.** Təzədən başlayaq, İnqilab? Bir də deyim ki, bu ev sənin atan Nemətullanındı. O öləndən sonra da olacaq sənin, yəni bizim, səhv eləmirəm ki?

**İnqilab.** Dəmir məntiqdir.

**Nərgiz.** Biz də evimizdən istədiyimiz kimi istifadə eləyə bilərik, eləmi?

**İnqilab.** Elvini də qoşdun bu şərəfsiz işə!

**Nərgiz.** Niyə şərəfsiz işə? Bu biznesdir. Elvinin adi, gündəlik işidi. O yaxşı bilir ki, beş-on ilə bu evin qiyməti birə on artacaq, ona görə də heç evin boşaldılmasını da istəmir, deyir nə qədər ki, baba sağdı, hesab eləyin ki, ev sizindi. Qoca öləndə...( *İnqilab Nazanı vurmaq üçün əlini qaldırır, amma özünü saxlayır, əli elə havadan asılı qalır.)* Sən məni vurmaq istəyirsən? Mənə əl qaldırırsan?

**İnqilab.** Mən sənin belə qəddar, hətta şərəfsiz qadın olduğunu bilməzdim.

**Nərgiz.** Mənəm qəddar? Mənəm şərəfsiz? Sən... Sən yaxşı ər olsaydın mən sən deyən kimi qəddar, nə bilim şərəfsiz olardım? Mən qocanın halalca evini əlindən alıb özünü qocalar evinə göndərmək istərdim? Yoxsa mənim ürəyim yoxdur? Bəlkə məni daşdan bilirsən? İçimdə elə bir gərginlik var ki, elə bil bu saat qırılacağam, çilik-çilik olub yerə töküləcəyəm. Onu da bilirəm ki, dözməliyəm, sınmağa ixtiyarım yoxdu. Mən təkcə balamı vicdana, şərəfə qurban verə bilmərəm!

**İnqilab** (*təsirlənir*) Yəqin sən haqlısan (*Əlini çiyninə qoymaq istəyir*).

**Nərgiz** (*çiynini kənara çəkir)* Mənim içim qorxudan titrəyir. Heç bilmirəm orada məni nə gözləyir, Azik başıma daha nə oyun açacaq? Sən də burada mənə oğru, qəddar, şərəfsiz deyirsən? (*Çamadanın ağzını hikkə ilə bağlayıb götürür və qapısı açıq başqa otağa aparır*).

*İnqilab bir müddət qadının dalınca baxır, sonra yerindən qalxıb şkaflardan birini açır, araq şüşəsi və qədəh çıxardır.*

*Bir müddət fikirli-fikirli yarısına qədər içilmiş araq şüşəsinə baxır, qədəhi oynadır, sonra qətiyyətlə onu ağzına kimi doldurur və bir uduma içir. Arağın acısını sinirəndən sonra qalxıb divardakı qadın şəklinə yaxınlaşır.*

**İnqilab.** Doğru deyir! Mən nə yaxşı ər oldum, nə yaxşı kişi. Niyə məni belə aciz doğdun, üzünü görmədiyim anam? Sonra da canını götürüb getdin bu axmaq dünyadan? Məni doğub ölməkdə məqsədin nəydi?

*Nemətulla ləng addımlarla gəlir. Hiss olunur ki, bir ayağını bilər-bilməz sürüyür, görkəmində əvvəlki şaxlıq-şuxluq qalmayıb. Məğlub olmuş adam təəssüratı oyadır. İnqilabın şəklin qarşısında dayandığını görür. Sakitcə masanın arxasına keçib oturur.*

**İnqilab** *(hənirə çönür).* Papa? Sən ayağa durmusan?

**Nemətulla.** Birinə deyiblər ki, atanı niyə öldürdün? Cavab verir ki, goruna and içmək üçün!

**İnqilab.** Nə demək istəyirsən, papa? Mən səni öldürmək istəyirəm?

**Nemətulla.** Bunu səndən mən soruşmalıyam.

**İnqilab.** Yanan da mənəm, yaman da! Bir ata kimi sevmədin məni.

**Nemətulla.** Kişi sevgidən danışmaz! Yaxına gəl, gəl burada otur! Bir rumka da mənə gətir.

**İnqilab.** Papa, sən insult keçirmisən.

**Nemətulla.** Dedim rumka gətir.

*İnqilab başını bulayıb narazılığını bildirsə də,*
*daha bir qədəh gətirir.*

**İnqilab.** Bu özünə qəsd deməkdir.

**Nemətulla.** Doldur!

**İnqilab.** Axı...

**Nemətulla.** Nədi, bəlkə mənim ölümümü gözləyən sən deyilsən?

**İnqilab.** Papa, insafsız danışma!

**Nemətulla.** Mənəm insafsız? Bəlkə siz mənim evimi yox, mən satıram sizin evinizi?

**İnqilab.** Qələt eləmişik, papa, keçmiş ola!

**Nemətulla.** Bunu sən deyirsən, bəs o quldur arvadın? O nə deyir, bəlkə məni öldürmək istəmir? Ölsəydim hər şey həllini tapardı. Necə deyərdi o rəhmətlik: "Yest çelovek – yest problema, net çeloveka – net problemı!"

**İnqilab.** Papa, sənin evin bizə lazım deyil.

**Nemətulla.** Niyə, nə oldu? Dəfinə tapdınız?

**İnqilab.** Bilmirəm, amma sənin evin bizə lazım deyil.

**Nemətulla.** Bəs o gəlin hansı pulla uçur Amerikaya?

**İnqilab.** Nə bilim?! Yəqin borc alıb.

**Nemətulla.** Arvad borc alır, kişinin xəbəri yox!

**İnqilab.** Papa, sənə dəxli olmayan işə qarışma!

**Nemətulla.** Ay avam insan, kim ona bir elə pul verər?

**İnqilab.** Elvin verib.

**Nemətulla.** Elvin adama elə-belə pul verər? O gördüyündən kirə istəyir, quldur kapitalistdi.

**İnqilab.** Nə bilim, papa, verib də!

**Nemətulla.** Nəsə burada bir oyun var, o gəlin nəsə bir fırıldaq eləyib. Elvini də dolayıb barmağına.

**İnqilab.** Bilmirəm, papa, hansı fırıldaqdan danışırsan, amma sənin evin bizə lazım deyil. Başa düşdün? Biz səndən heç nə istəmirik. Otur evində, yaşa inqilabi ideallarınla azad, sərbəst!

**Nemətulla.** Biləndə ki, bir sarsaq evə görə oğlun, gəlinin, nəvən sənin ölümünü gözləyirlər, necə rahat, azad, sərbəst ya-

şamaq olar? Amma qocalar evinə getsəm mənim varlığım, ölümüm aktuallığını itirəcək. Bir də ta nə papa, nə ata?! Kim məni orada, imperialistlərin arasında yada salacaq? Heç ölümümdən də xəbəriniz olmayacaq! Bir çala qazıb torpaqlayacaqlar sahibsiz it kimi.

**İnqilab.** Papa, sən məni fərsiz, bivec, şərəfsiz oğul hesab eləsən də, bil, mən səni tək qoyub heç yerə getməyəcəyəm.

**Nemətulla.** Pah! Bu nəsə təzə havadı. Bəlkə arvadın səni mənim yanımda, burada qarovulçu qoyur?

**İnqilab.** Papa, nə deyirəm, bir qulp qoyursan. Dedim ki, mən getmirəm, gedə bilmirəm, vəssalam!

**Nemətulla.** Nahaq getmirsən! O arvaddır səni saxlayan ovcunun içində, istəyəndə açır, istəyəndə bağlayır. Onsuz burada qalsan məhv olacaqsan, qurşanacaqsan bu zəhrimara, olacaqsan alkaş.

**İnqilab.** Papa, sən məni heç sevmirsən!

**Nemətulla.** Yenə sevgi?! Mənim kimi qocanın sevgisi nəyinə gərəkdir sənin? Sən niyə onun-bunun sevgisinə möhtacsan? Sən niyə belə acizsən?

**İnqilab.** Onu mən səndən soruşmalıyam, papa. Niyə məni belə aciz yaratdın?

**Nemətulla.** Mən yaratmışam səni?

**İnqilab.** Bəs kim? Gena Batelman? Ya o şair dostun?

**Nemətulla.** Sən mənim oğlum olsaydın... *(Susur).*

**İnqilab.** Nədi, bəlkə doğrudan mən sənin oğlun deyiləm? *(Nemətulla dolu qədəhi bir qurtuma içir).* İç, papa, mənim işlərimdən yarım litrsiz baş açmaq çətindir, amma bil, mən aciz yox, talesizəm, şansım yoxdur.

**Nemətulla.** Yaxşı bəraətdir.

**İnqilab.** Ana görmədim, ata həmişə partiya tədbirlərində, qardaş yox, bacı yox. Sonra da vəfasız arvad, fərsiz,

ərköyün oğul, nə özü yaşaya bilir, nə bizi qoyur ölək öldüyümüz yerdə *(Kövrəlir).* Heç kəsdən vəfa, etibar görmədim. Bir vaxtlar qəbuluma gəlmək üçün ilan dili çıxaranlar bu gün mənə heç salam vermirlər. Niyə evlənmədin mamadan sonra, papa? Heç olmasa ögey də olsa bacım-qardaşım olardı.

**Nemətulla.** Bilmirəm! Evlənə bilmədim. Ondan sonra heç bir qadına ürək qızdırmadım. O ölümü ilə ürəyimin qapısını bağlayıb açarını da özüylə apardı qaranlıq dünyaya.

**İnqilab.** Mən doğulmasaydım o ölməzdi. Bəlkə ona görə sən məni sevmirsən?

**Nemətulla.** Mən səni sevmirəm?

**İnqilab.** Yox, papa, sən məni başqa atalar oğlunu sevən kimi sevməmisən, mən bunu lap kiçik yaşlarımdan hiss eləyirdim, sən həmişə ögey olmusan mənə, həddindən artıq ciddi, əzazil müəllim kimi tələbkar. Həmişə içimdə bir şübhə olub.

**Nemətulla.** Nə şübhə?

**İnqilab.** Elə bilmişəm sən mənim doğma atam deyilsən.

**Nemətulla.** Onu kim dedi sənə?

**İnqilab.** Necə yəni kim dedi?

**Nemətulla.** Mən səni çox istəmişəm, həmişə sənin canına and içmişəm *(İçir).*

**İnqilab.** Bəsdir içdin, canına qəsd eləmə!

**Nemətulla.** Candan keçib.

**İnqilab.** Hərdən mənə elə gəlirdi ki, qohum-əqrabada da mənə bir ögeylik var, nəsə mənə yuxarıdan aşağı baxırlar, partiya işinə keçənə qədər davam elədi bu. Sonra dəyişdilər, başıma and içməyə başladılar.

**Nemətulla.** Nə qohum, hansı əqrəba? Kimin ağzı nəydi sənə güldən ağır söz deyəydi?

**İnqilab.** Yoxdu o qohumlar, çoxdan gorbagor olublar.

**Nemətulla.** Gərək mən də vaxtında öləydim.

**İnqilab.** Yox, papa, sən ölsən, mən lap tək qalaram, olaram əsl yetim. Axı indi mənim ta heç kimim yoxdu. Mən atılmışam, köhnə ayaqqabı kimi məni qapı ağzına qoyublar ki, bəlkə götürən oldu.

**Nemətulla.** Bəsdir inildədin, onsuz da əlim gicişir.

**İnqilab.** Vurmaq istəyirsən məni?

**Nemətulla.** Tək səni yox, şikayətlənən kişi görəndə əlim gicişir. *(Pauza)* Sözüm var sənə. Əlli il ürəyimdə saxladığım sirri açmaq məqamı çatdı. Mən bu sirri qəbir evinə apara bilmərəm.

**İnqilab.** Maraqlıdır. Yoxsa sənin ayrı bir ailən də var? Oğlun, qızın, arvadın? Axı kişi əlli il subay qala bilməz.

**Nemətulla** *(gülümsəyir).* Sən heç ağıllanmadın.

**İnqilab** *(gülür)* Düz tapmışam? Neçə uşaqdı?

**Nemətulla.** İnqilab, mən..., mən sənin atan deyiləm.

**İnqilab.** Atam deyilsən**?** Bəs nəyimsən? Əmim? Dayım?

**Nemətulla.** Mən səni uşaq evindən götürmüşəm.

**İnqilab** *(qeyri-iradi hırıldayır).* Uşaq evindən? Yəni yetimxanadan? Sən zarafat eləyirsən? *(Nemətulla başını bulayır və qədəhə araq süzür).* Bəs anam? *(Divardakı şəkilə işarə ilə).* Onun da mənə dəxli yoxdu? O da uydurmadı?

**Nemətulla.** Niyə uydurma? Onun da, mənim də sənə dəxlimiz çoxdu, amma həqiqət belədi, biz səni uşaq evindən götürmüşdük.

**İnqilab** *(sarsılmış vəziyyətdə bir müddət susur).* Nələr eşidirəm mən? Necə sürprizlər gözləyirmiş məni?! *(Əlləri ilə başını tutur).* Danış, papa, danış...

**Nemətulla.** Həkim deyəndə ki, onun heç vaxt uşağı olmayacaq, qərara gəldik ki, bir yetim uşaq götürək övladlığa. Əslində qərar onunkuydu, mənsə heç vaxt onun istəyinə qarşı

çıxmırdım, çıxa bilmirdim. İlahi, mən onu necə sevirdim! (*Dolmuş gözlərinin yaşını əsən barmaqları ilə sıxır və göz yaşları arasından gülümsəyir).* Sənin gəlişinlə həyatımız tamam dəyişdi, evimizə yeni hava, nəfəs gəldi. O hey sənə baxır, yavaşdan təkrar-təkrar pıçıldayırdı: sən bizim evimizə xoş gəldin, oğlum! İndi də onun səsini eşidirəm: sən bizim evimizə xoş gəldin, oğlum...

**İnqilab.** Bəs sonra nə oldu?

**Nemətulla.** Deyirdi indi bildim əsl xoşbəxtlik nədir?! Boynuma alım ki, mən əvvəl-əvvəl sənə isnişə bilmirdim, hətta onu sənə qısqanırdım. Deyirdim ki, İnqilabı məndən çox istəyirsən. Rəhmətlik qəhqəhə çəkib gülürdü. Heyif, bu xoşbəxtliyin ömrü bircə il çəkdi. O gözəllikdə qadını xərçəng bir ayın içində yedi, gözüm görə-görə. Can verəndə dedi ki, uşağı təzədən yetimxanaya qaytarsan, qəbrim od tutub yanar, sənə məhəbbətimi halal eləmərəm (*Qalxıb əlini İnqilabın çiyninə qoyur).*

**İnqilab** *(başını qaldırır, gözlərində yaş var).* Papa...

**Nemətulla.** Mən bu sirri özümlə o dünyaya apara bilməzdim. İnsan kim olduğunu, haradan gəlib hara getdiyini bilməlidi.

**İnqilab.** İndi mən kiməm, papa? Kimdi mənim atam-anam?

**Nemətulla.** Onu bilmədik. Səni uşaq evinin qapısına qoyan adam izi birdəfəlik itirmişdi, heç bir nişanə də qoymamışdı. Nə kağız, nə sənəd, heç nə!

**İnqilab.** Sağ olsunlar, təmiz işləyiblər. Görünür, mənim doğulmağım səhv imiş *(gülür).* Ha-ha-ha... Naməlum insan! Əsli yox, kökü yox, tutaq beş nömrəli uşaq, daha doğrusu beş nömrəli yetim.

**Nemətulla.** Niyə beş nömrəli? Nə sarsaqlayırsan?

**İnqilab.** Adı, soyadı olmayanın, heç olmasa, bir nömrəsi, ya kliçkası olmalıydı da!

**Nemətulla** *(gülür).* Yox idi, heç nə yox idi, heç qırxın da çıxmamışdı.

**İnqilab** *(qədəhinə araq tökür).* İçək, papa, içək mənim tapılmağımın şərəfinə! Çox sağ ol ki, məni saxlamısan, yiyəsiz küçük kimi çölə atmamısan. (*Gülür.)* Hı-hı-hı... İndi bildim niyə hamı atır məni. Demə mən elə anadan olandan atılmışam. İndi hər şeyi başa düşdüm, ən yaxın adamların tərəfindən atılırsansa, özgələr niyə geridə qalsın? Arvadım, oğlum... Sən məni atmazsan ki, papa? *(Gülür).* Əlli yaşına çatanda mən təzədən yetim oldum... *(Sərxoş gülüşlə).* Ha-ha-ha... Sağ ol, Nemətulla Sadıxoviç, təşəkkürlər... *(Gülüşü hönkürtüyə çevrilir).*

**Nemətulla.** Axmaq! *(Onu qucaqlayır).* Əlli yaşında adam yetim olar? Mənim kimi atan var sənin! Acığa hələ bir on il də yaşayacam.

*Nərgiz gəlir, əlində bağlamalar, dolu selofan paketlər var. Masada araq şüşəsini görüb bir anlığa ayaq saxlayır. Nemətulla ilə İnqilab aralanırlar. Nərgiz hər ikisinin gözüyaşlı olduğunu görür. Nemətulla Nərgizin üzünə baxmadan gəldiyi kimi də ləng addımlarla gedir və qapısı açıq olan otağına çəkilib qapısını örtür. Nərgiz qocanın dalınca baxıb başını bulayır.*

**Nərgiz** *(boş şüşəyə işarə ilə).* Deyəsən, çoxdan başlamısınız?!

**İnqilab.** Nədən bildin, miss Narqisss?

**Nərgiz.** Araq altında ağlayırsansa, deməli, gülüş mərhələsi çoxdan bitib.

**İnqilab.** Siz çox həssasmışsınız...

**Nərgiz** (*əlindəki bağlamaları döşəməyə qoyur və İnqilabla üz-üzə oturur).* Bir az da sən həssas ol, İnqilab müəllim, gözünü aç bax bu dünyaya, onu başa düşməyə çalış.

**İnqilab.** Təəssüf! Başa düşə bilmədim, gücüm çatmadı.

**Nərgiz.** Araq kömək eləyər, başa düşərsən.

**İnqilab.** Mən elə ona çalışıram, Gena Batelman demiş: Həqiqət şərab çəlləyinin dibindədir.

**Nərgiz.** Neynək, sən arsız atanla həqiqəti şərab çəlləyində axtar, mən də...

*İnqilab qəfil qadının qolundan yapışıb var gücü ilə sıxır. Nərgiz qışqırır.*

**İnqilab.** Bir də kişi haqqında təhqiramiz bir söz desən, gedib Amerikaya çata bilməyəcəksən!

**Nərgiz** *(onun əlindən çıxmaq üçün dartınır).* Burax qolumu! Burax, öldüm! *(Qolunu İnqilabın əlindən çıxardır).* Deyəsən, sən bütün uğursuzluqlarının acığını məndən çıxmaq istəyirsən.

**İnqilab.** Elə bir fikrim var, tapançamı da təmir elətdirmişəm.

**Nərgiz.** Məni qorxutmaqda məqsədin nədir?

**İnqilab.** Nəhayət, rədd ol get öz Amerikana! Ta səni görmək istəmirəm!

**Nərgiz.** Mən də ölmürəm sənin üçün.

**İnqilab.** Onda ta nəyi gözləyirsən? Get də!

**Nərgiz.** Gedirəm, İnqilab müəllim, biletim hazırdır, özü də bir tərəfə. Siz də ata-bala gətirin o avara qocaları bura. Gedib Amerikada təkcə oğluna yardım eləmək əvəzinə gününü-dövranını sürmüş, həyatları çoxdan bitmiş şizofrenik qocalarla araq iç, ağla, gül, "inqilab-inqilab" oyna, nəğmə oxu. Hələ xəbərin yoxdu, atan o qoca fırıldaqçı cuhudu – Gena Batelmanı da bura gətirmək fikrindədir

**İnqilab.** Onu kim dedi, nə sarsaqlayırsan? Genanın burada nə ölümü var?

**Nərgiz.** O elə ölməyə gəlir.

**İnqilab.** Necə yəni ölməyə gəlir? O niyə ölür?

**Nərgiz.** Dünyanı tutub qalmayacaq ki?! Həkimlər də ona ölüm hökmü kəsiblər. Deyir beş-on günü qalıb. Bunlar da qərara alıblar ki, Gena Batelman qocalar evində deyil, burada ölməlidir.

**İnqilab.** Niyə burada? Bura xəstəxanadı, morqdu?

**Nərgiz.** Əziz papan deyib ki, kommunistin qocalar evində ölməsi ayıbdır. Gərək Batelman ev şəraitində, silahdaşlarının əhatəsində tapşırsın canını.

**İnqilab.** Nədi, yoxsa o biri qocalar da köçəcək bura?

**Nərgiz.** Bəli, İnqilab müəllim, nə qədər ki, xəstə ölməyib, hamısı burada qalacaq.

**İnqilab.** Nara, bu nə deməkdi?

**Nərgiz.** Bəs mən deyəndə ki, atan da o biri qocalar kimi şizofrenikdir, üstümə qıcanırsan. İndi buyur, yaşa onların kampaniyasında, mən onsuz da gedirəm.

**İnqilab.** Bunu papa dedi sənə?

**Nərgiz.** Bilmirsən papa o gündən danışmır mənimlə? Təsadüfən telefon danışığını eşitdim.

**İnqilab.** Axı o mənə heç nə demədi. Çox şey dedi, amma...

**Nərgiz.** O nə vaxt bizimlə hesablaşıb ki?!

**İnqilab.** Mənim hələ görəcəkli günlərim varmış!

**Nərgiz.** Bəs nə bilmişdin? Mən deyən boğazdan keçmir.

*Nərgiz paketləri götürüb qapısı açıq olan o biri otağa keçir. İnqilab dolu qədəhini bir uduma içir və Nemətullanın otağına yönəlir.*

*İşıqlar sönür.*

*Həmin məkandır. Batelman təmiz, səliqəli pijamada əlil arabasında oturub. Dizlərinin üstündə kiçik pled var. Halsız olduğu dərhal görünür. Nemətulla, Həqiqət, Svetik və Yazıçı hərəsi bir tərəfdə yerləşib. Hamının diqqəti Batelmandadır. Gərgin, qəmli bir sükut var. Svetik çaya limon və şəkər salıb qarışdırır.*

**Svetik.** Qədim Çin mətbəxinə görə sağlam olmaq üçün gündəlik rasionda dörd ərzağın olması vacibdir.

**Yazıçı.** Biri sarımsaq olar.

**Svetik.** Aaa? Nədən bildiz?

**Yazıçı.** Bir dəfə "Dostluq" cəmiyyətinin xətti ilə Çinə getmişdim. Bütün ölkə sarımsaq iyi verir. Onlar saqqız əvəzinə sarımsaq çeynəyirlər. Mənim də lap körpəlikdən sarımsaq iyindən zəndeyi-zəhləm gedir. Orada qaldığım o bir həftədə, yoldaşlar, cəhənnəmi gördüm gəldim. O boyda ölkədən bir Çin səddi yadımda qaldı.

**Svetik.** Ona görə kitaylar çox yaşayırlar. Hə, sarımsağı dedim, qaldı soğan, bal... bir də limon!

**Nemətulla.** Yəqin Svetik, bunların hamısını ət maşınından keçirib qarışdırmaq lazımdır, hə?

**Svetik.** Vacib deyil, Nemətulla Sadıxoviç, ayrılıqda da yemək olar. Təki hər gün yeyəsən. İndi Gena sən bu limonlu kəmşirin çayı iç, gör necə dirçəlirsən.

**Batelman.** Pozdno rıt kolodets, koqda pit zaxoteles, Svetik.

**Yazıçı.** Yəni susuzluq güc gələndən sonra quyu qazmaq gecdir, eləmi?

**Batelman.** Elədi, şair, bu da elə qədim Çin məsəlidir (Svetikin verdiyi çaydan bir qurtum içir).

**Nemətulla.** Gena, əllərini nə tez yuxarı qaldırdın? Sən ki, kommunistsən, özü də mətin kommunist!

**Həqiqət.** Mən həmişə kişiləri qorxaq gördüm.

**Batelman.** Adam ölümün nəfəsini yaxından hiss eləyəndə, Aqiqat xanum, hər şeyə münasibəti dəyişir. İstəyirsən kommunist ol, istəyirsən demokrat. Qəribədir, mən onu hiss eləyirəm, elə bil həndəvərimdə dolanır, məni izləyir.

**Svetik.** Siz məni qorxuzursunuz, Gena (*Ətrafına boylanır).* Kiş-kiş...

**Həqiqət.** Bu sözləri sən deyirsən, Gena Batelman? Ölüm qorxusu bu qədər dəyişdi səni? Bəlkə o sürgünləri sən yaşamamısan?

**Svetik.** Uşaqlar, mən ölümdən qorxuram, temanı dəyişin.

**Yazıçı.** Ey insan oğlu, ölümdən qorxma, nə qədər ki sən varsan o yoxdur, o gələndə isə sən olmayacaqsan.

**Batelman.** Mən qorxmuram, uşaqlar, əksinə, içimdə bir rahatlıq əmələ gəlib, axır həftənin gərginliyi də məni tərk eləyib, hətta (*pıçıldayır*) biz onunla yamanca isnişmişik. Bax, oturub o küncdə, mən danışdıqca irişir üzümə.

**Svetik.** Gena, səni qara basır.

**Nemətulla.** Bəlkə, o danabaş həkim nəsə deyib sənə, Gena?

**Batelman.** O yazıq hey ürək-dirək verir mənə, amma mən də nəsə bilirəm axı! Qəribədir, dərin bir biganəlik quyusuna düşmüşəm. Məni bu dünyaya bağlayan iplər bir-bir qırılır, amma bu məni kədərləndirmir, deyərdim ki, ölməyə çox böyük həvəsim var.

**Yazıçı** (*dəftərçəsinə qeydlər eləyir).* Bu həvəs necə yaranır, Gena?

**Batelman.** Çox sadə! Ömrümü həsr elədiyim kommunizm ideyası gözümün qabağında iflasa uğradı, həyat mənasını itirdi... *(Gülümsəyir).*

**Nemətulla.** Burada yanılırsan, Gena, ideya ölməyib, o yaşayır, kommunizm mütləq qalib gələcək, biz onu görməsək də, gələcək nəsillər görəcək.

**Həqiqət.** Bütün baş verənlərə rəğmən, mən də inanıram, bizim övladlarımız, mənim qızım kommunizmdə yaşayacaqlar!

**Svetik.** Gena, biz hələ İsraildə İzikin toyunda tərəkəmə oynayacağıq. Yadındadır, Raxillə sənin toyunda ən yaxşı rəqsə görə mənim priz almağım?

**Batelman.** Əlbəttə, yadımdadı! O günü unutmaqmı olar? Onda biz necə xoşbəxt idik!

**Yazıçı.** Bəs sem soroku niyə demirsən, Svetik? Necə oynadınsa, hamı elə bildi sən də yevreykasan. Saçların da alov kimi kürən, qıvrım.

**Həqiqət.** Axırda kablukunu da sındırdı.

**Svetik.** Mən də acığa çəkmələrimi bir tərəfə atıb ayaqyalın oynadım.

**Həqiqət.** Sən hər şeydə ağ eləyirsən.

**Batelman.** Bax, gözlərimi yumub o zamanı təsəvvür edirəm. Svetik çıxır rəqs meydançasına, saçları alov topası, yarkaya, temperamentnaya kak oqon...

*İşıq azalır. Svetik yerindən qalxır, qəddi-qaməti düzəlir, gəncləşir. Fonoqramdan gələn toy səs-küyünü tərəkəmənin aydın səsi üstələyir. Svetik səhnədəki qocaların əhatəsində çox gözəl bir tərəkəmə oynayır. Bir azdan tərəkəmə "sem soroka" çevrilir. Svetik əvvəlcə tək rəqs edir, bir azdan Nemətulla, Batelman, Həqiqət və Yazıçı da ona qoşulur. Bu, qocaların ifasında mümkün olan qədər coşqun, şıdırğı bir rəqsdir. Rəqs prosesində hər iştirakçı kiçik bir solo ifa edir, hər bir solo öz individuallığı ilə seçilir. Rəqs alqışlarla, səs-küylə bitir. Hər kəs öz yerini tutur. Musiqi bir müddət davam edir və kəsilir, işıq artır.*

**Batelman.** Yadımdadı, hər şey yadımdadı, bu dünyada hər şeydən etibarlı olan yaddaşdır.

**Svetik.** Bəs niyə demirsən Raxilin səni mənə qısqanmağını?

**Həqiqət.** Pah, təzə şey! Bütün qadınlar ərlərini sənə qısqanırdılar.

**Svetik.** Bilirəm, amma niyə? Niyə qısqanırdılar?

**Yazıçı.** Sən çox gözəldin, Svetik.

**Həqiqət.** Bəlkə, camaat kifirdi, çaşdı, kordu, şair müəllim?

**Svetik.** Allah eləməsin! Bizim kampaniyada qızların hamısı gözəldi. Elə Həqiş özü!

**Həqiqət.** Svetikin xəmiri sıyıqdı, hamıyla flirt eləyirdi.

**Svetik.** Adamın adı çıxınca canı çıxsın!

**Batelman.** Rəhmətlik Raxil sənin adını eşidəndə hirslənmirdi ey, göyərirdi. Hətta bir dəfə məhkəməyə boşanmaq üçün ərizə də vermişdi.

**Svetik.** Sən bunu mənə deməmisən.

**Batelman.** Desəydim, Raxil gözümü çıxardardı.

**Yazıçı.** Bəs necə oldu ayrılmadınız?

**Batelman.** Mən ona dedim ki, mən Svetiki yox, Həqiqəti sevirəm.

**Svetik.** Adə, qorxmadın Həqişdən? Demədin, güllələyər səni?

**Batelman.** Canımı birtəhər qurtarmalıydım da! Onda sakitləşdi, dedi, onu nə qədər istəyirsən sev, onsuz da yaxına buraxmaz səni.

**Həqiqət.** Sən həmişə bir az moşennik olmusan, Gena.

**Svetik.** Axı o yevreydi *(Qəhqəhə ilə gülür, hamı da ona qoşulur).*

**Nemətulla**. Sözünə qüvvət, Svetik. Mənim bir qonşum vardı, yevrey, özü də peşəkar dələduz, moşennik. Sovet dağılandan sonra tələsik yığışdı getdi İzrailə, altıca aydan sonra da

qayıdıb gəldi. Dedim, Abram, niyə qayıtdın? Mən orada yaşaya bilmərəm, – dedi, – Nemətulla Sadıxoviç, hara baxırsan yevreydi, hamısı da məndən betər.

*Hamı gülür.*

**Həqiqət.** Mən Genanın toyunda birinci dəfə Nemətulla Sadıxoviçin sərxoş olduğunu gördüm.

**Batelman.** Ax, kak mı bıli molodı! Həyat bir göz qırpımında keçdi.

**Svetik.** Əcəb göz qırpımıdı?! Nələr görmədik biz bu arsız dünyada? Nələrdən keçmədik?

**Batelman.** Nə qazandıq biz? Hanı bizim həyatımız, gəncliyimiz hesabına qurduğumuz dövlət, yüksək ideyalı cəmiyyət? Hanı sosializm? Hanı o nəhəng vətən? Biz onu qoruya bildikmi?

**Nemətulla.** Taqsır bizdə olmadı, Gena Batelman! Bizi içəridən çürütdülər. Karyerist partokratlar bizi də məhv elədilər, vətəni də, dövləti də.

**Batelman.** Bəlkə ideya özü yaşarı deyildi, Nemətulla Sadıxoviç? Bəlkə kommunizm ideyası fiksiya idi, utopiya idi?

**Nemətulla.** Gena, sən opportunizmə yuvarlanmısan. Xəstə olmasaydın, sənə yağlı bir töhmət verərdim.

**Batelman.** Gecdir, Nemətulla Sadıxoviç, bundan sonra töhmət məni xilas eləyə bilməz, mən indi axirət sevdasındayam, bu dünyanın işləri məni daha maraqlandırmır.

**Svetik.** Bəs pirojki s kapustoy? Sizin sevimli yeməyiniz?

**Batelman.** Heç nə istəmirəm, Svetik, doroqaya, doymuş məhlul kimiyəm.

**Svetik.** Heç elə zarafat yoxdur, dünən axşam bişirmişəm, xalalarım yatandan sonra.

**Nemətulla.** Svetik, mənim də tamahım düşdü.

**Svetik.** Özünüzü yaxşı aparsanız, sizə də pay düşər. Hə, Gena, elə burada. *(Onun arabasını masaya tərəf sürür).* Burada, gözümüzün qabağında yeyəcəksən. *(Selofan torbadan kiçik yemək termosu, peraşki dolu torba çıxardır).* Çox bişirmişəm, uşaqlar, hamıya çatar, yaxına gəlin. (*Termosdan bir qaba bulyon tökür, peraşkiləri isə nimçəyə qoyur*). Şair, o dəftəri qoy bir tərəfə, yaxın gəl! Di gəlin, hələ istidilər, gəlin. Həqiş, Nemətulla Sadıxoviç!

*Hamı masa ətrafına yığılır.*

**Həqiqət.** Bilmirəm, mən bir şirinlik görmədim o həyat dediyində.

**Batelman** (*pijamasının cibindən portyankasını çıxardır*). Bu da mənim portyankam! *(Döşünə taxır).*

**Svetik.** Portyankanı neynirsən, Gena?

**Həqiqət.** Ad gününə bir ay var, bayram da deyil bu gün.

**Batelman.** Nə ad gününə, nə də bayrama qalmayacam mən, əzizlərim, mən yol üstdəyəm.

**Həqiqət.** Gena, heç xoşuma gəlmirsən.

**Batelman.** Heç mən də öz xoşuma gəlmirəm, amma mənə bənd olmayın, yeyin ki, mənə də nuş olsun. *(Hərə bir peraşki götürüb yeyir. Batelman da həvəssiz gəvələyir).* Ora teleqram vurmayın, yoxsa gəlib məni apararlar. Mən burada, bu torpaqda yatmaq istəyirəm. Mənim bu vəsiyyətimə əməl eləyin, oçen proşu!

**Svetik.** Gena, elə danışmayın, siz məni qorxudursuz.

**Batelman** (*kədərlə gülümsəyir).* Bu yaxşıdır ki, mənim sözlərim səni qorxudur. İnsan qorxursa, deməli, yaşayır hələ. Mənimsə dualar eləmək vaxtımdır, bəlkə qanmazlıqdan elədiyim günahları Yaradan bağışladı.

**Həqiqət.** Yaddaşım məni aldatmırsa, Gena Batelman, siz ateist olmalısınız?

**Batelman.** Torpaq çəkəndə Allah xofu doldurur adamın qəlbini, mən hələ məhəbbəti demirəm, Yaradana məhəbbəti. Görünür Allahın varlığını dərk etmək üçün biz uzun bir ömür yaşamalı, ağır sınaqlardan keçməliymişik. İndi ki yeri gəldi deyəcəm, amma lağa qoymayın, uşaqlar, mən xeyli vaxtdı dua eləyirəm, hətta yatmazdan qabaq "Şma İzrail"i oxuyuram.

**Svetik.** O nədi elə, Gena?

**Batelman.** "Şma İzrail" fatihə surəsi kimi bir duadı. O gün ürəyim partlayırdı, uşaqlarım, nəvələrim düşmüşdü yadıma, az qaldı teleqram vuram. Bütün ətrafımda, həyatımda bir boşluq, mənasızlıq hiss elədim. Dedim, indi ölərəm. Bax, onda üzümü tutdum göyə, başladım dua eləməyə, dalınca da "Şma İzrail"i oxudum. Bir dəfə, iki dəfə. Yoldaşlar, ürəyimə elə bir rahatlıq gəldi... (Üzünü tutur Nemətullaya). Çox sağ ol, Nemətulla Sadıxoviç, mən inanmazdım ki, son günlərimi belə xoşbəxt olacam, dostlar arasında. Çoxdan belə xoşbəxt olmamışdım. Bu bir neçə gün mənim son aylarımın ən gözəl günləri oldu. *(Dərindən nəfəs alır).* Yoruldum...

**Svetik.** Bizi qovursunuz?

**Batelman.** Mənim nə haqqım var bu evə? Mən özüm qonağam.

**Nemətulla.** Biz hamımız qonağıq bu evdə, mən qarışıq. Gedəndə də bir yerdə gedəcəyik. Biz gərək bir yerdə olaq, Gena.

**Batelman**. O müqəddəs görüş səhnəsini buraxmayın, yoldaşlar!

**Yazıçı.** Nə görüş? Gena, hansı görüşdən danışırsan?

**Batelman.** Mənim müqəddəs ölümlə görüşümdən! İlk və son görüş. Buraxmayın, çox maraqlı olacaq. *(Gülümsəyir).* Az sonra...

**Həqiqət.** Gena, heç qorxub eləmə, sən ölən adama oxşamırsan. Heç bir xəstəliyin də yoxdur. Sən yorulmusan. Bu həyat yorub səni.

**Batelman.** Doğrudan yorulmuşam, Aqiqat xanım, amma inanın mənim səmimiyyətimə, mən ölümdən qorxmuram, əksinə, sevinirəm, böyük həvəslə ölməyə hazırlaşıram, onu intizarla gözləyirəm. Bu çox ehtiraslı görüş olacaq. İndi isə gedin! Sizə də dincəlmək lazımdır.

**Yazıçı** *(əlini sıxır).* Biz hələ görüşəcəyik, Gena, pyesimi də oxuyacaqsan, bitirmək üzrəyəm. Onu da deyim ki, bu mənim ilk səhnə əsərim olacaq.

**Svetik.** Mən səni çox sevirəm, bizim əziz yevreyimiz!

**Həqiqət.** Siz yaxşı dost idiniz *(alnından öpür).* Qızımı görəndə ona səndən danışacağam, sənin portyankandan nağıl deyəcəyəm nəvələrimə.

**Batelman.** Biz havayı yaşamadıq.

*Telefon zəng çalır. Hamı telefon aparatına baxır.*

**Həqiqət.** Nə həyəcanlı zəngdir! Ürəyim qırıldı!

**Svetik.** Şəhərlərarası zəngdi, xaricdəndi.

*Nərgiz qaçaraq gəlir, qocalara narazı və ötəri bir baxış atıb dəstəyi götürür.*

**Nərgiz.** Alo! Kimi? Burada Həqiqət yaşamır?

**Həqiqət** *(həyəcandan az qala qışqırır).* Yaşayır! Mənəm Həqiqət!

**Nərgiz** *(çaşqındır)* Sizi istəyirlər...

**Həqiqət.** Məni? Məni... *(Yüyürüb telefonu qapır)* Alo! Alo?! Həəri, mənəm... Həqiqət... Mansurova?! Bu mənim... mənim qızlıq familiyamdır... Necə? Mənim qızım? Mənim qızım?.. *(Dəstək əlindən düşür, iki əli ilə başını tutub döşəməyə çökür).* Mənim qızım?! Mənim qızım... *(Qəribə səslər çıxardır).*

**Svetik.** Həqiş?! Həqiş, kimdi? Kimin qızıdı, Həqiş?

**Həqiqət.** Mənim qızım tapılıb! Qızımdı! İndicə o mənimlə danışdı! Mənə mama dedi. Bu nədi belə? İndi mən nə edim, mən neynəməliyəm? Məni qara basır?

**Yazıçı.** Nə gözlənilməz dönüş! *(Tələsik yazır).*

**Nemətulla.** Panikaya düşmək lazım deyil, Həqiqət xanım. Biz bilirdik ki, o mütləq tapılacaq.

**Həqiqət.** Mən neynəməliyəm, Nemətulla Sadıxoviç? İndi mən neynəməliyəm? Mən qorxuram... Mən... dəli oluram.

**Nemətulla.** Qorxmaq niyə, bacım, sən sevin! Qalanı mənim boynuma! O haradan danışırdı? Bakıdadır?

**Həqiqət.** Yox, Bakıda deyil! Səs çox uzaqdan gəlirdi. Yox, mən bilmədim, danışa bilmədim, həyəcan boğdu məni, səsim çıxmadı... *(Ağlayır).* Başım batsın mənim!..

**Nərgiz.** Zəng Yeni Zellandiyadandı.

**Svetik.** Yeni Zellandiyadan?

**Həqiqət.** Mən ora getməliyəm, elə indi ora uçmalıyam! *(Ağlayır).* Mənim qızım var, dostlar, mənim balam var. Mən inanmırdım, mən çoxdan inanmırdım, inanmırdım ki, mənim haçansa qızım olub, mən onu doğduğumu unutmuşdum, mən inanmırdım... *(Hönkürür).*

*Qocalar Həqiqəti dövrəyə alıb onu ovutmağa çalışırlar.*

**İnqilab** *(qaçaraq gəlir).* Nə olub, nə haraydı? *(Qocaların Həqiqəti dövrəyə aldığını görüb bir tərəfdə, səhnənin önündə dayanmış Nərgizə yaxınlaşır).* Ölən var? Gena dayı öldü?

**Nərgiz.** Həri, bu saat! Ölən olsa, biz olarıq, bunları Əzrayıl çoxdan yaddan çıxardıb.

**İnqilab.** Bəs nə haray-həşirdi, o arvad niyə ağlayır?

**Nərgiz.** Əlli ildən sonra qızı tapılıb.

**İnqilab.** Qızı var onun? Bəs papa deyir ki, o, heç ərə getməyib?

**Nərgiz.** Doğmaq üçün ərə getmək vacib deyil.

**İnqilab.** Sən hər şeyi bilirsən.

**Nərgiz.** Sən də bilsən pis olmaz.

**İnqilab.** O da bura gələcək?

**Nərgiz.** Kim?

**İnqilab**. O qızı deyirəm də, əlli ildən sonra tapılanı.

**Nərgiz**. Bilmirəm! İndicə zəng eləmişdi, bizim telefona, Yeni Zellandiyadan.

**İnqilab.** Bu ki möcüzədi. Papa deyirdi ki, o arvadın heç vaxt övladı olmayıb. Qız məsələsini də özündən uydurub.

**Nərgiz.** Onda kimdisə fırıldaqçıdı, bilir ki, tək arvaddı, şəhərin mərkəzində də beşotaqlı mənzili, ana deyib ələ keçirdəcək, sonra da qatığını çalacaqlar.

**İnqilab.** Sənin kimi?!

**Nərgiz.** Bəli, İnqilab müəllim, mənim kimi, amma sən özünü nahaq qırağa çəkirsən. İkimiz də bir yolun yolçusuyuq.

*Telefon zəng çalır. Hamı dönüb əvvəl telefona, sonra Həqiqətə baxır. Telefon isə həyəcanla zəng çalmaqda davam edir.*

**Həqiqət** *(ümumi baxışlar altında telefona yaxınlaşır, əli əsə-əsə dəstəyi götürür)* Alo! Alo!! Mən? Yox, mən... *(Qocalara)* Kişidir, o da mənə mama deyir.

**Nərgiz** *(az qala cumub telefonu Həqiqətin əlindən alır)*. Alo! Azik... qonaqdı... Yox, Azik, sonra deyərəm, sən sözünü de... Nə danışırsan, adə? Biz bir azdan... *(Hamının onu dinlədiyini görüb səsini alçaldır və səhnənin bir küncünə çəkilir və pıçıltı ilə danışır. Nə danışdığı eşidilmir.)*

**Batelman.** Çox üzr istəyirəm, Svetik, məni otağıma aparın, yoruldum.

*Nemətulla arabanı qapısı açıq otağa sürür, qalan qocalar da onların ardınca gedirlər. Səhnədə İnqilabla Nərgiz qalır.*

**Nərgiz** *(səsini qaldırır).* Azik, sənin başın xarab oldu? Adə, sənə deyirəm evi satmışam, pulun bir hissəsini sənə göndərmişəm, hər şey qaydasına düşdüyü yerdə bu nədi deyirsən?

**İnqilab.** Nə olub, Nara, yenə o nə hoqqa çıxardıb?

**Nərgiz** *(hikkəli pıçıltı ilə).* Sənə görə az qalmışdı qocanı öldürüm, şükür, Elvin çıxdı böyürdən, ehtiyac olmadı, sən də durub deyirsən ki, vətənsiz yaşaya bilmirəm? Nə vaxtdan sən vətən qədri bilən olmusan? Dedim axı sənə, papanı da yola gətirmişəm. Axmaqlama, Azik! *(Qışqırır).* Azik, adam işinin xətrinə ermənıyə dayı deyər, oğlum! Adə, indi kimdi sənə deyən ki, ermənıyə dayı de? Məsəlçün deyirəm də! Bu gün tualet yuyarsan? Sabah da... həri, ölü yuyarsan! Bura bax, Azik, ağlını yığ başına, məni də dəli eləmə! Adə, ölmürdün Amerika üçün? Sənə görə bütün həyatımızı məhv elədik, adamlıqdan çıxdıq... İndi bəs nə oldu?.. Mən heç nə bilmək istəmirəm, sən orada yaşayacaqsan! Eşidirsən? Amerikada yaşayacaqsan! Elə biz də orada yaşayacağıq! *(Dəstəyi qoyur).*

**İnqilab.** Onun başı tamam xarab olub, Nara! Bəlkə narkotikaya dadanıb?

**Nərgiz.** Deyir qayıdıram Bakıya, mən burada yaşaya bilmirəm, nəfəs ala bilmirəm, havam çatmır.

**İnqilab.** Nə oldu, pişik asqırdı?

**Nərgiz.** Nə bilim, deyir göndərdiyin pullar getdi borca, özüm də acından ölməmək üçün tualet yuyuram, neqrlərin məhləsində.

**İnqilab.** Bu niyə belə fərsiz oldu, Nara?

**Nərgiz.** Ah, nə deyərdim?! Adə, sənin oğlundu də, oxşadı də sənə.

**İnqilab.** Mənə nə olub ki?

**Nərgiz.** Nə olub sənə? Bir azdan evdən çıxırıq, hələ atova deməmisən ki, sən də gedirsən.

**İnqilab.** Ürəyim gəlmir.

**Nərgiz.** Məsələ ürəkdə deyil, qətiyyətsizsən! Qorxaqsan! Oğlun da sənin tayındır.

**İnqilab.** İndi yeri deyil, qoy qocalar getsin sonra deyərəm, hələ vaxta var.

**Nərgiz.** Qocalar getməyəcək, İnqilab müəllim, onlar növbə çəkirlər o qocanın yanında. Elə də həyasız kişidi, adama çox şey təklif eləyərlər, hara gəlmisən, öl də öldüyün yerdə! Onsuz da qocalar evi elə ölmək yeridi!

**İnqilab** *(təəccüb və qorxu ilə baxır Nərgizə).* Mən səndən qorxuram.

**Nərgiz.** Yeri soyuq su iç!

**İnqilab.** Haradandı səndə bu qəddarlıq?!

**Nərgiz.** Qəddarlığı mənə sən öyrətdin. Bəlkə düz demirəm?

*Nemətulla gəlir, dalınca Yazıçı və Svetik.*

**Nemətulla.** Bəs Həqiqət necə oldu? Onu tək buraxmayın, halı özündə deyil.

**Svetik.** Dedi ki, bu gecə Genaya baxacaq.

**Nemətulla.** Sabahdan Yeni Zellandiya məsələsi ilə məşğul olmalıyıq. Görək bu nə işdi, kimdi zəng eləyən?

**Yazıçı.** Bəlkə, bir az gözləyək? Görək nə məsələdi?

**Nemətulla.** Düz deyirsən, dünya dələduzlarla doludur.

**Svetik.** Sizin şübhəniz var?

**Nemətulla.** Svetik, sən bilmirsən ki, Həqiqətin heç vaxt övladı olmayıb?

**Svetik.** Mən heç nə bilmirəm, bu çox intim məsələdir.

**Nemətulla** *(Nərgizlə İnqilabı görür).* Hə, gəlin, nə vaxt vətəni tərk edib gedirsən yeni dünyaya?

**İnqilab.** Papa, elə onu demək istəyirdim. Biz bir azdan yola düşürük.

**Nemətulla.** Biz dedin? Yoxsa sən də gedirsən?

**İnqilab.** Belə məsləhət oldu, papa.

**Nemətulla.** Bəs deyirdin məni qoyub heç yana getməyəcəksən, nə oldu? Nə dəyişdi?

**Nərgiz.** Nemətulla Sadıxoviç, Azik uçurum qarşısındadır. İnqilab da getməlidir!

**Nemətulla.** Səndən soruşmuram, gəlin! *(İnqilaba yaxınlaşıb üz-üzə dayanır)*. Sən bu qərara mənim etirafımdan sonramı gəldin? Biləndə ki...

**İnqilab.** Papa!

**Nemətulla.** Sus! Heç bir sözə ehtiyac yoxdur. Bu insanlar, mənim əlli illik dostlarım bilir ki, mən sənə görə evlənmədim, o rəhmətliyin andına əməl elədim, səni özgələr ümidinə buraxmadım. Canımdan artıq istədim səni, həm öz əvəzimə, həm də o rəhmətliyin əvəzinə, amma bir şeyi bacarmadım, sənə vətəni sevməyi öyrədə bilmədim, bacarmadım. Bu mənim ən böyük qəbahətimdir. Get! Sən çətin, şərəfsiz bir yola qədəm qoyursan, bu gündən vətənsiz insanlar cərgəsinə qoşulursan, öz xoşunla, könüllü. Amma bil, yağ-bal içində yaşasan da xoşbəxt ola bilməyəcəksən. Burnuvun ucu göynəyəcək Bakı üçün! Bax Gena Batelmana, vətənsizliyin nə olduğunu gör! Vətənsiz insan özünü itirmiş, yox olmuş insandır.

**Yazıçı.** Nemətulla Sadıxoviç, bu gün nə vətən, nə də vətənpərvərlik aktual deyil.

**Nemətulla.** Yanılırsan şair yoldaş, mədəsindən yuxarı düşünə bilməyən adamlar üçün vətən sözü heç nədir, nə onda aktual olub, nə indi. *(Getməyə hazır dayanmış İnqilabla Nərgizə)*. Gedin, yaxşı yol, amma bir də geri qayıtmaq haqqında düşünməyin, bu vətən dönükləri qəbul eləmir!

**Nərgiz.** Nemətulla Sadıxoviç, hər şeyə görə bağışlayın məni.

*Nemətulla susur.*

**İnqilab.** Papa, icazə ver qucaqlayım səni *(Nemətulla tərpənmir. İnqilab onu hərarətlə qucaqlayır).* Mən birdəfəlik getmirəm, papa, mütləq qayıdacağam, amma işdi, bilmək olmaz, bir də görüşməsək... *(Kövrəlir).* Bil ki, səni unutmayacağam, heç bir etiraf səni mənim qəlbimdən çıxara bilməz. *(Bir də qucaqlayır. Bu dəfə Nemətulla da onu sinəsinə sıxır).*

**Nemətulla.** Hər nəsən, hər kimsən, mənim oğlumsan *(Göz yaşlarını gizlətmək üçün üzünü çevirir).*

**İnqilab** *(qocalara).* Salamat qalın! Sizin hər birinizin mənim həyatımda yeri var. Gözümü açandan sizi papanın bərabərində görmüşəm. Hər şeyə görə sağ olun! *(Bir-bir görüşüb sağollaşır).*

*Telefon zəng çalır. Həqiqət tələsik Batelmanı kolyaskada gətirir və intizarla zəng çalan telefona baxır.*

**Nərgiz.** Bu da taksi! *(Əlində çamadan telefona yaxınlaşır və dəstəyi götürür).* Alo, taksi?! Azik?! Adə, sən zəng eləməkdən yorulmadın? Adə... Nə danışırsan, Azik? Bir qulaq as, Azik... Sən ciddi danışırsan? Azik, buna qaydasız döyüş deyərlər. Azik... Azik... Azər!.. *(Bir xeyli səssiz qulaq asır).* Azik, qulaq as... *(İnqilaba)* Dəstəyi qoydu. *(Çamadan əlindən düşür).*

**İnqilab.** Nə oldu, Nara, nə dedi o?

**Nərgiz.** Deyir mən artıq Bakı təyyarəsinə minirəm.

**İnqilab.** Bakı təyyarəsinə? Bakıya gəlir?

**Nərgiz.** Deyir, mama, məni burada adam hesab eləmirlər. Mən qayıdıram vətənimə! Deyir Bakıma, onun daşına, qayasına, qumuna, küləyinə qurban olum! Mən qayıdıram evimə...

**İnqilab.** Bu sözləri Azik dedi?

**Nərgiz.** Hələ bir şeir də dedi.

**İnqilab.** Nara, Azik şeir bilir?

**Nərgiz.** Həri, orada öyrənib. El bilir ki, sən mənimsən, yurdum yuvam məskənimsən... *(Ağlayır).* Anam doğma vətənimsən, Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan...

*Səhnəyə dərin bir sükut çökür. Hamı şeir deyən Nərgizə baxır. İşıq azalır. Musiqi eşidilir. Bu vətən haqqında qəlbə sirayət edən həzin bir mahnı da ola bilər.*

*İşıqlar sönür.*

*Pərdə*

SON

*İyul, 2014-cü il*

# Axirətdən gələn zəng

*(İkihissəli dramatik komediya)*

## *İştirak edənlər:*

**Dövran** – *milyonçu*
**Röya** – *onun arvadı*
**Bayram** – *Dövranın qardaşı*
**Zəhra** – *Bayramın arvadı*
**Ceyran** – *Dövranın bacısı*
**Pirim** – *Ceyranın əri*
**Samir** – *Dövranın əmisi nəvəsi*
**Elman** – *Dövranın yaxın dostu*
**Delisay** – *Filippinli qadın, ev xidmətçisi*
**Timur** – *Röyanın stilisti, ekstravaqant geyimli gənc*

## BİRİNCİ PƏRDƏ

*Çox dəbdəbəli interyeri olan yaraşıqlı, geniş zal. Hər iki tərəfdən ikinci qata tutacaqları inkrustasiya olunmuş pilləkənlər qalxır. Zalın tavanından müasir dizaynlı iri çilçıraq asılıb. Hər şey var-dövlətə, firavanlığa və yüksək zövqə iddialıdır. Ortalıqda iri qonaqlıq masası qoyulub. Ağ süfrənin üstündə gözəl servirovka var: bahalı fujerlər, nimçələr, bərq vuran çəngəl-bıçaqlar... Xidmətçi geyimində olan Delisay servirovka ilə məşğuldur. Tez-tez girir-çıxır, nəyisə aparır, nəyisə gətirir. Səhnədə baş verəcək hadisələrin ona qətiyyən dəxli yoxdur. Öz işindən başqa hər şeyə biganədir. Röya otağın ikinci qatında görünür. O, Timurun müşayiəti ilə kübar xanımlara məxsus əda ilə pilləkəni düşür və düşə-düşə də danışır. Hiss olunur ki, gözəlliyindən, danışığından, səsinin ahəngindən, bir sözlə bütün varlığından ləzzət alır.*

**Röya.** Bir sizdən yorulmuram, Timur bəy! Əvvəlki stilistlər incidirdilər məni.

**Timur.** Onlar nədən stilist olsunlar, Röya xanım? Onlar adicə dəlləkdilər, parikmaxer! Qeybət olmasın, yalandan hərəsi bir sertifikat düzəldib, döşündən əldəqayırma medal asıb, adını da qoyub stilist. Danışmaq istəmirəm, Röya xanım, onsuz da əskim tüstülüdür.

**Röya.** Elədir, Timur bəy, danışmayaq, qeybət nəcib adama yaraşmaz. *(Zalın ortasında dayanıb şahanə görkəmlə Timura baxır)*. Siz deyin görüm bu saç düzümü mənə yaraşır, ya yox?

**Timur.** Yaraşır azdır, Röya xanım, mən sizdən gözümü çəkə bilmirəm, indi görün kişilər neynəyəcəklər?

**Röya.** Timur bəy, sözlərinizdə ehtiyatlı olun, mən ərli qadınam.

**Timur.** Ah, Röya xanım, hər şey o qədər şərtidir ki, lap teatrda olduğu kimi.

**Röya.** Teatrın bura nə dəxli var?

**Timur.** Axı mən teatrşünaslığı bitirmişəm. Ona görə də hər şeydə bir teatr, tamaşa görürəm.

**Röya.** Mən də deyirəm bu teatral ədalar, incə maneralar haradandır sizdə?! Elə bu saç düzümünün özü, bu mürəkkəb siluet!

**Timur.** Sizin saçlarınız darağa o qədər yumşaq yatır ki, ondan istədiyin silueti ala bilərsən.

**Röya.** Ah, Timur bəy, siz nə görmüsünüz ki?! Mənim bir saçım vardı! Sizə bir şey danışım, amma aramızda qalsın, Timur bəy, mətbuata çıxmasın. Bunu heç Dövran müəllim də bilmir.

**Timur.** Aman! Mən sizin sözünüzü haradasa danışaram?!

**Röya.** Uzaq keçmişdə olub bu hadisə. Çox kasıb vaxtlarımızdı, Timur bəy.

**Timur.** Siz kasıb olmusunuz?

**Röya.** Ah, Timur bəy, mən bu az yaşımda çox şey görmüşəm. Axı mən də İncəsənətdə oxuyurdum, anam fəlsəfədən dərs deyirdi, atam da kifayət qədər məşhur rəssamdı, hətta əməkdar incəsənət xadimi idi.

**Timur.** Əsl ziyalı ailə!

**Röya.** Özü də necə ziyalı?! Fərhad da kənddən gəlib, heç nəyi yox, perspektivi qaranlıq...

**Timur.** Fərhad? Fərhad kimdi?

**Röya.** Timur bəy, Dövran müəllim mənim ikinci ərimdi.

**Timur.** Aman!

**Röya.** Bunu çox az adam bilir, Timur bəy. Mən o gənclik illərində elə bir sevgi yaşadım...

**Timur.** Mən şokdayam!

**Röya.** Hələ harasıdı? Bu kəndçi balasında bir boy-buxun, bir yaraşıq, bir kişilik vardı ki... Sözlə təsvir eləmək də çətindir. İlahi, ondakı xarizmanı mən heç kimdə görə bilmədim. Vurulmuşdum! Qadının vurulması bir özgə aləmdi, siz bilməzsiniz, Timur bəy.

**Timur.** Bəs sizin valideynləriniz?

**Röya.** Onlar Fərhadın heç adını eşitmək istəmirdilər.

**Timur.** Röya xanım, niyə valideynlər övladlarının hisslərinə hörmət etmirlər?

**Roya.** Deyirdilər sən bu ac-yalavac kəndçi oğlanla xoşbəxt ola bilməzsən. Onlar məni hələ onda başıma fırlanan Dövrana vermək istəyirdilər.

**Timur.** Mən bilən Dövran müəllim də şəhərli deyil?

**Röya.** Elədir. Amma dedilər ki, Dövran rayonlu olsa da diribaşdır, çevikdir, pul qazanandır, səni də çox istəyir. Dedim ki, məni Fərhaddan fələk də ayıra bilməz, mama! Mən istədiyimə gedəcəyəm, papa! Getdim də!

**Timur.** Bəs onlar – valideynləriniz neynədilər?

**Röya.** İnanmazsınız, Timur bəy, onlar məndən, yeganə qızlarından üz döndərdilər.

**Timur.** Bu ki qəddarlıqdır! Bəs Dövran müəllim? O da üz çevirdi sizdən?

**Röya.** Nə danışırsınız, Timur bəy?! Dövran məğluybiyyəti qəbul edənlərdən deyil. Dedi ki, iki dünya bir ola, yenə səndən əl çəkməyəcəm! Əvvəl-axır sən mənim olacaqsan, peşman olub özün gələcəksən yanıma.

**Timur.** Aman allah, bu ki, serialdır!

**Röya.** Serial yalandır, Timur bəy, bu həyatdır! Amma Dövranın dediyi kimi mən peşman olmadım, çünki hədsiz xoşbəxtdim. Bir də o vaxtlar nə kasıb, nə dövlətli, hamı təxminən elə bərabərdi. Kirayədə yaşayırdıq. Mənim əlaçı stipendiyam, onun maaşı... Gündüzlər oxuyub axşamlar haradasa fəhlə işləyirdi, mənə nə iş gördüyünü dəqiq demirdi. Nə isə, sözüm onda deyil, bir dəfə gördüm ki, Fərhad heç özündə deyil, bıçaq vursan qanı çıxmaz. Bildim ki, heç çörək almağa da pulu yoxdu. Bilirsiniz onda mən neynədim, Timur bəy?

**Timur** *(heyrətlə)* Ola bilməz!

**Röya.** Oldu, Timur bəy, oldu! Getdim gözəllik salonuna. Saçlarımı açıb tökəndə parikmaxerlər heyrətdən donub qaldılar. Dedilər, bu ki su pərisidi. Mən gülümsəyib dedim ki, saçlarımı satıram.

**Timur.** Siz necə qıydınız o gözəlliyə?

**Röya.** Məhəbbət olan yerdə gözəllik də keçir arxa plana, kulisə. Mən onun əzablarına dözə bilməzdim. Xeyli pul verdilər mənə. Uça-uça getdim dükana. Ac adam, əlində pul... O qədər yemək-içmək aldım ki! Danışıram, indi də kövrəlirəm. Hər şey elə bil indicə olub.

**Timur.** Bəs o nə dedi? Reaksiyası necə oldu?

**Röya.** O çaşıb qalmışdı... Süfrədəki yeməklərə baxıb soruşdu: anan gəlmişdi? Mən sirli təbəssümlə başımı buladım. Onun rəngi qaraldı, bəs haradandı bunlar? Heç nə demədim, başımı açıb oğlansayağı vurulmuş, onda padmalçişka deyirdik, saçımı göstərdim ona.

**Timur.** Aman allah!

**Röya.** O sarsılmış halda: “Sən saçlarını satmısan?” – deyə soruşdu. Mən başımı tərpədib “həri” dedim. Bir də əlavə etdim ki, onsuz da o saçlar mənə mane olurdular, yığıb-yığışdıra bilmirdim.

**Timur**. Bu necə məhəbbətmiş?!

**Röya.** Yox o məhəbbət deyildi, Timur bəy, böyük xoşbəxtlikdi!

**Timur.** Bəs o xoşbəxt kişi məhəbbət naminə verilmiş qurbanı necə qiymətləndirdi?

**Röya.** Bilsəniz o məni necə qucaqladı?!

**Timur.** Necə, Röya xanım, necə?

**Röya.** Bunu təsvir eləmək mümkünsüz! Mən o gecə qadının necə xoşbəxt olduğunu ilk dəfə başa düşdüm, hiss elədim Timur bəy.

**Timur.** Bəs bu məhəbbət necə oldu, nə hadisə baş verdi ki, siz ayrıldınız?

**Röya.** Biz ayrılmadıq.

**Timur.** Bəs...

**Röya.** Bizi ayırdılar!

**Timur.** Aman!

**Röya.** Bir gecə o evə gəlmədi, ağlıma pis bir şey gətirmədim, hərdən gecəni işdə qalmalı olurdu. Ertəsi gün də gəlmədi, daha bir gecə... (*Gözündən yaş sıçrayır*). Sonra... yox oldu Fərhad, guya belə bir adam yoxmuş dünyada. Heç yana əlim çatmadı, nə milis, nə polis! Gördüm deyən olmadı. Mən nələr çəkdim! Depressiyaya düşdüm, bir neçə dəfə intihar etmək istədim, qismət deyilmiş. Anam gəlib apardı məni, papanın ili hələ çıxmamışdı. Bax onda Dövran müəllim təzədən peyda oldu, gəldi-getdi, gəldi-getdi, yalvardı. Sonrası da... qadın zəif məxluqdu, dostum!

**Timur.** Siz onu sevə bildiniz?

**Röya.** Kimi?

**Timur.** Dövran müəllimi.

**Röya.** Mənim üçün artıq fərqi yoxdu, Dövran, ya bir özgəsi! Mənim qəlbim sevgiyə bağlıydı (*masaya yaxınlaşır*). Bir

azdan qonaqlarımız da gəlməlidir, bir süfrəyə nəzər salaq, görək bu filippinli qız neynəyib?

**Timur.** Bəs sonralar da?..

**Röya** *(sözünü kəsir və tam dəyişmiş əda ilə).* Timur bəy, söhbəti bitirdik! Sizin missiyanız, mən bilən başa çatdı.

**Timur.** Pardon! *(Tələsik təzim edib gedir).*

*Delisay əlində mobil telefon gəlir. Telefon zəng çalır. Qız telefonu Röyaya verir, təzim edib tələsik gedir.*

**Röya.** Al-lo! Eşidirəm! Bəli! Sən mənə lazım olanda ilim-ilim itirsən, mən sənə lazım olanda zəhləmi tökürsən! Başa düş, Samir, mən Dövrandan pul istəyə bilmərəm, özü də o boyda pul?! Axı sənə dəfələrlə demişəm, bacarmadığın yükün altına girmə! *(Sərt)* Nə demək istəyirsən?.. Samir, mən səni başqa cür tanıyıram, elə etmə fikrim dəyişsin. Samir... Samir... Artıq buna şantaj deyərlər! Gəlməlisən, əlbəttə gəlməlisən, özün də dəvətlisən. Xeyr, bizdə o söhbətin yeri yoxdu. Özün də ağ eləmə, camaat çörəyi qulağına yemir. *(Ceyranla Pirimin gəldiyini görür.)*

Yaxşı, sonra danışarıq, tamam?!

**Ceyran.** Salam, a yaraşıqlı qardaşımın yaraşıqlı sevgili yarı! *(Röyanı qucaqlayıb öpür).* Pirim, gör bütöy Bakıda belə gəlin var?

**Pirim.** Ceyran xanım, mənə mürəkkəb suallar vermə!

**Röya** *(ondan aralanır).* Heç sənin kimi məhəbbətli baldız da yoxdu.

**Ceyran.** Sən Dövranın canı, həqiqi sözündü?

**Röya.** Nədi, sənin şübhən var?

**Ceyran.** Şübhəm niyə olur, az, heç şübhəm-zadım yoxdu. Mənim kimi baldız var?! Var, ə, Pirim?

**Pirim.** Bilmədiyim şeyi məndən soruşma, Ceyran!

**Ceyran.** Ə, bəs sən nəyi bilirsən, Pirim?

**Pirim.** Röya xanım, Dövran müəllim yubileyini niyə gül kimi restoranların birində eləmir? İndiki zamanda ev yubiley yeridi?

**Ceyran.** Mən də elə onu soruşacaqdım. Bu nə məsələdi? Elə bizim restoran qalıb orada bombalam boş, gələn də yoxdu.

**Röya.** Siz elə bilirsiniz Dövran mənə hər şeyi deyir?

**Ceyran.** Bə kimə deyir, az?

**Pirim.** Onu da deyib ki, hamı burada olsun. Vacib bir iş vardı, qaldım qırıla-qırıla.

**Ceyran.** Pirim, sənin Dövrandan artıq nə işin ola bilər?! Hamımıza çörək verən mənim qardaşım deyil? Allah onu min budaq eləsin! Bəs özü hanı, Röya, qadan alım?

**Röya.** İndilərdə gəlib çıxmalıdı. Siz oturub rahatlanın, mən də gəlirəm *(gedir).*

**Ceyran** *(dalınca).* Bah-bah-bah! Elə bil Nəsrəddin şahın törəməsidi!

**Pirim.** Farağat otur, az! Altdan-üstdən vurma!

**Ceyran.** Altdan-üstdən vurub nə dedim mən, Pirim?

*Delisay sinidə nəsə gətirib süfrəyə düzür.*
*Ceyranla Pirim maraqla onun hərəkətlərinə göz qoyurlar.*

**Pirim.** Varam də bu balaca qıza!

**Ceyran.** Balaca! Yox bir körpəcə?! Ə, o məndən böyükdü ey, əlli yaşı var.

**Pirim.** Ağ eləmə də!

**Ceyran.** Dədəmin goru haqqı, Röya xanımın özündən eşitmişəm.

**Pirim.** Zalım qızının səsi də çıxmır, heç salam da vermir adama.

**Ceyran.** Onların ölkəsində salam vermək yoxdu.

**Pirim.** Kim deyir, az, onu?

**Ceyran.** Bax, belə mən deyirəm!

**Pirim** *(qımışır)* Deyirlər qulluqçuluqda bunlara əvəz yoxdu.

**Ceyran.** Onu kim dedi?

**Pirim.** Az, bizimkilərin hamısının evində var ey bunlardan.

**Ceyran.** Sənin canın üçün, Pirim! Bu saat mən də sənə bir filippinka gətirəcəyəm! Gör ağlından nə keçir bunun?!

**Pirim.** Gülyaya görə deyinmirsən bütün günü? Zəhləni tökməyib sənin? Elə mənim də!

**Ceyran.** Sənin bəlkə töküb zəhləni, amma mənim zəhləm hələ yerindədi.

**Pirim.** Ta niyə hirslənirsən? Mən sənin xeyrinə deyirəm.

**Ceyran**. Gülyaya görə sənə dağ çəkmək mənə borc olsun, ovçu Pirim! Elə bilmə ki, susuram, heç nədən xəbərim yoxdu, hər şey hesabımdadı.

**Pirim.** Sən dəlisən, Ceyran?

**Ceyran.** Dəli sənin evdə qalan o yeddi qarımış bacındı, Pirim!

**Pirim** *(gülməyini güclə saxlayır)*. Az, qışqırma, eşidən olar!

**Ceyran.** Cəhənnəmə eşitsinlər!

*Bayram Zəhra ilə gəlir. Zəhra hicablıdır.*

**Bayram.** Haradan səs gəldi, bilin ki, Ceyran xanım artıq oradadı.

**Ceyran.** Boy, Bayram, ə, bu sənsən?!

**Bayram.** Nədi, tanımadın?

**Ceyran.** Ə qardaş, sənin mən adda bacın yoxdu?

**Bayram.** Sən adda? Sənin adın nədi ki?

**Ceyran.** A itoynadan, sənin bəzi bəxtəvərlər kimi yeddi bacın var ki, adlarını çaş salasan?

**Bayram.** Mən bilən adın Ceyran olmalıdı, bu ovçu Pirimin ovladığı Ceyran?

**Ceyran.** Elədi, ovluyub ağ günə çıxardıb məni!

**Bayram.** Naşükür olma, bacı, Pirimin yaxşı ovçu olduğu hamıya məlumdu.

**Ceyran.** Ə, sən araya söz qatma! Niyə bir telefon eləmirsən, bir qapımı açmırsan, halımı soruşmursan? Ə, sənin üzün çıxıb ey yadımdan.

**Bayram.** Onu Dövran qardaşımızdan soruş. Elə yükləməyib ki, bacı-qardaş axtaram. Odey, soruş Zəhradan, heç namaza da vaxt tapa bilmirəm.

**Ceyran.** Namaz nədi, ə? Bayram, sən namaz qılırsan? Nə vaxtdandı, ə, bu xeyir iş?

**Bayram** *(Zəhraya işarə ilə).* Atı atın yanına bağlayarsan, rəngini götürməsə də, xasiyyətini götürər!

**Ceyran.** Az, gəlin, sən bu fağır qardaşımın başına nə oyundu açırsan?

**Zəhra.** Bu bəndəlik əməl deyil, Ceyran bacım, bu Allahın qoyduğu yoldu.

**Ceyran.** Nə deyim, vallah?! Sən ki Allahı verdin qabağa, ta deməyə söz qalmır.

**Zəhra.** İnşallah, sən də haqq yoluna gələndə qardaşıvı qınamayacaqsan.

**Bayram.** Ovçu Pirim, bu ad günüdü, ya direktorlar şurasının iclası?

**Pirim.** Vallah, mənim xəbərim yoxdu, amma Dövran deyəndən sonra gəlməliyik də!

**Bayram.** Bəs özü hanı?

**Ceyran.** Röya xanım dedi ki, indi gələr, zəng eləyibmiş. Özü də getdi... *(Sözünü bitirə bilmir. Röya ziyafət paltarında gəlir.*

*Çox yaraşıqlıdır. Hamı heyranlıqla baxır).* Budey, gəldi qardaşımın gözəl sevgilisi!

**Röya.** Hamınız xoş gəlmisiniz! Keçin süfrəyə! *(Bayram və Zəhra ilə görüşür).*

**Ceyran.** A gəlin, bəlkə qardaşımı gözləyək, sonra keçək süfrəyə?

**Röya.** İndi gəlməlidir, əyləşin, o belə istəyib, oturun!

*Hamı süfrə arxasında yerini tutur. Dövran və ondan bir addım geridə Samir gəlir. Dövran altmış yaşlarında xeyli qıvraq, kifayət qədər xoş görkəmli kişidir. Samir idmançı bədən forması olan boylu-buxunlu, dərhal diqqəti cəlb edən otuz yaşında yaraşıqlı gəncdir. Dövranın gəldiyini görən qonaqlar bir nəfər kimi ayağa qalxır. Dövran əli ilə hamıya oturmaq işarəsi verir.*

**Dövran.** Oturun, hamınız əyləşin! Xoş gəlmisiniz! Mənim əziz Ceyran bacım! *(Yaxınlaşıb Ceyranı öpür).*

**Ceyran.** Ceyran bacın sənə qurbandı!

**Dövran.** Mənim əziz qardaşım! *(Bayramla öpüşür).* Yeznəm Ovçu Pirim, ovladığı da elə mənim bu fağır bacımdır, dilsiz-ağızsız Ceyran bacım! *(Öz sözünə qəhqəhə çəkib gülür).* Bizim hörmətli gülbacımız Zəhra xanım. Bilirəm, sən naməhrəm kişi ilə əl tutmursan. *(Hər iki əlini sinəsinə qoyub qarşısında təzim edir).*

**Zəhra.** Allah razı olsun, Dövran qardaş!

**Dövran.** Samir necə oldu? Buradasanmı, əmoğlu? Mənim, necə deyərlər, referentim, sağ əlim. *(Samirin qolundan tutur).* Partnyorlarımla ilk danışığa həmişə bax bu yaraşıqlı oğlanı göndərirəm. Bilirəm ki, şirin dili ilə ilanı yuvasından çıxardar. Yuxarıda, mənim yanımdadır yerin, sağ tərəfimdə, sağ əlim kimi. Sol tərəfim dünyanın ən gözəl qadını Röya xanımındır. Nə deyirsən, Ceyran bacım, əlavən varsa, buyur!

**Ceyran.** Yox, ay qardaş, ağzımız nədi əlavə eləyək?

*Hamı gülür, Dövran hamıdan bərk gülür.*

**Dövran.** Di, oturduq! Hamı buradadır? *(Aşağı tərəfdə masa ətrafında bir boş yer görür).* Ora niyə boşdur? Kim yoxdu burada, Röya xanım?

**Röya.** Çağırılanlar hamısı buradadı!

**Dövran.** Bəs Elman hanı? Çağırmamısan onu?

**Röya.** Dövran, axı Elmanın yeri deyil, o özgə adamdı, qohum da deyil...

**Dövran** *(telefonunu çıxardıb zəng vurur).* Bu saat dur bizə gəl! Həri, evə! Sən mütləq burada olmalısan! Tamam! *(Telefonu cibinə qoyur).* Elman mənim üçün qohumdan da artıqdır, Röya xanım! Bilirəm, sən onu sevmirsən, amma bir vaxtlar sən məni də sevmirdin.

**Röya.** Bunu daha münasib bir məqamda desəydin, mən sənə cavab verərdim.

**Dövran.** Yaxşı, boş buraxaq! Bu gün mənim altmış yaşım tamam olur. Mən bu günü çox böyük dəbdəbə ilə qeyd eləyə bilərdim, yəqin eləyəcəm də, bugünkü günü isə sizinlə bir yerdə olmaq istədim, ən yaxın qohumlarımla. Bilirsiniz səbəb nə oldu? Heç birinizin ağlına gəlməz *(diqqətlə hamını süzür).*

**Bayram** *(yavaşdan)* Ağıl var bizdə?

**Pirim.** Bizi özünə qatma!

**Ceyran.** A qardaş, sən başımızın ağasısan, hamımız sənə görə çörəkli olmuşuq, amma ta niyə bizi imtahana çəkirsən, sözünün canını de, biz də işimizi bilək də, qadan ürəyimə!

**Röya** *(ayağa durur).* Məni bağışlayın, mətbəxə dəyməliyəm *(gedir).*

**Dövran.** Deyəsən, xətrinə dəydim Röya xanımın.

**Ceyran.** Elədi, qağa, dəyən yeri yaxındı.

**Dövran**. Nə dedin, bacı?

**Ceyran**. Deyirəm ərköyün öyrətmisən, qağa.

**Dövran**. Mən onu itirə bilmərəm, bacı, o, mənə çox baha başa gəlib. Bunu bir mən bilirəm, bir də Allah! *(Samirə).* Əmoğlu, yeri onun dalınca, könlünü al, səni çox istəyir.

**Samir.** Baş üstə! *(Gedir).*

**Ceyran.** Qağa, bu stolun üstündəkilərdən yeyə bilərikmi?

**Dövran.** Dolamısan məni, Ceyran bacım?

**Ceyran.** Ə, nə bilim, o qədər altdan-üstdən danışırsınız, adam çaşıb qalır.

**Dövran.** Ovçu Pirim, qədəhlərimizi doldur! Zəhra gülbacı, üzürlü hesab elə! Araq içmirik, üzüm şirəsidir, özcə bağımda, öz üzümümdən hazırlanmış şərabdır. Halal sertifikatı da var.

**Zəhra.** Allah razı olsun, Dövran qardaş!

*Masa üstündəki işıq azalır. Səhnənin önü işıqlanır. Röya gəlir, əlində telefon var. Zəng eləyir, hiss olunur ki, cavab almır. Samir qaçaraq addımlarla gəlir, Röyaya çatıb qəfildən onu qucaqlayır və ehtirasla dodaqlarından öpür. Röya ondan qopmağa çalışır.*

**Röya.** Burax! *(Aralanır).* Dəli olmusan? Demirsən görən olar?

**Samir.** Mən səni masa arxasında görən kimi öpmək istədim, elə orada, adamların yanında.

**Röya.** Ehtiyatlı olmaq lazımdı, Samir əmoğlu?

**Samir.** Nədi, nə olub ki?

**Röya.** Heç nə olmayıb, sadəcə, mən özümü tanımıram.

**Samir.** Hər şeyi şişirdirsən.

**Röya.** Aman Allah!

**Samir.** Nədi, Allahla nə işin?

**Röya.** Heç vaxt inanmazdım ki, mən ondan sonra kimisə belə ehtiraslı məhəbbətlə sevə bilərəm. Bir az qabaq öz bərbərimə qəlbimin məhəbbət üçün bağlı olduğunu deyirdim, özüm də dediklərimə məəttəl qalırdım, elə bil mən yox, kimsə başqa bir qadın danışırdı içimdə.

**Samir.** Sən bərbərinlə belə intim söhbətlər eləyirsən? Kimdi o? Mən görmüşəm onu?

**Röya.** Qısqanmağa əsas yoxdu, əzizim, o kişi deyil, stilistdir.

**Samir.** Bəs onda bu nə söhbətdi? Məqsədin nədir?

**Röya.** Hər şeydə məqsəd, məntiq axtarmaq kişilərin işidir. Bizi isə hisslərimiz dartıb aparır. Ağıl hisslərimizi üstələyəndə isə artıq gec olur, o heç nəyə yaramır. Necə ki hisslərimə məğlub olub səni çox yaxına buraxandan sonra ağlımın səsini eşitməyə başladım, amma gecdi, mən səni sevdim.

**Samir.** Bunun nəyi pisdi ki?

**Röya.** Pis olanı odur ki, mən səni sevsəm də, sən məni sevmirsən, məndən istifadə edirsən, öz məqsədlərin üçün.

**Samir.** Sən məni incitmək istəyirsən?

**Röya.** Yox, niyə incidim ki? Sənin mənə pisliyin keçməyib, əksinə, sən kifayət qədər açıq oynamısan, verdiyinin əvəzini istəmisən. Bu da təbiidir. Bu dünyada ən qızğın, ən böyük, hətta müqəddəs məhəbbətin özü də təmənnalıdır, necə deyərlər, dünya alver üstündə bərqərardır.

**Samir.** Sən məni təəccübləndirirsən?

**Röya.** Bu təəccübün əsası nədir?

**Samir.** Sənin belə ağıllı olduğunu bilsəydim, yaxın durmazdım, qorxardım.

**Röya.** Bu ağıl deyil, təcrübədir, başı daşdan-daşa dəymiş qadın təcrübəsi. Səndə güc var, məndə təcrübə! Ona görə bizim ittifaqımız təbiidir.

**Samir.** Hərdən mənə elə gəlir ki, sən Dövrandan intiqam alırsan, amma nəyin? Axı onun sözünün əvvəli də Röyadır, axırı da.

**Röya.** Bilirəm, o məni sevir, amma mənim sevib-sevməməyim onun eyninə deyil. O mənə sahib olmaq üçün mənim sevdiyim adamı yox elədi, elə götürdü aradan ki, izi-tozu da qalmadı.

**Samir.** Sən nə danışırsan? Dövran müəllimi qatil hesab eləyirsən?

**Röya.** Bilmirəm, amma axır vaxtlar içimdə bir səs bu sirri mənə pıçıldayır, beynimi deşir.

**Samir.** Axı o səni çox sevir.

**Röya.** Mən buna şübhə etmirəm, amma onun məhəbbəti, onun sevgisi yaradıcı ola bilmədi. Elə ona görə də bizim övladımız da olmadı. Nə o, nə mən əsl xoşbəxtliyin dadını bildik. *(Səsi sərtləşir).* Dedin sənə milyon lazımdı?

**Samir.** Bəlkə, indi bu söhbətin məqamı deyil?

**Röya.** Bir az əvvəl telefonda beynimi sökən sən deyildin?! Nə oldu, üz-üzə gələndə utandın?

**Samir.** O cür söhbətdən sonra pul haqqında danışmaq mənə mənasız göründü. Bir də... Dövran müəllimin özü ilə danışacağam. İnanmıram xahişimi rədd eləsin. Qayıdaq qonaqların yanına.

**Röya.** Mən ora getməyəcəyəm.

**Samir.** Mənim xətrimə! Özü məni göndərdi ki, sənin könlünü alım.

**Röya.** Necə almağın təlimatını vermədi?

**Samir.** O bilir ki, mənə təlimat lazım deyil. *(Qəfil qucaqlayıb Röyanı öpür).*

*Elman gəlir, onları öpüşən görür. Bir an ayaq saxlayır. Samir onu görür və Röyadan aralanır. Röya heç nə demədən tələsik gedir. Samir də qadının dalınca getmək istəsə də dayanır.*

**Samir.** Elman?! Səssiz gəlirsən.

**Elman.** Qüsura baxmayın, siqnalım yoxdu.

**Samir.** Dövran müəllim xanımın xətrinə dəydi, məni də göndərdi könlünü alım...

**Elman.** Mən bilməzdim könülü belə alırlar.

**Samir.** Bu mənim üsulumdur *(qoluna girir).* Sən ağıllı, təmkinli, hətta tərbiyəli adamsan. Şefin də xanımına olan hədsiz məhəbbəti hamımıza, elə sənə də məlumdu.

**Elman.** Nə demək istəyirsən?

**Samir.** Sən məni başa düşdün! *(Daha mehribanlıq və sayğı ilə).* Gedək, səni gözləyirlər *(gedirlər).*

*Masanın üstündəki işıq artır.*
*Samir, Röya və Elman da yerlərini tutublar.*

**Dövran.** Hamı buradadır. İndi məclis arəstədir. Ovçu Pirim, qədəhlər doludurmu?

**Pirim.** Qədəhlər də doludur, qəlbimiz də! Boş olan qarnımızdır.

**Dövran.** Qəlb doludursa, bu yaxşıdır. Qaldı qarına, tələsməyin, ən asanı onu doldurmaqdı. Dünən işdən yorğun qayıtmışdım, mübahisəli bir məsələni çözməliydim, Elman bilir, ağır məsələydi, amma öhdəsindən gəldik. Elə bir stəkan çay içib divanda mürgüləmək istəyirdim ki, televizorda bir mənzərə gördüm. Görkəmindən xeyli qocaldığı görünən bir şir iri bir maraldı ya ceyrandı, uzaq bacımdan, boğazlayıb, sonra da oturub ləhləyir, yəqin nəfəsini dərib ovunu parçalamağa başlayacaqdı. Elə iş də bundan sonra başladı. Əvvəl bir kaftar şirə yaxınlaşıb bir az aralıda dayandı, biz goreşən deyirik

kaftara, dünyanın ən iyrənc heyvanıdı, sonra ikinci, üçüncü, dördüncü... Bir də gördüm ki, kaftarlar şiri tamam dövrələyib mühasirəyə alıblar. Getdikcə də dairəni daraldıb mırıldaya-mırıldaya şirə yaxınlaşırlar. Bunların bir-ikisinə pəncə atan, nərildəyən şir təzyiqə davam gətirə bilmədi, ovunu qoyub aradan çıxmağa məcbur oldu.

**Ceyran.** Dövran, qadan alım, bəs o şir niyə təkdi? Qohum-əqrabası qırılmışdı?

**Dövran.** Bax elə mən söhbəti ora gətirirəm, mənim ağıllı Ceyran bacım! Əgər o şir ovunu öz dost-aşnası, qohum-əqrəbası ilə bölüşdürsəydi, nə özü ac qalardı, nə qohum-əqrəbası. Şikarı da murdar goreşənlərə qismət olmazdı.

**Bayram.** Qardaş, bəs bunun sənin yubileyinə, bizim qonaqlığa nə dəxli?

**Dövran.** Dəxli çoxdu, Bayram müəllim, mənim əziz qardaşım. Əgər mən sizə güvənməsəydim, sizi başıma yığmasaydım, bu dəmdəsgahı, milyonları qazana bilərdimmi? Mən sizin sayənizdə, ölkənin beş kişisinin biri oldum.

**Ceyran.** Elə biz də sənin kölgəndə, şükür ki, çörək yiyəsiyik, qardaş. Sən olmasan, əlimiz hara çatardı?

**Dövran.** Mənim övladım yoxdu, o milyonları da goruma aparmayacam. Bir arvadımdı, o da elə təmin olunub ki, bundan sonra bir neçə ömür də yaşasa bəsidir.

**Ceyran**. Ə, bu nə söhbətdi, qadan ürəyimə? Bəs mənim oğlanlarım sənin də balaların deyil? Hamısı da qurban olsun sənin bircə qaraltına!

**Dövran**. Bacı, cığallıq eləmə! Sənin balaların da həmişə yadımdadı. Elə ikisini Londonda mən oxutmuram? Hələ Bayram qardaşımın gülüzlü qızını Oksforda göndərmədim? Sözüm onda deyil, mənim əziz qohumlarım. Sizi bura yığmaqda məqsədim özgədir. Mən sizi vəsiyyətimlə tanış eləmək istəyirəm.

**Ceyran.** Ə, sən nə danışırsan, Dövran? Vəsiyyət nədi, ə? Bu nə danışır, Röya?

**Bayram.** Qardaş, bu gün sən özünə oxşamırsan. Qərar nədi, vəsiyyət haradan gəldi ağlına? Sən maşallah bizdən on dəfə cavansan! Elə deyil, Röya gülbacı?

**Röya.** Görünən dağa nə bələdçi?!

**Ceyran.** Dövran, sən dədəmin-nənəmin goru, qurtar bu söhbəti, bir loxma çörəyimizi yeyək. Tikəm boğazımda qaldı.

**Dövran.** Uşaqlar, siz söhbətin milyonlardan getdiyini başa düşmürsünüz? Ya bilmirsiniz ki, ölüm qaşla göz arasındadır?

**Ceyran.** Qardaş, bəlkə, dilim-ağzım qurusun, bir xəstəliyin-zadın var, bizdən gizlədirsən?

**Dövran**. Ceyran, mən xəstəyə oxşayıram?

**Ceyran.** Xəstə nədi, ə, maşallah, kəl kimisən!

**Dövran.** Heç bir səbəb yoxdur, amma istəmirəm məndən sonra didişəsiniz, məhkəmələr gəzəsiniz, bir-birinizlə üz-göz olasınız. Axı, bu əl çirki deyilən pul köpəyoğlu şeydi. *(Sükut çökür).* Susdunuz! Deməli, məni başa düşdünüz. Davam eləyirəm. Mənim vəsiyyətim təsdiq olunmuş şəkildə notariusdadır. Bir nüsxəsi də mənim evdəki kabinetimdə, şəxsi seyfimdədir. Burada olan hər kəsin o vəsiyyətnamədə payı var.

**Zəhra.** Allah səndən razı olsun, Dövran qardaşım!

**Röya**. Mənim o vəsiyyətnamədən xəbərim yoxdu.

**Dövran.** Səni heç vaxt pul maraqlandırmayıb.

**Ceyran.** Niyə maraqlandırmır, qağa, bu dəmdəsgah pulsuz başa gəlib?

**Pirim.** Az, bir dil boğaza qoy də! Sən elə hər sözün qabağına söz qoymalısan?

**Ceyran.** Üstümə niyə qışqırırsan, ə?!

**Dövran.** Burada bir mənim dostum Elman qan qohumum deyil, amma mənə qohumdan da artıqdır.

**Pirim.** Qayınağa, deyirəm bəlkə siyahını da açıqlayasan?!

**Dövran.** Axı mən dedim, yeznə! Burada olanların hamısının adı var siyahıda, bircə-bircə, heç kəs də yaddan çıxmayıb.

**Pirim.** Üzlülük olmasın, ağaqayın, bəs bir ailədən iki adam varsa? Məsələn, Ceyran xanım üstəgəl...

**Dövran** (*sözünü kəsir*). Anladım, yeznə! Sən də varsan siyahıda, Zəhra gülbacı da!

**Zəhra.** Allah razı olsun, Dövran qardaşım!

**Samir.** Dövran əmoğlu, bəlkə yaxşı sual deyil, amma bölgü hansı prinsiplə aparılıb?

**Pirim.** Niyə, çox yaxşı sualdı.

**Ceyran.** O saat görünür ki, yuristdi.

**Bayram** (*Ceyrana pıçıldayır*). Nə yurist, az, mütrübün biridi, əvvəllər balet oynayıb.

**Ceyran.** Sən canın!

**Dövran.** O prinsipi mən heç vaxt açıqlamayacam, amma nə vaxtsa, hər şey məlum olanda Dövran niyə filankəsə çox, mənə az verib sualını eşitmək istəməzdim.

**Zəhra.** Necə ki, göndərdiyi sınaqlara görə asi düşmək, Rəbbimizə sual vermək, niyə, nədən soruşmaq bəyənilən hərəkət deyil, günahdı.

**Dövran.** Yaxşı dedin, gülbacı! Bax bu, çox müdrik yanaşmadı, doğru prinsipdi.

**Ceyran.** Qağa, qadan ürəyimə, indi biz bilməyək sən kimə nə verirsən?

**Dövran.** Yox, onu indidən deyə bilmərəm, bu bizim ümumi işimizə ziyan vurar. Soruş niyə?

**Ceyran.** Niyə bacın qurban?

**Dövran.** Çünki xətrinizə dəyməsin, içi mən qarışıq insan çiy süd əmib. Çəkişmə başlayar, qohumların birliyi pozular. Amma onu deyə bilərəm ki, beş milyondan az pay yoxdur.

*Hamı soyuq suya girmiş kimi içini çəkir. Məclisə narahat bir sükut çökür. Dövran ayağa qalxır, hamını bir-bir süzür.*

**Ceyran.** Ə, bacın gözlərinin qadasını alsın, sən hansı pulnan danışırsan?

**Dövran.** Sənə hansı sərf eləyir?

**Ceyran.** Özcə manatımızla, qağa, biz vətənpərvər adamıq.

*Əvvəl Dövran, sonra qalanlar gülür.*

**Dövran.** Ta kimin sualı var?

**Pirim.** Ağaqayın, sən allah incimə, nəsə bu bir oyuna oxşayır ey! Sən bizi, yumşaq desək, barmağına dolamırsan ki?

**Bayram.** Qardaş, bəlkə bizi bərkə-boşa salırsan, sınağa çəkirsən?

**Dövran.** Dayan, Bayram! Ə, ovçu Pirim, sən nə vaxt mənim qeyri-ciddi bir iş tutduğumu görmüsən?

**Bayram.** Qardaş, ovçunu qınama, vallah, bu bir az nağıla bənzəyir.

**Dövran.** Dedim, sən dayan Bayram! Elman, sən nə deyə bilərsən?

**Elman.** Mən səni yaxşı tanıyan bir adam kimi dediklərini tam ciddi qəbul edirəm. Niyə belə elədiyini də heç vaxt səndən soruşmayacağam.

**Dövran.** Eşitdinizmi? Hamınız da Elmanı yaxşı tanıyırsınız, bildiyini dədəsinə də verməz, ona görə ondan mənə tez-tez şikayət eləyirsiniz. Elə deyil, Samir?

**Samir.** Sən biləni biz bilmirik, Dövran əmoğlu!

**Dövran.** Ta şübhəsi olan qalmadı ki?! Onda qaldıraq badələrimizi, içək uzun illər davam edən əməkdaşlığımızın şərəfinə! Sizin hər biriniz mənim üçün çox qiymətli qohum olmaqdan başqa, həm də etibarlı tərəfdaşsınız *(içir)*.

*Zəhradan başqa hamı içir. Yeyirlər.*
*Dövran qalxıb Röyaya yaxınlaşır.*

**Dövran.** Samir, musiqi ver, mənim havamı! İndi mən dünyanın ən gözəl qadını ilə rəqs edəcəyəm. (*Oynaq bir rəqs havası eşidilir. Dövran Röyanın qarşısında təzim edir).* Çoxdandır sənin rəqsini görmürəm.

**Röya.** Bəlkə başqa vaxta saxlayaq? Əhvalım qarışıqdı.

**Dövran.** Bilirsən ki, mən istədiyimi almasam, əl çəkməyəcəm.

**Röya.** Bilirəm, qarşı tərəfin istəyi səni heç vaxt maraqlandırmır. O romanda deyilən kimi, kişi əkinçidir, qadın tarla! Tarlanın da əkinçini sevməyi vacib deyil.

**Dövran.** Hayıf ki, sən məni başa düşmədin, heç çalışmadın da!

*Oyun havası çalınır. Dövranla Röya çox gözəl rəqs edirlər. Dövran kənara çəkilib tamaşaçı kimi Röyanın gözəl rəqsinə heyranlıqla baxır və əl çalır. Bir azdan Dövran hamını rəqsə çağırır. Ceyran, Pirim, Bayram rəqsə qoşulur.*

**Dövran.** Oynayın, mənim milyonçu qohumlarım! Türk demiş, milyonçu olmağınızın dadını çıxardın! İndi siz hamınız mənim kimi milyonçusunuz! Dünya sizindi! *(Bir qıraqdan əl çalan Samirə yaxınlaşıb ərklə onu oynayanlara tərəf itələyir).* Göstər məharətini, Samir əmoğlu!

*Samir rəqsə qoşulur və daha çox Röya ilə üz-üzə oynayır. Onlar çox böyük məharətlə rəqs edirlər. Hamı aralanıb meydanı onlar üçün boşaldır.*

**Ceyran.** Ə, qardaş, sənin sevgilin o rəhmətlik Dilbazidan yaxşı oynayırmış ki!

**Dövran.** Bacı, mənim sevgilim İncəsənəti qurtarıb, ali təhsili var.

**Ceyran.** Bah-bah-bah... Vallah, mən yazıq fil qulağında yatmışam.

**Pirim.** Sən heç Samiri demirsən? Kim deyər ki, o ciddilikdə biznesmen belə sümük sındırar?! Elə bil filarmoniyadan çıxıb.

**Ceyran.** Lap artist kimi oynayır.

**Bayram.** Bayaq sənə demədim, Ceyran? Elə oradan çıxıb də! Beş il rəqqas olub kişinin oğlu. Bilirsən nə qədər ölkə gəzib oynaya-oynaya?!

**Ceyran.** Ə, sən zarafat eləyirsən! Mütrüb nə bilir biznes nədi?

**Dövran.** Reyqan da artist idi, Ceyran bacım, amma Amerika kimi əjdaha ölkəyə prezidentlik elədi. Samir də bizim bütün mürəkkəb layihələrin rəhbəridir. *(Əlini havada yellədir. Musiqi bitir).*

**Pirim** *(Dövrana).* Mən də birini tanıyırdım, cavanlıqda bir az yoldaşlıq da eləmişdik. *(Dövran onun sözünü ağzında qoyub əl çala-çala Samirlə Röyaya yaxınlaşır. Ririmin səsi yavaşısa da fikrini davam etdirir).* O da rəqqas idi, filarmoniyada, sonralar deyəsən səfir oldu, ya Mozambikdə, ya da... elə Mozambikdə.

**Ceyran.** Yadıma salma o kopaqqızını, Pirim!

**Pirim.** Nə kopaqqızı, az, mən qızdan danışıram? Rəqqas qadın deyil ki, kişidi.

**Ceyran.** Ə, Pirim, sən o filarmoniyaya rəqqasa görə gedirdin, yoxsa o sarıbaş qancığa görə? Lənət sənə şeytan dayna! Ə, açdırma dayna ağzımı! Bilirsən ki, açılanda pis açılır.

**Pirim.** Sən canın, açma, dünən o ki var sarımsaq yemisən.

**Ceyran.** Atana lənət məni qınayan! Gör Dövran kimi oğulun Ceyran kimi bacısı kimə qismət oldu? *(Hirslə masaya yaxınlaşır və nəsə götürüb sürətlə çeynəyir).*

*Hamı masa arxasında yerini tutur.*

**Dövran.** Mən çoxdandı rəqsdən belə zövq almırdım. Bu zövqü mənə Röya xanımla Samir bəy yaşatdı. Afərin! Adətən ad günündə adama hədiyyə verirlər, mən isə öz ad günümdə dünyanın ən gözəl qadınına, mənim, necə deyərlər, ömür-gün yoldaşıma hədiyyə vermək qərarına gəldim. Samir!

**Samir** *(cibindən gözəl bir futlyar çıxardıb Dövrana verir).* Buyur, Dövran müəllim!

**Dövran** *(Röyaya yaxınlaşır və ağayana bir əda ilə futlyarı ona təqdim edir).* Əgər sən olmasaydın, həyatımın beş qəpiklik qiyməti olmazdı *(əlindən öpür).*

**Ceyran.** Bəxtəvərin qızı! Gör bizim kimi üç-dörd uşaq doğsaydı, gədə neynərdi?

**Dövran.** İndi hamının yanında bu qutunu aç!

**Röya** *(qutunu açır və qeyri-ixtiyari gülümsəyir)* Çox sağ ol!

**Dövran.** Mənə çox sağ ol gərək deyil *(Yanağını öpüş üçün uzadır).*

**Röya** *(qohumlara).* Məni bağışlayın, öpməsəm əl çəkməyəcək *(öpür).*

**Dövran.** İndi tax barmağına.

**Röya.** Çox gözəldir.

**Dövran.** Mən onu bilirsən haradan gətirtmişəm?! Eksklüzivdir! Dünyada bu üzükdən bircə dənədir, o da sevgili Röya xanımın barmağında!

**Ceyran.** Adam ölməz belə kişi üçün?! *(Dövranı möhkəm öpür və üzüyə baxır)* Dədəm vay, burlyantın yekəliyinə bax!

**Röya.** Brilyantın karatı əsas deyil, baldız, sən işin gözəlliyinə bax!

**Ceyran.** Ona da baxıram, gəlin xanım, sağlığına qismət olsun!

**Dövran.** Xoşuna gəldimi, Ceyran bacım?

**Ceyran.** Haracan desən, qardaş! Allah sizi həmişə bir yerdə eləsin, qoşa qarıtsın sizi.

**Dövran** *(Bayrama).* Qardaş, niyə dinib-danışmırsan? Niyə ağzına su almısan?

**Bayram.** Qağa, nə danışacam? Baxıram, ürəyim dağa dönür. Vallah fəxr eləyirəm sizinlə! Sənin adın-sanın bizə də şərəf gətirir. Camaat biləndə ki, mən sənin qardaşınam, vurub öldürürlər özlərini mənimçün. Kölgən həmişə üstümüzdədi.

**Dövran.** Sağ ol, qardaşım, əskik olma.

**Zəhra.** Allah səndən razı olsun, Dövran qardaşım!

**Ceyran.** A qağa, soruşmasam, bu gecə yata bilməyəcəm.

**Dövran.** Nədi, az, yenə?

**Ceyran.** Deyir oynayıram-gülürəm, amma oynaş yaddan çıxmır.

**Dövran**. Eşitdin, Bayram, nənəmin sözüdü ey! *(Ceyranı qucaqlayır).* Ölürəm də bu danışanda.

**Ceyran.** Ə, söz soruşuram axı!

**Dövran.** Buyur, soruş!

**Ceyran.** Bayaq o vəsiyyətdən danışdın ey...

**Dövran.** Az, sən yenə şübhə eləyirsən?

**Ceyran.** Ə, ta nə şübhə, şübhə yeri qaldı?

**Dövran.** Bəs onda nə deyirsən?

**Ceyran.** Belə soruşmaq istəyirəm ki, biz... lap elə mən, o mənə ayırdığın pulu nə vaxt ala bilərəm?

**Dövran.** Bacı, vəsiyyətdə hər şey yerli-yataqlı yazılıb.

**Ceyran.** Qağa, vəsiyyəti qoy bir tərəfə, sən mənim sözümə düzünəqulu cavab ver. Bax, biz bu Pirimlə tutaq ki, İsmayıla təzə bir iş qurmaq istəyirik, amma mayamız azdı...

**Dövran.** Niyə İsmayıl ayrı iş qurmaq istəyir, bəyəm mən ölmüşəm? Bəlkə, bəyənmir bizi, özünə yaraşdırmır? Bəlkə, it dəyib bizə?

**Ceyran.** Bilmirəm, qardaş, deyir mən təmiz biznes eləmək istəyirəm, nə bilim, halal biznes.

**Zəhra.** Eşidirsən, Bayram müəllim?

**Bayram.** Zəhra, saxla də!

**Dövran.** Onun başı Türkiyədə xarab olub! Elman, bizdə təmiz biznes qurmaq olar? Bu mümkündü?

**Elman.** Dövran, bu müzakirə tələb eləyən məsələdir.

**Dövran.** Belə de!

**Ceyran.** Qoy sözümün canını deyim də, qardaş.

**Dövran.** Ta dedin də?

**Ceyran.** Məni qınayan! Dövran, bacın ölsün ayaqlarının altında, bizə vəsiyyət elədiyin pulu biz nə vaxt ala bilərik? Bax, beləcə, konkret!

**Dövran.** Əlbəttə, mən öləndən sonra. Bu öz-özünə məlum məsələdi.

**Ceyran.** Vay evin yıxılsın fələk!

**Dövran.** Nədi, az, indi sən mənim ölməyimi istəyirsən?

**Ceyran.** Ə, sus! Dilin nətəər gəlir elə deyirsən? Ölsün səni istəməyənlər!

**Pirim.** Ceyran xanım, sözünü açıq de, niyə uzadırsan?

**Ceyran.** Sən bir kiri, Pirim! *(Dövrana).* Qağa, bəlkə biz səndən qabaq öldük? Onda nə təhər olsun?

**Dövran.** Onda günahı özündə gör!

**Bayram.** Çalış ölmə!

**Ceyran.** Nə deyir, ə, mənim bu ağıllı qardaşlarım?

**Dövran.** Nədi, pis dedik?

**Ceyran.** Ə, ölmək-qalmaq bizim əlimizdədi?

*(Bayram qəhqəhə ilə gülür.)*

Ya mən oturum gözləyim ki... Dilim-ağzım qurusun! Ə, mən qarıyıb qocalandan sonra neynirəm sənin verdiyin milyonu?

**Röya.** Dəlidən doğru xəbər!

**Ceyran.** Kimdi, az, dəli?

**Röya.** Məsəl üçün dedim. Dəli niyə olursan, şeytana papış tikərsən.

**Ceyran.** Tikərəm də, lap geyindirərəm də!

**Dövran** *(Röyaya)* Bu məsələ haqqında sən nə düşünürsən, əzizim?

**Röya**. Mən bilən vəsiyyət haqqında heç kimə konkret söz demək lazım deyildi. Özü də bu qaydada, şou formatında!

**Dövran.** Sən buna şou deyirsən?

**Röya.** Bilmirəm, məsələnin mahiyyəti mənə çatmadı. Məqsədi başa düşmədim. Bir tərəfdən də bu informasiyanın pis fəsadları ola bilər.

**Dövran.** Qohumlarım məni öldürərlər deyirsən?

**Ceyran.** Allah mənə ölüm ver! Pirim, bunlar nə danışır? Ə, kimin əli qalxar sənə?

**Dövran.** Az, bəlkə, mən sizə pislik elədim? Bayram, sən nə deyirsən? Samir? Elman? Ovçu Pirim? Siz nə düşünürsünüz?

**Samir.** Dövran müəllim, Ceyran xanım korrekt danışmasa da sözündə çılpaq bir məntiq var. Əgər varislərdən biri tez ölsə? Onda necə olsun?

**Dövran.** Heç necə! Ölən özündən küssün, ölməsin.

**Pirim.** Buna deyərlər təmiz söhbət.

**Ceyran.** Bunun nəyi təmizdi, ə? Ölmək-qalmaq bizim özümüzdən asılıdı?

**Zəhra.** Təlaş eləməyə dəyməz, mənim bacı-qardaşlarım. Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə yubada bilər. Hər şey Cənabi Haqqın əlindədir, ona pənah aparın. Dövran qardaşımızı isə xoş məramlı əməlinə görə qınamalı deyilik, ona dua, alqış eləməliyik.

**Dövran.** Axır ki burada bir ağıllı söz deyən oldu! Sağ ol, Zəhra gülbacı. Yoxsa sən ölməsən, biz ölsək, biz ölməsək, sən ölsən... Mən bunlara milyonlar qoyuram, bunlar da mənim nə vaxt öləcəyimi hesablayırlar.

**Ceyran.** Ə, qardaş yox dayna, adam bir iş görəndə tapmaca qayırmaz ki?!

**Dövran.** Bu vaxtacan mən sizə vəsiyyətim haqqında deməmişdim, xəbəriniz də yoxdu, nə mən ölürdüm, nə siz. İndi nə oldu, axirətdən dəm vurursunuz?

**Bayram.** Deməsən ondan yaxşıydı, qardaş, biz ki səndən aldığımızdan artıq istəmirdik.

**Dövran.** Doğrudur, istəmirdiniz, amma deyinirdiniz, gileyləriniz çatırdı qulağıma. Əslində haqqınız da vardı, mən bu sərvəti tək qazanmırdım. Yüz milyondan çox pul tək mənim deyildi. Düzdü, hüquqi cəhətdən bütün paketlər mənimdi, amma hüquqdan başqa bir vicdan da var axı! Həm də niyə mən öləndən sonra biləsiniz mənim hökmümü? İstədim içinizdə bir arxayınlıq, özünüzə inam yaransın, işimizə daha çox can yandırasınız. Biləsiniz ki, işimizin yaxşı getməyi sizin də kapitalınızı artırır. Həm də pullu kişi ürəkli olur.

**Samir.** Əziz qohumlar, mən Dövran müəllimin bu hərəkətini bir mərdlik nümunəsi hesab edirəm. Həqiqətən onu alqışlamaq lazımdır.

*Samir əl çalır, qalan qohumlar da ona qoşulur. Bu vaxt dəhşətli bir partlayış səsi eşidilir, işıqlar sönür. Səhnə və zalda tam qaranlıqdır. Qadınlar qışqırır. "Bu nəydi?", "Nəsə partladı?", "Terror?!" və sair replikalar eşidilir.*

**Dövran.** Sakit! Mən bildim, qısaqapanmadır. Hanı mənim telefonum? Tapdım! Bu saat! (*Telefonun işığını yandırır, səhnə bir qədər işıqlanır*). Bu saat düzəldərəm!

**Ceyran.** Sən niyə, Dövran? Zəng elə usta gəlsin, tok vurar, dilim-ağzım qurusun!

**Elman.** Mən bu saat baxaram!

**Dövran.** Elman, dayan! Hamınız oturun! Lalın dilini anası bilər.

*Hamı telefonunun işığını yandırır. Səhnə bir az da işıqlanır. Dövran çıxır. Hamı nigaranlıqla o çıxan tərəfə baxır. Bir az keçir, işıqlar gur yanır.*

**Ceyran.** Səni verənə şükür! Əlində çətin iş ha yoxdu!

**Bayram.** Evdə də həmişə işıq işinə Dövran baxardı, lap uşaqlıqdan.

**Pirim.** Bəs özü harada qaldı? *(Çağırır).* Dövran müəllim! Ağaqayın!

**Röya**. Oturun, indi gələr! Samir, bir az çaxır tök, ürəyim sıxıldı.

**Samir.** Yəqin çox qorxdunuz? *(Şərab tökür).*

**Zəhra.** İşığın qədrin olmayanda bilir insan. Şükür sənə, ilahi!

**Ceyran.** Ə, harada qaldın, qardaş? Ə, bir baxın nooldu ona?

**Elman.** Bu saat mən baxaram. (*Tələsik Dövran çıxan tərəfə gedir, kulisdə görünməz olur*).

**Ceyran.** Deyirəm, Pirim, indi biz hamımız milyonçuyuq dayna?!

**Samir.** Nəzəri cəhətdən elədir, Ceyran xanım, məsələnin praktik tərəfinə gələndə isə...

**Elman** *(qışqırığı eşidilir)* Dövran! Dövran!! ( *Hamı səksənib səs gələn tərəfə baxır.*) Dövran!.. *(qışqırır).* Bayram, bura gəl!

*Bayram qaçaraq gedir.*

**Bayram** *(səsi gəlir).* Nə olub ona? Dövran! Qardaş!!

*Elmanla Bayram Dövranı qucaqlarında gətirib səhnənin ortasında yerə uzadırlar.*

**Pirim.** Bu nədi?

**Ceyran** *(qışqırır)* Qardaş!!!

**Röya.** Nə olub ona, Samir?

**Bayram** *(Dövranın hərəkətsiz bədənini silkələyir)* Dövran?! *(Elmana)* Nə olub ona, Elman, niyə tərpənmir?

**Pirim.** Heç nəfəs də almır.

**Röya.** Samir, təcili yardıma zəng elə! Tez!

**Ceyran.** Nooldu, sənə ay qardaş?.. (*Özünü Dövranın üstünə atır).*

**Röya.** Çəkin onu qırağa, havanın qabağın kəsməsin!

**Pirim** *(Ceyranı qırağa çəkməyə çalışır).* Az, qaraçılıq eləmə!

**Ceyran.** Ə, qardaşım ölüb ey!

**Zəhra** *(pıçıldayır).* Bismillahir-rəhmanir-rəhim...! Əlhəmdullahi rəbbül aləmin...

**Ceyran.** Ay qardaş eyyy...

**Pirim.** Az, qışqırıb diksindirmə!

*Samir telefonla danışır.*
*Hiss olunur ki, "Təcili yardım"la danışır.*

**Elman.** Tok vurub, naqildən güclə araladım! Nəfəs almır, keçinib.

**Ceyran.** Ə, ölüb qardaşım? Vay evi yıxılan canım vay! *(Əllərini dizlərinə şappıldadır).*

*Hamı Dövranın üstünə əyilir, elə bil nəsə bir möcüzə gözləyirlər. Telefon zənginin səsi eşidilir. Hamı təəccüblə bir-birinə baxır. Zəng səsi bir az da bərkiyir, lap əsəbləri cırmaqlayır.*

**Röya** *(acıqla).* Kimin telefonudur, kəssin səsini!

*Hamı bir-birinə baxsa da telefon zəngi kəsilmir, daha da güclənir.*

**Elman.** Bu onun telefonudu! *(Dövranın üst-başını əlləşdirir və telefonun onun bərk-bərk yumulmuş ovcunda olduğunu görür).* Ovcunda tutub. *(Telefonu qıc olub yumulmuş barmaqları arasından çıxarmağa çalışır).*

*Telefon aramsız zəng çalır.*

**Röya.** Nə oldu, Elman?

**Elman.** Bu saat! Əli qıc olub yumulub (*barmaqlarını aralayıb telefonu çıxardır).*

**Röya.** Bağla o telefonu, ona ta heç kimin zəngi lazım olmayacaq!

**Ceyran.** Telefonu yiyəsiz qalan qardaşım vay!

**Bayram.** Ceyran, bir dayan görək! Çaşdırma bizi!

*Hamı hələ də hərəkətsiz qalmış Dövranın üstünə əyilib nəsə gözləyir.*

*İşıqlar sönür.*

# İKİNCİ PƏRDƏ

*Həmin məkandır. Evin bəzəyində matəm əlamətləri görünür. Röya Timurun müşayiəti ilə gəlir. Çox eleqant və zəngin matəm libasındadır: əynində uzun qara don, çiynində qara xəzdən yarım manto, başında kənarları enli qara şlyapa var. Şlyapanın tor niqabı sifətinin yarısını gizlədir. Timurun da geyimində matəm əlamətləri var. Diqqəti daim Röyanın üst-başındadır.*

**Röya**. Elə bil yuxudayam, bütün bu baş verənlər bir tamaşadır, mən də lojada oturub səhnəyə baxan tamaşaçı.

**Timur.** Mən başqa cür deyərdim, Röya xanım, siz tamaşaçı yox, əsas qadın rolunun ifaçısısınız. Sizin bütün görkəminizdə bir kübarlıq, bir aristokratizm var. Mən bütün mərasim vaxtı gözümü sizdən çəkə bilmirdim. Dərd, faciə çox qadını eybəcərləşdirir, hətta gülünc hala salır, lap elə, xətrinizə dəyməsin, baldızınızı komik vəziyyətə salan kimi. Sizi isə qəm-kədər daha da nəcibləşdirib.

**Röya.** Hələ dünən elə bu vaxtı burada mən sizinlə söhbət eləyəndə ərli qadındım. İndi isə mən dul qadınam, qara geyinmiş dul qadın. Necə zəhləm gedir dul qadın sözündən!

**Timur.** Olacağa çarə yoxdur, Röya xanım. Kim deyərdi ki, Dövran bəy kimi möhtəşəm bir kişi belə primitiv ölümlə kayb edəcəkdi həyatını? Axı o adi adam deyildi, bu Dövran Əminbəyli idi. Onun nə işi vardı işıqla, tokla, nə bilim sayğacla?

**Röya.** Bu da onun qəribəliklərindən biri idi, Timur bəy. Evdə adi kişi işlərini görməyi sevirdi. Elektrikə xüsusi həvəsi vardı. Nəyisə düzəldəndə uşaq kimi sevinirdi.

**Timur.** Dəfn mərasimi necə təntənəli keçdi?! Çox təsirləndim, hətta gözlərim yaşardı. Bəs sizin tragik pozanız?! Sanki Antiqona atasının məzarı üstündəydi. Mass-media şokdaydı! Bütün diqqət sizin üstünüzdə idi. İndi bütün saytlar sizin fotosessiyanızı verəcəklər. Manşetləri təsəvvür edəndə həyəcanlanıram: "Milyonçu dul qadın!", "Eleqant geyimli dul qadın", "Dərd libası"... Hələ mənim də adımı çəkəcəklər.

**Röya.** Elədir, Timur bəy! İnternet-media xalqın dərdindən də şou düzəldir. Şlyapamı götürün başımdan, darıxdım. Mən onu çıxarda bilmirəm.

**Timur.** Hayıf mərasim tez bitdi, sizə çox yaraşır bu libas. Bu əsl matəm performansı idi.

**Röya.** Ah, Timur bəy, siz nə hayda, mən nə hayda? Məni bu saat daha ciddi şeylər düşündürür.

**Timur.** Mən sizi çox gözəl başa düşürəm, dərdinizi bölüşürəm.

**Röya.** Mən Dövransız necə yaşayacağam?

**Timur.** Cəsarət eləyirəm... siz ki onu sevmirdiniz, hətta...

**Röya.** Elədir, sevmirdim, hətta nifrət eləyirdim, amma o öləndən sonra, xüsusilə bu gün səhər oyanıb onu dəfn üçün tam hazır vəziyyətdə tabutda görəndə ilk dəfə özümü tənha, yalqız, kimsəsiz hiss elədim, adamlardan qorxmağa, ehtiyat eləməyə başladım. Hələ dünən, o müdhiş hadisə baş verəndən bircə saat sonra hiss elədim ki, mənimlə sayğı ilə, ehtiramla dolanan, hətta yaltaqlanan insanlar tamam dəyişib. Birinci elə o baldızım Ceyran, həmişə Dövrana xoş getsin deyə kəççi-

kəççi danışan aferistka üzümə deyir ki, niyə ağlamırsan, Röya xanım, ölən ər sənin deyil?

**Timur.** Bəs Samir bəy nə deyir?

**Röya.** Samirin bura nə dəxli var?

**Timur.** Röya xanım, mən çox həssasam, kişinin bircə baxışı mənə bəs eləyir.

**Röya.** Yeganə adamsan ki, Timur bəy, səninlə özüm oluram.

**Timur.** Təşəkkür edirəm etimadınıza görə.

**Röya.** Mən çoxdandı heç kimə sonsuz ümidlər bağlamıram, Timur bəy. Rəhmətlik Dövran demiş, insanlarla "alıram-verirəm prinsipi" ilə dolanıram, bu vaxt çox uzağa gedən illüziyalar da qurmuram.

**Timur.** Mən sizə heyranam, Röya xanım, icazə verin əlinizdən öpüm *(əlindən öpür).*

**Samir** *(gəlir, yaxasında Dövranın matəm şəkli var).* Röya xanım?!

**Timur.** İcazənizlə mən gedim, Röya xanım. Mərhumun üç mərasiminə eksklüziv bir ideyam var, sabah istədiyiniz vaxt gələrəm müzakirə edərik.

**Röya.** Təşəkkür edirəm, Timur bəy!

*Timur gedir.*

**Samir.** Az qalıram səni buna qısqanam!

**Röya.** Daha ağıllı bir şey deyə bilməzdin?

**Samir** *(Röyaya lap yaxın dayanır).* Matəm paltarında daha seksual görünürsən *(öpmək istəyir).*

**Röya** *(əli ilə onu məsafədə saxlayır).* Onun ruhu hələ buradadı.

**Samir.** Bu da təzə çıxdı? Onun cismi də, ruhu da burada, bu otaqda olanda biz sənin otağında olmazın oyunundan

çıxırdıq, indi bir virtual ruha görə... (*Sözünü bitirməyib yenə də öpməyə təşəbbüs edir).*

**Röya** (*yenə də əli ilə onu saxlayır).* O sağ olanda ona münasibətim başqa idi. Öləndən sonra isə çox şey dəyişib.

**Samir.** Həqiqətən, qadını adi məntiqlə başa düşmək çətindir.

**Röya.** Həm də məntiqdən piyada olan adam üçün.

**Samir.** Sən məni incitmək istəyirsənsə, alınmayacaq.

**Röya.** Niyə alınmır?

**Samir.** Çünki səni çox sevirəm.

**Röya.** Çoxdandı bu sözü səndən eşitmirdim.

**Samir.** Bu barədə danışmağa vaxtımız çox olacaq, gəl keçək təxirəsalınmaz əsas məsələyə.

**Röya.** O nə məsələdir ki, təxirə salmaq olmaz?

**Samir.** Milyonların məsələsi! Haradadı onun vəsiyyəti? Biri notariusdadı, bildik, biri də buradadı, onun şəxsi seyfində, açarı da dedi ki, səndədi.

**Röya.** Məndə olmasa da, yerini bilirəm.

**Samir.** Çox gözəl! Sən bilən biz o milyonları bu qohumların arasında bölməliyik?

**Röya.** Biz bölmürük, bölən pulun və vəsiyyətin sahibidir. Biz sadəcə payımıza düşəni alacağıq. Bir də bu barədə danışmaq hələ tezdir. Bədbəxti torpağa indi tapşırmışıq. Özün də böyür-başımda çox fırlanma, hamı gözdə-qulaqdadı.

**Samir.** Ta bundan sonra kimdən qorxacağıq? Qoy kim nə istəyir düşünsün. Sən mənimlə açıq danış, neynəmək fikrindəsən?

**Röya.** Mənim heç bir fikrim yoxdur, fikir Dövranındır. Kriminal işlərə də həvəsim yoxdur. Kimə nə düşürsə, onu da alacaq, özü də çox tez.

**Samir.** Niyə belə tələsirsən?

**Röya.** İstəyirəm üzüm bunlardan qurtarsın, əsası o Ceyrandan. Özü də günü bu gün! Bax elə indi.

**Samir.** Röya, sən dəli olmusan! Axı, biz o pulların hamısına sahib ola bilərik.

**Röya.** Necə? Sən bunu necə təsəvvür eləyirsən?

**Samir.** Sən Dövranın neçə illik kəbinli arvadısan! Qanuna görə onun bütün varidatının sahibi, əslində sənsən!

**Röya.** Bəs vəsiyyət? Hamının da ondan xəbəri var. Əsli də notariusdadır.

**Samir.** Mən o vəsiyyəti məhv eləyə bilərəm. Mən bunu bacararam!

**Röya.** Bəs sonra?

**Samir.** Pullar hamısı olar sənin. Mən ümumi məbləği də bilirəm.

**Röya.** Haradan? Sən vəsiyyətnaməni görmüsən?

**Samir.** Yox, görməmişəm, amma rəhmətlik məbləğin yüz altmış milyon olduğunu ağzından qaçırtmışdı.

**Röya.** Yaxşı, pullar hamısı oldu mənim, bəs bundan sən nə udursan?

**Samir** *(təəccüblə)* Necə yəni nə uduram? Biz ikimiz bir adam deyilik, biz evlənməyəcəyik?

**Röya.** Evlənmək? Bu haradan gəldi ağlına?

**Samir.** Necə haradan? Bu həmişə bizim ümumi istəyimiz olmayıb?

**Röya.** Heç vaxt!

**Samir.** Heç vaxt nədi, Röya? Sən məni sevmirsən? Mənimlə evlənmək istəmirsən?

**Röya.** Mən hələ Dövranın sağlığında qorxurdum səndən, indi, o öləndən sonra isə... Mən heç vaxt sənə etibar eləməmişəm.

**Samir.** Deməli, sən bu vaxta qədər məndən istifadə eləmisən? Canıma sıvaşıb qulağıma pıçıldadığın sözlər yalanmış?

**Röya.** Niyə yalan? Mən hiss elədiklərimi demişəm, vəssalam!

**Samir.** Mən səni tanımamışam!

**Röya.** Bu artıq sənin problemindir.

**Ceyran** *(səsi gəlir).* Ay qardaş, ay qardaş... Belimi qıran qardaş... Sinəmə dağ çəkən qardaş...

**Samir.** Sən o pulları bu idiotlara verəcəksən?

**Röya.** O idiot dediyin adamlar Dövranın çox sevdiyi qohumlarıdı.

*Qabaqda Ceyran Pirimlə, dallarınca Bayram və Zəhra gəlir. Ceyranın ağlamaqdan gözləri şişib. Pirimin nə hiss etdiyi bilinmir. Bayram da sakitdir. Zəhranın dodaqları daima nəsə pıçıldayır.*

**Ceyran.** Hanı, az o filippinka dediyiniz Dulsineyadı-nədi? Ağlamaqdan dilim para-para olub, bir istikan çay gətirsin?

*Delisay sinidə adamların sayı qədər çay gətirir və bir-bir yaxınlaşıb hamıya çay təklif edir, səssiz-səmirsiz.*

**Pirim** *(qızı Ceyrana tərəf yönəldir.)* O xanıma ver, susuyan odu.

*Röya Samirdən aralanıb bir qıraqda dayanır.*

**Ceyran** *(bir stəkan çay götürür).* Sağ ol, ay... adı nədi, az, bunun, Röya?

**Röya.** Bayaq özün dedin ki!

**Pirim.** Az, camaat nə hayda, sən nə hayda? Nə fərqi var nədi adı?

**Ceyran.** Birin də mən tapacam bunlardan. Hayıf deyil danışmayan qulluqçu? Gülyanın işi-gücü qohum-əqrəbasının dərdini-sərini üstümüzə tökməkdi. Bunu xəstəxanaya düzəlt, buna invalid kağızı al, o birini yataqxanaya qoy... Öz dərdimiz çıxıb yadımızdan, ay qardaş, ay qardaş... Can qardaş, can qardaş... *(Cikkə çəkir)* Mən bacın ölsün ey... *(çox ayıq, toxtaq səslə).* Bayram, qardaşımın ürəyinə dammışdı gedəcəyi, əyan olmuşdu ona. Ay qardaş, ay qardaş... Bizi nigaran qoyub gedən qardaş, bizi mağmun eləyib yetim qoyan qardaş...

**Bayram.** Bəsdi təzədən başlayıb bizi də ağlatma...

**Ceyran.** Ə, mən nə təhər ağlamayım, o cür qardaş itirmişəm? Mən nə təhər ağı deməyim, Dövranı basdırıb gəlirəm mən ölmüş? Axı o ölməli qardaş deyildi... Ə, yox ey! Sapsağlam, pəhlivan kimi kişi durduğu yerdə yerlə bir oldu ey... Yanıram, yanıram, tüstüm çıxmır... *(hönkürür).*

**Bayram** *(dəsmalını gözlərinə sıxır).* Gözəl qardaş, ağayana qardaş, mərd qardaş...

**Pirim.** Biz də yapışmışıq ki, bəlkə biz səndən qabaq öldük, bəs onda vəsiyyət elədiyin pulun taleyi necə olacaq?

**Ceyran.** Dilim tutulaydı o sözü dediyim yerdə! *(Üzünü cırır).* Belə nitqim quruyaydı mənim!

**Bayram.** Necə hörməti varmış Dövranın! Kimlər gəlməmişdi onu götürməyə?!

**Ceyran.** Mən də onu deyəcəkdim, Bayram! Ə, o özündən deyən ministir də gəlmişdi ey!

**Bayram.** Bəs deputatları demirsən? Elə bil Milli Məclisin iclasıydı.

**Pirim.** İyirmi doqquzu gəlmişdi, dördü də qadın, bizim böyük gədə sayıb, hələ adlarını da yazıb.

**Samir.** Hələ bircə gün gözləsəydik adam əlindən tərpənmək olmazdı. Çox adamın xəbəri yoxdu. Zəng zəng üstdən gəlirdi.

**Ceyran.** Kaş özü sağ olub görəydi!

**Pirim.** Axmaq söz danışma, az! Özü sağ olsaydı, camaatın burada nə işi vardı?

**Ceyran.** Nə bilim, danışıram də! Özümdə-sözümdə deyiləm ki! Can, ay qardaş, can, ay qardaş...

**Bayram.** Xəstə ola, maşın qəzası ola?! Yoxsa... Boynum qırılsın, niyə tutub saxlamadım onu?!

**Pirim.** Qoruya bilmədik ağaqayını!

**Zəhra.** Heç kimdə günah yoxdu, bu əcəldi, Rəbbimizin hökmüdü. Bu dünyaya heç kim öz istəyi ilə gəlmir ki, öz istəyi ilə də gedə. Nə olursa, Allahdandır, onun istəyinə qarşı çıxmaq nadanlıqdır, asilikdir.

**Ceyran.** İndi biz qardaşımızı ağlamayaq, Zəhra xanım? Sənə gülbacı deyən qardaşımızın ölümünə şükür eləyək?

**Zəhra**. Əstəğfürullah! Ölənə ağlamaq lazımdı, biz imamlarımıza da ağlayırıq, amma Rəbbimizə asi düşməmək şərtilə, inşallah!

*Ceyran sızıldaya-sızıldaya çay içir. Elman gəlir və bir qıraqdan oturur.*

**Röya.** Dövranı hamımız istəyirdik, qardaş kimi, ər kimi, gəlin kimi, yeznə kimi, dost kimi, o, hamımızın dayağı idi. Amma olacağa çarə yoxdu. Biz onu abırla, ona layiq dəbdəbə ilə dəfn elədik.

**Zəhra.** Elədi, Röya bacım, biz onu haqqın dərgahına hörmətlə yola saldıq! Yeri behişt olsun!

**Röya.** Çox qəribə təsadüfdür, hətta göstərmə işdir. O, öz iradəsini bizə açıb elan eləyəndən bir saat keçməmiş bu qəribə

hadisə baş verdi, Dövran kimi qüdrətli kişi belə primitiv ölümlə bitirdi həyatını.

**Ceyran.** Pirmitiv niyə, az? Kişi durduğu yerdə sərələnmədi bəridən o yana?

**Zəhra.** Bu dünyada heç nə təsadüfi olmur, Röya bacım. Dövran qardaşımız Rəbbimizin istəyi ilə hərəkət elədi. Qəzavüqədərə qarşı çıxmaq bizim işimiz deyil, yazısı beləymiş.

**Ceyran.** Qələmi qırılaydı yazını yazanın!

**Zəhra.** Asi düşmək böyük günahdı, Ceyran bacım.

**Ceyran.** Sən də az qorxut bizi bu günahlarla!

**Zəhra.** Əstəğfürullah! Mən nəkarəyəm sizi qorxudam? Sadəcə xəbərdarlıq eləyirəm.

**Ceyran.** Can, ay qardaş, mən bacın ölsün! Bizi adam eləyib gedən qardaş! Bizi milyonçu eləyib ölən qardaş!

**Röya.** Mən də söhbəti elə ora gətirirəm. Mən Dövranın dul qalmış arvadı kimi təşəbbüsü əlimə alıb istəyirəm onun vəsiyyəti ilə sizi tanış eləyim. Nəhayət hamı bilsin ki, Dövran kimə nə qədər pay ayırıb.

*Ceyranın əli ağzında qalır, hətta ağzı ayırıq vəziyyətdə donur. Məclisə dərin sükut çökür, hamının əhvalı dəyişir.*

**Elman**. Röya xanım, bəlkə gözləyək, qırxı çıxsın sonra?

*Hamı narazılıqla Elmana baxır.*

**Röya.** Yox, Elman müəllim, mən qəti qərara gəlmişəm. Mən bu yükü qırx gün çiynimdə daşıya bilmərəm. Həm də Dövranın başına gələndən ibrət götürməliyik. O, qətiyyən ölüm haqqında düşünmürdü.

**Zəhra.** Bəli, ölüm gözlə qaş arasındadır.

**Ceyran** (*pıçıldayır*). Pirim, ürəyim alqasıdı, validolun yoxdu cibində?

**Pirim.** Qalmayıb, axırıncını özüm atdım.

**Ceyran.** Nə yaxşı tez tərpənmisən?! (*Çayından bir qurtum alır).*

**Röya** (*əl sumkasından ağzı bağlı iri konvert çıxarır)* Hamınız oturun! Samir, sən də otur, var-gəl eləmə! Elman müəllim, siz yaxına gəlin.

**Ceyran** *(Pirimə pıçıldayır).* Bu neçə ildə mən bu gəlini tanıya bilmədim dayna!

**Pirim.** Nə mənada?

**Ceyran.** Nə mənada? Elə o mənada! Bilmədim ağıllıdı ya sarsaq?!

**Pirim.** Guya Dövran tanıdı? Nər oğlanları barmağında fırladan kişi bu arvadın qabağında məzlum bir maymağa çevrilirdi.

**Ceyran**. Ağzını təmiz saxla, ə!

**Röya.** Elman müəllim, bu konverti burada, hamının yanında açın *(konverti Elmana verir)*. Əziz varislər, bura baxın, konvert sizin gözünüzün qabağında açılır.

**Elman** *(Röyaya)* Etimadınıza görə təşəkkür edirəm, Röya xanım!

*Hamının gözü Elmanın əlindəki konvertdədir. Elman konverti işığa tutub baxır və onu lazım olan yerdən ehtiyatla açır. İki qatlanmış kağızı çıxarır. Onun əllərinin əsdiyi aydınca görünür.*

**Elman.** Oxuyummu?

**Bayram.** Artıq sözə ehtiyac yoxdu. Oxu!

**Ceyran.** Pirim, halım yaxşı deyil.

**Pirim.** Az, indi kimin halı yaxşıdı ki?!

**Ceyran.** Ə, ölürəm ey!

**Pirim.** Ölmək vaxtı deyil, Ceyran, tələsmə!

*Elman gözucu Röyaya baxır, hiss olunur ki, ondan işarə gözləyir.*

**Röya.** Oxuyun, Elman müəllim!

**Zəhra.** Bismillahir-rəhmanir-rəhim...! *(Dodaqları səssizcə tərpəşir).*

**Ceyran** *(oturduğu yerdə sağa-sola yellənir və pıçıldayır)* Ay qardaş, ay qardaş...

**Elman.** Vəsiyyətnaməni oxumamışdan qabaq mərhum Dövran müəllimin bir istəyini yadınıza salmaq istəyirəm.

**Pirim.** Bayram, bu adama de ki, hər şey yadımızdadır.

**Elman.** Dövran müəllim bu vəsiyyət haqqında bizə məlumat verəndə demişdi ki, kimə nə qədər pay verildiyini müzakirə etməyin, nə məni, nə başqa bir kimsəni günahlandırmayın. Qismətinizə qane olun.

**Bayram.** Sonra?

**Elman.** Ta nə sonra?! Bundan sonra Dövrandan heç vaxt təzə bir təlimat, göstəriş olmayacaq. *(Kövrəlir, dəsmalını yaşarmış gözünə sıxır).*

**Ceyran.** Biz yalan olduq, bu gerçək.

**Röya.** Elman müəllim, buyurun, oxuyun vəsiyyətnaməni.

**Elman** *(oxuyur)* Mən Dövran Durmuş oğlu Əminbəyli...

**Samir.** Bəlkə bu hissəyə ehtiyac yoxdu.

**Bayram.** Mən də elə düşünürəm, qərar hissəsini oxu, Elman müəllim! Görək kimə nə düşür?

*Elman Röyaya baxır, Röya başını yüngülcə tərpətməklə razılığını bildirir.*

**Elman.** Dostum Elmana on... *(Nəfəsi qırılır, dili topuq vurur)* on... *(udqunur, amma səsi çıxmır).*

**Bayram.** Hə, nə oldu, Elman?

**Zəhra.** Ona su verin!

*Samir cəld tərpənib çay stəkanını ona uzadır.*
*Elman titrəyən əli ilə stəkanı alıb bir qurtum içir.*

**Elman.** Təşəkkür edirəm!

**Bayram.** Davam elə, ağsaqqal!

**Elman** *(davam eləyir).* On... on... on milyon ... *(ayaq üstdə dayana bilməyib stula düşür).*

**Ceyran** *(az qala qışqırır)* Kimə? Kimə verir, ə, on milyonu?

**Pirim.** Elmanın özünə.

**Ceyran.** Buy, atamın evi yıxılsın!

**Röya.** Ceyran, artıq replikaları saxla!

**Ceyran** *(Röyaya fikir vermir)* On milyon nə? Dollar?

**Elman** *(üzündən axan təri pencəyinin qolu ilə silir).* Manat! Dövran müəllim mənə on milyon manat vəsiyyət edib. Cənablar, mən heç onun qohumu deyiləm, amma... Bu... bu fantastikadır! *(Ağlayır).*

**Pirim.** Elman, bu olmadı ki?! Bizi öldürmək istəyirsən? Ver bura görüm o kağızı! *(Kağızı almaq istəyir).*

**Röya** *(hiddətlə)* Pirim! Vəsiyyətnaməyə toxunma!

**Ceyran.** Niyə, az? Pirim özgə adamdı? Ya camaata nömrə gələcək?

**Röya.** Elman, özünü ələ al! Bu pula layiq bilməsəydi, Dövran onu sənə verməzdi. Özünü ələ al!

**Elman.** Üzr istəyirəm, hamınızdan üzr istəyirəm... Mən inanmazdım... zəiflik göstərdim.

**Zəhra.** Bir bismillah de, Elman qardaşım.

**Elman.** Bissimillah! *(Oxuyur).* Əmoğlum Samirə beş milyon və beşmərtəbədəki mənzilim çatacaq.

**Samir** *(sifəti qaralır, amma özünü o yerə qoymur).* Belə! Necədi, Röya xanım?

**Röya.** Cənablar, Dövranın istəyini bayaq Elman müəllim təkrar elədi. Lütfən mərhuma hörmət edin, necə ki, o, bizim hamımızı hörmətli edib.

**Elman.** Bacım Ceyranın...

**Ceyran.** Can, qardaş, bacım Ceyran deyən dilinə bax bu canım qurban!

**Elman.** Bacım Ceyranın...

**Ceyran.** Belə öləydi bacın Ceyran, görməyəydi sənin bu gününü!

**Pirim.** Az, di bəsdi, qoy görək kişi nə deyib?!

**Ceyran.** Nədi, ə, niyə qışqırırsan, Pirim?

**Pirim.** Az, bu qədər ölüm deyincə, elə bir dəfəlik öl qurtaraq də!

**Ceyran.** Mən niyə ölürəm, ə?! Qoy məni istəməyənlər ölsün!

**Pirim.** Elman, davam elə!

**Elman.** Bacım Ceyranın...

**Ceyran.** Can, qardaş, bacın...

*Pirim tez tərpənib Ceyranın ağzını əli ilə qapayır.*

**Pirim.** Tez elə, Elman, tutmuşam!

**Elman.** Bacım Ceyranın əri, yeznəm Pirimə on milyon manat!

**Pirim** *(Ceyranı buraxır).* Sağ ol, ağaqayın, Allah sənə rəhmət eləsin! Min bərəkət!

**Ceyran.** Bərəkət nədi, ə?! Sən buna bərəkət deyirsən?

**Pirim.** Ceyran, özünü ələ al, naşükürlük eləmə!

**Ceyran.** Yox ey, bu nə təhər olur, Elmana, yad oğluna da on milyon, bacısı Ceyranın təkcə ərinə də on milyon? O bunu yazanda nə fikir eləyib, az, Röya?

**Röya.** Mən Dövranın istəyini şərh eləməli deyiləm.

**Elman.** Bu suallara biz cavab verə bilmərik, Ceyran xanım.

**Ceyran.** Neynək, sonrasına qulaq asaq, görək qardaşım ta nə buyurub?!

*Telefon zəngi eşidilir.*
*Röya sumkasından telefonunu çıxardır.*

**Röya.** Bəli! Bəli, mənəm! Yox, adi ölümdür... Belə sarsaq suallarla məni narahat eləməyin! Tamam! *(Telefonu stolun üstünə atır).* Yerin də qulağı var. Biz hələ vəsiyyətnamə ilə axıra qədər tanış olmamışıq, bunlar artıq bilirlər. Kimə nə düşdüyünü öyrənmək istəyirlər.

**Bayram.** Kimlərdi maraqlanan?

**Röya.** Nə bilim, pressa! Jurnalistlər!

**Pirim.** Neynəsinlər, onların da çörəyi belə şeylərdən çıxır!

**Ceyran.** Ə, di qurtarın!

**Elman.** Davam eləyirəm. Əziz qardaşım Bayramın arvadı Zəhra gülbacıya on milyon manat və əlavə olaraq xeyriyyə işləri üçün daha beş milyon manat ayrılsın.

*Adamlar arasında həyəcanlanma.*
*Hamı bir-birinə baxır.*

**Zəhra.** Allah, Dövran qardaşım, səndən o dünyada da razı olsun! Yerin behişt olsun! Mən neçə ildir uşaqlara dini biliklər verən bir bağça açmaq istəyirdim, Allah eşitdi səsimi, çatdırdı bizi arzumuza! Şükür sənə, İlahi, şükür sənin rəhminə! Dövran qardaşımızın ruhuna bir salavat çevirək: Allahun məsəlli əla Muhamməd və ali Muhamməd!

**Ceyran.** Vallah, mənim ürəyim partlayacaq!

**Röya.** Elman müəllim!

**Elman.** Bacım Ceyrana on iki milyon manat!

**Ceyran.** Neçə dedi, Pirim?

**Pirim.** Elman, bir də oxu, ucadan, Ceyran eşitmədi.

**Elman.** Bacım Ceyrana on iki milyon...

**Ceyran.** Ə, onu eşitdim dayna!

**Pirim.** Allah bərəkət versin!

**Ceyran.** Ə, sən soxma bu bərəkəti ortaya?! Yad qızı Zəhraya on beş milyon, doğma bacıya on iki milyon? O nə ağıl eləyib bunu yazanda?

**Pirim.** Dedilər axı, sual verməyin, bir halda ki, qərarı verən həyatda yoxdu, vəfat eləyib.

**Ceyran.** Ay nainsaf qardaş... *(Ağlayır)* Mən sənə belə bacı olmuşdum? Səndən ötəri özünü vurub öldürən bacına qoyduğun qiymət budu? On ikicə milyon? Təkcə bacına, gündə yüz yol qadanı alan bacına... On ikicə milyon? *(Ayıq səslə)* Pirim, dollardı?

**Pirim.** Yox, manatdı!

**Ceyran.** Neynim, neynim? Kimə nə deyə bilərəm, səsim hara çatır ki?!

**Bayram.** Ceyran bəsdi, sən tək deyilsən! İkinizə iyirmi iki milyon kapital düşür. Yaşayın də! Təzə işə başlayın, artırın pulları.

**Ceyran.** Sən də tək dəyilsən, Bayram qardaş! Arvadın təkcə canına on beş milyon aldı.

**Bayram.** Mən qardaşın da olsam sənin dilini bilmədim. Bir Dövran bilirdi sənin dilini, o da ta yoxdu, Allah aldı əlimizdən *(Kövrəlir).* Elman, çürüdürsən ey! Oxu qurtar də bu zəhrimarı!

**Elman.** Qardaşım Bayrama on beş milyon manat...

**Ceyran.** Gördün?

**Elman.** Əlavə olaraq Bayrama beş milyon da verilsin. Bu əlavənin nəyə lazım olduğunu Bayram özü bilir. Mötərizədə yazılıb: mən sənə inanıram, qardaşım.

**Pirim.** Maraqlı tapmacadı. Açması?

**Samir.** Açması Bayram müəllimdə!

*Delisay çayları təzələyir, amma getmir,*
*bir qıraqdan dayanıb məclisi izləyir.*

**Röya.** Bayram, o nə beş milyondur, onun ünvanı haradır?

**Bayram.** Lazım bilsəydi, qardaşım vəsiyyətnamədə qeyd edərdi, Röya xanım.

**Samir.** Siz ki, bilirsiniz. Bizim də vərəsəlik hüququmuz var. Məbləğ də az deyil, beş milyondur, elə mənə ayrılan qədər. Deməli, maraqlanmağa bizim haqqımız var.

**Pirim.** Mən də bunu bilmək istərdim.

**Ceyran.** Sənin olmayandan sonra nə fərqi var kimindi, ə, o pul?!

**Elman.** Dövranın tövsiyəsini üçüncü dəfə yadınıza salıram, cənablar.

**Röya.** Bayram, mən də bilmək istərdim o beş milyon kimə ayrılıb? Niyə Dövran belə üstüörtülü qərar verib? Bəlkə bizim xəbərimiz yoxdu, Dövranın başqa bir ailəsi də olub? Bəlkə qeyri-qanuni doğulmuş övladı da var onun?

**Samir.** Bunu bilməsək, biz bu vəsiyyətnamənin üzərinə veto qoya bilərik.

**Pirim.** Biz o beş milyonu öz aramızda bölə bilərik.

**Samir.** Məsələni səsə qoya bilərik.

**Bayram.** Mən qardaşımın vəsiyyətini o deyən qaydada yerinə yetirməliyəm! Ona görə də susmağa məcburam.

**Samir.** Əgər bu məsələdə şəffaflıq olmasa, biz nədən bilək ki, siz Dövran müəllimin istəyini yerinə yetirmisiniz? Axı sizə nəzarət eləyə biləcək Dövran sağ deyil.

**Pirim.** Ay qardaşlar, biz sivil bir ailənin üzvləriyik, deməli, hər şey demokratik və şəffaf olmalıdır. Burada söhbət

milyonlardan gedir. Bu milyonların qazanılmasında bizim hamımızın zəhməti var. Gecə-gündüz bilməmişik, işləmişik.

**Ceyran.** Vallah, mən onu bilməsəm, nöyütü üstümə töküb özümü bax burada yandırram.

**Bayram.** Az, indi nöyüt var, Ceyran, benzin tök də!

**Pirim.** Sən zarafat elə!

**Ceyran.** Ə, yox ey, mənim kimi bacıya on ikicə milyon ayırsın, kiminsə *(Zəhraya işarə edir)* xeyriyyəsinə beş milyon? Hələ azmış, buradan da adı-famili bilinməyən kiməsə beş milyon? Camaat çörəyi qulağına yeyir? Dolayıb bizi Dövran? Mənim gözümün yaşı qurumur ey dünəndən.

**Röya.** Məbləği biləndən sonra quruyub.

**Ceyran.** Nədi, az, Röya xanım, bəlkə səni yaş aparır biz görmürük? Ay camaat, o cür kişini basdırıb gələsən gözündən bir damcı yaş çıxmaya? Vallah, Dövran gözümüzün qabağında ölməsəydi, mən elə bilərdim onu sən öldürmüsən?

**Röya.** Əgər adam axmaqdırsa, heç vaxt ondan ağıl gözləmə!

**Bayram.** Ceyran, bəsdi, axmaq-axmaq danışdın! Pirim, sən də arvadına yiyəlik elə!

**Ceyran.** Bayram, ə, indi sən mənim tək qardaşımsan ey! *(Ağlayır).*

**Pirim.** Ceyran, ağ eləmə! Kiri görək axırı nə olur!

**Samir.** Bayram müəllim, söz sizindir.

**Bayram.** Mən qardaşıma söz vermişəm ki, bu məbləğin ünvanını heç kim bilməyəcək. O da mənə arxayın oldu. Yazdıqlarını da eşitdiniz: "Bayram, mən sənə inanıram".

**Samir.** Deməli, sizin vəsiyyətnamədəki məbləğlərdən xəbəriniz vardı?

**Bayram.** Qətiyyən! Bir onu bilirdim ki, mənə əlavə məbləğ ayrılacaq, nə məqsədlə, o sirdir.

**Delisay.** Mən o sirri aça bilərəm!

*Hamı çönüb təəccüblə, heyrətlə qıza baxır.*

**Delisay.** Təəccüblənməyin, cənablar, mən sizin dilinizi çox yaxşı bilirəm.

**Pirim.** Bəs dedilər bu ümumiyyətlə danışmır, laldı?

**Bayram.** Delisay xanım, susun, sizdən heç kəs heç nə soruşmur.

**Zəhra.** Bayram müəllim, sən onun adını da bilirsən?

**Bayram.** Bilirəm, Zəhra xanım.

**Röya.** Mən heç nə başa düşmürəm! Dövranın bu qadına nə dəxli, hələ pulları demirəm?

**Samir.** Deyəsən mən anlayıram, necə deyərlər, şerşe lya fam!

**Ceyran.** Atama lənət mən bir şey qanıramsa!

**Delisay.** Mister Bayram, Dövranın ölümündən sonra bunu gizlətməyin mənası yoxdu. Centlmenlər, beş milyon manat mənə vəsiyyət olunub. Dövran bunu mənə çoxdan demişdi.

**Röya.** Dövran? Sən ona Dövran deyirsən?

**Delisay**. Əlbəttə, madam! Dövran Datunun atasıdır!

**Ceyran.** Dotu kimdi, az?

**Delisay.** Datu mənim oğlumdur! Dövranla mənim oğlum! Əminbəyli Datu Dövran oğlu. Bu payız beş yaşı tamam olur, hayıf Dövran görməyəcək o günü.

*Röya sarsılıb başını tutur və stula çökür.*

**Zəhra.** Şükür sənə, ilahi!

**Bayram.** Sən nəyə şükür eləyirsən?

**Zəhra.** Necə nəyə şükür eləyirəm? Dövran qardaşımızın yerində qalan oğlu var.

**Ceyran.** Bəs adın niyə Datı qoymusan, az, dədəmin gül kimi adı qalıb ortalıqda!

**Pirim.** Pah, gül kimi! Yox bir çiçək kimi?!

**Ceyran.** Nədi, ə, ürəyin niyə gedir?

**Pirim.** Az, uşağın adını Durmuş qoyub biyabır eləyəydilər bütün Filippində?

**Ceyran.** Durmuş adının nəyi pisdi, Pirim müəllim?

**Pirim.** Sən bilərsən, Ceyran! Camaat burada faciə oynayır, qar əriyib zibilin üstü açılıb, sən də addan yapışmısan!

**Samir.** Röya xanım, sizin bu həngamədən xəbəriniz olmayıb?

**Röya.** Sümüyüm çalmışdı, amma inanmazdım ki, Dövran mənə xəyanət eləyər, özü də kiminlə?

**Delisay.** O məni çox sevirdi, dilinizi də mənə sevə-sevə özü öyrətdi. Hər gecə mənə dərs keçirdi.

**Röya.** Harada?

**Delisay.** Mənim otağımda.

**Ceyran.** Bərəkallah! Pirim otuz ildə mənə Allahın bir ingilis dilini öyrədə bilmədi.

**Pirim.** Az, mən sənə heç Azərbaycanca öyrədə bilmədim, gəl ki ingilis ola!

**Delisay.** Dövran çox istedadlı kişiydi. Ən tupoy qadını da öyrədə bilərdi.

**Ceyran.** Kimdi, az, tupoy?

**Pirim.** Səni deyir.

**Delisay.** Biləndə ki, uşağımız olacaq... Mən ömrümdə belə sevinən, xoşbəxt olan kişi görməmişdim. O məni qucağına alıb o qədər fırlatdı ki! Sonra çarpayıya uzadıb...

**Zəhra** *(sözünü kəsir)*. Qızım, bəs indi uşaq haradadı?

**Delisay.** Sözümü, lütfən kəsməyin, maraqlısı sonra baş verdi. Mən ona uşaq istəmədiyimi dedim. Onda Döv-

ran mənə elə bir şillə vurdu ki, gözlərimdən qığılcım çıxdı. Dedi, əgər o uşağa bir şey olsa, özünü ölmüş bil, amma mən qorxurdum.

**Röya.** Sən nədən qorxurdun?

**Delisay.** Nədən? Mən sizdən qorxurdum, madam!

**Ceyran.** Yaman qorxmusan! Kişinin qızının ərini evinin içində əlindən alıb, evinin içində uşaq doğub, sonra da deyir sizdən qorxurdum.

**Delisay.** Dövran mənə dedi ki, sən mənə varis doğacaqsan, mənim nəslim davam etməlidir. Onu da dedi ki, əlbəttə mən artıq qocalmışam, ola bilər ki, Datunun böyük oğlan olacağını görmədim, amma onun və sənin gələcəyini tam təmin edəcəyəm.

**Röya.** Uşaq haradadı?

**Delisay.** Datu uzaqdadı, Filippində, anamın yanında. Dövran dedi ki, apar onu təhlükəsiz yerə. Yeddi yaşı olanda Londona göndərəcəkdi. Eybi yox, mən onun arzusunu yerinə yetirəcəyəm.

**Röya.** Hələliksə, Filippin... şələ-küləvi yığışdır rədd ol bu evdən. Bir saat vaxt verirəm sənə!

**Delisay.** Onsuz da Dövrandan sonra mən bu evdə qalmayacaqdım. Ev də tutmuşam! Mister Bayram, bu mənim vizitim *(Bayrama vizit vərəqəsini verib gedir).*

**Ceyran.** Bizimkilərə şükür!

**Bayram.** Ta mənə sualı olan yoxdur ki?!

**Röya.** Sənə sualım çoxdu, mister Bayram, amma heç birini verməyəcəm.

**Bayram.** Mən qardaşımın sirrini saxlayırdım, həm də boynuma alım ki, uşağın olmasına sevinirdim, ona görə də məmnuniyyətlə bu məsələdə iştirakçı idim. Datu bizim nəslin davamçısı olacaq, axı mənim də oğlum yoxdur.

**Röya.** Samir bəy, indi gördünmü, bu dünyada məhəbbət yoxdu deyən qadın o qədər də axmaq deyilmiş. Hər şeyin axır yeri yenə də almaq-verməkdir! Başım ağrıdı, gedim...

**Samir.** Axı, Elman siyahını başa vurmayıb.

**Röya.** Həri, bir mənim adım çıxmayıb, marağım da yoxdu.

**Elman.** Arvadım Röya xanıma əlli milyon manat və indi içində yaşadığımız villanı buraxıram.

*Hamı həsəd və təəccüblə baxır Röyaya.*
*Röyanın da üzündə təəccüb var.*

**Röya.** Hamınızı təbrik eləyirəm! Nə qədər acı olsa da etiraf etməliyik ki, bir adamın ölümü neçə adamı xoşbəxt elədi, zənginlər cərgəsinə çıxardı.

**Ceyran.** Can ay qardaş... Can ay qardaş...

*Röyanın telefonu masanın üstündə zəng çalır.*
*Röya etinasız bir əda ilə telefonu götürüb*
*ekranına baxmadan danışır.*

**Röya.** Alo! Kimdi danışan? *(Həyəcanlanır)*. Başa düşmürəm... Necə? Sən... sən... *(Tələsik telefonu söndürmək istəyir, səhvən səsucaldan düyməni basır. Telefondan gələn və nə dediyi bilinməyən boğuq kişi səsini hamı eşidir. Röya qulaqlarını tutur)*.

**Ceyran.** Buy, Allah, maa ölüm ver!

**Pirim.** Kimin səsidi o, gəlinbacı?

**Bayram.** Dövrandı? Diktafon yazısıdı?

**Zəhra.** Bissimillah!

**Samir.** Kəsin o xuliqanın səsini! *(Telefonu masanın üstündən götürür)*.

**Elman** *(onun yolunu kəsir)*. Toxunma telefona!

**Dövran** *(telefondan boğuq səs gəlir)*. Röya... mənəm, məni xilas elə, boğuluram...

**Ceyran.** Kim boğulur, Pirim? Kimdi bizə sataşan?

**Dövran** (*səsi gəlir).* Məni çıxardın buradan...

**Elman.** Bu nə axmaq zarafatdır?! (*telefonu götürür).* Alo! Alo, mən səni tutsam...

**Dövran** *(səsi gəlir)* Elman?! Elman, mənəm, Dövrandı... nəfəsim... hava yoxdu... haradayam?

**Elman.** Axı bu ola bilməz? Mən...

**Bayram.** Ver bura o telefonu, görüm zəng hansı nömrədəndir? *(Telefonu Elmandan* alır). Kimdi bizim dərdimizdən keveen düzəldən? (*Telefonun düymələrini tələsik basır).* Əclaf! Gizli nömrədən zəng eləyir.

**Elman.** Dövran da gizli nömrədən istifadə eləyərdi.

**Röya.** Mənə həmişə açıq nömrədən zəng edib.

**Zəhra.** O dünyadan geriyə yol yoxdur, amma nə bilmək olar Allahın işini?

*Telefon Bayramın əlində həyəcanlı zəng vurur.*
*Bayram diksinib telefonu əlindən salır.*

**Pirim.** Həmin nömrədirsə cavab vermə!

**Bayram** *(telefonun ekranına baxır).* Odur! Gizli nömrədir.

**Elman.** Bəlkə cavab verək?

**Zəhra.** Qoyun mən danışım, ona bir iki kəlmə söz deyim.

**Bayram** *(telefonu Zəhraya verir).* Bəli! Yox, qardaşım, Röya xanım deyil, nə sözün var mənə de... Bismillahir-rəhmanir-rəhim... Bu onun səsidi! Dövran qardaşın səsidi... *(Halı xarab olur, telefon əlindən düşür).* Bayram!..

**Bayram.** Nə danışırsan, Zəhra xanım? *(Qolundan tutub stula oturdur).* Dövranın səsi... Dövran sağdı ki? Onu bir saat qabaq basdırmadıq?

**Ceyran** *(irəli keçir).* Verin o telefonu mənə, mən qardaşımın səsini min adamın içindən tanıyaram. *(Pirim telefonu götü-*

*rüb Ceyrana verir).* Əllo! Kimdi, ə, insafsız?.. Ə, bir aydın, yavaş danış görüm kimsən, bizdən nə istəyirsən, yaramızın qanı hələ qurumayıb bizim, ay nainsaf, ay səni görüm bizim günümüzə düşəsən!.. Hay? Ceyran bacınam? Nətəər, nətəər dedin? *(Nalə çəkir).* Ay bacın ölsün sənin, Dövran!.. *(Ürəyi gedir).*

**Samir.** Axı o əclaf nə deyir ki, hamının ürəyi gedir? *(Telefonu alır).* Bura bax, sənin kim olduğunu bu saat öyrənib səni məhv eləyəcəyəm, əclaf! Tək səni yox, bütöy nəslini, padla!.. Ay oğraş *(adamlara),* üzr istəyirəm, Dövran sağdı ki, bizə telefon aça?.. Neynək, ölməmisən, bir azdan, əlimə keçəndə it kimi gəbərəcəksən! *(Telefonu söndürür).* Nə murdar adamlar var!

**Röya.** İndi nə deyirdi?

**Samir.** Mən deyirəm... Nə dediyimi eşitdiniz, təkrar eləməyəcəyəm! O da elə bir ucdan deyir çıxardın məni buradan, havam çatmır.

**Zəhra.** Əstəğfürullah!

**Bayram.** Lənət şeytana! Öz əlimlə qəbirə qoyub gəlməsəm, həqiqətən elə bilərdim Dövrandı.

**Ceyran** *(ayılır).* Bayram, dədəmin goru haqqı Dövranın səsiydi! *(Ağlayır).* Nətəər Ceyran bacım dedisə, ürəyim getdi...

**Pirim.** Sarsaqlama, Ceyran! İndi o qədər parodiya eləyən artist var ki?! Görməsən elə bilərsən ki, danışan elə Hacıbala müəllimin özüdü. O gün görmədin konsertdə?

**Bayram.** Axı bizi kim dolasın, nəyə görə dolasın? Kimin toyuğuna kiş demişik biz? Düşməndisə, bu nə cür düşmənçilikdi, nə cür qisasdır?

**Samir**. Qəribədir, o əclaf məni də tanıdı, adımı çəkdi.

**Ceyran.** Ə, bəlkə, elə Dövran özüdü?

**Pirim.** Məni qınayan, atana lənət! Az, Ceyran, Dövran sağdı ki, telefonla zəng eləsin? Qəbirdə telefon var?

**Röya** (*diksinir*)**.** Elman?! Dövranın telefonu hanı, mən sizə vermişdim?

**Elman.** Telefon? Aman! (*əlini alnına şappıldadır*). Telefon...

**Röya.** Elman, Dövranın qızıl korpuslu telefonunu soruşuram.

**Elman.** Məndəydi telefon, amma...

**Samir.** Nə amma?

**Elman.** Molla nəsə oxuyanda dedi ki, mərhumun yaxın adamlarından biri qəbirə düşməlidi, gördüm tərpənən yoxdu, mən düşdüm qəbirə, meyitin üstünə əyiləndə telefon döş cibimdən sürüşüb düşdü Dövranın lap üzünə.

**Bayram.** Bəs sonra nə oldu?

**Elman.** Sonra mollanın yuxarıdan gələn göstərişlərini yerinə yetirdim... Sonra da çıxdım qəbirdən, telefon heç yadıma düşmədi.

**Bayram.** Telefon qaldı qəbirdə?

**Pirim.** Necə? Qızıl korpuslu, brilyant qaşlı telefonu qoydun qaldı qəbirdə?

**Elman.** Yadıma düşəndə ki, telefonu orada unutdum, artıq gecdi, qəbri torpaqlamışdılar.

**Samir.** Biz bu nağıla inanmalıyıq?

**Elman.** Sən inanmaya da bilərsən, amma bu faktdır.

**Röya.** Sənin məntiqindən belə çıxır ki, Dövran o telefondan zəng eləyir?

**Elman.** Məntiqlə elə çıxır, amma indi bu söhbətlərin yeri deyil, biz tələsməliyik.

*Telefon zəng çalır, amma bu Röyanın telefonu deyil.*
*Hamı bir-birinə baxır. Səs Elmanın cibindən gəlir.*

**Elman** *(tələsik və həyəcanla əlləri əsə-əsə cibində telefonunu axtarır, nəhayət telefonu çıxardıb dərhal ekrana baxır və az qala qışqırır).* Həmin adamdır!

**Samir.** Nədən bildin?

**Elman.** Gizli nömrədir!

**Bayram.** Cavab ver!

**Elman** *(titrək səslə)* Alo! Alo, eşidirəm... Alo... *(Bayrama)* Danışa bilmir, nəfəsi xırıldayır, səsi çıxmır... *(Qışqırır).* Dövran! Dövran, sənsən?.. Danış, Dövran... Gəlirəm, bu saat, qardaşım, gəlirəm...

**Bayram.** Hara gedirsən, Elman, nə dedi o? Kimdi danışan?

**Elman.** Danışa bilmədi, deyəsən nəfəsi çatmır, amma şübhə yoxdu ki, zəng eləyən Dövrandı.

**Röya.** Nə demək istəyirsən, Elman?

**Elman.** Gecikmək olmaz , o təzədən ölə bilər!

**Pirim.** Elman, sən dəli olmusan? Biz Dövranı diri-diri basdırmışıq?

**Elman.** Belə şey olur, tok vurmuş adam ayıla da bilir.

**Samir.** Sən dəli olmusan? Bu mümkün olan işdi?

**Zəhra.** Hər şey Allahın əlindədir.

**Samir.** Axı bir sutka keçib ölümündən, bir saatdan çoxdu adam qəbirdədir, havasız, işıqsız yerdə.

**Ceyran.** Can, ay qardaş! *(Əllərini dizinə çırpır).*

**Elman.** Müzakirə vaxtı deyil, Bayram... Mən gedirəm, onu xilas eləməliyəm.

**Röya.** Dayan, Elman! İndi deyirsən Dövran xortlayıb?

**Elman.** Niyə xortlayıb, şokdan ayılıb da!

**Pirim.** Nə fərqi var? Ölünün dirilməyi elə xortlamaqdı da!

**Ceyran.** Allah, uzaq elə bizi bu biabırçılıqdan!

**Elman.** Biabırçılıq niyə, xanım, bu xoşbəxtlik olardı!

**Bayram.** Bu nə danışır? Elman, şəhərin bütün sayılan-seçilən kişiləri Dövranın dəfnində iştirak eləyib, o boyda qəzetdə başsağlığı üçün yer qalmayıb, indi sən deyirsən Dövran dirilib qəbirdən qalxıb? Dövran xortlayıb? Bəs bu biabırçılıq deyil, nədi?

**Ceyran.** Xortlasın bizi istəməyənlər! Bizim kişilər həmişə abırlı ölüb! Dədəm Durmuş, maşallah, elə gözəl can verdi ki!

**Elman.** Siz nə deyirsiniz deyin, mən onu xilas eləməliyəm (Getmək istəyir).

**Bayram.** Dayan! Dövranın qardaşı, bacısı, halalca arvadı...

**Pirim.** Yeznəsi, gülbacısı...

**Bayram.** Burada dura-dura, sən xilas eləyəcəksən onu? Sən mənim qardaşımın qəbrini eşəcəksən? Bunun cinayət olduğunu bilmirsən? Sən Dövrana dost idin, o sağ olanda. Öldü, dostluq da bitdi! Payını da almısan artıqlaması ilə! Yeri Allahına şükür elə! Əslində o on milyonu Dövran bizim payımızdan kəsib verib sənə. O on milyona sənin heç bir hüquqi haqqın yoxdu.

**Elman.** Başa düşün, mənə heç nə lazım deyil, on milyonu da istəmirəm, mən onu xilas eləməliyəm, bu mənim vicdan borcumdur *(Getmək istəyir).*

**Samir** (*onu saxlayır*). Ə, sən haranın tulasısan ki, gedib mənim əmoğlumun qəbrini eşəsən?

**Pirim.** A bala, kiminsə axmaq zarafatına görə özünə iş açma! Buna kriminal əməl deyərlər. Ya da səni dəli hesab eləyəcəklər.

**Röya.** Elman, sizin ixtiyarınız yoxdur! Mənim ərimin qəbrini açmaq istəyən adamla polis məşğul olacaq.

**Elman.** Axı o orada ölür, boğulur! Siz buna necə dözürsünüz? Sizdə bu qəddarlıq haradandır.

**Ceyran.** Can, ay qardaş!

**Bayram.** Gör nə nağd eləyib? Alə, bir ağlıva vur də! İki metr torpaq altda olan meyit ayılıb telefon açır? O, ayılsa da heç bilməyəcək ki, haradadır? Yoxsa ona deyən olub ki, səni tok vurub ölmüsən, indi qəbirdəsən... Nəfəsim darıxdı! *(Yaxasını hirslə açır).* Bağlayın bu söhbəti, biabır eləməyin özünüzü! Hamıya aiddir, bir daş altda, bir daş üstdə. Yox bir, Bayram Əminbəylinin qardaşı xortlayıb!

**Ceyran.** İraq olsun, iraq olsun! Dövran kimi oğula xortlamaq yaraşar?!

**Röya** *(pıçıldayır).* Xortlamış adamla bir evdə yaşamaq olar? Hələ demirəm... ətim ürpəşdi.

*Bayramın telefonu zəng çalır. Bayram diksinir. Hamının nigaran baxışları altında telefonunu çıxardıb ekranına baxır və tez də düyməsini basıb yenə də cibinə qoyur. Ceyranın telefonu zəng eləyir.*

**Ceyran.** Bissimillah! *(Telefonunu çıxardıb Pirimə verir).* Mən açkisiz görmürəm.

**Pirim** *(telefonu alıb ekranına baxır).* Boş şeydi! *(Telefonu söndürüb cibinə qoyur).*

*Elman yavaş-yavaş çıxışa tərəf yönəlir.*
*Samir onun qabağını kəsir.*

**Elman.** Samir, mən dustağam?

**Bayram.** Mən icazə verməyincə heç kəs buranı tərk eləyə bilməz!

**Pirim.** Mən heç yerə gedən deyiləm!

**Elman.** Bu nə deməkdi, Bayram?

**Bayram.** Dəlinin yeri dəlixanadır!

**Elman.** Mənəm dəli?

**Bayram.** Ölən adamın qəbirdən telefon eləyib "məni xilas edin" deməsini iddia eləyən adama kim ağıllı deyər? Heç kim! Deməli, bu iddiada olan adam dəlidir! Dəlinin yeri isə dəlixanadır. Səni ora göndərmək mənim əlimdə su içmək kimi bir şeydir. Yox, əgər sən, həqiqətən də dəlilik eləyib qardaşımın qəbrini açmaq istəsən bil ki, yerin həbsxanadır, sən qardaşımın qəbirində unutduğun qızıl korpuslu eksklüziv telefonu oğurlamaq istəmisən. Bunun üçün qəbri təhqir etməkdən də çəkinməmisən. İndi gedə bilərsən. Samir, mane olma, qoy getsin!

**Samir.** Bayram əmoğlu, bəlkə bir gün saxlayaq ağlı gəlsin başına?

**Bayram.** Ehtiyac yoxdu, o elə də axmaq deyil.

*Qəfil partlayış səsi eşidilir, işıqlar sönür.*
*Səhnə tam qaranlıqdır.*

**Zəhra.**Bismillahir-rəhmanir-rəhim...! Tokdursa işiniz olmasın!

**Ceyran.** Pirim, dəymə, mantyor çağırın!

**Röya** *(qışqırır)*. Dövran?!

*Röyanın qışqırması ilə səhnə bir balaca işıqlanır. Bu işığın mənbəyi səhnənin dibində ağaran geniş pəncərədir. Pəncərədə kəfənə bürünmüş insan fiqurunun silueti görünür. Bu Dövrandır. Hamı sarsılmış vəziyyətdə ona baxır. Qorxudan heç kəs yerindən tərpənmir. Dövran da nə tərpənir, nə bir səs çıxardır. Lal səhnə bir müddət davam edir və birdən Dövran pəncərəni qəribə bir güclə vurub sındırır. Çiliklənib ətrafa səpələnən şüşələr içərisindən keçib yavaş və gərgin addımlarla donub qalmış qohumların*

*qarşısından keçir. Masa üzərində vəsiyyətnaməni görəndə dayanır. Yavaşca əyilib kağızı götürür, bir anlığa onu nəzərdən keçirir, sonra heç kimə baxmadan kağızı parça-parça edir. Səsini çıxarmağa cəsarət etməyən qohumlardan inilti ilə ahın qarışığından ibarət əzablı bir səs çıxır. Dövran heç nəyə fikir vermədən parça-parça elədiyi kağızı göyə sovurur. İşıq yavaş-yavaş sönür.*

*İşıqlar sönür.*

*Pərdə*

SON

*Avqust 2014-cü il*

# MÜNDƏRİCAT

İslam Qəribli. Xarakterlər dramaturgiyası.................... 3
Pyeslərdən ........................................................................ 33
Gəncə qapıları ................................................................... 35
Pənah xan Cavanşir .......................................................... 83
Xəcalət ............................................................................ 159
Vicdanın hökmü ............................................................. 205
Ləyaqət .......................................................................... 245
Cəza quyusu .................................................................. 307
Miras .............................................................................. 365
Axirətdən gələn zəng ..................................................... 425

*Hüseynbala Mirələmov*

# *Pyeslər*

Nəşriyyat redaktoru:
Suğra Osmanova

Dizayn və texniki tərtibat:
Rauf Kərimli

Səhifəyici:
Sədaqət Kərimova

Yığılmağa verilmişdir: 09.09.2014
Çapa imzalanmışdır: 04.04.2015
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 30,5
Sifariş: 025/15. Sayı: 1000 ədəd.

**NURLAR**
**NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ**

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com